
ELMƏDDİN ƏLİBƏYZADƏ

AZƏRBAYCAN DİLİNİN TARİXİ

BİRİNCİ CİLD



ELMƏDDİN ƏLİBƏYZADƏ

AZƏRBAYCAN DİLİNİN TARİXİ

(İKİ CİLDDƏ)

BİRİNCİ CİLD

AZƏRBAYCAN TƏRCÜMƏ MƏRKƏZİ
Bakı - 2007

Elmi redaktorlar:

Filologiya elmləri doktoru, prof. **F.R.Zeynalov**
Filologiya elmləri doktoru, prof. **Y.Seyidov**
Filologiya elmləri namizədi **A.Məmmədov**

Rəyçilər:

1. AMEA müxbir üzvü t.e.d., prof. **Mahmud İsmayılov**
2. Filologiya elmləri doktoru, prof. **F.R.Zeynalov**
3. Filologiya elmləri doktoru, prof. **C.V.Qəhrəmanov**
4. Filologiya elmləri doktoru, prof. **Y.Seyidov**
5. Filologiya elmləri namizədi **A.Məmmədov**

Elməddin Əlibəyzadə.
Azərbaycan dilinin tarixi. İki cilddə (I cild). Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2007, 660 səh.

Əsərdə xalqımızın doğuluşu, soy kökü, miladdan öncəki dövrlərdə və miladi tarixdə ictimai-siyasi mövqeyi, dilinin təşəkkülü, inkişaf yolları və s. ilk qaynaqlar əsasında araşdırılır, həm türk xalqları ilə ortaq, həm də bilavasitə öz qədim tarixi öyrənilir, elmi, ədəbi abidələrin, klassik sənətkarlarımızın dili və üslubu tədqiq edilir.

Əsərdə Azərbaycan xalqının, onun dilinin başlanğıcı araşdırılır, ilkin qaynaqlarına, təxminən, 40-50 min illik bir dövrə nəzər yetirilir. Xalqın soy kökü, bir xalq kimi formalaşması, dillə bağlı olduğundan, Azərbaycan xalqının təşəkkülü onun dililə vəhdətdə götürülür və xalqın inkişafı məsələlərinə yetərincə yer verilir, dilinin inkişaf tarixi öyrənilir.

Kitabın I cildi qədim, II cildi klassik dövrü əhatə edir, hər iki cildə aid geniş "Ümumi giriş sözü" verilir; burada, xüsusilə, klassik dövr nəzəri istiqamətdə işıqlandırılır, ədəbi şəxsiyyətlərin dili, üslubu məsələləri qoyulur və ön plana çəkilir; əslində, II cild bu yöndə yazılıb.

***

İkicildlik geniş müzakirə olunub, bəyənilib, elmi redaktə edilib; o vaxtdan 25 il keçir. AMEA öz məhsuluna yaxın durmur ki, durmur...

Xeyirxahlıq Tanrı buyruğudur; varını-dövlətini insanlığın xilasına qurban vermiş Nuh peyğəmbərdən qalıb.

"Dünya xali deyil". Millətin bu ənənəni davam və inkişaf etdirən qeyrətli, qayğıkeş, vətənpərvər oğulları az deyil. Müəllif ikicildliyin çapi, işıq üzü görməsinə maddi və mənəvi dayuq vermiş "Dübəndi" firmasının təsisçiləri Hacı Vüqar Südef oğluna, Rəsulov Sərdar Muxtar oğluna və inşaatçı-mühəndis Vəliyev Yusif Sultan oğluna öz dərin minnətdarlığını və təşəkkürünü bildirir.

Tanrı onları qorusun!

E 470000000 / 028-2007 **Sifarişli nəşr** **Az2**

ISBN 5-7220-0432-4

© Azərbaycan Tərcümə Mərkəzi

Bakı – 2007

Bu kitabı, onun ilk rəyçisi və elmi redaktoru, türkoloq alim, filologiya elmləri doktoru, prof. Fərhad Ramazan oğlu Zeynalovun parlaq ruhuna ithaf edirəm

Е.М. ЭЛИБӘЈЗӘДӘ

АЗӘРБАЈЧАН ДИЛИ ТАРИХИ

/Үч чилддә/

Бакы - 1982

MÜƏLLİFDƏN

1950-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxuyarkən, "Azərbaycan dilinin tarixi" kursu keçilmirdi, belə bir fənnin ancaq adı vardı...

Universiteti bitirdikdən sonra Nəsimi adına Dilçilik İnstitutunda aspiranturaya daxil oldum. "C.Məmmədquluzadənin Azərbaycan dilinin saflığı və müstəqil inkişafı uğrunda mübarizədə rolu" mövzusunda tədqiqat işi apardım, namizədlik dissertasiyası yazıb müdafiə etdim. Universitetə və orada mənə dərs deyən müəllimlərimə hədsiz hörmət və ehtiramım var, onlar xatirimdən heç vaxt silinməyəcəklər. Mənim ikinci universitetim C.Məmmədquluzadə, onun zəngin, çoxcəhətli və qeyrətli yaradıcılığı oldu. Böyük Mirzə Cəlil mənə daha çox şey öyrətdi, qarşımda tədqiqatın geniş üfüqlərini açdı, mənə yeni mənəvi qüvvə, oturmaq səbri, tarixi arayıb-araşdırmaq həvəsi verdi. Bu yeni mənəvi qüvvə məni çox qədimlərə aparıb çıxartdı, xalqımızın dil mədəniyyəti tarixini tədqiq etməyə, öyrənməyə doğru yönəltdi... Bu işə ömrümün 30 ili sərf olundu. Əsər tamamlandı, rəylərə göndərildi, müsbət rəylər alındı; yenidən geniş müzakirə olundu, bəyənildi, yüksək qiymətləndirildi, çapına qərar verildi. Həmin sənəd budur:

Азербайчан ССР Еа Пəсими адына Дилчилик
Институтунун 1984-чү ил 7 мај тарихдəки
Өдəбиjjат,Дил вə Инчəсəнəт Бөлмəси илə бир-
ликдə кечирдиjи хüсуси ичласын протокулундан

ЧЫХАРЫЛЫШ

Вилаjəтi ф.е.н.В.Əлибəjлинин "Азərбаjчан дили тарихи" əсəрлəринин нүсхəлəри/бирinчи вə икинчи чилдлəр/.

ГƏРАРЫ:Əсəр бəjəнилəрəк вə 2 чилдлəн ибарəт чап кетмəси мəсəлəси гаршысында.

Ejни заманда,əсəрин "Мəлуматлар" вə "Jазычы" нəшриjjатларында чап үчүн мүəллифə кəнар едилсин.

Бəнд üчүнүн сəдрi: акад.М.Ш.Ширəлиjев

Катиб: Б.Бəрхударов

Bu əsasda Azərbaycan SSR EA Ədəbiyyat, dil və incəsənət bölməsi (1984-cü il 30 may 1 №-li protokol) ikicildliyi "Elm" nəşriyyatına çapa təqdim etmişdir.

Budur, bu da həmin protokoldan çıxarış:

Азәрбајҹан ССР ЕА Әдәбијјат, дил вә инчәсәнәт бөлмәсинин 30 март тарихли, 15-ли протоколундан

ЧЫХАРЫШ

Ешидилди: ф.е.н. Е.К.Әлисәјзадәнин "Азәрбајҹан дили тарихи(гәдим дөвр)", Iчилд әсәринин нәшријјата тәгдим едилмәси һаггында

Гәрар: Азәрбајҹан ССР ЕА Нәсими адына Дилчилик Институтунун 1984-чү ил 7 мај тарихдә әдәбијјат, дил вә инчәсәнәт бөлмәсилә бирликдә кечирдији мүзакирә әсасында мүәјјән едилди ки, һәмин мөвзуда ф.е.д. проф. Ф.Р.Сејидов вә ф.е.н. Ајдын Кәримовун әсәрин елми редакторлары, Азәрб.ССР ЕА мүхбир үзвү т.е.д. проф.Камил Иса јев вә ф.е.д.проф. Ч.Б.Гәһрәмановун әсәрә вердикләри мүсбәт рә'јләр тәсдиг олунсун. Бунлары әсас тутараг Е.К.Әлисәјзадәнин "Азәрбајҹан дили тарихи (гәдим дөвр)", I чилд әсәри "Елм" нәшријјатына тәгдим едилсин.

Сәдр: Ф.Сејидов

Катиб: А.Кәримов

Әсли илә дүздүр:

Bu "qərarlar" əsasında ikicildlik Akademiyanın "Elm" nəşriyyatının dalbadal 1987, 1988, 1989-cu illər üçün dövlət planına da salındı. Lakin hər vasitə ilə çapına maneə törədildi. Səbəb kimi guya nəşriyyatın buna texniki imkanının olmaması göstərildi. Amma səbəb bu deyildi, tamam başqa idi...

ÜMUMİ GİRİŞ SÖZÜ:

TARİX, ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİL

"Dil böyük sənətkarların şahanə yürüşündən ehtizaza gəlir"
(Viktor Hüqo)

İnsanın şüurla bağlı dilini, nitqini əvəz edə və ya ona bərabər ola biləcək ikinci bir mənəvi keyfiyyətini təsəvvür etmək çətindir.

Dil hər bir fərdin, ümumilikdə isə xalqın mövcudluğunu şərtləndirir, onu bəşər mədəniyyətinə qoşur, qovuşdurur. Məhz dil xalqın indiyədək fəth etdiyi və gələcəkdə də fəth edəcəyi mənəvi sərvətlərinin ilki, başlanğıcı və çıxış nöqtəsidir. Bu mənada dili bəşər həyatının klassikası, ilk "klassik əsəri" adlandırmaq olar.

Ümumbəşər mədəniyyətinin, insanın mənəvi sərvətlərinin ölməz nümunələri içərisində dil abidələri mühüm yer tutur. Qədim Şumer oxşəkilli və "Qlozel", "İssiq" abidələri, "Orxon-Yenisey" əlifba yazıları, "Dədə-Qorqud kitabı", "Divanü lüğat-it-türk" əsəri türk xalqlarının qədim tarixi, ictimai, bədii və elmi təfəkkürü, adət-ənənə, ədəb-ərkan, nitq-danışıq, yazı mədəniyyəti və s. kimi mənəvi keyfiyyətlərini mühafizə edib saxlamış, əsrlərdən əsrlərə, nəsillərdən-nəsillərə çatdırmışdır. Bu kitabələr elə nəhəng, elə əzəmətli, elə zəngin və çoxcəhətlidir ki, bütün dünyanın nəzərini özünə cəlb edir; çünki türk xalqlarının ölməzlik və əbədiyyət nümunəsidir, klassikadır; daha dürüst desək, klassikanın başlanğıcı, bünövrəsi,

təməlidir. Məhz "klassik dövr" birdən-birə yaranmır, möhkəm özül, zəmin üzərində inkişaf edir, kamilləşir.

Başlanğıc dərin, bünövrə möhkəm olub; təməl güclü qoyulmuşdu. Bu başlanğıc, bu bünövrə, bu təməl məhz görkəmli söz ustaları və ədəbi şəxsiyyətlərimizin zəngin irsini yaratdı. "Dədə-Qorqud dastanları" yarandı, Əlinin anadilli "Qisseyi-Yusif"i, Həsənoğlunun, Qazi Bürhanəddinin əsərləri yazıldı, Nəsimi poetikası, Kişvəri söz dünyası üçün bunlar möhkəm bünövrə oldu; dildə-üslubda Füzuli keyfiyyəti, Füzuli özünəməxsusluğu formalaşdı...

Azərbaycan dilinin tarixini tədqiq edərkən hər dövrdə qarşıya məhz folklor, ədəbi şəxsiyyətlər və dillə bağlı mühüm problemlər çıxır ki, bu məsələlər üzərində dayanaq.

1. AZƏRBAYCAN DİLİNİN TÜRK DİLLƏRİ AİLƏSİNDƏ YERİ

Dünya dilləri sırasında türk dillərinin öz yeri var. Bu barədə ümumi elmi qənaət belədir: "Dünya dilləri, məlum olduğu kimi, iki prinsip əsasında dil ailələrinə bölünür. Bu prinsiplərdən biri dillərin morfoloji quruluşuna, yəni sözün kök və şəkilçilərinin vəziyyətinə, digəri isə dillərin genealoji əlamətlərinə - maddi qohumluğuna əsaslanır. Bu əlamətlərinə əsasən dünya dilləri hind-Avropa dilləri, ami və hami dilləri, uqro-fin dilləri, monqol dilləri, Çin və Dravid dilləri, İber-Qafqaz dilləri, Malay-polinez dilləri, Afrika və Amerika xalqlarının dilləri, türk dilləri və s. kimi dil ailələrində birləşir". (*51*, s.5).

Azərbaycan xalqının, onun dilinin tarixini qədim türkdilli xalqların və onların dilinin tarixindən təcrid edilmiş şəkildə qavramaq səhv olardı. Qədim dövrlərə doğru getdikcə, ortaq dil ünsürləri də artır, ümummilli keyfiyyətlər üstünlük təşkil edir. Bir çox xalqlar tarixin bu inkişaf mərhələlərini keçib gəlmiş və müasir qohum xalqlar, qohum dillər yaranmış, təşəkkül tapmışdı. Müasir roman,

german dilləri və başqalarının da yaranması, təşəkkülü, təxminən, belə olmuşdur. "Türkdilli xalqların, eləcə də onların dillərinin əmələ gəlməsinin çox qədim və zəngin bir tarixi var. Hələ eramızdan çox-çox əvvəl eyni kökdən nəşət edən onlarla qəbilə, tayfa birlikləri ayrılmalar, birləşmələr və yenə də ayrılmalar nəticəsində əvvəlcə böyük, bir-birilə qohum dil ailələrinin, sonra isə müasir türk dillərinin əmələ gəlməsini, inkişafını və ədəbi dillər kimi formalaşmasını şərtləndirmişdir" (*51*, s.5).

Ümum türkologiya ədəbiyyatından fərqli olaraq, Azərbaycan dilçiliyində "türk dili", "türk dilləri ailəsi" və ya "türk dilləri", "türk dilli xalqlar" kimi istilahlar işlədilir.

Maraqlıdır ki, bu istilahlar qədim türk dillərinin məşhur tədqiqatçısı P.M.Melioranskinin nöqteyi-nəzərinə də tam uyğun gəlir. P.M.Melioranski o alimlərin tərəfində dururdu ki, onlar "turok", "tyurk" istilahlarının hər ikisini işlətməyi lazım bilmirdilər; onun fikrincə, "hər cür slavyanlar (ruslar, bolqarlar, çexlər, polyaklar və b.) slavyan adlandığı kimi, bu hüquqla bütün türkdilli xalqlar və tayfalar da birləşdirici "turok" - "türk" adını daşıya bilərlər" (*219*, s.159).

Türk dillərinin bölgüsü, qruplaşdırılması barədə fikirlər müxtəlifdir. P.M.Melioranski yazır ki, "*Müasir* türk ləhcələrinin ən yaxşı xarakteristikasını və bölgüsünü akad. V.V.Radlov vermişdir. O, türk dillərini şərqi, qərbi, Orta Asiya və cənubi hissələrə ayırır" (*219*, s. 159).

S.Y.Malov türk dillərini tarixi baxımdan bu bölgü üzrə qruplaşdırır:

"a) *ən qədim türk dilləri:* bulqar, uyqur (sarı uyqurlar), çuvaş, yakut;

b) *qədim türk dilləri:* "oğuz" (qədim türk-run yazılı abidələrinin dili), tofalar, tuva, uyqur (qədim uyqur yazılı abidələrinin dili), xakas, şor;

c) *yeni türk dilləri:* Azərbaycan, qaqauz, kumandin, qıpcaq, peçeneq, polovets, salar, türk, türkmən, uyqur (Çin və ya Şərqi-Türküstan uyqurları), özbək, cığatay, çulım;

ç) *ən yeni türk dilləri:* başqırd, qazax, qaraqalpaq, qırğız, qumıq, noqay, oyrot (dağlıq Altay), tatar (Kazan, Qasımov, Mişar, qərbi Sibir), (çuvaş), (yakut)" (*207*, s.3,6-7).

N.A.Baskakov Azərbaycan dilini – türk dillərinin qərbi Hun qolunun oğuz qrupuna aid edir. O, Azərbaycan, türkmən, truxmən, qaqauz və türk-osmanlı dillərindən müasir oğuz dilləri kimi danışır (*119*, s.103-142).

Bu bölgülər, əlbəttə, təxminidir. Burada mübahisəyə girişmək də olar. Bizim isə belə bir niyyətimiz yoxdur. Lakin alimlərin özlərinin etiraf etdiyi müəyyən fikirlərə diqqəti cəlb etmək istərdik.

S.Y.Malov yazır: "Qərbi türk dilləri ilkinliyinə (uğursuz istilahdır) görə özlərinin ən qədim Şərqi əsillərindən o qədər də gənc deyildir" (*207*, s.6).

Maraqlıdır, tədqiqatçı çuvaş və yakut dillərini həm "ən qədim", həm də "ən yeni" türk dilləri bölgüsündə verir. Bu qayda ilə Azərbaycan dilini də həm "qədim", hətta "ən qədim", həm də "yeni" türk dilləri qrupuna daxil etmək mümkündür. Müasir dilimizin izlərinin qədim türk yazılarında *güclü əks olunması baxımından* Azərbaycan dilini "qədim" və ya "ən qədim" türk dilləri qrupuna, *dilin, xalqın və ərazinin adı ilə adlanması baxımından* isə "yeni" türk dilləri qrupuna daxil etmək olar. Bu fikri digər bir tədqiqatçının rəyi də təsdiq edir. N.A.Baskakov yazır: "bütün müasir oğuz dilləri mənşələrinə görə X-XI əsr oğuzlarının dillərilə əlaqədardır ki, bu da, öz növbəsində, mənşəcə qədim oğuz dilinə, yəni Yenisey-Orxon kitabələrinin dilinə gedib çıxır" (*119*, s.121).

"Türkologiyanın əsasları" kitabında "türk dillərinin təsnifi"nə ayrıca fəsil verilmiş və məsələ geniş şəkildə həllini tapmışdır" (*51*, s.58-69).

Deyilənlərdən, hələlik, bu nəticələr alınır:

1. "Oğuz dili qədim türk yazılı abidələrinin dili"dir;

2. Azərbaycan dili "müasir oğuz dilləri qrupuna" daxildir; o, "ilkinliyinə görə" özünün "ən qədim şərqi əsillərindən o qədər də gənc deyildir";

3. Deməli, *qədim türk yazılı abidələrinin dili, eyni zamanda, qədim Azərbaycan dilidir.*

Buna görə də, hər iki alimin fikrinə - bölgüsünə hörmət etməklə, Azərbaycan dilini bir mənada "ən qədim" türk dilləri, digər mənada isə "yeni" və "müasir oğuz dilləri" qrupuna daxil edirik.

2. DİL FAKTI ÇOX BÖYÜK QÜVVƏDİR

Bəşər mədəniyyətinin bütün sahələri kimi dil də tarixən yaranmışdır. Mədəniyyətin elə bir sahəsi yoxdur ki, onun inkişaf amillərini dil qədər dəqiq təyin edə bilsin. Xalqın tarixini, onun dilinin tarixini öyrənmək, tədqiq etmək üçün də dil faktını əvəz edə biləcək bir amil təsəvvür etmək çətindir. Xalqın tarixi onun dilinin tarixi ilə üzvi şəkildə bağlıdır; başqa sözlə, xalqın tarixi onun dilinin tarixi ilə başlanır.

Əgər "dil tədqiqatının əsl obyekti dil ümumiliyinə mənsub olan bütün fərdlərin nitq fəaliyyətinin qarşılıqlı əlaqələrinin məcmuudur"sa, (*229*, s. 46), onda hər bir tarixi dövrün, mərhələnin dilini öyrənmək, tədqiq etmək üçün nə etmək, nədən başlamaq lazımdır? Dil *ümumiliyinin* bütün fərdləri artıq yoxdur, dünyadan köçüb getmişdir, ancaq bəzi abidələr, folklor materialı və ədəbi şəxsiyyətlərin ya əlyazmaları, ya da çap olunmuş əsərləri və s. qalmışdır. Həqiqətən, xalqın, onun mədəniyyətinin inkişafı tarixində elə ictimai-ədəbi simalar yetişir ki, onlar, bəlkə də, bütöv bir nəslin gördüyündən daha artıq iş görmüş olur və öz dühası ilə əbədiyyət yaradır; "dil ümumiliyinə mənsub olan fərdlərin nitq-danışıq fəaliyyətini" qələmə alıb əbədiləşdirir və özləri də əbədiyyətə qovuşur, ölməzlər sırasına keçirlər. Siseronun "latın dilinin atası", Lyuterin "alman ədəbi dilinin yaradıcısı" (*124*, s.170) adlandırılması əbəs deyildir.

Belə isə, onda hər hansı bir görkəmli yazıçı, ədəbi şəxsiyyət, əgər onun yaradıcılıq fəaliyyəti geniş və hərtərəflidirsə, dil tədqiqatının obyekti olmaq etibarilə xüsusi diqqət və əhəmiyyət kəsb edir. Çünki onun əsərlərində "fərdlərin" dilinin, nitq fəaliyyətinin qarşılıqlı əlaqələri cəmləşmiş olur; həm də bu əlaqələrin məcmuu, əksərən,

nümunəvi şəkildə özünü göstərir. Buna görə görkəmli yazıçının, ədəbi şəxsiyyətin dilində *bütöv bir dövrün, mərhələnin* dil xüsusiyyətləri, dilin inkişaf mənzərəsi barədə *tam təsəvvür* əldə etmək mümkündür. İrəlidə bu məsələdən ayrıca bəhs olunacaqdır; buna görə fikrin istiqamətini bir qədər başqa səmtə yönəldək.

Bu dediklərimiz yaxın dövrlərə, orta əsrlər və ondan bir az əvvəllərə aiddir. Lakin daha qədimlərə, eramızdan əvvəlki dövrlərə doğru getdikcə, mədəniyyət abidələri də seyrəlir; tarixin tufanları olan-qalanı da məhv edib sıradan çıxarır, süpürüb aparır. Belə hallarda bizim dadımıza "tarixi həqiqətlərin ölməzliyi" deyilən bir qüvvə çatır.

XVIII əsrdə "Dədə Qorqud kitabı" kimi sənət incisi meydana çıxdı. Keçən əsrin sonlarında Sibir tayqasında qərq olmuş qədim "Orxon-Yenisey" yazıları aşkar edildi; yenə həmin əsrdə Mahmud Kaşğarlının "Divanü lüğat-it-türk" ("Türk dilləri qamusu") elmi əsəri tapıldı. "Kitab" öyrənilməyə, yazılar oxunmağa, "Divan" tədqiq olunmağa başladı. Kitabələr dilə gəldi. Nə qədər tarixi həqiqətlər aşkar oldu, nə qədər açılmamış səhifələr açıldı, nə qədər təxminlər, ehtimallar, qeyri-elmi fikirlər alt-üst oldu; "hələ XIX əsrdə bəşəriyyət "Orxon-Yenisey" yazısının mövcud olmasından xəbərsiz idi və ancaq XX əsrin əvvəllərində qədim run yazısı deyilən abidələrin tapılmasından sonra türklərin vəhşi, yazısız bir xalq olması barədə mövhumi rəylərə ilk zərbə endirilmiş oldu" (*252*). Türkdilli xalqlar zəngin mədəniyyətə: dilə, yazıya, ədəbiyyata, elmə malik qədim xalqlar kimi dünyaya yenidən təqdim olunmağa başladı...

Bununla belə, "Orxon-Yenisey" kitabələri və türk xalqlarının tarixi, türk ədəbiyyatları, türk poetik fikir tarixi, qədim türk yazısının əsası, əsl mənşəyi və s. məsələlərində hələ də çoxlu ziddiyyətli müddəalar, fikir müxtəlifликləri vardır. Bu isə, təbii olaraq, türkoloqların nəzərini yeni məsələlərə doğru yönəldir. Hələ əsrimizin əvvəllərində F.U.Korş bu kitabələrin poetik əsərlər olduğunu söyləmiş, poetik dil və üslubda yazıldığı qənaətinə gəlmişdir (*197*, s.139). Bu fikri davam və inkişaf etdirərək İ.V.Stebleva kitabələri poetik əsər-

lər kimi tədqiq etmiş və qarşıya bir sıra problemli suallar qoymuşdur: "Orxon-Yenisey" yazılarının xarakterinə dair elmi ədəbiyyatdakı fikir müxtəlifliyi bütün ciddiyyətilə suallar yaradır. Birinci sual: həqiqətən bu yazıları poetik əsərlər adlandırmaq olarmı və əgər olarsa, VI-VIII əsrlər türk poeziyasının formal ölçüləri, əslində hansılardır? Və ikinci sual: "Orxon-Yenisey" mətnləri ədəbi-bədii əsərlərdirmi, onlarda hər hansı bir janrın əlamətlərini aşkar etmək olarmı? Bu sualların həlli, görünür, türk ədəbiyyatları nəzəriyyəsindəki mövcud türkdilli və ərəb-fars dilli ədəbiyyatların qarşılıqlı əlaqələrinin vəziyyəti barədə, türkdilli klassik ədəbiyyatlarda bir sıra poetik janrların mənşəyi barədə, həmçinin folklor formalı şerin inkişafı barədə bir qədər başqa cür düşünməyi tələb edir" (*248*, s.5).

Bu fikirlərdə türkdilli xalqların mədəniyyət tarixinə yeni baxış vardır, burada məsələnin qoyuluşu təzə və maraqlıdır. Bu fikir, burada qoyulan suallar, qeydsiz-şərtsiz, Azərbaycan dili (həm də ədəbiyyatı) tarixinin, xüsusilə qədim dövrü ilə məşğul olan tədqiqatçılarına aiddir; bu suallara, ilk növbədə bizim əlaqədar mütəxəssislər cavab verməlidir. "Orxon-Yenisey" kitabələrinin tarix əsərlərimi, bədii-poetik əsərlərmi olub-olmadığı məsələsinə gəlincə, yenə də nüfuzlu söz bizimdir, əsaslı elmi fikri biz deməliyik.

Əvvələn, türkoloq-alimin "Orxon-Yenisey" mətnlərinin "poetik əsərlər" olduğu qənaətinə gəlməsini onunla izah etmək olar ki, bu, çox əzəli üstünlükdür. Poetik ruh türk dillərinin təbiətindən doğur. Belə ki, sözlərin daxilindəki səslərin, hecaların incə və qalınlığına görə bir-birini izləməsi, hətta samitlərin də saitlər kimi doğuluşdan incə (yumşaq) və qalın səslərə ayrılması, bunlara uyğun olaraq da sözlərin yaranması, tarazlaşması və birləşməsi qaydalarının sabitləşməsi öz yaradılışından türk dillərinə poetik ruh vermiş; bu dillərdə yaranan nəsr əsərləri də şer kimi ahəngdar səslənmişdir. "Orxon-Yenisey" kitabələri də, "Dədə Qorqud kitabı"nın yurd hissəsi də bu üstünlüklərinə görə tədqiqatçıları özünə cəlb etmiş, düşündürmüşdür. Burada ancaq məsələnin qoyuluşu təzə və maraqlıdır.

İkincisi, "Orxon-Yenisey" mətnlərinin "poetik əsərlər" olub-olmadığı, *buna əsasən də* "türk poeziyasının formal ölçüləri", "poetik janrların mənşəyi" və "folklor formalı şerin inkişafı" barədə düşünməyə bir o qədər ehtiyac duyulmur; çünki "Orxon-Yenisey" mətnləri bir yana, bu məsələlərin aydınlaşması və həllinə "Dədə Qorqud kitabı" və oradakı zəngin folklor materialı, habelə Mahmud Kaşğarlının "Divan"ındakı folklor materialı - ağızlardan toplayıb əsərinə daxil etdiyi və çox qədim zamanların bədii-estetik məhsulu olan yüzlərcə əsər - varsağılar, qəhrəmanlıq, mərdlik, vuruş-döyüş mahnıları və s. tam əsas verir. Bunları hazır mətnlər içərisindən seçib ayırmaq, "kəşf" etmək türkoloq-alimin qarşıya qoyduğu suallara cavab verə bilər və bu bizim dilçi və ədəbiyyat tarixçilərimizin borcudur. Bu suallara verilən cavablar isə "türk ədəbiyyatları nəzəriyyəsindəki mövcud türkdilli və ərəb-fars dilli ədəbiyyatların qarşılıqlı əlaqələrinin vəziyyəti barədə "təzə söz" olacaq, əsl həqiqət aşkar ediləcəkdir...

Bu yaxınlaradək "Orxon-Yenisey" kitabələrinin, türk əlifbasının tarixi V-VIII əsrlər güman edilirdi. Lakin mümkündürmü ki, bu zəngin-likdə əlifba elə həmin əsrlərdəcə yaranmış olsun? Bu güclü mədəniyyətin ənənəsi, kökü-əsası olmalı idi. Türk xalqlarının miladdan əvvəlki daha qaranlıq, daha mübahisəli, qələmə gəlməyən dövrlərini öyrənmək üçün yeni bir açar tapıldı: *İskit** - türk döyüşçüsünün qızıl geyimi, qızıl dəstəli süngüsü, böyründə *yazılı cam* ki, elm tarixinə "İssık yazısı" kimi daxil olub. Bu fakt bir daha qarşıya tamam yeni problem qoyur: türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mənşəyi, təşəkkülü tarixi ilə əlaqədar olan iskitlər və onların kimliyi məsələsi, iskitlərin əski türklər olduğu məsələsi və bu məsələnin həlli...

Xatırladığımız ümumtürk kitabələri ona görə əvəzsizdir, başqa hər növ arxeoloji tapıntılardan ona görə daha artıq qiymətlidir ki, bunlar *dil açan yazılardır; dil açan rəsmi fikirlərdir.* Hələlik heç bir tapıntı türk xalqlarının tarixini, onların mədəniyyətini bu yazılar

---

* Bu söz mənbələrdə müxtəlif şəkillərdə verilir: "iskit", "iskif", "skif" və s. Biz *"iskit"* formasını saxlamışıq.

qədər, bu dil qədər dəqiq təyin edə bilməz; hələlik heç bir fikir, heç bir mövhumi rəy, (mif), fərziyyə, ehtimal bu yazılar, bu dil faktı qarşısında dura bilməz.

"Orxon-Yenisey" kitabələri milli-etnik keyfiyyətlərə malik müstəqil türk əlifbası ilə yazılmış, sal daşlara həkk olunmuşdur. Bunlar qalın daş vərəqli kitablardır. Bu yazılar ümumtürk yazılı-ədəbi dildir; mütəxəssislər bu kitabələrin dilindən "qədim Oğuz dili" deyə də bəhs edirlər.

3. DİL VƏ ONUN TƏDQİQİNİN İKİ ƏSAS İSTİQAMƏTİ

Dilin tarixini, əsasən, iki istiqamətdə: ya bütün məsələlərin inkişafını küll halında, ya da ədəbi dilin üslublarının və dilin qrammatik qanunlarının inkişafını ayrı-ayrılıqda götürüb tədqiq etmək və öyrənmək olar.

Bütün məsələləri birlikdə götürüb dilin inkişafının izlənilməsinə aid bir sıra böyük tədqiqat əsərləri mövcuddur *(130, 124, 226, 137)*. Ədəbi dilin, ədəbi şəxsiyyətlərin dilinin və dilin qrammatik qanunlarının inkişafını ayrı-ayrılıqda götürüb tədqiq edən müəlliflər də vardır *(189, 199)*. Biz birinci istiqaməti əsas götürmüş və tədqiqatımızı bu yöndə aparmağı məqsədə daha uyğun hesab etmişik. Fakt materiallarından çıxış edərək qədim dövrlərdə qrammatik məsələlərin, orta əsrlər və sonrakı dövrlərdə isə ədəbi şəxsiyyətlərin dili və üslubu, nəzəri və bədii-estetik keyfiyyətlərinin tədqiqinə üstünlük vermişik.

Tarixi qrammatika dilin quruluşu və qrammatik qayda-qanunları, kateqoriyaları və onların inkişafını tədqiq edir, inkişafın gedişini, sürətini və müxtəlif cəhətlərini qeydə alır, aydınlaşdırmağa çalışır və bununla əlaqədar müvafiq elmi nəticələr çıxarır.

Alman dilçi alimi H.Paul yazır: *"Tarixi qrammatika köhnə, əsl təsviri qrammatikalardan* törəmişdir və onlardan irsən çox şey

götürmüşdür. Bununla əlaqədar o, köhnə ifadə formalarını bütünlüklə saxlamışdır... Təsviri qrammatikalar müəyyən dövrdə, müəyyən dil ümumiliyində hər bir fərdin istifadə etdiyi süni olmayan, saxta görünməyən hər şeyi, bütün qrammatik forma və qaydaları qeydə alır" (229, s. 45).

Bu fikrin söylənildiyi vaxtdan bir əsrdən də çox keçir. Bu müddət ərzində tarixi qrammatika təsviri qrammatikalardan xeyli uzaqlaşmış, dil tarixini öyrənməyin xüsusi bir sahəsi, fənni olmaq etibarilə, onun məqsəd və vəzifələri, mövzusu xeyli aydınlaşmışdır.

Ədəbi dil tarixi dili ictimai bir hadisə kimi alaraq, onun inkişafını xalqın mədəni, ictimai-siyasi yüksəlişi, ədəbiyyatının, bədii-milli təfəkküründün inkişafı ilə vəhdətdə götürüb öyrənir, tədqiq edir və bununla əlaqədar müvafiq elmi nəticələr çıxarır.

Həm ədəbi dil tarixinin, həm də tarixi qrammatikanın inkişafı qarşılıqlı əlaqədardır və biri digərini tamamlayır. Çox zaman ədəbi dil tarixinin köməyi olmadan tarixi qrammatikaya aid mühüm bir hadisəni aydınlaşdırmaq, dürüst müəyyən etmək çətindir; eynilə ədəbi dil tarixi qrammatikaya möhtacdır. Bununla belə, təcrübə göstərir ki, dilin belə, hər iki istiqamətdə öyrənilməsi daha konkret elmi nəticələr verə bilir.

Ədəbi dil tarixinin də, tarixi qrammatikanın da tədqiqat materialı klassik ədəbi irs - hər növ əlyazmaları, kitabələr, şifahi və yazılı, elmi və bədii əsərlərdir; əsas ölçüsü tədqiq olunan dilin müasir inkişaf səviyyəsi, canlı xüsusiyyətləri, dialekt və şivələridir. Hər iki halda yenə tədqiqat iki üsulla: ya problemlər üzrə, ya da bütün məsələlərə nəzər yetirməklə dövrlər üzrə aparılır.

Azərbaycan dili tarixinin mühüm bir hissəsini onun ədəbi dili sahəsi təşkil edir. Ədəbi dilin bədii qolu isə bizdə daha zəngindir: buna görə də, ədəbi dilin tarixi dedikdə, ilk baxışda bədii dilimizin tarixini təsəvvür edirik. Lakin dilin tarixində başqa növ abidələrin - kitabələrin, müxtəlif yazılı sənədlərin, elmi və dini-təbliği kitabların, tərcümə əsərlərinin, daha sonrakı dövrlərdə mətbuat və s. di-

li də mühüm yer tutur. Deməli, dil tariximizin ədəbi dil tarixi sahəsi də öz-özlüyündə iki istiqamətdə öyrənilə bilər: bədii əsərlərin dilinin tədqiqi və hər növ mövcud yazılı sənədlərin, elmi, dini-təbliği kitabların, tərcümə əsərləri və s. dilinin tədqiqi.

Ədəbi dil xalqın, millətin tarixən formalaşmış vahid dilidir; ədəbi dil bədii ədəbiyyatın dili, tənqidin, publisistikanın, elmin və mətbuatın dilidir; başqa sözlə, ədəbi dil xalqın və onun yaratdığı bütün ədəbiyyatın - ədəbiyyat tarixinin dilidir ki, tarixən yaşamış görkəmli yazıçıların dilindən ayrı düşünülə bilməz.

Ədəbi dilin tarixi dil mədəniyyəti və ictimai fikir tarixinin mühüm və ayrılmaz hissəsi olmaqla, müxtəlif ədəbi üslubların, ana dilinin rəvanlığı, ifadəliliyi, zənginliyi, müstəqil inkişafı və sabitliyi uğrunda aparılan mübarizənin tarixi, yaradıcılığı dövr təşkil edən şair və yazıçıların əsl nümunələrini vermiş olduqları dilin tarixidir.

Xalqın ədəbi dil tarixinin zənginliyi onun ədəbiyyat tarixinin zənginliyi ilə sıx əlaqədardır. Lakin bəzən bir xalqın ədəbiyyatı öz ana dilində yazılmaya, müəyyən dövrlərdə ədəbi-yazı dili öz ana dili olmaya da bilər. Məs.: bizdə müəyyən dövrlərdə yazılı ədəbi dil olaraq fars dili və elm dili kimi ərəb dili işlənmişdir - XII əsr Azərbaycan ədəbiyyatının klassikləri Xaqani Şirvani, Nizami Gəncəvi və b. fars dilində yazmışlar. Elə buradaca bir faktı xatırlamaq çox yerinə düşür ki, böyük Nizami hökmdardan "Leyli və Məcnun"u fars və ya ərəb dilində yazmaq sifarişini alarkən çıxılmaz vəziyyətdə qalmış və məcburiyyət qarşısında buna razılıq vermişdi. Lakin şairin mənliyinə, şərəfinə bərk toxunulmuşdu...

4. FOLKLOR VƏ ƏDƏBİ DİL

Dilin yaradıcısı xalqdır. Ümumxalq dili xalqın təşəkkül tapdığı dövrdən ona xidmətdə olan mənəvi qüvvə, gücdür. Bu dil ədəbi dilin əsası, özülüdür. Ədəbi dil isə ümumxalq dili inkişafının yeni

mərhələsidir, onun yetkin şəklidir. Ədəbi dil və xüsusən onun şifahi qolu ümumxalq dili kimi tədricən, bir sıra dövrlərdə nəsillərin, xalqın və onun istedadlarının birgə əməyi, səyi ilə təşəkkül tapır, formalaşır və inkişaf edir.

Folklor dili, xalqın şifahi-bədii yaradıcılıq dili, ədəbi dilin ilkin şəklidir. Yazılı ədəbi dil şifahi ədəbi dildən sonra təzahür edir və bu təzahürdə tam və dialektik bir ardıcıllıq müşahidə olunmaqdadır.

Folklor - şifahi-bədii ədəbiyyat, onun ayrı-ayrı janrlarında yaranmış hər hansı bir əsər - deyilən bayatı, layla, çəkilən zərbi-məsəl, atalar sözü, qoşulan qoşma, söylənilən dastan, hər halda, ilk yaradılışda bir fərdlə əlaqədar olur; əvvəlcə bir adam tərəfindən söylənir, sonra dildən-dilə, nəsildən-nəslə, dövrdən-dövrə keçir; ümumin adına çıxılır. Lətifələr, qaravəllilər, yanıltmaclar, nağıllar və dastanlar belə yaranmışdır.

"Dədə Qorqud kitabı" dil tədqiqatı üçün zəngin material verən əsərdir. Birinci, ona görə ki, "Kitab" müəyyən əsrlərdə bir neçə dəfə yazıya alındığından orada bir neçə əsrin dil xüsusiyyətləri mühafizə olunmuşdur. İkinci, ona görə ki, "Kitab"da möhkəm qayda və qanunlara malik olan, dəyişdirilməyə məruz qalmayan şerlər, söyləmələr, dəyişmələr və s. vardır. Odur ki, "Dədə Qorqud" dil tariximizi öyrənmək üçün ilk növbədə şifahi və həm də yazılı bir məxəz, bədii abidə kimi əvəzsiz mənbədir.

Yazılı ədəbi dil canlı dillə, danışıqla vəhdətdə inkişaf etdiyi, zənginləşdiyi kimi, folklor dili - şifahi-bədii yaradıcılıq dili ilə də həmişə sıx əlaqədə olmuş, ondan qidalanmış, onun hesabına öz imkanlarını genişləndirmişdir. Buna görə də ədəbi dili bu qaynaqlardan ayrı, əlaqəsiz düşünmək olmaz. Bununla belə, yazılı ədəbi dildən fərqli olaraq, şifahi ədəbi dilin özünəməxsus məziyyətləri, öyrənilməyə, tədqiq olunmağa layiq maraqlı xüsusiyyətləri vardır ki, bunlar ədəbi dilin yazılı qolu ilə birlikdə onun şifahi qolunun da inkişafını izləməyi tələb edir.

El ədəbiyyatı nümunələri üzərində müştərəklik, ümumxalq nəzarəti güclü olur. Bu gün bizə çox xoş gələn, zövqümüzü oxşayan,

idrakımızı məşğul edən yığcam, kiçik həcmli, lakin böyük mənalı atalar sözü, məsəllər, bayatılar, laylalar, ağılar və s. birdən-birə yaranmamışdır. Bu söz inciləri gərgin və dərin həyati müşahidələrin yetkin bədii nümunələridir. Onlarda bəzən böyük bir tarixi həqiqət qorunub saxlanılır və yaxud mühüm bir məsələ öz bədii həllini tapmış olur. Hələ yazılı ədəbi dil təşəkkül tapıb müəyyən cığıra, inkişaf yoluna düşüncəyədək bu söz incilərinin çoxu el arasında mövcud idi və bunları ədəbi-bədii dilin başlanğıcı, təməl daşı, ilkin nümunələri hesab etmək olar. Hər hansı bir həqiqət obrazlı şəkildə ifadə edildikdə müəyyən poeziyaya malikdir. V.Q.Belinski deyirdi ki, folklorun yaradıcısı xalqdır, lakin kollektiv yaradıcılıq fərdsiz yaradıcılıq deyildir; fərdlə kollektivin mürəkkəb və uzun sürən birgə müəlliflik prosesidir. O yazırdı: "Xalq arasında yaşayan atalar sözləri və məsəllər özləri də mahiyyət etibarilə poetik əsərlərdir, yaxud belə demək daha yaxşı olar ki, bunlar poeziyanın başlanğıcıdır, ilk çıxış nöqtəsidir" (*15,* s. 88). Bu mənada bizim atalar sözü və məsəllər və onlarla təxminən əkiz doğulan bayatılarımız çox kamil, cilalanmış sənət əsərləri, bədii söz nümunələridir. Dərin məzmun və forma gözəlliyi, yığcamlıq və axıcı dil bayatıları kütləviləşdirmiş, hamının malı etmişdir; klassik sənət, söz nümunələri səviyyəsinə yüksəltmişdir. Əgər klassika ölməzlik, əbədiyyət mənalarını da əhatə edirsə, onda bayatılar bu ölməzliyin, bu əbədiyyətin əsl nümunələri sayılmalıdır, xalq yaşadıqca onları da yaşadacaqdır...

Poeziya dilinin şifahi qolu əhatə dairəsi, zənginliyi, təsir gücü və s. cəhətdən yazılı qoldan heç də geri qalmır; ilkinliyinə, bir sıra səciyyəvi keyfiyyət və məziyyətlərinə görə ondan seçilir. Belə ki, şifahi ədəbi-bədii dil daha kütləvidir, yad təsirlərə qarşı daha davamlıdır, müxtəlif təzyiqlərlə hesablaşmadan ümumxalq mövqeyində daha möhkəm dayanır, öz inkişafını canlı xalq dili zəminində daha xəlqi istiqamətdə davam etdirir və s.

Şifahi ədəbiyyatın özünəməxsus müxtəlif inkişaf xüsusiyyətləri, qarşılıqlı təsir, zənginləşmə, dəyişmə, cilalanma yolları ol-

duğundan onun hər növünün dili üzərində dayanıb tədqiqat aparmaq çətindir. Məsələn, nağılların, lətifələrin dilini, dastanların nəsr hissəsinin dilini araşdırmaq tarixilik baxımından o qədər də ağlabatan elmi nəticələr verə bilmir. Çünki onlar ağızdan-ağıza, nəsildən-nəslə keçib gələrkən dəyişdirilir, şəkildən-şəklə düşür; yarandığı ilkin dövrlə, zamanla əlaqədar xüsusiyyətlər, ilkin tarixi kolorit və s. azalır, bəzən tamam itib gedir. Şifahi-bədii ədəbiyyatın poeziya qolunda isə vəziyyət başqadır. Bayatı, qoşma, gəraylı, layla, ağı və s. mənzum əsərlər olub, əksərən müəyyən xalq havaları və mahnılar üstündə yarandığından, atalar sözü, məsəllər də çox vaxt müəyyən qafiyəyə (əksərən daxili qafiyəyə), ahəngə malik olduğundan dəyişikliyə az məruz qalır, xalq yaradıcılığının başqa növlərinə nisbətən öz ilk şəklini daha çox mühafizə edə bilir, musiqi, ahəng onları olduğu kimi də çəkib gətirir...

"Dədə Qorqud kitabı"nın, "Türk dilləri qamusu"nun tapılması ümumtürk folklor tarixini də qədim dövrlərə aparıb çıxardı, yazılı və şifahi ədəbiyyatın ayrı-ayrı növlərinin qədim tarixə malik olduğu barədə yeni fikir söyləmək imkanlarını genişləndirdi. Çünki "Dədə Qorqud" bir sıra janrları - qoşma, atalar sözü və məsəlləri toplu halında təqdim edir; üstəlik, o vaxtlar bir "boy" janrının da mövcudluğu aşkara çıxır; "Qamus"da bayatılardan, atalar sözləri və məsəllərdən nümunələr verilir, çoxlu vuruş, qəhrəmanlıq nəğmələri, ağılar, varsağılar və s. xatırlanır. Bütün bunlar isə şifahi-bədii yaradıcılıq dilinin hələ həmin əsərlərin yarandığı, yazıldığı dövrlərdən çox-çox qabaqlar mövcud olduğu qənaətinə gəlmək imkanı verir.

Belə məlum olur ki, "Dədə Qorqud kitabı" indiyədək deyildiyi və sübuta çalışıldığı kimi, IX-X əsrlərin deyil, daha qədim dövrlərin məhsuludur.

"Dədə Qorqud" əsərinin çox orijinal üslubu, səpgisi var. Ərəb və farsdilli ədəbiyyat abidələrində bu üsluba, səpgiyə rast gəlmirik. Bəs bu üslub-ənənə haradan başlanıb gəlir? Bu, birdən-birə yarana bilməzdi. Bəlkə də qədim, hələ bizə məlum olmayan "Oğuznamə-

lər" onun qaynağı olmuşdur?! !Söy söylədi", "boy boyladı" ifadələri böyük maraq kəsb edir. "Boy" janrı bizə tanış olan ədəbiyyatlarda yoxdur. Bu, türk xalqlarının bədii təfəkkürünün, ulu babalarımızın poetik ağlının məhsuludur. Bəs bu janr necə olmuş, nə üçün sonralar inkişaf etməmişdir?! Bəlkə, elə "Koroğlu" dastanındakı "səfərlər", "qollar" bu "boy" janrının sonrakı şifahi davamıdır?! Dastanların dili ilə "Orxon-Yenisey" abidələrinin dili arasında olan güclü ümumilik onların qədimliyini bir daha təsdiq edir.

Poeziya ilə musiqi əkiz yaranmışdır. Bu keyfiyyət isə qədim tarixə və güclü ənənəyə malikdir; bunun kökləri uzaq keçmişlərə, şifahi-bədii yaradıcılığın başlanğıcına gedib çıxır. Hələ "Dədə Qorqud"da şerlə musiqi çox həmahəng səsləşirdi; şeri musiqi yaradır və ya hər bir "ayıtma", "söyləmə" və "deyişmə" zəngin xalq havaları, mahnılar üstündə düzülüb qoşulurdu. "Dədə Qorqud"dakı şerlərin ölçülərinə, tez-tez ölçücə dəyişmələrə görə, bu ölçülərin, bu deyişmələrin sayına görə də musiqisi olduğuna, ozan-aşıq havaları üstündə deyilib oxunduğuna şübhə yoxdur; nəinki qopuzla-sazla oxunan şerlərdə, "Oğuznamə"nin nəsr parçalarında, "yurt" hissələrində də müəyyən ahəngdarlıq var, harmoniya və musiqi var. Bu isə təsadüfi deyil, güclü ənənənin davamı və nəticəsidir. Sözlə musiqinin çoxəsrlik əlaqəsi, inkişaf yolu olmasaydı, bu keyfiyyət özünü birdən-birə belə heyrətamiz şəkildə göstərə bilməzdi.

"Dədə Qorqud" sözlə sazın, şerlə musiqinin sintezidir. Bir halda ki, hələ VI-VII əsrlərdə belə bir şifahi sənət incisi vardı, onda gəlin bir sıra mövcud fikirlərə yenidən baxaq, xüsusilə, Azərbaycan və ərəb-fars mədəniyyətlərinin qarşılıqlı əlaqələri məsələlərinə soyuqqanlıqla, əqlin məntiqi ilə yanaşaq.

İncəsənətin, milli musiqimizin inkişaf yolu, onun poeziyamızla qırılmaz vəhdəti bu zəngin tarixi ənənə ilə bağlıdır; bu dərin kökdən su içməyən bir sənətin, musiqinin müasir şəraitdə şöhrət tapması, "əla bəstəkarlıq məktəbi" (*268*, s.242) səviyyəsinə qalxması da mümkün deyildi; bu, bir tarixi ənənə ilə, dərin köklə bağlıdır.

Bədii söz sənətinin qaynağı, ilkin çıxış nöqtəsi folklordur. Folklorun - şifahi-bədii yaradıcılığın tarixini isə qəti müəyyən etmək olmur. Dastan, epos yaradıcılığının, aşıq poeziyasının, nağılların, lətifələrin, habelə atalar sözü, zərb-məsəl və s. mənşəyi, doğuluşu da belədir; tarixini dəqiq demək çətindir. Amma başlanğıc, ilk.təşəkkültapma çox qədimlərə gedib çıxır.

Poetik ruh - axıcılıq, rəvanlıq, ahəngdarlıq Azərbaycan dilinin doğuluşundan gəlir; kökdən-əsasdan, söz və söz daxilindəki səslərin bir-birilə uyuşması, səsləşməsi və ahəngindən yaranır.

Bədii söz sənətinin tarixi insanın dil açdığı, necə deyərlər, dili söz tutduğu vaxtdan başlanır. Bu mənada böyük Nizaminin bu misralarını xatırlamaq yerinə düşür:

"Dünya yaranan gündən qələmin ilkin sözü -
Varlıq səhifəsində sözün özüdür, özü.
Açılanda varlığın sirli pərdəsi əzəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl...
Düşüncənin munisi, gözəl sirdaşı sözdür,
Unutma ki, insanın əzəl sirdaşı sözdür".

İnsan bütövlükdə poeziyadır, o özü mənalı, zəngin və gözəl şerdir, - desək, səhv olmaz. Elə bil, buna uyğun olaraq da onun bədən üzvlərinin adları, məsələn, bizim ana dilimizdə poetik və bir-birinə ahəngdar şəkildə düşünülmüş, düzülüb-qoşulmuşdur.

Bədənin əzaları, xüsusilə başda olan üzvlərin adları necə də ahəngdar seçilib, elə bil qüdrətdən yaranıb: *baş, qaş, döş; üz, əl, qıç, tük, saç, bel, qol, yüz; göz, diz, ürək, bilək, kürək, dilçək, dirsək; yanaq, sağaq, qabaq, buxaq, dodaq, damaq, qulaq, çanaq* (sümük), *qursaq, qığırdaq, ayaq; adaq, barmaq, dırnaq, oynaq* (sümük); *boyun, burun, alın, qarın*... Bu sözlərin dilimizdə bir neçə min il tarixi olduğunu kimsə inkar edə bilərmi? Hər bir sözdə səslərin, hecaların, şəkilçilərin bir-birini izləməsilə nəinki daxili ahəng - uzlaşma alınıb, habelə burada sözlər iki-bir, üç-bir, dörd-bir və s. qafiyələnib və poetik cərgələr yaradılıb; elə bil, poeziya üçün hazır vəziyyətdə dayanıb:

1) *baş, qaş, döş;*

2) *üz // yüz, göz, diz;*

3) *ürək, biləк, kürək, dil(ç)ək, dir(s)ək;*

4) *yanaq, sağaq, qabaq, buxaq, dodaq, damaq, quluq, çanaq* (sümük), *qur(s)aq, qığırdaq, ayaq // adaq, bar(m)aq, dır(n)aq, oynaq* (sümük);

5) *boyun, burun, alın, qarın...*

Bu sözlər hər vəziyyətdə deyilərkən və hər hansı bir əlifba ilə yazılarkən uzlaşmalı, öz ahəngini saxlamalı idi. Çünki bu uzlaşma, bu ahəng törənişdən, bir qədər məcazi mənada desək, ana südündən gəlir.

Yanaq üzün bir hissəsinin adıdır. *Yan* kökü (yəqin ki, *yan tərəf* və ya *yanmaq, parlaqlıq*) və *-aq* şəkilçisindən ibarət düzəltmə sözdür. Eyni məntiqə əsaslanaraq, *sağaq* (yanağın üstü, "almacıq" hissə) arxaik sözünün *sağ* (*sağ, sağlam*) kökü və *aq* şəkilçisindən düzəldiyini düşünmək olar. Üz və bədən əzalarının xatırladığımız digər adlarında da bu ahəngdarlıq var, bu prosesdə, xüsusilə *aq, ək* və *un, ın* ünsürləri mühüm rol oynamışdır. Bizcə, bunlar sağlam, şüurlu yaradıcılığın təzahürüdür, "anadangəlmə" estetik zövqün, poetik düşüncənin nəticəsidir.

Biz burada türk qövmünün bədənindəki adlara-ecazkar bir mənzərəyə də diqqət edək: əksər adlar bir və ya iki hecalıdır: *baş, qaş, göz, üz, dil, diş, əl, qol, bel, qıç, tük, döş... alın, burun, qarın, ürək, dilçək, dirsək, dəri, barmaq, dırnaq, qulaq, barsaq, qursaq...* Bu nə sirrdir?! Belə düşünmək olmazmı ki, insan bədəninin üzvləri, bunların adlarının bu tək və cüt hecalı sözləri ilk və ən qədim sözlərdir? Bunları insanın ilk, deyək ki, ibtidai təfəkkürü yaradıb. Bu bədən adlarının yaranması yaxın vaxtlara, min-min illərə aid ola bilməz. Burada, bəlkə də milyon ilin haqq-hesabı var. İnsan yarananda, xalq yarananda elə onun sözü də, dili də yaranıb. Sözdə, dildə həm də daxili bir ahəng, gözəllik var. Bu ahəng, bu gözəllik əzəldən, ibtidadan türk dilinin səslərdən hecalara, hecalardan sözlərə,

sözlərdən ifadə tərzlərinə, misralara, beytlərə, bəndlərə süzülüb gələn poeziyasını yaratmış və ya, daha dürüst desək, poeziyanın başlanğıc nöqtəsi olmuşdur.

Ağlın eyni məntiqinə və bu söz biçimlərinə (təkhecalığa) uyğun olaraq Azərbaycan-türk zəkasının ilk və ən vacib, ən gərəkli iş-hərəkət sözləri də bir hecalı olub, yaranıb: *al, gəl, get, sev, ver, de, gör, dur, bil, gül, qur, tik, tut...* Bu qəbil sözlərin yaranması, konkret məna kəsb etməsi və varlığı çox qədimdir, son min illərin deyil. Burada, bəlkə də milyon ilin haqq-hesabı var...

Beləliklə, əslində, Azərbaycan bədii söz sənətinin başlanğıcı, çıxış nöqtəsi insandır, onun gözəlliyidir, daxili aləmi, forma və məzmunudur, dilinin ahəngidir ki, o da ilk tərənnümünü folklorda tapıb.

Qədimlərdən xalq arasında Qorqud Atanın ünvanına deyilmiş bu poetik parçanı xatırlayaq; hər iki varianta diqqət edək:

1)	2)
Gəlinə ayran demədi,	**Gəlinə ayran demədim**
O Dədə Qorqud!	**Mən Dədə Qorqud!**
Ayrana doyran demədi,	**Ayrana doyran demədim**
O Dədə Qorqud!	**Mən Dədə Qorqud!**
İynəyə tikən demədi,	**İynəyə tikən demədim**
O Dədə Qorqud!	**Mən Dədə Qorqud!**
Tikənə sökən demədi,	**Tikənə sökən demədim**
O Dədə Qorqud!	**Mən Dədə Qorqud!**

Bu kəlamda *ayran-doyran* və *tikən-sökən* ahəngilə yanaşı, bunlara uyğun incə bir mətləb və həqiqət də var: ana dilində hər şeyə yaraşdırıb ad verən, hər şeyin adını qoyan Dədə Qorqud bir neçə sözdə guya "yanılmış", bu sözlərin məna çalarını deməmişdir: "gəlində ayırmaq" keyfiyyətinə diqqət edək. İfadə iki mənada başa düşülə, yozula bilər: 1) *mənfi mənada* - ayırmaq, ayrı-seçkilik salmaq, 2) *müsbət mənada* - ayırmaq, gəlinin ailəyə düşməsi ilə bağlı kök ailədən təzə "budaq" ayrılıb yeni müstəqil ailənin yaranması zərurəti. Bizcə, ikinci məna daha üstündür. Ola bilsin ki, "El elə sığar, ev evə sığmaz" məsəli də bu əsasda yaranmışdır. Görünür,

bu sözlərin çalarlarını sonralar dövr, zaman vermiş, söz ilk mənasını tarixə, şəraitə görə genişləndirib çoxmənalı, çoxçalarlı olmuşdur; bu isə dilin, onun lüğət tərkibinin qanunauyğun inkişafıdır. Görünür, elə ana dilində insan əzalarına ad qoyanda da Dədə Qorqud kimi ədəbi şəxsiyyətlər mühüm rol oynamışlar. Sonralar, zaman keçdikcə, bu sözlər inkişaf etmiş, yeni məna çalarları qazanmış, öz ahəngini daha dürüst və aydın şəklə salmış, cilalamışdır...

"Dədə Qorqud kitabı"nın tarixinin qəti müəyyənləşməsi təsdiq edir ki, hələ VI-VII əsrlərdə folklor yaradıcılığı, onun müxtəlif sahələri öz inkişafının yüksək səviyyəsində idi. Qorqud Ata "Kitabı"nda folklordan çox bəhrələnmişdi. "Kitab"da, xüsusilə atalar sözü və zərb-məsəllərdən məharətlə istifadə olunub. Bunların bir qismi məhz daxili ölçü və qafiyəyə əsaslanır, özünü müəyyən musiqi ahəngilə göstərir:

"Ölən adam dirilməz,
Çıxan can geri gəlməz" (1, 3).

"Oğul dəxi neyləsün baba ölüb mal qalmasa?
Baba malından nə fayda, başda dölət olmasa?"

"Sərp yüyürkən Qazlıq ata namərd yigit binə bilməz,
binincə, binməsə yeg!
Çalub kəsər üz qılıcı müxənnətlər
çalınca, çalmasa yeg". (4).

Bu o deməkdir ki, hələ VI-VII əsrlərdə şifahi ədəbiyyatımızın bu növü çox güclü idi, bunların bir qismi də Qorqud Atanın kitabında verilib. Əlbəttə, o dövrdəki mövcud atalar sözü və məsəllər, təbii olaraq, bütünlükdə Dədənin "Kitab"ına düşə bilməzdi. Düşənlər də bizə söz demək, fikir söyləmək üçün geniş imkan, qol-qanad verir. Dədənin "Kitab"ındakı atalar sözləri, zərb-məsəllər və b. folklor nümunələri babalardan qalma idi, VI-VII əsrlərədək uzun inkişaf yolu keçib gəlmişdi...

Hələ XI əsrdə Mahmud Kaşğarlı "Divan"ının giriş hissəsində yazdığı kəlamı xatırlayaq: "Qayğılı və sevimli günlərdə yüksək düşüncələrlə söylənilən zərb-məsəlləri də aldım. Onları ilk söyləyənlər sonrakılara, bunlar da daha sonrakılara bildirmişlər" (1,8). Burada çox aydın bir həqiqət öz elmi ifadəsini tapıb: "Divan"a düşən atalar sözü və zərb-məsəllər məhz babaların yadigarıdır, nəsillər onu uzaq keçmişlərdən o sinədən bu sinəyə keçirə-keçirə gətirmiş və XI əsrə çıxarmışdır ki, müəllif də onları götürüb əsərinə salmışdır. Burada incə bir mətləb də var ki, qayğılı günlərdə "qayğılı", sevimli günlərdə "sevimli" atalar sözü, zərb-məsəllər yaranmış və həm də bunlar "yüksək düşüncələrlə söylənmişdir".

"Divan"a düşən çoxlu atalar sözü və zərb-məsəllərdən bir-ikisini xatırlayaq:

1) "Avçı neçə al bilsə, adhığ anca yol bilir" (I, *63*).
2) "Koş qılıc qınqa sığmaz" (I, *359*).
3) "Ot tütünsüz bolmas, yigit yazuqsuz bolmas" (I, *400*).
4) "Təvi silkinsə, eşşəkə yük çıxar" (II, *246*).
5) "Suv görməgincə ötük tartma" (III, *426*) və b.

Bu atalar sözü və zərb-məsəllərin yazıya köçürüldüyü vaxtdan bu yana inkişafına, yəni bugünkü şəklinə diqqət edək:

1) "Ovçu neçə hiylə bilsə, ayı o qədər fənd bilir".
2) "Koş qılınc qına sığmaz".
3) "Od tüstüsüz, igid günahsız olmaz".
4) "Dəvə silkinsə, eşşəyə yük çıxar".
5) "Su görməyincə ətək dartma" və ya "Çaya çatmamış çırmanma" və b.

Doqquz yüz, min illik inkişaf və dəyişiklik göz önündədir və bu ancaq sözlərdə və bəzi şəkilçilərdə nəzərə çarpır, fikir, məzmun isə dəyişməyib.

Bir anlığa bu söz incilərinin yazıya köçürüldüyü XI əsrdən doqquz yüz, min il o yana nəzər salaq, miladi tarixin I-II əsrlərindəki

şəklini təsəvvürə gətirək. Bizcə, o vaxtdan XI əsrə qədərki inkişaf və dəyişiklik sonrakı - bu günə qədərkindən iki səbəbə görə xeyli az olmalıdır: 1) ona görə ki, qədimlərə getdikcə türk xalqları arasındakı birlik, ümumi ünsiyyət əlaqələri daha möhkəm olmuşdur; 2) ona görə ki, feodal dünyasının digər sahələrində olduğu kimi, dildə də inkişaf ləng gedirdi.

Ağlın eyni məntiqilə daha qədimlərə, miladdan əvvəlki dövrlərə doğru gedib, tarixi keçmişimizin dərin qatlarından gələn səslərə qulaq asmaq və müvafiq elmi nəticələrə gəlmək olar. Mahmud Kaşğarlı öz lüğət "Divan"ını çoxlu qədim elegiyalar, mərsiyə tərzli şerlər, ağılar, varsağılar, mahnılar, döyüş nəğmələri, tuyuqlar və s. kimi incilərlə də bəzəmişdi. O bunların heç birini özündən yaratmamış, xalq arasından, el-obadan toplamış, ağızlardan hazır şəkildə alıb öz kitabına salmışdı.

Hazırda dilimizdə işlənən və kitablara da toplanmış atalar sözü və zərb-məsəllərin yaranmasında, mərasim nəğmələri, əmək mahnıları və bayatıların qoşulmasında, söz yox, hər dövrün, az, ya çox dərəcədə payı və iştirakı olub. Bu söz inciləri bir və ya bir neçə əsrin deyil, min illərin məhsuludur. Min illər bu incilərin məzmun zənginliyi, rəngarəngliyi və deyiliş tərzinin, dil və üslubunun çoxcəhətliyində də az rol oynamamışdır. Diqqəti həm müsbət, həm də mənfi mənalarda olan, Kaşğarlının təbirincə desək, "qayğılı" və "sevimli" günlərdə yaranmış ikicə zərb-məsələ yönəldək.

Mənfi mənada: "Bir ata, bir arvada inanmaq olmaz".
Müsbət mənada: "Atdır muraddır,
Qadasın aldığım arvaddır".

Hər iki kəlam at və arvada müxtəlif dövr və zamanlarda yaranmış münasibətin bədii təcəssümüdür. Həm *at*, həm də *arvad // arvat* sözlərinin dilimizdə işlənməsi tarixini müəyyən etmək olarmı ki, bu məsəllərin də dəqiq tarixini müəyyən edə bilək? Amma, hər halda, məsəllərin iki əsas - aparıcı sözünə tarixi nəzər salmaq ma-

raqlı olardı. Atın hər kəsin - bu gün mənim, sabah başqasının ola bilməsi məzmunu, bu məzmunun müəyyən mənada qadına da aidliyi, görünür, bu adların bir zərb-məsəldə yanaşı çəkilməsinə və bir oxla iki hədəfin vurulmasına səbəb olub... Lakin arvada verilən mənfi keyfiyyət bununla bağlı ola bilməzdi. Qədim babalar qadını qısqanmırdılar, çünki onlar özləri də baş yoldaşlarını dəyişmirdilər. Bu fikrin təsdiqi üçün Azərbaycan ədəbiyyatının bütün - istər şifahi-bədii, istərsə də yazılı tarixi bir yana, VI-VII əsrlərin məhsulu olan "Dədə Qorqud kitabı"nda qadına yüksək münasibət, hörmət və ehtiram kifayət edərdi: "Dədə Qorqud kitabı"nda *arvad -arvat, qadın - xatın, gözəl ana, gözəl ömür yoldaşı, gözəl dost-sirdaşdır; dar gündə gözəl məsləhətçi, ərlə yanaşı qılınc vuran qəhrəmandır.*

Qadına mənfi münasibət və bunun zərb-məsəldə əksi məhz yad təsirlərlə əlaqədar ola bilər. At və arvadla bağlı müsbət mənada məsəl daha qədim - "sevimli" günlərin, mənfisi isə daha sonrakı - "qayğılı" günlərin məhsuludur.

Azərbaycan xalqının ailə-məişət və xüsusilə qəhrəmanlıq tarixində at da əvəzsiz olub ki, ədəbiyyatda öz layiqli tərənnümünü tapıb.

Lakin deyə bilərikmi ki, *arvada - qadına,* ata olan bu yüksək münasibət və bu münasibətin bədii tərənnümü olan müsbət kəlamlar elə Dədə Qorqud zamanındaca yaranıb və ondan əvvəl yoxmuş? Yox, deyə bilmərik. Bu məzmun, bu kəlam, habelə bu dil-üslub əvvəllərdən də xalq arasında, danışıqda mövcud idi. Dədə Qorqudun böyüklüyü, xəlqi keyfiyyətləri və Azərbaycan ədəbi dilinin inkişafi tarixindəki rolu, xidməti onda idi ki, xalq dilinin hazır materialını: müdrik kəlamları, atalar sözü və zərb-məsəlləri, obrazlı ifadələri, məcazlar aləmini, dil-üslubu və s. həm öz qopuzu-sazı ilə yenidən cilalamış, həm də məclislərdə söyləyib, deyib-çağıraraq ona əbədi həyat vermişdi.

Azərbaycan dilində belə, çox qədimlərdən süzülə-süzülə, cilalana-cilalana, öz ahəngi, melodiyası ilə müasir dilimizə gəlib çıxan atalar sözü və zərb-məsəllər az deyil; bunlar bizim ana dilimizin ilk "doğuluşu"ndan onun ahəngdarlığı, musiqiliyi, şirinliyi və şeriyyətini götürmüşdür.

“Birlik harda, dirilik orda”
“Yer bəyin, yurd xanın,
İşlə hey, çıxsın canın”.
“İş ki, düşdü sarıq başa,
Başın dəyər daşdan-daşa,
Yapışginən əyri xışa,
Get o başa, gəl bu başa”.
“Ayran ver ayransıza,
Qalmaz bu dövran sizə,
Vaxt olar, ayran olar,
Verməzlər ayran sizə”.

“Ağ gün hara gedirsən? - ağartmağa.
Qara gün hara gedirsən? - qaraltmağa”.
“Sözü yaxşı anla, sonra get banla” və b.

Lakin deyə bilərikmi ki, bu söz-sənət inciləri ancaq bu son min ildə yaranıb, miladi tarixin ilk əsrlərində və ya miladdan əvvəllərdə bunlardan əsər-əlamət yox idi? Yox, deyə bilmərik. VI-VII əsrlərdə “Dədə Qorqud” kimi bir kitabəni, onun bədii söz, məcazlar aləmini, dilini-üslubunu yaratmış xalqın dilinin kökləri çox dərinlərə gedir. Amma nəzərə alaq ki, bu kəlamlar müasir dövrə doğru inkişaf edə-edə, cilalana-cilalana, bizim üçün daha gözəl, daha səlis, daha anlaşıqlı hala düşə-düşə gəlmişdir. Bunun təxmini inkişaf mənzərəsini Mahmud Kaşğarlıdan gətirilən misalların müqayisəsində görürük.

Bütün bu məziyyətlər bayatılarımızda daha güclüdür. Məs., yəqin ki, elə Babəkin məğlubiyyəti və Bəzz qalasının torpağı da torba ilə daşıdıldığı zamanlarda, işğalçıların Babəkin adını, yerini-yurdunu da tarix səhnəsindən silməyə çalışdıqları IX-X əsrlərin qanlı-qadalı illərində yaranıb, ulu nənə və babalarımızın dağlı sinəsindən qopub gələn bir ah-naləni xatırlayaq:

“Arazım yaralıdı,
Dağ dağdan aralıdı,
Babəkin kəndi burda
Deyirlər, haralıdı?”

Bayatıdakı bu tarixi koloriti kim dəyişə, fikrin, sözün əridilib qəlibləmiş qızıl kütləsini kim tərpədə, bircə zərrəsini kim qopara bilərdi?

Bu, mümkün deyil.

"Bu qala yaşlı qala,
Daş qala, yaşlı qala.
Qorxuram, düşəm öləm,
Yar gözü yaşlı qala".

Bu bayatının tarixi, bu dilin tarixi bizim qalaların tarixi qədər qədimdir. Bu qəbil bayatılar elə qalalarla birgə yaranmış, qalaların tikilib başa çatmasına sürət və təkan verən "əmək nəğmələri" olmuşdur. Qalaları tikən, daşla hörən babalar onun bayatısını da qoşub, sözlə hörmüş, daşlar qalanı haşiyələdiyi kimi, sözlər də bayatını haşiyələmiş, bəzəmişdir.

Söz düzümü, dil-üslub baxımından bayatı qala timsallıdır; xəyalı qədimlərə çəkib aparır; göz önündə xalqın keşməkeşli tarixi, buna uyğun da mənəvi aləminin həzin və hüznlü səhifələri canlanır: *qala yaşlıdır,* yəni qədimdir; *qala yaşlıdır,* yəni yaşlı, gözü nəmlidir, ölümün-itimin, həsrətin-ələmin canlı şahididir. Müəllif - poetik "mən" qorxur ki, onun yarının da *gözü yaşlı qala...* Bayatıda "düşəm" sözü necə də yerinə düşüb, qala sözü ilə həm poetik, həm də məntiqcə necə də uzlaşıb: "Qorxuram düşəm, öləm". Şair-aşiq öz dərdinə qalmır, öz ölümü barədə düşünmür. Qala uğrunda - ana torpaq, vətən yolunda "düşüb ölmək" olar, bu, şərəfdir. Onun dərdi-ələmi ancaq yarın, sevgilisinin gözü yaşlı qalmasıdır... Bayatı 9-10 sözdən yaradılıb: *bu, qala, qal*(maq), *yaş, daş, qorx*(maq), *düş*(mək), *öl*(mək), *yar, göz.* Sözlər arasındakı poetik məna və möhkəm əlaqə bayatını qala kimi ucaltmış, ona əzəmət və əbədi həyat vermişdir.

Bayatıdakı sözləri bundan uğurlu kim düzüb qoşa, cinas üstündə kim belə baxyalaya bilər?!

Bu, mümkün deyil!

XVI-XVII əsrlərdə zirvəyə yüksələn bayatı janrı, onun dili və üslubunun kökləri çox-çox qədimlərə gedib çıxır; bu şer növü mə-

nəvi qaynaqlarımızdan, Oğuz ellərinin güclü qolu olub Dədə Qorqudu yetirən bayatıların el-obalarından keçib gəlir...

Sarı Aşığın bayatılarını onun sağlığında heç kim qələmə almayıb; sinələrə həkk olunaraq bu günə gəlib çıxıb.

"Bu gələn kimsənəmdi,
Kimim yox, kimsənəmdi.
Nə kimin kimsəsiyəm,
Nə kimsə kimsənəmdi".

Kimsəsizlik, yalqızlıq, təklik kimi hissi ifadə etmək üçün beşcə söz fəaliyyətdədir: *bu, gəl*(mək), *kim*(sə), *yox, nə.* Lakin bu sözlər elə idarə olunub, onlar arasında elə qrammatik, məntiqi və ritmik əlaqələr yaradılıb ki, tam yetkin bədii əsər alınıb, tamlığına, yetkinliyinə tarixən toxunulmayıb. Buradan nəinki bircə sözü, bircə hecanı, bircə səsi, bircə işarəni belə tərpətmək mümkün deyil. Bizim atalar sözləri və zərb-məsəllər, lətifələr, el mahnıları, laylalar, vəsf-hallar və s. də belədir.

Cinas üstündə deyilmiş bayatı və qoşmalar daha çox ritmlə, musiqilə bağlıdır, buna görə daha möhkəm və dəyişilməzdir...

Beləliklə, folklorla əsası qoyulan bədii söz sənəti, ədəbi-bədii dil, əslində, ahənglə, ritmlə, musiqilə əkiz doğulmuş, Azərbaycan poeziyası öz inkişafının ilk mərhələlərindən musiqi ilə vəhdət şəklində qoşa addımlamışdır.

5. AZƏRBAYCAN BƏDİİ SÖZ SƏNƏTİNİN ESTETİK QAYNAQLARI

Həyatda hər şeyin öz gözəlliyi, öz ülviyyəti, öz üstünlükləri var ki, bunlar estetika anlayışında cəmlənir. Odur ki, "estetika" sözünü ümumilikdə həm gözəllik, həm də gözəllik haqqında elm kimi dərk etmək olar. Bu gözəllik özünü dildə də göstərir. Dilin estetikası məhz dilin gözəlliyi haqqında elm olmaqla, bütövlükdə sistem təşkil edir.

İnsanın insanlığını, xalqın xalqlığını təsdiq edən ilkin şərt onun dilidir. Buna görə, dilin estetikası, gözəlliyi anlayışı da ilkindir, əzəlidir...

Qədim dövr Azərbaycan ədəbiyyatının dil və üslubunun biçimləşdiyi vaxtlardan dilin estetikası, gözəlliyi məsələsi onun özülündə dayanıb. Azərbaycan ədəbi dilinin, xüsusilə onun şer dili qolunun gözəlliyi - fikrin gözəl ifadə tərzi, insanın hiss və duyğularının bədii təsdiqi, arzu və amalının, təbiətin ecazkar gözəlliyinin xoş tərənnümü və s. həmişə ön nəzərdə olub. Hələ Zərdüşt Ata sözün qüdrəti, təsir gücü və kəsərindən dönə-dönə danışmışdı. Sözün güclü mübarizə silahı olduğunu, möcüzə yaratdığını xatırlamışdı. Sonra Qorqud Ata sözü gözəl, təsirli deməyin məharət olduğundan, gözəl sözün kəsəri və həyati gücündən söhbət açmışdı; onun "Kitabı"nda ana dili, ana nəfəsi, ananın zümzümə ilə söylədiyi sözlər ölüm ayağında yatan qəhrəmana can verir, yaralarına məlhəm olub, gözlərini açır, onu həyata qaytarır...

"Dədə Qorqud kitabı"nda gözəl söz, sözün estetik təsir gücü tanrını da yumşaldır, ona öz qərarını dəyişdirtdirir. Tanrının yerdəki "elçisi" Əzrailə qarşı qəbahət etmiş Dəli Domrul dediyi gözəl sözlərlə, şerlə tanrının könlünü ala bilir və onun qəzəbindən xilas olur.

Qorqud Ata gözəl sözün, dilin-danışığın, şirin kəlamın - şerin təsir qüvvəsini, estetik gücünü əyani təsdiq məqsədilə bu ədəbi üsula əl atmış, həyati misallarla sözünü demişdi.

Tarixi keçmişimizi, xüsusilə onun mənəvi aləmini, adət-ənənələrini yaxşı bilən, bilib də bir ustad yaradıcı kimi dərindən mənimsəyən böyük Nizaminin söz, dil haqqında dedikləri bu kəlamlarla tam həmahəngdir:

"Qələm ki, bu həyatda tərpənərkən ilk dəfə,
Sözdən yazdı, diqqətlə baxsan birinci hərfə.

Bu xəlvət pərdəsini açan zaman əlbəəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl".

Və:

"Tanrı yaratmışsa, hər nə, yaxşı bax!
Sözdən başqa bir şey yaşamayacaq"...

Nizaminin fikrincə, söz könüllər fəth edir; söz hisslə, duyğu ilə, qəlblə, ruhla, canla bağlı elə bir nemətdir ki, onu heç nə ilə əvəz etmək, heç nəyə dəyişmək olmaz:

"Söz könüldən başqa şey tanımaz kainatda,
Sözün şərhi kəlamdan artıqdır bu həyatda".

Və:

"Söz ruhdur, can üçün ruh bir dərmandır,
Can tək əzizliyi bəlkə bundandır". Və s.

Nizaminin müasiri ana dilində yazan şair Əli də bu mövqedə dayanmış, tarixi ənənələri, Nizami ideallarını davam etdirmişdi. Əli gözəl sözün, gözəl dilin vurğunu idi; gözəl nitqi, danışığı-söhbəti insana can, ruh və "rahatlıq" verən bir nemət sayır, bunu insanın zövqü-səfası "nəqşi" kimi qiymətləndirirdi. Əlinin amalınca, yaxşı söz, gözəl danışıq, şirin kəlam ali nemətdir: dünyada insanların - dostun, qardaşın, xüsusilə sevən qəlblərin bir-birilə ünsiyyətindən, danışığından, həyat eşqinin nəfəslə-sözlə, nitqlə ifadəsindən dadlı bir nemət, ruhun mənəvi qidası, "rahatlığı" varmı?! Məs., Yusifin "dadlı" sözü-söhbəti Züleyxanı məftun edir, onu dinlədikcə qəlbi açılır, "rahatlığı" artır:

"Aydur: ya Yusif, sənin sözün dadlu,
Usanmadan dinləmağa, nə rahatlu!!!"...

Yaxud, Beniyəmin qardaşlarına deyir ki, Misir padşahı gözəl danışır, onunla kəlam kəsməsi, sözü-söhbəti ağlını aparıb, onu eşitdikcə, sevincinin həddi-hüdudu olmur, dərdi-kədəri unudur, qəlbinin dərinliklərində bir "rahatlıq" duyur:

"Dili fəsih anın, sözü yulaq dadlu,
Anı eşidib həm rahətim artdı imdi",

- deyir.

Şair söhbəti, şəksiz, elə-belə, məqsədsiz eləmir, həyati misallarla, bədii üsulla təsdiq etmək istəyir ki, gözəl söz-danışıq, ağıllı nitq-kəlam can dərmanı, ruhun qidası, zövqü-səfasıdır...

Azərbaycan ədəbiyyatının, onun dil və üslubunun özülü dilin bu estetik təsir gücü və onun tərənnümü ilə qoyulub; sözə, dilə olan bu yüksək estetik münasibətlə yoğrulub. Hələlik "Dədə Qorqud kitabı"ndan dayaq götürən ədəbi dilin - sözün, danışığın estetikası tarixən güclü bir ənənə kimi davam edib gəlmiş, xüsusilə çoxəsrlik Azərbaycan poeziya dili və üslubunun əsas inkişaf leytmotivi olmuşdur.

Dilin estetikası təkcə şerə, şer dilinə aid keyfiyyət olmayıb, nəsr dilini də əhatə edir. Hələ "Orxon-Yenisey" mətnlərində, "Dədə Qorqud kitabı"nın nəsrində bu üstünlük vardı. Əbəs deyil ki, bir sıra görkəmli türkoloq-tədqiqatçılar (məs., F.M.Korş, İ.V.Stebleva və b.), dilinin daxili estetik məziyyətlərinə görə "Orxon-Yenisey" kitabələrinin poeziyasından danışmış və bu kitabələrin məhz poetik əsərlər olduğu qənaətinə gəlmişlər (*197*, s. 139.). Yenə əbəs deyil ki, "Dədə Qorqud kitabı"nın görkəmli tədqiqatçı və tərtibçiləri (məs., M.Erkin, H.Araslı və b.) mətnin nəsrini şerindən ayırmaqda həmişə çətinlik çəkmişlər...

Xatırlanan kitabələrin dilində nəinki sintaktik və şəkli, habelə sövti-estetik keyfiyyətlər özünü qabarıq şəkildə göstərir. Estetika, dilin gözəlliyi və incəlikləri sonra gələn görkəmli söz ustalarımızın - ədəbi şəxsiyyətlərin yaradıcılığında daha artıq özünə yer tapır, getgedə inkişaf edib sistem halını alır, öz çoxcəhətliyi və zənginliyi ilə ədəbi dil inkişafının mühüm aparıcı xətlərindən birinə çevrilir.

Bizdə çox az ziyalı-oxucu tapılar ki, min-min misra, beyt içərisində, məs., Nəsiminin və Füzulinin, Vaqifin və Vidadinin, Sabirin və Cavidin, Vurğunun və Rüstəmin dəst-xəttini, yəni dil üslubunu tanıyıb seçə, onları bir-birindən ayıra, fərqləndirə bilməsin. Burada onların imzalarının olub-olmaması şərt deyil.

Eyni sözləri M.F.Axundovun və H.B.Zərdabinin, C.Məmmədquluzadənin və Ə.B.Haqverdiyevin, N.B.Vəzirovun və C.Cabbarlı-

nın dram, nəsr əsərlərinin dili, üslubu, habelə F.Köçərlinin elmi və publisist əsərlərinin dili və üslubu haqqında da demək olar. Bu sənətkarların hər birinin özünəməxsus dil gözəlliyi, estetikası var. Azərbaycan dilçiliyinin, xüsusilə dil tarixinin vəzifəsi həm də bunun sirrini açmaq, elmi izahını verməkdir; burada isə dilin estetikası məsələlərinin tədqiqi daha artıq iş görə bilər.

Hər bir əsl sənətkarın, görkəmli söz ustasının fərdi dil üslubunun, yəni özünəməxsusluğunun müəyyənləşməsi və ümumi ədəbi dil axarında seçilməsi onun yaradıcılıq nailiyyətidir. Söz yox, bu nailiyyəti qazanmasında sənətkarın dilinin estetik keyfiyyətləri mühüm yer tutur. Bir sıra amillərlə yanaşı, yazıçının dili, dediyi sözün gözəlliyi və kəsəri, şübhəsiz, onun şəxsi istedadı ilə də sıx bağlıdır. Dildə sadəlik, aydınlıq, düzlük-dürüstlük, yığcamlıq, bədiilik, ifadəlilik, ahəngdarlıq, kəsərlilik və b.k. məsələlər bir fərdi yaradıcılıqda təzahür edib, bütöv bir sistem şəklini aldıqda tam yeni bir ədəbi məktəb yaranmış olur. Bu, ədəbi yaradıcılığın, deyərdik ki, hər sənətkara qismət olmayan çox mühüm nailiyyətidir.

Hazırda "dilin estetikası", "sözün estetikası" və yazıçının dilinin bu baxımdan tədqiqi Azərbaycan dilçiliyinin fəal tədqiqat obyektinə çevrilib. Bu sahədə atılan hər bir yeni addım gərəklidir, çap etdirilən kitab, yazılan məqalə təqdirə layiqdir. Görkəmli sənətkarın, söz ustasının dilində, üslubunda estetik keyfiyyətlər müxtəlif şəkildə: səslərin uyuşması, hecaların incə və qalınlığına görə bir-birini izləməsi, sözlərin daxili ahəngi, şəkli və sintaktik ifadə üsullarının müxtəlifliyi, sözlərin seçilməsi, düzülüşü, məna və məzmunca birləşməsi və bağlanması qaydaları, sinonimik cərgə, təkti-təkrir, məcazlar silsiləsi, cinas sözlər, həmqafiyə cinaslar sistemi və s. və i.a. özünü göstərə bilər. Bunları həm ayrı-ayrılıqda, həm də bir-birilə əlaqəli şəkildə araşdırmaq, izləmək olar.

"Qisseyi-Yusif" poemasında oğlu Beniyəmini tutub saxladığına görə Yəqub peyğəmbərin Misir padşahına (əslində, öz oğluna) yazdığı "rəhm" məktubundan ikicə bəndi xatırlayaq:

"Ələddəvam, anın hüznü bağrım yaqar,
Gözüm yaşı qana dönüb su tək aqar,
"Ah!" dcr irsəm, nəfəsimdən tütün çıqar,
Ələddəvam, yürəgimni dağlar imdi...

Ağlamaqdan iki gözüm nurı getdi,
Sədrim içrə yürək yandı, bağrım göydi,
Bcniyəmin qatınızda nə suç etdi?
Nə mənidən anı məhbus qıldun imdi?"

XII-XIII əsrlərdə ata-analarımızın ürəyinin dərinliklərindən qopub gələn çırpıntıları bədii şəkildə ana dilində belə ifadə olunub, bədii təfəkkürü dillə ifadəsini belə tapıb. İlk baxışda, söz yox, burada dilin gözəlliyi, estetik təsiri fikir aydınlığından yaranır. Bununla belə, bu gözəlliyi təsdiq edən və bir-birini tamamlayan digər amillər də var:

1) məzmunla forma vəhdəti - fikri ifadənin özünəməxsusluğu; ana dilimizin bugünkü səviyyəsi baxımından da diqqəti cəlb edən poetik fikir və onun xoş təsiri;

2) ana dilimizin hələ o vaxtlar əcnəbi sözlərdən təmiz olduğu və buna uyğun da aydınlığı, rəvanlığı;

3) fikrin qanadlı ifadələr, məcazlarla verilməsi ("Anın hüznü bağrım yaxar", "Gözüm yaşı qana dönüb su tək axar", "Ah deyərsəm, nəfəsimdən tütün çıxar", bütün bunlar isə "ürəyimi dağlar". Və "Ağlamaqdan iki gözüm nurı getdi", "Sədrim içrə yürək yandı, bağrım göydi");

4) üç-dörd əcnəbi sözün ("ələddəvam" - daimi olaraq; "sədr" - sinə, döş; "məni" - səbəb, məna; "məhbus" - dustaq) işlənməsinin vaxtına görə təbii görünməsi. Bu sözlər də, öz növbəsində, dili-danışığı vaxtına çəkməyə, ona tarixi kolorit verməyə az kömək etmir. "Ələddəvam" təkrarları ərəbcədir, şerə - bəndə xüsusi ton vermək, vurğunu mətləb üstə çəkmək, fikri qabartmaqla, dilə təbiilik də gətirir, söhbəti, yazılan məktubun dil üslubunu reallaşdırır: o zaman belə danışıla, məktub da belə yazılar, yeri düşəndə ərəb-fars sözləri işlətməmək olmazdı;

5) XII-XIII əsrlərin (və, söz yox, daha əvvəlki dövrlərin) şer-sənət səliqəsi: vəzn, ölçü dəqiqliyi, sözlərin nizamla düzülüşü, "qəlibi". Elə bir səliqə və qəlib ki (4-4-4=12), təxminən beş min misralıq poemanın əvvəlindən sonunadək gözlənilir, hər bənddə tamamlanan fikir dördüncü misrada "imdi" sözü ilə indiki zamana bağlanır.

Bu orijinallığın özü gözəlliyin mühüm bir şərti kimi diqqəti cəlb edir; poeziya dilimizin o vaxta qədər keçib gəldiyi inkişaf yolu, ənənə barədə təsəvvür yaradır... Burada müasir "sərbəst şer" hoqqabazları deyə bilərlər ki, bu dəqiqlik, bu ölçü, bu "çərçivə", misraların və bəndlərin axıradək bu cür "qəlibə" salınması yeknəsəqlik yaratmırmı, oxucunu yorub əldən salmırmı?! Belə zəhmət, ağır yaradıcılıq əzabları tələb edən "çərçivə" bəşəri ideyaları, emosional hiss və duyğuları tərənnüm üçün imkanları daraltmırmı?! Bu misraları, bu bəndləri qırıb-tökmək, parçalamaq gərək idi...

Məsələ də elə bundadır. "Qisseyi-Yusif" poemasının özünəməxsus dili, üslubu ilə yanaşı, elə estetik yükü var, bu "dəqiq ölçüdə", bu "çərçivədə" hadisələr bir-birinə elə bağlanır, əhvalatlar bir-birini elə izləyir, dünya, insanlıq, həyat haqqında fikirlər, ibrətli kəlamlar elə tamamlanır ki, oxucunu çəkib aparır, onun zövqü çoxcəhətli təmin olunur. Deməli, estetik zövqün ovunması və inkişafı təkcə məzmunla və ya təkcə forma ilə başa gələ bilməz, bunların vəhdəti gərəkdir. Min, min beş yüz ildən artıq bir müddətdir ki, bizim klassik şerimiz bu vəhdəti, bu füsunkarlığı ilə, həyatı estetik qavrama yolu ilə zövqləri oxşayıb, qəlbləri fəth edib, ruhları təzələyib, xalqımızın zövqü, mənəvi tərbiyəsi və onun inkişafında öz işini görüb...

Bütün bu deyilənlər ana dilimizin XII-XIII əsrlər (və, söz yox, həm də ona qədərki) real mənzərəsini yaradır, bilik və təsəvvürlərimizi genişləndirir, buna görə zövqləri də oxşayır, qürur hissini artırır, şair Əlinin təbirincə desək, adama ruhi-mənəvi "rahatlıq" verir.

Azərbaycan dilinin tarixi-estetik imkanları hələ məhz XII-XIII əsrlərdə belə geniş və çoxcəhətli idi, öz bədiiliyi və gözəlliyi ilə diqqəti cəlb edirdi.

Burada hələlik tək bircə teli - cinas sözlər və cinas qafiyələr düzümünün dilimizə tarixən gətirdiyi təzəlik və estetik gözəlliyi izləyib bəzi nəticələrə gələk.

Cinas sözlər düzümü poeziya dilimiz və onun estetik keyfiyyətlərilə daha çox bağlı olub, əsasən qafiyələrdə özünü göstərir. "Dədə Qorqud kitabı"nın şerlərində fikrin cinas üstə deyildiyi anlar var. Şair Əlidə cinas qafiyyələr işlədilib; cinas sözlərdən, qafiyələrdən istifadəyə get-gedə maraq artıb. "Əhməd hərami dastanı"nda bu, bir qədər də qabarıb, əsl yoluna düşüb:

"Gələlüm biz Güləndamın *sözünə*,
Biləsin vəsfi-halı nə, *sözü nə?*"

Qazi Əhməd Bürhanəddin, Nəsimi, Kişvəri, Xətib Təbrizi və başqalarında cinas sözlər, qafiyələr daha da durulur, inkişaf edir, öz məna zənginliyi, məzmun və forma gözəlliyi ilə daha artıq diqqəti cəlb edir.

Qazi Əhməddə:

"Dedüm ləbüni sorsamü *əmsəm olamı*?
Bu dərdümə bənüm əcəb *əmsəm olamı*?
Çün irməz ölüm vəslinə, düşmüşəm irax,
Duşda xəyalü gül ləbün *əmsəm olamı*?"

Və

"Səhərdə canuma irən *nəsimi*,
Ana zər bənzədiməzəm, *nə simi*.
***Nə "im* edən *cəhimi sün"ün* ilə**
***Cəhim* edər bana sənsiz *nə"imi*.**
Nə mimi aç, nə simi göstər andən
Nə sini göstərirsən, bu *nə mimi*?"...

Birinci misalda "əmsəm" sözləri şəkilcə eynidir və eyni cür də səslənir. Lakin mənaları başqadır; iki "əmsəm" feli ilə dərman, əlac mənalarında işlənən "əmsəm" ismi cinas qafiyə yaradıb; bunlar göz cinaslarıdır.

İkinci misrada göz cinas qafiyələri daxildəki eyni şəkilli sözlərlə də tarazlaşır, onlara növbəti qulaq cinasları (*nəimi, nə mimi*) da qoşulur. I beytdə *nəsimi* (meh, səhər yeli) sözü ilə *nə simi* (nə gümüş+ü) ifadəsi göz cinaslarıdır; II beytdə *nəimi* (nemət+im+i, firavan həyatımı, cənnətimi) cinası daxildəki *nəim* sözü ilə uzlaşmasa da, *nəsimi // nə simi* sözləri ilə qulaq cinası yaradır; III beytdə daxildəki *nə mimi* (ərəb əlifbasının dodağa bənzədilən, səsi) ilə *nə mimi* qafiyəsi və I və II beytlərdəki sözlərə qulaq cinası kimi qoşulur... Söz yox, *cəhim, cəhim+i* (cəhənnəmim, cəhənnəmim+i) *sünün* (sənətin, qüdrətin), sini (ərəb əlifbasının dişə bənzədilən dişli səsi), *nə mimi, nə simi* (gümüş dişlərini) kimi qulaqda eyni səslənən, lakin ayrı-ayrı məna daşıyan söz və ifadələr də şerin ümumi ahəngi və musiqi axarına az təsir göstərmir. Bu musiqi və axıcılığa eyni səslərin təkrarı (*s, s, s, s, s, s, s, s, s, s, s,* - 11 dəfə; *ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə,ə, ə, ə, ə, ə, ə, ə, ə, ə, ə,* - 27 dəfə,..), eyni hecaların təkrarı (*nə, nə, nə, nə, nə, nə, nə, nə* - 8 dəfə; *mi, mi, mi, mi, mi, mi, mi, mi* - 8 dəfə,..) da xidmət edir və hb.

Nəsimidə:

"Hər kim ki, baxa bir dəm dilbər qaşı *yasına*,
Navəklərinə qarşu ya can tuta, *ya sinə*.

Dedim sənə, ya nasch, yar tərkin edə bilmən,
Bil doğru bu sözümnü sınamavü *ya sına*.

Bimari-qəmi-eşqin timar ilə önülməz,
Yarəb, nola, bir sorsan bu haləti *yasina*.

Daş alubanı dilbər, könlüm şişəsin atar,
Qarşu tutaram, şişə bilməm qala, *ya sına*.

Qaşı yayını qurmuş, qanımı tökər, billah,
İnanmaz isən baxgil qolları *boyasına*.

Məhbubi-dilaramsan bir bax mana sən, yarəb!
Yarəb, dilərəm səndən bu sureyi-*yasina*.

Xəstə Nəsimi, yarın əhvalını heç sormaz,
Sormağına çün gəlməz, barı gələ *yasına*".

Ana Azərbaycan dilinin qrammatik imkanlarından məharətlə istifadə gözəl bir şeir-sənət incisi yaradıb. Ustad şair təkcə sın(maq) sözü üzərində 8 cinas qafiyə işləyib: qaşı *yası+na* - ya can tuta, *ya sinə* - bu sözümnü sınama və *ya sına* - bir sorsan bu haləti *yasin+ə* (a) - şişə bilməm qala, *ya sına* - baxgil qolları *boya+sı+na* - bu sureyi-*yasin+ə* (a) - barı gələ *yas+ı+na.* Ancaq quran ayəsi olan "yasin" sözü təkrar edilib. Lakin bu da biri ayrıca, digəri izafət birləşməsində götürülüb. Beləliklə, 8 müstəqil söz-tərkibdən ibarət cinas qafiyə alınıb ki, hər birisi müstəqil mənada işlənir: 1) yasına-*yayına*, 2) ya sinə - *döş, sinə,* 3) ya sına-*sına, sınaqdan keçir*, 4) yasinə - yasına-*yasin surəsinə,* 5) ya sına-*sına, parçalana,* 6) boyasına - *qan rənginə, boyasına,* 7) sureyi yasinə-*yasin surəsinə,* 8) yasına-*yasına, mətəminə.* Oxucunu, ya dinləyicini heyran edən, onun hiss və duyğularını, zövqünü oxşayan da ilk növbədə budur. Bu hələ harasıdır? Şeirdə bu cinaslara uyğun məzmun, yüksək bədii gerçəkliyə əsaslanan bənzətmələr, məcazlar, qarşılaşdırmalar, metafor epitetlər var.

Birinci beytdə şair-aşiq gözəlin qaşını yaya, kirpiklərini (nəvəkləri) oxa qiyas edir; hər kim ona baxsa, gərək canından əl çəksin, çünki qaşların yayında kirpik-oxlar onun sinəsini dələcək, o buna hazır olsun...

İkinci beytdə şair-aşiq nəsihətçiyə, ona öyüd-nəsihət verənə müraciətlə ("ya naseh!") deyir ki, onun bu sözünü sınaqdan keçirsə də, keçirməsə də o, yarı tərk edə, ondan əl çəkə bilməyəcək...

Üçüncü beytdə şair-aşiq eşq xəstəliyinin gətirdiyi qəm-qüssənin tumarla ovunacağına ümid etmir, tanrıya (yarəb!) müraciətlə, bu məsələdə "yasin surəsi"ndən sorub-öyrənib onun dərdinə bir əlac, çıxış yolu olub-olmadığını sual edir...

Dördüncü beytdə şair-aşiq gözəlin daş alıb şişə könlünə atacağını gözləyir; sinəsini qabağa tutmağa hazırdır, amma narahatdır ki, bu şişə sağ qalacaq, ya sınacaq...

Beşinci, altıncı, yeddinci beytlər də beləcə, ali hiss və duyğuların bədii qavrayışla tərənnümüdür. Belə hiss və duyğular hər zaman olub və olacaqdır. Söz ustasının xalq tərəfindən həmişə sevilməsi məhz onun bu ali məşğuliyyəti, sənəti ilə bağlıdır; həyat həqiqətinin, əsl insani hiss və duyğuların, onu yaşadan həyat eşqi və amalların bədii gerçəkliklə tərənnüm ustalığı ilə bağlıdır...

İndi görək, Nəsimidən sonra gələn ədəbi nəsildə söz yaradıcılığının bu teli nə şəkil alıb, necə davam edib gəlib?! Nəsimidə haqqında danışılan cinasların baş sözü "sın, sın(maq)"dan bir əsr sonra eyni məqsədlə necə istifadə olunub, digər bir sənətkar bu söz üzərində necə "əməliyyat" aparıb, yaradıcılıq işi görüb?

Kişvəridə:

"Köksimi qalxan qılıb mən oxların qarşusına
Gər inanmazsan, bir oq atgil mənə *qarşu, sına*.

Qəmzə oxun qaşların yayından, ey əbrukəman!
Sən atarsan canəvü könlüm dutar *qarşusına*.

Ey könül, gəl aşiqisən nam ilə namusı qoy,
Kim ki, aşiqdür anun namı nəvü *namusı nə?*

Qıldı dövrü ruzigarımnı qara qismət güni,
Sürmeyi naz ol çəkəni *nərgisi-cadüsuna*.

Kişvərinin sözüdür inci, anı sındırmagil
Kim, bahasından düşər, çün *daneyi-incü sına*".

Bu şer də Kişvəriyə qədərki poeziya dilimizin şifahi, həm də yazılı qolunun yüksək məziyyətidir. "Dədə Qorqud" şerinin izi görünən bu sənətkarlıq məharəti öz inkişafının zirvəsinə qədər yüksəlir.

Şerin cinasları dilimizin imkan və iqtidarının geniş olduğunu göstərir. Şair ana dilinin sövti, şəkli və söz yaradıcılığı imkanlarına müraciət edib maraqlı cinas qafiyələr alıb, bunlar isə həm göz, həm də qulaq qafiyələri olmaqla, bu şəkillərdə özünü göstərir.

1) dilin sövti imkanlarına görə: - *sı+na - sına - sinə, sın+a, sinə, -sı+nə? sın+a* cinasları qulaq ahəngi üstündə düşünülmüş.

2) dilin şəkli imkanlarına görə: *"oxların qarşu+sı+(n)a", "nərgisi - cadu+sı+(n)a.* Sözlərə qoşulan şəkilçilər növbəti "sinə" ismi və "sına" feli ilə cinas yaratmış.

3) dilin sintaktik imkanlarına görə: "Oq atgil mənə qarşu, *sına*", "könlüm tutar qarşu, *sinə*", "namı nəvü *namusı nə*?", "*daneyi-incü sına*".

Bütün bunlar isə dilin mövcud qrammatik imkanları və poetik incəliklərinin sintezi əsasında yaranmış: *a, ə* və *ı, i* məxrəcə görə bir-birinə yaxın səslər olduğundan qulaq ahəngi - cinas alınmışdır.

Şerin dil və üslubuna bədii vüsət verən qiyaslar, qarşılaşdırmalar, örtülü və açıq bənzətmələr də diqqəti cəlb edir.

Şerin *birinci* beytində şairin köksü qalxana, sevgilisinin kirpikləri oxlara qiyas edilir və şair sevgilisinə müraciətlə deyir: inanmırsan, sınaq üçün bir ox at!..

İkinci beytdə qaşlar yayla, sevgilinin naz-qəmzəsi oxla qiyas edilir və şair "ey əbrukəman!" - müraciətilə sevgilisinə deyir: o qəmzə oxunu qaşların yayından atsan, canım-könlüm ona qarşı sinəsin gərər...

Üçüncü beytdə könül şan-şöhrət, ar-namusa qarşı qoyulur: şair əsaslandırır ki, eşq-məhəbbət dəmində bu keyfiyyətlər nə karədir, bunları kənara qoy...

Dördüncü beytdə sürmə naz, göz cadu ilə qiyas edilir: naz sürməsi cadu gözlərə çəkilib elə qaralıb ki, şairin "dövrü ruzigarını da qara qismət qılmışdır".

Beşinci yekun beytində şair bütün bu dediyi sözlərin bütövlüyünə inanır və onu inci ilə müqayisə edir; xatırladır ki, onu sındırmaq olmaz, inci sınanda qiymətdən düşdüyü kimi, şair sözü də belədir, onu sındırmaq, qiymətdən salmaq olmaz.

Kişvərinin məcaz və bədii tapıntıları öz əsilliyi ilə seçilir. Şairdə təbiətən sözü obrazlı deməyə, bədii gerçəkliyə meyl güclüdür,

bədii sözə özünün münasibəti var; onun fikrincə, söz incidir, "inci danəsi" sınanda qiymətdən düşdüyü kimi, bədii söz də belədir, onu kəssən, onu "sındırsan, bahasından düşər", qiyməti azalar.

Kişvərinin şerlərində bədii gerçəklik yüksək səviyyədədir. Cinas üstündə deyilmiş beytlərdə fikir məhz bədii gerçəkliyə əsaslanır. Silsilə bənzətmələr, insani münasibətlərə müxtəlif cəhətlərdən yanaşma fikrə bədii vüsət, poetik qanad verib; sözlər bir-birinə müxtəlif səmtdən calaşdırılıb; köks qalxanla, ox naz-qəmzə ilə, qaş yayla, kamanla qiyas edilib. "Qəmzən qaşların yayından ox atar", "Köksüm qalxan olub oxların qarşısını alar..." - fikrin bu şəkildə metaforik ifadə tərzi hadisəni daha canlı, daha rəngli, daha qabarıq və təsirli edir. Məsələ burasındadır ki, bütün bunlar, yəni köksün qalxan, naz-qəmzənin ox, qaşın yay olması və s. real yox, bədii həqiqət kimi dərk edilir, insan xəyalını qanadlandırır, onun estetik zövqünü oxşayır, ona mənəvi qida verir.

Bədii söz ustasının, sənətkarın yaradıcılıq uğurları, ilk növbədə, məhz bu keyfiyyətlərlə ölçülür, bu məziyyətlərlə bağlı olur.

Kişvərinin şerin sonluğunda dediyi fikir bütünlükdə onun əsərlərinin dili və üslubuna aiddir. Şair sözünü, dilini inciyə bənzətməkdə yanılmamışdı, bu, çox real obrazdır. Bu, şairin şeir sənətinin estetik mahiyyəti ilə bağlıdır; bu fikri onun cinas üstündə dediyi incilərin incisi sayıla bilən şeirlərinə daha artıq aid etmək olar.

Həbibi Təbrizidə:

"Billah, ey sərvi-rəvan, durgil səhər, *gül şən degül,*
Gün yüzün şəmi önündə ta gülə *gülşəndə gül.*

Cümlə aləm gülşən olsa, gülsə hər dəm yüzümə,
Çün gülər yüzün mənə gəlmiyə, ol *gülşən degül.*
Rövzeyi-hüsnü cəmalın ərz edəldən, ey sənəm,
Güldü bağü lalə, nəsrin, süsənü *gülşəndə gül.*

Bitirəldən gülistanı, bağibani-kainat,
Bitmədi bir gül yüzün misli dəxi *gülşən degül.*

Lalə yüzün həsrətindən oda yaxar içimi,
Qönçə lələn qeyrətindən su olur, *gülşən degül.*
Sünbülün vəsfin səbadən eşidübdür məgər?
Anın üçün yelə verür xirmənin *gülşəndə gül.*

Bu Həbibi irişəldən növbahari-vəslünə,
Aləm ana cənnət oldu, yalnız *gülşən degül*".

Cinaslar orijinaldır, ustadanədir. Şair "gül", "şən", "degül" (deyil), "gülşən" sözləri, "də" şəkilçisi və "de" hecası ilə gözəl cinas rədiflər almışdır: "Gül şən degül" ("gülşəndə gül") - "gülşən degül"... Dilin həm sövti, həm şəkli (morfoloji), həm də sintaktik imkanlarından lazımınca istifadə olunub. Müasir "deyil" sözünün klassik dilimizdə "degül" şəklində yazılıb-oxunması da nəzərə alınmışdır.

Qəzəlin ümumi ahənginə söz düzümü, digər ahəngdar sözlərin və şəkilçilərin *(-gil, gül, gülə, gülşən, gülsə, gülər, güldü, gülsəndə, bir gül)* seçilməsi də müəyyən axar verir, şeri kamilləşdirir. Qəzəldə epitetlər, bənzətmə və təşbihlər elə düşünülmüşdür ki, cinasları tamamlayır, həmahənglik yaradır: "Gün yüzün şəmi önündə ta gülə"... "Cümlə aləm gülşən olsa", "Gülər yüzün mənə gəlmiyə"., "Güldü bağ lalə"... və s.

Buradan da Həbibinin fikri ifadə tərzinin əsilliyi, özünəməxsus söz gözəlliyi alınmış olur.

Azərbaycan ədəbi dilinin şifahi qolu üzrə cinas sözlərin, qafiyələrin yaratdığı estetika daha artıq diqqəti cəlb edir. Xalq yaradıcılığına, şifahi-bədii dilə meylli sənətkarlarda bu keyfiyyət daha qabarıqdır.

Mənəvi və estetik fikir tariximizin qədim qatlarından XIV-XVI əsrlərə və ondan bugünədək xalqımızın bədii və estetik təfəkküründə inkişafı sözlə, sazla-musiqi ilə bağlıdır; onun mənəvi aləminin kamilliyi və estetik zövqünün tərbiyəsi işində bədii söz ustalarını - şair, nasir və b.-nın yerini heç kim verə, heç nə əvəz edə bilməz.

Azərbaycan ədəbiyyatında "təcnis" (təcnis, cığalı təcnis, dodaqdəyməz təcnis, dodaqdəyməz-cığalı təcnis, müstəzad təcnis və s.) adlanan orijinal bir janrın, bədii yaradıcılıq növünün meydana çıxması və for-

malaşması bu dildəki estetik meyllərin tarixən güclü olması ilə bağlıdır; cinas sözlər, cinas qafiyələrin təbii axarı öz inkişafının zirvəsində bu janrı yaratmışdır. Nəsimidən, Kişvəridən, Həbibidən güclənib gələn söz yaradıcıldığının bu zərif növü Sarı Aşığın, Vaqifin, Nəbatinin, Aşıq Ələsgərin estetik təfəkkürü və ustalığı ilə zirvəyə yüksəlmişdir. Bu sənətkarlarda cinas üstündə deyilmiş şerlər əvəzsizdir, dil gözəlliyi, cinas sözlərin, cinas qafiyələrin məna, məzmun və forma yetkinliyi öz inkişafının elə səviyyəsindədir ki, ayrıca və geniş tədqiqata layiqdir.

6. ƏDƏBİ ŞƏXSİYYƏTİN DİLİ VƏ ÜSLUBUNUN TƏDQİQİ

Müəyyən dövrü və dövrləri təmsil edən görkəmli yazıçının, ədəbi şəxsiyyətin dili və fərdi üslubunun öyrənilməsi hazırda dünya filologiya elminin diqqət mərkəzində duran məsələlərdəndir.

Qərb dilçiliyində bu məsələ ilə əlaqədar fikirlər müxtəlifdir.

K.Fossler (1872-1949), onun davamçıları - L.Şpitser və b. deyirlər ki, dil üslubu tamamilə bu və ya başqa bir görkəmli yazıçının fərdi zövqü ilə əlaqədardır. Fossler-Şpitser məktəbinə görə, yazıçılar istədiyi şəkildə "dilin normalarını dəyişdirə" bilərlər; onlar təkcə üslubda deyil, ədəbi dil sahəsində də tam nüfuz sahibidirlər (*112*, s.6).

Ş.Ballinin (1865-1947) "Üslubiyyat" əsəri bu fikrin tam əleyhinədir. Balli belə hesab edir ki, dil üslubunun ayrı-ayrı yazıçıların üslubu ilə heç bir əlaqəsi yoxdur; odur ki, dil üslublarını ədəbiyyat vasitəsilə öyrənmək olmaz. Onun fikrincə, yazıçının dili estetik mahiyyət daşıdığından, bu barədə dilçi deyil, ədəbiyyat tarixçisi və ya tənqidçi düşünməlidir. Balli yazır: "Yazıçının və natiqin üslubunun öyrənilməsi tamamilə başqa işdir... "Üslub insanın özüdür" - çox tənqidçi deyilmiş sözdür; bu fikri rədd etməsək də, vurğulayırıq ki, o bizi belə iddiaya gətirib çıxara bilər ki, guya, tutaq ki, Balzakın üslubunu öyrənmək onun fərdi üslubunu öyrənmək deməkdir. Bu, kobud səhv

olardı" (*112*, s.36). K.Brunnerə görə isə, "Üslubiyyat qrammatikadan daha çox, ədəbiyyat tarixinə aiddir" (*130*, s.7).

Birincilər üslubu yazıçının fərdi zövqü ilə bağlayır, yazıçının rolunu çox şişirdir, - "dilin normalarını dəyişdirmək"də onun tam sərbəstliyini göstərirlər. İkincilər isə, yazıçının fərdi üslubunu öyrənməyi ümumi dil üslubundan ayırıb, dilçinin vəzifəsinə daxil olmayan bir iş hesab edirlər. Əlbəttə, bu fikirlər birtərəflidir. Ədəbi dil və ədəbi-bədii dil ayrı-ayrı sahələr olsa da, bunları ümumxalq dili, milli dil zəmininde yetişib inkişaf edən kateqoriyalar kimi vəhdət halında götürüb öyrənmək lazımdır.

Məsələyə alman dilçisi Adolf Baxın münasibəti də maraqlıdır. Bax dilin inkişafında "görkəmli şəxsiyyətlərin" mühüm rol oynadığını qeyd edir. O yazır: "Əgər (bütün mexaniki proseslərin əhəmiyyətini nəzərə almaqla) təsdiq edilirsə ki, dilin formalaşması bütün dil ümumiliyində başa gəlir, onda, hər halda unutmamalı ki, dildəki hər bir yeni hadisə, fərq eləməz, o, yerlidir, yaxud gəlmə, ilk əvvəl *müəyyən şəxsiyyətlə* əlaqədar olur. Bu hadisə bütün ümumiliyin o vaxt malı ola bilər ki, həmin ümumiliyin üzvlərində iz buraxsın və onlar tərəfindən qəbul edilsin. Çox fərdlər, çox adamlar yüzillər və bəlkə də, min illər boyunca mütəmadiyən (lakin heç də ümumxalq dilində danışanların hamısı yox) dildəki o yeniliyin yaradıcısı olublar ki, uzun zaman bütün cəmiyyət üzvlərinin, yaxud cəmiyyətin ayrı-ayrı sahələri və qruplarının əbədi malına çevrilir.

Buna görə də, dil bütünlüklə cəmiyyətin milli yaradıcılığıdır. Biz ancaq bu mənada deyə bilərik: *"dili xalqın özü yaradır"* (124, s.22, 170, 124). A.Bax bir az da irəli gedərək yazır: "Lyuteri "alman yazılı dilinin yaradıcısı" adlandırmaq olar". - lakin alim dərhal əlavə edir: - "dilin səs və qrammatik sistemində yox, ilk növbədə üslub sahəsində və dilin bədii işlənməsində "Siseron latın dilinin atası sayıldığı kimi, Lyuter də alman dilinin atasıdır" (*124*, s.129-131).

Adolf Bax qotlarda IV əsrdə keşiş Bulfilin, alman dilinin tarixində XVI əsrdə Martin Lyuterin, XVII əsrdən XX əsrə qədərki yeni

mərhələdə isə Şiller və Şopenhauerin mövqeyindən xüsusi olaraq danışır; Klobştok, Lessinq, Göte və b.-nın xidmətinə ayrıca yer verir.

Rus dilçiliyində məsələ daha geniş qoyulur.

F.İ.Buslayev hələ keçən əsrdə rus dilinin tarixi qrammatikasını bu mənbələr əsasında tədqiq etmişdi:

"1) qədim slavyan dili, 2) başqa slavyan ləhcələri, 3) rus xalq dilinin özü, 4) bizim müasir kitab dilimizin yaradıcıları olan nümunəvi yazıçılar (*134*, s.134-196).

F.İ.Buslayev nümunəvi yazıçıların rus dilinin inkişafındakı rolundan danışaraq yazır: "Rus dili ilə qədim slavyan dili arasındakı mühüm fərqləri və onların qarşılıqlı əlaqəsini ilk dəfə Lomonosov göstərdi. Karamzin ədəbi dili dövrünün sabatlı ictimai təbəqəsinin və qədim rus yazılı abidələrinin dilinə yaxınlaşdırdı. Puşkin Karamzinin başladığı işi təkmilləşdirərək kitab dilini, ona danışıq dilinin sadə şəkillərini əlavə etməklə canlandırdı. Müasir dilimizin formalaşmasında Puşkindən başqa, Jukovski və Krılov da fəal iştirak etmişlər. Birincisi qədim slavyan və kitab dilinə, ikincisi isə sadə danışıq dilinə əsaslanmışdır. Puşkin fərqinə varmadan qədim slavyan kitablarında, rus abidələrində və yaxud sadə danışıq dilində olan doğma söz xəzinəsilə müasir dilimizi zənginləşdirmək nümunəsini vermişdir" (*134*, s.36). Bununla alim təsdiq edirdi ki, rus dilinin zənginləşməsi və inkişafında Lomonosovla birgə öz güclü bədii yaradıcılıqları, bədii dilləri ilə Puşkin, Jukovski, Krılov və b. ədəbi şəxsiyyətlər böyük rol oynamışlar. Həm də bu rol *nümunəvi* olmuşdur.

V.V.Vinoqradov yazır: "Yazıçının dilinin, hər şeydən əvvəl bədii ədəbiyyatın dilinin öyrənilməsi problemi əsrimizin başlanğıcında bədii və ya poetik nitqin tədqiqi problemi kimi yenidən maraq oyatdı. Artıq Potebnya və onun ardıcılları yazıçının dilində, bədii ədəbiyyatın dilində poetik sözün öyrənilməsinin elmi əsaslarını tapdılar" (*139*, s.11). V.V.Vinoqradov yazıçının fərdi üslubunu sistem adlandırır və onu tarixi inkişafda götürüb öyrənmək lazım gəldiyini göstərir: "Yazıçının fərdi üslubu bədii ədəbiyyatın müəyyən

inkişaf dövrünə xas olan ifadə vasitələrindən fərdi-estetik istifadə sistemidir. Əgər yazıçının yaradıcılığı bir əsərlə məhdudlaşmırsa, bu sistem dinamik sistemdir, dəyişməyə mayildir.

Beləliklə, yazıçının üslubu onun tarixi inkişafı ilə, dəyişmə və ehtizazı ilə, janr müxtəlifliyi ilə öyrənilməlidir (*139*, s.85-86). Eyni məsələ ilə əlaqədar A.İ.Yefimov yazır: "Bədii əsərlərin dili nümunəvi ədəbi ifadələri və üsulları yaymaqla bərabər, ədəbi dilə müxtəlif ifadə vasitələrini gətirmək işində bir nümunə və meyar rolunu oynayır. Buradan da ədəbi dilin formalaşması və milli nitq mədəniyyətinin inkişafında yazıçının şərəfli və məsuliyyətli rolu aydın olur; V.Hüqonun obrazlı sözləri ilə desək, məhz "dil böyük sənətkarların şahanə yürüşündən ehtizaza gəlir" (*170*, s.62).

Buna görə, V.V.Vinoqradov, A.İ.Yefimov rus dilinin inkişafı tarixində rus klassiklərinin rolundan ətraflı danışmış, bu sənətkarların dilinə, üslubuna aid ya ayrıca iri həcmli əsərlər yazmış, ya da öz tədqiqatlarında onlara xüsusi fəsil və bölmələr ayırmışlar...

Beləliklə, bədii əsərlərin dilinin - hər hansı bir xalqın söz sənəti və bədii təfəkküründün inkişafı tarixində görkəmli yer tutan sənətkarların dilinin və fərdi üslubunun tədqiqi yeni, müstəqil bir elm sahəsi kimi təşəkkül tapmaqda və formalaşmaqdadır. V.V.Vinoqradov deyir: "Mən qəti şəkildə belə bir əqidədəyəm ki, bədii əsərlərin "dilinin" (və ya, daha dürüstü, üslublarının) tədqiqi filologiya elminin həm dilşünaslığa, həm də ədəbiyyatşünaslığa yaxın olan, lakin bununla belə, birincidən də, ikincidən də fərqlənən xüsusi bir predmetini təşkil etməlidir" (*139*, s.3-4).

Ədəbi-bədii dil həyatı sadəcə dərk etməyə deyil, həm də onun estetik təsdiqinə xidmət edir. Canlı dilə, danışığa xas olan ayrı-ayrı keyfiyyətlər bədii dildə seçilir, nizama salınır, bədii səviyyəyə yüksəldilir, estetik mahiyyət kəsb edərək, sistem şəklini alır. Buna görə, yuxarıdakı fikrə əlavə edirik: bizcə, bədii əsərlərin dilinin tədqiqi təkcə filologiya elminə - onun ədəbiyyatşünaslıq və dilçi-

lik sahələrinə deyil, həmçinin fəlsəfə elminə, onun estetika sahəsinə yaxın olan, lakin bunların hər üçündən fərqlənən ayrıca, müstəqil bir fənn, tədqiqat sahəsi olmalıdır.

Biz tədqiqatımızı məhz bu istiqamətdə aparmışıq.

Azərbaycan ədəbi dilinin çoxəsrlik və zəngin tarixi var. Zəngin ədəbi dil irsimizi - klassik ədəbiyyatımızın dil və üslublarını, klassiklərimizin dilini, fərdi üslubunu və söz ustalığını tarixi baxımdan diqqətlə, elmi-nəzəri səviyyədə öyrənməyi ilkin vəzifələrdən biri kimi qarşıya məqsəd qoymuşuq.

7. ƏDƏBİ ŞƏXSİYYƏT, ZAMAN VƏ DİL

"Zaman və şəxsiyyət", "ədəbi şəxsiyyət və dil" müasir ədəbiyyatımızın (təbii olaraq, müasir elmimizin də) mühüm problemlərindəndir; məsələnin, istər elmi, istərsə də bədii həllində bu gün belə çaşğınlıq müşahidə edilir. Bu problem qədim dünyamızın da mühüm problemlərindən olub; məsələyə münasibətdə, xüsusilə "zaman və şəxsiyyət" probleminin qoyuluşu və həllində ululərımız bizə ancaq örnək ola, kömək edə bilər. Ulular bizdən ayıq olub, həqiqəti duyub, məsələni bədii cəhətdən düzgün həll edə biliblər...

Şerin, sənətin inkişafında, ədəbi şəxsiyyətin yetişməsi, parlaması, fərdi dili və üslubunun müəyyənləşməsi və özünəməxsus şəklə düşməsində dövr, zaman, ictimai mühit mühüm rol oynayır.

Bunu inkar etmək olmaz.

Lakin bəzən sənətkar, söz ustası fitri istedadı, qüdrəti, sənət düha-sı ilə öz işini görür, tarixi rolunu oynayır və zəmanəsini qabaqlayır.

Bunu da inkar etmək olmaz.

Kişvəri əbəs yerə deməmişdi ki:

"Kişvəri şeri Nəvai şerindən əksük iməz,
Bəxtinə düşsəydi bir Sultan Hüseyn Bəyqarə".

Lakin o yazıb yaratdı; öz zəmanəsində əsl qiymətini almasa, arzu etdiyi kimi parlaya bilməsə də, əsrlər onun söz incilərini müha-fizə edib saxladı, yaşatdı, tarixin sınaqlarından çıxarıb, onun söz dünyasını, ədəbi şəxsiyyətini təsdiq etdi... .

Füzuli əbəs yerə deməmişdi ki:

"Bir dövrdəyəm ki, nəzm olub xar,
Əşar bulub kəsadi-əsar.
Ol rütbədə qədri-nəzmdir dun
Kim, küfr oxunur kəlami-mövzun.
Bir mülkdəyəm ki, gər udub qan,
Məzmuni-ibarətə çəkib can;
Min riştəyə türfə ləl çəksəm,
Min rövzəyə nazənin gül əksəm,
Qılmaz ona hiç kim nəzarə,
Dərlər gülə xar, lələ xarə..."

Lakin o öz parlaq istedadı ilə zəmanəsini qabaqladı, dövrə qarşı durdu, mövcud "bimar" vəziyyəti üstələdi:

"Mən müntəzirəm verəm rəvacın,
Bimar isə eyləyəm əlacın.
Ol nəfyi-kəmali-hikmət eylər,
Lazım bilirəm xəsarət eylər.
Təmiri-xərabə talibəm mən,
İnşallah ki, ğalibəm mən" -

dedi və öz qalib bayrağını əbədi olaraq söz sənətinin zirvəsinə sancdı...

Ədəbi şəxsiyyətin əsas yaradıcılıq yönünü zaman müəyyən edir. Hər bir görkəmli sənətkar ədəbi yaradıcılığın müxtəlif sahələrində qələmini sınasa, yazıb-yaratsa da, nəticə etibarilə bir sahədə - Füzulinin təbirincə desək, "söz fənninin bir şöbəsində" özünü tapır; xalqın zəruri mənəvi ehtiyacları, həyatın tələbatı sənətkarı bir səmtə daha artıq yönəldir və o bu sahədə ucalır, zirvəyə yüksəlir.

Füzuli gözəl qəsidələr, tərcibəndlər, tərkib-bəndlər, müxəmməs və mürrəbelər ustası idi. Lakin Füzuli özünü qəzəldə tapmış, ədəbiyyatımız tarixində qəzəl janrı və üslubunun zirvəsinə ucalmışdı... Füzuli özü yazırdı ki, "çətin anlaşılan ibarələrə və məzmun incəliyinə qarşı yaradılışında bir məhəbbət vardır. Bunun üçün təbiətim həmişə qəsidə və müəmma yazmağa meyl edərdi. Qəzəl yazmaq xatirimə gəlmirdi və fikrimin səyyahı onu elə gətirmək vadisində gəzinmirdi" (III, *20*). Bununla belə, Füzuli qəzələ yüksək qiymət verir, onu gənclikl ə əlaqələndirir; sevən-sevilən saf məhəbbətli gənclərin zövq və həyəcanı hesab edirdi: "Qəzəl aşiqin könül dərdini mərhəmətli sevgilisinə açması və ya məşuqun öz halını sadiq aşiqinə bildirməsidir. Bu isə yeni yetişən gənclər arasında və ya təmiz ürəkli cavanlarla yoldaşlıq etməyin verdiyi zövq və həyəcanla olur" (III, *20*).

Gənclik həyatın baharıdır, zəruri və əbədi nemətdir; bir nəsil o birini əvəz edir, həyatın bu teli heç vaxt üzülmür...Zamanın şair oğlu həyatın baharı olan gəncliyi tərənnüm etməyə, onun saf, alovlu qəlbini oxşamaya bilməzdi. "Qəzəl yazmaq xatirinə belə gəlməyən" Füzulini dövran, həyatın bu zəruri və əbədi tələbatı "hünər" meydanına çəkmiş,

"Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-bustanı-hünər" -

qənaətinə gətirmişdi. Beləliklə, Füzuli əsl mənada özünü "Söz fənninin qəzəl şöbəsində" tapmış, parlamışdı və öz növbəsində, XVI əsr qəzəl klassikası, klassik qəzəl üslubu da yaranmışdı.

Bu ədəbi-ictimai proses tarixən belə gəlmiş və davam etmişdir. M.P.Vaqif gözəl qəzəllər, müxəmməs, müstəzad, cinas və deyişmələr müəllifi idi. Lakin Vaqif də özünü qoşmada tapdı; milli ölçülü, sadə, oynaq, şirin, təravətli qoşmaları ilə bu sənətin zirvəsinə ucaldı.

Hələ XVI əsrin lap əvvəllərindən Xətai ilə başlanıb XVII əsrdə güclənən realist meyllər şifahi xalq yaradıcılığının təsirilə XVIII

əsrdə sürətlə inkişaf etdi, ədəbi cərəyan, məktəb şəklinə düşdü. Vaqif və Vidadi realizmə meyl göstərən ədəbi nəslin yolunu davam və inkişaf etdirərək, bu meylləri geniş şəkildə yaydı, gücləndirdi. Beləliklə, öz növbəsində, XVIII əsr qoşma klassikası, Vaqif ədəbi məktəbi, dildə Vaqif sadəliyi, Vaqif dili və üslubu da yarandı. Bununla ədəbi dilin inkişafı yeni yola düşdü, realist istiqamətə yönəldi.

F.Köçərli Azərbaycan realist ədəbiyyatının, xüsusilə poeziyamızın gündəlik və zəruri problemlərindən bəhs edərkən məhz Vaqifin yaradıcılığı üzərində ayrıca dayanmışdı; bu və ya başqa münasibətlə dönə-dönə Vaqif dili və üslubuna, dildə Vaqif sadəliyinə müraciət edərək, nümunəvi dil və üslub kimi onu təbliğ etmişdi. Alim Vaqifin ümumxalq şöhrətinin, ona olan ehtiram və məhəbbətin səbəbini də ilk növbədə, onun sadə, oynaq mənalı dili ilə izah edir, ondan milli dil və ədəbiyyatımızın inkişafına yeni istiqamət verən qüdrətli novator sənətkar kimi danışırdı: "Vaqifi beylə şöhrətləndirən, əlbəttə, onun rəvan təbi, mövzun kəlamı və gözəl qafiyələri olubdur ki, indi o qafiyələr ümumnasın dillərində caridir. Vaqifin kəlamlarını oxuduqda, biixtiyar onlara meyl və məhəbbət bağlayırıq". Və yenə: "Vaqifin milli ədəbiyyatımıza hüsn xidməti bu olubdur ki, Türkiyə və İranzəmin şüərasına müqəllidlik etməyibdir, bəlkə onun üçün asan və təbii bir yol alıbdır ki, ondan sonra gələn şairlər ona pirəvilik edib bir çox gözəl əsərlər meydana gətiriblər" (*55*, s.136-137).

Vaqifin uğurlu addımları bir də bununla izah oluna bilər ki, şair milli şerimizin çox qədim qatlarını qaldırıb, hələ "Dədə Qorqud" boylarında, daha sonralar qəhrəmanlıq və eşq-məhəbbət dastanlarında sazla sözün sintezindən yaranıb inkişaf edən "qoşuğ" - qoşma janrına yenidən həyat vermişdi, qoşmanı yazılı poeziyamızın əsl ölçüsü, "qəlibi" kimi zirvəyə qaldırmışdı. Daha dürüstü, bu, zamanın tələbindən, həyatın zəruri ədəbi-mənəvi ehtiyacından irəli gəlmişdi.

M.F.Axundov əsl mənada özünü "söz sənətinin bir şöbəsində", yəni dramaturgiyada tapdı. Ədib zamanın nəbzini tutaraq, günün tələblərinə daha uyğun, dövr üçün daha gərəkli olan və "şərəfli

fənn" hesab etdiyi dram sənətinin binasını qoydu; Azərbaycan mədəniyyəti tarixində yeni bir səhifə açdı, həmin sənətin zirvəsinə yüksəldi. F.Köçərli ədibin bu sahədəki fəaliyyətini bircə cümlə ilə belə qiymətləndirirdi: "Əvvəlinci imtahan, o da belə və gözəl surətdə, eybdən xali, lətafət və mühəssənat ilə dolu".

Hələ XVII-XVIII əsrlərdən ədəbi-bədii dilin şifahi və yazılı qolları daha sıx birləşərək, ədəbi dilimizin tarixində xəlqiliyin güclənməsi və canlı danışıq hesabına zənginləşməsinə güclü təkan vermişdi. XIX əsr dilə tamam yeni məziyyətlər əlavə etdi, dildə realizm və xəlqilik daha möhkəm şəkil alıb zəruri keyfiyyətə çevrildi. M.F.Axundov, müəyyən inkişaf yoluna düşmüş bu zəruriyyəti zamanın ruhu və tələbinə yönəldərək, öz çoxcəhətli yaradıcılığı ilə "söz sənətinin" tamam "yeni şöbələrini" işə saldı; ədəbi tənqid dili, fəlsəfi dil, dram dili üslubları və s. fəaliyyətə başladı. Beləliklə, M.F.Axundov ədəbi məktəbi yarandı və Azərbaycan ədəbi dilinin inkişafı tarixində yeni-yeni səhifələr açıldı.

XIX əsrə qədər biz bədii, obrazlı dili poeziyamızda, şairlərin təsvirlərində görmüşük. Lakin indi Hacı Qara da, onun nökəri Kərəməli də, Hatəmxan ağa da, onun arvadı və uşaqları da, Heydər bəy də, kəndli Bayram da, Xan da, onun rəiyyətləri də, hakimi-şər də, şahidlər də yaxşı danışırlar, sözün yerini, harda və necə, kiminlə və nə cür danışmağı gözəl bilirlər; mühakimələr yürütmək, dəyərli misallar çəkmək, atalar sözü və məsəllər gətirmək, məcazi danışığa keçməklə, çətin anlarda özlərini məharətlə xilas etməyi, yaxud rəqibinə qələbə çalmağı bacarırlar, tamam dara düşdükdə, təqsirkar olduqda da onların dadına yenə dilləri, hazırcavablıqları çatır. Hər surətin dili, nitqi doğma ana dilinin, heç olmasa, bir məziyyətini, bir üstünlüyünü, bir milli keyfiyyətini üzə çıxarır. Şahbaz bəyi Parijə apardığına görə Müsyö-Jordana daralmış Şəhrəbanu xanım onun qarasınca deyir:

"Bu firənglər necə naşükür xalq olurmuşlar. Heç yaxşılıq bilməzmişlər. Mən ağılsız, genə tarının ver günü nahara Müsyo Jordana qaymaq gərək, yağ gərək, axşama plov gərək, bozartma gərək ki,

gedib öz ölkəsində deməsin ki, Qarabağ elatının arvadları mərifətsiz olurlar, qonağa hörmət eləmək bilmirlər. Di gəl bundan sonra xalqa yaxşılıq elə! Tamam yaxşılığım bada çıxdı getdi" (*10,* s.29).

Gileylənmə varsa da, buradakı səmimiyyətə heç bir söz ola bilməz. Bu sözlər milli dil-danışıq üçün də gözəl nümunə sayıla bilər. Bir fikir verin, azərbaycanlı qadın Qarabağda oturub Parij haqqında nə düşünür və nə ilə fəxr edir: qonaq *"gedib öz ölkəsində deməsin ki,.."*. Bu, artıq milli təəssübkeşlik və milli şüurdur ki, bu keyfiyyət savadsız Azərbaycan qadınının şüurunda da özünü büruzə verir. Hələ bir yemək mədəniyyəti və qaydalarına *(hər gün nahara qaymaq, yağ, axşama plov, bozartma),* milli xörək adlarına, istilahlara diqqət edin. Kiçik bir eyhamla, bir-iki cümlədə xalqımızın yüksək məziyyətləri yad edilmişdir.

XIX əsr şəraiti şüurlu, milli keyfiyyətləri gücləndirmiş, ona yeni məna vermişdi. Bu keyfiyyətlər xalqın öz dilindən eşitmək, üzə çıxarmaq, "rəsmiləşdirmək" üçün əsrin məhsulu olan dram sənəti, dram dili çox əlverişli və uğurlu bir kəşf idi. M.F.Axundov realizminin gücü onda idi ki, ədib zamanın nəbzini tuta bilmiş, xalqın nə ilə nəfəs aldığını, hansı hisslərlə yaşadığını onun öz dililə demişdi.

Ədib dram əsərlərində əsrin zəruri ehtiyacından yaranan "söz sənətinin daha yeni şöbələri" barədə də söhbət açır, öz münasibətini bildirirdi. Məs., nəbatat alimi Müsyö-Jordan adi söhbətdə sadə, müəyyən ciddi elmi məsələlərin izahında isə "qəliz", yəni elmi üslubda danışır, nitqində elmi istilahlar, çətin başa düşülən adlar, sözlər işlədir. Müsyö-Jordanın uzun "nitqi" müqabilində Hatəmxan ağa ona, təbii olaraq, bu suallarla müraciət edir:

"*Hatəmxan ağa.* Həkim sahib, vallah, heç başa düşmədim ki, nə danışdınız. Qlifford kimdir, Linney kimdir? Turneford kimdir? Niyə olar zəhmət çəkib otlara dərəcə qərar veriblər? Germani nədir? Kartofl kimdir? O niyə azarlamışdı? O nə böyük şəxsdir ki, vətən bu mərtəbədə onun etidali-məzacına və tuli-ömrünə talibdir? *(Bir qədər sükut olunur. Müsyö-Jordan gülür, sonra genə.)*

Hatəmxan ağa. Yoxsa,·həkim sahib, bizim Şahbazı da aparıb belə tapmacalardan örgədəcəksiniz?" (*10,* s.34-35).

Burada əsrə məxsus real bir həqiqət söylənilib. Ağıllı, tədbirli, çoxbilmiş adam olsa da, Hatəmxan ağalar hələ elmi söhbətə, dilə alışmamışlar. Elmi söhbət onlara "tapmaca" kimi gəlir. Çünki elmi söhbətin, dilin özünəməxsus söz aləmi, istilahları, adları və bununla əlaqədar müəyyənləşən üslubu var. M.F.Axundov Müsyö Jordanı, təbii olaraq, elmi dillə danışdırır. Onu sadə də danışdıra bilərdi. Amma bu, real olmazdı. Buna görə də dramaturq dərhal söhbətin tonunu dəyişir, mənalı şəkildə, həm də eyhamla oxu hədəfə vurur:

"*Müsyö-Jordan.* Hatəmxan ağa, bağışlayın, doğru buyursunuz, indi bildim ki, sizə nə qisim misal gətirmək; məsələn, bir ay bundan əvvəl Qarabağın əlyetməz dölündən köhlən at altında gəlib sizə qonaq olan xoşbəxt adam ki, adı yadımdan çıxıbdır, əgər Qarabağa gəlməsəydi, bu qədər dövləti hardan ələ salardı?

Hatəmxan ağa. Həkim sahib, bax, bu söz necə aşkardır! Doğru buyursunuz, əgər o, Qarabağa gəlməsəydi, heç vaxt dövlətə çatmazdı" (*10,* s. 35-36).

M.F.Axundovun yaradıcılığında hansı məsələyə nəzər yetirsək, hansı nöqtəyə diqqət etsək, görərik ki, ədib dilin ictimai xarakteri və cəmiyyətin inkişafındakı roluna, dildə-danışıqda sözün tutduğu mövqeyə və s. əsrin tələbləri, günün zəruri ehtiyacları baxımından yanaşır, qiymət verirdi. Ana dilinə belə yaradıcı münasibət, onu işləyib, surətlər, canlı adamlar vasitəsilə zənginliyini nümayiş etdirmək misilsiz xidmət idi; Azərbaycan ədəbi dilinin inkişafı tarixində bu, yeni mərhələnin başlanğıcı oldu.

H.B.Zərdabi Rusiyada təhsil alıb yüksək ixtisaslı təbiət alimi kimi qayıtmışdı, onun təbiətşünaslığa dair elmi əsərləri, günün aktual problemlərinə həsr etdiyi məqalələri və s. çox qiymətli və əvəzsizdir. Lakin zamanla həyatın daha vacib ehtiyacları ayıq və həssas ziyalını yeni səmtə çəkdi; ədib o vaxtları xatırlayaraq, sonralar yazırdı: "hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm

qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Neccə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir. Habelə söz də, ələlxüsus doğru söz mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər" (*28 a*, №129, s.3). Bütün bu axtarışlar xalqa, vətənə, elə-günə günün tələbləri səviyyəsindən xidmət etmək arzuları gənc alimi *"Bələdə qəzetə çıxarmaqdan savay bir qeyri əlac yoxdur"* - qənaətinə gətirdi, o, "Əkinçi" qəzetini nəşrə başladı. Azərbaycan milli mətbuatının əsasını qoydu. Beləliklə, öz növbəsində, mətbuat dili və üslubunun da təməli qoyuldu, əsasları yarandı.

"Əkinçi"də H.B.Zərdabinin qoyduğu, müzakirə etdiyi və həllinə çalışdığı problemlər zamanın irəli sürdüyü aktual, son dərəcə gərəkli, xalqın sivilizasiyası, elmi, təlim-tərbiyəsi, bir sözlə, onun ehtiyacları, həyat şəraiti, dcyərdik ki, gələcək taleyi ilə bağlı problemlər idi. H.B.Zərdabi xalqın tərəqqisi, əsrlə ayaqlaşa bilməsi üçün dönə-dönə tövsiyə edirdi:

Məktəbxanalar bina edin! "Vaxt keçməmiş elm kitabları gətirdib məktəbxanalar bina edin" və orada ana dilini mükəmməl təhsil edin ("Ə". II, II).

Elm öyrənin! "Cəm"i eyblər elmsizlikdən çıxır, cəmi məhsəni-ümuratın başı elmə bağlıdır, heç əməl yoxdur ki, elmə möhtac olmasın", ilk növbədə elmi ana dilində öyrənin (yenə orada).

Ana dilində savadlanın, təhsil alın! "Ey elm təhsil edən cavanlarımız!". "Öz dilimizdə təhsili-üluma məşğul olun ki, müsəlmanlıqda qaim olasınız. Mıx bərk vurulduqca onu çıxartmaq çətin olur" (yenə orada).

Ana dilini təlim edin! "İndi açılan məktəbxanalarda öz dilimizi oxutmaq nə ki lazımdır, bəlkə vacibraqdır" ("Ə". II, 19).

Ana dilini sevin, onu "irəli" aparın! "Dünyada xəlq olunan millətlər öz lisanlarına ana lisanı dcyibən, ol lisan ilə xudavənd aləmə

ibadət edib insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanın dəxi əsası millət olduğundan bir kişiyə vacibdir ki, daima onun irəli getməsinə canını fəda etsin" ("Ə". 1, 10); məgər bu böyük bir nemət deyilmi ki, "Badkubə kimi şəhərdə sənin öz milləti dililə ğazet basılır. Uzaq məmləkətlərdə olan əxbari-ğəribə müfid söhbətləri öz evindən çıxmayıb oxuyub bilirsən" ("Ə". 1, 6).

Artıq dil öyrənin! "Firəngistan əhli zükur və ünasən üç-dörd müxtəlif dillərilə danışırlar. Amma müsəlmanlar içində savadlı olan adamlardan çox az tapılar ki, öz dilində bir dürüst məktub yazsın" ("Ə". 1, 6). Bu münasibətlə qəzet S.Ə.Şirvaninin "Oğluma nəsihət" şerini dərc edib, əlavə dil öyrənməyi nemət sayır, onu təqdir edirdi: şairin qəzetdə dərc olunan "Həsən Qara-hadi təxəllüsə" adlı şeri də eyni münasibətlə yazılmışdı. Orada bu misralar diqqəti cəlb edir:

"Kim ki, bir dil bilə, bir nemətə ol vasildir,
Kim ki, çox bilsə, o, çox nemətə pəs şamildir" ("Ə". III, 10).

Azərbaycan mədəniyyəti və mətbuat, habelə mətbuat dili tarixində "Söz fənninin yeni bir şöbəsi" kimi "Əkinçi" qəzeti çox uğurlu bir başlanğıc olmuşdur.

XIX əsrin ortalarında qüdrətli xalq istedadı Aşıq Ələsgər artıq fəaliyyətdə idi; onun sözü adla söylənirdi, o olan məclisdə sönük, nöqsanlı və "əyri danışmağa" kimsədə cürət olmazdı.

"Ələsgər, söylənir sözün adınan,
Arif məclisində hər isbatınan".

M.P.Vaqifin, M.F.Axundovun, H.B.Zərdabinin yazılı ədəbiyyatımız və dilimizin inkişafı, tərəqqisi sahəsində qələmlərilə gördüyü işi Aşıq Ələsgər canlı həyatda, öz sədəfli sazı və bədii sözü-söhbətilə görürdü. Xalq arasında, toy və şadlıq məclislərində "ağır yığnaqlarda" ədəbi dili, ədəbi dinib, ədəbi danışmağı təbliğ edir, car çəkirdi:

"Hər kəs sərdən keçib, mərdü mərdana,
Baş qoysun bu yolda, meydana gəlsin!

Dərya dilim dalğa vurdu, bulandı,
Qərq olmaq istəyən ümmana gəlsin".

Xalq aşığının belə "söz meydanı" qurması, deyişmələri ədəbi dinib, ədəbi danışmağı tələqin edir, dinləyicilərə dürüst, sərrast və ifadəli danışmaq vərdişləri aşılayırdı. Bu isə nitqin düzgün inkişafına istiqamət verir, yaradıcılığın bu üsulu ədəbi dillə nitq, danışıq mədəniyyətini birləşdirirdi. Böyük sənətkar bir tərəfdən,

"Əgər şairsənsə, gəl eyləyək bəhs;
Bir sözünə min söz deyim dəsbədəs" -

çağırışı ilə şair olmaq, söz demək istəyən istedadlı həvəskarları ruhlandırır, sınaqdan keçirir, digər tərəfdən, "aşıq" və ya "şairəm" deyib baş girləyən, şeri, sənəti, sözü korlayan istedadsız adamları imtahana çəkib məclislərdən uzaqlaşdırırdı:

"Neçə aşıq qaçırmışam meydandan;
İstəyirsən, bir-bir keçirim sandan".

Aşıq Ələsgərin iştirak etdiyi məclislər söz güləşi, söz yarışı meydanı olmuşdu. Aşıq ədəbi bir nəsil - özü kimi xalq ədəbi dilinin carçısı - aşıq-şairlər nəsli tərbiyə edib yetişdirmişdir.

"Adım Ələsgərdi, mərdü mərdana
On iki şəyirdim işlər hər yana".

Bu, böyük xidmət idi; lirik şeri "hər yanda" geniş yayır, onu ictimai həyatda qaynar xalq qazanında bişirib yetişdirirdi. XIX-XX əsrlərdə lirik şer dilimiz – ədəbi-bədii dilin şifahi qolu məhz belə "ağır yığnaqlar"da cilalanmış, səlisləşmiş və daha da yetkinləşmişdir; buna görə də həmişə təzədir, müasirdir; mənalı, həyati və xəlqidir, bizə estetik zövq verən qiymətli mənəvi sərvətdir.

Aşıq Ələsgər on, on beş əsrlik və daha artıq şifahi-bədii xalq poeziya dili və üslubunun zirvəsidir. Qüdrətli şair-aşıq təkcə öz zəngin, rəngarəng təcnislərilə də söz sənətinin zirvəsində dura bilər.

"Var olsun Qarabağ, əcəb səfalı,
Başa Xaçın axar, *ayağa-Qarqar.*
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkər: *a yağa qar, qar!..*"

XIX əsrin 90-cı illərində C.Məmmədquluzadənin yaradıcılıq istiqaməti də, fərdi üslubu da müəyyən idi. Doğrudur, "Danabaş kəndinin əhvalatları" ədibin sağlığında mətbuat üzü görməmiş, çap olunmamışdı; lakin əsər bütünlükdə C.Məmmədquluzadə üslubunun yarandığını xəbər verirdi. "Əhvalatlar" bizdə povest-roman janrının ilk və şah əsəri sayıla bilər. C.Məmmədquluzadə təkcə elə nəsr yaradıcılığı və dram əsərləri ilə də zirvəni fəth etmişdi. Lakin bu, ədibi təmin etməmişdi. Çünki dövr, zaman qarşıya tamam yeni tələblər qoyurdu. Əsr daha ciddi-ictimai və daha böyük amallar uğrunda mübarizə meydanına, əsrin tələblərinə uyğun xidmət dairəsinə çəkirdi. Bu barədə ədib "Xatiratım"da yazırdı: "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı"; "Elə ki, fürsət ələ düşdü... o vaxt biz də vaxtdan istifadə edib, özümüz üçün bir zəminə axtardıq ki, orada biz də öz dərdi-dilimizi deyə bilək" *(II, 506)*.

Əsrimizin əvvəllərində böyük ədəbi-ictimai hadisə olan "Molla Nəsrəddin" dil məsələsində belə bir çağırış və məramla nəşrə başlamışdı: *"Ey mənim müsəlman qardaşlarım!.. Sözümü tamam etdim, ancaq bircə üzürüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dilində danışıram".*

Buna uyğun olaraq "Məcmuəmizə müştəri olanlara nəsihət"də istehza ilə, əks mənada başa düşüləcək beş nəsihət verilmişdir. Nəsihətlərin dördüncüsündə ana dilində yazmağı "elmsizlik" sayan lovğa ziyalılara kinayə ilə deyilirdi: "Məktubları elə bir dildə yazın ki, bir dənə türk kəlməsi olmasın; türkcə yazmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir".

Bu sözlər təsadüfi deyilməmişdi, bunlar ana dilinə xor baxan ziyalılara qarşı üsyan idi.

M.Ə.Sabirə gələk.

"Dindirir əsr bizi - dinməyiriz" -

deyən şair məslək dostlarını zamanın qarşıya qoyduğu böyük amallara cavab verməyə çağırır, öz üzərinə düşən vəzifəni isə bütün məsuliyyətilə dərk edərək, onu yerinə yetirməyə hazır olduğunu yazırdı:

"Şairəm, çünki vəzifəm budur əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar yazım,
Günü parlaq, günüzü ağ, gecəni tar yazım,
Pisi pis, əyrini əyri, düzü həmvar yazım"...

Bununla da, əsrin tələbinə uyğun yeni ədəbi janr - satira janrı formalaşıb zirvəyə yüksəldi; Sabiranə şer, təkrarolunmaz Sabir satira dili və üslubu yarandı.

Ədəbi şəxsiyyət, zaman və dil problemi sənət dünyasının əbədi problemidir. Zamanın oğlu olan hər bir sənətkar bu prosesdən kənarda qala bilməz. S.Vurğunun

"Mən həyatın öz oğluyam-həyat üçün hazıram,
Bizim "Aslan qayası"nın dastanını yazıram" -

kəlamı məhz həmin problemin hər zaman və hər dövrdə yenidən təzələndiyinə işarədir...

Beləliklə, ədəbi şəxsiyyət, zaman və dil probleminin əsas obyekti zamanın ədəbi prosesinə istiqamət verən, əsas ağırlığı öz çiynində aparan zirvələrin yaradıcılığıdır, onların nəsillərə nümunə ola biləcək ədəbi fəaliyyəti, dili və üslubudur. Hər sənətkar, hər yazar zamanın ədəbi prosesinə, dilinə nüfuz edə, ədəbi janrların və dilin inkişafına əhəmiyyətli təsir göstərə bilməz. Biz Azərbaycan dili tarixini tədqiq edərkən məhz bu prinsipi əsas götürmüş, dövrün, zamanın fövqündə dayanan sənətkarların dilinin tədqiqini ön plana çəkmiş, dilimizin inkişafı tarixində onların mövqeyini müəyyənləşdirməyə çalışmışıq.

8. ƏDƏBİ ŞƏXSİYYƏT, SÖZƏ QƏNAƏT VƏ YIĞCAMLIQ

Dildə sözə qənaət, yığcamlıq keyfiyyəti Azərbaycan dilinin inkişafi tarixində ilkin məziyyətdir və dərin köklərə malikdir. Ədəbi dilin formalaşdığı ilk dövrlərdən - Dədə Qorquddan, Əlidən, Həsənoğludan, Nəsimidən bir ənənə şəklində davam edib gələn bu məziyyət XV-XVII əsrlərdə Kişvərinin, Xətainin, Füzulinin, Sarı Aşığın, Qövsinin və b. şəxsində öz inkişafının zirvəsinə yüksəlmişdir...

Hələ Nizami müasirlərinə, qələm əhlinə və gələcək ədəbi nəsillərə müraciətlə demişdi:

"Sözün çoxsa əgər, çalış az olsun,
Yüz sözün yerində bir kəlmə qalsın".

"Az danışsan əgər, sözün sayılar,
Çox sözü dinləyən çox nöqsan tapar.
Sənin çin çox demək bəlkə asandır,
"Çox oldu" desələr böyük nöqsandır".
"Az sözün incitək mənası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz".

Nizaminin bu kəlamı özü də xalqdan gəlirdi. Atalar demişlər: "Yüz ölç, bir biç". Yenə atalar əsl sənətə, söz deyən sənətkara öz münasibətini belə bildirmişlər: "Söz çeynəyən çox, söz deyən az" və ya: "Söyləyənə baxma, söylənənə bax" və s. Bu kəlamlar eyni hədəfə yönəldilmişdir. Xalq həyatında, onun həyat təcrübəsində sözə, sənətkara olan bu münasibət bizim bədii söz ustalarımızın həmişə nəzərində olmuş, onlar dildə yığcamlıq və sözə qənaətə öz yaradıcılığında nəinki əməl etmiş, həm də bu məsələyə həmişə yüksək mövqedən yanaşmış, yüksək qiymət vermişlər.

"Əhmət Hərami dastanı"nda sözü yığcam eləməyi, mətləbi qısaltmağı, az sözlə geniş əhvalatları təsvir etməyi qarşıya məqsəd qoyan naməlum müəllif ayrı-ayrı fəsillərdə dönə-dönə xatırladır ki, "Nə söz uzayın bən" və ya "Söz ögiş", yəni sözü niyə uzadım, söz çoxdur, sözü qısa edək və mətləbə keçək:

"Hələ *nə söz uzayın-bən*, ey sərvər!
Toquzunun başın kəsdi o sərvər" -

"Yemək, içmək, delim işrətlər oldı,
***Söz ögiş*, qırq düni-kün toylar oldı" -**

"*Söz ögiş*, iki keyiki tutarlar,
Ağır bahayla ana satarlar" - və b.

Dastanda bu cür fəsildən-fəslə keçidlər, "qısaltmalar" çoxlu hadisələri süjet ətrafında cəmləyir, əsərə yığcamlıq məziyyəti verir. 816 beytlik bu əsər təsvir olunan hadisələrin genişliyi və əhatəliliyi baxımından məhz mənzum roman adlandırıla bilər...

Nəsiminin amalınca, insanın ləyaqəti, şanı-şöhrəti olan söz öz şirinliyi, dadlılığı və ifadəliliyi ilə yanaşı, həm də yığcam və müxtəsər olmalıdır. Bu mənada şair özünə qarşı çox tələbkar idi. Nəsiminin fikrincə, sənətkar gərək qısa danışsın, onun sözü yığcam, fikri geniş, ucsuz-bucaqsız, sahilsiz olsun:

"Aqilsən, sözünü müxtəsər et!
Ey Nəsimi, çu bikərandır söz".

Dildə yığcamlıq və sözə qənaətdə Füzulinin mövqeyi daha aydın və dəqiqdir. Şair "Söz" rədifli qəzəlində deyir:

"Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz...
Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz".

Sənət aləminə bu niyyətlə ayaq basan şair sözə qənaətin əhəmiyyətini qeyd etməklə bu məsələyə çox ciddi yanaşmış, özü sənətdə yığcamlığın klassik nümunələrini yaratmışdır.

Fikrin ifadəsində yığcamlıq Azərbaycan dilinin təbiətində vardır. Dilimizdə bu cəhəti təmin edən imkanlar olduqca genişdir; az sözlə çox şey demək, yeri gəldikcə, məsəl çəkmək, müqayisələr vermək, hikmətli sözlərə, şirin ibarələrə müraciət edib, fikri və dü-

şüncəni obrazlı və yığcam şəkildə ifadə etmək keyfiyyəti Azərbaycan dilinin daxili məziyyətidir. Təkcə şifahi-bədii xalq yaradıcılığı nümunələrini, məsələn, bayatıları, atalar sözləri və zərb-məsəlləri, tapmacaları, lətifələri, yanıltmacları, dodaqdəyməzləri, qoşmaları, gözəlləmələri və s. xatırlamaq kifayətdir. Füzuli Azərbaycan xalq dilinin bu məziyyətini layiqincə dərk edən, duyan və onun ənənələrinə sadiq qalan sənətkar idi.

Füzuli şerinin mənası dərindir. Az söz işlətməklə, fikri yığcam deməklə, o, mətləbi uzatmaqdan qaçır. Məs., "Leyli və Məcnun-"un ilk fəsillərindən biri ("Güzarişi-hali-Məcnun") bu dörd misralıq şerlə tamamlanır:

"Söz müxtəsər, ol əsiri-sövda,
Bir növ ilə oldu xəlqə rüsva
Kim, Qeys ikən, oldu adı Məcnun,
Əhvalını etdi ğəm digərgün".

Füzuli eyni mətləbə - dildə yığcamlıq və sözə qənaət məsələsinə işarə ilə farsca divanının "Xatimə"sində deyir:

Ey könül, söz xəzinəsin açsan,
Dinləyən şəxsi, gözlə, yormayasan,
Bəs edər verdiyin bu inci, göhər,
İnci də çox olanda qədri itər.

Ədəbi əsərdə yığcamlıq, ilk növbədə sözə qənaətlə olmalıdır. Dilin, yığcamlığa xidmət edən imkanlarından layiqincə istifadə isə o qədər asan deyildir. Bunun üçün də xüsusi istedad və bacarıq lazımdır. Füzuli xalqın istək və arzularını, kədər və qəmini bir şair qəlbilə duyduğu, hiss etdiyi kimi, ana dilinin incəliklərini, daxili məziyyətlərini də beləcə duymuş, mənimsəmişdi. Ümumxalq dilinin əsl adi ifadə vasitələrindən danışıq dilinə məxsus tam sadə söz və birləşmələrdən, məcazlardan, obrazlardan bacarıqla istifadə şairin misra, beyt və bəndlərini həcmcə sıxmış, qiymətcə artırmışdır. Şairin

"Nərgis ki, göz açdı bağa girdi,
Bir baxmağilən özün itirdi" -

beytində canlı tələffüz əsasında işlədilmiş "baxmağilən" sözü bir yana, "Nərgiz ki, göz açdı" ifadəsi bədii həqiqətə nə qədər uyğundur!.. Məcazi mənalı "özün itirdi" ifadəsilə isə şair aləm açmışdır: sadə bir əhvalat, yaxud adi bir gözəllikdən heç kəs özünü itirməz, deməli, Nərgisin girdiyi bağda başqa bir aləm varmış! Şair bir-iki söz və ifadə ilə bircə beytdə gözəl bir mənzərə, real bir bədii lövhə yaratmışdır. Füzuli dilinin yığcamlığının sirri, hər şeydən qabaq, şairin dil materialından əsl sənətkar istedadı ilə istifadə etməsindədir.

Ədəbi-bədii dilin yığcamlıq məziyyəti obrazlı təfəkkür, dildəki bir sıra hazır söz materialı və digər amillərlə çox əlaqədardır. Belə olan surətdə sənətkarın, ədəbi şəxsiyyətin üzərinə olduqca məsul vəzifə düşür. Sənətkar canlı dildəki estetik məziyyətləri özünəməxsus zövq və səliqə ilə mənimsəyir, dərk edir, üzə çıxarır, sanki onları yenidən kəşf və bərpa edir. Bu zövq, bu səliqə isə adi yox, ali olmalıdır. Çoxlarının görə, təsəvvür edə bilmədiyini, duyub hiss etmədiyini sənətkar görməli, təsəvvür etməli, duymalıdır ki, canlı dildəki estetik keyfiyyətləri seçə bilsin, dilə yeni bir şey gətirə, əlavə edə bilsin. Burada fitri istedad, müşahidəçilik qabiliyyəti, adi hadisə və əhvalatları, fikirləri, hiss və duyğuları yüksəltmək, poetik səviyyəyə qaldırıb onlara estetik məzmun verə bilmək məharəti böyük iş görür. Bu sahədə Kişvəri, Xətai və Füzulinin xidmətləri əvəzsizdir. Xalq istedadı, haqq aşığı kimi şöhrət tapmış Sarı Aşıqda da bütün bu keyfiyyətlər güclü imiş!

"Mən aşıq qara baxtım,
Ağ baxtım, qara baxtım,
Sinən yadıma düşdü,
Dağlarda qara baxdım".

"Mən aşıq bağça pəri,
Bağbandı bağ çəpəri,
Qaşın bağ, gözün bağban,
Kirpigin bağça, Pəri".

Hər biri on dörd sözdən ibarət olan bu bədii parçalar, məzmun bir yana, təkcə söz, ifadə tərzi baxımından nə qədər rəngarəngdir, estetik xassə və keyfiyyətlərə malikdir. Aşıq özünü həm ağ baxtlı, həm də qara baxtlı sayır; ona görə ağ baxtlıdır - xoşbəxtdir ki, sevir; ona görə qarabaxtlıdır - bədbəxtdir ki, sevgisinə qovuşa bilmir, ondan uzaqlardadır, əlçatmaz qarlı dağların başı qədər uzaqlarda. Aşıq qovrulur, sevgilisini görməyə can atır, lakin görə bilmir, onun sinəsini xatırlayıb qarlı dağlara baxır, qarlı dağlarla o sinədə bir bənzəyiş tapır: o da haçadır, ağdır, bu da; o da uzaqdadır, əlçatmazdır, bu da... Bənzətmə bədiidir, gözəldir. Bunu ancaq şair xəyalı, təsəvvürü kəşf edə, yada sala və yarada bilər. Bədii əsərdəki fikrin estetikliyi də ilk növbədə ondakı təbiilikdə, gözəllikdə və bədii gerçəklikdədir. Hələ bayatıdakı cinaslar!.. Məxrəccə bir-birinə yaxın olan *d, t* səslərinin yaratdığı keyfiyyət; *bəxt+ım* (ağ baxtım, qara baxtım) sözü ilə *bax+dı+m* (baxmaq) sözlərinin poetik ahəngi!.. Bütün bunlar fikri yumruq kimi sıxmış, artıq heç bir söz işlənməmişdir.

Adama elə gəlir ki, "bağça pəri"nin və "bağbanın" bağça pərilə qiyas edilməsinin, ilk baxışda gözələ - Pəriyə müraciətən deyilən "qaşın bağ", "kirpigin bağça", "gözün bağban" bənzətmələrilə əlaqəsi yoxdur. Lakin belə deyil. Misralar, hətta sözlər arasında incə bir əlaqə, bağlılıq sezilir. Xüsusilə, qarşılaşdırmalarda nəfis bir uyğunluq və rabitə var; "bağça pəri" (bağ çəpəri), anlayışını iki mənada başa düşmək olar: həm bağçanın keçidi, yolu, girişi və ya çəpəri, qoruqçusu, həm də bağçanı suvarmaq üçün yaradılmış qurğu. Bu keçid, yol, giriş, çəpər və ya qurğu bütünlükdə bağbana bənzədilir. Bu da təbii görünür. Çünki bağda-bağçada bağban mühüm şəxsdir: o yaradandır, bağ-bağçaya həyat və gözəllik verəndir, üstəlik o, yaratdığının, gözəlləşdirdiyinin gözətçisidir. Növbəti beytdə bu bağ-baxça və yaradıcısı - bağbanı ilə birlikdə gözəlin üzündə, Pərinin camalında təcəssüm etdirilir: *qaşlar bağdır, kiprik-lər bağça; gözlər isə bağban,* yəni bağ-bağçanı yaradan, gözəlləşdirən və gözləyən bağban gözlər.

Hər iki misalda nəinki misralar arasında, sözlər, hətta səslər arasında möhkəm əlaqə və məntiq var. Bir misra o birisini, bir söz və ya səs başqasını tamamlayır, beləliklə də bitgin bir fikir, məna alınır, bədii əsər yaranır. Bizim bütün bayatılarımızın misraları, sözləri və s. arasında beləcə bağlılıq, beləcə yığcamlıq və qırılmazlıq mövcuddur. Bu, bayatılarımızın əsas məziyyətidir. Buna görədir ki, tarixin fırtına və keşməkeşləri bunların bircə sözünü belə qoparıb ata bilməmiş, min bir ağızda, dildə-dodaqda dolaşsa da, yarandığı kimi də uzun yollardan keçib gəlib zəmanəmizə çatmışdır.

Mövcud ənənəyə sadiq qalan Qövsi Təbrizi də öz qəzəllərilə dildə yığcamlıq və sözə qənaətin yaxşı nümunələrini yaratmışdır. Bu məsələdə Qövsi, xüsusilə ustadı Füzulini dönə-dönə izləyir, ondan öyrənir, onun yolunu ləyaqətlə davam və inkişaf etdirir... O, "çox sözü az edən" sənətkardır. Şair öz əsərlərində bu keyfiyyətə işarələr də vurur; söz sənətində bu məsələnin zəruri və vacib şərt olduğunu qeyd edir. Qövsi az sözlə çox fikir dediyinə, hər işarəsində "bir kitab söz", məzmun olduğuna özü də əmindir.

Bununla belə, şairin hər sözü anlaqlı idi, bir nöqtədən "yüz min kitabın" sözünü deyə, məzmununu verə bilərdi:

"Anlayan bir nöqtədən yüz min kitab anlar sözüm
Kim, könül bir qətrədir, dəryayi-ümmandır xəyal".

Bununla belə, şairin hər misrası gözəlin "qaşı ucundan" bir kitab bağlaya, divan ola bilərdi:

"Qövsini unutma ki, sənin qaşın ucundan
Hər misra bir mətləi-divan olacaqdır".

Azərbaycan poeziya dili tarixində yığcamlıq və sözə qənaət özünü yüksək sənətkarlıq keyfiyyəti kimi göstərir. Bu öz inkişafı tarixində çox uğurlu bir istiqamət almışdır. Bu keyfiyyət söz sənətinin başqa sahələrinə, habelə realist nəsr dilimizin inkişafına da təsirsiz qalmamışdır. M.F.Axundovun "Aldanmış kəvakib", Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" əsərləri sənətdə

yığcamlığın klassik nümunələridir. Həcmcə bir o qədər böyük olmayan bu əsərlərdə geniş əhvalatlar və zəngin məzmun var. Buna görə, çox təbiidir ki, bu əsərlərin hekayəmi, povestmi və ya romanmı olduğu barədəki mübahisələrə hələ də son qoyulmamışdır...

9. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLDƏ BƏDİİ GERÇƏKLİK, İNANDIRICILIQ

Söz sənətində düz söz, haqq söz və gerçək sözün tərkib hissəsi və inkişafı kimi özünü göstərən bədii gerçəklik problemi öz əsası etibarilə canlı həyata bağlı olub, həqiqətin obrazlı tərənnümü deməkdir.

Xalqın vahid ünsiyyət vasitəsi olan canlı dili mürüri zamanla onun bədii-estetik ehtiyaclarını da ödəyir; dilin daxilində şaxələnmə gedir, sözlər, ifadələr öz həqiqi mənasından əlavə yeni məcazi mənalar kəsb edir; öz növbəsində bütöv bir fikir, anlayış da həqiqi mənasını genişləndirir, bədii mənalar alır, adi gerçəklik bədii gerçəkliyə çevrilir. İlkin mənada özünü xalqın canlı dilində, həyat-məişətində göstərən bu məziyyət buradan şifahi-bədii yaradıcılığa keçir; bununla da yazılı ədəbi dilin ehtiyat mənbələri yaranmış olur. Bu mənada bizdə, hələlik ilk tükənməz mənbə "Dədə Qorqud kitabı" və onun zəngin bədii dilidir.

"Dədə Qorqud"un dilində bədii gerçəkliyin misilsiz nümunələrinə rast gəlirik. Məs., eposda Oğuz qəhrəmanlarına verilən sifətlər bu bədii gerçəkliyə əsaslanır. Məs:

1) "Parasarın Bayburd hasarından parlayıb uçan, ap-alça gərdəginə qarşu gələn, yedi qızın umudı, Qalın Oğuz imrənçisi Qazan bəgin yınağı, boz ayğırlu Beyrək" (61).

2) "Altmış ərkəc dərisindən kürk eləsə topuqlarını örtmiyən, altı ogəc dərisindən külah etsə qulağlarını örtmiyən, qolı-budı xırancə, uzun baldırları incə, Qazan bəgün tayısı, at ağızlu Aruz Qoca" (61, 62).

Beyrəyin "parlayıb uçması", Aruz Qocanın "altı ogəc dərisindən külah eləsə qulaqlarını örtməməsi" şişirtmədir, həyati yox, bədii gerçəkliyə əsaslanır. Bədii əsərin və onun dilinin gözəlliyi və bədii təsir dairəsinin bir cəhəti də bundadır.

Düşmən tərəfindən anası, arvad-uşağı, qızı-gəlini əsir aparılmış, evi-eşiyi, malı-qarası talan olunmuş Salur Qazan heç kəsi tapmayıb dərdini öz yurduna, qarşısına çıxan suya, qurda, köpəyə söyləyir, onlarla insan kimi "xəbərləşir". Maraqlıdır ki, oxucu bu "xəbərləşmənin" səmimiliyinə inanır, bunun mümkün ola biləcəyinə şəkk-şübhə etmir, Qazanın kədərinə şərik olur. Fikrə beləcə bədii gerçəklik tonu verildiyi üçündür ki, Uruz bəyin ölüm ayağında ağacla "söyləşməsi" səhnəsi də təbii və inandırıcı görünür:

"Ağac!" "ağac!" dersəm sana, ərlənmə ağac!..
Başın ala baqar olsam, başsız ağac!
Dibin ala baqar olsam, dibsiz ağac!
Məni sana asarlar, götürməgil, ağac!
Götürəcək olursan, yigitligim səni tutsun, ağac!" (55, 56).

Canlı həyatdan, danışıqdan gələn bu məziyyət Əlinin "Qisseyi-Yusif" poemasında özünəməxsus orijinallığı ilə diqqəti cəlb edir. Yusif uzun ayrılıqdan sonra Kənandan gəlmiş bir ərəbdən xəbər alır:

"Yusif aydur: uş Kənandan gəlirmüsən?
Kənandan bir qaba yığac bilürmüsən?
On ikidir budaqları görürmüsən?
Ol budaqlar önlikmi tamam imdi?
Ey dariğa, nə yıraqdur Kənan eli?!
Firqət əhli kimsələrə düşər yolı,
Ələddəvam, yel əsdikcə, Kənan eli,
Ol yığacdan həsrət qoqusu gəlür imdi".

Fikir, verilən suallar başdan-başa obrazlıdır; "qaba yığac", "on iki budaq", "budaqlar önlikmi" (arxaik sözdür: yəni böyümüşmü, tamam kamala çatmışmı?), "ol yığacdan həsrət qoxusu gəlir" kimi söz və ifadələr məcazi məna daşıyır, bədii gerçəklik kimi dərk edi-

lir. Suallardakı metafor fikri almaq, başa düşmək və bədii gerçəkliklə düşünülmüş suallara dürüst cavab vermək üçün, əlbəttə, müəyyən hazırlıq, müəyyən bədii düşüncə sahibi olmaq lazımdır. Yusifin həmyerlisi dərhal vəziyyəti alır, söhbətin nədən getdiyini "fəhm" edir, sirr ona aydın olur:

"Ərəb aydur: anladım bu sözünni,
Bildim, fəhm eylədim razınnı...
Qaba yığac dedigün Yəqubdurur,
Ol onikincisi Yusif ğaibdurur,
Həqiqət, qurt yeyibdür, deyür imdi...

Yusifə qoşulmağa istər dərman,
Müdam həqqa təzərrölər qılur imdi.

Darəlməhzən məqamından hər çığamaz,
Könli məğmundur, ağzı təam yeməz,
Gözin açıb cəhanə hərgiz baqmaz,
Ağlamaqdan iki gözi görməz imdi".

Cavabda "Yusifə qoşulmağa istər dərman", "Könli məğmundur", "ağzı təam yeməz", "gözün açıb cəhanə baqmaz", "ağlamaqdan iki gözi görməz" kimi canlı ifadə tərzləri fikrə dürüstlük verməklə, bədii gerçəkliyi bir qədər də həyat həqiqətilə bağlayır, inamı artırır; göz önündə "qaba bir ağac"ın - on iki oğul atası, sevimli oğlu Yusifi itirmiş dərdli-ələmli qoca Yəqubun bədii surəti canlanır.

Azərbaycan mənəvi fikir tarixində bədii gerçəklik güclü poetik keyfiyyət olub, bədii təsvirin çox təsirli vasitəsidir. Görkəmli bədii söz ustalarımızın dil və üslubunu bunsuz təsəvvür etmək çətindir.

XIII əsrin kitabəsi "Əhmət hərami dastanı"nda elə beytlər, bəndlər və bütöv hissələr var ki, başdan-başa məcazdır, fikir silsiləli epitetlərlə, qanadlı söz və ifadələrlə verilir. Məs., təzəcə ailə qurmuş iki xoşbəxt gənc - Güləndamla Güləfrux belə bədii boyalarla təsvir olunur:

"Güləfrux ol gecə gərdəgə girdi,
Güləndam ikram edüp durı gəldi.

Zəhi dövlət bu gəz buldı iki şah,
Günəş qoynuna girdi ol üzü mah.

Cavahir mədəni gəncə sataşdı
Dikənsiz bir güli gülzarə düşdi.

Buluşdı bülbül ilə gülsitanı,
Sorışdı tutilə şəkkəristanı.

Sanasın onların firiştə biri,
Biri sankim behişt içində huri.

Çü hər ləzzət ki, bal yağa qarışdı,
Öpişdivü qucuşdıvü sorışdı.

Dolaşdı sərvi dalına sənubər,
Buluşdı ol iki bədri-münəvvər.

Sabahadək bular heç gözlərini
Uyumadı yumup nərgislərini...”

Gənclərdən biri Günəş, o biri Ay, biri cavahir mədəni, o biri xəzinə, biri cavahir mədəninin “dikənsiz gülü”, o biri gülzar, biri bülbül, o biri gülüstan, biri tuti, o biri şəkərstan, biri mələk, o biri huri, biri bal, o biri yağ, biri sərv, o biri sənubər və nəticədə hər ikisi “bədri-münəvvər” (gözəllik şüası) kimi təqdim edilir, göz nərgizlə sinonim olaraq işlədilir. Əslində, bu, mümkün olan iş deyildir. Lakin şair bunu mümkün edir. Tükü tükdən seçən, “qılı iki biçən”, sərraf oxucu və ya dinləyici də buna inanır, onu həqiqət, amma “bədii həqiqət” kimi dərk edir, ondan estetik zövq alır.

Nəsiminin bu misralarını xatırlayaq:

“Ayın hilalı əgərçi Günəşdən alır nur,
Bu Ayı gör ki, Günəş nur alır hilalından”.

Şairin təsvir etdiyi gözəl, lirik qəhrəman Ay və Günəşlə qiyas edilir, onlardan üstün tutulur. Şair deyir ki, əgər Ayın üzü öz nurunu Günəşdən alırsa, Günəş də öz nurunu mənim sevgilimin, mənim

Ayımın surətindən götürmüşdür. Əlbəttə, bu, mümkün olan şey deyil, "yalandır", amma "bədii yalandır", buna görə də məqbuldur, bədii gerçək olduğuna görə gözəldir, təsirlidir.

Xətainin "Dəhnamə"sindən baharın təsvirinə aid bircə beyti alaq:

"Süsən qılıc aldı, bid xəncər,
Eyş etməyənin gözünə sancar".

Əslində, nə Süsən əlinə qılınc, nə də söyüd xəncər ala və nə də gözə sanca bilər. Lakin şair baharın gəlişi münasibətilə ayılan təbiəti təsvir edir, bitkilərə insani sifətlər verir, onları danışdırır, söylədir; bu da insana estetik zövq verən gözəl bədii lövhədir.

Füzulinin qəzəllərindən bir, "Leyli və Məcnun"undan isə iki beyt misal gətirək:

"Əksi-ruyin suya salmış sayə, zülfün torpağa
Ənbər etmiş torpağın adın, suyun ismin gülab".

Üzün aydınlığının su ilə, zülfün qaralığının torpaqla müqayisəsilə fikrin bədii vüsətinə heyran qalmamaq olmur. Şair elə parlaq bədii lövhə yaratmışdır ki, hər şey aydın görünür. İkinci misrada beş-altı sözlə gözəlin bitgin surəti çəkilib, adi bir bənzətmə ilə surəti elə tamamlanıb ki, onun gül cəmalının suya, qara saçlarının torpağa "sayə" salması ilə su ismini dəyişib "gülab", torpaq adını dəyişib "ənbər" olmuş. Bədii məntiq: deməli, gül o gözəlin surətinin, ənbər isə saçlarının kölgəsi də ola bilməz. Əlbəttə, həqiqi mənada bu da ola bilməz, "yalandır", amma bədii gerçəkliyə əsaslanan "yalandır", buna görə də zövqləri oxşayır, könülləri fəth edir.

"Yaşım suyu oldu varə-varə,
Bir bəhr ki, yox ona kənarə".

"Səhralara tutdu seyl tək üz
Vadilərə açdı çeşmə tək göz".

Hər iki beytdə obraz qüvvətlidir, məcaz çevrilib mübaliğə olmuşdur. Birinci beytdə Məcnunun göz yaşı o qədər axmış ki, kəna-

rı görünməyən ucsuz-bucaqsız bir ümman, dəniz əmələ gəlmişdir. İkinci beytdə oğlunu axtarmaq üçün ata göz yaşları içərisində sel olub səhralara üz tutmuş, bu sel səhraları bürümüş, vadilərə "çeşmə tək göz" açmışdır. Beytlərdə nə qədər mübaliğə və "yalan" varsa, bir o qədər də bədii gerçəklik var. Çünki misralar özündən əvvəlki ürəkləri parçalayan hadisə və əhvalatların məntiqi nəticəsi kimi verilir. Məcnun və atasının əhvalından hali olan oxucu bu bədii "yalana" nəinki inamsızlıq göstərir, hətta belə bir bədii rəngin, boyanın real olduğunu, yerinə düşdüyünü təsdiq edir.

Dildə bədii gerçəklik həyat həqiqətlərinin təsdiqi üzərində müəyyənləşir. Bu təsdiq müstəqim deyil, məcazi mənada təsdiqdir; yeni qanadlı söz, yeni obrazlı fikir söyləmək üçün sənətkarın əlində mühüm vasitədir. Məs., Qövsi Təbrizi aşağıdakı beytdə ənənəvi bənzətməni inkarla yeni bir fikri təsdiq edir:

"Hər gülün başına dönmək nə həvəsdir, bülbül!
Aşiq oldur ki, özün eyləyə bir yarə fəda".

Qövsi hər gülün başına dolanan bülbülü insanla qarşılaşdırır, insani keyfiyyətləri: məhəbbətdə sədaqəti, paklığı insandan öyrənməyə çağırır, ona tələqin edir, tənə ilə onu insani yola, öz yoluna dəvət edir. Bununla da, şair öz şəxsiyyətini - mənəvi üstünlüyünü, saflığını, eşqdə-məhəbbətdə sədaqətini, "bir ürəkdə iki məhəbbətin ola bilməyəcəyi" əxlaqi fikrini söyləyir. Digər bir misrada isə şair bu məziyyəti qəti şəkildə məcazla belə elan edir:

"Mənə bülbül kimi hər gül budağı dilnişin olmaz"

Dildə bədii gerçəklik və inandırıcılıq məziyyəti hər dövrdə ondan əvvəlki ədəbi ənənələrin ən yaxşı nailiyyətləri üzərində inkişaf edir. Bu mənada Qövsi öz böyük ustadı Füzuli sənətini sədaqətlə davam və inkişaf etdirirdi.

Füzuli deyir:

"Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə.
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var".

Qövsi deyir:

"Bülbüləm, amma məni bənzətmək olmaz bülbülə
Kim, mənim naləm onun sərvi-xuramanıncadır".

Müqayisə və bənzətmələr bəzən insani keyfiyyətlərin zirvəsinə yüksəlmiş, fərqlənmiş, seçilmiş, məşhurlaşmış tarixi-ədəbi qəhrəmanlarla edilir, yeni bədii fikir demək üçün insan daha kamil bir insanla qarşılaşdırılır. Məs., Füzuli Məcnunla müqayisə edərək, aşiqlik istedadını ondan alsa da, özünü ondan üstün tutur, özünü əsl aşiq, "aşiqi-sadiq" adlandırır:

"Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var".

Məcnunun məhəbbətindən və ustadı Füzulinin Məcnuna şairanə münasibətindən təsirlənən Qövsi Təbrizi isə özündən başqa heç kəsə bənzəmək istəmir, eşq babında özünü uca tutur, ustadının həmin obrazlı fikrinə bu çalarları əlavə edir:

"Məni divanəyə eşq içrə hər bidərdi bənzətmin
Ki, Məcnun vüsəti-səhra, Fərhad dağ istər".

"Gəlmə, ey Məcnun, mənim ardımca əqlin var isə,
Ahudan qəti-nəzər qıl kim, yaman çöldür bu çöl".

Hər iki sələfinin obrazlı düşüncəsinə yaradıcı şəkildə, daha yeni bir səmtdən, lakin onların mövqeyindən yanaşan S.Vurğun özünü Məcnunla bu şəkildə qarşılaşdırır:

"Məcnun öz şurilə çox da aləmə səs salmasın,
Hansı namərd can əsirgər bir nigarın eşqinə".

Ədəbi şəxsiyyətlər, söz ustaları bəzən elə bədii kəşflər edir, elə bənzətmələr - bədii gerçək ifadələr işlədir ki, nəsillərdən-nəsillərə keçib gəlir və həmişə də təzə, təravətli olur. Vidadi uçan dumanların

xoş avazında, qatar-qatar düzümündə ilk dəfə elə bir şeriyyət duymuş ki, durna qatarının bu poeziyası insanın qəlbini indi də oxşayır:

"Qatar-qatar olub, qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar?!"

Vaqif şair dostunun göylərə pərvazlanan səsinə səs verib, durna qatarı və onun xoş avazına daha yeni bir ahəng qatmışdı:

"Nazənin-nazənin edərsiz avaz,
Ruhlar təzələnir, olur sərəfraz.
Vaqifin də könlü çox edər pərvaz,
Hər dəm sizin ilə gəzə, durnalar"!

Təxminən yüz il sonra Qasım bəy Zakir bu mövzuya qayıtmış, durnaların Qarabağ göylərinin də yaraşıqlı qonağı olduğunu xatırlamaqla, sələflərini yad edib, "Durnalar"a yeni bədii çalarlar əlavə etmiş, eyni mövzuda orijinal bir şer yazmışdı:

"Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Qaqqıldaşa-qaqqıldaşa, durnalar"?

Durnalara qoşularaq "hər dəm" bir yerdə olmağı, onlarla gəzməyi arzu və "mümkün" hesab edən Vaqif mahal qızlarının dəstəsilə durnaların qatarında, onların yerişilə yaşılbaş sonaların uçuşunda da bir bədii uyar görmüş, bədii məntiq kəşf etmişdi:

"Bir bölük yaşılbaş sonalar kimi,
Yığılıb gəlibdir Qazağa qızlar.
Ayna qabağında qara qaş ucun
Endirib gətirmiş qulağa qızlar...

Ay ağalar, necə sitəm etdilər,
Vaqifin canını çox incitdilər,
Yenə durub qatarlaşıb getdilər.
Sözlərin qoydular qırağa qızlar".

Dildə bədii gerçəklik yüksək poetik keyfiyyətdir. Bu, təkcə bədii əsərlərlə məhdudlaşıb qalmır, elmi tədqiqatlarda, ciddi publisist əsərlərdə də alimin dadına çatır, onun fikrini qanadlandırır. M.F.Axundovun fəlsəfi məktublarından gətirilən bu parçalarda fikrə qüvvət verib onu qanadlandıran bu bədii gerçək ibarələrdir: "Millət niyə gərək, belə natəvan olsun ki, *hər bir dərədən baş qovzuyan it-qurd* onun başına bu növ bəlaları gətirsin" (*10 b*, s.17) və: *"Əhli-İran hələ yenicə iməkləmək başlayır"* (10 b. s.90) və *"O öz millətinin ürəyinin tarlasında qeyrət, namus, millət dostluğu, vətənpərəstlik, ədalət və bərabərlik toxumu əkilməsini və nifaqın birliyə* çevrilməsini və millətin arasından zillət və fəkirliyin rəf olunmasını və millətin sərvət və miknət qazanmasını istəyir" (*10 b.* s. 119) və b.

Eyni sözləri F.Köçərlinin bu kəlamına da aid etmək olar: *"İntelligensiyamız ilə camaatımız arasında dərin və gen bir dərə vardır* ki, hər iki tərəfi bir-birinə vasil etmək üçün lazımdır *yol açmaq və körpü salmaq*, hələ bir tərəfin *"Köçü də ayrıdır, heçi də"* (*55 b.* s. 160) və: "Necə ki, su *bir yerdə qalanda qoxuyar və hava bir məkanda boğulub hərəkətsiz duranda ağırlaşar, habelə insan da hərəkətsiz qaldıqda,* seyr və səyahətdən bixəbər olub, bir məkanda və bir övzada zindəganlıq etdikdə hər bir cəhətdən aciz, zəif, elmsiz, bacarıqsız və qorxaq olar" (*55 b.* s. 232) və b.

Dildə bədii gerçəklik olduqca geniş və əhatəli problemdir. Biz bu ilkin xalları vurmaqla kifayətlənirik. Ədəbi şəxsiyyətlərin, söz ustalarının dilinin tədqiqində məsələ öz geniş həllini tapmalıdır.

10. ƏDƏBİ ŞƏXSİYYƏT, ƏNƏNƏ VƏ DİL

Ədəbi dil ənənəyə söykənməklə, hər dövrdə canlı dilin müasir inkişaf səviyyəsini nəzərə alır, onun ümumi mənzərəsini verir və ona yeni keyfiyyətlər əlavə edir. Burada isə ədəbi şəxsiyyətin bacarıq və istedadından, onun mövqeyindən, yaradıcılığının yenilik ruhundan çox şey asılıdır.

Dilin inkişafı tarixində ədəbi şəxsiyyətlərin rolu böyükdür. Dahi sənətkar öz sənət dühası, dili və üslubu ilə nəinki yaşadığı dövrü, hətta özündən sonrakı bir neçə dövrü də təsir altına alır. Azərbaycan zəminində Dədə Qorqud, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundov, Üzeyir Hacıbəyov və digər sənətkarlarımız belə ədəbi şəxsiyyətlərdən olmuşlar. Bu sənətkarların fərdi üslubu bədii ədəbiyyatın üslubları silsiləsinin ümumi və eyni zamanda spesifik (istər, ümumiyyətlə ədəbi dil, istərsə də bədii sənətin başqa növləri, məs.: musiqi, teatr və s.) inkişaf qanunauyğunluqları ilə vəhdət təşkil etmişdir. Başqa sözlə, görkəmli yazıçının, klassik sənətkarın fərdi üslubu bədii ədəbiyyatın üslublarının inkişaf qanunauyğunluqları ilə əlaqədardır və ondan təcrid edilə bilməz.

Yazıçının ideya mövqeyi, məsləki onun üslubunun müəyyənləşməsində az rol oynamır, dili və üslubu isə onun sənətkarlıq sirlərini açmaqla, yaradıcılıq simasını meydana çıxarır.

Əgər Dədə Qorqud VI-VII əsrlərdə əlində qolça-qopuz el məclislərində - qəhrəmanlıq və şücaət səhnələrində, toyda-düyündə, xeyir-də-şərdə çalıb-çağırır, sözün qüdrəti ilə elin qüdrətində qırılmaz vəhdət və ahəng görür, poetik sözün, şerin-sənətin tanrıya da təsir göstərə biləcək mənəvi sərvət olduğunu təbliğ edirdisə, bu, bütövlükdə xalqı şair kimi yetirir, gələcəyin qüdrətli söz ustalarının, böyük ədəbi şəxsiyyətlərinin yetişməsi üçün zəmin, bünövrə hazırlayırdı.

Söz və şer, mahnı və musiqi Azərbaycan xalqının könül sirdaşı, ruhunun əbədi qidası olmuşdur. Xalqımızın şad günləri də, qəmli günləri də sözsüz, mahnısız keçməmişdir. Bu tel, bu mənəvi qida Dədə Qorqudu (və Dədə Qorqudları) yetirmişdir. Dədə Qorqud qolça-qopuzu "eldən-elə, bəgdən-bəgə çalıb ayıtmış", gerçək sözü, düz sözü, sağ sözü təbliğ etmiş, xalqımızın əbədi şöhrət kitabını yaratmışdır. Bu kitab - "Dədə Qorqud kitabı" xalqımızın tarixi-ənənəvi xüsusiyyətlərini və mənəvi keyfiyyətlərini özündə mühafizə edib saxlamış, hələ o vaxtlar sazla birləşib "tanrını da yumşaldan" sehrli; bədii dilini nəsildən-nəslə ötürmüş, dövrümüzə gətirib çıxarmışdır...

Əgər VII əsrdə ərəb istilası, bunun ardınca zaman-zaman fars hökmranlığı ədəbi fikir tariximizdə bir boşluq yaratdı, Nizamilərə, Xaqaniləra ana dilində yazmağı qadağan etdisə də, keçmiş ana dilli ədəbi ənənə yenə öz işini gördü; şair Əlinin 1212-ci ildə tamamladığı "Qisseyi-Yusif" mənzum romanı ilə ənənə yenidən dirçəldi, bərpa olundu. Əli:

"Yusif anın bu sözinə cavab verdi,
Sözün eşitib xas, amlar heyran qaldı,
Gözlərindən gövhər kibi yaşlar aqdı,
Fəsih dilin, səhih sözin sözlər imdi" -

- deyə qəhrəmanının cavabına, nitq-danışıq mədəniyyətinə aludəliyini bildirir, onun "xas amlar"ı heyran qoyan, "gözlərindən gövhər kibi yaşlar axıdıb", könülləri fəth edən aydın dili, dürüst sözü-söhbəti barədə söhbət açırdısa, bu artıq insan ünsiyyətinin, insan ləyaqəti və kamalının mühüm amili olan dilə, danışığa əsl sənətkar münasibəti idi. Bir əsr sonra isə ana dilli sözün, sənətin, şeirin zirvəsi nəinki fəth edildi, hətta Nəsimi, bir ədəbi şəxsiyyət kimi özünü - insanı Allaha bərabərləşdirdi; xalq mövqeyində duraraq, anlaşıqlı və həm də "dadlı" dildə yazmaq barədə düşünüb

"Gərçi Nəsimi sözün dadını verdi, vəli
Dadə gətürdi anı ləfzi-şəkərbarımız" -

deyə ümumxalq dilinə, canlı danışığa üstünlük verir, ana dilinin "şəkər saçan" şirinliyindən bəhs açır və bununla o öz milli mövqeyini qəti müəyyən etmiş olurdu: şair sözə nə qədər sığal, bədii məna versə də, yenə onun şeirini "dada" gətirən xalq dilinin zənginliyi, canlı danışığın şəkər saçan şirinliyi - "şəkərbarı"dır. Bu, Nəsiminin doğma ana dilinə, Dədə Qorqud ənənələrinə vurğunluğundan və yaradıcılığının ümumi ruhundan - xəlqiliyindən irəli gəlirdi; şair bu məqsəd və bu amalla öz dövrünün, mühitinin tələblərini ödəmək üçün mövcud və zəruri olan ədəbi imkanlardan, ənənələrdən istifadə etməyi vacib bilmişdi; bununla belə, əsl söz ustası,

novator sənətkar kimi öz qarşısına ciddi tələb və vəzifələr qoymuş, sözünü-söhbətini şirin, kəlamını dadlı etməyə, dərin fəlsəfi fikirlərini belə yığcam və aydın yazmağa çalışmışdı ki, onu geniş kütlə, xalq oxuya bilsin, duysun, başa düsün.

Şah İsmayıl Xətai də dilə, bədii sözə bu mövqedən yanaşırdı; Xətainin fikrincə, əsl şairin, sənət yolçusunun gərək "ünü (səsi, dili) ilə halı (təbi) bir kölə, dadlı ola; söz buketi "şahanə" ola, "bül-bül-gül" timsallı ola:

"Bülbül kibi ünü dadlı,
Dili gərək yol əhlinin...
Bülbülləri şaha layiq
Gülü gərək yol əhlinin".

Əgər XV əsrdə Kişvəri Nəsimi poeziyasına rəğbətlə bəzən öz sələfinə açıq-aşkar oxşamağa çalışır, şeirlərində onun üslubunu - söz, ifadə şəkillərini xatırladırdısa; o bunu şüurlu surətdə edirdi. Onun böyük sələfi (Nəsimi) belə demişdi:

"Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım.
Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.
Şəhim, mahım, dilaramım, həyatım, dirligim, ruhim.
Pənahım, məqsədim, meylim, muradım, sərvərim, xanım"...

Xələf isə (Kişvəri) belə deyirdi:

"Nigarım, dilbərim, yarım, vəfasız şux dildarım.
Xəyalım, həmdəmim, fikrim, hədisim, şerü divanım.
Üzü bədrim, sözü şəhdim, gözü ahu, saçı cadu.
Qədi ər-ər, təni mərmər, ləbi ləli-bədəxşanım"...

Hər iki şeir eyni üslubda, eyni ahəngdə deyilmişdir; ikinci birincinin təsiri ilə yazılıb ona bənzəsə də orijinaldır. Şair öz sələfinə bir növ iqtibas etmişdir. Bu, əsasən Nəsimi poeziyasının, onun dil və üslubunun təsir dairəsi ilə əlaqədardır. Kişvərinin özünə qədərki poeziya bulağından belə su içməsi təbii idi; bununla onun şeir məcrası istiqamətlənirdi... Burada Qazi Bürhanəddinin, Nəsiminin,

Kişvərinin dilini, bədii fikir və söz dühasını tədqiq edərkən sətirlər, beytlər, bəndlər arasında hər an gözümüz önündə Nizaminin, Füzulinin sələflərinə müraciətən dediyi bu sözlər canlanır.

Nizami deyirdi:

"Yazdığımız sözlər nadir olsa da,
Yenə köhnələri salırıq yada".

Füzuli deyirdi:

"Dostlar gəlib etdi bizdən əvvəl,
Mənanı, sözü o qədər qarət,
Təng oldu bizə fəzası nəzmin,
Fəryad, nəyə bais oldu sibqət!"

Füzuli etiraf edirdi ki, ona qədər Azərbaycan şeirinin dili, qəzəl üslubu çox güclü olmuşdur; bu isə yeni fikir və söz demək üçün şairi daha artıq işləməyə, yuxusuz gecələr keçirməyə məcbur etmişdi: "Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb yazdığımı pozmuşam, ona sahib çıxmamışam" (III, 20).

Nizami, Füzuli öz sələflərinə necə yanaşmışsa, xələfləri də onlara belə bir münasibət bəsləmişlər. Qövsi Təbrizinin "Söz" rədifli qəzəlində bu cəhət öz ifadəsini çox aydın tapıb:

"Han, sözün rəncidə qıl, Qövsi, Füzulidən eşit!
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz".

Bu, nəsillərin əlaqəsidir, ardıcıl və güclü ənənədir. Bu ənənə bütün əsrlər boyu davam etmişdir.

Əgər XVI əsrdə Füzuli qəzəli, bir qədər sonra Sarı Aşıq bayatını, XVIII əsrdə Vidadi ilə Vaqif qoşmanı öz yaradıcılıqları üçün əsas şeir növü kimi seçmişdilərsə, bununla da zəmanələrinin nəbzini tuta bilmişdilər. Qəzəl də, bayatı da, qoşma da musiqi ilə əlaqədar olduğundan bunları yazıb-yaradan sənətkar xalqla, onun hə-

yatı və dililə yaxınlığa daha artıq nail olurdu. Şeir dilimizin tarixən cilalanması və inkişafında məhz muğamatın və Azərbaycan aşıq musiqisinin rolu çox mühüm olmuşdur.

Bayatı yığcam şer növüdür. Cəmisi dörd misra, on-on beş sözdən ibarət olan bu şer növündə xalq musiqi tonu çox güclüdür; cinas üstündə qurulan bayatıları, bəlkə də musiqinin sözlə tərənnümü hesab etmək olardı.

"Mən aşıq yara bağlar,
Yar meylin yara bağlar.
Yaramı yar bağlasın
Yar yaxşı yara bağlar".

Burada üç mühüm məziyyət - qafiyələrin ahəngi, qafiyələrin cinas (yara, yara, yara) üstə qurulması və eyni səs, heca və sözlərin təkranının *(y-y-y-y-y-y-y-y-y-y, yar-yar-yar-yar-yar-yar-yar, yara-yara-yara-yara, bağ-bağ-bağ-bağ)* ahəngi şeri bütövlükdə musiqiyə çevirmişdir. Şeirin bu dil, üslub gözəlliyi mənaya və fikrə estetik vüsət vermiş, onu musiqi tonuna salmışdır. Bu keyfiyyət isə uzun tarixi ənənənin o dövrdə davamı və inkişafının yeni şəkli, yeni istiqaməti, yeni zirvəsi idi... Ozan-aşıq şeiri ozan aşıq musiqisi ilə, şifahi xalq ədəbiyyatının bayatı, layla və başqa növləri isə xalq mahnıları ilə belə sıx əlaqədə inkişaf edib gəldiyi, yetkinləşdiyi kimi, klassik şeirimiz (xüsusilə qəzəl) də muğamatla belə bir vəhdətdə inkişaf edib kamilləşmişdir.

Füzuli deyəndə ki,

"Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola" -

eyhamla məhz bu məsələyə işarə vurmuşdu.

Vidadi Vaqifə deyəndə ki,

"Küll Qarabağın abi-həyatı
Nərmü nazik bayatıdır, bayatı.

Oxunur məclisdə xoş kəlimatı,
Ox kimi bağrını dələr, ağlarsan -

o da məhz bu cəhəti nəzərdə tuturdu.

Hər iki şeir parçasındakı "oxumaq" sözünün ikili mənası var. Xalqın çox hissəsinin savadsız olduğu dövrlərdə şeir məhz musiqi ilə oxunmaqla yayılırdı, musiqi şeiri kütləviləşdirirdi... Möhkəm zəmin, ənənə üzərində yaranıb yetişən ədəbi yaradıcılıq prosesi özündən əvvəlki irsin ən yaxşı və mütərəqqi nailiyyətlərini layiqincə mənimsəmək və ona əlavələr edib zənginləşdirmək yolu ilə inkişaf edir, yeni dövr, mərhələ səviyyəsinə yüksəlirdi. İstər ədəbiyyatımızın, istərsə də onun dilinin tarixində Füzuli dövrü və mərhələsi; bayatı dövrü və mərhələsi; Vaqif-Vidadi dövrü və mərhələsi və s. belə yaranmış və sonrakı ədəbi nəsil üçün yeni zəmin, yeni ənənə olmuşdur.

Əgər XIX əsrdə M.F.Axundov və H.Zərdabi, XX əsrin əvvəllərində F.Köçərli və demokratik fikirli başqa yazıçılar - mollanəsrəddinçilər dil məsələsini günün vacib məsələsi kimi alıb, buna ayrıca yer verərək, ədəbi dilin sadəliyi, saflığı və müstəqil inkişafı uğrunda mübarizəyə qalxmışdılarsa, bu onların təkcə xalqın ədəbi irsinə və dilinə böyük ehtiramından yox, həm də vətəndaş-yazıçılıq borcundan irəli gəlirdi.

Əgər M.Ə.Sabir özündən əvvəl Q.Zakir və S.Ə.Şirvani ilə başlanan satirik şeir üslubunu işləyib, bu üslubu öz ideya istiqamətinə yönəltməklə ona yeni məna, inqilabi ruh və məzmun vermişdisə, bunu öz dövrünün tələblərinə uyğun şəkildə, həyatın şair qarşısında qoyduğu yeni vəzifə kimi yerinə yetirmişdi. Sabirin bu xidməti onun müasirlərinin də diqqətindən yayınmamışdı. A.Səhhət yazırdı: "Sabir köhnə şerlərlə yeni şerlər arasında bir əsrlik qədər uçurum açdı ki, bir daha geri dönüb də o uçurumu atlanmağa kimsədə cürət və cəsarət qalmadı (*61 b*, s. 44-45). Bu sözlər şübhəsiz ki, hər şeydən əvvəl, Sabirin dilinə, fərdi üslubuna aid idi...

Əgər klassik yazıçı, söz sənətkarı bəzən dildən həddən artıq "sərbəst", yeni yaradıcılıqla istifadə edirsə, bu, çox təbii haldır. Çünki bununla o, dilin yeni imkanlarını üzə çıxarır, kəşf edir, ədəbi dili yeni keyfiyyətlərlə zənginləşdirir. Nəsimi, Xətai, Füzuli, Vaqif, M.F.Axundov, H.Zərdabi, Sabir, C.Məmmədquluzadə, C.Cabbarlı və S.Vurğun belə etmişlər. Onlarsız bizim ana dilimiz, onun yüksək forması sayılan ədəbi dilimiz bugünkü ecazkar zənginliyə malik olmazdı. Məsələn, C.Cabbarlının bədii əsərlərinin, xüsusən dram əsərlərinin baş qəhrəmanlarının - Aydının, Oqtayın, Sevilin, Almasın, Elxanın, Yaşarın, Gülsabahın ədəbi danışığın ən yaxşı nümunəsi olan odlu nitqləri, mühakimələri ümumən ədəbi-bədii dilimizin zənginləşməsində yeni və böyük bir nəslin yazı və nitq mədəniyyətinin inkişafında çox mühüm rol oynamış və indi də oynamaqdadır. Bu isə onu göstərir ki, ədəbi-bədii dillə canlı danışıq dili, ədəbi-nümunəvi nitqlə canlı nitq arasında daim sıx əlaqə mövcuddur; bunlar bir-birinə qarşılıqlı təsir edir, biri digərini zənginləşdirir. Xalq daim inkişafda olduğu kimi, dil də inkişafda olur. V.Q.Belinskinin təbirincə desək, "Ciddi yanaşılsa, dil heç zaman son həddə qalmır: o, durmadan yaşayır və inkişafda, təkmilləşməkdə davam edir... Dil həyatda xalqla birgə addımlayır" (*237*, s.145). Deməli, əgər bəzən təkcə sənətkarlarımızın dilində deyil, hətta "normativ dil"də bir natamamlığa, "qüsur"a rast gəliriksə, bu yalnız o deməkdir ki, dildə təkmilləşməyə ehtiyac var, bu təkmilləşmə davam edir, daim davam edəcək əbədi bir prosesdir.

Ədəbi klassik ona görə klassikdir ki, onunla xalq, xalq dili, xalq zövqü ümumxalq dilinin yüksək forması olan ədəbi dil arasında obyektiv bir vəhdət özünü göstərir.

Ədəbi klassik ona görə klassikdir ki, xalqın estetik tələbləri qarşısında duran ictimai problemlər kimi, fərdi dil üslubunun bu və ya başqa cəhəti də onun tərəfindən kəşf edilir. Tərəqqi də, dil də, tərəqqinin istedad tərəfindən tərənnümü də məhz bu deməkdir.

11. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLDƏ DÜZLÜK-DÜRÜSTLÜK

Azərbaycanın ictimai və mənəvi fikir tarixində düz söz, həqiqi söz həmişə diqqət mərkəzində olmuşdur. Hələ "Avesta" kitabında:

Təmiz söz, düz söz, haqq söz!
Təmiz kəlam, düz kəlam, haqq kəlam! -

təlimi əsas yer tuturdu. Tarixən bu təlim nəsildən-nəsilə keçir, xalqımızın mühüm mənəvi keyfiyyəti kimi inkişaf edib gəlirdi. Zərdüşt peyğəmbər:

"Ey yaxşı, gözəl dost!
Artanı və xeyri idarə edən
Hürmüz, kömək elə nəğməkara!" -

sözlərilə nəğməkarı həqiqəti car çəkməyə səsləyir, doğru yolun açarının düz söz, haqq söz olduğunu deyirdi. Hələ Dədə Qorqud haqq sözün, düz sözün qüdrətinə, təsir gücünə və yenilməzliyinə inanır, onu təqdir edirdi. O, yalanı pisləyir, yalan olan sözü rədd edir, həqiqətə, "gərçəklərə" uzun ömür arzulayırdı:

"Yalan söz bu dünyada olunca, olmasa yeg!
Gerçəklərin üç otuz on yaşını doldursa yeg!"

Dədə Qorqudun bu poetik fikri Azərbaycan şeir dili tarixində leytmotiv kimi keçib gəlir. Qüdrətli söz ustalarımız bu məsələ üzərində dönə-dönə dayanmış, onu daim ön plana çəkmiş, həqiqi, gerçək söz demiş, öz mövqelərini Dədədən qalmış həmin poetik fikirlə müəyyən etmişlər.

Nizami:

"Hansı bir pərdədə doğru söz gördüm,
O sözün telini şerimlə hördüm...
Qələmə gərəkdir eylə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.

Parlaq inci kimi düzülən sözlər
Ağıla sığmasa, yalana bənzər".

"Doğru yazmağa var, madam ki, imkan,
Nəçin gəlməlidir ortaya yalan.
Sözün qiymətini saldı yalanlar,
Doğrunu danışan hörmətli olar" -

- deyə müasirlərini və gələcək ədəbi nəsilləri doğru söz deməyə və həmişə bu məsələdə ayıq olmağa çağırmışdı.

Nizaminin ana dilində yazan müasiri Əli bircə misra ilə bu məsələyə öz münasibətini bildirmişdi:

"Həm söz qələt olmasın, həm onda güman" -

- demişdi.

"Dastani-Əhmət hərami" əsərində naməlum şair mənalar kanına, "fikir aləmi"nə yüksək qiymət verərək, sözü doğru, dürüst "zikr" etməyin, söz sənətinin "doğru yolunu güdməyin" zəruriliyini ilkin şərt kimi qarşıya qoymuşdu:

"Anun dil zikrini etmək gərəkdür,
Anun doğru yolun gütmək gərəkdür".

Nəsimi "Doğru söz acı olar" atalar sözünə "düzəliş" verərək yazmışdı:

"Doğru söz doğrulara acı degil".

Nəsimi haqq sözü, doğru sözü zəmanəsinin müqəddəs kitabı sayılan "Quran"la müqayisə etmiş, ona bənzətmişdi:

"Ey sözü haqq, cümlə "Quran"dır sözün".

Nəsimi sözü insanın daxili aləminin açarı hesab edirdi; o kəsləri əsl şair, sözünü söz sayırdı ki, "könlü ilə dili birdir"; Nəsiminin amalınca, dil gərək düz ola, "əyri" dil gerçək danışa bilməz, həqiqətdən söhbət aça bilməz.

"Dil bazarçısı yalandır, varmazam bazarinə,
Gerçək olmaz əkri dil, inanmazam iqrarinə.

Sadiq oldur dilini könlü ilə bir eyləyə,
Əkri dildən nəsnə gəlməz, durmuşam inkarinə".

Xətainin fikrincə, söz sənətində yalan demək, hiylə işlətmək xəyanət deməkdir:

"Heç xilaf yoxdur sözümdə"
Haq sözə hiylə qatılmaz"
"Yalan söyləyən asidir".

Şairin fikrincə, söz gərək "bir", yəni düz olsun, "sağ" olsun, canlı həyatda da, sənətdə də, sözü bir olanın, sağlam söz danışanın həmişə üzü ağ olar:

"Sözünü bir söyləyənin
Sözünü edər sağ bir söz.
Pir nəfəsin dinləyənin
Yüzünü edər ağ bir söz".

Füzuli deyirdi ki, "söz könüllər açıb, ətir saçan dilbərdir ki, öz simasını hər an qeybdən göstərir, yoxdan var olur; söz sirlər xəzinəsinin xəzinədarıdır ki, hər an minlərcə sirli gövhəri aşkara çıxarır" (1, 167); "aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli gövhər tapmadım" (IV, 26).

Füzuli deyirdi ki, "Ağzın sirrini hər dəm xalqa çatdıran, izhar edən" söz gərək düz olsun; düzlük olmayan yerdə nə sənət var, nə də insanlıq. "Hər şeyin ilk məziyyəti" düz sözdür, düzlükdür:

"Gözəl yaranmışdır söz əzəl başdan,
Düzlükdür ondakı hüsnü artıran.
Düzlüklə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti".

Sarı Aşıq bir sənətkar sövq-təbiisi ilə söz sənətində bu məziyyəti çox dürüst dərk etmişdi:

"Mən Aşıq gözəl ayaz,
Meh əsər, gözəl ayaz.
Qələmin qurbanı olum,
Gözəli gözələ, yaz".

Bəli, "Gözəli gözlə, yaz", gözələ gözəl söz yaraşır! Sənətdə hər şey onun özünə layiq şəkildə, düzlük-dürüstlük əsasında tərənnüm edildikdə ona zaval yoxdur.

Qövsi Təbrizidə doğru söz həyatın, insanlığın, habelə sənətin zəruri keyfiyyəti kimi tərənnüm olunur:

"Doğru söz hər kimsəyə təsir edər, nasch, vəli
Aşiqi məst eylərü, aqilləri hüşyar söz.
Sərfəsizdir gövhəri israfilə sərf eyləmək,
Ta zərurət düşməyincə söyləmən zinhar söz".

Lakin şair həyatda doğru sözün azlığına, düz sözün acı olduğuna, bəzən "dostları da düşmən" etdiyinə fəğan qoparır, təəssüf edirdi:

"Fəğan ki, söz deməyə doğru sözlü yar azdır"
"Əgərçi doğruya, məşhurdur, zaval olmaz,
Fəğan ki, dustları doğru söz edər düşmən" və b.

Dildə düzlük-dürüstlük, başqa sözlə, dil reallığı çox mühüm keyfiyyətdir və bədii söz ustalarımızın həmişə yaradıcılıq devizi olmuşdur. Dildə bədii gerçəklik problemi də bu düzlük-dürüstlüyün davamı və inkişafıdır...

12. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLDƏ SADƏLİK, REALİZM

Azərbaycan bədii söz sənəti və ictimai fikir tarixində XVIII-XX əsrlər çox zəngin dövrdür. Bu dövrdə ədəbi dilin bir sıra yeni üslubları yaranır, yeni ədəbi cərəyanlar meydana çıxır, dilin sadəliyi, saflığı, zənginləşməsi məsələləri geniş miqyas alır. Xüsusilə XIX-

XX əsrlər zamanın ədəbi, ictimai-siyasi ehtiyaclarından doğan problemləri qabardır, ön plana çəkirdi. Dildə sadəlik və realizm dövrün səciyyəvi və aktual problemlərinə çevrilmişdi. Füzulinin hələ XVI əsrdə qəzəl janrı ilə əlaqədar "Qəzəl de ki... oxumaq da, yazmaq da asan ola" - fikri XIX-XX əsrlərdə, yeni şəraitdə ədəbiyyatın bütün janrları, ədəbi dilin bütün sahələri, dram dili, mətbuat dili, elm dili və s. üzrə yeni şəkildə təzədən qaldırılır, həm əməli, həm də elmi-nəzəri cəhətdən əsaslandırılırdı. Vaqifin, Vidadinin dil və üslubu öz ecazkar sadəliyi və aydınlığı ilə fərqlənir, gələcək ədəbi nəsillərə nümunə ola biləcək "ədəbi məktəb" şəklinə düşürdü. Vaqifin dilindəki sadəlik adi sadəlik deyildi, ali sadəlik idi; Vaqifin sadə dili estetik vüsətli yüksək bədii sadəlik idi.

Vaqifin məşhur

"Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır,
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badi-səbadan, nə şanədəndir" -

bəndini xatırlayaq.

Vaqif insanın öz təbii halında gözəl olduğu fikrini söyləyir: şair baxışların xumarlığında, üzün lalə tək qızarmasında, zülfün təbii pərişanlığında bir gözəllik, poeziya görür. Bu gözəlliyi nə "badi-səba", nə də "şanə" (daranmaq, özünə bəzək-düzək vermək, ənlik-kirşan sürtmək və s.) yaratmır. *İnsan öz təbii halında gözəldir, poetikdir, şeirdir.*

Vaqif poeziyası insanı, insan gözəlliyini tərənnüm poeziyasıdır; söz yox, insanın, insan gözəlliyinin bir mühüm əlaməti də onun dili, sözü-söhbəti, "şirin ixtilatı", "ixtilat dəmi"dir. Vaqifin dili öz gözəlliyini dilin təbii axarından götürür. Vaqifin dili xalq dilinin, danışığın təbii gözəlliyini, daxili saflığını, həyati qüdrətini üzə çıxarır. Bu dilin bədiiliyi də onun həyatiliyindədir, canlı dilin təbii qaynaqlarından vurğunluqla, şair zövqü ilə istifadədir.

Vaqifin sadə dili estetik vüsətə malik yüksək bədii sadəlik idi. F.Köçərli yazırdı: "Bu sadə və rəvan şerlər ki, mənən dəxi ziyadə

məqbul mühtəhsəndir, şairin artıq dərəcədə ana dilinə dara olmasına və milli şayırlığına dəlalət edir" (*55 a,* s.137). Buna görə F.Köçərli hər hansı bir şairin dili və dilindəki sadəlikdən söhbət açarkən, Vaqifi meyar götürür, onunla müqayisə edirdi; Vaqif dilinin sadəliyini əsl poetik sadəlik kimi qiymətləndirir, hər sadəliyi sadəlik, hər sadə şeiri şeir hesab etmirdi.

Bu məsələ M.F.Axundovun yaradıcılığında, əməli fəaliyyəti və nəzəri-tənqidi məqalələrində öz həllini aydın şəkildə tapmışdı. Onun dram əsərləri dildə sadəlik və realizmin misilsiz nümunələridir. Maraqlıdır ki, ədib özü bu əsərləri, xüsusilə Azərbaycan dilini öyrətmək həvəsində olan əcnəbilər üçün nümunə sayırdı: "onların vasitəsilə Azərbaycan dilinin ruhunu, xüsusiyyətlərini, fellərin və sözlərin müxtəlif hallara düşməsini və sairəni öyrənmək olar" (*10 a,* s.23). Ədib bu sözlərində haqlı idi. Çünki Axundova qədər Azərbaycan dili bu şəkildə - həyatda, məişətdə olduğu kimi sadə və canlı şəkildə yazıya alınmamışdı; Azərbaycan ədəbiyyatı tarixində dram janrı M.F.Axundovun kəşfi idi; məhz ana dilinin real vəziyyətdə səhnədə səslənməsi, dramaturgiya dili və üslubunun yaranması da onun adı ilə bağlıdır.

Dildə sadəlik və realizm prinsipləri tərcümə işində də gözlənilirdi. M.F.Axundovun fikrincə, tərcümə hansı dildən hansı dilə olur-olsun, xəlqilik əsas götürülməli, xalq kütləsinin danışdığı sadə-canlı dil meyar olmalıdır.

M.F.Axundovun dram əsərlərindən fərqli olaraq, "Kəmalüddövlə məktubları"nın dili XIX əsrin dərin elmi təhlil dilidir. Ədib dövrün mühüm məsələlərini öz təfəkkürü səviyyəsində, daha dürüst desək, iki şahzadənin dilindən şərh və izah edirdi. "Məktublar"ın ağır oxunmasının səbəblərindən biri budursa, başqa bir səbəbi də tənqid obyektinin arxaikliyidir. Real vəziyyətin nə yerdə olduğunu təsəvvür etmək üçün bu sətirləri xatırlayaq: "Ey Cəlalüddövlə! Bir xəyal eylə ki, cəhənnəm əhli kimdir?.. Yarı ağıl ilə, yarı şəriət dilincə və dəlilincə səninlə danışacağam" (*10 b.* s. 43). Tamamilə aydındır ki, *"şəriət dilincə və dəlilincə"* XIX əsrdə sadə yazmaq və danışmaq re-

al olmazdı. Dram əsərlərinin dilinə gəlincə, bu məsələdə o, tam xəlqi mövqedə dayanırdı; əslində, janrın özü bunu tələb edirdi.

Dildə sadəlik dildə realizm deyil. Bunlar bir-biri ilə sıx əlaqədar ayrı-ayrı məsələlərdir. Dildə realizm bütövlükdə real vəziyyətin təsviri, dildə təzahür edən tipik vəziyyətin qələmə alınmasıdır. Məs.: M.F.Axundov dram əsərlərində XIX əsr Azərbaycan dilini o dildə danışanların özlərinin vasitəsilə səhnəyə çıxarmışdı. O, "Kəmalüddövlə məktubları"nı da iki ziyalının dilindən yazıb, əsrin elmi-fəlsəfi dil üslubunu ortaya çıxarmışdı. Bununla belə, realist sənətkar dilin daxilində mövcud olan digər vəziyyəti də nəzərdən qaçırmamışdı. Məs.: "Hekayəti-Molla İbrahimxəlil kimyagər"də Molla İbrahimxəlil "noxulu"lardan fərqli olaraq, qəliz danışır, onun dili izafətlərlə doludur: *müxtəsəri-kəlam, müddəti-təkmil, gili-hikmət, miqdari-müəyyən* və s. "Hekayəti-Müsyö-Jordan..." pyesində Müsyö-Jordan elmi üslubda danışır, nəinki başqaları, Hatəmxan ağa kimi arif bir adam özü onu başa düşməkdə çətinlik çəkir. Yenə həmin əsərdə Məstəli şah və onun şagirdi Qulaməli məqam gələndə farsca danışırlar ki, qadınları aldadıb daha çox pul qoparsınlar. Dramaturq buna eyhamla işarə də vurur:

"*Qulaməli* (farsi dili ilə ki, oturan ünas tayfası anlamasın). Mixahi çe bekoni?

Məstəli şah. Mixahəm ki, "Heykəli-şəhri-Parijra..." (*10*, s.47) və b.

XIX əsrdə real vəziyyət belə idi. Realist sənətkar isə bu real vəziyyəti hərcəhətli əks etdirirdi. Məhz buna görə də M.F.Axundovun dram dilindəki realizm və həyat həqiqəti hər bir surətin dilində özünü göstərir. Məs.: müasir mövzularda yazılmış altı pyesdə baş verən hadisələrin beşi Arazın bu tayında cərəyan edir; təbii olaraq, həmin beş pyesdə iştirak edən surətlərin dilində-danışığında rus-Avropa sözlərinə rast gəlirik, hətta Hacı Qara da *silist, medal* sözlərini işlədir. Pyeslərin birində isə hadisə Arazın o tayında - Təbrizdə cərəyan etdiyindən burada surətlər (xüsusilə vəkillər, məhkəmənin digər işçiləri) öz danışıq və sorğu-suallarında fars-ərəb sözləri, tərkib və ifadələri işlətməyə meyllidirlər. Eyni vəziyyət "Aldanmış kəva-

kib" hekayəsində də müşahidə olunur. Mövcud şəraiti, yerli və milli koloriti həssaslıqla izləyən böyük realist əsərlərinin dilində də bu mühüm cəhətə diqqət yetirmiş, dilin həyati olmasına çalışmışdır.

XX əsrin əvvəllərində yaranan yeni şərait məsələyə daha ciddi və ictimai-siyasi xarakter vermişdi. C.Məmmədquluzadə M.F.Axundov ənənələrinin davamçısı kimi fəaliyyətə başlamışdı. Ədib sanki öz sələfi ilə bəhsə girişərək "Danabaş kəndinin əhvalatları"nı iki şəxsin - qəzetçi Xəlil və lağlağı Sadığın dilindən söyləməklə, xalq həyatına daha yaxından nüfuz edib, milli dilin yatar qüvvələrini qaldırmış, Məhəmməd Həsən əmilərin, Zeynəblərin sadə, şirin, səmimi, lakin ürəkləri parçalayan söhbətlərini, özlərinə məxsus duzlu şivəsini eynilə yazıya gətirmişdi - sənətkarın belə bir yol tutması onun yaradıcılığının realizmindən doğur, xalqa, canlı həyata güclü meylindən irəli gəlirdi.

Sadə, anlaşıqlı dildə yazıb-yaradan, bu uğurda da mübarizə aparan sənətkar, öz sələfi kimi geniş dairədə dilin daxilində mövcud olan digər vəziyyəti də nəzərdən qaçırmırdı. Məs., "Ölülər"də Şeyx Nəsrullah əsasən fars və ərəbcə danışır, arada Azərbaycan dilinə keçəndə isə şagirdi Şeyx Əhməd dərhal qulağına pıçıldayır:

"*Şeyx Əhməd (alçaqdan Şeyx Nəsrullaha).* Ərəbcə de, ərəbcə de. *Şeyx Nəsrullah* (çox ucadan). Fəiza, qrəftə haza və..." və b.

Ədibin ana dilinə, sadə danışmağa nə dərəcədə ciddi əhəmiyyət verdiyini biz "Anamın kitabı" pyesində daha aydın görürük. Bir ata-anadan olan üç qardaş hərəsi bir yana çəkir, hərə bir dildə danışır. Əsər Gülbaharın "Anamın kitabı"ndan oxuduğu çox mənalı və ibrətamiz, deyərdik ki, bəşəri bir çağırışla tamamlanır:

"Yer, Göy, Ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır Günün başına dolanırlar; çünki bunlar hamısı qədim, əzəldən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın *(əlini anasına tərəf tutur)* ətrafında gərək dolanalar, çünki Ay və ulduz Şəmsin par-

çaları olan kimi, bunlar da analarının Ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə; onun insafi və vicdanı ona madamülhəyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq".

"Anamın kitabı" - ana Vətən kitabıdır, anaya, ana vətənə məhəbbətin rəmzidir; "ana dili" kimi də düşünülə bilər.

XIX əsrin ortalarında mətbuatın yaranması və geniş xalq kütlələrinə daha yaxından ünsiyyət ehtiyacı da dildə sadəlik və realizm problemini ön plana çəkmişdi. M.F.Axundov "Əkinçi"nin nəşri münasibətilə onun naşirinə məktubunda yazırdı: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, imlasının düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını dürüst olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır" (*10 a.* s. 249).

"Əkinçi"nin dili, üslubu sadə idi, xəlqi və doğma idi; o mənada sadə, xəlqi və doğma idi ki; 1) qəzet xalqın gündəlik tələbatı, ictimai-siyasi ehtiyaclarından yazırdı; 2) qəzetin naşiri bəhs etdiyi məsələlərdən öz savadına, elmi təfəkkürünə "uyğun" şəkildə deyil, xalqın səviyyəsində, onun öz dili və ifadə tərzilə danışırdı; "elmi məlumatları asan bir şəkildə, sadə və anlaşıqlı bir dildə oxuculara çatdırmaqda yüksək məharət göstərirdi" (*55 b.* s. 140).

C.Məmmədquluzadənin zəngin və çoxcəhətli yaradıcılığı dildə sadəlik və realizm məsələsini bütünlüklə ehtiva edir. Böyük ədibin istər öz bədii əsərlərində, istərsə də başçılıq etdiyi "Molla Nəsrəddin" məcmuəsində xalq həyatına enib bəzən "ifrata" varması, ədəbi dil, imla normaları baxımından o qədər məqbul sayılmasa da, tam yeni - ədəbi dilimizi dəyişdirə, onun inkişafına güclü təsir göstərə, təkan verə biləcək bir istiqamət idi. Əslində bu dil, üslub xalq dilindən ayrılma və fərqlənməyə qarşı, xüsusilə "Fyuzat" və "Şəlalə" istiqamətinə qarşı yaranmışdı. Nəticədə özünü elə doğrultdu və elə bir ədəbi məktəb səviyyəsinə qalxdı ki, dönə-dönə

özünə qayıtmalarla xalqın yazı dili mədəniyyətini hərəkətə gətirdi, onu əsl mənada realist istiqamətə yönəltdi. Ə.Haqverdiyev, C.Cabbarlı, M.S.Ordubadi və b. dili, üslubu bu realist istiqamətin yeni uğurlu addımları, yeni nailiyyətləri idi.

Dildə sadəlik və realizmin güclənməsi nəsr dilində olduğu kimi, XIX-XX əsrlərin poeziya dilinə də daha yeni bir hava və əsillik gətirdi, poeziya dilimizin canlı satira qolu yarandı. Elmi dildə, elmi üslubda da fikri sadə və real demək, ifadə etmək dövrün tələbi kimi meydana çıxmışdı. Bu, eyni zamanda, ədəbi dilin bütün sahələrinin xəlqi olması tələbilə əlaqədardı. F.Köçərli həmişə və dönə-dönə belə bir fikri intişar edirmiş ki, ən doğru yol, ən ali üslub sadə və açıq yazmaqdır. Buna isə dilimizin geniş imkanları; tükənməz söz ehtiyatı, rəngarəng fikri ifadə vasitələri vardır; "Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir, doğru və səlamət fikirli adamların kəlami həmişə aydın, açıq və düzgün olur. Ancaq sərsərilərin və müxəlliş-şüur kəslərin sözləri başsız və binasız olur ki, onları anlamaq qeyri-mümkündür" (*55 b*, s. 294-295).

Realizm XIX-XX əsrlərin elmi dil və üslubunun inkişafında öz təsiredici gücünü göstərmişdi. F.Köçərli çoxcəhətli yaradıcılığı ilə nəinki elmi dil və üslubun əsl nümunələrini vermiş, həm də elmi-nəzəri və publisist yazıları ilə M.F.Axundov, H.B.Zərdabi ilə birlikdə inkişaf yoluna düşən elmi dil və üslubun sadəliyi və real imkanları keşiyində möhkəm dayanmışdı. Yaradıcılığının xəlqi ruhundan doğan bu məziyyət onun publisist və elmi fəaliyyətilə yanaşı gedir, beləliklə, Azərbaycan mənəvi fikri tarixində daha yeni bir sahənin - elmi dil və üslubun əsaslı təməl daşları qoyulurdu.

F.Köçərlidəki müasirlik ruhu onun öz dilinə də aiddir. O, zamanın tələbləri səviyyəsindən düşünür və yazırdı; dili də bu səviyyəyə uyğun olmaya, dövrün, ictimai mühitin real vəziyyətini əks etdirməyə bilməzdi. Odur ki, mövcud istilahları, məqbul əcnəbi söz və ifadələri, tərkibləri işlədirdi. Bu isə təbii idi, onun dilinin realizmi və müa-

sirliyi ilə əlaqədardı. Məs., *"tərəqqi zamanı", "telefon və elektrik əsri", "hürriyyət əsri"* və bu kimi istilahlar Köçərlinin vəziyyəti ala bildiyini və nə qədər müasir düşüncəyə malik olduğunu təsdiq edir. Məsələ burasındadır ki, bu istilahlar nə qədər yeni olsa da, başa düşülən, anlaşılandır. Köçərli, mümkün qədər uğurlu bir söz, ifadə, istilah işlətmək, fikri aydın demək, oxucuya asan yolla çatdırmaq üçün lazım gələn bütün mövcud vasitə və imkanlardan istifadə etməyə çalışmışdır. Onda bir sıra istilahlar ənənəvi olaraq gəlir, bir sıra istilahları isə o özü yaradır, maddi zəmindən götürür, rus və qərb dillərindən alır; ənənəvi istilahlara yeni elmi məna verir və s.

F.Köçərlinin əsərlərində milli dilin zəmini üzərində yaradılan elmi istilahlar xüsusi əhəmiyyət kəsb edir. Məs., *milli ədəbiyyat, milli şair, milli dil, mənəvi tərəqqi, ibarə, istiarə, həqşünaslıq, qəlbşünaslıq, şəbədəbazlıq, həqiqətnəvis, ədibanə* və s. ədəbiyyatşünaslıq və dilçiliyə aid uğurlu istilahlardan sayıla bilər. Yaxud, Köçərli müxtəlif izahat, təsvir və təhlillə əlaqədar tez-tez müraciət etdiyi *vətəndaş, hürriyyət, azadəlik, hürriyyətpərəst, qədrşünas, qədrşünaslıq, mədəni tayfalar, vətənə məhəbbət, millətə xidmət, dostluğa sədaqət və ya: barverici, məhsulat, yetirici, səbredici, tabgətirici, könülalıcı, fərəhgətirici, xoştərkib, ruhtəzələyən, fərəhgətirən* və s. kimi yeni söz və ifadələrlə, canlı dil hesabına elmi terminologiyanı zənginləşdirir.

Bu sahədə Köçərlinin xidməti bir də onda idi ki, o, Azərbaycan ədəbiyyatşünaslıq elminin əsasını qoyduğu kimi, müvafiq istilahları da əksərən özü yaratmalı olurdu; buna görə, onun elmi istilahları içərisində həm uğurlu, həm də uğursuzları vardı. Məs., onda "dairəyi-əqliyyə", "məhsulati-fikr", "tərbiyeyi-əfkar", "təhzibi-əxlaq", "hissiyati-həqiqi", "zövqi-təbii", "məişəti-milliyə", "şəyani-diqqət", "vəsfi-dilbər", "mədhi-gözəl", "ustadi-lisan" və s. kimi ənənəvi keçib gəlmiş izafətlərə rast gəlirik. Bunlar isə Köçərlinin dili üçün səciyyəvi sayıla bilməz. Təbiidir ki, sənətkar, alim və ya yazıçı nə qədər irəli getmiş olsa belə mövcud real vəziyyətdən çıxış edir, dövründən tamam ayrıla bilmir. Lakin burada nisbət vardır.

F.Köçərli zamanın nüfuzlu ədəbi-elmi şəxsiyyəti idi. Həyatın tələbləri səviyyəsindən çıxış edib ana dilinin ədəbiyyat və elm aləmindəki rolu məsələsini nəzəri cəhətdən əsaslandırmaq vəzifəsi məhz onun üzərinə düşmüşdü.

13. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLİN İCTİMAİ MÖVQEYİNİN MÜDAFİƏSİ

Dilin mövqeyi həmişə ictimai mövqedir; dil kimi söz sənəti də həmişə xalq mövqeyində dayanır. Lakin bu mövqeyin ədəbi yaradıcılıqda müdafiəsi zamanın tələbindən asılı olaraq öz xarakterini dəyişir, bu işdə müxtəlif vasitə və üsullardan istifadə edilir. Tarixən elə vaxtlar olub ki, sənətkarların sözü açıq demək imkanları daraldıqda onlar dilin, söz sənətinin ictimai mövqeyini dolayı yollarla, eyhamla, rəmzlərlə müdafiə etmiş, ana dilinə, söz sənətinə olan etinasız münasibətə qarşı çıxmışlar. Hələ XVI əsrdə Füzuli hər "tənəyə, nəfyü nifrinə" məruz qalmış, öz etirazını bildirmək və şikayətlənməklə kifayətlənmişdi.

Bir əsr sonra Qövsi də təxminən eyni mənəvi sarsıntını keçirir, haray çəkir, sözünü rəmzlərlə deyir, özünü dilsiz-ağızsız neylə müqayisə edir, ona bənzədirdi:

"Haray kim, nə dilim var, nə bir dil anlayanım,
Əgərçi ney kimi cismim fəğan ilən doludur".

Lakin bizdə heç bir dövrdə, heç bir əsrdə dilin ictimai mövqeyi XX əsrin əvvəllərində olduğu qədər güclü, hərtərəfli qoyulub həyati mənada təsdiq və təqdir edilməmişdir. Bu, dilin ictimai mövqeyinə, ana dilinə, onun müstəqil inkişafı, saflığı, şifahi və yazılı dilin sadəliyi uğrunda mübarizə məsələlərinə qarşı olan açıq-açığına çıxışlarla, hücumlarla əlaqədardı; bir sözlə, bu, əsrin tələbi idi, bunu zamanın zəruri mənəvi ehtiyacları doğurmuş, aktual məsələyə çevirmişdi.

Bu məsələdə ilk doğru istiqamətverici sözü H.Zərdabi demişdi. Dil məsələsində H.Zərdabinin və "Əkinçi"nin tutduğu yolu mətbuat dilinin sadəliyi və kütləviliyi uğrunda mübarizə məsələlərini hələ XIX əsrdə mütərəqqi mətbuat bir ideya xətti kimi almış, onu inkişaf etdirmişdi. "Ziyayi-Qafqaziyyə" "Dil dünyanın hər bir malından, mülkündən, padşahlığından artıq və ucadır"; "Dilin nə qədər yazmağı, oxumağı, danışmağı asan olsa, bir o qədər onu örgənib bilən çox olar (*52 a*, №78) - deyə dilin kütləvi mahiyyətini, ictimai mövqeyini ön plana çəkirdi.

H.Zərdabi: "İnsanın şərafətinin bir dəlili də nitqdir. Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbə avam da başa düşsün"; "həqiqət qəzet camaat üçündür, camaat qəzet üçün deyildir" (*79 a*, №9) - deyə yazırdı.

Əsrin əvvəllərində dil ətrafında gedən mübahisələr və yaranan ziddiyyətli fikir şəraitində H.Zərdabinin sözü nüfuzlu söz idi.

"Molla Nəsrəddin"in birinci nömrəsinin baş məqaiəsi və hər yazılı səhifəsində dil, ana dili, onun tədrisi və s. məsələlərə bu və ya başqa şəkildə toxunulur; baş məqalədə qoyulan fikirlə bunlar məntiqi şəkildə bağlanır. Təsadüfi deyildi ki, "Molla Nəsrəddin" 1906-cı il 10-cu nömrədən etibarən dönə-dönə oxucularına belə bir xəbərdarlıq etmişdi: "İdarəyə göndərilən məktub və məqalələr açıq türk dilində yazılmış olmasalar, çap olunmayacaqdır"; bir az sonra, 1907-ci il 41-ci nömrədən həmin xəbərdarlıq elanı redaktə edilib bir qədər də ciddi şəkil almışdı: "Açıq türk dilində yazılmayan məktub və məqalə qəbul olunmaz".

Birinci nömrədə dərc edilən "Lisan bəlası" felyetonu tamamilə dilə, dilin ictimai mövqeyinin müdafiəsi və cəmiyyətdəki rolu məsələsinə həsr olunmuşdu.

"Lisan bəlası"nda Əbutürab Axund oğlunun "Həyat" qəzetinin 1906-cı il 25-ci nömrəsində çıxan məqaləsinə cavab verilir. Əbutürab Axund oğlu öz yazısında dini rəvayətlərə əsaslanaraq danışmamağın, susmağın insan üçün daha faydalı olduğunu sübuta çalışırdı.

O, gözünü açmaqda olan xalqı ictimai-siyasi həyatdan ayırıb, "nicat yolunu" sakit olmaqda, hərəkət etməməkdə axtarırdı. Aydındır ki, belə görüşlər qeyri-real idi və elə vaxta təsadüf edirdi ki, bu zaman — Şərq oyanmaqda idi. İndiyə qədər keçirdiyi əzab və əziyyətin, məhkumluğun ictimai səbəbləri xalqa aşkar olurdu. Xalqda əmələ gələn bu şüurun artmasından vahiməyə düşmüş Əbutürab Axund oğlunun "Həyat" qəzetində çıxan məqaləsi də bu məqsədlə buraxılmışdı: "Bir belə əsrdə müsəlman camaatının ruhani rəhbəri qəzetlər vasitəsilə camaatı dəvət edirdi. Nəyə? Sükuta və danışmamağa. Nədir danışmamaq? Danışmamaq zaviyədə oturub Allahı çağırmaqdır. Nədir danışmamaq? Lal və kar oturub movtə və fovtə müntəzir olmaqdır. Nə mənə azadlıq lazımdır, nə mənə hüquq lazımdır, nə mənim üçün qabağa çıxıb qonşularla ədavət əvəzinə ülfət və ittihad bağlayıb, ümumi hesab olunan düşməni, müsbit hökumətini yıxmaq və sora məmləkətdə qardaşlıq üsul-idarəsi qurub yaşamaq lazımdır. Və bunların hamısının əvəzində Axund Əbutürabın vəz və nəsihətinə görə dinməmək və danışmamaq lazımdır" (II, 523).

Ümumxalq kütlələrinə müraciətlə meydana çıxan "Molla Nəsrəddin"in məfkurəsinə, əlbəttə, belə zərərli görüşlər yad idi. Camaatla yaxından söhbət eləmək, ünsiyyət bağlamaq arzuları ilə çırpınan bir sənətkar üçün zəhmətkeşləri susmağa çağıran belə sayaqlamaları tənqid və ifşa etmədən keçmək mümkün deyildi; susmağı təbliğ edənin özünü susdurmaq lazım idi: "Və mətbuat vadisinə təzə qədəm qoyan Molla Nəsrəddin Axund Əbutürabın bu məqaləsini buraxıb keçə bilməzdi" (II, 528). Buna görə də elə oradaca C.Məmmədquluzadə həyatda dilin böyük ictimai rolunu qeyd edir; mötəbər şairlərdən (M.Şirazidən) misal çəkərək göstərir ki, dil hünər xəzinəsi qapısının açarıdır. Əgər bu qapı bağlı qalarsa, heç kəs həmin şəxsin gövhər satan və ya carçı olduğunu müəyyən edə bilməz. Axırda ədib Axund Əbutürabın fikirlərini lağa qoyur, onu ələ salaraq yazır:

"Bu mətləbləri təsdiq edəndən sonra, Molla Nəsrəddin öz tərəfindən bunu da lazım bilir desin:

Ey dil, dəxi dinmə və sükut et, səni tarı,
Lal ol və danışma!
Sal başını aşağa və heç baxma yuxarı,
Mal ol və danışma!..”

Əbutürab Axund oğluna belə bir kəskin cavab verilməsi, C.Məmmədquluzadənin işində ayıq olduğunu, tutduğu yolun düzgünlüyünə sidqən inandığını sübut edir. Bu, eyni zamanda, böyük yazıçının ictimai hadisə olan dilə, onun cəmiyyətdəki roluna tamamilə doğru münasibətini göstərirdi.

İnsanın ağlına gələn hər bir fikir ancaq dil materialı əsasında yaranır. Dil cəmiyyətdə fikir mübadiləsi vasitəsidir; mübarizə silahıdır. Belə bir silahı isə kütlənin əlindən almaq olmazdı. Xalq azadlıq tələb edib öz dilini müdafiəyə qalxarkən Əbutürab onu doğru yoldan sapındıraraq, sükuta çağırır, xalqın “dilini kəsməyə” çalışırdı.

Bu mürtəce çağırış C.Məmmədquluzadənin ruhuna yad idi. Müəllif bunu tez duymuş və birinci nömrədəcə ona cavab yazmalı olmuşdu.

Bütün bunlar, əsrin əvvəllərində ana dili və onun ictimai mövqeyinin müdafiəsi məsələsinin geniş miqyas aldığını, zamanın bu məsələyə çox ciddi əhəmiyyət verdiyini təsdiq edir...

Dilin ictimai mövqeyinin müdafiəsi, öz növbəsində, ana dilinin saflığı və müstəqil inkişafı uğrunda mübarizə məsələsi ilə birləşirdi.

Əsrin əvvəllərində güclənən dilin ictimai mövqeyinin müdafiəsi məsələsi, açıq yazmaq, sadə yazmaq çağırışları günün aktual problemlərinə çevrildi. Bu isə, öz növbəsində, daha yeni, ana dilinin saflığı və müstəqil inkişafı uğrunda mübarizə problemini doğurdu. Mövcud vəziyyəti F.Köçərli “Molla Nəsrəddin”də baş məqalə yerində çap olunan “Ana dili” məqaləsində belə təsvir edirdi: “Xeyli vaxtdır ki, dil məsələsi məhəlli-müzakirəyə qoyulub, onun üstündə məclislərdə, qəzet sütunlarında və jurnallarda bəhs olunur. Kimi İstanbulda işlənən ədəbi dili tərif edir, onu sair yerlərdə işlənən türk dillərinə tərcih verir, kimi Azərbaycan türklərinin şiveyi-lisanını bəyənib onun tərəfini saxlayır”. Məqalədə ana dili, əlifba xalqın in-

kişafı və mənəvi tərəqqisinin mühüm amili kimi qiymətləndirilir: "İndiyədək mənəvi tərəqqimizə mane olan illət bir isə, indi iki olur. Bir tərəfdən hürufat qüsuru, digər tərəfdən dil qüsuru əlimizi və ayağımızı bağlayıb qoymur ki, irəli gedək" (*61 a*, №22-23).

Ərəb, fars təsirlərinin nəticəsi olaraq çətin və ibarəli yazmaq, ərəbcə, farsca tərkibləri çox işlətmək bir "qayda", dəb halını almışdı. Xüsusilə mollalar, axundlar, müctəhidlər, dini təhsil almış adamlar və b. qəliz yazmaq və qəliz danışmaqla lovğalanıb ərəbcə, farsca kəlmələri, ibarələri yerli-yersiz işlədir, hətta bunu hünər sayırdılar. Bu öz mənfi təsirini mətbuatda da göstərirdi. Hələ "Molla Nəsrəddin"dən bir az əvvəl H.Zərdabi bu məsələyə toxunmuşdu: "Bizim Qafqaz qardaşlarımızdan... təvəqqe olunur ki, bu halda qəzetə camaat oxumaq üçün yazanda camaatın ana dilində yazsınlar ki, onları hər dəsti xətti olan oxuyub anlaya bilsin və fars sözlərini bəqədri-məqdur az yazsınlar. Həqiqət biz, ələlxüsus bizim bəzi müxbirlərimiz, mollalarımız yazdığı türk dili deyil, bir qeyri, nə türkü və nə farsi dildir ki, hər kəs özünün artıq oxumağını göstərmək istəyir" (*88 a*, №9).

Dil ilə xalqın varlığı bilavasitə bağlıdır. C.Məmmədquluzadə bu həqiqəti aydın dərk etmişdi. Təxminən 25 illik ömür sürən "Molla Nəsrəddin"in sadə dildə çıxarılması və axıra qədər bu yolun qorunması jurnalın və onun əməkdaşlarının, ana dilinə baxışının əsasını təşkil edən parlaq dəlildir. Ərəb, fars dillərini bildiyinə baxmayaraq, C.Məmmədquluzadə heç vaxt öz elmini və savadını göstərmək, bunun üçün də çətin və ibarəli yazmaq istəməmişdir. O çalışmışdır ki, fikirlərini mümkün qədər asan, sadə yolla oxucularına yetirə bilsin; təki onun yazdığı mətləblər, dediyi sözlər xalqa çatsın. Buna görə də o, qəliz yazmaq "qaydalarını" cəsarətlə pozdu; sadə yazmağa başladı. Bundan heç çəkinmədi, bunu özünə "eyib" deyil, şərəf bildi; "Yazıda böyük cürətimiz o oldu ki, açıq ana dilində yazmaqdan biz utanmadıq. Birinci nömrəmizin baş məqaləsində yazmışıq ki, "Açıq ana dilində, açıq türk dilində yazmaq eyibdir, çünki yazanın savadının azlığına dəlalət edir". Elə böyük

cürətimiz o oldu ki, biz utanmadıq, çünki biz görürdük ki, hər bir əlinə qələm alan türk bəndəsi "ana" sözünü bir yerdə yazmaqdan utanır. "Ana" yerinə "madər" yazır. Ancaq biz "ana" yazdıq. Səbəb də bu idi ki, bilmirdik niyə "ana" sözünü yazmaqdan utanaq?"

C.Məmmədquluzadə dili şöhrət üçün öyrənən, ancaq öz mənfəətini düşünən ziyalılara qarşı amansız olmuşdur. Bu məqsədlə "Molla Nəsrəddin" səhifələrində tez-tez şəkillər çəkdirmiş, maraqlı yazılar vermişdir. Məs., "Ana dilində məktub" adlı yazıda ədib belələrinə istehza ilə gülmüşdür: "Dedim bəradərim qardaş, bu səhərin sübh çağında nə vardır, neçün gəlmisən? Buyurdu: səhv eləyibsən, gecənin nisf-şəbidir..." (MN, 1906, 10). Ziyalının dili ilə deyilmiş bu cümlələrdə "bəradərim", "sübh", "nisf-şəb" kəlmələrinin *qardaş, sabah, gecə yarısı* sözlərilə yanaşı işlənməsinə etiraz edilir və bunun süniliyi göstərilir.

Əsrimizin əvvəllərində yad təsirlər bu və ya başqa şəkildə özünü daha artıq hiss etdirməkdəydi. Vətən məhəbbəti və milli qürur hissi ədibin yaradıcılığında qırmızı xətt kimi keçir: vətəni sevmək - onun torpağını-daşını, xalqını və dilini sevmək deməkdir; buna görə də milli dilin həyati yolla qanunauyğun inkişafına mane olan qüvvələrlə mübarizə "Vətən övladının" şərəf işidir.

Bu mübarizədə C.Məmmədquluzadə ana dilini özünə dayaq, qüdrətli silah seçmişdi.

Dilin və söz sənətinin ictimai mövqeyinin müdafiəsi problemi də ədəbi problemdir; bu və ya başqa şəkildə hər vaxt özünü büruzə verir. Əsrimizin 20-30-cu illərində də bu məsələ zamanın mühüm problemi kimi ortaya çıxmışdı. Buna görə dövrün C.Cabbarlı, S.Vurğun kimi böyük sənətkarları məsələdən yan keçə bilməmişlər.

C.Cabbarlı "Almas" pyesində Almasla Şərifin dialoqunda məsələyə öz münasibətini bildirir:

"*Almas.* Siz nə üsulla yazırsınız?

Şərif. Nə üsulla? Mən elə üsulsuz da yazıram. Sədi həngində də yazıram, Hafiz həngində də yazıram, yeni üsulda da. Budur, birini sənincin yazmışam, qoyun oxuyum.

Almas. Yaxşı, oxuyun.
Şərif (vəziyyət alaraq).

Şeyda bülbül oxuyur şerini avand,
İstəyirsən içim sənincin qurana.and.
Yarımın əlində dəmirdən bir şand...

Almas. Şand nədir, Şərif? Azərbaycan dili leksikonunda mən heç belə söz görməmişəm.

Şərif. Bircə spakoys ol. Şand da elə bir növ, qafiyə üçündür. Yoxsa avanda, anda başqa qafiyə yoxdur.

Almas. Sapand.

Şərif. Aha, sapand. O, ağlıma gəlməyib, o daha yaxşıdır. Onda belə yazarıq:

Yarımın əlində kəndirdən sapand,
Atdı daşı gicgahimə dəgayi.

Almas. Dəgayi nədir?

Şərif. O, gərayi sayağıdır (Almas gülür). Yarın qaşları kaman, kirpiyi patron kimi batdı ürəyə.

Almas. Şərif, kirpik patrona oxşamaz ki.

Şərif. Niyə oxşamır? Qədimlərdə kirpiyə ox deyirdilər, indi daha ox yoxdur, patron demək lazımdır. Bu, təzə obrazdır.

Almas. Aha, demək, siz sənayeləşdirmişsiniz. Onda bəs qaşları nəyə oxşayır? O da yəqin tapançaya oxşar da.

Şərif. Hə, neynək, tapança olsun. Düzəldərik.

Almas. Deməli, necə oldu, qaşların tapança, kipriyin patron...

Şərif. Yox, yox, qafiyə düz gəlmək üçün axırı olmalıdır ki, keçdi ürəyə.

Oxarta dəydi ürəyim döndü aşsüzənnən ələyə
Yaman yerdə başım düşdü kələyə
Hər patronu ürəkgahimə dəgayi.

Almas. Ürəkgahimə nədir?

Şərif. Yuxarıda gicgahdır, burada ürəkgah. Bu, köhnə üsul ilədir. Bunu da, bax təzə üsul ilə yazmışam:

Hey,
Hey,
Dalğalı dənizlərdən,
Geniş düzlərdən,
Dizlərdən
Aşan sövda ulduzu,
İşıqlandırdın bizi
Bizi,
Bizi.
Yanımda oturan
Sövdalı tar çalan
Gözəl qızı işıqlandırdın
Gecənin qaranlığilə.
Ey sövdalı ulduzlardan
Birər-birər uçub gələn
İşıqlar!

Almas. Dayan, dayan, necə yəni işıqlandırdın gecənin qaranlığı ilə? Gecənin qaranlığı ilə adam işıqlanmaz ki?!

Şərif. Yox da, bunun üsulu belədir.

Almas. Yəni gərəkməz ki, bir mənası da olsun?

Şərif. Nə qədər mənası olmasa, elə yaxşıdır. Deyərlər dərindir... Qayda belədir" (*80 a,* s.113-114).

Bu dialoqdan böyük dramaturqun fikri, istək və amalı tam aydındır. Ədib nəinki dilin, söz sənətinin də ictimai-xəlqi mövqeyini müdafiə edir, onu qorumağı özünə borc bilir.

S.Vurğun "Komsomol poeması"nda eyni mövqedə duraraq, məsələyə öz münasibətini açıqca elan edirdi:

"Nədən söyləməsin ana dililə
Öz odlu nitqini yoldaş komissar?
Türkcə danışmasın sevgilisilə?..
Bu mənhus adətdə böyüklükmü var?
Məndən inciməsin yoldaş komissar!.."

14. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLDƏ FƏRDİ KEYFİYYƏT - ÖZÜNƏMƏXSUSLUQ

Dildə fərdi keyfiyyət və özünəməxsusluq sənətkarın dili və üslubu probleminin əsasıdır, onun yaradıcılıq aləmi, fikri ifadə manerası, dəst-xəttidir ki, o, başqalarından ilk növbədə bu keyfiyyətinə görə seçilir.

Sənətkarın, söz ustasının fərdi dili və üslubunun formalaşması yüksək bədii nailiyyətdir; şairin, nasirin (habelə tənqidçinin, ədəbiyyatşünasın, dilçinin) dili, üslubu, fikri ifadə tərzi nə qədər seçilsə, fərdi xüsusiyyətləri zəngin olsa, onun yaradıcılıq uğurları da bir o qədər yüksək olar.

Böyük Nizami məhz bu keyfiyyətə işarə edərək öz dili, üslubu barədə yazırdı:

"Nizaminin şeri oxunan zaman
O da hər bir sözdə görünər əyan...
Yüz il sonra sorsan bəs o hardadır,
Hər beyti səslənər: "burda, burdadır".

Nizaminin bu kəlamı eynilə onun xələflərinə - Nəsimiyə, Kişvəriyə, Xətaiyə, Füzuliyə, Sarı Aşığa, Qövsiyə və b. sənətkarlara da aid edilə bilər. F.Köçərli Azərbaycan ədəbiyyatı tarixini yazarkən "Qövsi" təxəllüslü bir şairin haralı və hansı "məktəbə" mənsub olduğunu, şəxsiyyətini onun dili və üslubu ilə müəyyən etmişdir: "Azərbaycan şüərasından "Qövsi" təxəllüs zərif və xoş təb bir şairin yazma divani-əşar və qəzəliyyatı əlimizə düşmüşdü. Bu divandan həkim "Qövsi" kim və hansı yerin adamı olduğu anlaşılmadı; vəli şeyi-lisanından və üslubi-kəlamından bizim Zaqafqaziya torpağının rayihəsi gəlir, hiss olunur... Qövsinin üslubi-kəlamı Rum şairlərinin üslubi-kəlamına bir azacıq bənzəyirsə də, ona Rum şairi dəxi demək olmaz. Yenə təxminən demək olar ki, "Qövsi" Azərbaycanın İran dövlətinə mütəllik məhəllərində, xüsusən Təbrizdə və ya ona qərib şəhərlərin birində vücuda gəlmişdir" (*55 a*, s. 175-176).

Qövsinin dili və üslubunun fərdi keyfiyyətləri, həmçinin Köçərliyə şairin "zərif, əhli-hal və sahibi məna bir vücud olduğu" barədə söz demək, fikir söyləmək imkanı vermişdir. Köçərli onu özünəməxsusluğu ilə seçilən, kamil bir sənətkar kimi tanıdır, ondakı bu cəhəti məziyyət sayır: "Qövsinin sözündə olan lətafət və mühəssənatı hər bir ərbabi-zövq anlaya bilir, necə ki, şair bu babda demişdir:

"Kərçi Qövsi xundildən öz sözün rəngin edər,
Söz bilən aşiq bilir, göftar onun göftarıdır!"

F.Köçərlidən sonrakı tədqiqatlar da təsdiq etdi ki, alim öz mülahizələrində yanılmamışdır. Dildə fərdi keyfiyyət və özünəməxsusluq probleminə dair ilkin sözü məhz Köçərli demişdir. Biz onu təqdir edirik.

Çox dərin köklərə bağlı olan bu üslubi məziyyət XVIII-XX əsrlərdə özünü qabarıq şəkildə göstərir: zamanın tələb və ehtiyaclarına uyğun olaraq dildə Vaqif, Axundov sadəliyi və realizmi, C.Məmmədquluzadə, Sabir nəfəsi və satira üslubu kimi sənətkar fərdi keyfiyyəti və özünəməxsusluğu problemləri doğur, ədəbi dilin yeni və mühüm üslub sahələri yaranır; bu məziyyət görkəmli ədəbi şəxsiyyətlərin yaradıcılığında inkişafının zirvəsinə yüksəlir.

"Getdim ala gözlü yarla danışam,
Dedi: oğlan, dur get, söz vaxtı deyil.
Arif çoxdur, etmək olmaz işarət,
Oynatma qaşını, göz vaxtı deyil.

Cadu ğəmzələrin məndən yağıdır,
Bad əsir, zülfünü üzdən dağıdır,
Bundan sonra öpüb, qucmaq çağıdır.
İxtilat keçibdir, söz vaxtı deyil.

Vaqif deyir, yalvar yara, könül al,
Bir busə diləyib, boynuna qol sal,
Ara xəlvət ikən, etmə qilü qal,
Tez ol, çıxdı canım, naz vaxtı deyil".

Bütünlükdə eşq, məhəbbət lirikası buna uyğun söz, birləşmə obraz və ifadə tərzi, həm də adi yox, fikrin, mətləbin yüksək bədiiliyə əsaslanan ifadə tərzidir: *ala gözlü yar, cadu ğəmzələr, öpüb-qucmaq çağı, busə diləmək, ara xəlvət, çıxdı canım, göz vaxtı deyil, söz vaxtı deyil, naz vaxtı deyil...*

Bu, dildə, üslubda Vaqif fərdi keyfiyyətidir, Vaqif dəst-xətti, Vaqif nəfəsidir.

Q.B.Zakirdə də bu lirika, bu dil, dildə bu sadəlik və şirinlik davam edir. Lakin onda Vaqifdən xeyli fərqli bir cəhət, bir meyl də var. Q.B.Zakirin, S.Ə.Şirvaninin bir qism şerlərinin dili satira dili və üslubunun ilk nümunələri kimi diqqəti cəlb edir. Satiraya meyl, həyatdakı eybəcərliklərə tənqidi münasibət dildə satirik boyaların meydana çıxmasına səbəb olur; bu, Zakirə, S.Ə.Şirvaniyə məxsus fərdi dil və üslubi keyfiyyətləri aşkar edir, müəyyənləşdirir, məqbul şəklə salır.

Q.B.Zakir deyirdi:

"Vaiz bizə oxur şeri Mustafa,
Harama mürtəkib olmayın əsla!
Özü lüm-lüm udur batildə, amma
Zahirdə dediyi mənaya bir bax!..

Baqqal tərəziyə qoyar imanın,
Əsil qiymətinə satar ayranın.
Qudurmuş it kimi tutar dörd yanın,
Deyən yoxdur Ali-Əbayə bir bax"!

S.Ə.Şirvani deyirdi:

"Ey hədis edən dəhrdə bidət, köpək oğlu!
Etdiz nə səbəb xeyməni qarət, köpək oğlu?!
Yoxsa əlivüz çıxmış idi Kərbübəladan,
Düşdü ələ dövranda bu fürsət, köpək oğlu!"

Nümunələrdəki "baqqal", "lüm-lüm udmaq", "köpək oğlu" söz və ifadələri, yaxud fikrin "Özü lüm-lüm udur batildə", "Baqqal tərəziyə qoyar imanın", "Qudurmuş it kimi tutar dörd yanın", "Etdiz

nə səbəb xeyməni qarət, köpək oğlu?!" şəklində ifadə tərzləri ədəbi dilimizin tarixində yeni ruh, yeni abi-hava idi.

Bununla satira dili və üslubunun özünəməxsus leksikası yaranırdı. *Zakirdə:* "şorta-şort", "dadanaq", "qabsamaq" (sahib olmaq, yiyələnmək), "ayağı surçaq", "keçəl qurumsaq", "heyvərə", "yanşaq", "beli şallı hacılar"; *Seyid Əzimdə:* "Bir uduş halva", "baş çapmaq", "Qurbanın çaqqalı", "sarsaq"...

Bununla satira dili və üslubunun özünəməxsus ifadə şəkilləri yaranırdı. *Zakirdə:* "Yenə ötür-ötür, apar-apardır", "Bir ucdan oğurlar, bir ucdan satar", "Yenə şorta-şortdur...", "Alimdə əməl yox, bəydə ədalət", "Ləvənd oğlu, xub olmuşdur dadanaq", "Övrət almaq olub oyun-oyuncaq", "Əgər ilişdirə bir yerə dırnaq", "Pişləngə salıban qurdu badalaq", "Yaxşıdan irəli düşübdür yaman", "Bilmədim nə oldu, olduq vinovat", "Beş şahılıq işə gərək on manat", "Qədəm götürməzlər həqqül-qəyali, ya on tümən pul gərəkdir, ya bir at". *Seyid Əzimdə:* "Biri bəy olmaq üçün on ikisi kafəs olur", "Amma bu təəccübdü ki, donquzlara "ceyran", "Kim qoydu adı...", "Amma Qubanın bişəsi çox, çaqqalı çoxdur, "Etdiz ki, toyuq tutmağa adət...", "Baş çapmağa, ox taxmağa etdiz adət...", "Cənnət hara, siz hara, tövlə döyü cənnət, eşşək balası, dağ ayısı, it köpək oğlu!", "Siz eyləmisiz bicliyə niyyət, köpək oğlu"...

Bununla satira dili və üslubunun atalar sözü, zərb-məsəl və obrazlı ifadələrdən özünəməxsus istifadə yolları yaranırdı. *Zakirdə:* "Yetmişində zurna çalmaq istəyir...", "Hər kim hər iş görə, puluna minnət", "İki yumruq bir başa gücdür, məsəldir xalq ara", "Böyük daldasında kiçiklər yatar", "Adamda insafü mürüvvət gərək, Quyruğun kəsməklə tula olmaz köpək", "Tülək tərlan yerin tutmaz yapalaq", *Seyid Əzimdə:* "Ol kimsənə ki, məhlədə illərlə tapılmaz, Nə xeyrə yarar, nə şərə...", "Leyk gəl indi biz əyri oturaq, düz danışaq, Elə bil küslü idik, Gəl təzədən bir barışaq"... və b.

Azərbaycan ədəbi dili tarixində satira dili və üslubunun əlamətləri özünü məhz poeziya sahəsində daha erkən göstərmişdi. Artıq cığır

açılmış, istiqamət götürülmüşdü. Bu, Azərbaycan poeziya dilinin tarixində satirik şer dili və üslubunun, necə deyərlər, ilk addım səsləri, ilk qığılcımları idi ki, öz inkişafının müəyyən mərhələsində "oda, alova" çevrildi. Bu satirik poeziya dili və üslubu M.Ə.Sabirlə zirvəyə yüksəldi və "ədəbi məktəb" şəklini aldı. Sələflərindən fərqli olaraq böyük realist həyatdakı tipləri danışdırıb, onları öz sözləri, öz danışığı, öz "şivəsilə" ifşanın tam orijinal üslunu kəşf etdi; bununla öz fərdi dil üslubunu da yaratdı, şer deməkdə "sabiranə" bir yol açıldı.

M.Ə.Sabir Füzuli, Saib Təbrizi, Qövsi, Zakir, S.Ə.Şirvani üslubunda da şerlər yazmışdır; onun qəzəlləri, bir sıra nəsihətamiz əsərləri klassik ənənələr əsasında yaradılmışdır. Lakin Sabir əsrlərdən bəri klassik şerin həm məzmun, həm də formasını, dil və üslubunu təkrarlayan təqlidçi qəzəl şairlərinin əleyhinə çıxaraq, sənətdə orijinallığı müdafiə etdi. Sabirə görə, haqsızlıqları ifşa etmək, köhnə dünyanın hərcmərcliyini açıb göstərmək üçün qəzəl, gözəlləmə, məsnəvi yazmaq və nəsihət eləməklə iş aşmazdı. Bu cəhətdən Sabir M.F.Axundovun ən sadiq xələfi idi. Sabir aydın dərk etmişdi ki, köhnə forma və təsvir-ifadə vasitələri, çeynənmiş bənzətmələr yeni bədii boyalar və şəkli xüsusiyyətlərlə, yeni məcazlar sistemilə əvəz edilməlidir. Çünki indi başqa dövr, başqa zamandır, zamanın öz tələbi var. Buna görə böyük şair oxucunun qarşısına belə bir məzmun və dillə çıxmağı lazım bilmişdi:

Şair öz dililə:

"Ahın şərari etməz əsər bir kəsə, hop-hop,
Bu od sənin ancaq alışan canın üçündür...
Yan, dinmə, sən allah!
Qan, dinmə sən allah!
Haq söyləmiş olsan,
Dan, dinmə, sən allah!.."

Tiplərin dililə:

"Səs ucalaşdı, qoymayın!
Millət oyaşdı, qoymayın!

Riştеyi-dərsə, məktəbə...
Cümlə dolaşdı, qoymayın!
İş yavalaşdı, qoymayın!"

Və ya:

"Oğlumuz, ay Xansənəm, bir yekə pəlvan imiş!
Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!.."

Bu üslub, artıq nə Füzuli, nə Qövsi, nə də Vaqif üslubudur. Bu tamamilə təzədir. Üslubda novatorluqdur, ancaq Sabirə məxsus keyfiyyətdir. Sabirə qədər sözü bu tərzdə, bu ruhda deyən olmamışdı; o öz sələflərinin çox işləmiş olduğu mövzuları da yeni bir səpgidə, yeni üslubda qələmə almışdır. Şerin ümumi ruhunda da, ayrı-ayrı ifadələrdə də biz təzəlik görürük, danışıq dili və üslubunun ədəbi dilə yeni şəkildə qüvvətli təsirini görürük: *Yan, dinmə, sən allah! Qan, dinmə, sən allah!..* və: *səs ucalaşdı, millət oyaşdı, iş yavalaşdı...* və ya: *Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!* və b.

Tiplərin əksərən təhrif etdiyi alınma rus-Avropa sözlərini eynilə verərkən belə, şair necə də həqiqətin gözünə vururdu:

"Axırda, tutaq, ölməyib *onversətə* getdin,
Qurtardın özün də;
İnsaf ilə söylə, bu işi yaxşımı etdin?
Bir dur bu sözündə!
Sən deyəcəksən *sasalım*, ya ki, *demorqat*,
Bilməm necə dersiz?..
Hər bir gədə bir az oxuyub adəm olubdur
***Zakonu* bəyənməz".**
"Bu *inteliklərin* sözün gətirmə heç aralığa,
***Palitqadır* hər işləri, alışları, verişləri"**
"Beş deyil, on deyil, hər yan baxırsan - var *madam:*
Ev *madam*, mənzil *madam*, *balkon madam*, talvar *madam*,
Sirk madam, qastin madam, passaj madam, bulvar madam.
Müxtəsər, əqlim çaşıb, ey dad-bidad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!"

Həpəndlər, özlərini adam cərgəsinə çəkən imkanlılar, qolu zorlular, cibi pullular və başqa savadsız tiplər bu sözləri ehtiyac olduolmadı işlədə, ancaq elə belə deyə, belə tələffüz edə bilərdilər; onlar sözləri beləcə, təhrif etdikləri kimi də bunların mənasını dərk edir, başa düşürdülər.

"Şairəm, əsrimin ayinəsiyəm"- deyən şair dilə, danışığa, sözə, ifadəyə də eyni mövqedən yanaşır, bununla canlı həyat dili, danışıq dili yazıya, şerə gəlirdi; tipin dili, danışığı "ayna" kimi onun simasını açıb göstərirdi. Sabirin novatorluğu onda idi ki, tipin öz dililə onun daxili aləmini açır, ağlını, kamalını aşkar edir, öz dililə onu gülüş hədəfinə çevirirdi. Çoxəsrlik Azərbaycan poeziya dili tarixində bu, tamam yeni bir məziyyətdi, Sabirin adı, Sabirin nəfəsi ilə bağlı təkrarolunmaz dil və üslub idi...

Azərbaycan ədəbi dilinin tarixində, onun poeziya qolu sahəsində fikrin yeni poetik ifadə tərzi, söz deməyin sabiranəliyi, Sabir özünəməxsusluğu yarandı. Sabirdən sonra çox sabiranələr yazılmış, çoxları Sabirə bənzəməyə çalışmış, bəzən onu yamsılamışlar, indi də yamsılayırlar. Dildə, üslubda Sabir özünəməxsusluğu, fərdi keyfiyyəti zirvədir. Zirvələr isə təkrar olunmur.

C.Məmmədquluzadə ilə dilimizin tarixində tam yeni səhifə açılır, nəsr dilimizin satira üslubu, jurnalist-publisist üslublar formalaşır. Bu üslubların ilk cizgilərini, əslində, M.F.Axundovun "Aldanmış kəvakib"i, H.Zərdabinin "Əkinçi" qəzeti səhifələrindəki bir sıra yazıları və s. cızmışsa da, C.Məmmədquluzadə onlardan özünəməxsusluğu ilə - şirin, duzlu yumoru, ifadə tərzinin axarı, ahəngi, habelə kədəri, hüznü ilə tamam fərqlənir. C.Məmmədquluzadənin üslubu həyatdan-həyata olan bir-birinə oxşar, ürəksıxıcı geriliklərdən, həyatın yeknəsəkliyindən doğur, buna görə, onda dəbdəbə yoxdur, onda sakit ton əsasdır. O özündən başqa heç kəsə bənzəmir.

"Danabaş kəndinin əhvalatları"nın xalq nümayəndələrinin dilindən söylənilməsi özü ədəbi dili cəmiyyətə, canlı həyata bağlamağın, satira üslubunu həyatın özünün doğurduğunu təsdiqin yeni

üsulu idi. Əsərdə əsas tənqid və ifşa hədəfi Xudayarbəydir. Satirik boyalar müxtəlif səmtdən ona tərəf tuşlanır. Lakin birbaşa sənətkarın öz dilindən, yəni qəzetçi Xəlil və lağlağı Sadığın dilindən deyilən boyalar daha tünd və ifşaedicidir.

Xudayarbəylə lap ilk tanışlıqdan bir xal vurulur; ədib qəsdən *"Mən istəmirəm Xudayarbəyin keçəcəyindən danışam,* çünki özü də heç bu əmrə razı olmaz" - deyə bir şübhə yaradır, bir daha təkrarən: "Pəs çünki keçəcəkdən *danışmağı Xudayarbəy dost tutmur, heç mən də istəmirəm onun qəlbinə dəyim"*. Müəllif "demirəm, demirəm" deyə Xudayarbəyi yaxşıca ələ salır, söhbətə duz qatır, satirik rəng vurur, oxucunun nəzərlərini hədəfə doğru daha artıq səfərbər edir və sonra bircə işarə ilə sözünün canını deyir: *"Əvvəl, yəni iki il bundan əqdəm Xudayarbəy qlava yanında çavuş idi. İş belə gətdi ki, qlava Xudayarbəyin anasını siğə elədi. Aşkardı ki, qlava öz səmtini qoyub özgəni katdalıqda saxlamayacaq..."*. Mövcud eybəcər vəziyyəti bundan ədəbi, bundan qüvvətli, bundan tünd satirik boya ilə ifadə etmək çətindir. Kinayə ilə, rişxəndlə deyilən və tamamilə əks mənada anlaşılan ifadə tərzi Xudayarbəyin törətdiyi müsibətlərə "bəraət" qazandırılarkən daha qabarıq şəkil alır; əslində, ədib açıq şəkildə Xudayarbəy haqqında heç bir nalayiq söz işlətmir, onu təhqir etmir və qərəzsiz danışır; ona münasibətdə özünü sanki sadəlövh aparır:

"İmdi, söz yox, kənardan baxan Xudayarbəyi məzəmmət eləyir. *Amma xeyr, burada əsla və qəta məzəmmət yeri yoxdur. Əgər duraq insafınan danışaq, həqqi itirməyək, gərək heç Xudayarbəyi günahkar dutmuyaq. Doğrudu, bu qilü-qalın hamısına bais Xudayarbəydi. Amma Xudayarbəyin qəsdi o deyil ki, xalqın evinə mərəkə salsın. Xudayarbəyin tək bircə qəsdi var. Onun qəsdi məhz Zeynəbi almaxdı.* Yoxsa bu kişi nə Zibanın və Fizzənin ağlamağına razıdır, nə də Zeynəbin ürəyinin sıxılmağını istəyir. *Xudayarbəy Məhəmməd Həsən əmininin eşşəyini o qəstnən satmadı ki,* Məhəmməd Həsən əminin evi yas evinə dönsün və Məhəmməd Həsən əmi Kərbəla ziyarətindən qalsın. *Xeyr, allah eləməsin.* Xudayarbəyin Məhəmməd Həsən əminən

düşmənçiliyi yoxdur ki. *Xeyr, belə deyil,* Xudayarbəy eşşəyi o səbəbə satdı ki, ona beş-altı manat pul lazım idi. Pul da ondan ötəri lazım idi ki, bir ḳəllə qənd vɔ bir girvənkə çay alacaq idi. Qəndi və çayı da ondan ötəri alırdı ki, qazıya verəcək idi".

Lakin əslində belədirmi?! Burada "xeyr", "xeyr, allah eləməsin!", "xeyr, belə deyil" inkarları təsdiqdir. Sadəlövh bir adam bəlkə də buradakı istehzanı başa düşə bilməz, düşünə bilər ki, müəllif törədilən müsibətlər üçün Xudayarbəyi müqəssir eləmir. Yox, əsla yox! C.Məmmədquluzadə qəsdən özünü belə göstərir; bu isə onun özünəməxsus ifadə tərzidir, onun fərdi üslubunu müəyyən edən, tamamlayan mühüm amillərdən biridir. Bununla, müəllif məqsədinə tez çatır. Xudayarbəyə qarşı nifrəti gücləndirir. Kursivlə verdiyimiz ədat, söz, ifadə və cümlələr başdan-başa istehza ilə doludur, həm də xüsusi vurğu altında deyilir, vurğular müəyyən bədii məqsəd güdür. Ədib komizm məsələsini böyük mütəfəkkir kimi həll edir. Onda zahirən komizm, daxili tragizm var. O, gülə-gülə ağlayır - bu cəhət onun üslubuna fərdi keyfiyyət və özünəməxsusluq verir.

"Əhvalatlar"da danışıq üslubu əsasdır. Buna görə ədəbi dil normaları bəzən gözlənilmir. Yazılış üsulu nəzərə alındıqda bu, tamamilə təbiidir; iki kəndlinin dilindən söylənib yazıya alınan əsər ədəbi dil normalarına bütünlüklə cavab verməyə də bilər. Əsərin bu cür yazılması C.Məmmədquluzadənin yaradıcılıq kəşfi idi. Bununla ədib daha açıq və sadə yazmaq üçün geniş imkan əldə etmiş olurdu; bununla xalq danışıq dili, onun lüğət ehtiyatı, söz və ifadə zənginliyi, nitq mədəniyyəti eynilə yazıya "götürülür", ədəbi dilə gəlirdi. Bununla ədəbi dilimizin, onun nəsr qolunun inkişafi tarixində tam yeni bir səhifə açılırdı. C.Məmmədquluzadəyə məxsus dil, sözü deməyin, mətləb anlatmağın özünəməxsusluğu, "Molla Nəsrəddin sayağılığı" yaranırdı.

Azərbaycan dili necə də daxili qüvvəyə, enerjiyə malik imiş, bu dil necə də satira və yumor dili imiş, onun satirik ifadə vasitələri necə də geniş imiş; tipləri dolamaq, həyatdakı eybəcərlikləri tənqid və ifşa etmək, adamların ətalətini, avamlığını, geriliyini, nadanlığını masqara-

ya qoyub işıq yolları aramaq üçün bu dil necə də ecazkar qüdrətə, təbii zənginliyə, fikri ifadənin min bir üsuluna malikimiş. Bu həqiqəti ilk dəfə C.Məmmədquluzadə aşkara çıxarmış, bu keyfiyyəti ilk dəfə yazılı dilimizə, nəsrə C.Məmmədquluzadə gətirmişdir.

"Ey dostum Kərbəlayi Nəcəfqulu! *Sən yazırsan ki,* mən naxoşam. *Yazırsan ki,* durduğum yerdə elə bərk yuxum gəlir ki, az qalıram yıxılam; *yazırsan ki,* iştaham azalıb; belə ki, sübh vaxtı bozbaş yeyəndə, axşam azanı deyiləndə kəbab yeyirəm; sübh vaxtı kəbab yeyəndə, axşam bozbaş yeyirəm; *yazırsan ki,* istəyirəm bir işə əl vuram, birdən məni gərnəşmə tutur, elə ləzzətlə gərnəşirəm ki, az qalıram yıxılam yerə; *yazırsan ki,* hamama girən kimi məni elə bir yuxu tutur ki, soyunmağa macal olmur; və bunu da *yazırsan ki,* mənim yoldaşlarım və dostlarım və qonşularım hamısı bu naxoşluğa mübtəla olublar; *yazırsan* bu naxoşluq misri naxoşluq kimi bir şeydir və ilaxır.

Dərdini *yazıb deyirsən ki,* şəhərimizin həkimlərinin heç biri sənə bir çarə edə bilmədilər. *Yazırsan... və yazırsan ki,...* ".

Bu, tipin özünün dediklərilə, guya redaksiyaya yazdığı məktubla, ərz-halı ilə ifşanın çox real, həyati üsuludur. Kimin ağlına gələ bilər ki, tipi ifşanın belə bir yolu da mümkünmüş! Ədib tipin - Kərbəlayi Cəfərqulunun yazdığı bütün dərdlərini "sən yazırsan ki", "yazırsan ki", "yazırsan", "yazıb deyirsən ki" ifadələrilə sadalayır və bu ifadələr 10-12 dəfə təkrarlanır ki, bunlar hamısı eybəcərlikləri qabartmaq, daha artıq nəzərə çarpdırmaq üçündür. Bunun ardınca ədibin verdiyi məsləhətlər gəlir ki, söz yox, bu da felyetonun satirik tonunu, yumoru gücləndirən, ələsalma, dolama, masqaraya qoyma mahiyyəti daşıyan "məsləhətlər"dir...

Digər felyetonda ifşanın təzə üsulu - "Molla Nəsrəddin sayağılıq" daha qabarıqdır:

"*Ay Dəmdəməki,* sən lap dəlisən: kişi, necə qorxmadın o sözləri mənə yazdın? Məgər sən canından əl çəkibsən? Bəlkə mən o sözləri götürüb məcmuəyə yazaydım, onda canını hara qoyardın?

Yəqin bil ki, bakılılar səni daş-qalaq edib mənim də məcmuəmə bilmərrə müştəri olmazdılar. *Kişi, mən yaza billəm ki,* Bakı qiraət-

xanalarında bayquşlar banlayır?! *Mən yaza billəm ki,* Bakının küçələri dilənçilik edən müsəlman övrətləri və uşaqları ilə doludur?!

Ay Dəmdəməki, mən yaza billəm ki, aprelin doqquzunda iki məşhur müsəlman qlasnısı bir-birinə altı açılan çəkib, olmayan sözləri bir-birinə dedilər?! *Və mən buna inana billəm ki...*

Ay Dəmdəməki, məcmuədə *yaza billəm ki,* səfər ayının iyirmi səkkizində qubalılar ilə bakılılar Bibi-heybətdə elə şiddətli baş yardılar ki, bir neçə nəfərin başının qanı hələ yenə axır?!

Ay Dəmdəməki, sən dəlisən-nəsən?

Ay kişi, *mən yaza billəm ki,* dekabr ayında bakılılar qərib oğruları eşşəyə mindirib şəhəri gəzdirdilər, amma öz oğrularını tutduqda buraxdılar, çünki bu oğrular qlasnıların qohumudurlar?

Ay Dəmdəməki, bir fikir elə gör, *mən bu sözlərə məcmuəmdə yer verə billəm ki,* sən məndən xahiş edirsən? *Bəlkə mən bu sözləri yazaydım;* canını hara qoyacaq idin?"

Bir oxla iki hədəfi vurmaq deyiblər, amma onlarca hədəfi vurmaq deməyiblər. Ədib bir oxla onlarca eybəcərliyi nişan alır və vurur. Buna görə, felyetonu bütünlüklə köçürdük, oradan bir parça nümunə götürə, onu kəsə bilmədik. Kursivlə verdiyimiz təkrar ifadələrin burada nə qədər mühüm rol oynadığını, bununla fikrə, mətləbə duz qatıldığını, habelə qətiyyət verildiyini söyləməyə ehtiyac yoxdur. Ustad "mən yaza billəm ki?" sualını verə-verə, Dəmdəməkini "danlaya-danlaya", hər şeyi yazır, hər şeyi deyir, hər şeyi açıb-tökür. Arada bir "inana billəm ki?" sualı ilə yumoru bir qədər də gücləndirir, inamını qəti təsdiq edir. Felyetondakı son cümlə bütün bu deyilənlərin kulminasiya nöqtəsidir:

"Ay Dəmdəməki... Bəlkə mən bu sözləri yazaydım, canını hara qoyacaq idin?"

Felyetonu oxuyub qurtarandan sonra təzədən əvvəlinə - sərlövhəyə qayıdar: guya bunlar Bakıda "Dəmdəməki"yə "Molla Nəsrəddinin xəlvət cavabı"dır.

Dildə, üslubda təkrarolunmaz C.Məmmədquluzadə fərdi keyfiyyəti və özünəməxsusluğu "Niyə məni döyürsünüz"? felyetonundan gətirilən parçada daha yeni şəkildə özünü göstərir:

"A mollalar, niyə məni döyürsünüz? *Olmaya məndən qorxursunuz ki,* əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? *Olmaya qorxursunuz ki,* məcmuəmin vərəqlərini nökərlər samavar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola? *Olmaya siz başa düşürsünüz ki,* bir məmləkətdə iki padşah və bir əsrdə iki molla ola bilməz: ya Molla Xəsrəddin, ya Molla Nəsrəddin?

Heç eybi yoxdur, döyürsünüz döyünüz. Amma bunu da biliniz, ey mollalar ki, günlər dolanar, sular axar, zamana təzələnər və axırda yetim-yesir və keçəl-küçəl qardaşlarım dostu ilə düşmənini tanıyıb haman yoğun dəyənəkləri sizin əlinizdən alar və başlar... dəxi dalısını demirəm" və b.

Bu güclü satirik ruh, bu duzlu yumor, görünür, ədibin canında və qanında varmış. Çünki bu məziyyət hələ ilk qələm təcrübəsi olan "Əhvalatlar"da yüksək səviyyədə idi...

Xalq həyatı, canlı dil ilə sıx bağlılıq baxımından bu üslubun inkişaf edib geniş şəkil almaq imkanı vardı. Lakin C.Məmmədquluzadəni təkrar etmək, ona bənzəmək olmaz. Bu və ya başqa yazıçıda dil və üslubca özünü ona bənzətmək halları müşahidə edilirsə, bu dildə, üslubda ənənənin davamı və inkişafı kimi başa düşülə, dərk edilə bilməz. C.Məmmədquluzadə sadə yazırdı, bəzən lap "loru" dilə keçir, sözü "pişiyim-pişiyimlə" deyirdisə, bu bir tərəfdən, zamanın tələbindən irəli gəlirdi, o biri tərəfdən, ədib bunu bədii cəhətdən əsaslandırırdı; əhvalatın Lağlağı Sadığın, Qəzetçi Xəlilin və ya bir "Dəmdəməkinin" dilindən söyləndiyini və yazıldığını "elan" edirdi. Bu gün isə bir qələm sahibi, yazıçı C.Məmmədquluzadə dili və üslubunca yazır, özünü ona bənzətməyə çalışırsa, bunun gələcəyi ola bilməz. Bəs C.Məmmədquluzadədən indi nə götürmək, nəyi davam və inkişaf etdirmək olar? İlk növbədə, onun

dilindəki güclü xəlqilik ruhunu, yığcamlıq keyfiyyətini, bircə sözün belə artıq və ya əskik işlənməməsini, fikri ifadə tərzinin rəngarəngliyini, dilin yatar qüvvələrinin üzə çıxarılması yollarını, fərdi keyfiyyət və özünəməxsusluğa nail olmaq axtarışlarını - bir sözlə, ondakı yüksək, əlçatmaz yazıçı - vətəndaşlıq qeyrətini hər zaman, hər dövrdə davam və inkişaf etdirmək mümkündür və vacibdir:

Dildə, üslubda C.Məmmədquluzadə özünəməxsusluğu və fərdi keyfiyyəti zirvədir, zirvələr isə təkrar olunmur.

Dildə, üslubda fərdi keyfiyyət və özünəməxsusluq əbədi problemdir. C.Cabbarlının dilini, üslubunu, surətlərinin danışığını, nitqlərini, harada olur-olsun, dərhal seçmək, tanımaq olur. Yüz min misranın, beytin içinə S.Vurğundan bircə misra, beyt düşsə, onu tanımaq, oradan seçib götürmək olur. Bu, dildə, üslubda yüksək bədii keyfiyyətdir, zirvədir. Fərdi keyfiyyətdən, özünəməxsusluqdan məhrum sənətkar sənətkar deyil, yazsa-yaratsa da, çap olunsa da, uzaq gedə bilməz, bu əsrdən o əsrə çıxmaz. Bu, həyatın qanunudur, bu, söz sənətinin dialektikasıdır...

Beləliklə, dövrün dil problemlərini zirvələrin zəngin yaradıcılığı, nəzəri mülahizələri, dili və üslubu əsasında araşdırıb tədqiq etmək zəruri bir ehtiyac kimi meydana çıxır.

Biz öz tədqiqatımızda məhz həmin yolu tutmuşuq.

15. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ ÜSLUBLAR, JANRLAR...

Üslub çox yüksək keyfiyyətdir; yazıçının ideya-bədii xüsusiyyətləri, dünyagörüşü, işlətdiyi bədii təsvir vasitələri və hər şeydən əvvəl, özünəməxsus fərdi dil keyfiyyəti, başqa sözlə, yazı manerası-dəst-xəttidir.

V.Q.Belinski yazırdı: "Üslub, sadəcə olaraq, qrammatik cəhətdən düzgün, aydın və səlis yazmaq bacarığı deyildir; belə bacarığa iste-

dadsızlar daha çox sahib olurlar" (*237*, s.159); "Əgər gözəl bir dillə yaza bilən yazıçının heç bir üslubu yoxdursa, bu üslubsuzluq onu mütləq qeyri-müəyyənliyə, son nəticəsi sözçülük olan yazıya gətirib çıxardacaq ki, onsuz da oxunuşu usandırıcı və həmin saatda unudulan cəfəngiyat olacaq. Əgər yazıçının üslubu varsa, onun təşbehləri dərhal anlaşıqlı, hər bir sözü yerli-yerində olacaq, həcminə görə çox söz tələb edən fikir az sözlə ifadə olunacaqdır" (*237*, s.159); "Üslub" sözü altında biz fitri istedadı olan yazıçının sözləri bilavasitə öz həqiqi mənasında işlətmək, fikri yığcam ifadə etmək, az sözlə çox fikir söyləmək, uzunçuluqdan qaçmaq və qısa söz söyləməkdə səriştəli olmaq, ideyanı forma ilə sıx əlaqələndirmək və bütün bu deyilənlərə özünün şəxsiyyət möhürünü vurmaq, orijinallıq, özünəməxsusluq ruhunu hopdurmaq məharətini başa düşürük" (*237*, s.160). "Üslub" istedadın özüdür, fikrin özüdür; üslubda insanın özü var; üslub şəxsiyyətin özü kimi, xarakterin özü kimi həmişə orijinaldır. Buna görə, böyük yazıçıların hər birinin öz üslubu olur" (*237*, s.160) və b.

Ədəbi dil üslublar məcmusundan ibarətdir; bu üslublar ayrı-ayrı dövrlərdə xalqın sosial həyatının, onun ədəbiyyatının və dilinin inkişafı ilə əlaqədar dəyişilir. Ədəbi dilin üslubları sistemində bədii əsərlərin dili və üslubu, heç şübhəsiz, əsas yer tutur. Yeni ədəbi janrların yaranması dildə bədii üslubun inkişafı və zənginləşməsinə imkan verir; çünki ifadə vasitələri və onların işlənmə normaları məzmunla və ədəbi janrların özünəməxsus tələbilə bağlıdır. Şeir və nəsr dili üslubu öz sadəliyi, bədii gözəlliyi və ifadəliyi cəhətdən daha çox kütləvi olduqda, ədəbi dilin başqa üslublarının inkişafına da müsbət mənada təsir edir. Məsələn, XIX əsrin ortalarından Azərbaycanda dram və hekayə, satira, lirik xalq şeiri dili və üslubları, habelə mətbuat dili yaranmış və fəal mövqe tutmuşdur. XX əsrdə isə bu üslublar daha da inkişaf edib zənginləşmiş, çoxcəhətli olmuşdur; yeni inqilabi satira üslubu yaranmışdır və s. Buna görə də ədəbiyyat tarixi təkcə müxtəlif dövrlərdə meydana çıxan yeni ədəbi fikir, ideya-bədii problemlər tarixi deyil, eyni zamanda ədəbi cərəyanlar və

üslublar tarixidir. Təqdirəlayiqdir ki, F.Köçərli Azərbaycan ədəbiyyatı tarixini məhz bu istiqamətdə tədqiq etməyə çalışmış, hər bir dövrün ədəbiyyatından, hər bir ədəbi şəxsiyyətdən danışarkən, dil, üslub məsələlərini də diqqət mərkəzinə çəkmişdi...

Bəs bu üslubları bir-birindən ayıran nədir? Hər üslubun özünəməxsus xüsusiyyətləri nədən ibarətdir? Burada bir ümumi hal var ki, bütün bu ədəbi üslublar öz əsası etibarilə ümumxalq dilinə, bu dilin zəngin ifadə tərzi, lüğət tərkibi və qrammatik quruluşuna bağlıdır. Lakin ədəbi janrın tələbindən asılı olaraq hər üslubun öz xüsusiyyəti, ifadə şəkilləri yaranır və bunlar getdikcə müəyyənləşir. Bununla belə, ənənəni gözləmək, dövrün xüsusiyyətlərini də nəzərə almaq lazım gəlir. Məsələn, M.F.Axundov özündən əvvəlki klassik üsluba bağlı idi, yaradıcılığının ümumi ruhu və məzmunu isə onu ən azı iki əsas üslubda yazmağa vadar etmişdi. Onun qələmi ilə komediya üslubu sadə və canlı ifadə tərzinə, sözün əsl mənasında yüksək xəlqilik prinsipinə uyğun şəkildə yarandığı halda, fəlsəfi-publisist üslub öz çətinliyi və ağırlığı ilə ondan fərqlənirdi, halbuki hər iki üslub bir qələmin məhsulu idi. Yaxud qüdrətli söz ustaları Molla Pənah Vaqif və Aşıq Ələsgər özlərinə qədərki zəngin ədəbi irsi dərindən mənimsəyərək, xalq yaradıcılığı məcrası ilə gələn şer dili və üslubunu klassik zirvəyə qaldırmışdılar; el arasında ədəbi dilin canlı carçıları kimi sazla sözü birləşdirib, lirik şer dili və üslubunun gələcək inkişafına da müəyyən təsir göstərmişdilər...

"Üslublar məcmusu" dedikdə, məsələni təkcə ədəbi janrlarla əlaqədar yaranıb müəyyənləşən dil üslubları ilə məhdudlaşdırmaq birtərəfli olardı. Azərbaycan ədəbi dilinin elmi dil, mətbuat dili və s. üslubları da var. Bu üslublar, əsasən, XIX-XX əsrlərdən başlayaraq meydana çıxır və müəyyənləşir. M.F.Axundovun elmi-tənqidi məqalələrinin, "Kəmalüddövlə məktubları"nın dili bizdə elmi dil üslubunun başlanğıc mərhələsi sayıla bilər. H.Zərdabinin "Əkinçi"də ara-sıra dərc etdirdiyi təbiətşünaslığa dair elmi əsərlərinin, F.Köçərlinin ədəbiyyatşünaslığa dair ədəbi-tənqidi və publisist

əsərlərinin dili isə Azərbaycan elmi dil üslubunun əsl xəlqi istiqamətinin yeni mərhələsi kimi qiymətləndirilə bilər.

"Əkinçi" qəzeti Azərbaycan milli mətbuatının, eləcə də mətbuat dili üslubunun ilk nümunəsidir. "Əkinçi" yaranışından qarşıya elə xəlqi və zəruri nəzəri tələblər qoymuş, onu əməli işə elə tətbiq etmişdi ki, bu, sonra gələn mətbuatımızın həm məzmunu, həm də dili və üslubu üçün bir örnək olmuşdu.

Hər bir əsl sənətkarın öz fərdi üslubu, dilinin özünəməxsus ahəngi-melodiyası vardır. Bu melodiyanın kökü, əsası xalq dili xəzinəsinə bağlıdır, sənətkar onu xalq dilinin ritm, lüğət tərkibi və sintaksisindən götürür, işləyir, hamarlayır və daha kamil şəkildə yenidən xalqın özünə qaytarır. Bu da ümumxalq ədəbi dilinin zənginləşməsi, cilalanması və səlisləşməsində, vahid normaların sabit şəkil almasında mühüm rol oynayır. Məs., biz Füzulini oxuyanda bir ahəng, Vaqifdə başqa bir ahəng, Zakirdə üçüncü, Sabirdə dördüncü, Caviddə beşinci, Vurğunda altıncı bir ahəng duyuruq; M.F.Axundovun fəlsəfi məktublarında bir ahəng, F.Köçərlidə başqa bir ahəng, C.Məmmədquluzadədə üçüncü, Haqverdiyevdə dördüncü, Ordubadidə beşinci bir ahəng duyuruq; M.F.Axundovun dram dilində bir ahəng, N.Vəzirovda başqa bir ahəng, Haqverdiyevdə üçüncü, Ü.Hacıbəyovda dördüncü, C.Cabbarlıda beşinci bir ahəng duyuruq - bunlar hamısı gözəldir, hər birinin öz yeri, öz aləmi vardır, bütünlükdə isə ümumxalq ədəbi dilinin tərkib hissəsini təşkil edir. Buna görə də ayrı-ayrı dövrlərin böyük şair və ədiblərinin ümumxalq dili - dilin "xam materialı" üzərində apardığı yaradıcılıq işinə, əmək və səyinə, əməli və nəzəri fəaliyyətinə qiymət vermək, onların fərdi dil və üslubunun özünəməxsus cəhətlərini müəyyən etmək dil tarixi tədqiqatının vəzifələrinə daxildir.

Ədəbi və bədii dilin hüdudları məsələsinə müasir elmi-nəzəri baxış belədir:

Ədəbi dil nədir? Bu barədə görkəmli rus dilçisi V.V.Vinoqradov yazır:

"Ədəbi dil xalqın ictimai həyatının inkişaf, maddi və mənəvi tərəqqi vasitəsi, ictimai mübarizə silahı, habelə xalq kütlələrinin tərbiyə və onların milli mədəniyyət, elm və texnikanın yüksəlişinə qoşulmaq vasitəsidir. Ədəbi dil - həmişə kollektiv yaradıcılıq fəaliyyətinin nəticəsidir" (*139 a.* s.288).

Digər məşhur rus dilçisi A.İ.Yefimov yazır:

"Ədəbi dil öz əsasına görə, söz ustaları tərəfindən işlənilmiş və yaradıcılıqla zənginləşdirilmiş ümumxalq dilidir. Buna görə onu ümumxalq dilinə qarşı qoymaq yox, ona xalqın nitq mədəniyyətinin yüksək nailiyyəti kimi baxmaq lazımdır. Ədəbi dil ümumxalq dilinin yüksək formasıdır, görkəmli söz ustaları başda olmaqla, bütün xalqın nitq yaradıcılığının nəticəsidir" (*169,* s.5).

Bədii dil nədir? Bədii dil ədəbi dilin əsasında yaranan yeni bədii estetik sistemdir.

Əslində, Azərbaycan dilində qeyri-bədii, yaxud, duzsuz, obrazsız danışmaq çətindir. Adicə danışıqdan başlanan bu keyfiyyət özünü ədəbi dilimizin ilkin hərəkətverici qüvvəsi kimi göstərir. Məhz ana dilinin başlanğıcdan gələn bu daxili keyfiyyəti, habelə Azərbaycan şeirindəki güclü fəlsəfi-estetik məzmun tarixən bədii dilin poetik (şairanə, şirin) inkişafına təsir göstərən mühüm amillərdən olmuşdur.

Dədə Qorquddan, Nəsimidən başlayaraq möhkəm əsası qoyulan ədəbi dil get-gedə daha artıq bədii şəklə düşmüş və beləliklə, dilimizin əsl estetik sistemi yaranmışdır.

Füzulinin "Leyli və Məcnun" poemasında Məcnunun anasının "Məhbub həm istəsən, kəm olmaz", yəni qız qəhət deyil ki, Leylidən əl çək" - məsləhətinə Məcnun bu cavabı verir:

"Aləmdə bir ondan özgə kim var?
Bülbül gül üçün qılanda nalə
Dərdinə dəva olurmu lalə?
Xosrov deyiləm ki, mənə dilbər
Şirin ola gah, gah Şəkkər".

Bir bayatıda deyilir:

"Dağların lalasına,
Gözlərin alasına;
Yara könlümü verrəm,
Qorxuram ala, sına".

Birinci misalda dilin estetik xüsusiyyəti sözlərə verilən məcazi mənalardan başlanır. Sözlərin həqiqi mənadan məcazi mənalara keçməsi dili bədii-estetik şəklə salır. Belə ki, bülbülün Məcnunla, gülün Leyli ilə müqayisəsi (burada ənənəvi bülbüllə gül əfsanəsinə işarə də az rol oynamır), habelə Məcnunun özünü Xosrovla, Leylini isə Şirin və Şəkərlə qarşılaşdırması və buna əlavə olaraq həm də "şirin" və "şəkər" sözlərinin ikili məna daşıması (həm ad, həm də sifət) dilin bədii gözəlliyini yüksək dərəcədə artırır, poetik aləm açır.

İkinci misalda məcazlardan (könülün verilməsi, alınması və sınması) əlavə, dilə estetik vüsət verən digər keyfiyyətlər də var. Burada dilin gözəlliyini cinas zənciri *(lalasına, alasına, ala sına)* və canlı dilin daxili məziyyətlərindən məharətlə istifadə (laləsinə yox, *lalasına,* verərəm yox, *verrəm*) daha artıq şərtləndirir və s.

Ədəbi dil geniş anlayışdır. Bədii dil ədəbi dilin mühüm sahəsidir, onun daha dürüstlüyü üçün, adətən *ədəbi-bədii dil* istilahı, yaxud ifadəsi işlədilir. Buna görə, ədəbi və ədəbi-bədii dili ümumxalq dili, milli dil zəminində yetişib inkişaf edən kateqoriyalar kimi vəhdət halında düşünmək və tədqiq etmək lazımdır.

Ədəbi dildə üslubların yaranması və inkişafında təkcə ayrı-ayrı sənətkarlar, ədəbi şəxsiyyətlər deyil, həm də bütün bir ədəbi nəsil fəaliyyət göstərir; ədəbi şəxsiyyətlər həmişə həmin ədəbi nəslin ön sırasında gedir, ona yol göstərirlər. Ədəbi dilin inkişaf edib, ümumxalq dili normalarının vahid şəkil alması prosesində ədəbi klassiklərin elmi-publisistik əsərlərini və bilavasitə dilə, dilin nəzəri məsələlərinə dair yazdığı məqalələrin rolunu, əhəmiyyətini xüsusi nəzərə almaq lazım gəlir.

16. ƏDƏBİ ŞƏXSİYYƏT VƏ DİLDƏ XƏLQİLİK, MİLLİ KEYFİYYƏT

Dildə xəlqilik və milli keyfiyyət xalq dili inkişafının yüksək mərhələsində daha kamil təzahür edir.

Milli dil ümumxalq dilidir. O həmin dildə danışanların hamısı üçün ümumi və vahid dil sayılır.

Milli dil sisteminə təkcə ədəbi dil, onun yazılı və şifahi-bədii qolları, elmi ədəbiyyatın, tənqidin, publisistikanın, mətbuatın dili daxil deyil, həm də o, xalq danışıq dilini, ümumxalq ünsiyyətinin müxtəlif sahələrini, dialektləri və s. də əhatə edir. Milli dilin varlığında ədəbi dil mühüm rol oynayır.

Xalqın milli ədəbi dili, onun elm və sənət dili bütünlükdə mənəvi fikir tarixinin dilidir; ictimai-fəlsəfi, bədii-estetik dünyasını irəli aparan tükənməz qüvvədir. Lakin milli ədəbi dilin bu sahələrinin hamısı bir vaxtda deyil, biri daha erkən, digəri isə xeyli sonra yarana, formalaşa bilər. Bu, şəraitdən asılıdır.

Uzun tarixi inkişafın məhsulu olan milli dilin yaranmasında nəsillər və xalqın bütün üzvləri, bütünlüklə xalq iştirak edir. Xalqın millət şəklini aldığı dövrdə onun ümumi və vahid dili milli dil, ədəbi dili isə milli-ədəbi dil olur. "Xalq", "Millət" anlayışları arasında keçilməz sədlər olmadığı kimi, xalq dili ilə milli dil, ədəbi dillə milli-ədəbi dil arasında da bir o qədər sədd yoxdur; biri digərinin davamı və inkişafıdır. Buna görə, çox zaman milli dil, sadəcə olaraq, xalq dili, milli-ədəbi dil isə ədəbi dil məzmununda da dərk edilir. Milli dil xalq dilinin yetkin şəkli, xalq dili inkişafının yüksək mərhələsidir. Milli-ədəbi dil də milli dilin yüksək şəkli, ədəbi dilin inkişafının yüksək formasıdır.

Müxtəlif dillərin milli şəkil almasında ona istiqamət verən ümumi cəhətlər, ümumi qanunauyğunluqlar mövcuddur. Lakin hər bir dilin özünəməxsus inkişaf yolu var ki, bu o dilin və o dildə danışan xalqın tarixi, ictimai-siyasi şəraiti və ümumi mədəni inkişafı ilə bağlıdır.

Dilin inkişafında tarixi şəraitin rolu böyükdür; şərait əlverişli olduqda inkişaf, tərəqqi üçün imkanlar da genişlənir, dil yetkinləşir, ədəbi və milli inkişaf yoluna daha tez düşə bilir. Milli dillər təşəkkül tapıb yetkinləşincəyədək uzun tarixə, yazılı-ədəbi ənənəyə malik olmuşdur. Məsələn, tədqiqatçılar göstərirlər ki, Fransada vahid ədəbi dil XIII əsrdə yaranmış və XVI əsr fransız milli dilinin başlanğıc mərhələsi olmuşdur, ingilis milləti və ingilis milli dili XVI əsrdə əmələ gəlmiş və formalaşmışdır (*143*, s.205-208). Deməli, milli təşəkkültapma, yetkinləşmə tarixi şəraitlə əlaqədar olaraq ayrı-ayrı xalqlarda müxtəlif dövrlərdə başlaya və başa çata bilər.

Bu fikir milli dilin bu və ya başqa sahəsinə də aiddir.

Orta əsrlərin ümumi Azərbaycan poeziya dili geniş ərazini əhatə edir, öz milli sərhəddindən çox-çox kənarlara çıxırdı. Ayrı-ayrı mədəni mərkəzlərdə yazıb-yaradan görkəmli sənətkarlarımızın dilində ümumi cəhətlər, poetik dil normaları vahid idi; bəzi cüzi şivə fərqləri nəzərə alınmasa, bu dil xalqın, onun həm ziyalı, həm də savadsız adamlarının başa düşdüyü, məqbul dil idi. Bu isə ilk növbədə güclü ənənə ilə, köklə bağlı idi və XIII-XIV əsrlərdə artıq Azərbaycan ədəbi-bədii dilinin ümumxalq mövqeyinin möhkəm olduğunu, onun klassik cığıra düşdüyünü təsdiq edirdi. Nizaminin müasiri Əli təxminən Gəncədə, Nəsimi Şirvanda və Hələbdə, Kişvəri və Xətai Təbrizdə, Füzuli Bağdadda, Qövsi İsfahanda yazıb-yaradırdı; Sarı Aşıq Laçında, Qubadlıda, Vaqif və Vidadi Qazaxda, Qarabağda çalıb-çağırırdı... Lakin onların dili hamı üçün normal ümumi dil idi; bu dildə yazılan, bu dildə musiqi ilə oxunan əsərlər adlarını çəkdiyimiz yerlərdə və bütün Azərbaycanda doğma idi. Hətta bu əsərlər muğam üstündə, aşıq havalarında, xalq mahnılarında oxunurdu.

Şifahi-bədii yaradıcılığın və onun tək bircə sahəsinin dilinə nəzər salaq. Folklorçuların fikrincə, "Azərbaycan dastan yaradıcılığının yaşını müəyyən etmək çətindir" (*3*, s.21). Burada həqiqət vardır. Yenə folklorçuların fikrincə, "orta əsrlər Azərbaycanda dastançılığın ən məhsuldar dövrü olmuşdur" (*3*, s.21), XIV-XVI əsrlərdə isə bu janr zirvəyə yüksəlmişdir.

Orta əsrlər dastanlarımızda cərəyan edən hadisələr, ana dilində qurulan yüksək söz-söhbət məclisləri Azərbaycanın əksər mədəni mərkəzlərində - Gəncədə və Tiflisdə, habelə Ərzurum və Hələbdə ("Əsli-Kərəm"), Təbriz-Hələb və Tiflisdə ("Aşıq Qərib"), Araz-Kür qovşağı və Gəncədə ("Aşıq Qurbani"), Tufarqan, Təbriz və İsfahanda ("Abbas-Gülgəz"), Dəmirqapı Dərbənddə və Qarabağda ("Valeh-Zərnigar"), hətta Bağdadda ("Leyli-Məcnun") vaqe olur. Şifahi-bədii yaradıcılığın xəlqi mövqeyinin üstünlüyünü, rəsmi dairələrdən uzaq olub, xalq həyatına, canlı dilə daha artıq meylliliyini nəzərə alsaq, şübhə etmərik ki, bu dastanlar həmin əsrlərdə dil və üslubca, fikrin ifadə tərzincə nə səviyyədə, nə keyfiyyətdə idisə, təxminən eyni səviyyə və keyfiyyətdə də gəlib bu günə çatmışdır. Nəzərə alaq ki, Aşıq Qurbani, Tufarqanlı Abbas və başqa dastan qəhrəmanları həm də tarixi və ədəbi şəxsiyyətlər kimi məşhur olmuşlar. Dastanların nəsrində bəzi dəyişikliklər, dal-qabaqlıq olsa da, o vaxtlar düzülüb-qoşulan şerlər dildə-ağızda dolaşıb nəsildən-nəslə keçərkən heç cür dəyişdirilə, sadələşdirilə bilməzdi; necə deyilibsə, necə deyilib-qoşulubsa, elə də gəlib bu günə çıxmışdır. Həm də diqqətəlayiqdir ki, Azərbaycan xalq dastanlarında - "Dədə Qorqud"dan üzü bəri bütün eşq-məhəbbət, qəhrəmanlıq dastanlarımızda, yeri düşəndə, ehtiyac duyulanda hamı şeir deyə bilir, şeirlə deyişir, şeirlə danışır, şeirlə əhvallaşır: aşiq də, məşuq da, dost da, aşna da, bacı da, qardaş da, ata-ana da, oğul-qız da, dayı da, əmi də, bəy də, mehtər də, ağa da, nökər də, vəzir də, vəkil də, xanım da, qaravaş da, xan da, çoban da... bir sözlə, bütünlükdə xalq şeir deyir, şeirlə nəfəs alır, şeirlə yaşayır. Əbəs yerə deməyiblər ki: "bu xalq başdan-binadan şair xalq olub"...

Yuxarıdakı fikrə qayıdıb ona qüvvət veririk: orta əsrlərdə yaranıb dildə-ağızda gəzən, toyun-düyünün, ağır söz məclislərinin bəzəyi olan və dövrdən-dövrə, nəsillərdən-nəsillərə keçib gələn bu dastanların dili də hamı tərəfindən başa düşülürdü, bu dil hamı üçün normal ümumi dil idi, milli dil idi. Sözlə, şeirlə musiqi birlə-

şib xalqın mənəvi-milli keyfiyyətlərini yaradır, onu zənginləşdirir və inkişaf etdirirdi...

Burada bir müqayisə verək:

Adolf Bax alman dilinin inkişafı və normalaşdırılması məsələlərindən bəhs edərək yazır: "Əlbəttə, nəticə etibarilə qrammatika mütəxəssisləri bizim xalqımızın dil ümumiliyini həll edə bilən adamlar deyillər. Bizim XVIII əsrin sonu böyük şair və yazıçılarımız normalaşdırma işinə onlarla müqayisəolunmaz dərəcədə daha güclü təsir etmiş, nümunə göstərmişlər. O zaman ki, təkcə maarifçi dövrü dini ziddiyyətləri zəiflətmişdi, məhz onda Klopştokun və Lessinqin, Herderin və Vilandın, Şillerin və Götenin sayəsində Orta və Şimali Almaniya alman millətinin bütün görkəmli ziyalı adamlarının doğma ədəbiyyatının vətəninə çevrildi; o vaxt ki, həmin şair və yazıçılar Lüterə əsaslanan ümumalman dilində yazdılar, ümumi əhəmiyyət qazanmış oldular. XVIII əsrin sonunda ancaq milli ədəbiyyat sayəsində Cənubi Almaniyanın təzyiqini sındırmaq və bütün ölkəyə vahid ümumi dil vermək mümkün oldu. İlk növbədə, bu prosesdə Vilandın əsərləri mühüm rol oynadı. 1825-ci il yanvarın 18-də Göte Ekkermana demişdi: "Bütün cənubi Almaniya öz üslubuna görə Vilanda borcludur. O ondan çox şey öyrəndi, məhz fikri düzgün ifadə etmək məharəti - bu az iş deyildir" (*124*, s.249-250).

Maraqlıdır ki, burada hələ XVIII əsrdə alman ədəbi dilinin formalaşdırılması, ümumi vahid ədəbi dilin yaradılması imkanları, bu uğurda cənubla şimalın mübarizə və birinin digərinə təzyiqindən danışılır.

Halbuki Azərbaycan ədəbi dilinin tarixində vahid ümumi istiqamət hələ ilkin mənada VI-IX əsrlərdən - "Dədə Qorqud kitabı"ndan müəyyən idi, XIII-XIV əsrlərdə isə artıq klassik səviyyəyə yüksəlirdi. Doğrudur, bu istiqamət daha çox poeziya dili ilə əlaqədardı, amma hər halda, o, güclü və aparıcı rola malik idi; hələ dildə ərəb-fars təsiri, dini təzyiq və s. vardı, bəzən də bu, çox güclü idi; amma hər halda vahid ümumi normalar müəyyənləşmişdi, ərəb-fars təsirlərinə və təzyiqinə qarşı mübarizə davam edirdi. Bu mübarizə dilin

öz daxilində, dialektlər və mədəni mərkəzlər və ya "şimalla cənub" arasında deyil, məhz ərəb-fars təsirlərinə, əcnəbiçiliyə qarşı idi. Şəksiz, bu meyl XII əsrin sonu və XIII əsrin əvvəllərində "Qisseyi-Yusif" mənzum romanını yaratdı; dilin inkişafında özünü göstərən bu güclü istiqamət Azərbaycan Atabəylər dövləti və onun nüfuz dairəsilə də əlaqədardı. Dövlət başçıları sarayda fars dilinə üstün mövqe versə də, artıq xəlqi istiqamət götürülmüşdü. Qədim ənənələrin qəti bərpası və inkişafı XIII-XIV əsrlərin böyük ədəbi mühitinin yaranması üçün milli zəmin hazırlamışdı.

Ədəbi dildə ümumxalq mövqeyini möhkəmlədən meyllər getdikcə artırdı. XIV-XVI əsrlərdən etibarən isə ədəbi dilin üslubları şaxələnir, "Koroğlu" eposu və başqa xalq dastanları, qoşma, gəraylı, bayatı və s. kimi şifahi ədəbiyyat janrlarının inkişafı ilə yanaşı, yeni üslublar yaranır, Nəsiminin, Kişvərinin yaradıcılığında klassik qəzəl üslubunun ilk uğurlu addımları atılırdı... Şəksiz, bu çoxcəhətli inkişaf, ədəbi-mədəni tərəqqi Şah İsmayıl Xətainin yaratdığı milli dövlət və onun islahatları, ədəbi fəaliyyəti ilə əlaqədar daha da güclənir, öz inkişafının yeni mərhələsinə daxil olurdu.

Azərbaycan dilinin milli əsası kimi təkcə şeir dili qolunun təxminən iki min ildən artıq tarixi vardı ki, o, iki istiqamətdə - şifahi və bədii xalq yaradıcılığı dili, üslubu və yazılı şer dili, üslubu istiqamətində inkişaf edirdi; ədəbi dilin bu sahələri bizdə tarixən birbirinə qarşılıqlı təsir göstərərək, getdikcə ədəbi dilin inkişafını milli istiqamətə doğru yönəldir, onu tamamlayırdı.

XVI-XVII əsrlərdə bu iki sahə ikincinin üstünlüyü ilə kamilləşmişdi. Daha doğrusu, Azərbaycan milli-ədəbi dili öz əsasını yaranma tarixi heç də VI-VII əsrlərdən gec olmayan "Dədə Qorqud kitabı" kimi zəngin xəzinədən alır; hələ "Orxon-Yenisey" kitabələrindən nəzərə çarpırdı; Mahmud Kaşğarlının "Lüğət"indən süzülüb gələn cümlə, atalar sözləri, məsəl və kiçik şerlərdən, dörd və cüt misralıqlardan başlayırdı ki, o bütün maneələrə baxmayaraq, getdikcə əsl inkişaf yoluna düşüb, şair Əli və Həsənoğlunun, Qazi

Bürhanəddin və Həbibinin şerlərində xeyli cilalanmış, xəlqi-milli keyfiyyətlərlə zənginləşmiş, Nəsimi, Kişvəri, Füzuli, Qövsi qəzəllərində klassik səviyyəyə yüksəlmişdi. Xətai və XVI-XVII əsrlərin el şairləri ilə birlikdə, XVIII əsrdə Vidadi və Vaqif canlı xalq dilinin qüvvətli təsiri altında yazılı dili daha realist istiqamətə yönəldərək, sadə və səmimi qoşmaları ilə onun milli mövqeyinin daha da möhkəmlənməsi üçün qüvvətli təkan vermişdilər.

Keçən əsrin sonlarında məşhur türkoloq M.P.Melioranski "Orxon-Yenisey" kitabələrindən bəhs edərkən yazırdı: "Çox səciyyəvi haldır ki, türklərin özlərinin milli "türk tanrısı" haqqında anlayışları olub ki, bu da, əlbəttə, onlarda milli hissin inkişaf etdiyini göstərir" (*216*, s.266). Azərbaycan türkləri - oğuzlarda da bu milli hisslər güclü olmuş, inkişaf etmişdi ki, VI-VII əsrlərdə "Dədə Qorqud kitabı" kimi ədəbi sənət incisini yarada bilmişdi. Bu fikir, söz yox, onun dilinə də aid edilə bilər.

Bizdə ilkin vətən, xalq mənasında "yurd" ("yurt"), "budun" sözlərinə hələ "Orxon-Yenisey" kitabələrində təsadüf edilir; "Dədə Qorqud"da "vətən" sözü, məfhumu vardır. XIII-XVI əsrlərdən isə "vətən", "xalq", "millət" anlayışları ədəbiyyatımızda geniş şəkildə işlənir. Məs.:

Şair Əlidə:

Misir ayası aşlıq sizə netə verdi?
Bildinmi qanqı *millət* dutar imidi?

Nəsimidə:

Surəti-xəttü xalinə sacidü abid olmayan,
***Millətimizdə* oldurur müşrikümüz, yəhudumuz".**

Xətaidə:

Bu yerdə murad halətin nə?
Nə yerdənsən, *əsli millətin* nə?

Və:

Döndü *vətəninə* cümlə quşlar,
Gəldi yuvasına qaranquşlar.

Və ya:

Sirrin tərcümanə bəyan edərsən
Zira *xəlq* içində sirdir məhəbbət.

El ədəbiyyatında:

Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qürbət ölkə,
Ölməyə *vətən* yaxşı.

Bu misralardakı "xalq", "millət", "vətən" sözlərinə əhəmiyyət verməmək olmaz; anlayışlar artıq mövcuddur. Lakin bu o demək deyil ki, xalqın "millət", dilin "milli dil" olduğunu sübut etmək üçün o dildə ancaq "millət", "milli dil", "milli ədəbi dil" və s. kimi sözləri, istilahları axtarmaq lazımdır; yaxud milli sənətkar (şair, nasir və s.) olmaq üçün o sənətkar "xalq", "millət", "vətən", "hürriyyət" və s. kimi sözlər işlətməlidir. Yox, bu o demək deyildir. Belə düşünmək məsələnin mahiyyətini dərk etməmək və ya sadəlövhlük olardı.

Dilin milli keyfiyyət kəsb etməsində ədəbi dilin vahidləşdirici rolu mühümdür. XVI əsrə qədər Azərbaycan dilinin min ildən artıq məlum ənənəsi, güclü milli qaynaqları vardı. S.Vurğun şair uzaqgörənliyi ilə doğru olaraq yazırdı: "Nəsimi kimi bir dühanın - poeziyası yalnız milli dilin və milli mədəniyyətin əsrlər boyu inkişafı nəticəsində meydana çıxa bilərdi" (*18*, s.150).

XVI əsrin əvvəllərindən Azərbaycan dilinin milli keyfiyyətlərlə zənginləşməsi üçün daha əlverişli şərait yaranmışdı. Xətainin əsasını qoyduğu müstəqil Səfəvi dövləti - Şirvanın və Şəkinin, Qarabağın və Cənubi Azərbaycan torpaqlarının vahid bir dövlət daxilində birləşdirilməsi mədəniyyəti və dili də bir mərkəzdə birləşdirdi; xalqın, onun

mədəniyyətinin və dilinin milli şəklə düşməsi prosesinə güclü təsir göstərdi. Azərbaycan dövlətinin paytaxtına çevrilən Təbriz uzun müddət Azərbaycan mədəniyyətinin də inkişaf mərkəzinə çevrildi.

XVI-XVII əsrlər el ədəbiyyatı (məclislərin bəzəyi olan bayatı, qoşma, deyişmə, müəyyən mənada dastan və nağıllar) və onun dili, daha sonra Vaqif ədəbi məktəbi milli dilin inkişafında mühüm mərhələlər olmuşdur; XIX əsr isə milli-ədəbi dilimizə daha yeni keyfiyyətlər əlavə etmişdir: ədəbi dilə, canlı xalq dilinə, onların qarşılıqlı əlaqəsinə, xüsusilə folklora yeni münasibət və s. əmələ gəlmişdir. Bu yeni münasibətin ən parlaq cəhəti M.F.Axundovun yaradıcılığında öz əksini tapmışdı. Dramaturgiya və mətbuat dilinin yaranması və elmi-fəlsəfi üslubun inkişafı ilə yanaşı, milli-ədəbi dil müxtəlif sahələrə ayrılmış, öz əhatə, nüfuz dairəsini olduqca genişləndirmişdi. Buna görə də Azərbaycan milli ədəbi dilinin formalaşması və "təşəkkül" tarixini müəyyən bir əsrlə və ya dövrlə məhdudlaşdırmaq doğru deyil.

***

Bizdə son vaxtlar aktual "problemə" çevrilmiş milli və milli-ədəbi dil barədə, onun "dialekt əsası" məsələsi barədə çox yazılır, söz-söhbət gedir. Azərbaycan milli və milli-ədəbi dilinin "dialekt əsasını" müəyyən etmək, milli dilin əsasına bu və ya digər "dialekti" qoymaq məqsədilə Bakıda geniş dairədə müşavirə də çağırılmış, müzakirələr keçirilmiş və nəticələri çap olunmuşdur.

Azərbaycan milli və milli-ədəbi dilinin formalaşması məsələsi, eyni zamanda millətin sərhəddinin müəyyənləşdirilməsi məsələsinə uyğun gəlir; əslində, "hər hansı bir millətin sərhəddini qəti şəkildə dialektə görə yox, məhz yazılı dilə görə müəyyən etmək olar" (*229*, s.69). Bir halda ki, Azərbaycan yazılı dilinin güclü ənənəsi və çoxəsrlik zəngin tarixi vardır, onda millətin, habelə milli və milli-ədəbi dilimizin təşəkkülü və formalaşmasında "dialektdən" danışmaq, bu məsələdə dialektlərin rolundan söhbət açmaq

lüzumsuz və qeyri-elmi görünür. Bu məsələdə uzağa getməyib, təkcə M.F.Axundova müraciət etmək kifayətdir. İstər Azərbaycan ədəbiyyatı, istərsə də dil tarixi və nəzəri dilçiliyimizin bir sıra mühüm problemlərinin ona istinad etmədən həlli çətindir. Bu mənada yazıçıların yaradıcılığı zəngin material verir.

M.F.Axundovun dram əsərlərindən bir-iki misal gətirib, "noxulu Hacı Nuru şairin, qarabağlı Nəcəfin, lənkəranlı Teymur ağanın, təbrizli Səkinə xanımın və Gülsəbanın" hələ keçən əsrdəki danışığı, "dil-şivə" xüsusiyyətlərinə diqqət edək.

(1) "*Hacı Nuru* (şair). Onun da səbəbi var. Ondan ötrü ki, sən çox yaxşı qatırçılığa layiqsən; amma beyninə düşübdür ki, mən də gərək molla olam, ondan ötrü ki, atam molla idi. Atan oxumuşdu, kamalı var idi, molla idi. Sən ki, öz adını dürüst yazmağa qadir deyilsən; nə üçün molla olursan. Kamal ata kürkü deyil ki, irslə övlada yetişə" (*10,* s.6).

(2) "*Nəcəf* (dilmaca). A başına dönüm, divanbəyiyə ərz elə ki, elə bu dərənin adına fındıqlı dərəsi deyirlər. Qozun, fındığın mədənidir. Allah qoysa, qoz çırpılanda, fındıq dəriləndə çual-çual qulluğuna gətirrik. Divanbəyinin layiqincə yolun görmək bizim başımız üstə" (*10,* s.96).

(3) "*Teymur ağa.* Xan mənim atamdan qalan ölkəni və xanlığı zəbt etdiyi yetişməz, indi məni öldürmək fikrinə də düşür? Onun xam xəyalıdır!" (*10,* s.124).

(4) "*Səkinə xanım.* Çox yaxşı, dua elə, davamız tez qurtarsın, səni də ərə verrəm. İndi dur, get Əziz bəyi bura çağır, görüm bu işə nə bina qoyur. Hakimi-şər adam göndərib mənə xəbər edibdir ki, vəkil tutub müdafiəyə göndərim. İndi Əziz bəydən başqa mənim bir adamım yoxdur. Biz Təbrizdə qəribik, əgərçi bir bibim var; amma arvad tayfasının əlindən nə iş gələcək?

(Gülsəba tez çölə çıxıb geri qayıdır).

(5) *Gülsəba.* Əziz bəy özü gəlir *(Səkinə xanım pəncərəni salır, bu halda Əziz bəy içəri girir)" 10,* s.218.

Danışıqlarından nümunə verdiyimiz bu surətlər, göründüyü kimi, Azərbaycanın müxtəlif əyalətlərindəndir. Lakin onların dilində-danışığında elə bir fərq yoxdur; şivə, dialekt fərqləri də hiss olunmur. Fikirlər aydındır. Sözlərin sırası, əlaqəsi, cümlələrin birbirinə bağlanması qaydaları və s. milli dilə tam uyğun şəkildədir. Burada anlaşılmaz tərkib, çətin söz, ifadə yoxdur, varsa da, hissedilməz dərəcədə azdır və başa düşülür. Danışıqların tonu, səmimiyyəti və s. ümumxalq ruhundadır və milli dilin normalarına bütünlüklə cavab verir. Tam məsuliyyətlə demək olar ki, realist yazıçı bu surətlərin danışığını necə varsa, elə də yazıya almış, özü buraya heç nə əlavə etməmiş, danışıqları dəyişib "ədəbi norma"ya salmamışdır. Bu dil - danışıq isə təkcə XIX əsrin məhsulu deyil; sənətkarın özünün, habelə bu surətlərin ataları, babaları və ulu babaları da elə belə, təxminən bu səviyyədə danışmışlar. Budur, daha əvvəlki əsrlərə aid – VI-VII əsrlərdə ulu babalarımızın dili:

(1) *Dədə Qorqud:* "Xanlar xanı xan Bayındır ildə bir kərə toy edib Oğuz bəglərin qonaqlardı. Genə toy edib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ qurdurmışdı..." (10)

(2) *Ulaş oğlu Salur Qazan:* "Ünüm ünlən bəglər; sözüm dinlən bəglər! Yata-yata yanımız ağrıdı. Tura-tura belümiz qurıdı. Yürüyəlim a bəglər! Av avlayalım, quş quşlayalım, sığın, keyik yığalım, qayıdalım otağımıza düşəlim, yeyəlim-içəlim, xoş keçəlim".

(3) *Qıyan Səlcuk oğlu Dəli Tondar:* "Bəli, xan Qazan, məsləhətdir!".

(4) *Qaragünə oğlı Qarabudağ:* "Ağam Qazan, məsləhətdir".

(5) *Aruz Qoca:* "Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturursan, ordun üstünə kimi qorsan?.." (36-37) və b.

Məgər təxminən min dörd yüz il əvvəlki bu canlı-həyati danışıqla M.F.Axundovun və onun müasirlərinin danışığı arasında milli dil baxımından elə bir ciddi fərq, anlaşılmazlıq varmı?! Bəlkə də müasir "ədəbi normativ" üzrə burada bəzi cüzi düzəliş aparmaq mümkündür. Lakin mətləbin, qoyulan milli dil probleminin böyüklüyü, genişliyi və əhatəliliyi önündə bu, xırdaçılıq və çox kiçik iş olardı.

Hər bir dilin uzun inkişaf yolu keçib gəlmiş, onun "iliyinə işləmiş" daxili məziyyətləri olur. Bu məziyyətlər özünü, ilk növbədə, obrazlı və frazeoloji vahidlərdə göstərir. Obrazlı və frazeoloji vahidlər dilin milli keyfiyyətlərinin, necə deyərlər, ilkin qabarıq təcəssümüdür; bunların özünəməxsusluğu ondadır ki, başqa dildə eynilə ifadə olunmur və ya tərcümə edilə bilmir. Belə milli dil - ifadə vasitələri hələ "Dədə Qorqud"da güclü və geniş şəkildə müşahidə olunur. Məs.: Selcan Xatunla Qanturalı arasında ani bir konflikt törəmişdir: *"Qız qaqdı, aydır: Mərə qavat oğlı, qavat! Mən aşağı qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə qavat oğlı, oxunlamı, qılıcınlamı, gəl bərü, söyləşəlim! - dedi. Atın dəpdi, bir yüksək yerə çıqdı. Sadağından toqsan oxın yerə dökdi. İki oxun dəmrənin çıqardı, birin gizlədi, birin əlinə aldı. Dəmrənlü oxla atmağa qıyamadı, aydır: Yikit at oxunı! Qanturalı aydır: "Qızların yolı əvvəldir, əvvəl sən at! - dedi..." (198-199).* Dədə Qorqud bu "toqquşmanın" axırını belə təsvir edir: *"İrağından, yaqınından gəlişdilər. Gizlü yaqa tutuban iyləşdilər. Tatlu damağ veribən sorışdılar. Ağ, boz atlar binübən yortışdılar. Bək babası yanına irişdilər"* (200).

Biz kiçik bir səhnəni - qız və oğlan arasındakı bir anı götürüb, onların söhbətini və Dədə Qorqudun son müşahidəsini misal gətirdik. Qızın da, oğlanın da, Dədənin də danışığı, dili başdan-başa obrazdır, idiomlardır. Hələ nəzərə alaq ki, Selcan Xatun oğuz qızı deyil, Trabzonlı Təkurın qızıdır. Lakin oğuzca gözəl danışır, onun söz və ifadələri sırf xəlqi keyfiyyətlərlə zəngindir. Dədə Qorqudun "İrağından, yaqınından gəlişdilər" cümləsi bütünlüklə obrazdır. Qızın dilindən deyilən "Mən aşağı qulpa yapışuram, sən yuqarı qulpa yapışursan" idiomundan doğmuşdur. Habelə Selcan Xatunun "Oxunlamı, qılıncınlamı, gəl bərü, söyləşəlim"! obrazlı təklifinə qarşı Qanturalının "Qızların yolu əvvəldir" ibarəsi adət-ənənənin, qadına-qıza xəlqi ehtiramın sözlə ifadəsi, obrazıdır. Buna görədir ki, əsərin görkəmli tədqiqatçısı V.V.Bartold da bu obrazlı fikirləri, frazeoloji vahidləri rus dilinə tərcümə etməkdə çətinlik çəkmiş,

əlavə izahata və s. müraciət etsə də, yenə əsl mətləb, məna eynilə alınmamışdır. Bu isə tamamilə təbii və qanunauyğun haldır.

"Dədə Qorqud"dan bu yana yazılmış bütün ədəbi əsərlərdən beləcə yüzlərlə və minlərlə nümunə, güclü milli koloritli obrazlı ifadələr, frazeoloji vahidlər, idiomlar, cinas üstündə düşünülmüş beytlər, bəndlər, bütöv şerlər gətirmək olar ki, bunları eynilə başqa dillərdə vermək, tərcümə etmək mümkün dcyil, mümkün olsa da əsli alına bilməz.

Bütün bunlar, söz yox, canlı xalq dilindən, danışıqdan ədəbi dilə keçmişdir; ədəbi dil də hər dövrdə canlı xalq dilinin, danışığın mövcud səviyyəsini əks etdirir. Milli və milli-ədəbi dilimizdə bu çox mühüm keyfiyyətdi ki, hələ orta əsrlərdən qəti müəyyən idi...

Nəzərə alaq ki, hər zaman və hər dövrdə əli qələmli ziyalının təhsili, məsləki, dünyagörüşü, düşdüyü ictimai şəraitlə və s. əlaqədar milli-ədəbi dildə əslindən "uzaqlaşma" və əslinə "yaxınlaşma" halları baş verir. Bu mənada lap elə əsrimizin əvvəllərindəki vəziyyəti - müxtəlif üslublar mübarizəsini, bir-birinə zidd cərəyanları və bu səbəbdən də milli ədəbi dildə "uzaqlaşma" və "yaxınlaşma" hallarını xatırlamaq kifayətdir. Hətta 30-cu illərdə zamanın ayıq və gənc şairi S.Vurğun

Nədən bu torpağın şirin ləhcəsi
Şairəm deyənə biganə qalsın?!.

- deyə, təxminən bu məsələ - milli ruh və milli dildən uzaqlaşma hallarına qarşı etiraz səsini ucaltmışdı... Ümumi milli dilin inkişafının axarına bu yad meyllərin mənfi təsiri vardı, amma keçici idi, çünki kök dərin və güclü idi; belə hallar isə milli mövqeləri saf-çürük edir, milli axarları duruldur və saflaşdırırdı. Bu saflaşdırma əbədi bir prosesdir, bu gün də gedir və davam edir, sabah da davam edəcəkdir...

Realist M.F.Axundova qayıdaq. Böyük mütəfəkkir hələ 150 il bundan qabaq elə bir mühüm dialekt fərqi görməyibsə, onun əsərlərində bu sezilmirsə - deməli, onun dilində ümumi milli cəhətlər birləşdirilmişdi.

Beləliklə, Azərbaycan milli ədəbi dilinin yetişməsi üçün dərin köklərə malik, davamlı və özünəməxsus bir inkişaf yolu keçib gəlmiş (dialekt və şivə fərqlərinə əhəmiyyətsiz dərəcədə təsadüf edilən və ya heç edilməyən) klassik ədəbi dilimiz və onun şifahi qolu möhkəm zəmin hazırlamışdı. Burada müəyyən bir yeri, bir və ya iki mədəni mərkəzi - şəhəri də əsas götürmək doğru deyildir. Belə ki, Azərbaycan mədəniyyəti: ədəbiyyat, dil, musiqi və s. müxtəlif fasilələrlə gah Təbrizdə, gah Gəncədə, gah Bərdədə, gah Şamaxıda, gah da hətta Tiflisdə mərkəzləşmişdi; indi isə Bakıda mərkəzləşir. Böyük Füzulini dövr, zaman aparıb Bağdada çıxarsa da, o yenə Azərbaycan milli dilində yazıb yaratmışdı... Keçən əsrdə Tiflisdə və Bakıda meydana çıxan mətbu əsərlərin, qəzet və məcmuələrin dili, xüsusilə "Əkinçi" qəzetinin, "Ziya" və "Kəşkül"ün də dil və üslubu canlı danışığa, ümumxalq dilinə əsaslanmışdı. Tarixən Azərbaycan ədəbi dilinin inkişaf etdiyi, müəyyən şəklə düşdüyü mədəni mərkəzlər müxtəlif və bir-birindən uzaq, bəzən isə tamamilə əlaqəsiz olmuşsa da, ədəbi inkişaf, əsasən, eyni və vahid istiqamətdə getmişdir.

Deməli, milli və milli-ədəbi dilimizin ilkin əsasını zəngin ədəbi irsdən, şifahi ədəbi və yazılı dilimizdən götürməliyik.

Burada bir mühüm cəhət də nəzərdən qaçırıla bilməz. Belə ki, milli dilimizin təşəkkülündə qədimlərdən cənub, xüsusilə Təbriz, Ərdəbil mədəni mərkəzlərinin rolu olmuşdur. Bizə belə gəlir ki, Azərbaycanın cənubu öz dil-danışıq xüsusiyyətlərinə görə şimalından daha zəngin, çoxcəhətli və rəngarəng olmalıdır. Cənubun Təbriz, Ərdəbil, Zəncan, Urmiya, Xoy, Maku, Səlmas və s. kimi mahal və vilayətlərinin hər birinin özünəməxsus maraqlı dil-şivə xüsusiyyətləri var və bu, güman ki, indi xeyli dərinləşmişdir. Bugünkü yazılı dilimizdə də onun təsiri hiss olunmaqdadır.

Bu məsələdə Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Şəhriyarın ana dilində yazdığı əsərlərinə bir nəzər salmaq da bəs edərdi: *gülbəsər* (xiyar), *ərdəm* (igid, ər), *qılıc, qarındaş,*

dönərgə (dönük),.. *şövkətüzə* (şövkətinizə), *elüzə, dilüzə; getməyiz* (getməyiniz), *itməyiz, bitməyiz; etmisiz?* (etmirsiz?), *əliz* (əliniz),.. *gəldux, görüşdux, küsmüşdux, barışdux, gedax, qeyidax,.. daş-qumunan* (daş-qum ilə), *naxırılan, əmoğlıynan,.. doğğınan, ovgınan, boğğınan, deynə* (de, de ki), *qap-baca, Məmdəsən* (Məmmədhəsən), *nolubdu? getbəget* (getdikcə, tədriclə),.. *qovzanıllar, baxıllar, yandırıllar, verrik,.. döv* (döy), *söv* (sev), *züv* (sür)... Bu sözlər, bu ifadə tərzi, tələffüz Təbriz mahalının canlı dilində mühafizə olunub qalan qədim qatlar - canlı dil-danışıq və şivə xüsusiyyətlərindən soraq verir. Həmid Məmmədzadə yazır ki: "Şəhriyar öz şerlərində Təbriz ləhcəsinin bir para xüsusiyyətlərini qoruyub saxlayır, bir çox ifadələri kitablarda yazıldığı kimi deyil, xalqın tələffüz etdiyi kimi işlədir. Yeri gəldikcə, şair bu kimi ifadələrin kökünü və mənasını da yazıb göstərir. Deməli, bunların heç birisi təsadüfi olaraq şeirə gətirilmir. Dilimizin leksik zənginliyi üçün bunların əhəmiyyəti göz qabağındadır". Burada işlənən "Təbriz ləhcəsi" ifadəsi ancaq "şivə" - danışıq tərzi, tələffüz mənasında başa düşülə bilər. Canlı dilin, danışığın bu zənginliyi, bu rəngarəngliyi də milli dilə daxildir ki, bu keyfiyyətlər Təbriz dilində-danışığında olduğu kimi, Cənubun xatırlanan digər şəhər, mahal və əyalətlərində də olmalıdır.

Bu isə, təkrar edirik, dialekt deyil, canlı dil-danışıq xüsusiyyətləridir.

Milli və milli-ədəbi dil özünün ən yaxşı ifadəsini, söz yox, qədim kitabələrdə və ədəbi şəxsiyyətlərin fərdi dil üslubunda tapır...

AZƏRBAYCAN XALQI VƏ DİLİNİN SOY KÖKÜ - MƏNŞƏYİ

Məsələnin qoyuluşu

Hər hansı bir dil öyrənilərkən o xalqın mənşəyi barədə dürüst və aydın söz demək ilkin şərt kimi qarşıya çıxır. Dilin əsl tarixinin öyrənilməsində birinci mərhələ onun "doğuluşu"nu müəyyən etməkdən başlanır; dilin tədricən inkişafının izlənilməsi sonra gəlir.

Azərbaycan xalqının və onun dilinin mənşəyi məsələsi hələ də mürəkkəb və haqqında qəti söz deyilməmiş mübahisəli bir məsələ olaraq qalır. Mövcud fikirlər bir-birini inkar edir, nə dilçilərin, nə ədəbiyyatçıların, nə də tarixçilərin qeyd, fikir və mülahizələri bir-birinə uyğun gəlir.

"Kitabi-Dədə Qorqud" dastanlarının dili" adlı əsər dilimizin tarixinə aiddir; sırf təhlillə əlaqədar fəsil və bölmələri yaxşı təsir bağışlayır. Lakin tədqiqatdakı ümumiləşdirmələr, çıxarılan nəticələr o qədər təsadüfi və qeyri-elmi mahiyyət daşıyır ki, deyilən fikirlərin dastanların dilinə - fakt materialına əsasən söylənildiyinə inanmaq olmur. Əsərin ilk və sonrakı fəsillərində dönə-dönə iki fikir: 1) Azərbaycan xalqı və dilinin X-XI əsrlərdə "yenicə təşəkkül tapdığı" və 2) dastanların Azərbaycan dilinin bu "ilk təşəkkül dövründə yaranmış olduğu" irəli sürülür (*21*, s. 6-7, 23, 35,..).

Hər iki fikir elmi əsasdan məhrumdur. Çünki "Dədə Qorqud kitabı"nın zəngin dili və üslubu bu fikrin tam əksini söyləyir, yəni xalqın, onun dilinin "ilk təşəkkül tapdığı dövrdə" onun türk dilində bu cür yetkin sənət abidəsi ola bilməzdi... Axı, hər bir ədəbiyyat, ədəbi abidə onun sahibi olan xalqdan çox sonra yaranır, belə zəngin şəklə düşür!..

Görək məsələyə ədəbiyyatçılarımız necə baxırlar?

Üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"ndə miladdan əvvəlki IV-II əsrlər nəzərdə tutularaq deyilir: "Azərbaycan xalqının təşəkkülü də, demək olar ki, elə bu əsrlərdən özünə əlverişli şərait tapmış, çox uzaq keçmişlərdən başlayaraq gələn formalaşma prosesi bu yeni siyasi-ictimai zəmində daha böyük bir sürət kəsb etmişdi" (*2*, s.7). "Yeni eranın başlanğıcından VII əsrə qədər Azərbaycan mədəniyyəti müxtəlif inkişaf dövrləri keçirmişdir. Hələ Sasanilər dövründə Azərbaycan xalqının şimal və cənub düşmənlərinə qarşı mübarizə illərində ölkəni müdafiə məqsədilə tikilən qalalar, çəkilən sədlər burada memarlıq işini qüvvətləndirmişdi" (*2*, s.37).

Burada da fikir dumanlıdır, "xalq", "xalqın təşəkkülü" anlayışlarına aydın mövqedən yanaşılmır. Xalqın tarixi təkcə torpağın tarixi deyildir, torpaq, ərazi xalqın təşəkkülü tarixində ancaq bir amil kimi iştirak edir...

Tarixçilər məsələni daha dumanlı və müəmmalı şəkildə qoyurlar.

Üçcildlik "Azərbaycan tarixi"ndə deyilir: VIII əsrdə "Azərbaycanda yadelli zülmkarlara qarşı xalq hərəkatının yeni dalqası qalxırdı" (*1*, s.132). Bu xalq hansı xalq və zülmkarlar kimlər idi? VIII-X əsrlərdə bu xalqın klassik musiqisi vardı, "müsəlman aləminin musiqisi Azərbaycan xalqının musiqi mədəniyyətinə təsir göstərirdi... Azərbaycanın klassik muğamları ərəb motivləri ilə zənginləşirdi" (*1*, s.143). XI-XII əsrlərdə "Azərbaycan mədəniyyətinin yüksəlişi xalqın zəngin keçmişinə əsaslanırdı" (*1*, s.143) və s.

Burada da xalq anlayışı, xalqın "klassik musiqiyə", "zəngin keçmişə" malik olması fikirləri elmi cəhətdən əsaslandırılmır, havadan asılı qalır. Bir az sonra deyilir ki, XI-XII əsrlərdən əvvəl nə xalq, nə də onun dili vardı; Azərbaycan xalqı və dili gəlmədir... Bəs onun "klassik muğamları", "zəngin keçmişi" necə ola bilərdi? Bunlar damı "gəlmədir"?

"Azərbaycan tarixi" kitabında deyilir: "Türk dilində danışan tayfaların kütləvi hücumlarından, xüsusən XI-XII əsrlərdən sonra başqa bir vəziyyət yarandı. Bu vaxt türk dili yerli dilləri əsaslı surətdə sıxışdırırdı... XIII əsrdə türk dilində danışan köçəri tayfaların buraya gələn güclü dalğası azəri, aran və başqa dillərin sıxışdırılması və Azərbaycan dilinin (?) tamamilə qələbə çalması üçün şərait yaratdı" (*1*, s.188); "Beləliklə, bir çox

başqa xalqın tarixində olmuş hadisə - yerli əhalinin dilinin gəlmələrin dili ilə əvəz olunması Azərbaycanda da baş vermişdi" (*1*, s.188).

Ardınca, fikrin "təsdiqi" üçün belə bir müqayisə də verilir: "Bir çox müasir Şərq xalqları öz əcdadlarının danışdıqları dildə danışmırlar. Orta Asiyada xarəzmlilər, soqdiyalılar, baktriyalılar və parfiyalıların İran dilləri türk dillərilə əvəz olunduğu kimi, Azərbaycanda da yerli dilləri Azərbaycan dili əvəz etmişdi..." (*1*, s.189).

Müəlliflərin siyasi mövqeyi aydındır: onlar açıq-aşkar "təsdiqə" çalışırlar ki, müasir azərbaycanlılar "öz əcdadlarının dilində danışmır", türk dili onların öz ana dili deyil, gəlmə dildir, sonradan mənimsənilmə dildir.

Burada hələlik digər mənbələrə diqqət edək. Fars mənbələrində "Avesta"dan danışılarkən, Turan hökmdarı Alp Ər Tonqa, onun xidmətləri belə təqdim edilir:

"O öz hökmranlıq qalalarını, istilaçılıq qəsrlərini ucaltdı; Dağlar arasında Bakuiri tikdirdi; həmin o dağlar ki, ətrafında Yim heç vaxt belə çox, saysız-hesabsız kəndlər və şəhərlər saldıra bilməmişdir" (*172a*, s.207) - Vivaxvantın oğlu Yim qədim "qızıl dövrü"nün əfsanəvi Şumer - türk qəhrəmanı idi.

"Çiçəklənən səfalı torpaq Aryan Veçə yadların əlinə keçdi. Lakin onların başçısı bu torpaqlara ancaq yamanlıq gətirmədi və çoxlu xeyirxah işlər gördü. O, yeddi kanal çəkdirdi, dənizdən uzaqda dayanan gəmilərin şəhərə yan alması üçün sahildə kəndlər saldırdı. *Kansava* (orta farsca *Kanju, Keansu*, sonralarda ənənəvi olaraq *Kansay*) gölündən şor suları köçəri ,sakların torpaqlarından uzaqlara apartdırdı. Haçansa, çox qədim zamanlarda bu göl yer üzünün digər kiçik dənizlərindən ən təmizi və ən faydalısı idi. Onun sahillərində ilan, qurbağa və başqa həşərat olmazdı. Çimməyə şəffaf suyu vardı. Sonra su şorlaşdı və ora yaxın getmək olmadı. Çox üfunətli və duzlu, bərk isti küləkli oldu. Franqrasyan Kansava gölünün sucuqlarını yox etdirdi. Odur ki, ilahi göl yenidən insanlar üçün, dəvələr üçün, öküzlər üçün, ulaqlar üçün faydalı oldu, həm böyüklərə, həm də kiçiklərə yerləşmək, oturub-durmaq üçün gölün sahilləri yararlı oldu" (*172a*, s.207).

Mənbələrdə, tədqiqatlarda Alp Ər Tonqanın soy kökünün sak olduğu göstərilir, fars qaynaqları da açıqca deyir, etiraf edir ki: *"Kansava gölündən şor suları köçəri sakların torpaqlarından uzaqlara apartdırdı"*. Saklar türk tayfası, güclü türk qolu idi və bu torpaqların əzəli sakinləri idilər. Alp Ər Tonqa da sak idi, *quruculuq işlərini* öz doğma elində-yurdunda aparırdı. Azərbaycan-türk xalqının paytaxt şəhəri Bakının əsası m.ö. VII əsrdə Turan imperatoru Alp Ər Tonqa tərəfindən qoyulmuşdu; Qala, Türkan və b. kəndlərin tarixi də o vaxtdan başlanır. Hansı ağıla, hansı məntiqə sığır ki, bu xalq bu torpağa XI-XII əsrlərdə gəlib?!

Ağlın məntiqi var. Elmdə kin-küdurət, qərəzlə deyilən söz özünü doğrulda bilməz...

Yenə öz alimlərimizə qayıdaq.

Bu məsələdə akad. Ziya Bünyadovun fikirləri daha ziddiyyətlidir. O yazır: "Qədim Azərbaycanda türklər barədə söhbət açmaq elmə hörmətsizlik və geniş oxucu kütləsini ələ salmaq deməkdir".

Ziya Bünyadov həm də yazır: "Azərbaycan əhalisinin türkləşməsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının müəyyənləşdirilməsi çox çətin və indiyədək həll edilməmiş bir məsələ olaraq qalır. Bir sıra tədqiqatçılar kimi, türkləşmənin XI-XII əsrlərdən baş verdiyi fikrini qəbul etmək səhv olardı. Azərbaycan ərazisindəki türkləri hər hansı gəlmə, yabançı bir ünsür saymaq da doğru deyildir; **zira böyük və yığcam yerli türk qəbilələrinin törəməsi məsələsinə hazırda az əhəmiyyət verilir"** (*133*, s.179).

Burada alim bir qədər özünə gəlir. Bu öz-özünü inkar haradandır? Hər iki fikir bir alimin qələmindən çıxıb. Anlaşılmır ki, niyə belədir?

Ziya Bünyadov, *"prosesin başlanğıcının müəyyənləşdirilməsi"* məsələsini qoyur. Bu məsələ həqiqətən *çox çətin və indiyədək həllini tapmamış* məsələdir.

Bizcə, bu "çox çətin" olan işə elə buradan da başlamaq lazımdır.

I. BAŞLANĞIC

QƏDİM MİFİK TƏSƏVVÜRLƏRDƏ İNSANIN DOĞULUŞU

"Dinə əsaslanmayan elmə inanmaq mümkün deyil"
(A.Eynşteyn)

Azərbaycan xalqını, onun dilini, mədəniyyətini formalaşdıran, ədəbi-mədəni səviyyəyə ucaldan çox qədim və zəngin qaynaqlar, onun davamlı inkişaf yolu var.

Söhbətə qədim mifik qaynaqlardan başlayaq, ilk çıxış nöqtəsinə diqqət edək, görək həqiqət nə yerdədir, qaynaqlarda məsələyə necə yanaşılır, tarix, tarixin yaddaşı bu barədə nə deyir?

İnsanın doğuluşu, qövm, tayfa, xalq, millət halını alması bir-birilə bağlı bəşəri anlayışdır və çox uzun prosesdir.

Məsələnin əsas iki başlanğıc nöqtəsi diqqəti cəlb edir.

1). Bəşər övladının doğuluşunda ilk başlanğıc

Zəngin Şumer-Babil mədəniyyəti bəşər sivilizasiyasının, hələlik ilk mənbəyi, çıxış nöqtəsidir. Buna görə, dünyanın görkəmli alimləri, şumerşünas və digər tədqiqatçıları bu həqiqətdən yan keçə bilmir, öz sözünü deyir, fikir və rəylərini söyləyirlər. Bu mənada "Şumer mifləri" və "Bibliya hekayələri" paraleli, onları biri-birinə bağlayan tellər və buna alimlərin münasibəti diqqəti cəlb edir.

Çox qədim zamanlardan insanları "Kainatın və insanın yaranması" məsələsi məşğul etmiş, Şumer əcdadlarımız bu barədə düşünmüş, öz ilkin mifik təsəvvürlərini yaratmışlar. Bu məsələdə ilk söz, ilk mifik anlayış, məzmun qədim şumerlərdə meydana gəlmiş, sonra digər xalqlara keçmiş, özünü rəvayətlər şəklində göstərmişdir.

"Bibliya"da "kainatın və insanın yaranması" kimi ciddi məsələdə əksini tapan bir sıra mühüm müddəalar, ilahi-dini məzmun-rəvayət və söhbətlər məhz Şumer qaynaqlarından gəlir. Açıq-aşkar görünür ki, bəzi redaktələr, artırıb-əskiltmələr, ad dəyişiklikləri və s. nəzərə alınmaqla, ilk mənbə, qaynaq eynidir, Şumer mifləridir.

Şumer miflərində deyilir: "Başlanğıcda kainatın bütün varlığı böyük Okeanın dolu suyundan ibarət olmuş"dur (*235 a,* s. 23).

"Bibliya" hekayələrində deyilir: "Əvvəlcə... Yer biçimsiz halda, adamsız və boş imiş və əbədi qaranlığa dalıbmış, hər tərəf ancaq su ilə örtülübmüş" (*198a,* s.21).

Bu, kainatın əvvəli barədə eyni təsəvvür, eyni fikirdir. Əvvəl Şumer mifində deyilib, yaranıb, sonra "Bibliya"ya və başqa dini kitablara keçib.

Maraqlıdır, türk və bir sıra digər xalqların "Yaradılış dastanları" da kainatın və insanın yaranması haqqındakı bu fikir, bu düşüncə, bu modellə başlanır.

Türk "Yaradılış dastanı: "Hər şeydən öncə və sadəcə su vardı. Yer, göy, ay və günəş yox idi" (*305a,* s.16).

Misir "Yaradılış dastanı: "Hələ heç bir şey yaradılmamışkən böyük və sonsuz bir dəniz vardı..." (*305a,* s.28).

Yunan "Yaradılış dastanı: "Sonsuz, ölçüsüz bir boşlüq halında dənizə bənzər qarışıqlıqda, dənizə bənzər qaranlıqda bir xaos vardı" (*305a,* s.31).

Alman "Yaradılış dastanı: "Hələ heç bir şey yaradılmamışdı. Kainat uçuruma bənzəyən böyük bir boşluq halındaykən, bu boşluğun quzey tərəfində tutqunluq və qaranlıq ölkə yarandı..." (*305a,* s.34) və b.

Bütün bu fikir və düşüncələrin bu dərəcədə bir-birinə uyğun gəlməsi təsadüfi deyildir. Məzmun vahid bir qaynaqdan gəlir. Şumer miflərinin çox qədimliyini və "Şumerin tarixin başlanğıcı" olduğunu nəzərə alsaq, bu ilk təsəvvür, bu ilk düşüncə, bu model mifoloji qurum şəklində oradan dünyaya yayılıb; "Yaradılış dastanları" mayasını buradan alıb.

"Bibliya" da bu fikri haradan almış, haradan götürmüş olur-olsun, ilkin qaynaq, başlanğıc Şumer mifləridir.

Məsələ öz-özlüyündə ciddi araşdırmaya möhtacdır...

"Şumer mifləri" və "Bibliya hekayələri" söhbətimizə qayıdaq.

Çox sonrakı dövrlərin dini kitabı "Bibliya"da ilk insan – ər-arvad olan Adəm - ata və Həvva anadan danışılır, onlar barədə maraqlı hekayələr söylənilir. Əslində isə bu məzmunun, bu fikirlərin tarixi daha qədimdir. Tarixini dəqiq müəyyən etmək çətin olsa da, Şumer miflərində bu barədə geniş məlumat var. Bəşəriyyətin ən qədim eposu sayılan "Bilqamıs"da da bu model var. Tarixi də dəqiq məlumdur: m.ö. IV minillik. Deməli, bu məzmun "Bilqamıs"-dan da çox əvvəllər mövcud imiş ki, ənənəvi olaraq şifahi şəkildə yaddaşlarda yaşayıb, gəlib dastana da düşüb, oradan da "Bibliya"-ya keçib, dünya modelinə çevrilib.

Şumer miflərində ilk tanrı-insanlar **An** və **Ki** cütü ər-arvaddır. An və Ki Göy və Yer timsalında təsəvvür olunur, bəşəriyyətin ilk ata və anası, bütün canlı aləmin səbəbkarı, yaradıcılarıdır. *Adəm* ata və *Həvva* ana da buradandır.

Bəşəriyyət - insanlıq məhz bu ulu ata və anadan başlanır. Bu ata və ananın, yəni Göy və Yerin məhəbbətindən, ata Göylərin *(od-günəş, hava-külək, yağış-su)* və ana torpağın qovuşmasından yaranıb. Ümumən canlı varlıq (heyvanat və nəbatat) da bu məhəbbətdən ayrı mövcud deyildir...

Şumer miflərində deyilir: "*An* və *Kinin* nigahından Enlil və Enki tanrıları doğuldu.... Enlilin baş köməkçisi qardaşı Enki oldu... Enlil torpağı idarə etdi, becərdi, qardaşı Enki isə dağları, ormanları, çayları və dənizləri öz yoluna qoydu" (*235a*, s.23).


"Bibliya" hekayələrində deyilir: "Adəm və Həvvanın iki oğlu oldu: böyüyü Qabil, kiçiyi Habil. Habil qoyun otardı, Qabil torpaq becərdi" (*198a,* s.21,22).

Qabil və Habil qardaşları Enlil və Enki qardaşları məzmunudur, model birdir, tərcümə olunub, əxs edilib.

Şumer miflərində deyilir: "Ulu baba Göy və ana Yer bir-birindən əbədi aralandı. Yerin sahibi Enlil oldu. O, yerin tən orta dairəsində Nippur şəhərini saldı və orada tanrı ilahələr yerləşdirildi" (*235a,* s.35).

"Bibliya" hekayələrində deyilir: "Adəm və Həvvanın nəsli tədricən yerə yerləşdi" (*198a,* s.32).

Bu paralellərin nə demək olduğu aydındır: ilk qaynaq, çıxış nöqtəsi Şumer miflərıdir. Model Şumerdən götürülüb. Bunu görməmək mümkün deyil. Alimlər buna inanır, onu obyektiv şəkildə şərh edir, məlum həqiqəti dönə-dönə təsdiqləyir. Bu həqiqətlərdən biri "Bibliya"da mühüm hadisə kimi verilən "Nuhun tufanı" və onun şumerlərlə bağlı olması məsələsidir. Bu münasibətlə Z.Kosidovski maraqlı bir hadisəni xatırladır. İngilis alimi Corc Smit Nineviyadan göndərilmiş və Britaniya muzeyində saxlanılan Şumer yazı lövhələrini araşdırarkən təəccüb qarşısında qalır. "Lövhələri oxuduqda öz gözünə inanmır. Belə ki, orada tufan barədə söhbətə dair fraqmentlər tapır. O dərhal onları çap etdirir. Riyakar ingilis viktorianları tərəfindən isə ona qarşı etiraz dalğası qalxır. Bu mənada ki, "Bibliya" müqəddəsdir, ilahi kitabdır. Onlar bu fikirlə razılaşa bilmirlər ki, Nuhun tarixi - mifi şumerlərdən götürülüb. Onların rəyincə, o şey ki, onu Smit oxuyub, bu daha çox təsadüfi oxşarlığın təfsilatı ola bilər" (*198a,* s.32-33). Lakin Smit təslim olmur. Babilistana yola düşür və onun fikrini tamamilə təsdiq edən məlum hekayənin çatışmayan hissələrini də əldə edir.



Aşurbanipalın kitabxanası.
1885-ci ildə C.Smitin aydınlaşdırdığı lövhə.

Göründüyü kimi, "Bibliya"nın əsas məzmunu, dini məsələlərin qoyuluşu və şərhində "Şumer mədəniyyəti varisliyi" mühüm rol oynamışdır. Burada ingilis viktorianlarının "etiraz dalğası" da təbii görünür. Nuh (Noy) tufan zamanı böyük fədakarlıqlar göstərib. Bu Tanrı - insanın adı "Bilqamıs" dastanında **Ubar Tutunun oğlu Dədə Utnapişti** adı ilə xatırlanır.

"Bilqamıs"da:

"Dəhşətli leysan-tufan gözlənildiyindən xeyir tanrısı Eyanın göstərişilə Ubar Tutunun oğlu var-dövlətindən, mal-mülkündən, ev-eşiyindən əl çəkib gəmi düzəltdi, ən vacib olan şeyləri, külfətini, nəslini gəmiyə yığdı, xilas etdi. Tanrılar isə Göyə qalxıb Anunun səmasına keçdilər".

“Altı gün yeddi gecə dəli küləklər əsdi,
Tufanlar yer üzünü daşqınlara bürüdü.
Bu cürə qovğa ilə gəlib yeddi gün keçdi,
Daşqın tamam dayandı, qasırğalar sovuşdu.
Mən nəfəsliyi açdım, üzümə işıq düşdü.
Baxdım sakit dənizə, gördüm qəzəbi sönüb
Bütün bəşəriyyətsə tamam torpağa dönüb...”

(XI 1, 127-130 a).

“Bibliya”da:

“Tanrının göstərişilə Nuh/Noy gəmi düzəltdi və onun bütün çat və yırtıqlarını çöldən və içəridən qatranlatdı... Nuh heyvanları və hər növ yeyinti ilə birgə ailəsini gəmiyə yığdı. Yeddi gündən sonra yağış tökdü, qırx gün, qırx gecə davam etdi... Bütün canlılar - insanlar, heyvanlar, quşlar məhv oldu...” (*198a,* s.22).

Hər iki kitabədə hətta bəzi detallar da bir-birinə uyğun gəlir. Məs.:

“Bilqamıs”da:

Gəmidən söhbət açılaraq deyilir:

“Sahəsi bir hektarın üçdə biri olardı.
Yanların hündürlüyü düz iyirmi dirsək,
Üst yanların hərəsi, ayrılıqdaca tək-tək
Olardı nə az, nə çox, düz yüz iyirmi dirsək...”

(XI 1, 50).

“Bibliya”da:

“Gəminin uzunluğu üç yüz, eni əlli dirsək, hündürlüyü otuz dirsək idi...” (*198a,* s.22).

“Bilqamıs”da:

“Gəmini “elin ərənləri”, “güclülər”, “uşaqlar” iməciliklə qurur; düzəldir” (XI 1., 50).

“Bibliya”da:

“Gəmini Nuhun oğlanları” (üç oğlu) qurur, düzəldir” (*198a,* s.23).

“Bilqamıs”da:

"Tufan yatıb yağış kəsiləndən sonra Ubar Tutunun oğlu selin-suyun nə qədər qalxdığını, su basmayan torpaq sahəsi olub-olmadığını yoxlamaq üçün gəmidən növbə ilə göyə göyərçin, qaranquş və quzğun buraxır ki, görək qonmağa yer varmı?"

"Yeddinci gün gələndə
Mən göyərçin çıxarıb onu buraxdım göyə,
Göyərçin uçdu-uçdu, gedib döndü geriyə,
Qonmağa yer tapmadı, bir də geri qayıtdı.
Qaranquşu çıxarıb, onu buraxdım göyə,
Qaranquş uçdu-uçdu, gedib döndü geriyə,
Qonmağa yer tapmadı, bir də geri qayıtdı.
Mən quzğunu çıxarıb, onu buraxdım göyə,
Quzğun yol gedib tapdı suyu çəkilmiş yeri,
Orda yedi, qığladı, daha dönmədi geri".
(XI 1., 140).

"Bibliya"da:

Eynilə bu səhnə təkrar olunur, "qonmağa yer tapacaqmı?" - deyə, Nuh göyə qarğa və göyərçin buraxır: "Nuh qırx gün də gözlədi, sonra pəncərədən qarğa buraxdı ki, bilsin görək o, quru yer tapacaqmı, amma quş dincəlməyə yer tapmayıb tezliklə qayıtdı. Yeddi gündən sonra o yenidən onu buraxdı və onda axşam üstü dimdiyində zeytun budağı ilə qayıtdı. Bu o demək idi ki, torpaqda, hardasa artıq quru açılır. Nuh yenə yeddi gün gözlədi və üçüncü dəfə göyərçini buraxdı, bu dəfə o qayıtmadı, demək, artıq torpaq quruyub" (*198a,* s.22).

"Bilqamıs"da:

"Ubar Tutunun oğlu tanrılara minnətdarlıq hissilə qurban kəsir, göylərə tərif deyir":

"Mən çıxıb dörd tərəfin dördünə qurban verdim,
Qalxıb dağın başına göylərə tərif dedim"
(XI 1., 140).

"Bibliya"da:

"Nuh gəmidən çölə çıxdı və səcdəgah düzəltdi, xilas olduğuna görə, Tanrısına qurban kəsdi" (*198a,* s.23). Və s.

Bu müqayisələrin sayını artırmaq olar. Lakin deyilənlər də hər şeyi təsdiq edir. Buna görə S.H.Kramer yazır: "Bilqamıs"da tufan barədə qədim yəhudi müəlliflərinin yaratdığı hekayə orijinal rəvayət deyildir. Corc Smitin "Bilqamıs" eposunun XI lövhəsini dəqiqləşdirdiyi də bizə məlumdur. Bununla yanaşı, tufan barədə Babil mifinin özü də əslində ilk Şumer qaynağından götürülmədir" (*199a,* s.175).

Şumer mədəniyyəti haqqında alman alimi F.Deliçin bu fikri də maraqlıdır: "Babilistan ərazisindəki qazıntılar bizə Assuriya sivilizasiyasının IV minilliyə, yəni o vaxta qədər bu ölkənin, gözlənilməyən, ağıla belə sığmayan yetgin incəsənəti və mədəniyyətini - Assuriya sivilizasiyasının əsaslarını aşkar etdi. Biz başa düşdük ki, tarixin dərinliyi hind-german və semit xalqlarında deyil, şumerlərdə - böyük Babil mədəniyyətinin yaradıcılarındadır"; "Şumer ali kahininin Berlin muzeyində saxlanılan, yaxşı qalmış başının təsvirini bəlkə də bəşər nəslinin ilk çağının nəcib nümayəndəsi heçab etmək olar" (*158b,* s.9-10).

Xalqımızın yaddaşında hələ çox qədim zamanlardan "Nuh peyğəmbər", "Nuhun tufanı", "Nuhun gəmisi" anlayışları var. İndinin özündə Naxçıvan ərazisində "Gəmi qaya" adlı bir dağ yad edilir. Bunlar çox söz deyir və bu məzmunun, bu təsəvvürün bizim üçün doğma olduğuna, məhz Şumer əcdadlarımızdan keçib gəldiyinə şübhə yeri qoymur...

Ulularımız insanın yaranması haqqındakı səmavi-ilahi hissi, hələ, təxminən 40-50 min il bundan əvvəl yaddaşlarına nəqş edib mifləşdiriblər, sonralar isə yenə 6 min il bundan əvvəl mixi yazılara həkk edib insanlığa töhfə qoyub gediblər. Bu qədim, mifik düşüncə elm tarixində "Kainatın və insanın yaranması haqqında" adı ilə məşhurdur. Şumer kitabəsidir, mətn ingilis dilinə, ingilis dilindən ruscaya tərcümə olunub, gəlib bizə çatıbdır (*253a,* s.24-39).

Burada Səma (göylər) An (ata), Yer Ki (ana) adı ilə təqdim olunur; istəkli ər-arvad, ailə şəklində verilir. Zaman keçdikcə, ana Yer (Ki) ata Səmadan (An-dan) ayrılmış, aşağı enmişdir. Lakin onların sevgisi, məhəbbəti davam etmiş, bu ər-arvad sevgisinin ilahi əlaməti olaraq Səma Yerə hər vaxt öz qüvvəsini (şüalarını, istisini), suyunu (yağışını, qarını), havasını (yelini, küləyini) göndərmiş, onu öz qayğıları, sevgisi, məhəbbətilə əhatə etmişdir; bu qayğı olmasa, bu sevgi, məhəbbət olmasa, bu əlamətlərdən birçəsi belə gəlməsə, kəsilsə, həyat sönər, məhv olar. Bu qayğı, bu sevgi, bu məhəbbət ana Yeri ağuşuna almasa, Yer hamilə olmaz, doğa, törəyə bilməz.

Bəşəriyyətin ana teli olan ailə də bu məzmundan mayalanıb. Buna görə də qədim Şumer-türk fəlsəfi təfəkküründə Tanrı anlayışı Səma ilə Yerin məhəbbət rəmzidir. Əslində, ailə buradan mənalanıb, bu vahidlik əsasında, bu fəlsəfi-dini qaynaqda formalaşıb, bəşəriyyətə Tanrı töhfəsi kimi bəxş edilib.

Hazırda bütün dinlərin əsasında duran Adəm peyğəmbər və Həvva ana məzmunu da buradan - həmin ata Göylə (Səma ilə) ana Yerin məhəbbət rəmzini ehtiva edir. Ata Göylə ana Yer ailəsindən ilk Enlil və Enki qardaşları doğuldu. Həmin məzmundan da götürülərək "ilk" Habil və Qabil qardaşları düşünüldü, yaradıldı... Bunlar bir-birilə əlaqəli ilahi varlıqlardır.

Qədim ulu babalarımız hələ eramızdan çox-çox əvvəlki dövrlərdən Göylərə üz tutmuş, göylər qızı Günəşə sitayiş etmiş, Göylərə (Günəş, hava, yağış) və Yerə (torpaq, su) Tanrı demiş, ilahi qüvvə kimi ona tapınmışlar. Bütün kainatın yaranışı, insan oğlunun doğuluşunu da bu Göylə Yerin qovuşmasının - məhəbbətinin nəticəsi kimi düşünmüş və izah etmişlər...

Budur, həmin ilahi fikir "Orxon-Yenisey" - Gültikin kitabələrində öz əksini belə tapmışdır:

"Üzə gög Tənri asra yağız Yir qılıntıkda ekin ara kisi oğlı qılınmış -

Üstdə Göy Tanrı aşağıda Yerlə qovuşduqda, ikisinin arasından insan oğlu doğulmuş" (*210,* s.74).

Burada diqqəti XI əsrin böyük türkoloqu Mahmud Kaşğarlının fikrinə yönəldək. O yazırdı: "Ulu və qüdrətli Tanrı deyir: "Həqiqətən mənim türk adlandırdığım bir ordum var. Onları gündoğan (ölkələrdə) yerləşdirdim. Hər hansı bir qövmə qəzəbim tutduqda onları ona qarşı saldım"; "Tanrının Dövlət günəşini türk bürclərində doğdurmuş olduğunu gördüm. Tanrı onlara türk adını verdi və onları yer üzünə elbəy qıldı. Zəmanəmizin xalqlarını onlardan çıxartdı" (*1,* 294).

Bu fikirlər "Kainatın və insanın yaranması haqqında" Şumer-Babil miflərində deyilən məzmuna, habelə "Orxon-Yenisey" kitabələrində əks olunan fikrə uyğundur, oradan gəlir. Maraqlıdır, XIX əsrdə Şumerin kəşfilə bağlı aşkar olan bu fikri XI əsrdə Mahmud Kaşğarlı haradan ala və söyləyə bilərdi? Türk ellərini qarış-qarış gəzib "Divan" yaradan alim xalqdan, yaddaşlardan həmin fikrin izlərini toplaya, onu Tanrının adı ilə bağlaya, ifadə edə bilərdi. Çünki, əslində, söhbət Səma ilə Yerin qovuşması - məhəbbətindən gedir. Çox sonralar, XX əsrdə yaranan N.Y.Marrın "Ulu dil" nəzəriyyəsi də, yəqin buradan doğmuşdu...

Bu məsələdə "Orxon-Yenisey" kitabələrinin tədqiqatçısı P.M.Melioranskinin fikirləri də diqqəti cəlb edir: "VIII əsr Orxon türkləri, heç şübhəsiz, Şamana tapınıblar və "göyləri" ("Tanrını") ən böyük allah sayıblar... Onlarda Tanrı sözü həm Göy, həm də "allah" anlaşılırdı" (*216,* s.266).

P.M.Melioranski "Tanrı" və onunla bağlı məzmunu belə təqdim edir: "Kitabələrdə "dünyanın yaranması" haqqında, görün necə də yığcam və dolğun söhbət açılır: "yuxarıda mavi göy, aşağıda tutqun (və ya "coşğun") torpaq əmələ gəldi. Onların isə hər ikisinin qovuşmasından insan oğlu yarandı"; hətta əgər "yarandı" sözü "yaradıldı" kimi tərcümə edilsə belə, bu, qrammatik cəhətdən də mümkündür; hər halda, dünyanı "yaradanın" adı belə çəkilmir" (*216,* s.266).

"Tanrı" sözü ilə bağlı P.M.Melioranskinin bir fikrinə də diqqət edək: "Türklər üçün, şəksiz, torpaq ilahi qüvvə olub (əslində, "yer-sub" torpaq və su anlayışıdır), lakin görünür, bu ilahi qüvvə "Tanrı" ilə müqayisədə az əhəmiyyət kəsb edirmiş..." (*216,* s.266).

Alimin bu qənaətini "Dədə Qorqud"dakı bir sıra anlar, hadisələr də təsdiq etməkdədir.

Məzmun və məna tutumunca "Dədə Qorqud"da eyniləşdirilən Tanrı, Allah sözləri arasındakı zahiri yaxınlıq bu sözləri eyni anlayış kimi götürməyə əsas vermir.

Beləliklə, hər iki qaynaq - **başlanğıc,** əslində, bir nöqtəni vurur, müasir elmin bilmək, həll etmək istədiyi çox mühüm, ciddi bir problemin üzərinə işıq salır. Qədim "Kainatın və insanın yaranması", Nuhun insanlığı xilası və "Bibliya"nı da bura əlavə etsək, hər üç nöqtə - fikir, mif, fərziyyə - nə deyirsinizsə deyin, bizi düşündürür, belə bir qənaətə gətirir ki, görünür, qədim əcdadlarımız bizdən ağıllı və tədbirli olublar, insanlığın soy kökünü, mənşəyini *meymuna* bağlamayıblar. Bizim üçün həm də maraqlıdır ki, *bu ilahi fikirlərin* söylənildiyi, yazıya alındığı zamanlar arasında çox uzun vaxt məsafələri var: *Şumer miflərinin tarixi, təxminən 40-50 min il göstərilir; Dünya daşqını və Nuhun insanlığı xilasından 12-13 min il keçir.* "Bilqamıs" kitabı da bu mənbələrdən sonra gəlir, amma orada tarixi ardıcıllığı gözləmək üçün uzaq keçmişə səyahət edilir, Ubap Tutunun oğlu Dədə Utnapiştidən, yəni Nuh peyğəmbərdən söhbət açılır. "Bibliya"nın da bundan sonra yarandığı şəkk-şübhə doğurmur, bütün bunlar – mötəbər qaynaqlar, faktlar, söylənilən ilahi fikirlər bir-birini tamamlayır: deyilənlərin həqiqət olduğuna inam yaradır: **bəşər övladı, insan oğlu bir kökdən, bir ailədən doğulub, törəyib, dünyaya yayılıb;** ilk başlanğıc məkanı da, sonuncu da Şumer bölgəsi olub, Azərbaycan isə onun bir guşəsi; buna ulu Tanrının göndərdiyi Nuhun gəmisinin Nühcıxan / Naxçıvanda mövcud olan nişanəsi – Gəmiqaya da şahidlik edir. Amerika alimi məşhur şumeroloq N.S.Kramerın "Tarix Şumerdən başlanır" əsəri də bütün bu fikirlərin təsdiqinə yönəldilib.

Klassik mifologiyada "qızıl əsri"ndən söhbət açılır, o, səadət əsri kimi təsvir edilir. Orada deyilir: "Lap çoxdan, çox əsrlər qabaq Yer üzərində sülh və həmrəylik hökmran idi... *Bütün insanlar bir dildə danışır və bir-birilə sakitlikdə yaşayırdı.* Qorxu və paxıllıq yox idi. Hər bir adam başqasının nüfuzuna və malına həsəd aparmazdı. Ulu Şumer ilahi qanunlar ölkəsi idi. İnsanlar rahatlıq və bolluqda yaşayır, nəslini artırır, hamılıqla ev və qalalar ucaldır, *vahid bir dildə danışır,* Enlilin başçılığı ilə öz hakimiyyətini şöhrətləndirirdilər" (*235a,* s. 181).

Burada nəzərləri *"bütün insanlar vahid bir dildə danışırdılar"* - fikrinə yönəltmək istərdik. Bu fikir mətndə bir daha təkrarlanır: "Hamılıqla ev və qalalar ucaldır, *vahid bir dildə danışırdılar*".

Tədqiqatlarda bu "Vahid dil" Şumer dili sayılır. 100 ildən artıq bir müddətdir ki, dünyanın məşhur alimləri - şumeroloqları, tarixçiləri (N.S.Kramer, Y.Lloyd, Q.Çayld, L.Bulli, Z.Kosidovski, Q.Vinkler, E.Reklü, M.Belitski, D.Reder, Ahmet Cavat, F.Deliç və b.) belə bir nəticəyə gəliblər ki, şumerlər müasir xalqların əcdadlarıdır, şumer dili prototürk dilidir.

Çox qədim zamanlardan insanları "Kainatın və insanın yaranması" məsələsi məşğul etmiş, Şumer əcdadlarımız bu barədə düşünmüş, öz ilkin mifik təsəvvürlərini yaratmışlar. Bu məsələdə "Şumer mifləri" və "Bibliya hekayələri" paraleli, onları bir-birinə bağlayan tellər və buna alimlərin münasibəti diqqəti cəlb edir.

Tarixi mənbələrdə - qaynaqlarda məsələnin doğru-dürüst həllinə işıq salan, inam yaradan faktlar, fikirlər az deyil. Daha bir mənbə: Əbilqazi Bahadır xan "Şəcərəyi-Tərakimə" əsərində yazır:

"Yerdən su çıxdı, göydən yağış yağdı. Yer üzündəki bütün canlı suya qərq oldu. Nuh peyğəmbər, üç oğlu və (düzgün) dinə iman gətirən səksən adamla gəmiyə mindi. Bir neçə aydan sonra Həqq-təalanın buyruğu ilə yer suyu özünə çəkdi. Mosul adlanan şəhərin yaxınlığında gəmi Cudi adlı dağa yan aldı.

Gəmidən çıxan üç gəlini sağaltdılar, qalan bütün adamlar öldülər. Ondan sonra Nuh peyğəmbər üç oğlundan hər birini müxtəlif ölkəyə göndərdi. Xam (Qam) adlı oğlunu o, Hindistan ölkəsinə göndərdi, Sam adlı oğlunu İran ölkəsinə göndərdi, Yafəs (Yafət) adlı oğlunu quzey qütbü tərəfə göndərdi. O hər üçünə dedi: "Adəm oğullarından sizin üçünüzdən başqa heç kim qalmadı. İndi siz üçünüz (bu) üç yurtda yerləşsin, haçan sizin çoxlu oğullarınız, uşaqlarınız olarsa, o yerləri (özünüzə) yurd edin və (orada) yaşayın". Və Yafəs atasının iradəsi ilə Cudi dağını tərk edərək, İtil və Yayıq sahillərinə getdi... Onun səkkiz oğlu vardı (onun) oğullarının adları bunlardır: Türk, Xəzər, Saklab, Rus, Minq, Çin, Kəməsi, Tarix. Yafəs ölərkən öz yerinə böyük oğlu Türkü qoydu. Digər oğullarına isə dedi: "Türkü özümüzə hökmdar bilib itaətindən çıxmayın!" (*22 b.*, s.49-50).

Bu fakt deyilənləri bir daha təsdiq edir.

Beləliklə, tarix bizə deyir, bizi ayıq salır ki, Nuhun gəmisi bəşəriyyətin daha yeni erasının başlanğıcıdır: Gəmiqaya abidəsi insanlığın çıxış nöqtəsinin, yeni yaradılışın real izidir. Ulu Tanrı Nuhun gəmisini sürüb-sürdürüb qədim Şumer-türk torpağı Azərbaycana gətirib, onun dilbər guşəsi olan bir sahədə qondurub, bura Cudi dağı adlanırmış, sonralar bu yer Nuhçıxan / Naxçıvan adı ilə məşhurlaşıb, əbədiləşib. İnsan adlı işıq dünyaya bu diyardan yayılıb, şəfəq saçıb...

Dünyanın bu əbədi işığına alqış!

2). Qədim Şumer və Azərbaycan dili bağlılığı

Amerikada yaşayan alim-jurnalist dostum Tariyel Vəli Nüvədilinin mənə göndərdiyi Şumer mətnlərinə diqqət edək, nəzərləri bunların dilinə - müasir dilimizin sözləri, qrammatik quruluşu, səs sisteminə yönəldək.

ORIENTALIA
1993

VOL. 62 NOVA SERIES FASC. 2

Die Hymnen des Išme-Dagan von Isin

Ais ISD F, 1(C). .: 181

13 a-[a] En-lil ki-ur Dur an-ki sha-ge -X-X-pa [d]a-za
14 abz[u] E-kur ki-aga-zu shu-mu-ran-du bara-mah-zu shu-mun-ur-i
15 esh-ca me-bi kal-kal-a-am shu-luh-ci mah-am
16 gaarza-bi ku-ku ga-a[m] ni ka-ge dib-ba-am
17 E-kur-ra sha-bi gala[m-k] ad-am ni nu-zu-am
18 Ish-me-Da-gan-e gish- ur-me-zi-be sih ha-rab-sa-sa-e
19 sa-gid-da-am
20 En-lil Is-me-Da-gan dumu-ki aga-ca n[a]m-lug[ao]-la-a-na bala bi hara-s-[u-u]d
21 gish-gi-gal-sa-gid-da-bi-im

***

2' hul-la zalag-ga mu-su-besh shud-zu mu-ra-ash
3' nam-gur-ra-zu shi-im-bal-e-ne zi-zu shi-im-e-ne(Glosse: i-ta-am-mu-u)
4' sa-gid-da-am
5' a-a En-lil Ish-me Da(-gan)-na nam-sipa-kalam-ma mu-ne-sum-ma ul-se he-ak-e
6' gish-gi-gal-sa-gid da-bi-im
7' en me-gal-zu me-a diri-ga ni-nam-zu gu-ul lu
8' diri-qa-zu an-qal-su-ra-qin shu-ti-ga nu-um-zu
9' sha-su-ud-a-ra ka-she-gal-la-zu ni-gi-na su-ga-am
10' du-ga du-ga du-g e-a-zu ni nu?-[kur?]-ru-dam
11' ni-si-sa-e ug'-zi-da uru-kili-ba har-ra[n]-be si ma-ra-ab-sa
12' ni-gi-na pa mu-ra-mul-mul-la-be gu ma-ar-ab-gur
13' ni-erim ni-a-z[i] ni-ha-lam-ma igi-zu-she nu-di-be

* * *

20' su endumu-ki-aga-sha-za-ra me-sha-mu-ni-ba
21' nam-En-lil-ki mu-ne-sum dumu-gishkin-ti-zu-um
22' ki-a ug mi-ni-dagal uru a-dam mas-kan mu-e-gar-gar
23' kala-ga si-ga nu-X-X-[d]e tesh-bi im-ta-a-bad
24' Nibru-ki-she gu-ba shudul bi-gar du us-asa bi-dab
25' Is-me-Da-gan dumu En-lil-la sag-keshda-ba mi-ni-ku
26' u[ru] ki ni-tuk-am ka-zu-she igi-ni im-shi-gal

Təxminən 6500 il bundan qabaq *Enlil İsmə Dagan* adlı şairin gil lövhələrə həkk olunmuş şumer dilində üç şeiri latın əlifbasında verilmişdir. Alimlərin fikrincə, bu, qəzəl formasıdır. Belə qəzəllər tarın və udun müşayiətilə oxunurmuş; elə şeirlərin birində də söhbət uddan, ud çalan sənətkardan gedir.

Qeyd edək ki, qədim Şumer mətnlərini oxuyan, tədqiq edən ilk tədqiqatçılar arasında türk olmayıb. Görünür, bu səbəbdən sözlər parçalanıb. Sözün bir hecası və ya səsi kökdən ayrılıb gah özündən əvvəlki, gah da sonrakı sözə qatılıb, qarışdırılıb. Oxunuş bu şəkildə də davam edib gəlib. Çətinlik də bundadır. Nəzərə alaq ki, mətnlərin əslində "o" səsi yoxdur, yerinə "u" işlənib; "ə" səsi yerinə "a", "e" yazılıb. Çətinlik həm də bundadır.

Oxucuların müşayiətilə mətnlərdəki sözlərin müasir dilimizlə səsləşməsinə, ayrı-ayrı kök sözlərə, onlara qoşulan qrammatik şəkilçilərə, fonetik dəyişikliklərə, habelə ifadə tərzlərinə diqqət edək.

Isimlər

(9) Ud - ud, qədim çalğı aləti. (20) *su* - su, (2') *lag* - lağ (etmək), lağa (qoymaq). (20) *agaca* - ağac+a // (20') agash - ağaş (canlı danışıqda). (20) *mesha* - meşə. (21') *dumu* - tum+u; (21') *nam* - nam, ad-san, şərəf, qeyrət. (22') *uru adam* - nəsilli, nəcabətli adam - uruq - turuq, törəmə, oğul-övlad. (13) *ur* - urvat, hörmət, ləyaqət. (22') *mas-kan* - məskən, yer, yataq. (14) *shum* - şum, şumlanmış yer. (8') *suraq, suraqın* - soraq, soraqın (almaq).

Fellər

(8', 9') qal - gəl(mək). (13) *an, an ki* - an(maq), an ki, anla ki. (13) dur - dur, dur(maq). (21) um - um(maq). (20') en - en(mək), su endimi? (21) *galsa* - gəlsə.

Feli bağlama(lar)

(16) *gedib* - ged+ib.

Saylar

(15) *bi*(r) - bir. (2') *besh* - beş. (10') *azuni* - ən azı (qeyri-müəyyən sayın arxaik şəkli).

Əvəzliklər

(7') *me* - mə(n). (7') *gani* - hanı (sual əvəzliyinin arxaik şəkli).

Bağlayıcılar

(13) ur dur an *ki* - hörmətli dur, anla ki. (25) *Enlille* - Enlil+lə // Enlil+ilə.

Sözdəyişdirici şəkilçilər

a) **şəxs sonluqları:** (15) *galam* - gəl+əm. (17) *gala(m)* - gəl+əm (gərək)

b) **hal şəkilçiləri:** (20) *dumu ki agaca* - tum+u ki, agac+a. (20') *su endumu ki agasha* - su endi+mi agaş+a

c) **şərt şəkilçiləri:** (21) *galsa* - gəl+sə. (18) *harabs̀a* - xarab+sa

ç) **sual şəkilçiləri:** (21') *umdumu* - umdu+mu? (20') *su endumu* - su endi+mi? (22') *maskanmu* - məskən+mi? Sual şəkilçilərilə işlənən bu sözlərin ikisində zaman şəkilçiləri də müşahidə olunur: um+*du,* en+*di.*

d) **inkar şəkilçisi:** (5') *munes umma* - etibar um+ma.

Eyni ifadə tərzi zaman və sual şəkilçisi ilə də işlənib: (21') *munes umdumu* - etibar um+du+mu? *su endumu* - su en+di+mi?

Şeirlərdə işlənən birləşmələr diqqətdən yayınmır:

(20) *ana-bala* - ana bala. (22') *uru adam* - insan oğlu, nəsilli-nəcabətli adam. (18) *gish urmezi* - xış (əkin) xurması (məhsulu)...

Qeyd edildiyi kimi, məşhur alimlər şumer dilinin iltisaqi dillər qrupuna aid olub, türk dillərinə uyğun gəldiyini təsdiqləyir. Elə təkcə bu şerlərdəki sözlər, bunlara qoşulan sözdüzəldici, sözdəyişdirici (şəxs, hal, şərt, zaman) şəkilçilər, habelə fikrin ifadə tərzləri alimlərin dediyi fikirləri bir daha təsdiq edir.

Təsəvvür edək ki, arada 6500 il zaman məsafəsi var, amma tellər, bağlar üzülməyib. Müasir dilimizin çox dərin kökləri üzə çıxır,

ayrı-ayrı sözlər, ifadə şəkilləri, şairin özünə poetik müraciətləri və s.-də ulu şumer dili ilə müasir Azərbaycan-türk və ümumən türk dilləri arasında əbədi tellər, bağlar olduğunu təsdiqləyir. Buna görədir ki, türk dilləri dünyanın ən mühafizəkar dillərindən sayılır.

Şairin özünə müraciətlə poetik düşüncələrinə diqqət edək. Burada ruhən və mənən bu günə yaxınlıq və doğmalıq var.

(13) *A (a) Enlil ki ur dur an ki...* = A(y) Enlil! Hörmətini saxla, anla ki...

(5') *A-a Enlil İshme Da (gan) nam sipa kal amma munes umma ulse həlak* = Ay Enlil İşmə Dağan! Gəl şərəfli ol, qanmaz yox, amma qayğı da umma, olsan həlak.

(20) *Enlil İsme Dağan dumu ki, agas n(a)mluq (ao)la ana-bala bu hara s(uu)d* = Enlil İsmə Dağan, tum körpə baladır, torpaq ona isti sud verən ana, həm də tum özünün körpə balasına - ağaca süd verən anadır.

Sonuncu (20) mətndə göz önünə daha qədim tarixi bir həqiqət gəlir. "Avesta"da şərh edilən həyat fəlsəfəsinin (torpağın ana, onun doğduğu, yaratdığı canlı aləmin bala rəmzi, balanın - ağacın və s. torpaqdan süd əmməsi, qida alması və s.) əsasları və bu fikirlərin həyatiliyi, həmahəngliyi təqdir olunur.

Şairin adı da diqqəti cəlb edir. Qədim şumer kitabələri, rəvayətləri, dini görüşlərində tez-tez xatırlanan, ilk doğuluş, ilk insan-tanrı Enlil və Enki qardaşlarından birinin adıdır, şairə verilib və ya anadan olanda bu ad ona qoyulub...

Fonetik xüsusiyyətlər

Bu gün də Azərbaycan-türk dilində, danışıq dilində s - ş (sh) və ş (sh) - c səsləri əvəzlənir, biri o birisinin yerinə keçir, bu həmin səslərin məxrəccə bir-birinə yaxınlığından irəli gəlir. Bu, iki sözdə müşahidə olunur:

(5) *İshme* - İşmə. (20) *İsme* - İsmə. Və (20) *agash* - ağaş; (20) *agac* - ağac.

Digər şumer mətnlərində "şumer" sözünün həm *şumer*, həm də *sumer* oxunması da türk dillərinin fonetik qanunauyğunluqları ilə bağlıdır, ş-s əvəzlənməsidir. Deməli, müasir türk dillərində hələ də öz izini saxlamış bu fonetik hadisənin tarixi çox-çox qədimdir, kökdən gəlir.

Həqiqət belədir. Biz inanır və yəqin edirik ki, şumerlər bəşər sivilizasiyasının ilk yaradıcılarıdır. Biz inanırıq və yəqinimizdir ki, şumerlər hər kəsdən qabaq türk xalqlarının tarixi hadisələrin zaman-zaman kökdən ayırdığı, parçaladığı ayrı-ayrı adlarla tarix səhnəsinə çıxartdığı azlar, iskitlər, saklar, massagetlər, kaspilər, xəzərlər və b.-ın əcdadları, ulu babalarıdır. Şumer dili prototürk dilidir. Buna görə də şumer mədəniyyətinə, ədəbiyyatına doğma - kök mədəniyyətimiz kimi yanaşırıq və onu öyrənirik.

II. MİLADDAN ÖNCƏKİ MİNİLLİKDƏ AZƏRBAYCAN XALQI VƏ DİLİ

"Azərbaycan xalqı" adlanan xalqın və onun dilinin soy kökünü, mənşəyini ümumtürk kökündən ayrı təsəvvür və tədqiq etmək mümkün deyil...

50 ildən artıqdır ki, Akademiyanın müvafiq İnstitutlarında Azərbaycan dili tarixinin, habelə Azərbaycan ədəbiyyatı tarixinin, Azərbaycan tarixinin "dövrləşdirilməsi" yığıncaqlarına, elmi şuralara qulaq asıram. Bu yığıncaq və elmi şuraların sayı-hesabı olmayıb. Bunlar iz azdırmaq, baş qarışdırmaq, nəzərləri zəruri, vacib problemlərdən yayındırmaq olub. Bu "dövrləşdirmə" problemi hələ də həll olunmamış qalır. Tarixi nə qədər dövrə bölmək, parçalamaq olar? Bu, imperiyanın siyasəti idi. Əsl məqsəd yaşadığımız sovet dövrünü şişirtmək, həddən artıq qabartmaq, bütün nailiyyətlərimizin, elmin bütün sahələrinin zirvəsi kimi təqdim etmək olub. Bu yığıncaqların heç biri məni təmin etməyib, inandırmayıb. Mən öz tədqiqatlarımda ancaq iki mühüm dövr tanımışam, bu istiqamətdə də tədqiqat aparmışam və işləmişəm.

1. İslamaqədərki dövr.
2. Islamdan sonrakı dövr.

İslamaqədərki dövr türk xalqının birliyi, yad qüvvələrə qarşı birgə mübarizə apardığı, ümumtürk elmi-dini, ədəbi yaradıcılığı dövrüdür. Böyük dövlətlər qurduğu dövrdür. Böyük Çin səddindən Qara dənizədək uzanan ərazi-region məhz türk tarixi və mədəniyyətinin mərkəzi olub. Azərbaycan torpağı da onun tən ortasında.

Ümumtürk mədəniyyətilə, dililə bağlı ən böyük tarixi abidələr, elmi-dini kitabələr, ədəbi-bədii əsərlər, yazılar və s. bu dövrün və regionun məhsuludur: "Avesta" kitabı, "Bilqamıs", "Alp Ər Tonqa", "Tomiris", "Dədə Qorqud" və s. dastanları, Şumer kitabələri, "İssık", "Yenisey-Orxon" yazıları və b. məhz bu dövrün yaradıcılığıdır. Bura böyük alim Mahmud Kaşğarlının "Divanü-lüğat-it türk" əsərini, Nizami Gəncəvinin "Xəmsə"sini də əlavə etmək olar; bu əsərlərin müəllifləri İslam dövründə yaşamış, yazıb-yaratmışlarsa da, yaradıcılıqları İslamaqədərki dövr türk mədəniyyəti, ədəbiyyatı, folkloru və dilinin İslam dünyasına təqdimidir.

Ümumtürk, habelə Azərbaycan mədəniyyəti, dili, tarixi də bu yöndə öyrənilir, tədqiq və təqdim edilir.

1). M.Ö. SON MİNİLLİKDƏ AZƏRBAYCAN-TÜRK DİL MƏDƏNİYYƏTİ

Bu mədəniyyətin şah damarı olan türk dilinə, türk şifahi dil mədəniyyətinə diqqət edək.

Qədim dünyanın elm korifeylərinin - Herodotun, Strabonun təsdiqinə görə, hələ m.ö. IX-VIII əsrlərdə iskitlərin - bu yüksək mədəniyyəti yaradan xalqın güclü dalğası olan saklar qədim Azərbaycanın (o vaxtlar Azərbaycan adı yox idisə də, torpaq həmin torpaq idi) hakim sakinləri olub; Kür-Araz düzənliyi o vaxtlar həm də *"Sakasen" / "Sakasena"* adlandırılıb, mənası *Sən saksan, Sak torpağısan* - deməkdir. Həmin adlar bu sakinlərin nişanəsi, ilk tarixi izidir. Bura əlavə edək ki, *Qarabağın qədim adı* olan *Ərsak / Arsak* da elə həmin dövrlə bağlıdır. *Ərsak - sak ərlərin* və ya *ər sakların* torpağı, məkanı deməkdir.

Strabonun yazdığına görə, "Qərbə tərəf sakların yürüşləri daha uzaq məsafələrə də olmuşdur" (XI-XII, 4). Onlar Yevkos (Qara dəniz) pontu sahillərinə, oradan da uzaqlara gedib çıxmışdılar. Güman ki, Almaniyanın *Saksoniya əyaləti* və *onun sakinləri Sak mənşəlidir* və orada məskunlaşma tarixi də həmin vaxtdandır: Sakasen, *Saksen,*

Saksoniya şəklində formalaşmış və bugünədək mühafizə olunub qalmış, yəqin ki, alman xalqının yaranması və inkişafında öz rolunu oynamışdır... Strabon tarixçi Efora (m.ö. 340-cı ildə vəfat etmişdir) müraciətlə yazır: "Efor, Xerillin "Pontun körpüsündən keçid" (bu körpünü Dara saldırmışdır) əsərindən bu sözləri iqtibas edir:

Saklar qoyunçudur, iskitlərdən törəmədir,
Onlar bol məhsullu Asiyada yaşayır, köçəridir.
Amma çox namuslu adamlardır...

Mən bunu ona görə xatırladıram və yaxşı bilirəm ki, Efor tamam həqiqət olmayan sözü demir" (VII-III, 9).

Burada üç böyük yunan aliminin şahidliyi var: İskitlər, saklar bir soy köküdür, İskit mədəniyyəti sak mədəniyyəti, iskit dili sak dilidir və bu xalq namuslu xalqdır. Bu xalqın mədəniyyəti, dili m.ö. ən geci, son minillikdə bu regionda - bütövlükdə Asiyada hakim mədəniyyət, hakim dil idi. Bu hakimlik m.ö. min-min illər *Yevkos pontu* adını daşıyan bir dənizin adını dəyişmişdir; heç bir fərman, heç bir göstəriş olmadan, tarixin axarı və deyək ki, Tanrının hökmü ilə dönüb *Qara dəniz* olmuşdur. Bunu heç cür inkar etmək olmaz.

XX əsrin əvvəllərində "Yenisey-Orxon" kitabələrini tədqiq edərkən, məşhur türkoloq P.M.Melioranski heyrət içində demişdi: "Belə imlaya malik olan bir əlifba birdən-birə yaradılmır; onda, deməli, yazı türklərə, nisbətən qədimlərdən artıq məlum idi və onlar bunun üzərində lazımi ciddi-cəhdlə məşq etmişdilər... Ümid etmək olar ki, Qərbi Türküstanda, habelə, bəlkə də Yeddisuda yeni bir yazı tapıldı, onda bu əlifbanın mənşəyi məsələsi daha artıq aydınlaşa bilər" (*216*, s.279).

Bu böyük alimin zənni, gümanı həqiqətə çevrildi: "Qlozel" yazıları, "İssıq" yazısı, kompleks maddi, mədəni-mənəvi mədəniyyəti aşkar olundu. Türk tarixi, türk dilinin, türk yazı mədəniyyətinin tarixi bir neçə min il qədimə keçdi. Türk mədəniyyətinin təsir dairəsinin hələ o vaxtlar geniş olduğu, dünyanı tutduğu təsdiq edildi...

M.ö. son minillikdə yunan qaynaqlarında iskit-sak-türk dilinin dəyərlərindən söz açılır, bu dilin yığcamlığı, səlisliyi barədə ilkin nə-

zəri fikirlər də söylənilir. Diogenin verdiyi məlumata görə, m.ö. VI əsrdə yaşayıb yazıb-yaratmış iskit-sak filosofu Anakar (Anaxarsis) ana dilində gözəl danışırmış, öz nitqilə filosofları heyran edirmiş, o, əlavə olaraq ellin dilini də bilirmiş. Yeddi yunan müdrikindən idi. "O, İskit və ellinlərin adətləri, sadə həyat tərzi və müharibəyə aid 800 misrâ şeir yazmışdır. Nitqində elə sərbəst olmuşdur ki, ondan belə bir məsəl də qalmışdır: "İskit kimi danışır" (*201,* №4). Diogenin fikrincə, "Bu şeirlər şairin sərbəst danışdığı dildə, yəni iskit-türk dilində yazılıb" (Təəssüf ki, bu şeirlər gəlib bizə çatmayıb).

Yunan qaynaqlarında Anakarın nitq və danışıq mədəniyyətinə, natiqlik məharətinə aid belə bir nəzəri fikri də xatırlanır: "Yaxşı və gözəl fikir nitqi çəkib aparanda pis olmur. İskitlər nitqi o vaxt pis sayır ki, məzmunu zay olur" (*200 a,* №2).

"İskit kimi danışır" məsəli yunanların bu dilə rəğbətinin nişanəsidir. Bu, m.ö. son minillikdə İskit-türk dilinə verilən qiymət idi, onun nailiyyəti idi. Bu reallıq Yunan filosoflarının diqqətini cəlb edirdi, bu dil yaxşı, sərrast dil nümunəsi kimi xatırlanır və təqdir edilirdisə, bu, artıq türk dilinin təşəkkül dövrü yox, onun inkişafının müəyyən mərhələsi sayılmalıdır. Deməli, İskit-türk dili m.ö. son minillikdə nəinki təşəkkül tapmış, formalaşmışdı, o, şeir, sənət dili idi, rəsmi dövlət dili səviyyəsinə yüksəlmişdi. Buna görə də yunan filosof-yazıçılarının diqqətini cəlb etmişdi. Alp Ər Tonqanın ölümünə ağılar, "Gümüş cam üzərində yazı", onun dili bu reallığı bir daha təsdiq edir; m.ö. V-IV əsrlərdə bu dilin dövlət dili kimi təsdiqini, möhürləndiyini göstərir...

"Qlozel" yazısı keyik rəsmi üstündə gil lövhəyə, "İssık" yazısı Gümüş cam üzərinə həkk olunmuşdu; "Yenisey-Orxan" kitabələri müxtəlif biçimli daşlar, daş heykəllər və s. üzərinə yazılmışdı. Bu, artıq tam yeni bir mədəniyyət idi: türk yazı – həkketmə mədəniyyəti idi. Şumer kitabələri də bu həkketmə ilə yazılmışdı, bu sahədə məktəb yaranmışdı, məktəblərdə öyrədilir və tədris olunurdu, bu sənət üzrə xüsusi xəttatlar yetişdirilirdi. Ənənəvi olaraq, səliqə-sahmanla davam edib gəlirdi. Bu tarix isə m.ö. 5-6-cı minilliklərdən bu yana deyildir.

Burada türk alimi Ahmet Cavatın hələ XX əsrin əvvəllərində bu sahədə apardığı tədqiqatların nəticəsini xatırlamaq yerinə düşərdi: onun fikrincə, dünya əlifbaları bir kökdən - qədim türk əlifbasından nəşət etmişdir: "İndi artıq ən qədim türk yazısı deyildikdə azı 7000 il bundan əvvəl başlayan və 5 min ilə qədər (zəmanəmizə ən yaxın assuri kitabələrinin tarixi m.ö. birinci əsrə təsadüf edir) bütün ön Asiya zəminində yetişib inkişaf edən və sönən mədəniyyətlərin yazısı olan mixi (Küneiform yazı) və onun qaynağı sayılan daha qədim türk yazısı başa düşülür. Şumer türklərinin dühasından yaranan mixi yazı Mesopotamiyadan Qafqaza, İrandan və Hindistanın şimalından Egey dənizinə və Misirədək iyirmidən artıq adda anılan millət və məmləkətlərə yayılıb onların mədəniyyətlərinin ifadə vasitəsi olmuşdur; bununla da qalmayaraq kənani, qədim sami və ya Finikiya adı ilə xatırlanan yazıların da qaynağı olmuşdur. Bu yazıdan Şərqdə ibrani, hind, uyğur və dünənki məd̨əniyyətin yazısı olan ərəb əlifbası, Qərbdə isə yunan, etrusk, nəhayət, bugünkü mədəniyyətin yazısı olan latın əlifbası yaranmışdır" (*275*, s.10).

Biz bu fikri təqdir edirik. Və alimin "Şumer türklərinin dühasından yaranan mixi yazı" ifadəsi-fikri üzərində dayanmaq zərurəti duyuruq. Alim birbaşa "Şumer türkləri" deyir. XX əsrin dünya miqyasında ən böyük uğurlarından biri məhz şumerlərin kimliyi və dilinin hansı dil olduğu məsələsinə aydınlıq gətirmək olmuşdur. Bu məsələdə bir sıra görkəmli dünya alimlərinin - şumeroloqlarının gəldiyi nəticələr maraqlıdır.

Bunları qısaca xülasə edək.

Amerika alimi, şumerşünas *S.N.Kramer:* "Tarix Şumerdən başlanır" əsəri bu mənada istiqamətvericidir; tarix Şumerdən başlanırsa, tarix insanlığa aiddir; insanlıqla, xalqlarla bağlı keyfiyyətlər, sivilizasiyalar, kəşflər, ümumən mənəvi dəyərlər və s. başlanğıcı, çıxış nöqtəsi də Şumerdir.

Fransa alimi *Elize Reklü:* "Ən qədim mixi (oxşəkilli) yazıların dilində İran və semit dillərinə xas olan cizgilər qətiyyən yoxdur. Tu-

ran və Ural-Altay dilləri ilə birbaşa qohumluq var. Bu ilkin yazılı işarələrin ifadə etdiyi dil iltisaqi dillər tipinə aiddir" (*269 a,* s.466).

İngilis alimi *L.Vulli:* "Nil vadisinin ilk Fironu Manesin hökmranlığı dövründə, Misir, nəhayət, tərəqqi yoluna qədəm qoyduğu vaxt onun yoluna Fərat sahillərində pöhrələnmiş daha qədim və daha yüksək mədəniyyətin şöləsi işıq saldı. Qərb mədəniyyəti də Şumerdəki ana ocaqdan şölələndi. Misir, Babil, Assuriya, Finikiya, qədim yəhudi və nəhayət, yunan mədəniyyətinin mənbəyini də Şumerdə axtarmaq lazımdır" (*144 a,* s.8).

Alman alimi *Q.Vinkler:* "Bizə gəlib çatmış Şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyada ən qədim mədəni dil olan Şumer dilinin ümumi xarakteri barədə kifayət qədər bizdə təsəvvür yaranıb, bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi quruluşlu dildir və semit dillərinin quruluşundan tamamilə fərqlənir" (*137a,* s.7).

Polşa alimi *Z.Kosidovski:* "Bu yaxınlaradək biz elə hesab edirdik ki, yəhudi mədəniyyəti bütövlükdə Yunanıstana borcludur, məhz ən yeni tədqiqatlar göstərdi ki, bir çox məsələdə biz o mədəniyyətin varisləriyik ki, beş min il bundan əvvəl onu Şumer xalqının dühası yaratmışdır" (*198a,* s.25).

Yenə Polşa alimi *M.Belitski:* "Xinks və Raulinsonun gəldikləri çox tələsik nəticələrin (məsələn, babillərin "iskit" mənşəliliyi haqqındakı nəticənin) elm tərəfindən tezliklə təkzib olunduğuna baxmayaraq, etiraf edək ki, onların fikri əsasən doğru idi" (*124 a,* s.17).

Rus alimi *D.Reder:* "Şumerlərin dili ayrıca bir dildir. Bizə məlum dil ailələrilə onu bağlamaq hələlik əsaslı və mübahisəsiz nəticələr verməmişdir. Yalnız onu qəti demək olar ki, o, iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər" (*235 a,* s.96).

Bu faktları, bu barədə söylənilən fikirləri istənilən qədər xatırlamaq olar. Bunlar dünya elmi fikrinin nəticələridir və qaçılmazdır.

Xalqın dili və mədəniyyətinin inkişafı və tale müqəddəratının həllində dövlətin rolu və qayğısı mühümdür. Bu məqsədlə Göy türk xaqanlığı ilə bağlı belə bir faktı yada salmaq yerinə düşərdi. *"Eltəris xaqanın şərəfinə kitabə"*də Qapağan xanın dilindən bu sözlər deyilir: "Mən Qapağan Eltəris xaqanın elində tərbiyə aldım. Eli (dövləti) Yabğa oğlu Sabra Tamğancur, onun kiçik qardaşı Yoğa Bilgə Sabra Tamğan Tarkan, ümumən mənim altmış beş ulu babalarım yaratmışlar..." ("On", 4).

Növbəti hökmdar Qapağan xan olur, taxtda o əyləşir.

Altmış beş Ulu dövlət əsasında yaranan Göy Türk dövlətinin, Türk dövlətçiliyi tarixinin nə vaxt başlandığını dəqiq demək çətindir. Bu tarix ən azı gedib bizim Ulu hökmdar babamız Bilqamıs / Gilqamış padşahın (m.ö. 2800-2700-cü illər) zamanına çıxır... Bu 65 dövlət hansı dildə danışıb, bu dövlətlərin rəsmi dövlət dili hansı dil olub? Kitabədə bu dövlətlər türk dövlətləri olaraq təqdim edilir. Türk dövləti hansı dildə danışa, hansı əlifba ilə işlərini qura, yazılı əlaqələrini apara bilərdi? Ağlın məntiqi var. "Qlozel" yazısı da, "İssık" yazısı da "Eltəris xaqanın şərəfinə kitabə"nin yazıldığı əlifba ilə, yəni qədim türk "Yenisey-Orxon" əlifbası ilə yazılıb. Xatırlanan bu 65 dövlətin rəsmi dövlət dili qədim türk dili deyilsə, hansı dil ola bilərdi? Bu dövlətlər qədim türk deyilsə, hansı dildə danışmalı, öz işlərini qurmalı, diplomatik əlaqələrini saxlamalı idilər? "İssık" kurqanında aşkar olan gümüş cam üzərində yazı bu məsələni qəti həll etdi. Ağlın məntiqi də deyir ki, Turan imperiyası, ənənəvi olaraq inkişaf edib gələn və sönən imperiyalar, dövlətlər, habelə Azərbaycan ərazisində mövcud olan dövlətlər - Tomiris-massaget, Midiya, Atropaten, Sak, Hun dövlətləri və b. bu 65 dövlətin sırasına daxil idi. Və bu dövlətlərin rəsmi dövlət dili də türk dili olmalı idi.

Göy Türk xaqanlığınadək davam edib gələn bu dövlətlər azı 4-5 min illik bir dövrü əhatə edir. Böyük Hun imperiyası da bu dövlət-

lərin sırasındadır. 300 il ömür sürmüş bu imperiyanın təsir dairəsi çox güclü və əhatəli olmuşdur. B.Ögəl hunşünas M.Qoverinə əsaslanaraq yazır ki, "Onun fikrincə, hunlar dünya tarixini təsiri altında saxladı. Hun tayfalarının tarixini üç sahə üzrə təhlil etmək lazımdır: 1) Orta Asiya və Çin tarixinə təsir edən hunlar; 2) Qərbi Asiya və Avropa tarixinə istiqamət verən hunlar; 3) İran və hind tarixində iz qoyan hunlar. Əslində, hind və İranın tarixi inkişafına daha çox qədim çağlarda, Böyük Hun imperiyasının yarandığı vaxtlarda dərindən-dərinə təsir etməyə başlamışdı: lakin bu təsirlər dolayı yollarla olmuşdu (*65 a,* s.408-409).

· Azərbaycan torpağını da başdan-başa (Şimallı-Cənublu) əhatə edən "Turan-İskit", Sak, Hun böyük türk imperiyaları hər cəhətdən, xüsusilə isə dil mədəniyyəti baxımından öz güclü təsirlərini göstərməli, bizi Turan-türk xalqı olaraq yetişdirməli idi.

Burada Midiya dövlətinin əhali tərkibi barədəki bir fikri xatırlamaq məsələnin lehinə olardı: "Midiya dövlətini təşkil edən 6 tayfadan ikisi ari tayfası və İran mənşəli, qalan dördü isə, yəqin ki, "turan əsaslı əkinçi əhalisi olub; bunlar da iki qrupa ayrılıb, oturaq əkinçi əhali və maldar nomadlar". Bu fikrin müəllifi E.Reklü Opper və Lenormanın, guya həmin iki tayfadan biri "ari xalqıdır" və o birisi də "Maq əsaslıdır" - fikrinə qarşı çıxır və deyir: "Hələ 26 əsr bundan əvvəl Arazın dağlıq vilayətləri və İranın yaylaqları arasında heç bir ari qarışıqlı əhali yox idi. Turanlılarla arilər arasındakı barışmaz ziddiyyət elə bir rəmzi məna kəsb etdi ki, Kaspi dənizi və İran körfəzi yaylaları arasının sakinləri, hər iki ailə budağı-midiyalılar və farslar arasında döyüş mübarizəsinə gətirib çıxartdı" (*269a,* s.394-395).

Bu fikirdə üç məşhur alimin rəyi, əsasən bir nöqtədə birləşir. "Yəqin ki" ifadəsi bizi bir qədər düşündürür; hər halda, bu, "güman" deyil; ifadədə "yəqinlik", inam daha üstündür. E.Reklünün qarşı çıxdığı "maq" əsaslı xalq fikri də elə-belə deyilməyb, tarixi əsası var. Əslində, onlar daha qədim kökümüzdəndir, "Avesta"nın yaradıcıları olublar...


Dünya ədəbiyyatının şah əsəri, ilk qüdrətli Şumer hökmdarlarından birinin adına bağlanmış "Bilqamıs / Gilqamış" dastanının adı da burada az söz demir. Bu adların açılışı, mənası (qamısını - hamısını, hər şeyi bilən adamın dastanı və ya qamışla gil lövhəyə yazılmış dastan) da həqiqətə yön alır, türkçülüyün kökü daha qədim dövrlərə gedib çıxır.


Tariximiz dərin qatlara, dilimizin kökləri 6-7 min il bundan əvvəllərə gedib çıxır. Çox sonralar, əslində, ərəb işğalından sonra "Türküstan eli" parçalanmış, vahid kökdən uzaqlaşma halları baş vermişdir; Azərbaycan xalqı, onun dili və mənəvi aləmini bu ana kökdən təcrid edib öyrənsək, söz yox, dərin qatlara gedib çıxmaq, tarixi həqiqətləri üzə çıxarmaq olmaz.

Xoşbəxtlikdən, XI əsrin böyük türkoloq alimi Mahmud Kaşğarlı bizə zəngin dil, folklor toplusu - "Divan" qoyub getmişdir. Alimin real həyatından, türk ellərini el-el, oba-oba gəzib yaddaşlardan toplayıb qələmə aldığı materiallar içində m.ö. VII əsr məşhur türk hökmdarı Alp Ər Tonqanın ölümünə ağılar diqqəti cəlb edir. Əslində, bu ağı janrının kökü, mənşəyi m.ö. V-IV minilliklərə bağlanır. Deməli, bu janr təzə deyil. **Hələ "Bilqamıs" dastanında ağılar deyilib.** Bilqamıs dostu Enkidünün ölümünə ağılar demiş, göz yaşları tökmüşdü...

Ağlın məntiqi deyir ki, Alp Ər Tonqanın ölümünə ağılar-nəğmələr elə o vaxtlar, yəni m.ö. VII-VI əsrlərdə yaranıb, düzülüb-qoşulub, sinələrə yazılıb, yaddaşlara həkk olub dildən-dilə düşüb, miladi tarixə də gəlib çıxıb və Kaşğarlının "Divan"ına düşübdür. Bunların dili, ifadə tərzi, üslubu da miladdan öncəki əsrlərin və ondan əvvəlki ənənəvi davam edib gələn türk dili, türk şeiri və üslubudur.

Aşağıda verdiyimiz xəritələr Turan imperiyasının ərazisini (daha dürüstü, ümumi ərazinin Qafqazla bağlı hissəsini) göstərir *(258 a)*.


Nil
Kur
Kur
Kur



Turan imperiyası. Qafqazla bağlı dalğa

Bu ki, Kaspi ilə Qara dəniz arası və bütövlükdə Qafqaz ərazisidir, Azərbaycan da onun tən ortasında. Xatırlanan ağılar da bu ərazidə məskunlaşan xalqın dilində - "turan" - türk dilində yaranıb.

Görək "tur", "turan" anlayışlarının nə olduğu, turanlıların kimliyi barədə tarixi qaynaqlar nə deyir?

"Oğuz türkləri, ümumiyyətlə, Oğuz xanın törəmələridir. Oğuz türkləri bir neçə yüz il bundan öncəyə qədər bir-birilə yaxından bağlı bir ailə halında yaşayırdılar. Məsələn, Füzuli bütün Oğuz boyları

içində oxunan bir Oğuz şairidir. Qorqud Atanın kitabı oğuzların rəsmi "Oğuznaməsi" olduğu kimi, "Şah İsmayıl", "Aşıq Kərəm", "Koroğlu" kitabları kimi xalq əsərləri də bütün Oğuzstana yayılmışdı.

"Türkçülüyün uzaq ülgüsü - məfkurəsi isə Turandır"... "Turan" sözü "turlar", yəni "türklər" demək olduğu üçün sadəcə, türkləri içinə alan böyük Türküstan üçün işlətməyimiz lazımdır"; "Turan bütün türklərin keçmişdə və bəlkə də gələcəkdə bir gerçək olan böyük vətənidir... bütün türk ellərini içinə alan türk toplumundan ibarətdir" (*52 b*, s.37-38).

M.ö. VII əsrdə bu ərazidə türk dili hakim dil olub. İmperiyanın məğlubiyyəti, onun başçısının xəyanətlə qətli o demək dcyildi ki, xalq da, dil də "qətl" edilib. Xalq və dil yaşayıb və yaşayır. Xalq həmin xalqdır, dili də həmin dildir: turan dili, ana türk dili. Xalq intiqam hissilə yanıb-yaxılıb, hökmdarın ölümünə ağılar deməklə təskinlik tapıb, ovunub. Bu ağı-nəğmələr XI əsrdə yazıya alınmış olsa da, m.ö. VII-VI əsrlərin məhsuludur, buna heç bir şəkk-şübhə ola bilməz.

Bax, həmin xəritələrin nişan verdiyi torpaqda, ana vətənimizdə - Azərbaycanda deyilmiş, yaranmış sinələri dağlayan ağılar, şeir inciləri!!!

2). Milli şeir dilimizin hələlik əldə edilən ilkin nümunələri!

Qədim dövr Azərbaycan ədəbiyyatı, incəsənəti və maddi mədəniyyətindən danışarkən, etiraf etmək lazımdır ki, qədimlərə doğru getdikcə, ümumi vahid dəyərlər çoxalır, müasir türk xalqlarının müştərək sərvəti olur. Bu ümumilik, başqa mənəvi sahələrdə olduğu kimi dildə-üslubda da özünü saxlayıb, forma və məzmunu dəyişməyib.

Azərbaycan ədəbiyyatının, onun dili və üslubunun qaynaqları, bu dilin soy kökü, rişələri məhz miladdan öncəki qatlara gedib çıxır. Bu misilsiz ağı-nəğmələr, bu şeirlər bizim qədim dövr ədəbiyyatımızın, ana dilli şeirimizin ilk qatlarından sayılmalıdır. Hələ m.ö. mövcud olub da bizə gəlib çatan bu söz inciləri, bu ölçü-bi-

çim, bu qafiyə, bu dil-üslub da birdən-birə yaranmayıb, müəyyən kök, özül və ənənə ilə bağlı olub. Deməli, m.ö. son minillikdə türk dili kamil dil idi; yenicə formalaşan, təşəkkül tapan dildə bu vüsət ola bilməz, bu sənət əsərləri yarana, düzülüb-qoşula bilməzdi, onun tarixi daha qədim olmalıdır.

Ağı-nəğmələrdən biri (bəlkə də birincisi) həyəcan təbilidir, qisas almağa çağırışdır, zamanın, vaxtın üzərinə ciddi tələb qoyulur, zaman ittiham olunur:

Alp Ər Tonqa öldümü
İssiz azun qaldımı
Özlək öcin aldımı
Əmdi yürək yırtılır **(1,41).**

Bu dil, bu üslubla – XI əsrin dili və müasir dilimiz arasında elə bir ciddi fərq yoxdur, qrammatik quruluş eynidir. Bir neçə söz arxaikdir, unudulub tarixdə qalıb; bu keyfiyyəti biz bütün ağılarda, az-çox müşahidə edirik. Mətn, əsasən başa düşülür. Arxaik sözlərin müasir mənaları yerinə qoyulduqda məzmun tam aydın olur, *issiz*-arsız, laqeyd; *azun*-dünya, dövr; *özlək* - an, zaman, vaxt və *öc* - əvəz, qisas, intiqam. Bu sözlər indi müasir dilimizdən uzaqdır. Anlaşılması üçün lüğətlərə baxmaq lazım gəlir. Axırıncı misrada *əmdi, yürək* sözləri bir az müasir ədəbi tələffüzdən fərqlidir. Bunlar təbii haldır, canlı türk dillərində bu gün də müşahidə olunan sövti-fonetik dəyişiklikdir; dialekt və şivələrimizdə indi də qalır.

Beləliklə, ağının müasir şəkli, məzmunu:

Alp Ər Tonqa öldümü?!
Arsız dünya qaldımı?
Zaman qisas aldımı?
İndi ürək yırtılır.

Axırıncı misra "*Əmdi yürək yırtılır* - İndi ürək yırtılır" məcazi məna daşıyır. Belə ifadə və məzmunlar dilimizdə frazeoloji vahidlər sayılır. Bunlar türk dillərinin ədəbi-bədii əsaslarıdır ki, inkişaf tarixi boyu dilin

özünəməxsus keyfiyyətlərini üzə çıxarır. Belə ana ifadələr ağılarda arasıra işlənir və təsir gücünü göstərir; tam türk təfəkkürü alınır.

Xalq uzun zaman intiqam hissilə çırpınmış, buna tələsmişdir. Ağıların özündə buna gizli işarələr vardır: tələsmək, nə qədər ki, gec deyil, hərəkət etmək, qisas almaq gərəkdir: Günlər keçib gedir:

Özlək güni tavratur
Yalnuq gücin kəvrətür
Ərdin azun səvritür
Qaçsa taqı artılur **(II, 335)**

Ağının müasir şəkli, məzmunu:

Günlər keçir tələsir,
İnsan gücü tükənir.
Vaxt zay olub gedir,
Qaçsa da çatmaq olmur.

Qəhrəmanın ölümünə xalq ağılar deməklə təskinlik tapır. Vaxt isə keçib gedir... Nəhayət, qisas anı gəlib çatır. Kir (Koruş, Keyxosrov) Arazı keçib Turan ölkəsinə - Azərbaycana hücum çəkir. Qanlı döyüş başlanır. Tarixin atası Herodot həmin döyüşü belə təsvir edir: "Mən belə hesab edirəm ki, bu vuruşma barbarlar arasındakı vuruşmaların ən dəhşətlisi olmuşdu" (*1*, 214).

Alp Ər Tonqanın nəsli, Tomiris övladları qələbə çalır, İran hökmdarı Kirin ölüsünün başı kəsilib insan qanı ilə doldurulmuş tuluğa atılır.

Hökmdar Tomirisin son sözü isə belədir: "Mən sağ qalsam da, yenə sən məni məhv etdin və mən sənə vuruşmada qələbə çaldım, çünki mənim oğlumu hiyləgərcəsinə tutdun. Bu səbəbə indi mən, necə ki, səni hədələmişdim, səni qanla bax beləcə doydururam" (*1*, 124).

Qisas belə alınır.

Ağıla belə gələrmi ki, Kirin ölüsünə deyilən bu nitq türk-sak dilində yox, başqa dildə olsun? Alp Ər Tonqanın ölümünə deyilmiş ağılar Tomirisin Kirin ölümünə söylədiyi dildə deyilib. Amma bizə tərcüməsi gəlib çatıb.

Herodot Tomirisin üç belə məktubunu verir. Mənbələr göstərir ki, alim bu hadisələrlə bağlı akkad və iskit-ellin qaynaqlarına müraciət edib. Məktubların surətini oradan götürüb. Onda, maraqlıdır ki, bu məktublar hansı dildə yazılıbmış? Bu məktubların və nitqin, əslində, iskit-türk dilində olduğuna şübhə etmirik. İskit-türk dilində bədii əsərlər - ağılar vardı, məktublar, nəsr əsərləri də ola bilərdi. Ana dilində olan şeirlər gəlib bizə çatıb, "məktublar" isə yox. Yəqin ki, iskit-türk dili həm də Tomiris hakimiyyətinin rəsmi dövlət dili olub.

Alp Ər Tonqa hiyləgərcəsinə tora salınıb qətlə yetirilmişdi. Kir-Tomiris müharibəsində düşmən yeni hiyləyə əl atmış, tələ qurmuşdu; nəticə etibarilə bu dəfə o özü tələyə düşmüş, başı kəsilmişdi...

Mətləb üstə gələk. Ağı-nəğmələrdə bircə yad sözə, ifadəyə, yəni ərəb və fars sözünə, ifadəsinə rast gəlmirik. Sonralar, miladi tarixdə də bu bədii əsərlərə yad sözlər, ifadələr yol tapa, girə bilməyib. Qədim dövr, islamaqədərki türk şeiri; türk şeir qəlibi o qədər kamil şəkil alıbmış ki, yad təsirlər heç vəchlə ona toxuna, təsir göstərə, o qəlibləri poza bilməyib. Bu, türk şeir mədəniyyəti tarixində böyük nailiyyət idi. Yeni erada ərəb, fars və türk münasibətləri, ictimai-siyasi və ədəbi-mədəni əlaqələri xeyli güclənsə də, yaddaşlara hopub daşlaşmış bu şeirlər əcnəbi təsirə məruz qalmamış, necə yaranıb sinələrə həkk olmuşdusa, eləcə də gəlib "Divan"a düşmüşdü; bu, türk dilinin ənənəvi mühafizəkarlığı ilə bağlı idi. Bunu xüsusilə qeyd edək ki, Mahmud Kaşğarlı alim sövq-təbiisi ilə yaddaşlardan topladığı ağıları qələmə alıb, "Divan"ına salmışdı, bunları dəyişmək olmazdı.

Qeyd edək ki, rus tədqiqatçısı, türkoloq İ.V.Stebleva "Divan"dakı bu şeirlərdən "XI əsr türk poeziyası" deyə bəhs edir. Və kitabının adını da belə adlandırıb: "Развитие тюркских поэтических форм в XI веке".

Halbuki "Divan"da toplanan bütün şeirlər, ən azı, XI əsrə qədərki 1500-2000 ili əhatə edir. Şeirlərin mövzusunun, hadisələrin təsviri və yerinə görə öz yaranma, düzülüb-qoşulma tarixi vardır. Mahmud Kaşğarlı bura özündən heç nə əlavə etməmişdir, bu şeirləri XI əsrin alimi özündən düzüb-qoşmamış, yazmamışdı...

Sonra deyilən ağı-nəğmələr də məzmunca bu çağırışa, tələbə cavab vérir, vəziyyət təhlil olunur, hökmdarın qətli açıqlanır, ölümünün necə baş verdiyi izah edilir, zaman, gərdişi-dövran ittiham olunur:

Özlək yaraq gözətti
Oğru tuzaq uzattı
Bəglər bəgin azıttı
Qaçsa qalu qurtulur **(III, 233, 234).**

Dil baxımından eyni vəziyyətdir, anlaşılır; arxaik sözlər mətni bir qədər bizdən uzaqlaşdırır. Bu sözlərin mənası da yerinə qoyulduqda: *özlək* - an, vaxt, *tuzaq* - tələ, hiylə - məzmun tam aydın olur. Bir qədər *gözət, uzat, azıt* sözlərinin deyilişində qədimlik var; *ti:* (di), *tı* (dı) zaman şəkilçiləri onların anlaşılmasına kömək edir, bu, *t, d* səslərinin məxrəccə bir-birinə yaxın olduğundan irəli gəlir, müasir dilimizdə, şivələrdə bu gün də özünü göstərir:

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Gözlənilən an çatdı.
Oğru tələ uzatdı.
Bəylər bəyindən azdı.
Qaçsa, qalır, qurtulur.

Ağı-nəğmələrdən biri birinci şəxsin dilindəndir. Olmuşları, keçən günləri, məğlubiyyəti yada saldıqca, od tutub yanır, yetişmiş yarasının başı qoparılır. Vaxt, gecə-gündüz keçib gedir, qisas isə alınmayıb (tələsmək gərək!).

Könlüm içün örtədi
Yetmiş başığ qartadı
Keçmiş özük irtədi
Tün-gün keçib irtəlür **(I, 102-103).**

Ağıda dərd-qəm üstündür, qəlbin ağrıları verilir... Arxaik sözlər: *tün-gün* - gecə-gündüz. Mətnin son sözləri arxaik fellərdir; *örtədi* - odlandı, od tutub yandı, *qartadı* - qopartdı, qanatdı, *irtədi* - yada saldı, xatırlatdı, andı. Arxaik fellərə qoşulan şəkilçilər - keçmiş za-

man *(di, dı)* və indiki zaman *(ur)* şəkilçiləri arxaik felləri müasir dilimizə xeyli yaxınlaşdırır...

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Könlüm için odladı.
Yaram başın qopartdı.
Keçmişin özün andı,
Gecə-gün keçib gedir.

Ağı-nəğmədə birinci, ikinci misralar bütövlükdə məcazdır, qanadlı fikirdir, şeirin bədii gücünü xeyli artırır: "*Gönlüm için örtədi* = Könlüm için odladı" və "*Yaram başığ qartadı* = Yaramın başını qopartdı". Bunlar canlı həyatdan, canlı dildən gələn ifadələrdir, dilin yatar qaynaqları, məcazlardır.

Növbəti ağıda məğlubiyyətdən sonrakı ağır vəziyyət, mənəvi sıxıntı təsvir olunur; alimin, müdrikin alçaldığı, zamanın onları didiyi, ər ləyaqətinin, kişilik qürurunun yox olub getdiyi xatırlanır, yenə zamanın buna bais olduğu göstərilir:

Bilgə bökü yıncudu
Azun ətü yancudu
Ərdəm əti tuncudu
Yergə dəgip sürtülür (III, 303).

Mətndəki arxaik sözlər: *bilgə*-bilikli, alim, ziyalı, *bög* - böyüklər, müdriklər, *yıncudu* - incidildi, alçaldı, hörmətdən düşdü, *azun* - dövr, zaman, *ətü* - ləyaqəti, heysiyyəti, *tuncudu* - itdi, tapdandı. Arxaik sözlərə qoşulan sonluqlar müasir keçmiş *(du-dı)* və indiki zaman *(ur)* şəkilçiləridir, ancaq bir *gə (yergə-yerə)* şəkilçisi arxaikdir, digər türk dillərində işlənir.

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Alim, müdrik alçaldı,
Zaman onları diddi.
Ər ləyaqəti itdi.
Yerə dəyib sürtülür.

Ağının məzmunu necə də bu günümüzlə səsləşir. Müharibənin, məğlubiyyətin acı nəticələri necə də bir-birinə bənzəyir; elə bil tarix təkrar olunur...

Növbəti iki ağıda məğlubiyyətdən sonrakı ağır vəziyyət digər səmtdən təsvir edilir. Zamanın hamını kövrəltdiyi, ərlərin, ərənlərin tamam azaldığı, yox olduğu, pislərin, miskinlərin isə çoxaldığı fikri ifadə olunur; indi olduğu kimi.

Özlək qamuğ gövrədi
Ərdəm aruğ səvçədi
Yuncuq yavuz tuvradı
Ərdəm bəgi çərtilür **(III, 4).**

Və ya:

Bəglər atun arğurub
Qazğu anu turğurub
Mənzi yüzü sarğarub
Kürküm anar turtulur **(I, 486).**

Ağılardakı arxaik sözlər: *özlək* - zaman, vaxt, *qamug* - hamını, *ərdəm* - ərlər, ər igidlər, *aruğ* - tamam, büsbütün, *yuncuq* - pis, avara, *yavuz* - yava, murdar; *qazğu*-qəm, qüssə, əzab; *kürküm* - zəfəran. Fellər: *gövrədi* - kövrəldi, *tavradı* - artdı, çoxaldı, həddən aşdı, *savradı* - azaldı, *çərtilür* - keçib gedir, *arğurub* - çox yorub, əldən düşüb, *sarğarub* - saralıb, rəngi solub, *turtulur* - oxşayır, dönür. Fellər arxaik olsa da, sonluqları müasir dilimizin keçmiş və indiki zaman *(di, dı)* şəkilçiləri və feli bağlamalarıdır *(ub, üb, ıb)*.

Beləliklə, mətnlərin müasir şəkli, məzmunu:

Zaman hamını kövrəltdi.
Ərlər tamamı azaldı.
Pis, yavalar çoxaldı.
Bəy dövranı keçib gedir.

Və ya:

Bəy atları yorulub,
Qəm onları çox yorub,
Bənzi, üzü saralıb,
Onlar zəfəran olur.

Bənizin, üzün əzabdan, əziyyətdən saralıb-solması və onun "kürküm"ə (zəfərana) bənzədilməsi necə də realdır, həyatidir!

Növbəti ağıda yenə məğlubiyyətlə bağlı ərlərin kədəri, göz yaşları, ulaşıb yaxa yırtdıqları, boğuq səslə nəyi isə xatırlamaları, nəmli gözləri təsvir edilir.

Ulşub ərən börləyü
Yırtıb yaqa irlayı
Sıqrıb üni yırlayı
Sığtab gözi örtülür **(I, 188-189).**

Ağıdakı arxaik sözlər: *börləyü* - böyürür; *ırlayı* - çığırır; *sıqrıb - boğuq; ün* -səs; *yırlayı* - aldadır, çaşdırır; *sığtab* - nəmli, yaşlı. *Ulşub* - sözü ulaşıb sözüdür, şeirin vəzninə görə belə deyilib, canlı tələffüzə uyğundur. Şəkilçilər: *yü, yı* müasir dilimizin indiki zaman şəkilçilərinin *(yür, yır)* qədim şəklidir.

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Ulaşıb ərlər böyürür.
Yaxa yırtıb çığırır,
Boğuq səsi aldadır,
Nəmli gözü örtülür.

Burada "*Sıqrıb üni yırlayı* - Boğuq səsi aldadır" misrası incə, örtülü şəkildə bənzətmədir, ədəblə, ədəb qaydasınca əsgər ərlərin hönkürtüsü, ulaşması qurd səsinə bənzədilir. Bu da bir ustalıqdır; arif dinləyici (və ya oxucu) bunu ala, hiss edə bilir...

Ağılarda zaman, vaxt, dövr hədəf kimi götürülüb. Zamandan, gərdişi-dövrandan çoxluca şikayət var, narazılıq var. Zamanın hökmündən qaçmağın mümkün olmadığı deyilir. On bir ağıda dövr, zaman, vaxt, dövran, an mənalarını verən 10: *özlək* (5 dəfə) və o

qədər də *azun* arxaizmi işlədilib. Növbəti ağıda bu sözlər işlənməsə də, hədəf yenə zamandır, dövrdür.

Atsa oqın gəzgərib
Kim turanı yığdacı
Tağığ atıb oğrasa
Özi qoyu yırtılur **(III, 106).**

Ağıdakı arxaik sözlər: *gəzgərib* - (oxu) gəzə qoyub, *yığdacı* - qarşıda duran, dayanan, mane olan, *oğrasa* / uğrasa - dəlsə, deşsə, *qoyı* - qoynı, sinəsi. Şəkilçilər: *ib* feli bağlama, *cı* sözdüzəldici şəkilçilərdir, arxaik fellərə qoşulub; *sa* şərt şəkilçisidir və müasirdir; anı - acaq, arxaik gələcək zaman, *ığ* təsirlik hal şəkilçiləridir.

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Gəzə qoyub oxun atsa,
Kim duracaq qabağında?
Dağı atıb dələrsə,
Öz qoyni yırtılır.

Yenə də məharətlə, bədii ustalıqla məğlub olan tərəf - Alp Ər Tonqa dağa bənzədilir, əgər zaman, dövran oxla dağı dəlirsə, öz qoynunu yırtmış olur, elə xalq özü də zamanın xalqıdır, zaman niyə öz qoynunu, sinəsini yırtmalıdır? Bu nə sirrdir?..

Növbəti ağıda bu fikir bir qədər də açılır, burada da rəmzi məna üstündür, xalqla dağ müqayisə edilir:

Ögrəyigi mundağ oq
Mundağ azın təndağ oq
Atsa azın oğrab oq
Tağlar başı kərtilir **(I, 160).**

Ağıda arxaik sözlər: *ögrəyigi* - öyrəncəli, adət etmiş, *mundağ* - buna, *azın / azun* - zaman, an, *təndağ* - vərdiş etmək, *oğrab* - tuşlayıb, dəlib, *kərtilir* - kəsilir, deşilir, dəlinir.

Beləliklə, mətnin müasir şəkli, məzmunu:

Ox buna öyrəncəlidir,
Bu da onun taleyidir.
Zaman tuşlayıb atsa,
Dağlar başı dəlinir.

Oxun nə günahı, onu hara gəldi atırlar, ixtiyarı özündə deyil, bu da onun taleyidir: yırtmaq, dəlmək, sökmək, deşmək... Onu atan zamandır.

Növbəti iki ağıda daha yeni bir fikir ifadə olunur; döyüşən əsgərin xarakteri açılır; mərdlərin döyüşə girməzdən əvvəl hazırlığı, ləyaqəti barədə söz deyilir: O, yağı odun keçirəndir, onu o dünyalıq edəndir. Yağını oxla vurub öldürür. Oxucu və ya dinləyicidə belə bir təəssürat yaranır ki, türk əsgərinin döyüşə girməyinin də bir hazırlığı, ənənəsi olub. Əvvəlcə soyuq, sərt qış günündə yemək süfrəsi açılıb, döyüşçü ərlər çörək kəsib, bir-birinə ürək-dirək, ümid verib, qələbəyə ruhlandırıb:

Yağı otun öçürgən
Toydın anı köçürgən
İşlər üzüb keçirkən
Təkdi oqı öldürdü **(I, 522).**

Və:

Turğan uluğ işlağa
Tərgi urıb oşlaqa
Tumluq qadır işlaqa
Qaztı ərig umduru.

Ağılardakı arxaik sözlər, ifadələr: *öçürgən* - keçirən, söndürən, *toydın* - həyatdan, yerdən, *təkdi* - çəkdi (oxu), *tərgi* - süfrə, *tumluğ* - soyuq, *qadır* - sərt, qatı, *qaztı* - verdi, *umduru* - ümid, ürək-dirək. Arxaik şəkilçilər: *gən, ğan, qa* sonluqları bizə gəlib *ən, ra* şəklində çıxıb. Başqa türk dillərində eynilə işləndiyi də müşahidə olunur və s. *Uluğ işlağa* ifadəsi müasir dilimizdə ulu işlərə, böyük işlərə şəklindədir...

Beləliklə, mətnlərin müasir şəkli, məzmunu:

Yağı odun keçirən,
Yerdən onu köçürən,
İşlər üzüb bitirən,
Çəkdi oxu öldürdü.

Və:

Ulu işlər görən,
Yemək süfrəsi açan,
Soyuq, sərt qış günündə
Ərlərə ümid verdi.

Döyüşən əsgərə, görün nə gözəl sifətlər verilib: *"Yağı odun keçirən"*, *"Yerdən onu köçürən"*, *"İşlər üzüb bitirən"*, yaxud: *"Ulu işlər görən"*, *"Yemək süfrəsi açan"*, *"Ərlərə ümid verən"* və s. Bu şeirlərdə nikbin ruh, inam var; buna görə də bunları ağı-nəğmələr adlandırırıq.

Aşağıdakı ağı-nəğmələr təxminən biri-birinin variantı olmaqla, qəhrəmanlıq rəmzi kimi səslənir. Yuxarıda eynilə təsvir olunan mənəvi dəyərlərə malik qəhrəman ölümün gözünə dik baxır, onu axtarır; onun üçün torpaq, Vətən uğrunda ölmək şərəfdir, bu ölümdən heç də çəkinmir, qorxmur.

Erdi aşın taturğan
Qavlaq yağığ qaçurğan
Boynun tutub qazırğan
Bastı ölüm ağtarı **(I, 515-516).**

Və ya:

Erdi aşın taturğan
Yavlaq yağıq qaqurğan
Oğraq süsin qaytarğan
Bastı ölüm ağtarı.

Ağı – nəğmələrdəki arxaik sözlər və ifadələr: *erdi* - verdi, *taturğan* - yedirən, daddıran, *yavlaq* - yava, azqın, *qazırğan* - qaçırdıb sındıran, Oğraq süsi - Oğraq (Qədim tayfa adı) ordusu.

İkinci ağı - nəğmədə konkret olaraq söhbətin Oğraq qoşunundan getdiyi fikri artırılır. Arxaik şəkilçilər: *ğan - an, u - ur.*

Beləliklə, mətnlərin müasir şəkli, məzmunu:

Aşın verib yedirən,
Yava yağını qaytaran,
Boynun tutub buran,
(Onu) axtardığı ölüm basdı.

Və ya:

Aşın verib yedirən,
Yava yağını qaçıran,
Oğraq qoşunun qaytaran
(Onu) axtardığı ölüm basdı.

Beləliklə, qədim dünyamızın 11 yadigar ağı-nəğməsi dil, üslub baxımından təhlil edildi. Hər ağının məzmununu da açmağa, mənalandırmağa səy göstərildi. Müasir dilimizlə bunlar arasında körpü yaradıldı, nə dərəcədə məqsədə nail olduğumuzu qoy, oxucu desin.

Azərbaycan ədəbiyyatı, Azərbaycan şeiri, Azərbaycan dili öz yaranışından belə mənalı, öz estetik gözəlliyi, məzmunu, yığcamlığı, ölçü-biçimi və s. dəyərlərilə seçilib, fərqlənib: ənənəsini davam etdirib, minillikləri aşıb gəlib. Ağı janrı bizdə bu zəngin ədəbiyyatın qədim bir qolu kimi xalqımıza daha doğma, yaxın olub, ağır günlərində itirdiyi əzizlərini yad edərək, dərdini, kədərini, qəmini ona xatırladıb, hiss və duyğularını ovudub. Buna görə də yaddaşlara həkk olunub, onu yaddaşlardan silmək mümkün olmayıb, olduğu kimi də qalıb, bizə çatıb. Bunlar böyük nemətdir, bizim tariximizdir.

Bu gün də ağı-nəğmələr bizimlə danışır, müasir dilimizlə səslənir, nə qədər ki, itkilərimiz var, ölüm-itim var, ağı da var...

3). "İSSIQ" MƏDƏNİYYƏTİ VƏ DİLİ

Biz burada "mədəniyyət" anlayışı ilə sözə başladıq ki, mövcud tapıntıda mədəniyyətlə dil kompleks şəkildə təqdim olunur.

Budur, Alma-Atanın 60 km-də kurqanda Sak-türk hökmdarının qəbri aşkar olub. Mütəxəssislər hökmdarın sümüklərinin çürümə dərəcəsindən müəyyən edib ki, o, çox cavankən ölüb (23-25 yaşında) və bu tarix m.ö. V-IV əsrlərdən bu yana deyil.

Hökmdar öz geyimində belə təsəvvür edilib və "bərpa" olunub:



Kurqanda, hökmdarın baş tacında, geyimində və ətrafında dövlətçilik, mədəniyyət və dil tariximizi dəqiqləşdirmək üçün nələr yoxdur?! Yazı, dil, incəsənət, maddi mədəniyyət əşyaları, zərgərlik sənəti inciləri və hətta dövlət möhürünəcən; xalis qızıldan tökülmüş baş tacı, üstündə qədim "İskit vəhşi heyvan üslubu"nda ecaskar işləmələr. Bir sözlə, çoxcəhətli mədəniyyət möcüzələri.

Bunları oxucuya təqdim etmədən, dilimizin, yazımızın, mədəniyyətimizin tarixindən danışmaq, əsl söz demək, elmi fikir söyləmək mümkün deyil.

(1) Baş tacında: üz-üzə şahə qalxmış atların təsviri:



(2) Baş tacında: qanrılıb bir-birinə dişlərini qıcamış barsların (bəbirlərin) təsviri:



(3) **Baş tacında: biri qayaya qalxan, o biri enən vəziyyətdə pələnglərin təsviri:**






(4) **Baş tacında: qanadlı mifik atların təsviri:**



(5) **Baş tacında: qaya üstündə bitmiş ağac, başında quş təsviri:**




(6) **Hökmdarın belində şir başlıqlı qızıl kəmər:**



(7) **Üzük-möhür, dövlət möhürü:**



(8) **Belində xəncər və qızıl dəstəkli qılınc:**



və s. və i.a. daha nələr, nələr!..

"İssık" kurqanında aşkar edilən əşyayi-dəlillərin hamısını burada vermək, nümayiş etdirmək mümkün deyil. Qədim türk xalqının, onun dövlətinin, mədəniyyətinin, dilinin, demək olar ki, bütün əsas əlamətlərinin toplu şəkildə təqdimi, qədim dünya tarixinin ecaskar səhnələrindən biri. Bu, Sak-türk mədəniyyətinin m.ö. V-IV əsrlərin inkişaf göstəricisidir...

Bu yüksək mədəniyyətə, sənət incilərinə uyğun olaraq da:

1) Türkün müstəqil dövləti olub,

2) Türkün yüksək dili, dil mədəniyyəti olub,

3) Türkün Şumerdən başlanıb gələn yazı, həkketmə mədəniyyəti olub,


4) Türkün kamil əlifbası, yazı mədəniyyəti olub.

Mədəniyyətin, yazının, dilin bu səviyyəyə çatması üçün nə qədər, neçə-neçə əsrlər, minilliklər inkişaf yolu keçməli idi? Bu mənada Baş tacında təsvir olunan vəhşi heyvanların təsviri diqqəti cəlb edir; bu

mədəniyyət elm tarixində "İskit vəhşi heyvan üslubu" adı ilə məşhurdur. Bu isə ancaq iskitlərə - saklara, qədim türk xalqına məxsus olub. Ulu babalarımız, müdriklərimiz hələ o vaxtlar düşünüblər, duyublar ki, bu "vəfasız" dünyada, bu "yalan" dünyada bu möhtəşəm xalq unudula, izi azdırıla bilər; qoy gələcək nəsillərimizə bu toplum, bu yadigar xəzinə qalsın, əşyayi-dəlil olsun! Ulu babalarımız, müdriklərimiz türk mədəniyyətini, türk ruhunu əks etdirən bu əvəzsiz xəzinəni qoyub getmişlər ki, tariximizi dürüst öyrənə bilək. Amma çaşmışıq, yad tədqiqatçılar bizi çaşdırıblar və indi də çaşdırırlar; siyasətbazlar bizi doğru yoldan sapdırıblar və indi də sapdırırlar. Buna görə də indiyədək haqq sözü deyə bilməmişik. Kökümüzü, kimliyimizi təsdiq edə bilməmişik. Xalqımızın, onun dilinin soy kökünü-mənşəyini doğru-dürüst işləyə, tariximizi layiqincə işıqlandıra bilməmişik...

"İssıq" kurqanı xəzinəsində yuxarıda xatırlanan kompleks mədəniyyətə əlavə olunan daha qiymətli və əvəzsiz tapıntı "Gümüş cam üzərində yazı"ya diqqət edək. Cam üzərində həkk olunmuş bu iki-üç cümlə çox söz deyir; türk dilinin ümumi mənzərəsini təsəvvür etmək, daxili aləmini duymaq və açmaq üçün əsas verir.

"Gümüş cam üzərində yazı"



Türk milli əlifbasıdır. Sağdan sola yazılır və oxunur.

Ağa, sana uçuq.

Bez, çok, bukun içrə azuk (olacaq).

Bu dil qədim - m.ö. türk - sak dilidir, nikbin türk ruhunun səsidir, xalqın danışıq dilidir.

Bu dil türk-sak imperiyasının rəsmi dövlət dilidir.

Bu dil türk yazılı ədəbi nəsr dilinin nümunəsidir.

Bu dili ifadə edən, olduğu kimi bizə çatdıran türkün öz doğma, xəlqi-milli yazısı - əlifbasıdır.

Bu yazı - əlifba türkün öz ixtirasıdır, qədim başlanğıcdan gələn ənənəvi qazıma - həkketmə mədəniyyətidir.

Bu dil eyni səviyyədə, daha bir neçə əsr əvvəldən daha ahəngdar şifahi şeir-ağı şəklində mövcud idi, b.e.-nın XI əsrində böyük dilçi alim Kaşğarlının qələmilə gəlib bizə çatıb; bu şeir dililə nəsr dili necə də bir-birilə səsləşir, bir-birini tamamlayır.

"İssıq" mətnində üç cümlə, 8 söz var. Bu, kitabədir. Bütöv bir kitab məzmunu daşıyır. Türk dilinin yığcamlıq keyfiyyətinə ən yaxşı misaldır. Müasir mənada anlaşılır. Cümlə-fikirlər aydındır, ancaq üç söz arxaikdir. Bu isə təbii görünür. Axı, 2500 il bundan əvvəlki dilimizdir...

Dilin lüğət tərkibinə diqqət edək:

Birinci cümlə: "Ağa, saṇa uçuq".

1) *Ağa* - ağa, hökmdar, böyük qardaş

2) *Saṇa* - sən əvəzliyi, ismin yönlük halındadır.

Söz canlı dil tələffüzü ilə verilib, yazılışı müasir dilimizdəki imlasından (sənə) daha doğma və realdır, təbii olaraq deyildiyi kimi, sağır ṇ-la yazılıb: saṇa.

3) *Uçuq* - uçuq, uçulmuş - qazılmış yer, "kurqan" - qəbr. Mənti-qi məna: hökmdar, sərkərdə, sən burda rahat yat! Yağı - düşmən diz çökəcək, çökdürüləcək...

İkinci cümlə: "Bez, çök!"

1) *Bez* - arxaik sözdür, yad, yağı, düşmən mənalarını verir, anlaşılır ki, Ağa - sərkərdə müharibədə, döyüşdə düşmən tərəfindən

qətlə yetirilib. Bu söz dildə indi də ona yaxın mənada işlənir: "Məni bezdirmə!", "Uşaqlar məni lap bezdirib" - cümlələrində "yad", "cana gətirmək" mənalarını verir.

2) *Çök* - (dız) çök, təslim ol!

Üçüncü cümlə: "Bukun içrə azuk" (olacaq).

1) *Bukun* - arxaik sözdür, xalq deməkdir; "Orxon-Yenisey"də bu söz "budun" şəklində də işlənir, gövm, tayfa mənasını verir, əslində, bir nəsl, bir buddan törəmə deməkdir.

2) *İçrə* - iç, daxil, içində, daxilində mənasındadır.

3) *Azuk* - azuqə, yemək sözünün qədim şəklidir, müasir azuqə, ərzaq sözünün əsasıdır.

Mətn ümumtürk dilinin, yazılı ədəbi nəsr dilinin gözəl nümunəsidir. Bu yazı, dil nümunəsi, bu əlifba Azərbaycan xalqı və onun dilinin soy kökü, mənşəyi, problemi ilə bağlı çox etibarlı söz deyir, bu vaxtadək türkün, habelə Azərbaycan xalqının, Azərbaycan-türk dilinin ünvanına deyilən hər cür qərəzli fikir və böhtanları alt-üst edir, heçə endirir.

Bu yazı türk milli yazısıdır, ona "Yenisey-Orxon" yazısı, əlifbası deyirik; səhv olaraq "run" yazısı, əlifbası da deyiblər, "runa"lara bənzədiblər, əslində, runalar, run yazıları əsasını buradan götürmüşdür...

III. MİLADİ TARİXİN İLK ƏSRLƏRİ, XALQ VƏ ONUN DİLİ

Bu dövr Azərbaycanda nəsilcə bir olan müxtəlif adda türk tayfalarının məskunlaşması və vahid bir xalq kimi daha artıq formalaşması ilə səciyyələnir.

1). Hunlar, xəzərlər, basillər, bulqarlar, savirlər və b.

Bu tayfalar iskitlərin yeni eradakı davamı idilər. Yunan mənbələri Qafqazda yaşayan qəbilə, tayfa və tayfa birliklərindən danışarkən yerli xalq kimi *hunlar* üzərində ayrıca dayanır, onlardan iskit tayfaları, ümumiyyətlə, türklər, türk tayfaları kimi bəhs edir: "Unlar və ya funlar iskit mənşəyindən olan Kaspiətrafı xalqdır" (*243*, s.134). Eramızın I əsrində yaşamış Dionisi Perieget yazır: "Mən orada sakin olan bütün xalqlar haqqında danışacağam: əvvələn şimal-qərbdən başlayaraq Kaspi dənizinin sahil boyunda və onun çay ağızlarında iskitlər, bunlardan sonra döyüşkən albanlar, daha sonra isə cənuba tərəf gözəl midiyalılar yaşayırlar" (*243*, s.134). Həmin mənbədə yenə deyilir: "Simokatta "Kainatın tarixi" əsərində söyləyir ki, unlar şimal-qərbdə yaşayırlar, farslar onları türk adlandırırlar... Yalnız Simokatta deyil, bir sıra doğru məlumat verən yazıçılar da unları çox yaxşı məlum olan iskit qəbiləsi kimi xatırlayırlar" (*243*, s.142).

Son tədqiqatlar göstərir ki, "ən qədim türk dövrünün ikinci mərhələsi hunlarla bağlıdır (onlar suyunlar, xunlar da adlanmışlar). Yeni eradan əvvəl birinci minillikdən eramızın beşinci əsrinə qədər Monqolustan çöllərində, Baykal gölü hövzəsində müxtəlif sistemli xalqları öz ətrafında birləşdirən hunlar burada Hun imperiyasının əsasını qoydular. Hun tayfa ittifaqları ümumdünya tarixi prosesində çox mühüm rol oynamışdır. Yeni eradan əvvəl Çin sərhədlərindən başlayaraq Mərkəzi Avropaya qədər yayılan hunlar, Asiya və Avropa xalqlarının tarixində əsaslı rol oynamış, bu ərazidə xalqların əmələ gəlməsinin əsasını qoymuşlar" (*51*, s.16).

Azərbaycanda hunlar hələ miladdan əvvəl yayılmışlar; hunların qərbə tərəf yürüşü miladdan əvvəlki əsrlərə təsadüf edir (*183*, s.142); "miladın 90-cı ilində başqa bir hun knyazı öz xalqının böyük bir hissəsilə qərbə hərəkət etdiyi və orada əvvəldən qalma hunlarla birləşdiyi zaman onların əzəməti yenidən artmışdı (*183*, s. 145). Qərbə tərəf hunlar bir daha 350-ci ildə yürüş etmişlər; bu dəfə "hunlar əvvəlcə alanların üstünə getmiş, hökmdarını öldürüb onların bir qismini özlərinə tabe etmiş, digər qismini isə uzaq qərbə tərəf qovmuşlar" (*183*, s.145). Daha sonralar, IV əsrin axırları, V əsrin əvvəllərində qərbə tərəf axıb gələn hunlar və alanların çoxu "Pont-Kaspi hüdudlarında qalmışdır" (*183*, s.147). Attillanın ölümü (453-cü il) və hunların Avropa hökmranlığının süqutu ilə əlaqədar Şərqə tərəf qayıdan hun tayfaları dəstələrinin böyük bir qismi də bu türk tayfaları ilə birləşərək tədricən oturaq həyata keçir, yerli əhali ilə qaynayıb qarışırdılar; VI əsrdə hunlar gah farslarla, gah da bizanlarla toqquşurdular...

Bizim eranın əvvəllərindən Aran // Arran və Şirvan ərazilərində yaranıb sabitləşən çoxlu türk mənşəli toponimlər - yer, çay, düzənlik, oba, dağ, dərə, yaylaq və b. adlar diqqəti cəlb edir. Mənbələrdə xatırlanan və əsasən, dağ sözünün antonimi mənasında işlənən Aran // Arran toponiminin özü maraq doğurur. Məhz "Aran toponiminin mənaca açılışı və erkən-orta əsrlər Şirvan və Aran ərazilərində türk toponimlərinin (Aran, Sabir, Biləcəri, Türkan, Ağsu,

Qarasu, Türyançay, Qarayazı, Boz dağ və b.) meydana çıxması Azərbaycan xalqının etnogenizi və qədim Azərbaycan dilinin yaranması məsələlərinin tədqiqi üçün əhəmiyyətlidir" (*110*, s.66).

Miladi tarixin I-III əsrləri türk xalqlarının daha artıq yayılması və nüfüz dairəsinin genişlənməsi ilə səciyyələnir. Bu əsrlərdən türk dilinin daha da güclənməsi, kök salması təkcə Azərbaycan, Qafqaz və "Pont-Kaspi hüdudları" ilə məhdudlaşaraq qalmır, türk xalqlarının geniş miqyasda yayılması türk dilinin nüfuz dairəsini də genişləndirir, bu hüdudları aşıb keçirdi.

"Artıq III-IV əsrlərdə türk tayfaları özlərini Kiçik Asiya, Qafqaz və Balkan xalqlarının saysız-hesabsız və daimi qonşuları sayırdılar, onlar bu sahələrdə daha artıq və daha fəal kök salırdılar"; "375-ci ildə başda hunlar olmaqla, köçəri xalqların çox böyük kütləsi Kaspiətrafi düzənliklərdən qərbə tərəf hərəkət edirdi. Necə deyərlər, xalqların geniş surətdə köçürülməsi başlanmışdı. Bu barədə Roma tarixçiləri (Avzoni, Avreli, Viktor, Ammian, Marsellin və b.) məlumat verirlər. Bizans salnaməçiləri IV-V əsrlərdə Kiçik Asiya, Ermənistan və Frakiya ilə əlaqədar hunları xatırlayırlar (*167*, s.53); "hunların tərkibinə bulqarlar, savirlər (suvarlar), sarmat tayfaları da daxil idilər" (*167*, s.54).

VI əsrdən bulqarlar, suvarlar, avarlar və xəzərlər "Hun qəbilə birliyinə keçdilər"; "VI əsrdə Kiçik Asiya və Qafqazla bağlı çoxlu hadisələr savirlərin (suvar, subar, sibir) adı ilə bağlı idi. Feofilakt Simokatta bunları hun tayfalarına aid edirdi"; "568-ci ildə suvarlar avarları darmadağın etdilər. Bundan sonra suvarların əsas kütləsi Albaniyada (Azərbaycanda) yerləşdi. Menandrın məlumatına görə, Xosrov Anuşirəvan onların qalan böyük bir hissəsini - 10 min nəfərini Araz və Kür arasında yerləşdirdi"; "VI əsrin sonunda bulqarlar və suvarlar Çindən İrana və Vizantiyaya qədər çox böyük tayfaları geniş ərazidə birləşdirmiş olan Türk xaqanlığının hakimiyyəti altına keçmişdilər" (*167*, s.55-56).

S.A.Pletnyova yazır: "VII əsrin əvvəllərində türk xaqanının ordusu Ön Qafqaza, daha doğrusu, Qara dəniz - Kaspi arasına qayı-

dıb gəldi və yenidən bütün qohum türk köçərilərini, o cümlədən xəzərləri öz yürüşlərinə qoşdu" (*133*, s.19); "Türk xaqanının nəzərləri təzədən İrana və Zaqafqaziya əyalətlərinə yönəldi. İranla müharibədə xaqan 626-cı ildə ittifaq bağladığı Bizans imperatoru İraklini öz tərəfinə çəkmişdi. Feofan yazır ki, xəzər adlandırılan şərqi türklərlə imperator ittifaqa daxil oldu. Moisey Kaqanqavatsi də Feofanın bu fikrini təsdiqləyirmiş kimi şahidlik edir ki, türk ordusunun əsas qüvvəsi xəzərlər idi" (*133*, s.20).

Həmin məlumatlar I-VI əsrlərdə hunların, xəzərlər, savirlər və başqalarının Azərbaycan ərazisinin güclü tayfa və qəbilələri olduğu fikrini söyləməyə əsas verir. Mənbələrdə türklərin hun əsilliyi və əksinə, hunların türk əsilliliyi, habelə onların danışdıqları dil barədə fikir və məlumatlar çoxdur: "Dilçilik baxımından bu xalq nəsilcə sonralar peyda olmuş türklərlə yaxın qohumdur"; "türklər böyük hun xalqının sayca və rolca tədricən qüvvətlənmiş davamıdır"; "Çin mənbələri türklərin "aşina"lardan - hunlardan törədiyini qeyd edir (*183*, s.147-148). "Bulqarlar türk idilər"; "bulqarlar və onların davamı olan hunlar türkdürlər" (*179*, s.114). "İndi müəyyən dərəcədə öz əhəmiyyətini itirmiş olsa da, hunların danışdıqları dil məsələsinə çoxlu tədqiqat əsərləri həsr olunub. Siratori təsdiq edir ki, bizə məlum olan hun sözləri türkcədir və bizə qədər gəlib çatan yeganə hun ifadəsi də türkcədir. Hunların dili məsələsi barədə fin tədqiqatçı alimlərinin fikri bir qədər başqadır: Kastren və Ramstedtin rəyincə hun dili türklərin və monqolların əcdadları üçün ümumi dil olmuşdur..." (*157*, s.48-49).

Azərbaycanda xəzərlərin və basillərin yerləşməsi tarixinə dair mənbələrin verdiyi məlumatlara nəzər salaq: "193 və 213-cü illər arasında Vaharşaqın vaxtında "birləşmiş xəzər və basil dəstələri öz hökmdarları Vnasep Surxanın başçılığı ilə Cor keçidindən enib Kürü keçmiş və onun hər tərəfinə yayılmışdılar" (*226*, s.134).

Xəzərlərin, bulqarların, savirlərin kimliyi və necə nəşət etdiyi barədə söylənilən fikirlər diqqəti cəlb edir. Mənbələrdə hunlar ki-

mi, xəzərlərin, bulqarların və savirlərin də iskit-türk mənşəli olduğuna dair fikirlər var. S.A.Pletnyovanın tədqiqatına görə, "VI əsrin ikinci yarısında yaşamış suriyalı müəllif İohann Efeskinin yazdığı "Tarix" əsərinin bölmələrindən birində nəql olunur ki, Bizans imperatoru Mavrikinin hökmranlığı zamanı içəri İskit nəsillərindən üç qardaş peyda oldu. Onlardan biri Bulqar-Roma imperiyası sərhəddindən keçib gəldi, digər ikisi Bersiliya adlanan alan ölkəsini tutdu. "Bu yad xalq onların ölkəsində hökmranlıq etdikləri zaman Xəzərik adlı böyük qardaşın adı ilə xəzərlər adlandırıldı"; "Bersiliya ölkəsilə xəzərlərin əlaqəsini Bizans salnaməçiləri Feofan və Nikiforun məlumatları da təsdiq edir. Feofan qeyd edirdi: "Xəzərlər Bersiliyadan çıxmış böyük xalqdırlar" (*233*, s.15, 17).

M.İ.Artamonovun fikrincə, VI əsrdə savirlərin hərbi-siyasi birliyi yaranmışdı. Bu, şərqi Avropa çöllərinin ən qüdrətli köçəri-tayfa ittifaqı idi. Bu ittifaq haqqında xatirələr X əsrədək qalırmış. Ərəb tarixçi və coğrafiyaşünas əl Məsudi "Qızıl çəmənlər" əsərində xəzərləri türk savirləri adlandırır" (*108*, s.114).

Xəzərlərin, bulqarların, savirlərin dilinə gəlincə, mənbələr bu barədə də öz'sözünü deyir. "Bizans yazıçıları, bir qayda olaraq, xəzərləri türk hesab etmişlər, ərəb alimləri də onları türk adlandırmışlar (*107a*, s.115); dilcə xəzərlər bolqarlara yaxındır. Ərəb yazıçıları buna tam qəti şahidlik edirlər. Əl-İstəxri, onun ardınca isə ibn Həvqəl təsdiq edirlər: "bolqar dili xəzər dilinə bənzəyir"; "qədim bolqar sözlərinə əsasən müəyyən edilib ki, bolqar dili müasir çuvaş dilinə yaxındır və oğuz-peçeneq qəbilə dillərinə mənsub olub, türk dillərinin qərb qrupuna daxildir" (*107a*, s.15).

Z.Bünyadov VII-IX əsrlər Azərbaycanın etnogenezindən bəhs edərkən yazır: "İndiki Azərbaycan ərazisində hələ V əsrdə məskunlaşmış olan və müasir tarixçilərin onları türk adlandırdığı çox böyük türk qəbilə birləşmələri hunlar Muğanda yerləşmişdilər"; "İbn Əsam əl Kufiyə görə, Araz vadisində, Bəyləkan və Vərsan zonasında türk dili yayılmışdı" (*133*, s.180-181) və b.

Azərbaycan ərazisində bulqarların mövcudluğu barədə mənbələrdəki dəlillərə bunu əlavə etmək olar ki, Biləsuvar rayon mərkəzindəki "Bolqarçay" adlı kiçik çay, Lənkəran zonasındakı "Bolqar göy təpə", "Bolqar-kənd" adları ölkədə vaxtilə məskən salmış türk-bolqar qolu barədə təsəvvürləri genişləndirir.

Burada qədim "az" // "as" etnosu, "az" adlı tayfa, xalq barədə söz demək zərurəti yaranır.

Azlar, az // as tayfasının türk əsilliyi və qədimliyi barədə R.Qurbanovun tədqiqləri diqqəti cəlb edir. Biz bunu bir qədər yeni səmtə yönəldirik.

DTS-da "Orxon-Yenisey" kitabələrinə əsasən *az, azlar* etnos, xalq mənasında izah olunur: "Az, azlar - xalq". S.Y.Malovda *az* etnosuna bu izah verilir: "Az: etnik qrup, Gögmən dağlarında xalq (*211,* s.89) və b. "Orxon-Yenisey" kitabələrində bu etnos, xalq bir neçə yerdə xatırlanır. Türklərin öz aralarında gedən vuruşlarda məğlub olduğu, sonradan çıxıb qarışdığı, birləşdiyi göstərilir.

1) Gültəkin kitabəsindəki mətndə:

"Karlukuq ölürtimiz, altımız: az budum yağı boltı, Qara göltə sünüşdimiz. Gültikin bir qırq yaşayur ərti; alp Şalçı akın binip oplayu təkdi; az Eltəbəriq tutdı; az budun anta yok boltı = Qarluqları öldürdük, (qalanlarını) tabe etdik; az xalqı bizə yağı oldu, Qara göldə vuruşduq. Gültəkin 31 yaşında idi, alp ağ Şalçı (atını) minib hücuma keçdi; az Eltəpəri tutdı, az xalqı onda yox oldu" (GTb 42-43).

2) Mogilyan xanın kitabəsindəki mətndə:

"Örpəntə sünüştüm, süsim sancdım. Az budumığ (altı)m = Örpəndə vuruşdum, qoşununu məğlub etdim, Az xalqını tutdum (tabe etdim)" - "BK. 26 və b.

Azların türk qövmü olduğu mətnlərdə xatırlanan və izahı verilən yerlərin *(Qara göl, Gökmən, Örpən)* və onların başçılarının adından (Az Eltəpər / Eltəbər) da müəyyənləşir. Birinci mətndə "Az budun anta yox boltı" cümləsindəki "anta" sözü "oradan" mənasında da düşünülür. Belə olan surətdə cümləni "Az xalqı oradan yox olub

getdi" - şəklində müasirləşdirə və nəticəni "məğlubiyyətdən sonra azlar yığışıb başqa yerə getdi" - şəklində də düşünə bilərik...

Son üç min ildə Saxalin-Qadırkan dağ silsilələrindən tutmuş Yevksin Pontuna - Qara dənizədək qədim türk xalqlarının məskəni olmuşdur. Tarixən türkdilli qəbilələr, xalqlar arasındakı çəkişmələr, vuruşlar, qələbə və məğlubiyyətlər onların bir yeri tərk edib başqa bir yerə köçməsi, məskan salması, yerini-yurdunu təzələməsi halları ilə də nəticələnirdi... Mətnlərdəki "az xalqı", "az Eltəpər" sözləri, "Qara göl", habelə S.Y.Malovun xatırladığı "Gökmən dağları" etnos və toponimləri Azərbaycanla və bu ərazidəki "Gökçə göl", "Qara su", "Göy çay", "Gök təpə" və b.k. sözlərlə səsləşir. Məgər bunları təsadüfü saymaq olarmı?..

2). TUQYU-TÜRK HÖKMRANLIĞI: AŞİNALAR-TUQYULAR


Xalqın və onun dilinin təşəkkülü, formalaşması və inkişafi tarixində vahid hakimiyyət mühüm rol oynayır. Azərbaycan ərazisindəki müxtəlif kiçik tayfa dillərinin dil ümumiliyinə doğru inkişafında uzunmüddətli hakimiyyətin həmişə güclü təsiri olub. Bu mənada hələ miladdan qabaqkı "İskit" və "İskit-Massaget", Sak, Hun padşahlıqları az rol oynamamışdı. Tuqyu-türk hökmranlığı bu padşahlıqların və imperiyaların yeni eradakı davamı idi. İskit birliyi parçalandıqdan sonra hunlar əsl türk mənşəli dövlət-imperiya yarada bilmişdisə, yeni eranın əvvəllərində o, iki hissəyə - qərbi və şərqi hun dövlətlərinə parçalanmışdı. Azərbaycan xalqı məhz Qərbi Hun dövləti ərazisində formalaşmışdır. VI əsrdə isə güclü tu-qyu tayfaları bu iki parçalanmış dövləti birləşdirərək Tuqyu dövlətinin əsasını qoya bildilər.

Tədqiqatçıların bu barədə gəldiyi nəticələrə nəzər yetirək.

P.M.Melioranski "Orxon-Yenisey" kitabələrinə giriş sözündə yazır: "Əvvəlcə bu kitabələrin sahibinin - Çin mənbələrində "Tuqyu" adlanan xalqın tarixinin, yəni türk tarixinin ən ümumi cizgilərini xatırlayaq. "Tu-qyu" tarix səhnəsinə miladın VI əsrinin əvvəlində çıxmışdır: çinlilər onları hunların nəsilləri hesab edirlər. On-

ların vətəni "Altun dağ" (kitabələrdə "Altunyış") adlanır. Onlar beləcə, Aşina (Assena) tayfasının başçılığı ilə cucanlara (jujanlara), ola bilsin ki, o vaxt Orta Asiyaya hökmranlıq edən tunquz qəbiləsinə qulluq edərək metal istehsalı ilə məşğul olurdular. Tezliklə onlar nəinki cucan əsarətinə son qoydular, əvvəlcə öz qonşularını, sonra isə həmin əsrdəcə Sakit okeandan Qara dənizədək olan bütün ölkəni özlərinə tabe etdilər. Bu vaxt onların məskəni Dukin (Tükin) dağları idi. 600-cü ilə yaxın Tu-qyu dövləti iki - şərqi və qərbi hissələrə bölündü" (*216*, s.264).

Həmin Tuqyu - türk hökmranlığının sərhəddi "Qədim türklər" kitabında verilən xəritədə belə göstərilir (*156*, s.19). Həmin xəritənin fotosunu veririk.



Тюркютская держава в конце VI в.

P.M.Melioranski davam edir: "Bizim kitabələrdə Tu-qyu xanının Sakit okeandan Qara dənizə qədərki bütün torpaqları və xalq-

ları öz hakimiyyətində birləşdirdiyi VI əsr şöhrətli Tu-qyu hökmranlığının sərhəddi barədə düzgün danışılmır; kitabələrdə Şərqdə sərhəddi indiki Mancuriyaya və ya yazılarda Kadırkan adı ilə verilən Xinqan dağ silsiləsinə gedib çıxan türk hakimiyyətinin qədim dövrləri barədə də bir şey yoxdur" (*216,* s.267).

Azərbaycanın məhz ilk "İskit-türk" padşahlığının mərkəzi olması, habelə ölkənin ərazicə ümumtürk xaqanlıqları mərkəzində yerləşməsi Azərbaycan xalqının və onun dilinin formalaşması prosesində əhəmiyyətli rol oynamışdır. Bununla belə, Azərbaycanda gah türk, gah da fars hökmranlığı üstünlük təşkil etmişdir. Bu növbələşmə isə müəyyən dərəcədə qüvvələri parçalasa da, dildə əsas xətt üzrə gedən inkişafa mane ola bilməmiş, hər şəraitdə türklük güclənmiş, buna əlavə olaraq isə türkdilli tayfalar - qəbilə və b. axın-axın gəlib bu torpaqda məskunlaşmaqda davam etmişlər.

İbn Məskuyə yazır: "Ənuşirəvan söyləyir ki, şimal rayonlarında yaşayan türklər bizə yazdılar ki, biz ehtiyac içərisindəyik, əgər bizə bir şey verməsəniz sizinlə vuruşmağa məcburuq. Onlar qarşıya bu tələbi qoyurdular: birinci, biz onları öz qonşumuz sırasına qəbul edək; ikinci, onların dolanacağını təmin edək, üçüncü, Künc və Biləncər sahələrindən onlara yer verək, çünki onlar bu torpaqların məhsulu ilə dolanırlar" (*172a,* s.191). Burada, axırıncı tələb diqqəti xüsusi cəlb edir: bu sahələr türklərin öz torpaqları imiş ki, onu geri istəyirdilər. Sonra, "padşahlığımızın 37-ci ilinin əvvəlində Xəzər rayonunda yaşayan türklərdən dörd sinif əhali bizə məktub yazdı. Bu siniflərin hər birinin öz padşahı vardı..." (*172a,* s.191).

İbn Məskuyə yenə yazır: "Ənuşirəvan etiraf etmiş ki, türklər qoçaq xalqlardır, onlardan hər cür istifadə etmək mümkündür"; "Əlli üç min türkün bir hissəsini Bərcanda olan hərbi hissənin yanında, bir hissəsini Allanda olan hərbi hissənin yanında, bir hissəsini də Azərbaycanda yerləşdirdim və hüdud boyunca ehtiyac görünən yerləri onlara payladım" (*172a,* s.202).

Türk xalqlarının tarixində VI-VII əsrlər diqqətəlayiq dövrdür. "Orxon-Yenisey" kitabələrinin yazılması və tamamlanması da, "Də-

də Qorqud"un düzülüb-qoşulması da bu dövrə aiddir. Dövrün ümumi ruhunu, türk xalqlarının hələ o vaxtlar sabitləşmiş, toxunulmaz adət-ənənələri və digər xəlqi-mənəvi keyfiyyətlərini təsdiq edən bir faktı xatırlayaq: 582-ci ildə, Göy türklər iki yerə bölündükdən sonra müvəqqəti Çin əsarəti dövründə Çin xaqanı türklərin başçısı Şe-Tu xaqana məktub yazaraq, vəd verir ki, onun təkrarən qüdrətli xaqan olması üçün çalışacaqdır, bu şərtlə ki, o, türklərin dillərini, mənəvi keyfiyyətlərini, adət-ənənələrini dəyişdirməli, türklər Çin mədəniyyətini tanımalıdır. Şe-Tu xaqanın məktuba cavabı belə olmuşdu:

"Sizə hər il vergi göndərəcək, bütün vaxtımı sizə sərf edəcək, sözünüzü dinləyəcəyəm. Ancaq paltarlarımızın ətəklərini kəsməyə, çiyinlərimizdə dalğalanan saçlarımızı ləğv etməyə, dilimizi dəyişdirməyə və sizin qanunlarınızı mənimsəməyə gəlincə, bizim ənənələrimiz və qədimdən qalma adətlərimiz çox uzaq keçmişlərdən gəlir ki, mən özüm də indiyə qədər bunlardan tək bircəsini belə dəyişdirməyə cəsarət etməmişəm. *Çünki bütövlükdə türk xalqı eyni qəlbə malikdir*" (*296,* №2, s.20-21).

Bu adi cavab deyil, son və qəti tələb idi. Burada söhbət "türk bütövlüyündən" gedir, bu xalqın çinlilərdən qədim olduğuna işarələr vurulurdu. Belə olan surətdə bu xalq nə üçün Çin mədəniyyəti və adət-ənənələrinin əsiri olmalı, onun qayda-qanunlarını qəbul etməlidir!?.. Şe-Tu xaqanın məktubundakı son cümləni kursivlə verdik. Burada böyük məna var; o vaxta qədər mövcud və davam edib gələn türk xalqları ictimai-siyasi səbəblər üzündən müxtəlif dövrlərdə gah dövlətlər, gah imperiyalar daxilində birləşsələr, gah da səpələnsələr belə, bütövlükdə "eyni qəlbə malik xalq idi". Deməli, bütöv bir xalq idi, millət idi. Onun min-min illər qazandığı, yaratmış olduğu xəlqi-milli keyfiyyətləri dəyişmək, onu parçalamaq mümkün deyildi.

İndi görək elə həmin vaxtda - 580-ci illərdə bu xalqın Azərbaycanla əlaqədar hissəsi, yəni Azərbaycanda əsrlərdən bəri məskən salmış türk tayfaları, onların siyasi mövqeyi, mənəvi keyfiyyətləri və s. necə idi və bu barədə tarixi mənbələr nə deyir? M.Erkin Bay-

burtlu Osmanın "Bəhrül-Ənsab" əsərinə müraciətən yazır: "Göy Alp xanın əcəli yetişib dünyadan köçdü. Oğullarından Qaydur xan, Turmuş xan ölkəni bölüşüb hərəsi bir vilayətin xanı oldu. Qardaşları Bayındır xanın hamiliyi ilə qətiyyətlə Xorasandan Aniyə, Qarsa gəldilər. Gürcülərlə vuruşub Tiflisi aldılar. Oradan Dəmirqapıya keçərək oranı tutdular... Oğuzların özlərinin təsdiqinə görə onlar bir xalqdır. Bayındır xanın əsgəridir. Peyğəmbərimiz dünyaya gəlməzdən əvvəl onlar gürcülərlə cəngi-cidal edib Gürcüstan bəylərindən qırx il xərac almışlar (*282*, s.40). Azərbaycan xalqı - oğuzlar məhz "çox uzaq keçmişlərdən gələn qədimdən qalma" zəngin mənəvi keyfiyyətlərə, adət-ənənələrə, dilə, habelə ədəbi ənənələrə malik olmalı idilər ki, VI-VII əsrlərdə dünya ədəbiyyatının nadir incilərindən sayılan "Dədə Qorqud" dastanlarını yarada, yetirəydilər...

VII əsrin ortalarına doğru vəziyyət nisbətən başqa bir istiqamət alır; "Çin sərhəddindən tutmuş ta İrana və Bizansadək öz imperiyasını yaradıb genişləndirmiş olan türklərə qarşı durmaq üçün sasanilər tərəfindən Albaniyanın şimal sərhəddində Dərbənd qalası yenidən tikilib möhkəmləndirildi. Buna baxmayaraq, Şərqi Avropada türk xanlarının varisləri olan xəzərlər 627-ci ildə Dərbəndi alıb, Bizans imperatoru İraklinin və onun sasanilərlə mübarizəsinin müttəfiqləri kimi zorla Albaniyaya girdilər..." (*116*, s.777).

Azərbaycanda ərəb işğalı vəziyyəti yenidən dəyişdi.

3). VII-IX ƏSRLƏR: ƏRƏB İSTİLASI VƏ ONUN BƏZİ NƏTİCƏLƏRİ

VII-IX əsrlər türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının tarixində çox qanlı-qadalı dövrdür. VII əsrdən başlanan ərəb istilası Azərbaycanda çox qarışıqlıq törətdi. Ərəblər ölkədə bütün yerli xəlqi mədəniyyətin kökünü kəsərək Azərbaycan tarixinin qədim keçmişini bugünədək şübhə və dolaşıqlıq içərisində qoydular...

Səid Nəfisi yazır: "Ərəblər Aran ərazisinə Osman ibn Əffanın xilafəti (23-35=643 / 44-655 / 56) dövründə gəlməyə başladılar.

Səlman ibn Rəbiə Vahili bu ölkəni fəth etməyə təyin edildi. Lakin Aranın qonşuluğunda olan xəzər türkləri bir neçə dəfə buraya hücum edərək xilafətin qoşunlarını darmadağın etdilər (*66*, s.35). İbn Əsəm əl Kufi əlavə edir ki, "Səlman ibn Rəbiə Vahili də bütün adamları ilə birlikdə həlak oldu" (*112*, s.11), digər tədqiqatlar Səlman ibn Rəbiənin dörd minlik ordu ilə Dərbəndin Qırxlar keçidində məhv olduğunu yazır" (*116*, s.421) və b.

Azərbaycanda ərəb işğalının ilk illərindən istilaçılara qarşı mübarizə başlamışdı; üsyanlar qalxır, amansız vuruşmalar, müharibələr davam edirdi. Bu türklər məhz miladi tarixdən əvvəl VII əsrdə (623-cü ildə) elə təxminən bu ərazidə, Bakı-Dərbənd arasında "öz hökmranlığını bütün Asiya boyu genişləndirmiş olan" tayfa birliyinin - əski türklərin yeni, miladi tarixin VI-VII əsrlərindəki davamı idilər...

Bilavasitə Babək hərəkatı ərəfəsi və dövründə Azərbaycan xalqının etnogenezi məsələsinə gələk. Z.Bünyadov yazır: "Azərbaycanda və Aranda türkləşmə prosesi ərəblərin siyasət meydanına çıxdıqları vaxtdan çox qabaq, Sasanilər imperiyası dövründə başlanmışdı. Ərəblərin Azərbaycanda peyda olması və onların müstəmləkəçiliyi əvvəlcə bu prosesi saxladı və tezliklə ərəblərin özlərinin türklər tərəfindən assimilyasiyası onu sürətləndirdi və vur-tut yüz il sonra o, tamam geniş şəkil aldı" (*133*, s.178-179); "Ərəblər Azərbaycanı və Aranı istila zamanı bu ərazidəki türk qəbilələrilə toqquşdular. Ərəb mənbələrində də biz ərəb istilasına qədər Azərbaycanda türklərin yaşadığı barədə məlumatlara rast gəlirik (*133*, s.182). Z.Bünyadov davam edir: "Ərəb mədəniyyət mərkəzlərilə əlaqəsini itirən Azərbaycandakı ərəblər yerli türk əhalisinin dilinə keçməklə, yavaş-yavaş ana dillərini və adətlərini unutmağa başladılar, onun həyat tərzini, geyimini, yemək-içmək və yaşayış qaydalarını qəbul edərək onunla qarışdılar" (*133*, s.182).

Beləliklə, tarixi faktlar təsdiq edir ki, ərəb işğalı ilə yanaşı, "gəlmə" dil – din dili, "rəsmi" dövlət dili olan ərəb dili nəinki Azərbaycan-türk dilini sıxışdırır, əksinə, özü assimilyasiya olunurdu. Söz

yox, bu ilk növbədə Azərbaycan torpağında çox uzaq keçmişlərdən, e.ə. ikinci minillikdən kök salıb inkişaf edən türk sistemli dil, onun qüdrəti, geniş təsir və nüfuz dairəsi ilə əlaqədardı... Bununla yanaşı, islam dininin yayılması, yerli xalqın islamlaşması ilə əlaqədar dilə bir çox ərəb sözləri, istilahlar daxil olurdu. Azərbaycanda ərəb dilinin elm, din, şəriət dili kimi sonrakı əsrlərdə də fəaliyyətdə olması ailə-məişət, dini-mərasim, elm, siyasət, hüquq, dövlət, tibb, fəlsəfə, coğrafiya və s. sahələrə aid ərəb söz və istilahlarını istər-istəməz dilə gətirir və bunlar xalq arasında yayılır, canlı dilə keçir, lüğət tərkibinə də daxil olurdu. Bir sıra yer, oba, kənd adları isə yerli dillə qovuşuq və calaqlı şəkildə formalaşırdı. Məsələn; indi Azərbaycanın inzibati bölgüsünə daxil olan Ağdaşda *Ərəbocağı, Ərəbşəki;* Ağsuda *Ərəbmehdibəy, Ərəbuşağı, Ərəbsarvan;* Bərdədə *Ərəblər, Xanərəb;* Dəvəçidə *Ərəblər;* Yevlaxda *Ərəbbəsrə;* Kürdəmirdə *Ərəbqubalı, Ərəbxana,* Göyçayda *Ərəbşahverdi, Birinci Ərəbcəbirli, İkinci Ərəbcəbirli,* Masallıda *Ərəb,* Salyanda *Ərəbqardaşbəyli;* Xaçmazda *Ərəb,* Şamaxıda *Ərəbşahverdi, Ərəbqədim, Ərəbşalbaş,* (*5,* s. 21, 23, 29, 30...) və bir çox başqa adlar məhz VII-VIII əsrlərdə yaranıb və bunlar o vaxtlardan qalma toponimlərdir.

Xəzərlər Azərbaycan xalqının etnik tərkibində müəyyən rol oynamış; xalqımızın təşəkkülü və formalaşmasında iştirak etmişlər. Xəzər dənizi onların adından qalan canlı yadigardır. Z.Bünyadov da bu fikirdədir ki, ilk dəfə "Aranın işğalı zamanı ərəblər bu ölkəni öz nəzarəti altında saxlayan özlərinin güclü xəzər əleyhdarları ilə toqquşmuşdular. Ərəb-Xəzər müharibəsi yüz ildən artıq davam etmiş və ərəblər xristian ölkələrinə yönəlməyə məcbur olmuşdular" (*133,* s.171-172). Sonra: "Sasanilər hakimiyyətinin sonunadək Şimali Azərbaycan içərilərində türklərin böyük yer tutduğu xəzərlərin əlində olub; o vaxt Azərbaycanla birgə bu ölkələri ərəblər tez-tez "Xəzər ölkəsi" adlandırırdılar" (*133,* s.172).

VIII əsrin əvvəllərində (722-731) Xəzər Xaqanı Bars bəy Azərbaycanda ərəb valisi əl Cərrahın qoşunlarına qarşı çox güclü ordu

ilə mübarizəyə qalxmış, dəfələrlə ərəb qoşunlarına qalib gəlmişdi. İbn Əsəm əl Kufi yazır: "Xaqan - xəzərlərin hökmdarı müsəlman olmayan ölkələrə nümayəndələr göndərərək, onlarla bir inamda və tayfada olduğunu bildirdi və onları müsəlmanlarla müharibəyə çağırdı. Onların hamısı buna razılıq verdi. Öz dəstələrilə gəlib onun oğlu Narstik ibn Xaqanın yanına toplaşmağı və əl Cərrah ibn Abdulla ilə müharibə üçün Azərbaycan ərazisinə yürüş yapmağı əmr etdi... Bars bəy ibn Xaqan xəzərlərdən və müsəlman olmayan tayfalardan ibarət 300 minlik ordu ilə belə yürüşə başladı. Tezliklə o, qoşunla Kür və Araz çayları arasına gəldi. Buradan o, Vərsana getdi, onu tutdu və əhalisini tamam qırdı. Sonra əl Cərrah ibn Abdullanın bütün Azərbaycana yayılmış qoşunlarına hücum məqsədilə Vərsandan çıxdı" (*112,* s.21-22). Nəticədə, əl Cərrahın qoşunları darmadağın edildi. Döyüşlərdən birində vali də həlak oldu.

Tarixçi son döyüşü belə təsvir edir: "Xəzərlər əl Cərrahın qoşununu qılıncla qarşıladı və Savalana çəkilən 700 və ya ondan bir qədər az döyüşçüdən başqa hamısını məhv etdi... Bars bəy ibn Xaqan əl Cərrahı axtarıb tapmağı əmr etdi və onu meyidlərin içindən tapdılar. Bars bəy onun başını kəsməyi əmr etdi" (*112,* s.24). Əl Cərrah Bars bəylə üz-üzə gəlməli, döyüş meydanında təkbətək ya o buna, ya da bu ona qələbə çalmalı idi. Ta qədimdən "qayda" belə idi. Qədim dünyada insan tələfatının qarşısını almaq üçün, görünür, bu qayda ədalətli sayılırmış; maraqlıdır ki, bizim dastan və nağıllarımızda da bu belədir. Lakin "qayda" pozulmuş, düşmən tərəfin başçısı meydana çıxmamış, küncdə-bucaqda həlak olmuşdu. Buna görə cəzası vardı... Araz hökmdarı Tomiris ana da belə etmişdi. Tomiris ananın övladları, onun yeni - miladi tarixdəki xələfləri, nəsli Bars bəy də belə etmişdi. Babək də belə edirdi. Bu tarixi keyfiyyəti, qəhrəmanlıq qırımını-vətənin keşiyini çəkmək və yadelli işğalçılara qarşı mübarizə əzmi və ənənəsini aralarında min ildən artıq məsafə olsa da, məhz bu ənənəvi tel, habelə istilaçılara qarşı, ərəb işğalçılarınadək ənənə şəklində davam edib gələn mübarizələr tarixi yetirmişdi...

Azərbaycanda ərəb işğalına, müsəlmanlığa qarşı mübarizə ruhu, kin, qəzəb o qədər güclü idi ki, xilafətin qoşunları yerləşən hər yerə, habelə müsəlmanlığı qəbul etmiş ayrı-ayrı əyalət və şəhərlərə, mahallara basqın edilir, müsəlmanlar qılıncdan keçirilirdi. İbn Əsəm əl Kufi sözünə davam edərək yazır ki, sonra "xəzərlər Ərdəbilə yönəldi və basqın etdilər. Ərdəbil əhalisi xeyli vaxt gecə-gündüz onların mühasirəsinin qabağını aldı; elə ki, mühasirə uzandı, kömək də gəlmədi, onlar şəhəri təhvil verdilər. Xəzərlər şəhərə qılınc gücünə girdilər" (*112,* s.24).

Daha sonra, Bars bəy ibn Xaqan 190 minlik ordu ilə yeni Azərbaycan valisi əl Həraşiyə qarşı dayanmışdı... (*112,* s.50).

Xaqan Bars bəyin on ildən artıq apardığı bu mübarizə ondan sonra da davam edirdi. Xəzər Tərxan və başqaları Xilafətə qarşı mübarizə meydanından çəkinmirdi (*112,* s.51). Həm Bars bəy, həm də Tərxan // Tarxan adlarına, eyni əsrlərdə yaradılmış "Orxan-Yenisey" kitabələrində "Güc Bars" (Yn 14), "Bars bəy" (ktb 20), "Tarkan Sanqun" (Yn 32), "Taman Tarkan" (BKxa 14) şəkillərində rast gəlirik; Kitabələrdə onların qəhrəmanlıq və mərdliyindən danışılır; Bars bəyə Xaqan titulu verildiyindən söhbət gedir...

Göy türk xaqanlığı Azərbaycanı ciddi nəzarət altında saxlayırdı. Bars bəyi də o göndərmişdi.

Beləliklə, Xilafətə qarşı Azərbaycanda ilk mübarizə məhz xəzərlərlə başlamışdı. Babəkə qədərki bu mübarizənin 200 ilə yaxın tarixi vardı. Mübarizə IX əsrin əvvəllərindən daha yeni vüsət almış, Şəhrək oğlu Cavidan onu yenidən davam etdirmişdi; Babək Xürrəmidin isə bu mübarizəni zirvəyə yüksəltmiş, ona dünya şöhrəti vermişdi...

Bununla belə, istilaçı ərəblər nəyin bahasına olursa-olsun qələbə çalmağa, ölkəni bütünlüklə işğal etməyə cəhd edirdilər. Xalqı ram etmək, onun qüdrətini qırmaq üçün hər vasitəyə əl atılırdı. Bu məqsədlə işğalçı ərəb valiləri Azərbaycanda türk dilini yaxşı bilən başqa etnik tərkibə mənsub yeri adamlardan xüsusilə istifadə edir,

onları ələ alır, yüksək vədlər və şirnikdirmələrlə casus kimi xalq arasına göndərir, qoşun içərisinə salır və əksərən məqsədlərinə nail də olurdular. Tarixi mənbələr göstərir ki, əl Cərrahın qətlindən sonra Azərbaycanda ərəb valisi olan "Əl Hərəşi belə bir məlumat alır ki, xəzərlərin hökmdarı Xaqan oğlu Bars bəy çox böyük bir ordu ilə Vərsanda əylənib. O, Bəyləkan sakinlərindən Bərdik adlı bir nəfəri öz yanına çağırdı. Bərdik fars idi, amma cəsur adamdı və xəzərcə gözəl danışırdı və hökmdarın ala atlarından xəbərdardı... Əl Hərəşi ona dedi: "Ey Bərdik! Sən müsəlmansan və istəyirəm ki, öz canını Allaha və müsəlmanlara qurban verəsən; Vərsana gedib əhaliyə bildirərsən ki, mən gəlirəm onlara kömək edim və onların şəhərlərini xəzərlərdən almağa mane olmasınlar. Və Bərdik Əl Hərəşiyə dedi: "Mən bunu edərəm" (*112,* s.29).

Belə də olmuş, Bars bəy bu döyüşdə məğlubiyyətə uğramışdı.

Babək hərəkatına qarşı da bu cür cəhdlər, sui-qəsdlər az edilməmişdir.

Azərbaycan xalqının azadlığı və ərəb işğalına qarşı mübarizə tarixində Babəkin adı qızıl xətt kimi keçir. Babək bütövlükdə Azərbaycanı öz ətrafında birləşdirmişdi.

Səid Nəfisinin "Babək" əsərində deyilir: "Əbu Mənsur Bağdadi "Əl-fərq beyn-əl firəq" adlı kitabında yazır: "Babəkin azərbaycanlı və deyləmilərdən ibarət adamlarının sayı üç yüz min nəfərə çatırdı" (*66,* s.14, 24); İmam Fəxri Razi yazır: "Babəkilər Babəkin tərəfdarları idilər. Babək özü isə Azərbaycandan idi. Onun qüdrəti uzun müddət artmaqda idi" (*66,* s.27, 36); "Deyləmilər" etnik tərkibcə kimlərdi ki, Babək onları ərəblərə qarşı səfərbər etmişdi? Tarixi mənbələrdə bu suala aydın cavab verilir: "İbn Mənsur məşhur Misir qrammatiki Kuraun - Nəmlə istinadən ərəb qəbiləsi hesab edilən "Deyləmin türklər olduğunu bildirir". Şəmsəddin Sami də Deyləmin qədimdən bəri türklərlə məskun olduğunu yazır" (*57,* s.9).

Babək hərəkatının əhatə dairəsi və onunla birləşən əyalətlərin xəritəsini "Babəkin vətəni", - deyə Səid Nəfisi belə təsvir edir:

"Babəkin vətəni cənub tərəfdən Ərdəbil ilə Mərəndə, şərq tərəfdən Xəzər dənizinə, Şamaxı və Şirvana, şimaldan Muğan düzü ilə Muğana və Araz çayı sahilinə, qərbdən isə Culfa, Naxçıvan və Mərənd nahiyələrinə qovuşurdu. Başqa sözlə desək, indiki Ərdəbil, Muğan və Araz düzənliklərini, Ordubad, Culfa, Naxçıvan və Mərənd nahiyələrini əhatə edirdi" (*66*, s. 36).

Səid Nəfisi Babəkin 22 ildə çaldığı qələbə və uğurların səbəbini məhz bu birlik ilə, xalqın dözümlülüyü və mətanəti ilə izah edir, "Babəkin müvəffəqiyyətinin və onun düşmənlərinin müvəffəqiyyətsizliyinin səbəbini Azərbaycan xalqının birliyində, ərəb istilaçılarına və onların hakimiyyətinə qatlaşmamaqda axtarmaq lazımdır", (*66*, s. 41-42) - deyə yazırdı.

Lakin düşmən öz işini görürdü; hər cür vasitəyə əl atır, Babəkin adamlarını öz tərəfinə çəkir, xainlər tapır, casusluq şəbəkəsi yaradırdı.

İbn əl Əsir Babəkin ikinci məğlubiyyəti və bütünlüklə Babək hərəkatının məğlubiyyətə uğramasının əsas səbəbini İsmət əl Kürdinin xəyanətilə izah edir: "(Bir gün) Babək bir neçə atlı əsgərlə İsmət adlı sərkərdəsini ibn Bəisin yanına göndərdi. Onlar ibn Bəisin yanına gəldilər. İbn Bəis onları öz adəti üzrə (aşağı mərtəbədə) qonaq otağına yerləşdirdi. Sonra İsməti öz xüsusi otağına (yuxarı mərtəbəyə) dəvət etdi və özünün yaxın adamlarını da oraya çağırdı. O da yuxarı qalxdı. Sonra yedirtdi, keflənincəyə qədər şərab içirtdi. Sonra İsməti dilə tutub onu öz sədaqətinə inandırdı. Onunla gələn əsgərləri öldürməyə başladı. Ona (İsmətə) əmr etdi ki, onunla gələn adamları bir-bir yanına çağırsın. O da hər kişini adı ilə çağırır, əsgər də yuxarı qalxır (ibn Bəis) də onun boynunu vururdu. Məsələ anlaşılana qədər onları bu surətlə bir-bir xeyli öldürdü; (işi duyanlardan) bir qədəri qaçdı, İsməti isə Əl Mötəsimə göndərdi. Əl Mötəsim İsmətdən Babəkin olduğu yerlər haqqında məlumat soruşdu. İsmət bu şəhərlərin yollarını və onlarda müharibə etmək qaydalarını əl Mötəsimə bildirdi. Bundan sonra əl Mötəsim İsməti həbsdə saxladı. Vasiq xəlifə olana kimi İsmət həbsdə qaldı. Sonra

Afşin Babəkin ölkəsinə getdi, Bərzənddə yerləşdi. Özü ilə Ərdəbil arasında olan yolları və qalaları da zəbt etdi..." (*53*, s.49).

Digər mötəbər mənbə eyni tarixi həqiqəti bir qədər fərqli təqdim edir: "Babəkin bütün qüvvələri böyüdü. Məhəmməd ibn əl-Bəis və onun tabeliyində olan Mərənd hakimi İsmət əl Kürdi də onunla birləşdi. Buna görə, əl Mötəsim əmr edib ölkənin hökmdarı İsaq ibn İbrahimin qardaşı Tahir ibn İbrahimi göndərdi ki, xalqla (üsyançılarla) müharibəyə başlasın. Onun gəlib çıxması ilə əlaqədar ibn əl Bəis Mötəsimə sədaqətli olduğunu inandıran (məktub) yazdı ki, o, Babəkə və onun tərəfdarlarına qarşı lazımi tədbirləri görəcək. Sonra o, Mərənd hakimi İsmət əl Kürdini aldatdı: onun yanına getdi və onun qızına evləndi, sonra isə onu evinə dəvət etdi, onu və onunla gələnləri inadla içirməyə başladı, elə ki, onlar kefləndi, gecə ikən onları öz Şəki adlanan qalasına apardı, sonra isə əl Mötəsimə göndərdi. Əl Mötəsim ona (ibn əl Bəisə) bolluca mükafat verdi... Sonra əl Mötəsim Afşin Heydər ibn Kavus əl Osruşani göndərdi və onu getdiyi bütün əyalətlərin hakimi təyin etdi. O özü ilə hədsiz sursat və çox böyük miqdarda silah apardı. Cəbələ çatdıqda Afşin orada olan bütün səfilləri və adlı-sanlı adamları səfərbər etdi və irəlilədi. Onunla Babək arasında bir neçə müharibə oldu. Onun ordusu Bərzənd adlanan yerdə məskən saldı..." (*175*, s.16-17).

Belə də olmuş, Babək hərəkatı məğlubiyyətə uğramışdı.

Bəzz qalasını tərk edib Bizansa kömək almağa gedərkən Babəkin tutulmasında da eyni fənd və üsuldan istifadə edilmişdi. Əbu Hənifə Dinavari yazır: "Əl Afşin yaxın əyalətlərin hakiminə, Ermənistanda kürdlərə və muzdurlara yazdı ki, onlar Babəkin yolunu kəssinlər..." (*133*, s.332).

Belə də olmuş, Babək tutulub ələ verilmişdi...

Səid Nəfisi öz tədqiqatında nəticə olaraq bu fikirləri xülasə edir: "Babək islam aləmi üçün böyük bir bəla idi"; "Mücmələt-təvarix..." müəllifi Nizam əl Mülk "Siyasətnamə" əsərində yazır: "Mötəsim üç böyük qələbə əldə etmişdir ki, onların hər üçü də is-

lama qüvvət vermişdir. Bunlardan birincisi Rum fəthi, ikincisi Babəkin məğlub edilməsi, üçüncüsü atəşpərəst Mazyarın Təbəristanda məğlub edilməsidir. Bu üç qələbədən biri baş tutmamış olsaydı, islam əldən getmişdi" (*66,* s.50, 146).

İstila öz işini görürdü; türk xalqları zorla müsəlmanlaşdırılır, mədəniyyət abidələri məhv olur, xalqın maddi-mənəvi sərvətləri daşınıb aparılırdı; əsasını miladdan əvvəlki çox uzaq dövrlərdən alan türk yazı mədəniyyəti batırılır, ərəb əlifbası zorla qəbul etdirilirdi. Halbuki öz qədimliyinə və imla keyfiyyətlərinə görə türk yazısı ərəb yazısından çox-çox əzəli və təkmil idi.

Qədim Azərbaycan yazı mədəniyyəti məhv edilən xəlqi-milli mədəniyyətlərin ancaq biri idi. Elə "Divanü lüğat-it-türk" kitabının taleyinə nəzər salaq. Müəllifin verdiyi məlumata görə, həmin əsər türk dilini öyrənmək üçün ərəblərin öz sifarişilə yazılmışdı. Şamlı bir fars bu əsəri köçürüb saxlamasaydı, o da itib-batmışdı. Eyni fikri yarandığı və yazıya alındığı vaxtdan min, min dörd yüz il sonralar Drezden və Vatikan kitabxanalarından tapılan "Dədə Qorqud kitabı" haqqında da demək olar...

Beləliklə:

a) uzun müddət müxtəlif fasilələrlə Azərbaycanda fars hökmranlığı, fars dili rol oynamışdı; müəyyən dövrlərdə isə bu dil ikinci dərəcəli rəsmi dil olaraq yaşamışdı. Lakin fars dili heç zaman yerli xalqın dili ola bilməmişdi;

b) VII əsrdən başlayaraq, Azərbaycanda müxtəlif fasilələrlə ərəb hakimiyyəti və ərəb dili mühüm rol oynamışdı; müəyyən dövrlərdə din, şəriət, elm dili kimi bu dil güclənir, rəsmiyyətə salınırdı. Lakin fars dili kimi ərəb dili də yerli xalq arasında hakim mövqe qazana bilməmişdi. Ərəb istilası Azərbaycanda türk dilinin inkişaf prosesinə nəinki mane ola bildi, əksinə, gəlmə ərəb toplumlarında da assimilyasiya edildi. Azərbaycan-türk dili ərəb aləmində də öyrənilməsi zəruri olan bir dilə çevrildi...

4). "AZƏRBAYCAN" ADI VƏ "AZƏRBAYCAN DİLİ" İSTİLAHI

a) ***"Azərbaycan" adı.*** "Azərbaycan xalqı", "Azərbaycan dili" istilahları ölkənin adı - "Azərbaycan" sözü ilə əlaqədar meydana çıxmışdır.

"Azərbaycan" adı mürəkkəb sözdür və ilkin fikir və mülahizələrə görə, iki hissədən ibarətdir: *Azər+baycan.* Həm bütövlükdə bir söz, həm də iki sözdən ibarət birləşmə kimi "Azərbaycan" adının mənşəyi və təşəkkülünə dair fikirlər müxtəlifdir. "Azərbaycan" adı "Atropat" və "Atropatena" sözlərilə əlaqələndirilir; Midiyanın Atropat və onun nəsli tərəfindən idarə olunan hissəsini yunan yazıçı və alimləri "Atropatena" adlandırıblar. Bəzi tarixçilər deyirlər ki, "Atropat" sözü Azərbaycanın qədim qəbilələrindən birinin adıdır. Hələ e.ə.VIII əsrdə mixi yazılarda "Antorpatianu" şəklində verilmiş sözün "Azərbaycan" sözü ilə əlaqədar olduğu ehtimalı da var (*202,* s.128).

Digər mənbələrdə deyilir: "*Adarbadaqan.* Zend ləhcəsinə mənsub olan bu sözü gürcü salnaməçisi, görünür, təhrif edir; bununla belə, qanqanlar da *Atrpatakan* deyirlər... Qədim farslar onu *Aderpadeqan* və *Adərbecan* adlandırmışlar. Pəhləvi kitablarında ona *Atun-padaqan* demişlər. Yunanlar *Atrapatena* yazmışlar. Bütün bu adlar həmin ölkədə bol olan yanar neft alovlarından əmələ gəlib; zendcə *atr,* farsca *adzər* və *adər,* ermənicə *atur,* pəhləvicə *atun* - bütün bu sözlər od mənasını verir" (*266,* s.308).

Bu mənbələr əsasında "Azərbaycan tarixi"ndə deyilir: "Atropaten - Azərbaycanın elmə məlum olan adlarından ən qədimidir. Bu ad yunan mənbələrində göstərilmişdir. Sonralar onun şəkli dəyişərək iranlılarda - "Adərbadaqan", ermənilərdə - "Atər-pataqan" və "Atrpataqan", ərəblərdə - "Adərbaycan" və "Azərbaycan" formalarını almışdır. Həmin sözlər "odlar ölkəsi" deməkdir ki, bu da ölkədə atəşpərəstliyin geniş surətdə yayılması ilə əlaqədar idi" (*5,* s.58).

Azərbaycanın *Odlar diyarı,* Azərbaycan xalqının odlar övladı adlanması, əslində, çox uzaq keçmişlərdən gəlir. Herodotun yazdığına görə, hələ eradan əvvəl VI əsrdə Araz hökmdarı Tomiris anan

övladları massagetlər (iskit tayfa birliklərindən olan qədim türklər) Günəşə və oda sitayiş edər, Günəşi tanrı sayardılar. Tomiris ana tanrı Günəşə and içərdi (*I*, 212)... Strabon təkrarən eyni mətləbə işarə etmişdi: "Onlar tək bircə Günəşi Tanrı sayır və ona atdan qurban verirlər" (XI-VII, 6). Ondan da beş-altı əsr sonra F.Simokatta eyni mətləbdən danışır, VI-VII əsrlər Qafqazətrafi - Odlar diyarında yaşayanların inamından, dini baxışları, əqidəsi və mənəvi keyfiyyətlərindən bəhs edərək yazırdı: "Türklər odu hər şeydən uca tutur, hava və suya ehtiram göstərir, torpağa tərif nəğmələri oxuyurlar. Göyləri və torpağı yaradana isə sitayiş edir və onu Tanrı adlandırırlar" (*239a*, s.161)... Görünür, ölkənin Odlar diyarı, sakinlərinin odlar övladı adlanması öz əsasını, kökünü, çıxış nöqtəsini hələ e.ə. bu torpağın sakinlərinin Günəşə inamından, oda sitayişindən götürüb.

Belə anlaşılır ki, bir mənada *Azərbaycan* sözünün birinci hissəsi *od, atəş* deməkdir. Onda sözün ikinci hissəsi hansı mənanı verir? Bunu aydınlaşdırmaq üçün ikicə mənbəyə də müraciət edək: Yaqut Həməvi yazır ki, Azərbaycanın adı "bəzilərinin fikrincə, pəhləvi dilindəki od mənasını bildirən ad (h) hər və qoruyucu, mühafizəçi mənalarını verən "baykan" sözündən törəmişdir; beləliklə, bu söz "od evi"ni və ya "od mühafizəçisi"ni bildirir ki, bu da həmin ölkədə od evləri çox olduğu üçün həqiqətə uyğundur" (*176*, s.3). A.Bakıxanov yazır: "Ehtimala görə, Azərbaycan sözü Babəkan sözünün ərəbcələşdirilmiş şəklidir. Azərbaycan bunun və ya başqa bir Babəkin adından alınmışdır. Məlum olduğu üzrə, atəşpərəstlik bu ölkədə zühura gəlmiş və yayılmışdır. Riyazüssəyahə müəllifi "Azərbaycanı" "Azərbayəkanın" ərəbcələşmişi sayır. Bu da qədim fars dilində atəşgah mənasındadır" (*14*, s.61-62).

Ad(h)ərbaycan // Adərbaycan // Azərbecan // Adarbadaqan - Azərbaycan sözünün kökündə, həqiqətən "od"luluq var. Bunun *o - a* səslərinin əvəzlənməsi qanunu ilə "od" kökünün tədricən və müxtəlif dillərdə *ad(h)ər, adər, adar, ad-z-ər, azər, azar*... şəkillərinə düşməsilə də formalaşdığını güman etmək olar.

Lakin "Azərbaycan" adının başlanğıcı, ilk "doğuluş"unun qədim "az // as" tayfasının adı ilə bağlı olduğu daha artıq ağlabatandır.

Azərbaycan sözünün birinci yarısı "Azər"dir. Strabonda Araz çayı üstündə *Azar // Azər* adlı bir şəhərin də adı çəkilir (bax: XI, XII). Artıq qeyd edildiyi kimi, "Qədim türk lüğəti" (DTS) "az" sözünün qədim türk tayfası, xalq adı olduğunu yazır; bir sıra digər qaynaqlar da bunu təsdiq edir. *Azər* sözünün ikinci hissəsi isə "ər"dir. Buradan da "Az+ər" - "Azər", "Azərlər ölkəsi", "Azərlər yurdu" və s. düşünmək olar. "Azər" sözünə sonra "bay" (varlı, zəngin, bəylər bəyi), daha sonra isə "kan" - "qan" ("xan" sözünün qədim şəkli) hissələri birləşmiş və *Az+ər+bay+kan - Azərbaykan // Azərbaycan* sözü yaranmış, proses təxminən belə getmişdir: *Az+ər*(ləri) - *Az+ər+bay*(ları) // *Az+ər+bay+kan*(ları) ölkəsi. Sözün ikinci hissəsinin formalaşmasında ölkənin qədim mərkəzlərindən olan və artıq izahı verilmiş "Bay+(la)+kan // Bey+(lə)+kan / Bəy+(lə)+qan şəhər adının da iştirakı ağlabatandır. Beləliklə, *Azərbaykan // Azərbaycan* tərkibi dörd sözün - *az, ər, bay, kan // qan* birləşməsindən ibarətdir ki, bu sözlərin dördü də qədim türk sözüdür...

Ana torpağın, doğma yurdun adı olan "Azərbaycan", bu sözün mənşəyi - "doğuluşu", təşəkkül tarixi, sözün mənaları, quruluşu və s. haqqında mənbələrdə zəngin məlumatlar, müxtəlif fikir və mülahizələr var: bu barədə ayrıca tədqiqat aparmaq, düşünüb elmi nəticəyə gəlmək və əsl həqiqəti üzə çıxarmaq lazım və çox gərəkli işdir. Bütöv bir ömrü buna sərf etməyə dəyərdi. Biz, imkan daxilində, bir neçə faktı xatırlamaq, bəzi mülahizələr yürütmək və güman etməklə kifayətləndik.

Mənbələrdə qədim Dəbil və Ərdəbil şəhərlərindən danışılır. Yaqut Həməvi yazır ki; "Ərdəbil Azərbaycanın ən məşhur şəhərlərindəndir. İslamiyyətə qədər bu şəhər ölkənin mərkəzi olub" (273, s.10). Ərdəbil toponimi Ər və Dəbil sözlərinin birləşməsi nəticəsi ola bilməzmi?! Bu qəbil sözlər az deyil. Azərbaycan ərazisindəki bir sıra *Az+ər - Az+ar, Ər+az // Ər+as // Ar+as, Xəz+ər,*

Ar+an // Ər+an // Ər+ran // Ar+ran, Ər+sak // Ar+sak... və b.k. qədim yer, şəhər, çay, dəniz adlarındakı "ər" sözləri diqqəti cəlb edir və ciddi araşdırılmağa möhtacdır... Bütün bu sözlərə qoşulan *ər-ar* sözlərini təsadüfi saymaq olarmı?!

Beləliklə, *Azərbaycan adı* daha əzəlidir, öz əsasını ana torpağın hələ eradan əvvəlki çay, şəhər, yer adlarından götürübdür;

Azərbaycan adı ana torpağın, onun qədim sakinlərinin adı və şan-şöhrətindən yaranıbdır.

b) ***"Azərbaycan dili".*** Bu istilah daha sonralar ölkənin adından törəmişdir.

Xalqı və onun dilinin mənşəyini, təşəkkülünü müəyyən etmək işində yazılı abidənin əvəzsiz rolunu nəzərə alsaq, V-VIII əsrlər türk xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixində çox mühüm dövrdür.

Bu dövr iki cəhətdən əlamətdardır:

1) bu dövrdə türk xalqlarına məxsus zəngin "Orxon-Yenisey" kitabələrinin yüksək inkişafı nəzərə çarpır;

2) bu dövrdə Azərbaycan dilinin misilsiz abidəsi "Dədə Qorqud kitabı" ("Oğuznamə") yaranmışdır.

"Dədə Qorqud"da türk-Azərbaycan mənşəli bir çox yerli dağ, yaylaq, qala, qoruq, düzənlik, kənd və şəhər adları var; "Aladağ", "Qazlıq dağ"; "Qaradərə", "Dəmir qapu Dərbənd"; "Ayğırgözlü suyu"; "Bambam dəpə"; "Cızıqlar", "Ağılqan", "Kökcə dağ", "Talı sazı"; "Qaytaban", "Ağayıl", "Bükdüz", "Ağcaqala", "Sürməli", "Düzmürd qələsi", "Qara dəniz"; "Sallaxana qayası"; "Günortac"; "Bərdə", "Gəncə", "İr qobılı Ala Dağ"; "Kökcə dəniz", "Əlincə qələsi"; "Dərəşam"; "Suncudan"; "Ərqıc qır", "Ortac qır", "Ağ Qaya", "Ağ Saz" və s. Azərbaycan dilinin formalaşması və inkişafı ilə qırılmaz bağlı olan bu adlar ayrıca və ciddi tədqiqata möhtacdır. Bu adlar özü böyük bir tarixdir. Dilimizdə bu cür hadisələrə sanki yekun vuran bir məsəl var, deyərlər: "Yerlər haman yerlər, görünməz oldu ellər". Ellər çoxdan dünyadan köçüb getmiş, nəsillər bir-birini əvəz edib görünməz olmuşdur. Lakin "yerlər haman yerlər"dir -

dağlar, dərələr, düzlər, sular, göllər-dənizlər yerindən belə tərpənməmiş, öz adlarını da gətirib müasir dövrə, zəmanəyə çıxarmışdır. Düzdür, buradakı bir sıra qala adları qalmaya da bilərdi, bu adların bəziləri isə o vaxtlar qoyun yaylaqlarına, at-dəvə oylaqlarına (Aqılğan, Ağayıl, Qaraqoç, Qaytaban və b.k.) verilən adlar idi; buna görə də yaddan çıxa, itib-bata da bilərdi.

"Dədə Qorqud kitabı"nın VI-VII əsrlərin tarixi şəxsiyyəti olan Qorqud tərəfindən düzülüb qoşulduğu və yazıldığını nəzərə alsaq, dastanlar sonralar dəfələrlə köçürülüb, xüsusilə dilcə, üslubca müəyyən dəyişikliklərə uğrasa da, oradakı toponim adların dəyişilə biləcəyi ağıla sığmır. Bu adların VI-VII əsrlərdə yarandığına və ya o yerlərə həmin əsrlərdə verildiyinə də dastanlarda heç bir işarə yoxdur; deməli, o vaxtlar bu adlar mövcud idi: bu gün də mövcuddur. Toponim sözlər: - çay, dağ, dəniz, göl, yer və s. adları birdən-birə yaranmır, bunun üçün bəzən əsrlər lazım gəlir; bu adların da yaranması üçün neçə-neçə əsrlər, müəyyən münasibətlər və s. lazım idi. Məsələn, Gəncə (şəhər adı) toponimini alaq. Mənbələr göstərir ki, bu ad qədim Oğuz-türk tayfalarından olan Gəncək adından qalıb, zaman keçdikcə, Gəncə şəklinə düşüb. V-VI əsr mənbələrində Qandzak // Kanzak, yəni Gəncək işlənir. F.Simokattada "Gəncək", "kiçik şəhər Gəncək", "Gəncək şəhəri" deyə üç yerdə xatırlanır (*239a,* s. 78, 120, 131)... Bir köşkün, düşərgənin, yaşayış yerinin, kəndin V-VI əsrlərdə birdən-birə şəhər olması mümkün deyildi; bunun üçün feodal dünyasında əsrlər keçməli idi. Fikrimizcə, bütün bu toponim adların meydana çıxması, başqa etnik tərkiblərin də dilinə keçməsi tarixi, ən azı, bizim eranın əvvəllərinə aiddir.

Yeni eradan orta qurşaqdakı iki böyük "daxili dənizin" adı dəyişmişdir: "Poit" sözü öz yerini "Qara dəniz"ə vermişdir. Habelə "Kaspi dənizi" toponimi, kaspilərin özləri qədim iskit-türk tayfalarından olsa belə, yenə də öz yerini digər daha güclü türk tayfasının - xəzərlərin adına vermiş, "Kaspi dənizi", "Xəzər dənizi" olmuş, bu adlar indi də müştərək işlədilir...

Bu faktlar "Dədə Qorqud kitabı"nın mötəbər tədqiqatçılarının belə, guya "oğuzların əvvəllər "qırğız" çöllərində yaşadıqları, sonralar Qafqaza gəldikləri" (*117a*, s.112, 132), "XI əsrin birinci yarısında Zaqafqaziyanın cənubunu və az qala bütün Kiçik Asiyanın tutduqları", beləliklə də, bu "istilanın nəticəsində Azərbaycanın qədim əkinçi əhalisinin türkləşməsi" fikirlərini tamam şübhə altına almış olur. Azərbaycan torpağında VI-VII əsrlərdə "Dədə Qorqud"u yaratmış - Oğuzlar bu torpağın daha qədim sakinləri idi. V.Bartold yazır ki, "VI əsrdə Orta Asiyada yeni köçəri imperiya yarandı", Altaydan baş qaldırmış bu "türklər qısa bir müddətdə Böyük Okeandan Qara dənizə qədər olan bütün xalqları özlərinə tabe etdilər" (*117a*, s.264, 267).

V.V.Bartold "Orta Asiyada yeni köçəri imperiyadan danışırsa, bəs m.ö. VII, V-IV, III-I əsrlər, təxminən, Qara dənizin qərb sahillərinədək öz hakimiyyətlərini genişləndirmiş olan Turan, Sak, Hun imperiyalarından və b.e. III-IV əsrlərində İspaniyayadək yerimiş Dəsti-Qıpçaq imperiyasından niyə söhbət açmır? "Orta Asiyada yaranan yeni köçəri imperiya" məhz bu imperiyaların ənənəvi və qanuni davamı idi.

XI əsrin üçüncü rübündə, daha dəqiq desək, 1074-cü ildə tamamlanmış "Divanü-lüğat-it-türk"də 22 kök, ana oğuz bölüklərinin adı çəkilir ki, bunların "Bizans-Rum ölkəsinə ən yaxın" (*1*, 22) ərazilərdə, indiki Azərbaycan, Ermənistan, Gürcüstan və buralara yaxın torpaqlarda sakin olduqları göstərilir. Əgər oğuzlar həmin əsrin "birinci yarısında" gəlmiş, bu yerləri "istila etmiş" olsaydılar, bu böyüklükdə və təzə hadisə türk ellərini qarışbaqarış gəzmiş "Divan" müəllifinin nəzərindən qaçmazdı, o, heç olmasa, o, bircə yerdə buna işarə vurardı. Lakin belə işarə yoxdur.

Burada yenə "Dədə Qorqud"a müraciət edib, kafirlərin "bizi ök, Oğuzı sındır!" təkidinə qarşı Salur Qazanın cavabından bir yeri xatırlayaq:

"Ağ Qayanın, qaplanının, ərkəkində bir köküm var...
Ağ Sazın, aslanında bir köküm var...
Azvay Qurd ənügi ərkəkində bir köküm var...

Ağ Sunqur quşı ərkəkində bir köküm var...
Qalın Oğuz elində bir oğlum var, Uruz adlu.
Bir qartaşım var, Qaragünə adlu...” (280-281).

Burada “kök”ün - əsil-nəcabətin *qaplan, aslan, qurd* və *sunqur* quşu ilə bağlanmasının rəmzi mənası var və bunlar totem də ola bilər. Boylarda Salur Qazanın “Tulu quşun yavrusu”, “ümmət soyunun aslanı”, “Qaraçuğun qaplanı” adlandırılması (28, 62) və onun qurdla söyləşməsi də (32, 33) müəyyən məna kəsb edir. Bu söhbətlər ana torpaqla - Azərbaycanla bağlıdır və islamiyyətdən çox-çox əvvəllərdən soraq verir; bu faktlar sübut edir ki, Oğuz elinin bu torpaqda dərin kökü var, bu el “Qalın eldir” və başdan-binadan bu torpağın sahibi olmuşdur. Müasir Azərbaycan xalqı da məhz bu “Qalın eldir”, onun dili də bu “Qalın elin” türk dilidir.

“Dədə Qorqud kitabı” məhz “Qalın Oğuz elinin”, onun həyat tərzinin islamiyyətə qədərki və islamiyyətin ilk əsri və ya dövrünü hərtərəfli əhatə edən bədii kitabıdır. Bu kitab onu yaradan, düzüb qoşan ellərdən, bu kitabı məharətlə işləyən, qopuz çala-çala, nəğmə oxuya-oxuya el-oba arasında cilalayıb tamamlayan və kitab bağlayan Qorqud Atadan, oğuz kökləri birliyinin yaranması və vahid xalq şəklində birləşməsindən dürlü xəbər verir. Habelə ümumxəlqi keyfiyyətlərin - ailə-məişət tərzinin, adət-ənənələrin, ədəb-ərkanın, şəxsiyyət və xarakterin, bədii-estetik zövqün, danışıq-nitq mədəniyyətinin, ər-arvad və valideyn-övlad münasibətlərinin, yoldaşlıq, dostluq və qohumluq əlaqələrinin, el-obaya, doğma torpağa, ana yurda məhəbbət və sədaqətin tam formalaşması, inkişafı və bütün bunların bədii şəkildə tərənnümündə Qorqud Atanın ədəbi şəxsiyyət kimi xidməti əvəzsizdir. Kitabda oğuz ellərinin vahid birliyi, ana torpağa, vətənə məhəbbət motivləri, düzlük və mərdlik kimi insani keyfiyyətlər güclü şəkildə qoyulur, bəşəri səviyyəyə yüksəldilir. Birliyə və Oğuz ləyaqətinə xəyanət üstündə Qazan xan öz dayısı Aruzun başını kəsdirir... “Qaragünə atdan endi. Aruzın başın kəsdi. Taş Oğuz bəkləri bunı görüb, həp atdan endilər. Qazanın ayağına düşdilər.

Suçların dilədilər, əlin öpdilər. Qazan suçların bağışladı" (302-303). Məhz "Dədə Qorqud", bizə məlum olan və olmayan "Oğuznamələr" və ya "Oğuznamə" səviyyəli kitabələr Azərbaycanda qəbilə və tayfaların, Oğuz "kök"lərinin vahid xəlqi istiqamətə yön alması gedişində mühüm rol oynamışlar; habelə Qorqud Atalar, bizə məlum olan və olmayan Qorqud Ata səviyyəli xalq istedadları, ədəbi şəxsiyyətlər, ümumilikdə isə ayrı-ayrı boy-kök və ya qəbilələr Azərbaycan xalqı və onun dilinin, nitq-danışıq mədəniyyətinin ümumiləşməsi və inkişafı prosesində güclü fəaliyyət göstərmişlər.

VI-IX əsrlərdən türk-oğuz dili adlanan dil, eyni zamanda, yavaş-yavaş ölkənin adı ilə xatırlanır, mənbələrdə bu dilə "Azərbaycan dili" və ya "Azərbaycanın dili" deyə də müraciət edilirdi. X əsr ərəb alimi İbn Hövqəl yazırdı: "Azərbaycanın dağları Xarisdən və Xuvayrisdən* başlamış Aqara** və Varzaqan*** silsiləsinə qədər, sonra şimala tərəf Tiflisə doğru uzanır, orada bu silsilələrlə Kabk**** sıra dağları birləşir. Bu dağlar çox böyükdür; deyirlər ki, orada 360 dildə danışırlar; əvvəllər çox şəhərlər görənə qədər mən bunu inkar edirdim; buradakı hər bir şəhərin Aderbeycan və fars dillərindən əlavə öz dili vardır" (*246*, s.97).

Buradakı "*Aderbeycan* - Ad(h)ərbeycan dili" istilahının müasir "Azərbaycan dili" məzmununda işləndiyinə şübhə etmirik; bu dilin türk-oğuz dili olmadığına dair başqa dəlil də yoxdur. "Azərbaycan dili"nin ərəb mənbələrində göstərilən bu nüfuz dairəsi "Dədə Qorqud kitabı"nın yazıldığı dilin o vaxtkı nüfuz dairəsinə tam uyğun gəlir. "Dədə Qorqud"da danışılan dilin sərhəddi Kür-Araz üstü, Böyük

---

*Böyük Ararat və Kiçik Ararat.

**Yəqin ki, Əkəri çayının Araza qovuşduğu yerdə yaşayış məntəqəsi, indiki Akara dəmiryol stansiyasından başlayan silsilələr.

***Yəqin ki, Cənubi Azərbaycanın Kərməyi əyalətindəki Varziqan kəndinə uzanan silsilələr: həmin sözlə əlaqədar səhifənin sonunda belə bir çıxarış da var: "b/R əlavə edir: "və beləliklə, Sabalan dağına tərəf".

****Qafqaz sıra dağları.

Qafqazın cənub və şərq ətəkləri və Kiçik Qafqaz dağları boyunca uzanıb gedirdi. Bu sərhəd şimal-şərqdən Dərbənd ağzına (39, 70...), cənub-qərbdən Göyçə gölünə (Dastanlarda: "Kökcə dəniz" - 255), qərbdən Baş keçidə - Dumanisiyə (Dastanlarda: "Tomanın qələsi" - 273, 274), Gürcüstan ağzına (37, 235, 236...) və Abxaziya (202) sahillərinədək çatırdı. Həm də diqqətdən yayına bilməz ki, dastanlarda qonşu xalqların da türk dilində danışdığına, oğuzların öz dillərində onlarla ünsiyyətdə olduqlarına, qopuzla deyilib oxunan şeirlərə ləzzətlə qulaq asdıqlarına, hətta özlərinin də bu dildə şeir qoşduqlarına (247, 274, 281) dair faktlar, işarələr çoxdur... Əgər X əsrdə "Azərbaycan dili" istilahı işlənibsə və bu dil "360 dildə" danışan müxtəlif tayfa və qəbilələrin ümumi ünsiyyət vasitəsi olubsa, maraqlı və təqdirəlayiqdir ki, bu istilah ölkənin bütünlükdə adı ilə əlaqədar formalaşmışdı; bu, qanunauyğun prosesdir. Bu məzmunu ifadə etmək üçün tarixən müxtəlif istilahlardan istifadə olunmuşdu: gah "türk-oğuz" dili, gah "türk" dili, sonralar gah "tatar dili", "Azərbaycan tatarlarının dili", gah "Azərbaycan dili", gah "Azərbaycan türklərinin dili" və s. istilahlar işlədilmişdir. Lakin mahiyyət etibarilə bunlar hamısı bir idi - türk-Azərbaycan dili nəzərdə tutulurdu.

"Azərbaycan dili" istilahı bu istilahların hamısından uğurlusudur; elmi-tarixi prinsipə uyğundur, yerli torpağın adı ilə bağlıdır. İndi bu istilahın azı min illik tarixi vardır; bu istilah, xüsusilə son dövrlərdə dildə daha da möhkəmlənmişdir. Bu əsasda yaranıb istifadə olunan başqa istilahlar da belə: "Azərbaycan xalqı", "Azərbaycan mədəniyyəti" və s.

Beləliklə, Azərbaycan dilinin tarixi ta qədimdən, miladi tarixdən əvvəlki dövrlərdən Azərbaycan ərazisində yaşayan türk qəbilə və tayfa birliklərinin və onların dilinin tarixidir.

Bununla belə, ölkədə sakin olmuş və indi də sakin olan bir sıra başqa dilli qədim və kiçik etnoslar da mövcuddur. Azərbaycan dili tarixinin səhifələrini işıqlandırmaq naminə bu xalqların dilləri barədəki məlumatlara nəzər salaq.

5). AZƏRBAYCAN ƏRAZİSİNDƏKİ DİGƏR QƏDİM DİLLƏR

Azərbaycan bir sıra qəbilə və tayfaların, dillərin və ləhcələrin mövcud olması ilə qədim dövrlərdən alimlərin, səyyahların, coğrafiyaçıların diqqətini cəlb etmişdir. Hələ Herodot yazmışdı ki, "Qafqazda çoxlu tayfalar yaşayır" (*1*, 203). Strabon təkcə Azərbaycan Albaniyasında 26 dildə danışıldığını xəbər verirdi (*25*, s.476).

IX-X əsrlərə aid bir sıra ərəb mənbələrində Azərbaycan ərazisində, onun ayrı-ayrı guşələrində, dağlıq və aran yerlərində onlarca qəbilənin, tayfanın, onların dillərinin mövcudluğundan söhbət açılır. Məs., Həmədani (IX əsr) yazır ki, Kabk (Qafqaz) "dağlarında yetmiş iki dil var. Adamların heç biri öz qonşusunun dilini tərcüməsiz başa düşə bilmir" (*273a*, s.295). İbn Hövqəl (X əsr) Azərbaycan ərazisində 300-dən artıq dildə danışıldığı və bunun şahidi olduğunu yazır (*245*, s.97). Azərbaycanın müxtəlif dilli etnik qruplarla zəngin olan bugünkü vəziyyəti də bu sözlərin həqiqətə uyğun olduğunu təsdiq edir.

Azərbaycan-türk və fars, ərəb dillərindən əlavə, ölkədə tarixən mövcud olmuş üç dil - *arran, azəri* və *udin* dilləri üzərində ayrıca dayanaraq, bu dillər haqqında müxtəlif məlumatlara, fikir və mülahizələrə nəzər salaq.

a) ***"Arran dili".*** Arran dili haqqında bu məlumatlar var:

Əl İstəxri yazır:

"Azərbaycan, Ermənistan və Arranın dili fars və ərəb dilidir; Dəbil şəhəri müstəsnadır; şəhər və onun əyalətlərində ermənicə, Bərdə ölkəsində arran dilində danışılır" (*245*, s.28-29).

Əl Müqəddəsi yazır:

"Ermənistanda ermənicə, Arranda isə arranca danışırlar; farsca danışanda onları başa düşmək olur, lakin onların fars dili müəyyən dərəcədə Xorasan ləhcəsini xatırladır" (*246*, s.12).

İbn Hövqəl yazır:

"Azərbaycan və Ermənistan əhalisinin əksəriyyətinin dilinə gəlincə, onların dili ərəb və fars dilidir, lakin ərəbcə danışanlar azdır; bundan əlavə, farsca danışanlar ərəbcəni başa düşmürlər. Təmiz

ərəbcə danışanlar tacirlər və yerli torpaq sahibləridir. Lakin Ermənistanın kənarlarında və ətraf ölkələrdə başqa dillər - Dəbil əhalisi üçün və onun əyalətlərində erməni dili mövcuddur, Bərdə əhalisi arranca danışır" (*246,* s.100).

İlk baxışda bu məlumatlar oxucunu çaşdıra bilər. Lakin məlumatlara sonralar edilən əlavələr, verilən izahlar real vəziyyəti başa düşməyə kömək edir. Həm də, təxminən bir-birini təkrarlayan bu məlumatların verildiyi vaxtda tarixi şəraiti nəzərə almaq lazımdır. Bu məlumatlar Azərbaycanda, Ermənistanda ərəb hökmranlığının gücləndiyi dövrə aiddir; odur ki, bir növ, hakimiyyətə verilən hesabat və ya bələdçilik mahiyyəti daşıyır. Belə ki, həmin dövrlərdə ölkədə rəsmi dil, dövlət dili fars, ərəb dilləri sayılırdı; birinci məlumatdakı "Azərbaycan, Ermənistan və Arranın dili fars və ərəb dilidir" fikri də bu mənada başa düşülməlidir; bunu xalqın ümumi dilinə, danışığına aid etmək sadəlövhlük olardı. Məlumatları mütləq mənada başa düşsək, gərək Ermənistan əhalisinin dilinin də "fars və ərəb dili" olduğunu qəbul edək...

"Dəbil şəhəri və onun əyalətlərində ermənicə, Bərdə ölkəsində arran dilində danışılır" - məlumatındakı "gəlmələşirlər", "danışılır" (ərəbcə: يتكلمون) sözü də bu fikri təsdiq edir. İkinci məlumatda da bu fikrin təsdiqinə işarə vardır: "Farsca danışanda onları başa düşmək olur, lakin onların fars dili müəyyən dərəcədə Xorasan ləhcəsini xatırladır", - deməli, sonradan öyrənilmə dildir, öz ana dilləri deyildir.

O vaxtlar ölkəni öyrənmək, "tədqiq etmək" məqsədilə göndərilmiş bir ərəb səyyahı və ya coğrafiyaşünası məlumat toplarkən ilk növbədə kimə müraciət etməli idi? Şübhəsiz, fars və ərəbcə bilən adamlara. Belə adamlar isə xalqın nümayəndəsi yox, yuxarı təbəqədən olurdu. Budur, üçüncü məlumata edilən əlavələr və izahat məhz bu fikri çatdırmaq, real vəziyyəti aydınlaşdırmaq üçündür: "Lakin ərəbcə danışanlar azdır; bundan əlavə, farsca danışanlar ərəbcəni başa düşmürlər. Təmiz ərəbcə danışanlar tacirlər və yer-

li torpaq sahibləridir". Torpaq sahibləri isə sasanilərdən qalma farslar və əksərən istila zamanı gəlmiş ərəblər idi.

Beləliklə, hər üç müəllif Azərbaycanda, onun Bərdə vilayətində arran dilində danışıldığından söhbət açır. Tarixdə belə bir dil məlum deyil. Bu, görünür, ərəb səyyahlarının Azərbaycanın düzənlik-aran rayonlarında sakin olan xalqın türk-oğuz dilinə verdiyi addır. Tarixçi S.Aşurbəylinin gəldiyi nəticə də belədir ki, ərəb coğraf-səyyahlarının "arranca" və ya "arran dili" adlandırdıqları dil Azərbaycan-türk dilidir.

Arran - aran sözü bu gün də dilimizdə mövcuddur; həm, təxminən qədim Arran torpaqlarını əhatə edən düzənlik rayonlarına deyilir, həm də "dağ", "yaylaq" sözlərinin antonimi mənasında işlənir:

"Mən aşıq yaz aranda,
Yay dağda, yaz aranda.
Bircə kəlmə sözüm var
Yarınan öz aramda".

Əl-İstəxri Azərbaycan, Arran haqqında məlumat verərkən bu torpağın təbii sərvətlərindən danışır və bir sıra yerli sözlər işlədir. Məs.: meyvə adları: شاهبالوط - şahbalut (şabalıt), زوقال - zoqal (zoğal), بندق - bındıq (fındıq), توت - tut; balıq adları: سرماهی - surmahı, زراقان - zəraqan, عشوج - eşubet; başqa sərvətlər: کتان - kətan, نفط - neft və s. (*245*, s.7, 9, 14, 24, 29).

Verilən məlumatlara əsasən, bu sərvətlər Arrana məxsusdur; bu sözlər müasir dilimizin doğma, işlək sözləridir, onun lüğət tərkibinə daxildir. Bəlkə də ərəb səyyahları Arrana gələrkən, fərqinə varmadan ölkədə danışılan dili də yerin adı ilə "arran dili" adlandırıblar. Görünür, "arran dili" deyildikdə, elə türk dili nəzərdə tutulmuşdu. V.V.Bartold isə "arran" dilinin Yafəs dillərindən olduğunu güman edir (*116*, s.777).

b) ***"Azəri dili".*** Azərbaycan ərazisində "azəri dili"nin mövcud olduğuna dair fikirlər müxtəlifdir və ziddiyyətlidir.

Azəri dili haqqında ilk dəfə IX-X əsr mənbələrində söhbət açılır. Yaqut Həməvi "azəri" istilahını Azərbaycan sözü ilə əlaqələn-

dirərək yazır: "Bəzi qrammatiklər deyirlər ki, Azərbaycan sözünün nisbi sifəti "azəri"dir; bəziləri isə deyirlər ki, "azrbi"dir. Onların fikrincə, həmin söz "azər" və "bican" hissələrindən ibarətdir. Buna görə də sifət kimi sözün ancaq birinci tərəfini götürür və bunu "azərbi"də işlədirlər" (*176,* s.2-4).

Yaqut Həməvi davam edir: "Azərbaycanın əhalisi səmimi, çəhrayı sifətli, zərif dərili bir xalqdır. Onlar başqalarının başa düşmədiyi xüsusi bir dillə - azəri dili ilə danışırlar" (*176,* s.4).

Buradakı son məlumat diqqəti cəlb edir: "Azərbaycan əhalisi başqalarının başa düşmədiyi xüsusi bir dillə - azəri dili ilə danışır". Bu məlumata bundan əvvəlki bölmədə verilən məlumatların məntiqi ilə yanaşsaq, həmin bu fikrin ümumilikdə Azərbaycana yox, ölkənin müəyyən bir hissəsinə aid olduğu qənaətinə gələ bilərik. Bu fikri irəlidə gətirəcəyimiz məlumatlar da təsdiq etməkdədir.

Ərəb coğrafiyaşünası Məsudinin fikrincə, "bütün İran əyalətləri fars dilində danışır; əyalətlərdə bu dilin, bir-birindən az fərqli "pəhləvi", "dəri", "azəri" və başqa ləhcələri də var" (*282a,* s.73).

Əhməd Kəsrəvi yazır ki, "Azəri dili yarım fars dilidir, fars dilinin bir qoludur" (*318,* s.8).

V.V.Miller hələ 30-cu illərdə bu məsələ ilə maraqlanmış, ərəb coğrafiyaçılarının fikirləri və Ə.Kəsrəvinin məlum əsərindən çıxış edərək bu nəticələrə gəlmişdi: 1) X, XI əsrlərdə və XII əsrin əvvəlində Azərbaycanda, xüsusən Təbrizdə əhali ayrıca bir "azəri" dilində danışırdı; 2) bu dil İran dili idi, daha doğrusu, İran ləhcəsinə (السنة ايران) daxil idi; o, "dəri" və "pəhləvi" dillərilə bir sırada dururdu (Məsudi) və ya "farsi" ilə birlikdə Qafqaz dağlıları tərəfindən anlaşılmırdı (İbn Həvqəl); 3) fars dilini bilənlər "azəri" dilini başa düşməkdə çətinlik çəkirdilər (*222,* s.223). V.V.Miller Əhməd Kəsrəvinin "azəri" dilinə aid verdiyi mətn-nümunələrə əsaslanaraq həmin nəticələrə bunları da əlavə edir: "Kəsrəvinin mətnlərinin təhlili bizə imkan verir, qəti müəyyən edək ki, 1) XIV əsrdə Ərdəbil ləhcəsinin daşıdığı bir sıra xüsusiyyətlər, şübhəsiz, onu

İranın şimal-qərb qrupu ləhcəsinə (sözün geniş mənasında) yaxınlaşdırırdı; 2) onun, xüsusilə müasir talış dili ilə çox oxşar cəhətləri vardı və 3) onun bir sövti xüsusiyyəti – (ﻫ(ﻫ)>ﺃ) keçməsi tat dilinə də yaxın olduğunu söyləməyə əsas verir" (*222*, s.223).

B.V.Miller sonra yenidən bu məsələ üzərinə qayıdır. O yazır: "Azəri dili qədim Azərbaycanın şərq və şimal-şərq hissəsində danışılan dildir"; "İran Azərbaycanının hüdudlarında, bilavasitə Sovet Azərbaycanının 80 min talışın yaşadığı Lənkəran rayonu yaxınlığında indi də müəyyən qədər talışdilli tayfa yaşayır ki, bunların bir qismi İranın Ərdəbil əyaləti kəndlərində sakindir"... Miller Əhməd Kəsrəvinin verdiyi mətnlərin dilini, söz və ifadələrini talış dili ilə müqayisədə təsdiq edir ki, Əhməd Kəsrəvi "azəri dili"nin İran qrupuna mənsub olduğunu tamamilə doğru müəyyən etmişdir, lakin bu dilin indiki Azərbaycan ərazisində yaşayan hansı İran ləhcəsinə mənsub olduğunu göstərə bilməmişdir. Onun verdiyi mətnlər vasitəsilə "azəri dili"nin talış dili ilə yaxın əlaqəsini müəyyən etmək bizə müyəssər oldu" (*223*, s.255-256).

Sual olunur: bəs bu farsdilli tayfalar Azərbaycan ərazisinə haradan və hansı yolla düşüb?

Bu tayfaların İrana, oradan da Azərbaycana gəlib çıxdıqları tarix məlumdur. İran alimləri özləri təsdiq edirlər ki, indi fars adlanan İran əhalisi qədim hind tayfalarıdır və onlar ilk dəfə İrana e.ə. IV əsrdə gəlmişlər.

Qədim fars tayfalarının Azərbaycana, xüsusilə Arazdan şimala keçməsi tarixi isə iki dövrlə bağlıdır:

1) Makedoniyalı İsgəndər İranda Dara ilə döyüşlərdə qələbə çaldığı, atəşgədələri dağıtdığı, yandırdığı zamanlarda (m.ö. IV əsr) farsdilli tayfalar sığınacaq, salim yer tapmaq məqsədilə Azərbaycana qaçır, xüsusilə Kaspi-Girkan dənizinin şimal-qərb sahilləri boyunca məskən salır, meşələrə, dağlara çəkilirdilər. F.Arian "İsgəndərin hərbi yürüşləri" kitabında yazırdı: "İsgəndər Qafqaza gəlib çıxdı... O, Girkaniyaya gedirdi; öyrənmişdi ki, Dara qoşununda qulluq edən yadellilər dağlara tərəf qaçmışdılar, onları tapurlarla birgə tabe etmək istəyirdi" (III, 23-28), Diodor həmin fikri belə tamamla-

yır: "İsgəndər öz qoşunu ilə Girkaniyaya girdi və ölkənin bəzən Girkan adlanan Kaspi dənizinədək olan bütün şəhərlərinə yiyələndi. İsgəndər Girkaniyanı və onunla həmhüdud tayfaları özünə tabe etdi. Daranın qaçmış hərbi qulluqçularının çoxu özləri ona təslim oldu" (İB - XVII, 75). Diodorun yazdığına görə, bunun əksinə hallar da baş vermişdi; Dara ordusundan yayınıb Kaspi-Girkan hüdudlarında sığınacaq tapan qoşun hissələri bəzən də yerli tayfalarla birləşib İsgəndərə qarşı durmuş, asanlıqla təslim olmamışlar: "İsgəndər Girkaniya sahillərilə keçərkən "mərdlər məkanı" deyilən ölkə ilə toqquşdu. Özlərinin müstəsna gücü ilə seçilən bu adamlar İsgəndərin uğurlarına etinasızlıq göstərdi və onu hörmətlə qarşılamağı layiq bilmədilər. Səksən minlik qoşun cəsarətlə keçidi tutub makedoniyalıların gəlməsini gözlədi. Hökmdar onların üzərinə hücum çəkdi; döyüşdə çoxu məhv oldu, qalanları keçilməz yerlərə qovuldu..." (İB-XVII, 76). Buradakı Kaspi-Girkaniya sahilləri bizim indiki Astara-Lənkəran diyarı və Abşeron torpağına uyğun gəlir; əslində, elə həmin diyardır. Buna görə, rus mətnindəki "strana mardov" ifadəsini tarixin məntiqi ilə "mərdlər məkanı" tərcümə etdik. Güman ki, indiki "Mərdəkan" sözünün əsası, çıxış nöqtəsi də buradandır; o vaxtdan *mərdlər məskanı - mərdlər məkanı* və ya *Mərdkan // Mərdəkan* şəklində formalaşıb. Həmin mərdlikdən iz qalıb...

Tarixin məntiqi güclü olur. Daha qədim kaspi-sak-türk tayfalarının bu torpaqda tarixi nişanəsi *Türk(k)an - Türkan,* ondan bir qədər aralıda isə bu torpağa düşmüş qədim fars tayfalarının tarixi nişanəsi olan *Mərd(ə)kan* - Mərdəkan toponimləri, tarixi həqiqətə yan almaq üçün heç də az söz demir.

2) Sasanilər dövründə, Sasani hökmdarları (Ənuşirəvan və b.) Kaspi, xəzər-türk tayfalarından qorunmaq üçün Kaspi-Xəzər hüdudlarında - Dərbəndədək fars tayfalarını yerləşdirmişlər. Bu tayfalara yerli xalqlar öz dillərində *tat, talış* adları vermişlər ki, bu sözlər qədim türkcədir: "tat - yadelli, gəlmə, özgə tayfa" (Bax: DTS, s.541, I mənada) deməkdir; "tal(+ış) - ağac, ağaclıq, meşəlik yer" (bax: DTS, s.528, I mənada) mənasını verir; yəni ağaclığa,

meşələrə çəkilib yaşayanlar, farslar. Həmin tayfaların bir qisminin, yəni indiki lahışların dağlara çəkilib yaşadığı yerlərin "Talıstan" (ağaclıq yer, meşə-dağlıq diyar) adı da buradandır; tal sözünə əlavə olunan "ıs", əslində Talış adındakı "ış" şəkilçisidir ki, "ş" səsi "s"-ya keçib: *tal+ış - tal+ıs - tal+ış+(s)tan - tal+ıs+tan.*

Tarixin məntiqi güclü olur. Məgər bu tayfalara yerli xalqın dilində yeni adların verilməsi faktının özü də sübut etmirmi ki, bizim əcdadlarımızdan olan qədim *kaspi-sak-türk* və ya *xəzər-türk-sak* tayfaları bu torpaqda daha əzəlidir və onların dili, adət-ənənələri, mədəniyyəti və s. daha güclü olmuşdur və bu gün də güclüdür. Əgər İskəndərin hücumundan yayınıb bu torpağa pənah gətirən və ya Sasani padşahları Kaspi-Xəzər hüdudlarının yerli türk-kaspi, xəzər tayfalarından özlərini qorumaq, öz hökmranlıqlarını möhkəmlətmək məqsədilə fars tayfalarını köçürüb yerli xalqı sıxışdıraraq - "farslaşdırmaq" istərkən, bunun əksinə olan hadisə baş vermişsə, yəni gəlmə-köçürülmə tayfalar özləri "türkləşmişsə" (Makedoniyalı İskəndərin dövründən başlanan bu proses hələ də tamam başa çatmamışdır, tatlar, talışlar, lahıclar hazırda ikidilli sayılırlar), burada yerli-əzəli xalq müqəssir deyildi: tarixin gedişi, mövcud həyat tərzi gəlmələrin tale-müqəddəratını belə həll etmişdi.

Azərbaycan ərazisinə tarixən düşmüş bu tayfalar mənbələrdə müəyyən dövrlərdə "azərilər", onların dilləri isə ümumi şəkildə "azəri dili" adlanmışdır... Azərbaycan, tarixən bir sıra qəbilə və tayfaların, dillərin və ləhcələrin mövcud olduğu bir ölkədir. Burada tatlar, talışlar, lahıclar və b. İran dilli tayfalar da yaşamışlar və indi də yaşayırlar. Lakin tarix təsdiq edir ki, son üç min ildə hər zaman və hər dövrdə, hər şəraitdə türk və türk dili üstünlüyü olmuşdur və bu üstünlük indi də vardır.

Azərbaycan dilinin "azəri dili" adlanan dillə qohumluq əlaqəsi yoxdur; Azərbaycan dili türk sistemli dil, "azəri dili" yarım fars dili, fars dilinin bir qoludur". Azərbaycan ərazisindəki müasir tat, talış, lahıc dilləri həmin azəri adlanan dilin qalıqları, qollarıdır. Bəzən "azərbaycanlılar", "Azərbaycan dili" yerinə Qərb mətbuatında, Tür-

kiyədə və b. yerlərdə "azərilər", "azəri xalqı", "azəri ləhcəsi" işlədilirsə də səhvdir, necə deyərlər, bunlar "qələti-məşhur" ifadələrdir.

c) ***"Udin dili"***, udin tayfası çox qədim tarixə malikdir. Hələ Heredot Qafqazda, Kaspi dənizinin şimal-qərbində "uti" adlı tayfanın yaşadığı barədə məlumat verir. Müasir udinlər eradan əvvəlki həmin "uti"lərdir, başqa sözlə, onların yeni eradakı davamıdır. Bir sıra mənbələrdə *udin - udi - uti* tayfasının iskit mənşəli olduğu da göstərilir (*243*, s.109, 38-39).

Tədqiqatçılar bəzən qədim "alban" dilinin "udin" dili, habelə ərəb tarixçi və coğrafiyaçılarının məlumat verdikləri "arranca"nın da udin dili olduğunu güman edirlər: "Ərəb hakimiyyəti dövründə də Utik (indiki düzənlik Qarabağ) ölkəsinin düzənlik sahələrinin əhalisi alban, yəni udin (uti) dilində danışırdılar. Ərəb tarixçi və coğrafiyaçıları bu dili "arranca" adlandırırlar" (*258*, s.310) iddianın elmi əsası yoxdur. Çünki Strabonun verdiyi məlumatdan da görünür ki, ayrıca alban tayfası və ayrıca alban dili yox, alban tayfaları və alban dilləri mövcud olmuşdur; bunlardan biri də udin tayfası və udin dilidir; "arranca" da udin dili yox, bəlkə də, alban dillərindən biri idi. Udin tayfası və udin dili yaşayır; udinlər əsasən Oğuzda və Qəbələnin Nic kəndində sakindir. Bu yerlər qədim Albaniyanın mərkəzi olan Qəbələ şəhərinin yerləşdiyi ərazidir ki, hazırda xalq arasında Qəbələ mahalı kimi məşhurdur...

Deyilənlərdən aşağıdakı nəticələrə gəlmək olar:

1) Azərbaycan ərazisində hələ m.ö. yaşamış qədim xalqların, daha dürüst desək, qəbilə və tayfaların əksəriyyəti mənşəcə türkdilli olmuşlar; tarixi inkişafın gedişində bu türkdilli qəbilə və tayfalar artmışlar. Onlar zaman-zaman axıb gəlməkdə davam edirdilər; onlardan şərqdən-qərbə, gah da qərbdən şərqə axırdılar, axı onların ulu iskit (kaspi-massaget-sak-hun) babaları bu torpaqların qədim qüdrətli sakinləri olmuşlar... Bütün bunlar, təbii olaraq, ərazidəki başqa əksər qəbilə və tayfaları öz içərilərində tədricən əritmiş və bugünkü Azərbaycan xalqının əsasını, onun etnik-dil tərkibini təşkil etmişlər; "Azərbaycan əhalisinin türkləşməsi" anlayışı səhv anla-

yışdır. Azərbaycan xalqı və onun dili başlanğıcdan "çox böyük və yığcam türk qəbilə birləşmələri", məhz bu əsasda törəmiş və inkişaf etmişdir. Bir xalqın ki, kökü, əsası min illər boyu bu torpaqla bağlı ola, burada heç vəchlə "gəlmədən", "türkləşmədən" söhbət gedə bilməz. Deməli, tezisin qoyuluşu səhvdir. Xilafətə qədər, təxminən, 13-14 əsr davam etmiş və sərhədləri Yaponiya, Çin sahillərinədək uzanan türk xaqanlığının ("İskit" - e.ə. 623, "Tomiris-massaget" - e.ə. 530, müəyyən mənada "Bərdə-Nüşabə" - e.ə. IV əsr və s.) ilkin mərkəzləri də qədim Atropaten - Azərbaycan ərazisində yerləşmişdi. Miladdan əvvəlki son əsrlərdə və miladi tarixdə bu xaqanlıqlar öz paytaxtlarını dəyişir, Orta Asiyada da mərkəzləşirdi...

2) "Azərbaycan adının "doğuluşu" və formalaşması, təxminən miladi tarixin əvvəllərinə aiddir; dilin ölkənin adı ilə adlanması sonrakı dövrlərlə bağlı olsa da, kökləri bu torpaqda daha dərindir və miladi tarixdən əvvəlki dövrlərə gedib çıxır; istər ümumi şəkildə "türk", istər "oğuz", istərsə də "Azərbaycan" sözlərilə bağlı olan anlayışlar, artıq m.ö. VII-VI əsrlərdə xalq və onun dili mənasında mövcud idi, formalaşmışdı; Alp Ər Tonqanın ölümünə ağılar bu dövrün məhsulu idi.

VI-VII əsrlərdə Azərbaycan xalqı "Dədə Qorqud kitabı" kimi bir sənət abidəsini yaratmışsa, onda bu xalq və onun dili birdən-birə, məsələn, elə həmin əsrlərdə yarana, təşəkkül tapa, bu səviyyəyə yüksələ bilməzdi; bunun üçün əsrlər, min illər lazım idi. "Dədə Qorqud", onun dili və onda cəmlənən digər xəlqi-milli keyfiyyətlər tamamlayıcı rol oynamış, Azərbaycan xalqı və dilinin, xüsusilə ədəbi-yazılı dilinin tam formalaşması və yetkinləşməsinə güclü zəmin olmuşdur.

Mənbələrin göstərdiyinə görə, hələ VI-VIII əsrlərdə "Azərbaycan dili" böyük bir ərazidə yaşayıb "yüzlərcə" dildə danışan müxtəlif tayfalar - xalqlar üçün ümumi ünsiyyət vasitəsi imişsə, onda bu üstünlüyü o, birdən-birə, məsələn, elə həmin əsrlərdə qazana bilməzdi; bunun üçün bir çox əsrlər, min illər lazım idi.

Deyilənləri və çıxarılan nəticələri tarixi dialektik inkişafın məntiqi üzrə bir qədər də dəqiqləşdirmək olar.

Tarixin şəhadəti və təsdiqinə görə:

1) Miladdan qabaq, IX-VII əsrlərdən güclü qədim iskit-türk tayfalarından olan saklar, massagetlər və b. Yevkos Pontu sahillərinədək gedib çıxmış, VI əsrdə isə "Kaspi dənizindən Kür çayı boyunca yaşayan buntürklər (kaspilər, hunlar, qədim oğuzlar və b.) gürcü qonşularına köməyə gəlmiş və ondan 200 il sonra isə Makedoniya fatehi İskəndərin qoşunlarına qarşı durmuşsa, bu, onların qüdrətindən soraq verirdi; onlar Kaspi dənizindən Qərbə tərəf min km.-lərlə ərazinin qüdrətli daimi sakinləri, müasir azərbaycanlıların soy kökü - ulu babaları, əcdadları idilər; onların dili, adət-ənənələri də öz kökü, əsası etibarilə o vaxtkı qədim türk dili və adət-ənənələri idi.

2) Miladdan öncə V-IV əsrlərdən Alma-Ata yaxınlığındakı İssık kurqanında yüz illər boyu yüksək mədəniyyət nişanələri (zinət şeyləri, qızıl və metal lövhəciklərdə qaplan, at, dağ keçisi təsvirləri, qızıl dəstəli qılınc və b.) yatıb qalmış, oradan qədim türk əlifbası ilə yazılı gümüş cam tapılmış və bu yazının dili "Yeddi su" köçərilərinin ilk danışdıqları qədim türk dili" imişsə, bu dil bu gün də anlaşılırsa, bu, onların yüksək mədəniyyəti, inkişaf etmiş dili və yazısından soraq verirdi; bunlar isə Kaspi dənizindən Şərqə tərəf ən azı Böyük Çin səddinə və Qadırkan (Saxalin) dağ silsiləsinədək min km.-lərlə ərazinin qüdrətli sakinləri, müasir türk xalqların (qırğız, qazax, özbək, türkmən, başqırd və b.) soy kökü - ulu babaları, əcdadları idilər; onların dili, adət-ənənələri də öz kökü, əsası etibarilə o vaxtkı türk dili və adət-ənənələri idi.

3) Tarix Yer kürəsinin orta qurşağını mühüm bir zolağına qədim türk xalqlarının öz etnik adları ilə hələ m.ö. VI-V əsrlərdən "Kaspi" dənizi, onun üstündən də, təxminən min il sonra, yəni V-VI əsrlərdən təkrarən "Xəzər" dənizi toponimi ilə qoşa "möhür" basmış, qədim türk xalqlarının, hələlik bizə məlum olan son 2500-3000 ildə bu torpaqların əsas daimi sakinləri olduğunu təsdiq etmişdir. Daha qədim Yevkos Pontu dəniz adının miladın I-II əsrlərindən tədriclə tarixdən silinib yazısız-fərmansız "Qara dəniz" adı (həm "böyük", "hüdudsuz", həm də suyunun qara rəngə çalması mənalarında) ilə "möhürlənməsi" də türk xalqının Qərb sərhədlərinin genişləndiyini təsdiq edir...

IV. ORXON-YENİSEY KİTABƏLƏRİ VƏ AZƏRBAYCAN DİLİ

Bir daha təkrar edirik: qədim dövr Azərbaycan ədəbiyyatı, dili və mədəniyyətindən danışarkən onu ümumtürk zəminindən ayrı götürmək olmaz. Qədim dövrlərə doğru getdikcə ümumi - vahid və ortaq keyfiyyətlər çoxalır, üstünlük təşkil edir. Bunu "Qlozel" və "İssık" kitabələri bir daha göstərdi. "İssık" yazısı türk xalqlarının, o sıradan Azərbaycan xalqının, hələlik ən qədim və ortaqlı kitabəsidir. "İssık"dan sonra "Orxon-Yenisey" yazıları gəlir. "İssık"dan "Yeniseyə"dək min il boşluq var. Bu qədər boşluq isə mümkün deyildi; arada nə isə olmalıdır.

"Orxon-Yenisey" kitabələri kimi zəngin mədəniyyəti yaratmış olan bir xalqın bəşər mədəniyyəti tarixindəki mövqeyi aydındır. Təkcə bu abidələrin yazı mədəniyyəti, əlifbası, dili, yazının möhkəm, sabit imlası və s. türk xalqlarının hələ I-VIII əsrlərdə yüksək mədəni səviyyədə olduğunu göstərir.

İlk sözü qədim türk yazılarının məşhur tədqiqatçısı P.M.Melioranskiyə verək: "VIII əsr türklərinin yüksək mədəniyyətini təqdim etmək üçün Orxon kitabələrinin özü də bəsdir" (*216*, s.278). Bu fikri P.M.Melioranski hələ kitabələr yenicə tapılarkən demişdi. Sonrakı tədqiqatlarda aşkar oldu ki, kitabələrin Yenisey qolu daha qədimlərə aiddir (*208*, s.8). Deməli, P.M.Melioranskinin bu fikri

indi bütövlükdə I-VIII əsrləri əhatə edir. Əlbəttə, burada "həmin əsrlər də təxmini götürülə bilər; madam ki, "İssık yazısı"nın miladdan qabağa aid olduğu qəti müəyyənləşib, deməli, üstündə tarixləri göstərilməsə də "Yenisey" kitabələri e.ə. VI-IV əsrlərdən (bəlkə də daha əvvəllərdən) bəri müxtəlif vaxtlarda yazıla bilərdi. Hansı məntiqə görə bu kitabələr arasında min illik boşluq olmalı, əlaqə qırılmalı idi?

Azərbaycan dili qədim türk dillərindəndir. Belə olan surətdə I-VIII əsr türklərinin ünvanına deyilən bu sözlər: "yüksək mədəniyyət" fikri Azərbaycan xalqına, onun dilinə də aiddir.

P.M.Melioranskinin rəyincə, "müasir türk dillərinin canlı ləhcələrinin öyrənilməsi zəruriyyətini tam ədalətlə qoyuruqsa, onda etiraf etməliyik ki, dilin tarixinin tədqiqi üçün əsas material, yenə də müxtəlif yazılı mənbələr - əlyazmaları, kitabələr, sikkə üzərindəki yazılar və s.-dir" (*216,* s.278). Həqiqətdə, türk dillərinin tarixini, müasir türk dillərini, onların "canlı ləhcə" və şivələrini tədqiq etmək, öyrənmək üçün "Orxon-Yenisey" kitabələri çox güclü və əvəzsiz mənbədir. "Bu abidələrin dilinin öyrənilməsi türk tayfalarının bir sıra mühüm inkişaf problemlərinin həllinə və qədim türklərin dünya mədəniyyəti xəzinəsinə verdikləri sərvəti qiymətləndirməyə kömək edir" (*89,* s.7-8)"; "Aşkar edilmiş bütün bu yazılar qədim türklərə məxsusdur və bununla da həmin yazılar - hansı xalqa mənsub olması barədə alimlərin yürütdükləri müxtəlif fərziyyələri təkzib etdi. A.N.Samoyloviç yazmışdı ki, bu dahiyanə kəşf V.Tomsenin türkologiya sahəsində əvəzsiz xidmətidir" (*89,* s.8).

Xalqın tarixi baxımından ümumtürk yazılı mənbələri, məlum qədim kitabələr bu və ya başqa bir dilin deyil, türk xalqlarının ortaqlı malıdır, bütün qədim və müasir türk dillərinin hamısının orada payı vardır. "Orxon-Yenisey", Talas kitabələri, Uyqur yazıları və s.-də belə ortaqlı abidələrdir.

S.Y.Malov yazır: "Qarşımda, təxminən V-XV əsrlərdən zəmanəmizədək daş və kağız üzərində qalmış türkdilli kitabələr durur.

Bu kitabələrin yalnız bir hissəsini bu və ya digər dilin (məsələn, uyqur dilinin) bilavasitə tarixinə aid etmək mümkündür, bir sıra kitabələrin (məsələn, türk-run kitabələrinin), daha doğrusu bu kitabələrin dilinin bu və ya digər müasir türk dillərindən, məlumatımızın azlığı üzündən hansının əcdadı olduğunu təsəvvür etmək çətindir. Lakin bütün bu abidələr və ya bu abidələrin dilləri əksər türk dillərinə, xüsusilə bizdə, demək olar ki, əksəriyyətlə və bir hissəsi hələ bu yaxınlaradək tamamilə yazısı olmayan, yenicə yazıya keçmiş dillərin qədim tarixinə ümumi zəmin, ümumi tarixi əsas kimi xidmət edir" (*207*, s.3).

"Orxon-Yenisey" kitabələri az öyrənilməmişdir. Az qala əsrdən artıq bir müddətdir ki, bu barədə yazılır, fikir söylənilir. Lakin indi qarşıda "Orxon-Yenisey" kitabələri və müasir türk dilləri, ədəbiyyatları və tarixinin ayrı-ayrılıqda öyrənilməsi, bu və ya digər müasir türk ədəbiyyatları və dillərinin kitabələrdə nəyi olduğu, kitabələrin dili ilə necə səsləşdiyi və s. kimi daha yeni və konkret məsələlər durur. Məsələnin az-çox ağlauyğun həlli tədqiqatımızın uğurlu addımı olardı.

İndi görək, müasir Azərbaycan dilinin "Orxon-Yenisey" kitabələrində nəyi var və təxminən 1500 illik və daha artıq bir dövrü hansı tellər bir-birinə bağlayır, həmin kitabələrin dili bugünkü dilimizlə necə səsləşir?!

"Orxon-Yenisey" kitabələrinin əlifbasına, səs sisteminə, tarixi və ümumən yazı mədəniyyətinə nəzər salaq.

QƏDİM TÜRK ƏLİFBASI

"Orxon-Yenisey" yazıları XIX əsrin sonunda ilk dəfə V.Tomsen tərəfindən "kəşf olunmuş" - oxunmuşdur. V.Tomsenin sıra ilə düzdüyü həmin əlifbanın fotosunu veririk (*158 a*, s.298).

1	2	3	4	5	6	7	8	9	10
									
a, ā	*y, i*	*o, u*	*ō, ū*	*q (k¹)*	*q* devant *y*	*q* après (devant) *o, u*	*γ (g¹)*	*k (k²)*	*k* après (devant) *ō, ū*

11	12	13	14	15	16	17	18	19	20	21
										
g (g²)	*t¹*	*t²*	*d¹*	*d²*	*p (-p)*	*b¹ (p¹?)*	*b² (p²?)*	*η (ng)*	*n¹*	*n²*


22	23	24	25	26	27	28	29	30	31	32	33
											
m	*r¹*	*r²*	*l¹*	*l²*	*j¹*	*j²*	*-j (-i), ai*	*s¹*	*s² (ś?)*	*z (-s)*	*š*

34	35	36	37	38
				
č	*(i) č*	*nd (nt)*	*nč*	*ld (lt)*

1. ƏLİFBANIN QRAFİKASI

Qədim türk yazısının "milli bir türk icadı olduğu" barədə fikirlərə görə əlifbanın işarələri, hərflər türk həyatına xas cəhətlərlə və etnik tərkiblə bağlıdır: *yay, ox, çadır, süngü* və s. qədim türklərin həyat tərzinin ən mühüm və milli keyfiyyətlərini təmsil edən alətlərdir ki, əlifbanın bir sıra rəmzi işarələri bunlardan götürülmüşdür.

Qədim türk əlifbasındakı 6 hərf (işarə) əski türk etnik tərkibi, həyat tərzi ilə bağlı olaraq yaradılmışdır. Həmin hərflər bunlardır:

					
k	y	nt	qalın t	yumşaq b	s

Biz qədim türk əlifbasının milli əsasda yaranmış olduğunu təsdiqə çalışan mülahizələrə onu əlavə etmək istərdik ki, əlifbanın qalan əksər hərfləri də məhz "l" (s), yəni əski türk süngüsünün rəmzi - bir şaquli xətt üzərində düşünülmüşdür.

Həmin hərflər də, bunlardır:

𐰃	𐰉𐰉	𐰋𐰽	𐰇	𐰍𐰾	𐰆	𐰴	𐰖𐰖	𐰋𐰣	𐰽	𐰢	𐰇
p	i, i	l	t	r	q	k	ö, ü	a, e, ə	ŋ	n	z

𐰚𐰾	𐰜𐰢	𐰓𐰾𐰺𐰞	𐰴	𐰉	𐰼𐰼	x	𐰾𐰓𐰃𐰚	𐰢	𐰣
ç, c	ğ	g, k	b	y	o, u	d	ş	lt	baş

Əlifbanın qrafikasında iki mühüm xüsusiyyət diqqəti cəlb edir: 1) "l" (s) hərfi - şaquli xətt, 2) bu xəttə əlavə olunmuş ünsürlər. "l" süngü şəkli və ya qədim "sŋük" (süngü) sözünün baş hərfi kimi götürülübsə, onda bu hərf və onun üzərinə müxtəlif ünsürlərin əlavəsilə qalan hərflər yaradılmışdır.

Beləliklə, qədim türk əlifbası əsasən qədim türk həyat tərzi ilə sıx bağlı olan "süngü" üzərində düşünülmüş və yaradılmışdır. Qədim türk əlifbası bu xalqın öz icadıdır.

Bunlardan əlavə, əlifbada bir neçə qovuşuq işarələr - hərflər də vardır:

𐰀 𐰁	𐰅	𐰈	𐰉	𐰊	𐰋	𐰌
b, a, e, ə	q, g	d	nç	$\bar{n}$	s	m

Bu işarələrin də bir düz xəttin müxtəlif vəziyyətlərə salınması ilə alındığını güman etsək, qədim türk əlifbasının bütünlükdə "milli türk icadı", kəşfi olduğu qənaətinə gələ bilərik.

P.M.Melioranski bu əlifbanı ərəb əlifbası ilə müqayisə edərək yazırdı: "Zəngin və hərtərəfli "Orxon-Yenisey" əlifbası türk dilləri üçün ərəb əlifbasından müqayisəyəgəlməz dərəcədə artıq üstünlüyə malik idi; V.V.Radlovun fikrincə, ərəb əlifbası ilə müqayisədə, hətta bizə gəlib çatmış VIII əsr Qarakorum kitabələrinin və əksəriyyəti XV əsrə aid olan əlyazmalarının əlifbası da səs sisteminin xüsusiyyətlərinə görə türk dili səslərini və ya uyqur ləhcəsini əks etdirməkdə çox yararlı idi" (*200,* s.11). "Bu əlifba türklərin öz dillərinin fonetik xüsusiyyətlərinə, xüsusilə səslərin ahəng qanununa uyğun idi; (onu əvəz etmiş uyğur və ərəb əlifbalarından daha kamil idi" (*118,* s.6).

Qədim türk əlifbasının tərtibçisi elə ağıl və məharət işlədib ki, bir çox səslər bir işarədə iki-iki, üç-üç birləşib. Yəni eyni bir qrafik işarə yeni hərfləri yaratmışdır. Məs:

1) 𐰴, 𐰺, 𐰽, 𐰾 - bir qrafik işarədir, lakin müxtəlif vəziyyətlər alaraq dörd-beş səsi ifadə edir: p, ı, i, l, ŋ (sağır nun).

2) 𐰓, 𐰔, 𐰖, 𐰗 - bir qrafik işarədir, lakin müxtəlif vəziyyətlər alaraq dörd-beş səsi ifadə edir: t, r, q ö, u.

3) 𐰚, 𐰞 - bir qrafik işarədir, lakin köndələninə və başaşağı götürülərək üç səsi ifadə edir: o, u, ş.

4) 𐰉, 𐰍 - bir qrafik işarədir, lakin başayaq edilərək iki-üç səsi ifadə edir: l, ç (c); 𐰉 (ç, c), 𐰍 𐰉 (ş) hərfləri də eyni qrafik işarə üzərində düşünülmüşdür.


5) 𐰖, 𐰣 - bir qrafik işarədir, lakin tərsinə çevrilərək iki səsi ifadə edir: n, z.

6) 𐰚 𐰀 - bir qrafik işarədir, lakin tərsyön edilərək iki səsi ifadə edir: b, y.

Burada, təxminən 20 səs 6 qrafik işarə üzərində birləşdirilib-yaradılıb.

Beləliklə, qədim türk əlifbasında 38 hərf vardır; bunlar türk dillərindəki o vaxtkı bütün səsləri əhatə edirdi.

"Orxon" kitabələrindən bir nümunə (bax: *207*, s.8).



"Mögilyan xanın kitabəsi"ndən

"Orxon-Yenisey" yazıları sağdan sola yazılır.

Bununla belə, soldan sağa yazılan nümunələrə də rast gəlirik (bax: *208*, s.40, 44).



İndi bu hərflərin ifadə etdiyi səslərə nəzər yetirək.




1) Sait səsləri ifadə edən hərflər




Sait səslərin ifadəsi üçün əsas bu işarələr işlənir: 𐰀 (a, ə) 𐰃 (ı, i), 𐰆 (o, u), 𐰇 (ö, ü). Bunlardan əlavə işarələr də var: 𐰁 (e), 𐰄 (a).

𐰀 𐰁 𐰂 𐰄 = a, e (ə). 𐰀 işarəsi sözün əvvəlində və ortasında yazılmır, amma oxunur; V.Tomsen qeyd edir ki, "Ancaq bir az sonra mən qəti inandım ki, a kimi ə (e) də sözün əvvəlində və ortasında yazılmır, bununla belə, a üçün və ya yerinə görə, ə (e) üçün ancaq sözün sonunda işlənən xüsusi 𐰀 işarəsi vardır" (*158a*, s. 334).


Məs.: 𐰋𐰽𐰚𐰁 - el(i)mə (elimə, ölkəmə) - Yn. 11; 𐰚 (ə)r, 𐰽𐰃𐰾𐰚 - (ə) r (a) tım (ər adım) - Yn. 14; 𐰋𐰍𐰃 q(a)ra (Yn.19); 𐰽𐰄𐰉𐰂 - el(ə)dim (Yn.81); 𐰽𐰉𐰂𐰍𐰇 öz el(i)m (Yn. 76); 𐰃𐰍𐰼 - y(a)ğı (yağı, düşmən) - Kt. 22; 𐰾𐰄 - at (Yn. 83)...

Buradakı bəzi sözlərin soldan sağa yazıldığı da müşahidə edilir:  - y(a)ğıda (yağıda, düşməndə),  - el(i)mə (elimə, ölkəmə) - Yn. 41;  el(i)m(i)ɲ, (elimin, ölkəmin) - (Yn. 44).

 = ı, i. Bu işarə, bir qayda olaraq "i", "ı"-dır. Məs.:  = Bunı görü, bil(i)ɲ (Bunu görüb, bilin) - Kt. 20;  - t(o)kıtd(ı)m (toxutdum, tikdirdim) - Kt. 20;  – siz (Yn.11)...

 = o, u. Bu işarə eyni halda həm "o", həm də "u"-dur. Məs.:  bu (Kt. 19).  ol(o) - Kt. 19;  oğ(u)z (Kt.19);  Tört oğlum b(a)r (Dörd oğlum var) - Yn. 41;  Um(a)y b(ə)k (Umay bəy) - Yn. 53...

 = ö, ü. Bu işarə eyni halda həm "ü", həm də "ö"-dür. Məs.:  köz(ü)m - Kt. 26;  yüz ər (Yn. 25);  tökdi (və ya: tükədi) -Yn. 61...

Beləliklə, qədim "Orxon-Yenisey" yazılarında bu gün dilimizdə mövcud olan 9 saitin 9-u da vardı: a e ə (), ı i (), o u (), ö ü ().

2) Samit səsləri ifadə edən hərflər

Göründüyü kimi, türk əlifbasındakı hər bir samit səsin, hərfin bir, iki və hətta üç işarəsi var.

a) bir işarəli samitlər

 = p.Məs.:  = alp (alp, igid) - Gt.20;  = tapdım (Yn. 35);  =inip (enib) - (Yn. 67)...

 = z. Məs.:  = ününüz (ününüz, səsiniz) - (Yn. 47);  = atınız (adınız) - Yn.48; = öz yerim (Yn.76)...

 = ç(c). Məs.:  = qaçtım (qaçdım) - Yn.38;  = üç (Yn.84); = Keçip gəlirti (keçib gəlirdi) - Or. 33;  = gicə yarıq (gecə yarı) - Or.31...



 = ı (sağır nun). Məs.:  = almadın (Yn.53);  = gelmədiniz (Yn.59);  = anlanıp (anlanıb, başa düşülüb) - (Yn. 67); = tənri (tanrı) - (Yn. 37)...

 = ğ. Məs.:  = oğlanım (Gt.19);  = uluğ oğulum (ulu, böyük oğlum) - (Yn.84)...

 g. Məs.:  = bəglər (Gt. 19);  = Gögşin (ad) - Yn. 94; = bilgə qağan (bilikli, müdrik xaqan);  = tokuz ərsəngə təki (Doqquz Ərsəngədək) - Gt. 19... Buradakı sözlərdə samiti "g" və yumşaq "k" səslərinin hər ikisinə uyğun gəlir.

 = $\bar{n}$ (yumşaq n). Məs.:  = Bilgə Tonukuk (məşhur addır) - Tk.56; = anı yanıp (ona yan alıb, yanaşıb) - Gt. 25...

b) bir işarəli qoşa samitlər (diftonqlar)

 (və ya: , ...) = nt. Məs.:  = bunta (bunda, bu vaxtda) - Gt. 25;  = anta (orda) - Kt.31; = alp içintə (alp, igid içində, arasında) - Yn.57;  = qazğantım (qazandım) - Or.8...

 = nç. Məs.: =bunça (bunca, çox) - Gt.26; = ança (o qədər, çox) - Yn.47; =sancdı (Or. 26)...


-lt. Məs.: =altım (aldım);  = Altmış at bintim (altmış at mindim) - Yn.74. Bəzən "lt" hərfləri bir işarə ilə deyil, ayrı-ayrılıqda yazılır. Məs. elə həmin "altmış" "altmıs" sözü:  //

c) iki işarəli samitlər

"Orxon-Yenisey" yazılarında samitlərin böyük əksəriyyəti üçün biri ancaq qalın, digəri isə ancaq yumşaq səslə bağlı iki işarə işlənir. Yazılarda bu möhkəm qaydadır; bu qaydanın pozulmasına çox təsadüfi hallarda rast gəlmək olur.




 =d. 1) qalın hecada: . Məs.: = yaydım - Or.8; =qaldım (Yn.23);  = qadaşıma (yoldaşıma, tanışıma). Yn.25; =tapdım- Yn.35... 2) incə hecada: X. Məs.: = yetdim .(çatdım) - Or.31; = görmədim (Yn. 84); = öldim (Yn.95)...

 = s. 1) qalın hecada: . Məs.:  = Qağanının sabın almatın (Xaqanının sözün almadın, eşitmədin) - Gt. 20; = Yir sayu bardığ (Yer boyu getdik) - Gt. 20; =basdı (Gt. 26)... 2) incə hecada: 1. Məs.: biliksiz (Gt. 21); = sebinip (sevinib) - Or.11; = səkiz qırq yaşıma (otuz səkkiz yaşıma) - Yn.56; = süngin açdımız (süngü ilə aşdıq) - Tk. 58...


 = n. 1) qalın hecada: . Məs.:  = anı görip (onu görüb) - Gt. 20; = oğlan (Yn.49)... Bəzən samitinin əks istiqamətdə yazıldığı da müşahidə edilir. Məs.:  = alpuŋ (alpın, igidin), = altun (altun, qızıl) - Yn.33... 2) incə hecada: . Məs.:  = gün (Yn.84);  = ərin,  - ebin (evin), = barımın (varımın, dövlətimin) - Gt. 25...

 = l. 1) qalın hecada: . Məs.: = yağı bolıp (yağı, düşmən olub) - Gt. 22; = başladım (Yn.81)... 2) incə hecada: . Məs.:  = qağanı ölti (xaqanı öldü) - Gt. 23; =gəlip (Yn.67)...

 = r. 1) qalın zecada: . Məs.:  = qırk yıl (qırx il) - Yn.81;  = yurtda (Gt. 26)... 2) incə hecada: . Məs.: = yüz ər (Yn. 76); = yer (Yn.94)...

 = y. 1) qalın hecada: . Məs.:  = ay (Yn.81);  = yaş (Yn.74);  = yolçı (Yn.80);  = yok (yox) - Yn.94... 2) incə hecada: . Məs.:  = yımşaq (yumşaq, incə) - Gt. 20;  = yerdə (Yn.65);  = yüz (Yn.66)... Eyni hecada hər iki işarə işlənildiyi hallar da müşahidə olunur:  = yığdım (Mn. 8);  = yıl (il) - Or. 30, 47; = yılqı // y(ı)lqı (ilxı) - Yn.30, 49...

Hecaların qalın və incəliyindən asılı olmayaraq bəzi samitlər eyni növ hecada iki işarə ilə də yazılır.

 = m. 1)  işarəsi. Məs.: = tikdim (Gt. 23);  = yanılmadık (yanılmadıq) - Or. 8;  = qadınım (Yn. 39)... 2) işarəsi. Məs.: = yetmiş (say) - Yn. 34;  = ərdəmim (ərlərim, ər igidlərim) - Yn.14, 74 - bu söz başqa vəziyyətdə  (Yn.73); üçüncü vəziyyətdə isə (Yn. 53) şəklində yazılmışdır.

Əlifbada elə samitlər də var ki, üç işarə, hərf bir-birinə yaxın iki səsi ifadə edir.

 = q, ḳ. Bunlar qalın hecalar yaradan hərflərdir. Məs.:  = qırk (qırx) - Yn. 81;  = toḳuz oğuz (doqquz oğuz) - Gt. 19; = oḳun urtı (oxun vurdu) - Gt.24; = Təmir Qapığqa (Dəmir qapıya) - Tk. 60...

 = k, g. Bunlar incə hecalar yaradan hərflərdir. Məs.: = türk (Or. 12; Gt. 19);  = yerdəki (Yn. 49); = yaş keyiki (yaş keyiki, körpə dağ keçisini) - Yn.54; = kəlti (gəldi) - Or. 8;  = gök (göy);  = güc (Yn.61);  = girdim (Yn.46)...

Maraqlıdır ki, "gögşin" və "gök" sözləri eyni kökdür, lakin biri (), digəri isə () işarəsilə yazılmışdır.

ç) üç və dörd işarəli samitlər

Kitabələrdə bəzən bir səsi ifadə edən işarənin üçə, hətta dördə çatdığı da müşahidə olunur.

 = b. 1) qalın hecada:  . Məs.: = buyruk (Gt. 19); = gün batsıqdaqı (gün batandakı) - Gt. 27... 2)

incə hecada: 𐤀 (və ya: 𐤀). Məs.: 𐤉𐤍𐤁𐤀 = ebmiz (evimiz) - Yn.14; 𐤁𐤋𐤃𐤀 - eblədim (evlədim, evli etdim, evləndirdim) - Yn.34... 𐤀 ayrılıqda özü də ikili işarədir. Qeyd edildiyi kimi o, "e" saitini də ifadə edir.

Əlifbada "t" samitinin üç işarəsi vardır.

𐤕.𐤈 𐤕 = t. 1) qalın hecada: 𐤕 𐤈. Məs.: 𐤕𐤔 𐤕𐤓𐤕 = tutdı (Or. 25); 𐤔𐤈𐤁𐤋𐤔𐤄𐤌𐤔𐤉𐤋𐤀 = beş yaşımta (beş yaşımda) - Yn.81... 2) incə hecada: 𐤄. Məs.: 𐤄𐤄𐤅𐤍𐤂 - güntüz (gündüz) - Tk.60; 𐤁𐤓𐤉𐤄 = tənrim // tanrım (tanrım, allahım) - Yn. 66. 𐤄 𐤓𐤍 𐤄 = tört (dörd) - Or.7..

Əlifbada "ş" samitinin dörd işarəsi vardır.

𐤎,𐤓,𐤋,𐤒 = ş. Hecaların qalın və incəliyindən asılı olmayaraq bu işarələrin hər biri "ş" samitini ifadə edir.


1) 𐤎 = ş Məs.: 𐤅𐤓 𐤏𐤎 = aşsız (aşsız, xörəksiz) - Gt.24; 𐤕𐤎𐤕𐤇 = kişi (Gt.20); 𐤔𐤇𐤕𐤎𐤃𐤉𐤎𐤋 = Çuş başınta (yer addır) - Gt.26...

2) 𐤍 = ş. Bu işarə təxminən bundan əvvəlkinin eynidir, fərq ondadır ki, kiçik xətt əsası yox, qanad hissəsini kəsir. Məs: 𐤉𐤃 = yaş (yaş, hədd-buluq) - Yn.33; 𐤔𐤁𐤉𐤍𐤂𐤌 = qadaşıma (yoldaşıma), 𐤔𐤁𐤉𐤍𐤌 = adaşıma (dostuma, tanışıma) - Yn.31; 𐤕𐤎𐤉𐤅𐤄 = tüşdi (düşdü) - Or. 30...

3) 𐤋 = ş. Məs.: 𐤕𐤋𐤕𐤇 = kişi (Yn. 21); 𐤋 𐤒 = baş (Yn.46); 𐤋𐤃 = yaş (yaş, hədd-buluq) - Yn. 42; 𐤁𐤋𐤍𐤂𐤌 = qadaşım (yoldaşım) - Yn.35.

4) 𐤓 = ş. Məs.: 𐤓𐤃 = yaş (yaş, hədd-buluq) - Yn. 38; 𐤓 𐤅 = baş (Yn.79); 𐤁𐤓𐤍𐤂𐤄𐤌 = qağadaşım (tanışım, qohumum) - Yn. 73; 𐤁𐤓𐤃𐤋𐤔𐤆𐤄𐤐 = yetmiş yaşım (Yn.74)...

Maraqlıdır ki, "ş" səsi olan eyni və eyni növ sözlər həmin dörd işarənin dördü ilə də yazılıb.

Əlifbada "baş", "zirvə", "təpə" mənalarında işlənən  işarədən də istifadə edilir. Məs.:  = Aqbaş (addır) - Yn.97;  = Yaş Aqbaş bən (Yaş Aqbaş mənəm) - Yn.14...

Beləliklə, qədim "Orxon-Yenisey" yazılarında bu gün ədəbi dilimizdə mövcud olan 23 samit səsin 18-i vardı: b (), q (), d (), z (), y (), ķ (), g (), k (), l (), m (), n (), p (), r (), s (), t (), c,ç (), ş ().

Bunlardan əlavə, bir sağır nun və yumşaq, çox incə bir *n̄* samiti də var ki, birincisi müasir ədəbi dilimizdə öz ifadəsini tapmasa da, canlı danışıqda indi də geniş yayılmışdır: =n - buna görə elmi-tədqiqat əsərlərində bunsuz keçinmək olmur; ikincisinə təsadüf edilmir.

Müasir dilimizdəki beş səs *v, j, f, x, h* "Orxon-Yenisey" yazılarında yoxdur.

Hazırda müasir dilimizdə k qrafik işarəsi iki səsi bildirir; sərt "ķ" və yumşaq "k" (müq. et: *kolxoz, kartof, kabinə* və s... *iki, kənd, kəsik*...). "Orxon-Yenisey" kitabələrində sərt "ķ" çox işlənir; müasir dilimizdəki *xan, xatın, xaqan, ox, yox, qırx* və s. kimi "x" samiti ilə işlənən sözlər kitabələrdə q, ķ () samitləri ilə verilir: , (or.7); (Gt.20); (Yn.94); (Yn.81)...

Qeyd edək ki, kitabələr oxunarkən transkripsiyalarda işarələri öz əksini o qədər də dəqiq tapmamış, ancaq *k* (və ya: *q*) samiti ilə verilmişdir. Halbuki, qədim türk əlifbasında artıq işarə, səs yoxdur; hər işarənin, hər səsin öz mənası, öz vəzifəsi, öz yeri var və bunlar türk dillərindəki incəlikləri vermək üçün yerli-yerində düşünülmüş, "kifayət qədər məşq edilmişdir". Biz öz tədqiqatı-

mızda mümkün qədər bu incəliyi saxlamağa çalışmış, həmin səslə-ri *k, ḳ, q, ġ* şəklində, məs., 𐰴𐰃𐰃𐰋>𐰓 = *kulkakın* (Or.18) deyil, "kulqaqın" (qulağın), 𐰆𐰉𐰍𐰃𐰓𐰇 = yok kıltım (Or.14) deyil, "yo*k* *q*ıltım" (yok qıldım, yox elədim), 𐰆𐰆𐰚𐰃𐰓𐰇 = *yokkışdım* (Or. 16) deyil, "yo*kq*ışdım" (yox etdim, məhv etdim), 𐰴𐰆𐰆𐰚𐰍𐰃𐰓𐰇 = *yokkışdımız* (Gt.31) deyil, "yo*kq*ışdımız" (yox etdik, məhv etdik), 𐰖𐰆𐰆𐰆𐰃𐰉>𐰓 = *qorqmadymyz* (Tk.63) deyil, "*k*orqmadımız" (qorxmadıq), 𐰃𐰉𐰍𐰃//𐰇𐰉𐰍𐰃 *kırk* (Yn.80, 81) deyil, "qırq // "qırk" (qırx) və s. vermişik. Diqqəti müasir dilimizdəki "doqquz" sözünün kitabələrdəki yazılış və oxunuşuna yönəldək: 𐰖𐰃𐰣//𐰖𐰃>𐰣 //𐰖𐰓𐰽𐰣//𐰖𐰽𐰓𐰤//𐰖𐰃>𐰤. = tokuz // toquz (Yn. 62, 63, 94, Gt.27, Tk.61). "Toquz // tokuz" sözünün hər iki (𐰃,𐰓) işarə ilə yazılmasını təsadüfi saymaq olmaz. Bu, sözün o vaxtkı ayrı-ayrı türk bölgələrindəki deyilişi, tələffüzü ilə əlaqədardır. Məs., müasir Azərbaycan dilində eyni qoşa samitli "doqquz" sözü "qq"-lərlə yazılsa da, bunların deyilişi, tələffüzü fərqlidir; "ġq"-dır; "q"lərin biri qalın, digəri isə yumşaqdır. Qalın ġ, bizcə, qədim "𐰓" samitinin izidir.

Tarixən bizdə k, q, x, h samitləri müəyyən sözlərdə növbəli, yəni bir-birinin əvəzində işlənmiş, lap bu yaxınlara - XVIII-XIX əsrlərədək bu növbələşmə davam etmişdir (müq. et: *qanı // xanı // hanı, qanda // xanda // harda, qansı // xansı // hansı...*). Maraqlıdır ki, tarixən ərəb-fars dillərindən alınmış bir sıra *kağəz, Kamel, Kazem, kateb, kohne, karqozar* və s. kimi sözlərdəki sərt "ḳ" samiti də yumşaq "k"-laşmışdır: kağız, Kamil, Kazım, katib, köhnə, kargüzar. Həmin vaxtilə güclü olan sərt "ḳ" samitinin indi ancaq qoşa səsli sözlərdə izləri qalmışdır: *toqqa, saqqız, saqqal, hoqqabaz,*

doqquz... Burada, təxminən belə bir xətt üzrə inkişaf müşahidə olunur: 𐰴,𐰓,𐰇 = ḳ, k, q - ḳ-k-ḳ-q-x-h.

Eyni vəziyyəti "𐰋,𐰠=𐰽" samiti və onun inkişafında da müşahidə edirik: 𐰋,𐰠 = b→𐰽 -v-f. Bu inkişafı sözlərin tərkibində də görmək olar: *eb* (ev) - Or. 35 - *ev*(f) // ev (MK. I, 32) = *ev; ab* (ov) - Or.27 - *av*(f) = *av* (Mk. I, 32) = *ov; sab* (sav, söz, nitq) - Or.16 - *sav*(f) // saf (MK. III. 154) = *sav+aş, sav+aş+maq; sub*(su) - Or.19 - *suv* (f) // *suv* (Mk. III. 14) = *sup-su*...

Ümumtürkdən qollar, boylar ayrılıb müstəqil qəbilələr, xalqlar, onların ləhcələri, dilləri formalaşdıqca bu samitlər (𐰴,𐰚,𐰇,𐰋,𐰠) də şaxələnmiş, yeni *x, h, v, f* fonemləri törəmişdir...

Beləliklə, qədim türk əlifbası, onun əhatə etdiyi səs sistemi ilə, məsələn, qədim türk dillərindən olan Azərbaycan dilinin müasir səs sistemi arasında elə bir ciddi fərq görünmür; sonralar dilimizin səs sisteminə üç-dörd fonem əlavə olunmuşdur.

İndi əlifbanın türk dillərinin ahənginə uyğun tərtibi məsələsinə keçək; məsələ o qədər incə və həzin nöqtə ilə bağlıdır ki, bu barədə ayrıca danışmaq lazım gəlir.

3) Türk dillərinin daxili ahəngi və bunun əlifbada əksi

Ahəng - söz daxilində sait və samit səslərin incə (yumşaq) və qalınlığına görə bir-birini izləməsi türk dillərinin əzəli məziyyətidir; bu qanun türk dillərinin daxilindən gələn musiqi ruhu ilə sıx bağlı olub, onların ümumi inkişaf qanunauyğunluğunun ayrılmaz hissəsi kimi özünü göstərir. "Orxon-Yenisey" yazılarında bu ahəng - səsləşmə vardır, əlifba tərtib edilərkən dilin bu keyfiyyəti nəzərə alınmışdır. Əlifbanın miladdan əvvəl V-IV əsrlər nümunəsi olan "İssık" yazısında da bu cəhət sezilir: *ağa, sana, azuk, içrə* sözlərində səslərin bir-birinə ahəngə görə uyuşduğu aşkardır.

"Orxon-Yenisey" əlifbasındakı 9 saitin bugünkü kimi 5-i incə, 4-ü isə qalındır:

a) incə saitlər: 𐰀 (ə), 𐰇,𐰋 (e), 𐰃, (i), 𐰆 (ö), 𐰆 (ü)

b) qalın saitlər: 𐰀 (a), 𐰃 (ı), > (o), > (u)

Göründüyü kimi, a=ə, ı=i, ö=ü, o=u sait səslərinin qrafik işarəsi eynidir və ərəb əlifbasında da bu paralellik müşahidə olunur; a=ə (ا, آ), ı-i (ى), o-u, ü-ö (و) səslərinin qrafik işarəsi birdir. "Orxon-Yenisey"lə ərəb yazısı arasındakı qrafik və yazı yönü oxşarlığı gələcəkdə belə bir problem üzərində düşünməyə əsas verir ki, ərəb əlifbası əslində "Orxon-Yenisey" yazısından götürülüb, onun əsasında yaradılıb...

"Orxon-Yenisey" kitabələrinin tədqiqatçıları (V.Tomsen, V.V. Radlov, P.M.Melioranski, S.Y.Malov, V.V.Bartold, İ.V.Stebleva və b.) yazıları oxuyarkən türk dillərinin bu ruhunu - sözlərdə saitlərin ahəngini gözləmişlər və bu, ənənəvi olaraq davam edib gəlmişdir. Sözlərin ahənginə görə səslərin hər biri yazılır (və ya nəzərdə tutulur) və belə də oxunur, hər səs öz - *a-a* yerini, *ı-ı*, *i* də *i* yerini tutur. Məs.:

a) incə ahəngdə: 𐰀𐰃𐰇𐰋 – el(i)mə (Yn.11), 𐰀𐰆 – nə (Ton.63), 𐰆𐰀𐰉 – mən (Yn.81), 𐰃𐰇𐰋𐰆 – öz el(i)m (Yn.76), 𐰋𐰃 – siz (Yn.11), 𐰇𐰃𐰋 – bil(i)k (Kt.28), 𐰃𐰆𐰃𐰴 – t(ə)nri (Gt.28), 𐰃𐰴𐰇 𐰃𐰃𐰇 𐰇𐰃𐰆𐰉𐰇𐰃 - Üç gör(ü)k kisi g(ə)lti (Tk.63), 𐰀𐰓𐰃𐰃𐰋𐰴 𐰆𐰃𐰇 göy tənridə (Yn.81)...

b) qalın ahəngdə: 𐰺𐰇𐰃 - (a)lpun, 𐰺𐰉𐰃 (a)ltun (Yn.33), 𐰺𐰃𐰓 oğl(a)n (Yn.49), 𐰃𐰆𐰆 𐰃𐰆𐰉𐰋𐰇𐰃 (a)pam(ı)z B(u)mın q(a)ğan (Or.8), 𐰉𐰋 𐰋𐰆𐰃𐰇 𐰆𐰓 T/a/ş t/o/kıtd/ı/m (Or.19)... 𐰉𐰀𐰋 taş (Yn. 81), 𐰀𐰆𐰉 q(a)ra (Yn.19), 𐰋𐰃𐰆 - qız (Yn.19), 𐰉𐰆𐰀𐰇 yağ(ı)m (Yn. 47), 𐰃𐰺 (a)nı (Yn.44), 𐰀𐰉𐰃𐰓 - oğl(ı)ma (Or.9)...

Göründüyü kimi, orta mötərizə arasına aldığımız səslərin qrafik işarələri buraxılıb, lakin oxunub. Başda gələn *a, ə* (𐰀) səslərinin

yazılmaması "Orxon-Yenisey" kitabələri üçün səciyyəvi hal kimi qeyd edilir. Artıq deyildiyi kimi, hələ kitabələri ilk dəfə oxuyan V.Tomsen bu cəhəti görmüş və nəzərə çarpdırmışdı (*158a*, s.334). 𐰴 səsi sözün əvvəlində nadir hallarda yazılır. (𐰴𐰃/Ay) - Yn.81, 𐰴𐰇𐰾 (atım) - Yn.64.

Türk dillərində ta qədimdən ahəng qanunu güclü olduğu üçün-dür ki, "Orxon-Yenisey" əlifbasında samit səslər də yumşaq (incə) və qalın olmaq üzrə iki yerə ayrılıb. Əlifbada həm yumşaq (incə) hecalı sözlər, həm də qalın hecalı sözlər üçün ayrı-ayrılıqda samit səslər düşünülmüşdür.

a) yumşaq (incə) samitlər: 𐰉-𐰋 (b), 𐰍, (d), 𐰯 (s), 𐰢 (n), 𐰺 (l), 𐰼 (r), 𐰽 (y), 𐰏-𐰓 (k), 𐰚 (t), 𐰖 (ğ), 𐰣 (*n̄*), 𐰜 (g), 𐰞 (k)

b) qalın samitlər: 𐰃 (b), 𐰕 (d), 𐰉 (s), 𐰆 (n), 𐰇 (l), 𐰴 (r), 𐰽 (y), 𐰀-𐰑-𐰇 (q, ḳ, k), 𐰋-𐰍 (t).

Sözlərin ahənginə - qalın və yumşaqlığına görə bu səslərin hər biri yerli-yerində yazılır və oxunur.

Yumşaq (incə) samitlərlə yazılan sözlər: 𐰼𐰺𐰞𐰴 𐰚𐰼𐰚 - türk bəglər (Or.19), 𐰚𐰖𐰼𐰺𐰢 𐰖𐰴𐰢 - gözin görmədik (Or.19), 𐰼𐰖𐰚:𐰴 𐰇𐰚𐰇:; 𐰼𐰢 𐰚𐰺𐰚 :𐰇𐰴𐰚 𐰃:𐰼𐰼:𐰼𐰞𐰺𐰚_𐰚𐰇:𐰃 – Yolığtikin *mən* ay artıkı *tört gün* olurıp *bitidim* (Mən Yolığtəkin (kitabəni) bir ay dörd gündə bitirdim) - Or.19, 𐰼𐰖𐰼𐰺𐰢:𐰸𐰋𐰼𐰚𐰢 𐰼𐰚 𐰼𐰢 𐰴𐰼𐰋𐰃 𐰋𐰼𐰚𐰢 - *Yetmiş* yaşıma *öntim, yetmiş ər ölürdim* (Yn.76), 𐰼𐰼𐰼𐰖𐰺𐰢:𐰼𐰼𐰺𐰞𐰢 𐰋𐰢 :𐰼𐰼𐰼𐰖𐰽𐰢:; 𐰴𐰃𐰃 𐰖𐰸𐰴:𐰢𐰖𐰼𐰋 - Qamuğı biş otuz *sülədimiz üç yigirmi sünüşdimiz* (Hamısı iyirmi beş dəfə vuruşduq, on üç dəfə süngüləşdik) - Kt.30; 𐰢𐰚𐰽𐰜:𐰼𐰢𐰚 𐰚𐰚𐰼𐰜:𐰋𐰼𐰼𐰃𐰃 :𐰉𐰼𐰖𐰞𐰚 ; – 𐰼𐰖𐰚𐰚 𐰼𐰼𐰽𐰞𐰚 :𐰼𐰃𐰃𐰽𐰢 𐰴𐰢; *Nə* basınalım, *təkəlim,* - tidim. *Təkdimiz,* yayıdımız. *İkinti gün gəlti* (Nə basılmaq, hücum edək, - dedim. Hücum etdik (düşməni) qovduq. İkinci gün gəldi) - Tk. 63.

Qalın samitlərlə yazılan sözlər: 𐰴𐰃𐰇:𐰉𐰍𐰃𐰆 𐰃𐰉𐰆𐰇 - *altımış yaşımda* (Yn.11), 𐰋𐰆𐰃𐰍 𐰋𐰃𐰆 yağı boltı (Or.17). 𐰋𐰲𐰺:𐰉𐰇𐰆 𐰇𐰃𐰍 𐰴𐰆𐰆 - *Qara budun qağanım* gəlti (Or.18), 𐰾𐰋𐰠 𐰆𐰠𐰆 𐰆𐰠 - *Otuz artıkı* bir (otuz bir) - Or.18, 𐰉𐰠𐰆𐰍 𐰇𐰆𐰃𐰍:𐰋𐰉𐰾𐰋𐰠:𐰆𐰍𐰃𐰍 - *Tokuz* yigirmi yil *qağan olurtım* (On doqquz il xaqan oldum) - Or.18, 𐰽𐰇𐰃𐰆𐰃:𐰉𐰇𐰍 :𐰴𐰆 *Qara budunım qatığlanın* (bütün xalqım qatı olun, möhkəmlənin) - Yn.40, 𐰋𐰲𐰾 𐰆𐰾𐰇𐰾:𐰉𐰃𐰍𐰋𐰋 :𐰇𐰃:𐰉𐰇𐰃 - *Ağlım on, yılkım sansız* ərti (Ağılım on, ilxım saysızdır) - Yn.84, :𐰾𐰋𐰲𐰠𐰍𐰇𐰃:𐰴𐰆𐰋 :𐰆𐰆𐰃:𐰆𐰋𐰃𐰍:𐰆𐰢𐰋𐰺𐰾𐰋𐰆 – Görük sabı antağ: Tokuz Oğuz budun üzə qağan olurtı, tir (Gözətçinin sözü budur: Doqquz Oğuz xalqı üzərində xaqan oldu, - deyir) - Tk.31...

𐰉,𐰚 (m) qrafik işarələri orta həddə dayanır, hər ikisi həm incə, həm də qalın sözlərdə işlənir. 𐰉𐰚𐰃𐰾𐰾 və 𐰉𐰚:𐰃𐰾𐰾 - ər ərdəmim (ər igitlərim) - Yn.73; 𐰉𐰴𐰇𐰋𐰍 - başladım (Yn.81); 𐰉𐰇𐰆𐰋 - qağanım (Or.18), 𐰉𐰠𐰆𐰇 olurtım (oldum) - Or.18; 𐰋𐰃𐰉𐰾𐰆𐰋 - görmədik (Or.19), 𐰉𐰃𐰲𐰋 tidim (dedim) - Tk.63; 𐰋𐰚𐰋𐰢 𐰆𐰋𐰲 𐰉𐰋𐰾𐰆:𐰉𐰓𐰍 - Səkiz yetmiş yaşım öltüm (Altımış səkkiz yaşımda öldüm) - Yn.75; 𐰉𐰴𐰇𐰍𐰍 yayladım (Or.36)...

Eyni sözü *ş* səsini ifadə edən 𐰋,𐰓,𐰾,𐰽 qrafik işarələrə aid etmək olar; bu səslər bərabər hüquqda həm incə, həm də qalın sözlərdə işlənir: 𐰽𐰠𐰃,𐰋𐰇𐰋 (taş) - Yn.81, 𐰇𐰋𐰉𐰋𐰇𐰍 𐰋𐰯𐰃 - beş yaşımta - (Yn.81), 𐰲𐰋𐰲𐰆 (kişi) - Yn.51, 𐰴𐰲𐰽𐰀 (taşın) - Or. 20, 𐰉𐰃𐰾𐰲:𐰾𐰋𐰉𐰢𐰆 𐰉𐰢𐰴𐰲 𐰇𐰉𐰋𐰍 𐰋𐰉𐰢𐰆 Yetmiş yaşıma öntim, yetmiş ər ölürdim (Yn.76), 𐰾 𐰉𐰲𐰆 - gümüş (Yn.80), 𐰾𐰉𐰾𐰋𐰲𐰢

tüşürmüş (Yn.95). Maraqlıdır Yn.41-də ş səsli sözlərin çoxu 𐰋 işarəsilə yazılıb; 𐰴𐰋𐰣 eşim, 𐰋𐰚 baş, 𐰴𐰋𐰆𐰃𐰏𐰉𐰍𐰃𐰇𐰏 səkiz yetmiş yaşım (altmış səkkiz yaşım)...

Samitlərin də yumşaq (incə) və qalınlığa görə iki şəklinin yazıda əksi əlifbanın üstünlüyü sayıla bilər; çünki bu, türk dillərinin daxili incəliklərini, sözlərin ahəngini əlifbada əks etdirmək demək idi; bu məziyyət hər bir vaxt sözlərin düzgün oxuna bilməsi, sözün quruluşu, o vaxtkı deyiliş tərzini dürüst müəyyən etmək imkanlarını artırır. Məs.: Müasir dilimizdəki "il" sözü ərəb əlifbası ilə yazılı mənbələrdə tarixən bir y artığı ilə gah "yil", gah da "yıl" oxunub, elə indi də belə oxunur. Bu, ərəb əlifbasındakı həm "ı", həm də "i" oxunan 𐰃 səsilə bağlı deyil, "Orxon-Yenisey" əlifbasından gəlir; orada da 𐰀 hərfi həm "ı", həm də "i" oxunur. Deyilişcə bir-birilə səsləşən ikicə sözə diqqət edək: yıl / yil (𐰖𐰀𐰉), yılkım (𐰴𐰇𐰖𐰀𐰋) // yılqı (𐰀𐰍𐰖𐰉) - Yn.49. Hər iki sözün saiti 𐰀-dır. Qalın və incə samitlərlə işlənib. Lakin sözlərin 𐰖𐰀𐰉, 𐰀𐰍𐰖𐰉 vəziyyəti bir qədər başqadır; 𐰀 saitinin bir tərəfində incə l (𐰉), o biri tərəfində qalın l (𐰖) yazılıb. Buna görə də söz həmişə ikili oxunur: *yıl / yil, yılqı / yilqı.* *Qırq yıl* (𐰖𐰋 𐰇𐰍𐰀𐰍) - Yn.81, *əlik yıl* (𐰖𐰀𐰋 𐰃𐰇) - Or.34, *bin yıllıq* (𐰍 𐰖𐰖𐰀𐰋 𐰍𐰀𐰆) - Or.36, *yılan yıl* (𐰖𐰋 𐰔𐰖𐰀𐰉) - Or.51 kimi tərkiblərdə "yıl" sözü həm "ı", həm də "i"-siz və qalın samitlərlə yazılıb. Demək, bunları ancaq "yıl" oxumaq lazımdır. "Yılan yıl" tərkibindəki "yılan" sözünü "yilan" şəklində də oxumaq mümkündür; çünki başda gələn *y* samiti (𐰉) incədir. Deməli, bu sözləri hər iki şəkildə oxumaq və tələffüz etmək əslinə uyğundur. "Orxon-Yenisey" əlifbası türk dillərinin daxili keyfiyyət və məziyyətlərini özündə elə yüksək dərəcədə toplayır ki, bu əlifba ilə olan hər hansı bir qədim tapıntı səhv oxuna bilmir, hər bir sözün əslində olduğu şəkli asanlıqla bərpa edilir...

Beləliklə, ahəng qanunu türk dilinin təbiətindən doğmuşdur. Söz daxilində səslərin uyuşması, incə və qalınlığına görə bir-birini izləməsi bu dilin daxili harmoniyasıdır. Bu dillərin şerə daha çox yatması bu keyfiyyətlə də bağlıdır. "Orxon-Yenisey" əlifbasının tərtibi zamanı da bu keyfiyyət əsas götürülmüşdü. Bu, elə möhkəm qanun olub ki, tarixən hər vəziyyətdə özünü saxlaya, öz sabitliyini bugünədək mühafizə edə bilmişdir.

Türk dilləri ailəsinə mənsub olmaq etibarilə, Azərbaycan dili də öz doğuluşundan səslərin, hecaların və bütövlükdə sözlərin daxili uyuşmasına, bir-birilə səsləşən, müəyyən ahəngə yönələn keyfiyyətlərini yaratmışdır.

"Orxon-Yenisey" əlifbası türk dillərinin, o cümlədən Azərbaycan dilinin öz səs sisteminə uyğun, doğma əlifbası idi. Ərəb işğalından sonra bu əlifba tarix səhnəsindən çıxdı, onun yerini ərəb əlifbası tutdu. Türk dilləri və Azərbaycan dilinin yazı mədəniyyəti tarixinin "yeni dövrü" başlandı. "Dədə Qorqud kitabı" da bizə bu əlifbada gəlib çatıbdır.

Ərəb əlifbası türk dillərinin inkişafına, xüsusilə dilin daxili ahəngi əsasında inkişafına mane olurdu. Ərəb yazı qaydaları ərəb dilinin öz səs sisteminə uyğun düşünüldüyündən dilə keçən səslər, sözlər, tərkiblər və s. türk dillərinə əks təsir göstərir, dilin öz sözlərinin ahəngini, yazılışı, dəyişməsi və birləşməsi qaydalarını pozurdu. P.M.Melioranski yazırdı: "türk yazısının tarixində biz üç əsas: Orxon-Yenisey, uyğur və ərəb əlifbalarına rast gəlirik, lakin ərəb əlifbası bunlardan ən yenisi, ən çox yayılmışı və bununla belə, türk dili səslərinin əksi üçün, deyəsən, ən yararsızı idi" (*100*, s.II).

Bu sözlərdə həqiqət güclüdür...

İndi əlifbanın mənşəyi və tarixinə dair bəzi mülahizələr söyləyə bilərik.

2. Əlifbanın mənşəyi məsələsi

Əlimizdə türk yazı mədəniyyətilə bağlı zəngin fakt var. Bu, bizə daha qədimlərə getmək, dilimizin və yazımızın tarixini daha qədim dövrlərdən başlamaq imkanı verir.

Türk dilinin böyük tarixi nailiyyəti və deyərdik ki, "xoşbəxtliyi" ondadır ki, çox qədimlərdən - tarixinin dəqiqləşdirilməsi mümkün olmayan uzaq keçmişlərdən yazısı olub, inkişaf edərək gəlib, təkmilləşib, təsir dairəsini genişləndirə bilib. Bu yazı nəhayətdə "Yenisey-Orxon" və ya "Orxon-Yenisey" yazısı və əlifbası adlanıb, indi də belə adlanır, kitabələr əsasən həmin çayların - Orxon-Yeniseyin kənar və ətraflarında mövcud olduğundan elmdə də belə qəbul edilib.

Qədim türk yazısının, qədim türk əlifbasının tarixi miladdan çox-çox əvvəllərə gedib çıxır. Lakin bu yaxınlaradək bu, bizim eranın IV-V əsrlərinə, uzaq başı, eranın əvvəllərinə aid edilir və əlifbanın əsası başqa mənbələrlə bağlanırdı. B.Tomsen göstərirdi ki, "Orxon-Yenisey" əlifbasının mənşəyini aramilərin pəhləvi və soqdi əlifbasında axtarmaq lazımdır. Bu fikrə O.Donner əlavə edir. Onun mülahizələrinə görə, "Orxon-Yenisey" əlifbasının arsakid sikkələri üzərindəki işarələrə daha çox oxşarı vardır.

"Orxon-Yenisey" kitabələrinin mahir tədqiqatçısı P.M.Melioranski bu fikir və mülahizələrə o qədər də inana bilməmiş və uzaqgörənliklə yazmışdı: "Bununla belə, Orxon əlifbası ilə onun arami "əsilliyi" barədəki mülahizələr arasında olan fasilə uyğun gəlmədiyindən Orxon əlifbasının mənşəyi tamamilə aydınlaşmamış qalır. Ümid etmək olar ki, Qərbi Türküstanda, habelə, bəlkə də Yeddisuda yeni bir yazı tapılsın, onda bu məsələ daha artıq aydınlaşa bilər" (*216,* s.278).

Doğrudan da gənc bir yeddisulumun qəbri və oradan yazılı gümüş cam tapıldı, məsələ xeyli aydınlaşdı. Məlum oldu ki, hələ mi-

laddan öncə V-IV əsrlərdə bu yazı mövcud imiş, onunla epitafiyalar yazılırmış.

Miladdan öncəki V-IV əsrlərdə türk əlifbası ilə qəbir daşlarına və ya zinət şeylərinə epitafiyalar yazılırdısa, "İskit vəhşi heyvan üslubu"nca qızıl və metal lövhəciklərdə qaplan, at, dağ keçisi və s. təsvirləri özü də elə həmin əsrlərin inkişafı, nailiyyəti deyildi və ya iskit-türk əskəri ilmələri qızıl fiqurlarından olan zirehli paltar geyirdisə, bu yüksək mədəniyyət də birdən-birə yarana bilməzdi. Bəs bu yüksək mədəniyyət (biz bunu "İssıq mədəniyyəti" adlandırırıq) necə yaranmışdı. Bu, artıq xüsusi tədqiqata ehtiyacı olan problemdir.

"İssıq" tapıntısı ilə bağlı bir yazıda oxuyuruq: "İssıq yazısı belə fərz etməyə imkan verir ki, türklər eramızdan əvvəlki birinci minilliyin ortalarında öz yazılarını İran yazısının vasitəçiliyi olmadan birbaşa aramililərdən götürmüşlər" *(251)*.

Müəllifin bu fikrinə iradımız var. "İssıq" yazısı nəinki türk yazısının, türk əlifbasının başqa yazı və əlifbalarla və ya "arami əlifbası" ilə bağlılığı, əlaqəsi barədə yenidən məsələ qaldırmağa və "fərziyyə" söyləməyə imkan verir, əksinə, onun məhz milli əsasda yarandığı, təşəkkül tapdığı barədə fikirlərə inamı gücləndirir.

Həmin məsələ ilə bağlı indi də fikir və mülahizələr davam etməkdədir. A.N.Kononov qədim türk əlifbasının pəhləvi, xarəzm və soqdi əlifbalarından törədiyi fikrini müdafiə edir. V.A.Livşist isə məsələyə ayrıca, geniş bir məqalə həsr etmişdir, gəldiyi nəticə belədir: "Nəticə etibarilə qeyd etmək istərdim ki, bu məqalənin müəllifi iranşünasdır, türkorloq deyil, o, dərk edir ki, artıq R.Qotye tərəfindən işlənmiş run yazılarının mənşəyinin soqdi variantına aid edilən mübahisəli qrafika və şərhlər bunu yalnız dəqiqləşdirər və əlavələr edərdi. Həqiqətə daha uyğun olsa da bu variant indiyəcən fərziyə kimi qalmaqdadır" (*203*, s.98).

Bu barədə daha bir neçə fikir və mülahizə var...

Vacibdirmi ki, qədim türk əlifbasının mənşəyini öz kökündən ayırıb ora-bura yozaq, soqdı, arami əlifbalarına bağlayıb, mütləq


onlardan və ya başqa bir xalqdan götürüldüyü barədə iddialar edək və ya rəylər söyləyək?!

Bütün tarixi faktlar, tapıntılar, arxeoloji qazıntıların nəticələri və s. bu səmtə yön alır: qədim türk əlifbası türklərin öz icadıdır; tarixi də onunla müqayisə edilən əlifbalardan çox-çox qədimlərə gedib çıxır.


Hələ 60-cı illərdə İ.Q.Klyaştornı həmin əlifbanın üç inkişaf mərhələsini qeyd etmişdi: "Hazırkı təsəvvürə görə run əlifbası ən azı üç inkişaf mərhələsi keçib ki, bu da üç üslub xəttinə uyğun gəlir: a) Yeddisu (VI-VII əsrlər) və Yenisey (VI-X əsrlər) kitabələrinin inkar edilmiş geniş arxaik üslub xətti; bu xəttin təsiri Ongin yazılarında xüsusilə nəzərə çarpır; b) ikinci türk xaqanlığı dövrlərində (VIII əsrin birinci yarısı) yaranmış saysız-hesabsız kitabələrdə işlənmiş klassik üslub xətti; c) Uyğur xaqanlığı dövrü (VIII-IX əsrlərin ikinci yarısı) kitabələrinin və Şərqi Türküstanda tapılan (IX əsr) "kağızda run yazıları"nın sonrakı üslub xətti" (*189*, s.47). A.N.Kononov təxminən 20 il sonra bu bölgü və fikirləri eynilə təkrar edir (*192*, s.23).

Burada yenə əsas məsələ ilə bağlı fikir, söz yoxdur. Sual ortaya çıxır ki, "VIII əsrdə klassik üslub" səviyyəsinə qalxan bu yazının kökü, mənşəyi haradan gəlirdi? Bəlkə də 60-cı illərdə "Orxon-Yenisey" yazılarının inkişafını bu mərhələlərə bölmək və bu fikirləri də söyləməyi qəbul etmək olardı, lakin 80-ci illərdə olmazdı. Çünki yeni tapıntılar və bu əsasda söylənilən fikirlər daha artıq ağıla batır, türk əlifbasının yaranma tarixini və inkişafının çox qədimlərə aparır.

Hazırda, yazıldığı 3479 il bundan əvvələ aid edilən "İber yazısı", onun qədim gürcü yazısına oxşarlığı və Pireney basklarının gürcülərlə qohumluğu və s. kimi məsələləri sübuta çalışırlar (*187*, s.58).




"Orxon-Yenisey" yazısı.



İber yazısı.

Maraqlıdır ki, "Orxon-Yenisey" yazılarında da, "İber yazısı"nda da səslərin sayı eynidir, basklara məxsus olan yazının qrafik üslubu açıq-aşkar "Orxon-Yenisey" qrafik üslubudur; bu üslubu üst-üstə qoyulan nöktələr (:), xüsusilə tamamlayır, işarələrin yarıdan çoxu, yəni 22-23-ü bir-birinin tam eynidir. Bunu tədqiqatçılar da qeyd edirlər (113, s.55).

Müqayisə et!

"Orxon-Yenisey" yazısı																				
"İber" yazısı																				

Bu işarə - hərflər qeydsiz-şərtsiz bir-birinin eynidir, heç bir mübahisəyə ehtiyac yoxdur. "İber yazısı" ilə gürcü yazısının qrafik qohumluğu tam sübut olunsa, bununla həm də sübut olacaq ki, gürcü əlifbası da öz əsasını "Orxon-Yenisey" yazısından götürüb...

Artıq qədim türk əlifbası tarix səhnəsindən çıxmışdır, indi ondan istifadə edilmir. Lakin onun təsirilə və ya onun əsasında düşünülmüş, əsası qoyulmuş əlifbalar yaşayır. Məs., "Orxon-Yenisey" əlifbası əsasən *süngü, qılıc* (qılınc) üzərində düşünülmüşdü, miladın IV əsrində yaradılmış *erməni əlifbası* da bir şaquli xətt üzərində tərtib olunmuşdu; yaxud *pali* (hind - Avropa dilləri qrupu) və *tay-sinpin* (Çin-Tibet dilləri qrupu) və b. əlifbaları qədim türk əlifbalarını xatırladır... (*147*, s.182, 189).

"İssıq yazısı" faktik olaraq sübut etdi ki, "Orxon-Yenisey" əlifbası m.ö. birinci minilliyin ortalarında, indiyədək güman edildiyindən min il də qabaq mövcud idi. Bu əlifbanın yaranma tarixi m.ö. minilliklə də məhdudlaşıb qalmır. Bu tarix çox-çox qədimdir. Buna görə türk yazısını "run yazıları" adlandırıb onu runalara bağlamaq, Skandinaviya germanlarının yazılarına oxşatmaq qeyri-elmidir. Çünki türk yazısının tarixi, ondan qədimdir; onun təsir dairəsi də güclü olmuşdur. Məhz qədim türk əlifbası run yazılarına yox, bəlkə də run yazıları ona oxşadıla, bənzədilə bilər.

Məsələ ilə sıx bağlı İ.A.Amanjolovun bu fikrini xatırlayaq:

"Türk-run əlifbasının mənşəyi məsələsinin obyektiv həlli, onun tərtib olunduğu yer və vaxtının aşkarlanması üçün bu əlifbanın hərtərəfli poliqrafik analizini türk etnik tipinin müəyyənləşməsi tarixilə qədim dünyanın tarixi və mədəni əlaqələrinin sıx vəhdətində aparılması tələb olunur. İ.Q.Klyaştornın türk-run yazısının Qansu və Qaoçan soqdilərindən (V əsr) götürüldüyü barədəki təxmini fikri faktlarla əsaslandırılmayıb, bu günədək tələm-tələsik söylənilmiş fərziyə kimi qalır" (*97,* s.68).

Qədim türk əlifbası türk xalqlarının, təbiidir ki, həm də Azərbaycan xalqının öz əcdadlarının yaratdığı ilk əsl milli əlifbasıdır. Və dünyanın bütün əlifbaları bunun davamıdır.

Bu fikri görkəmli şumeroloq M.S.Kramerin tədqiqatları da təsdiq edir: "Tarixdə ilk olaraq Şumerdə insana öz işlərini və fikirlərini və ümidlərmi, mühakimə və inanclarını ətraflı və etibarlı əks etdirmək imkanı verən yazı inkişaf etdi (yaş gil üzərində qamış çiling ilə yazırdılar" (*199 a,* s.3).

Yazı insanlığa əbədi töhfədir. Yazının kəşfi bəşər tarixinin böyük nailiyyətidir. Bu kəşf bəşər sivilizasiyasının ilkin gəlişi, başlanğıcı idi... N.S.Kramer sözünə davam edir: "Şumer məktəbi mixi yazının meydana gəlməsi nəticəsində təzahür etdi. Mixi yazının kəşfi və onun təkmilləşdirilməsi isə Şumerin bəşər tarixinə ən önəmli töhfəsi oldu. İlk yazılı abidələr qədim Şumer şəhəri Urukun ("Bibliya"da Erex) xarabalıqları arasında aşkar oldu. Orada üzləri şəkilli yazı ilə örtülmüş mindən çox gil lövhəcik tapıldı. Onlar əsasən təsərrüfat və inzibatçılıq yazılarından ibarət idi. Amma onların arasında bir neçə tədris mətnlərinin də olduğu müəyyən edildi (əzbərlənmək üçün sözlərin siyahısı). Bu onu sübut edir ki, Şumer mirzələri artıq miladdan əvvəl ən azı 3000 il öncə təlim məsələləri ilə məşğul olurdular" (*199 a,* s.26).

Dil, yazı və digər mənəvi dəyərlər xalqın varlığını şərtləndirən mühüm amillərdir. Öz dili, yazısı və digər mənəvi dəyərlərini 6-7 və daha artıq min illər müddətində mühafizə etmək, bugünədək qoru-

yub saxlaya bilmək baxımından qədim şumerləri türk xalqlarından başqa bir xalqla müqayisə edib ağlabatan nəticələrə gəlmək olmur.

Artıq kifayət qədər qədim-ulu dövrlərə işıq salan elmi fikir, mülahizə, rəy, dil faktı və ümumən vahid istiqamətə yön alan müddəalar, nəticələr var. Əmin olmaq olar ki, şumerşünaslıqda tam yeni bir mərhələ başlanır: qədim Şumer yazıları mətnlərinin düzgün oxunuşu, şərhi, təhlili və elmin, mədəniyyətin inkişaf yolunun aşkarlanması - bu elmi, bu mədəniyyəti kimlərin yaratmış olduğu həqiqətinin əməli və mübahisəsiz təsdiqi.

N.S.Kramerin "Tarix Şumerdən başlanır" fundamental əsəri bu həqiqətlər üzərinə işıq salır və onu təsdiq edir.

Şumerlər müasir türk xalqlarının əcdadlarıdır - dünya elmi fikrinin gəldiyi nəticə belədir.

"Orxon-Yenisey" yazıları qədim Şumer yazı mədəniyyətinin davamı və inkişaf nəticəsidir; dünya yazı mədəniyyətinin nadir incisidir. Müdrik ağlın məhsulu olan bu yazı, bu əlifba türk xalqlarının qədim mədəniyyətini qorumuş, inkişaf etdirmiş, müasir dünyaya gətirib çıxarmışdır. Buna görə məsələnin kökünə, əlifbanın keçib gəldiyi inkişaf yoluna nəzər salıb, əsil söz, haqq söz demək lazım gəlir.

Beş min il bundan öncə "Bilqamıs" dastanının Uruk Dövlət şəhəri divarlarına gil lövhələrə köçürüldüyü mixi (buna "oxşəkilli" yazılar da deyilir) yazılarla Fransa ərazisində tapılan "Qlozel" yazıları arasında 1000-1500 il, "İssıq yazısı" arasında, təxminən 3000-3500 il, "İssıq yazısı" ilə "Orxon-Yenisey" yazıları arasında 800-1000 il məsafə vardır.

"Mixi" yazıların inkişafı "Qlozel" yazılarına və "İssıq" yazısına (və başqa yazılara), ondan da "Orxon-Yenisey"ə gəlib çıxınca 7-8 min ilə yaxın və bəlkə də daha artıq bir yol keçilmişdir. Türk xalqlarının şumerlərdən başlanan ədəbiyyatı, dili, dini görüşləri, incəsənəti, maddi mədəniyyəti, ailə-məişət tərzi, adət-ənənələri və ümumən mənəvi aləmi ilə yanaşı yazı-əlifba mədəniyyəti də birbirini beləcə qarşılıqlı şəkildə tamamlamış, inkişaf yolu keçib kamil şəkil almış və buna görə də tarixdə silinməz izlər buraxmışdır.

İslamiyyətə qədər də, islamiyyətdən sonra da Azərbaycan xalqı və ərazisi Türk dünyasının tən ortasında yerləşib, onun ayrılmaz hissəsi olub. Azərbaycan xalqının mədəniyyət tarixini hər mənada bu dünyadan ayrı, təcrid edilmiş halda düşünmək olmaz. Bu fikir yazı mədəniyyətinə də aid edilə bilər.


Bu torpaqda Azərbaycan-türk yazı mədəniyyətinin qədim tarixi vardır. Bu xalqın ululariının yaradıb inkişaf etdirdiyi yazının dörd mühüm mərhələsini qeyd etmək olar.

1). Mixi, yaxud oxşəkilli yazı mədəniyyəti mərhələsi

Bu mərhələdə yazı şəkil yazıları və tədricən mixi - oxşəkilli yazıya keçib əsasən ox (↓↑) və ya mıx (||) işarələrindən istifadə edilib. Bu yazı ilə bizim eranın arasında təxminən 7-8 min illik (və daha artıq) vaxt məsafəsi var.

"Mixi" yazı adlanan qədim Şumer yazıları ox üzərində düşünülmüşdü. Bu yazılarda söz, məna ox işarələrinin müxtəlif vəziyyət və sayda düzülüşündən alınırdı.

Şəkil yazısından nümunələr qalıb; budur fotoşəklini veririk:



"Bilqamıs haqqında epos" (Dünyanın hər üzünü görmüş adam) şəklində tərcümə edilən dastan bu "mixi" yazı ilə həkk olunub; bu artıq min illər boyu təkmilləşmiş yazı idi:



"Bilqamıs" dastanının XI lövhəsi: daşqının təsvirindən bir parça. Britaniya muzeyi

Bu yazı eyni işarənin müxtəlif ölçüdə və sayda düzülüşündən yaranan "sistemə" əsaslanır; tək bircə işarədən istifadə olunub; ölçücə gah qısa, gah da uzun olmaqla müxtəlif vəziyyətlərdə düzülərək heca, söz, fikir alınır.

"Bilqamıs" dastanının I lövhəsində, lap başlanğıcda deyilir ki, Bilqamıs


"Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb adını Urrık qoydu" (I l., 5).

Bilqamısın yaşadığı və padşahlıq etdiyi dövrü m.ö. 2800-2700-cü illər hesab etsək, "Bilqamıs" dastanı elə o vaxt ilk variantda qala divarlarına "döyülüb" - həkk olunubdur. Hələlik bizə məlum olan tarix budur. Bu yazının m.ö. III minillikdə yarandığını demək olmaz. Bu barədə nə "Bilqamıs"da, nə də digər Şumer qaynaqlarında məlumat var. Arxeoloji qazıntılar nəticəsində həmin oxşəkilli yazı ilə aşkar edilən 8 hökmdar və 8 şəhər adı təsdiq edir ki, bu yazının tarixi daha qədimdir. Ümumdünya daşqınından əvvəllər də bu yazı mövcud imiş. Bizim folklor ədəbiyyatında Nuh tufanı adı ilə əbədiləşən bu daşqının tarixi isə 12 min il bundan qabaqkı dövrə aid edilir. Deməli, yazı artıq III minillikdə mövcud idisə də, onun yaranma və icad olunma tarixi bundan əvvəlki dövr və ya dövrlərə aiddir. Dildə-ağızda gəzib folklorlaşan "Bilqamıs" dastanı m.ö. 2000-ci ildə akkad, assuri, hett dillərinə tərcümə edilib, eyni yazı ilə gil lövhələrə köçürülüb, həkk olunub...

Bu ox şəkilli yazı ilə qədim şumer-türk qəhrəmanlıq dastanları ("Enmerkar və Aratta hökmdarı", "Luqalbanda", "Bilqamıs" və b.), Şumer-Babil elminə, mədəniyyətinə, tibbinə və s. aid zəngin kitabələr mövcuddur. Bu kitabələr yerin 8-12 metr gil qatlarına düşüb qalıb, XIX əsrin sonlarında aşkar olub...

Başqa xalqlar bu yazıdan istifadə etdikləri vaxtlarda bizim ulular daim onu təkmilləşdirmiş, asanlaşdırmış, işarələrin sayını azaltmışlar. Artıq III minillikdə Şumer yazısı böyük kamilliyə çatmışdı, təxminən 2000 işarədən II minilliyin əvvəllərinə doğru 500-ü qalmışdı, yeni Assuriya və yeni Babil vaxtında isə inkişaf etmiş şriftlərin ancaq 350-400 mixi işarəsindən istifadə olunurdu.

Şumer şəkil yazılarından mixi yazıya doğru inkişafı göstərən sxem (*199a,* s.17).



Zaman keçdikcə mixi-oxşəkilli yazı yeni keyfiyyətlərlə zənginləşmiş, təkmilləşmiş, əlifba yazı meydana çıxmışdı.

Beləliklə, yazının ikinci mühüm inkişaf mərhələsi yaranmışdır.

2). Əlifba - yazıya doğru inkişaf mərhələsi

XX əsrin əvvəllərində "Orxon-Yenisey" kitabələrini tədqiq edərkən məşhur türkoloq T.M.Melioranski heyrət içində demişdi: "Belə imlaya malik olan bir əlifba birdən-birə yaradılmır; onda, deməli, yazı türklərə nisbətən qədimlərdən artıq məlum idi və onlar bunun üzərində lazımi ciddi-cəhdlə məşq etmişdilər... Ümid etmək olar ki, Qərbi Türküstanda, habelə, bəlkə də Yeddisuda yeni bir yazı tapıldı, onda bu əlifbanın mənşəyi məsələsi daha artıq aydınlaşa bilər" (*216,* s.46-47).

R.M.Melioranski bu fikri ona görə söyləmişdi ki, elmi tədqiqatlarda "Orxon-Yenisey" yazılarının tarixi bizim eranın əvvəllərindən o yana getmirdi... Maraqlıdır, bu fikrin söylənildiyi vaxtdan az keçmiş Türküstandan, Yeddisudan da uzaqlarda - Qərbdə yazılı kitabələr aşkar edildi.


Alimin uzaqgörənliyi təsdiq olundu...

1924-cü ildə Fransanın Vichy bölgəsində bir ərazi - mülk sahibi 3 min parçadan ibarət olan kitabə aşkar etmişdi. "Qlozel" muzeyində saxlanılan bu kitabələrin oxunması problem olaraq qalırdı. M.ö. 2500-cü ilə aid edilən bu kitabələrin türk alimləri Xalıq Tarcan və Kazım Mirşan tərəfindən oxunması və əlifbasının "öntürkcə" olduğu təsdiq edildi. 1993-cü ildə Sarbon Universitetində keçirilən "Əlifba yazının başlanğıcı və Qlozel kitabələri" adlı konfransda kitabədəki hərflərlə bağlı illər boyu davam edən mübahisələrə son qoyuldu. Kitabələrdəki hərflərin qarşılıqlı müqayisəsi, aralarındakı qabarıq bənzərliyin sübutu salondakı müxtəlif millətlərdən olan elm adamlarını inandırdı, verilən izahat, gətirilən dəlil və sübutlar böyük alqışa səbəb oldu.

Bu barədə məlumat-fikir və nəticələr "Dünyaya ayna" adı altında Türkiyənin "Hürriyət" qəzetində yayımlandı (*312,* s.15).

Burada verilən iki yazı nümunəsinə diqqət edək.


a) Saxsı lövhə üzərində yazı



Yazıların oxunması və tədqiqində xüsusi xidmətləri olan türk alimi Kazım Mirşan deyir: "Kitabələrdəki əlifba etrusk əlifbasına çox yaxındır. Etrusk əlifbası daha gec çağlara aid olan latın əlifbasını doğurmuşdur. Etrusk ilə heç bir bağlılığı olmayan Yunan əlifbasının da öntürklərə əsaslandığını bilirik. Finikiya və krill əlifbaları da xüsusi bir istisna təşkil etmir, bunun bir çox nümunələrini verən çoxlu kitabələr mövcuddur".

b) "Keyik rəsmi üzərində yazı"

İ̇azı oxundu, öyrənildi, onun "Yenisey-Orxon" yazısı, əlifbası ilə yazıldığı təsdiq olundu; türk yazısı nəinki Qərbi Türküstanda, ondan da çox-çox uzaqlarda aşkar oldu: yazının 4500 il bundan əvvələ aid olduğu təsdiq edildi (*312*, s.15).



Yazının oxunuşu, məzmunu belə təsdiqləndi:

"Atəşə tapınaraq, tək Tanrını dərk etdilər"

"Hürriyət" qəzetində qədim türk - "Yenisey Orxon"la "Qlozel" əlifbasının müqayisəli sxemi də verilib (*312*, s.15).

GLOZEL HARFLERİ					
· Değişmeyen			· Değişen		
Proto-Türkçe		Glozel	Proto-Türkçe		Glozel
	A			UB	
	B			D	
	UÇ			ÖK	K
	G			L	ʎ, ʌ
	İ	1		M	
	L			N	H
	N			ÖK	
	R	O	Buradan:		И
	O			Q	X
	P			ÜR	
	S		Buradan:		R
	Ş			ÉS	≈, T
	U			AT	
	Z			Ü	
				Y	Y, V
				Z	

"Yenisey-Orxon" əlifbası ilə yazılmış bu kitabənin məzmunu, həm də "Avesta"nın leytmotivini - baş xəttini müəyyən etmiş oldu.

Əlifba dilə görə, ona uyğun yaradılır. Söz yox, "Yenisey-Orxon" əlifba yazısının mənşəyinin müəyyənləşməsi, bu əlifbanı icad etmiş olan xalqın və onun dilinin mənşəyinin aydınlaşması deməkdir.


Bütün bu alqışa layiq kəşf, açıqlamalar, elmi fikirlər məlum "Orxon-Yenisey" yazılarının məhz miladi tarixin məhsulu deyil, çox qədim dövrlərdən inkişaf edib gəldiyini və təkmil bir əlifba yazısı olduğunu sübut edir. Türkün - türk dili və yazısının əsl tarixinə işıq salır.

Yerin dərin qatlarında mühafizə edilib, müqəddəs torpağın qoynunda qorunub saxlanılan əvəzsiz incilər tapılmaqdadır, bu tapıntıların aşkarlanması davam edir...

3) "İssıq" yazı mədəniyyəti mərhələsi

Türk yazısının, əlifbasının inkişaf tarixinin daha yeni bir dövrü, mərhələsi barədə söz demək, fikir söyləmək üçün 1970-ci illərdə "İssıq" yazısı da üzə çıxdı, aşkarlandı. Bu, artıq bütün mübahisələri kəsən bir tapıntı oldu.

"İssıq" yazısına - "Gümüş cam üzərində yazı"ya gələk.



Bu mərhələdə əlifba yazı inkişaf edib təkmilləşib, necə deyərlər, öz milli-xəlqi məcrasına düşüb. Belə anlaşılır ki, yazıda özünəməxsusluğu əks etdirən keyfiyyətlər artıq ön plana çəkilib; ox (↓↑), süngü (ׁ ׂ) üzərində düşünülüb; əlifba yazı daha artıq kamilləşib, "Orxon-Yenisey" yazılarına daha yaxın və ya onun eyni olan əlifba şəklini alıb. Bunu "Gümüş cam üzərində yazı" tam təsdiq edir.

Həmin mətndə sözlərdəki hərflərin yazılış şəkillərinə nəzər salaq; "Orxon-Yenisey"lə bəzi müqayisələr verək:

Mətndə 8 söz, 25 hərf - səs var.

1) : ağa

 ğ. "Yenisey"dəki eyni korpus - hərfdir:

 a. Söz başında yazılmır, amma oxunur. "Yenisey"dəki eyni korpus - hərfdir:

2)  : sana (sənə).

(- s. "Yenisey"dəki eyni korpus-hərfdir: qalın səsdir. "Yenisey" yazılarında bu səs əksərən ş səsilə növbələşir:

 - sağır nun. Sadəliyə doğru inkişaf edib dəyişilib. A.S.Amanjolav bu hərfin qədim yunanların *n* hərfinə uyğun gəldiyini qeyd edir.

Həmin hərf "Yenisey"də belədir: 

 a. Bu səs "ağa" sözündəki a-dır.

3) :üçuq

 (o, u). "Yenisey"dəki o, u () korpusuna uyğun gəlir.

 ç. "Yenisey"dəki eyni korpus-hərfdir, inkişaf edib bir qədər sadələşib: 

 q. "Yenisey"dəki eyni korpus-hərfdir:

4) bez - yad, yağı.

 yumşaq (incə) b-dır. "Yenisey"dəki eyni korpus hərfdir:

 yumşaq (incə) z-dır. "Yenisey"dəki eyni korpus-hərfdir:

5) : çok.

 ç. uçuq // ocuq sözündəki ç-dır. "Orxon" yazılarındakı ç hərfinə uyğun gəlir:

 - ö. “Yenisey”dəki eyni korpus-hərfdir:

 k. Yumşaq (incə) k-dır. Bir qədər fərqilə “Yenisey”dəki hərf-dir:

6)  : bukun - qövm, xalq.

 b. Qalın b-dır. “Yenisey”dəki eyni korpus-hərfdir 

 u. “Uçuq, ocuq sözündəki u-dur. “Yenisey”dəki o, u səslərinə uyğun gəlir:

 ķ. Qalın k.-dır. “Yenisey”dəki eyni korpus hərfdir:

 u. Yuxarıdakı u hərflərinin eynidir:

N n. Qədim yunanların n səsinə oxşarı var.

7) : içrə.

 i. “Yenisey”dəki eyni korpus hərfdir:

 ç. Çök sözündəki ç-dır; yuxarıdan bir çıxıntı əlavəsilə fərq-lənir:

 r. “Yenisey”dəki başıaşağı çevrilmiş eyni korpus-hərfdir:

Lakin iki çıxıntı əlavəsilə fərqlənir. Sadəliyə doğru inkişaf edib gəlib.

 ə. “Yenisey”dəki eyni korpus-hərfdir: 

Həm a, həm də ə oxunur.

8)  : azık // azık // azuk, azuqə. Sözün əvvəlindəki “a” səsi və ortadakı ı səsi buraxılıb.

 z. “Yenisey”dəki korpus-hərifdir:  .

 ķ. “Yenisey”dəki korpus-hərifdir: ↑↓ Yuxarıda “çok” sözündə də işlənib.

"Yenisey" yazılarından fərqli olaraq burada məlum hərflərə edilən bəzi çıxıntıları da qeyd edək. Bizcə bu, camda yazıya verilən bədii tondur; usta yazıya bir qədər bəzək vurmuşdur.

Mixi-oxşəkilli yazıdan "İssıq" yazısınadək çox vaxt keçib; bu yazı m.ö. V-IV əsrlərə aiddir, gümüş cam üzərinə həkk olunub. Bu həkkətmə mədəniyyəti və "İssıq" kurqanından aşkar edilən digər maddi mədəniyyət tapıntıları təsdiq edir ki, m.ö. son minillik hər sahədə (əlifba, dil, maddi mədəniyyət, sənət) yüksək inkişaf mərhələsi olmuşdur.


M.ö. son minillik tarixdə Sak hakimiyyəti və mədəniyyəti dövrü kimi məşhurdur. Sak // sakalar isə qədim güclü - qüdrətli türk tayfalarından idi...

4) "Orxon-Yenisey" yazı mədəniyyəti mərhələsi

Bu mərhələ bizim eranın I-X əsrlərini əhatə edir. Türk əlifbasının yüksək inkişafı və süqutu dövrüdür. Bu yazı ilə zəngin ədəbiyyat yaranıb. "Gültəkin", "Mogılyan xan" və "Tonyukuk" kitabələri məşhurdur. Bunlar qədim türk tarixinə aid qiymətli əsərlərdir.

"Yenisey" kitabələri "Orxon"dan daha qədim sayılır. Buna görə "Yenisey-Orxon" kitabələri demək daha doğrudur. Lakin "Orxon" kitabələri daha zəngin sayıldığından əksərən "Orxon" sözü əvvəldə deyilir.

"Yenisey" kitabələrindən bir nümunə (*208*, s.67).



Sağdan sola oxunduqda bu məzmun alınır.

"Qara kan içrəgi bən Əzgənə
Altı otuz yaşıma ərti.
Bən öltüm türkis el içintə bən bəg. Bitıq..."

Müasir məzmunu belədir:


Daxili (vəzifə, çin) "Qara xan Əzgənə mənəm.

İyirmi altı yaşıma çatdım.

Mən öldüm. Türk eli içində mən bəy idim. Abidə..."...

Qədim Şumer yazılarında ox (), "İssıq" və "Orxon-Yenisey" yazılarında isə *ox* () və *süngü* () şəkilləri əsasdır, daha dürüst desək, əksər hərflər *ox* və *süngü* üzərində düşünülüb, tərtib edilibdir. Ox da, süngü də qədim şumer-türk cəngavərlik rəmzidir. Ulu babalar qədim həyat tərzinin ən mühüm silahı olan ox və süngüdən və yaydan () məharətlə istifadə edib mənəvi bir silah-əlifba yaratmışlar. Bununla da əlifbada şumerlərin və ya türklərin mühüm xəlqi-milli keyfiyyətləri öz əksini tapmışdır. Bu üstünlük dünya əlifbalarının heç birində müşahidə edilmir.

Diqqəti kamil "Orxon-Yenisey" əlifbasının bu keyfiyyətləri üzərində yönəldək:

1)  (ox şəkli) - qədim şumer-türk həyat tərzinin mühüm silahı: kar, qalın ķ hərfi və ayrılıqda "ok" (ox) sözü hesab edilib, düşünülüb.

2)  (süngü, qılınc şəkli): qədim şumer-türk cəngavərlik rəmzi, silahı. Yumşaq, incə s() və qalın s () hərfləri hesab edilib, düşünülüb.

3) (yay şəkli): şumer-türk həyat tərzinin ilk mühüm silahı: *y* hərfi və ayrılıqda "yay" sözü hesab edilib, düşünülüb.

4) (çadır, alaçıq şəkli): qədim türk köçəri həyat tərzinin rəmzi. Qalın *b* hərfi hesab edilib, düşünülüb.

5) (böyrü üstə qoyulmuş çadır, alaçıq şəkli), köçməyə, başqa yerə yığışmağa hazırlıq rəmzi; *m* hərfi hesab edilib, düşünülüb.

6)  (tam və yarımçıq ay şəkli): Qədim türklərin Aya tapınması rəmzi; *nt* // *nd* qoşa hərfi, diftonqu hesab edilib, düşünülüb və s.

"Orxon-Yenisey" əlifbası əslində qədim oxşəkilli Şumer yazı prinsipinə uyğunluq gözlənilərək tərtib edilib. Şumer yazısında bir işarənin müxtəlif ölçü və vəziyyətlərdə düzülüşü ilə hərf, heca, söz alındığı kimi, burada da hərflər əsasən *süngü, yày, ox, çadır* şəkilləri üzərində düşünülüb icad edilib, bu əşyalar müxtəlif vəziyyətlərdə götürülərək onlara bəzi hissəciklərin əlavəsi ilə yeni səslər - hərflər yaradılmışdır. Məs.: təkcə bir süngü üzərində aparılan "əməliyyata" diqqət edək:

1) Süngü şəkli (𐰴) incə *s* səsi olaraq qəbul edilib: 𐰴=*s*. Digər süngü 𐰽 şəkli qalın *s* səsi olaraq götürülüb: 𐰽=*s*.

2) Süngü şəklinə (𐰴) kiçik bir ilişik əlavə edilib yeni səs - hərf yaradılıb: 𐰴+𐰾=𐰣-p

3) Həmin səs tərsinə çevrilməklə yeni iki səs yaradılıb: 𐰾 = *ı, i*

4) Həmin səs başıaşağı endirilib daha yeni bir səs yaradılıb: 𐰼 = *l*.

5) Süngü şəklinə əlavə olunan kiçik ilişik ortaya endirilərək sağır nun hərfi yaradılıb: 𐰽 = *n*. (Həm də sağır nun hərfi üçün başqa bir işarədən istifadə edilib: 𐰢). Bu səs "İssıq" yazısında müşahidə edilir.

6) Süngü şəklinə yeni bir ilişik əlavə edilərək yeni səs yaradılıb: 𐰴 + 𐰺 = 𐰸 – r

7) Həmin səs tərsinə çevrilərək daha yeni iki səs yaradılıb: 𐰶 𐰸 = *ö, ü*.

8) Həmin səs başıaşağı endirilərək daha yeni bir səs yaradılıb: 𐰸 = *t*.

9) Həmin səs sola çevrilərək k, q səsləri yaradılıb: 𐰢 = *k, q*.

Və h.b.


Beləliklə, tək bircə süngü şəkli üzərində 11-12 səs-hərf icad edilib. 𐰴 (s), 𐰣 (p), 𐰾 (ı, i), 𐰼 (l), 𐰽 (n), 𐰸 (r), 𐰺 (o, ö), 𐰸 (t), 𐰢 (q).

Bu dahilikdir.


"Orxon-Yenisey" əlifbası öz məlum milli şəklini uzun tarixi inkişaf nəticəsində almışdı. Bunu "Yenisey" mətnlərində öz əksini

tapan eyni hərflərin müxtəlif şəkillərdə yazılması və təkmilləşməsi də aşkarlayır. "Yenisey" kitabələri üzrə hərflərin müxtəlifliyini, inkişaf mənzərəsini göstərən bu sxem də təsdiq edir.

"Yenisey-Orxon" əlifbasının inkişafını göstərən sxem (*135*, s.7).



1	a ; ä	
2	e	
3	ı i e	
4	o u	
5	ö ü	
6	b'	
7	b²	
8	d'	
9	d²	
10	ğ	
11	e	
12	j'	
13	j²	
14	J	
15	q	
16	q (c müşahidə edilməyən)	
17	q (c işlənən variantı)	
18	k	
19	ök (ök/ük, kö/kü)	
20	L'	
21	L²	



22	l, l	
23	m	
24	n'	
25	n²	
26	p	
27	n, nt, nd, ŋ	
28	ŋ	
29	r	
30	R'	
31	R²	
32	s'/ś'/š'	
33	s²(s²/ś²)	
34	t'	
35	t²	
36	z	
37	z	
38	ch	

100 ilə yaxındır ki, qədim türk əlifbası öyrənilir, tədqiq olunur. Məşhur türkoloqlar bu əlifbanı türk xalqları üçün ən yararlı və türk dillərinin incəliklərini tam təmsil edən kamil əlifba kimi qiymətləndiriblər. V.Tomson, V.V.Rodlov, P.M.Melioranski, S.Y.Malov, V.V.Bartold və b. alimlər ərəb əlifbası ilə tutuşduraraq qədim türk əlifbasının müqayisəyəgəlməz dərəcədə türk xalqları üçün yararlı olduğunu dönə-dönə göstərmişdir.

Qədim türk əlifbası türk xalqlarının, təbiidir ki, həm də Azərbaycan xalqının - öz əcdadlarının yaratdığı ilk əsl milli əlifbasıdır.

"Orxon-Yenisey" kitabələri öz qədimliyi ilə dünya yazı mədəniyyəti tarixinin nadir incisidir. Müdrik ağlın məhsulu olan bu yazı, bu əlifba türk xalqlarının qədim mədəniyyətini qorumuş, onu müasir dünyaya gətirib çıxarmışdır...


3. KİTABƏLƏRİN DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Türk dillərinin inkişafı tarixində lap əzəldən ana sözə, dilə yüksək səviyyədən yanaşılıb, ana söz, dil həmişə uca tutulub. Türk ədəbiyyatlarının dili və üslubu ta qədimdən öz zənginliyi, rəngarəngliyi və çoxcəhətliliyi ilə diqqəti cəlb edir. Bu keyfiyyət hələ "Orxon-Yenisey" kitabələrindən özünü qabarıq şəkildə göstərir.


1) Bəzi ümumi müqayisələr

Kitabələrdən nümunələr verib, hələlik müasir dilimizdə bəzi müqayisələr aparaq.

Bir nümunə (208, s.22).



Barlıq yazısından



Yazını müasir əlifbamızla verək:

1) *Bayna Sanun oğlı Gülüg Cur.*

2) *Bunusuz ulğatım bun bu ərmiş.*

3) *Tənridəki güngə yerdəki elimgə bögmədim.*

4) *Quyda qunçuyımğaqa özdə oğlımqa adrıldım.*

Göründüyü kimi, yazıdakı fikir, məna, sözlər öz-özünə də, əsasən anlaşılır, başa düşülür; çünki bu dil ilə müasir dilimiz arasında bağlılıq, əlaqə mövcuddur. Nəzərə alaq ki, bu nümunə, bu qəbir daşları yazısı - bu "qəbiristanlıq poeziyası" bizim eranın V əsrinə aiddir"! Fikir verilsə, dilin özünəməxsus üslubu və yığcamlığı var. Bu da təbiidir, çünki qəbir daşı üzərində yazılar yığcamlıq tələb edir; bu yığcamlıq isə bütün "Orxon-Yenisey" kitabələrinə xasdır.

Mətni cümlə-cümlə, söz-söz nəzərdən keçirək.

Birinci cümlə adlıq cümlə olub, qəbrin kimə məxsus olduğunu bildirir. Həmin cümlə indi də eynilə belə deyilər və ya yazılardı:

"Bayna Sanqun oğlu Gülük Cur".

İkinci cümlə - fikir bu gün əslində olduğundan fərqlidir; bir qədər çətin anlaşılır, arxaik sözlər var, lüğətlərə baxıb mənasını tapmaq lazımdır: 1) "*bun*-qayğı, kədər, qəm..." (DTS-124); 2) "*ulğat*-böyümək, boya-başa çatmaq..." Oğlan ulğatti = Oğlan böyüdü" - MK.1.263 (DTS.609). Bizcə, müasir dilimizdə "böyük", "böyüklərin böyüyü" mənalarında işlənən "ulu" sözü də buradandır. Beləliklə, həmin cümlə indi belə deyilər və ya yazılardı:

"Qayğısız böyüdüm, qayğı, qəm ancaq budur":

Üçüncü cümlə - ikincinin davamı və cavabıdır, bu gün əslində olduğundan bir az fərqlənir; bu fərq özünü yönlük halını ifadə edən qə-

dim "gə" şəkilçisində və arxaik "bökmədim" sözündə göstərir; "gə" müasir çıxışlıq hal şəkilçisinə uyğun gəlir; "bög-doymadım, kam almadım..." Ol atdin bögdi = O, atdan doydu" - MK. P, 18 (DS-117). Beləliklə, həmin cümlə - fikir indi belə deyilər və ya yazılardı:

"Göydəki gündən, yerdəki elimdən doymadım".

Dördüncü cümlə - fikir də bu gün əslində olduğundan fərqlənir, çətin anlaşılır; çünki burada da yenə müasir çıxışlıq hal şəkilçisinə uyğun gələn "ğa // qa"; "qa" şəkilçiləri və arxaik "quy", "qunçuy", "adrıl"(maq) sözləri var: 1) "quy-qadın yaşayan xüsusi imarət..." (DTS-464); 2) "qunçuy-xanım, xan nəsilli qadın..." (DTS-466); 3) "adrıl-ayrılmaq, vidalaşmaq..." (DTS-13). "Qədim türk lüğəti" qeyd edir ki, "quy", "qunçuy" sözləri çin dilinə məxsusdur; o vaxtlar türk-çin əlaqələri güclü imiş ki, bu dillərin birindən o birinə söz keçirdi... Beləliklə, həmin cümlə indi belə deyilər və ya yazılardı:

"İmarətdə xanımımdan, öz (evimdə) oğlumdan ayrıldım"

Bütünlükdə mətn:

"Bayna Sanqun oğlu Gülük Cur. Qayğısız böyüdüm, qayğı, qəm ancaq budur: Göydəki gündən, yerdəki elimdən doymadım; İmarətdə xanımımdan, öz (evimdə) oğlumdan ayrıldım".

Başqa bir-iki nümunə:

1) *"Tənri yarlıqadukın üçün, özim kutım bar üçün qağan olurtım. Qağan olurıp yok çığan budunığ kop kobartdım (kobratdım), çığan budunığ bay qıltım, az budunığ ügüş qıltım. Azu bu sabımda igid barqu? Türk bəglər budun, bunu esidin!.."* (Gt. 9, 10).

Bu parçanı, bu qədim dilimizi müasir şəklə salmaq üçün "yarlığa", "kut", "yok çığan", "budun", "kon", "igid" kimi bir sıra qədim sözlərin bu günə gəlib çıxan mənalarını tapmaq lazımdır: 1) "*yarlıqa*-lütf etmək, buyurmaq" (DTS-242); 2) "kut-xoşbəxtlik, uğurluluq, bəxti gətirmək..." (DTS-471); 3) "*yok çığan* - yoxsul, yoxa çıxmış, üzülmüş..." (DTS-273); 4) "*budun-bodun* - əhali, təbə, camaat, xalq" (DTS-108); 5) "*kop*-qaldırmaq, yüksəltmək..." (DTS-456); 6) *ko-*

bart/kobrat/kubrat - yığmaq, toplamaq..." (DTS-451, 462); 7) "*bay*-varlı" (DTS-79); 8) "*ügüş*-çox" (DTS-624); 9) "*azu*-yoxsa" (DTS-73); 10) "*sab*-söz, nitq" (DTS-478); 11) "*igid*-yalan, saxta" (DTS-204).

Etiraf edək ki, lüğət kitablarından mənası tapılıb verilən bu sözlər indi Azərbaycan dilində işlənmir; təkcə "sab/sav" sözünün izi qalmışdır; "savaşmaq" - dilləşmək, sözləşmək...

Bunlardan əlavə, bir sıra sözlərin ilkin fonetik şəklini nəzərə almaq lazımdır: *bar*-var, *olurıp*-olub; *qıltım*-qıldım; *esidin*-eşidin... Beləliklə, bu parçanı indi belə deyə və yaza bilərik:

"Tanrı buyurduğu üçün, öz bəxtim gətirdiyi üçün xaqan oldum. Xaqan olub yoxa çıxan, üzülən xalqı yığdım, ayağa qaldırdım; yoxsulları varlı etdim, az xalqı çoxaltdım. Yoxsa, bu sözümdə yalan var?! Türk bəyləri, xalqı bunu eşidin!"

2) "Tapdım" (Yn.35); "Öldüm/Öltim" (Yn.43, 84); "Git/t/im" (Yn.38); "Yığdım", "Basdım", "Yaydım" (Or.9); "Sancdım" (Or.17); "Yaratdım" (Or.19); "Tutdım", "Yetdim" (Or.35); "Tokkıtdım (Gt. 28. Or.36); "qaçdı" (Or.9); "Görmədim" (Yn.84); "Görmədiniz" (Yn.50); "Almadın" (Yn.53); "Yanılmaduk" (or.9)... "Gəlmədiniz, bəkimiz" (Yn.59); "Qırq yaşımda qaçtım" (Yn.38); "Ərkin oğlı Ligən Çur gəlti" (Or.28); "Bükəkükdə səkiz oğuz, toquz tatar qalmaduk", "Səkiz oğuz, tokuz tatar qalmatı gəlti" (Or.35); "Oğuz budun tokuz tatar birlə tirilip gəlti" (Or.17); "Eki ay gütdim gəlmədi" (Or.35); "Əltəbir özi gəlti" (Or.28); "Oğuz Bilgə tamğaçı gəlti" (Gt. 33)...

Bu cümlələr haqqında ətraflı danışmağa ehtiyac yoxdur. Çünki indi elə bir oxucu tapılmaz ki, bunları başa düşməkdə çətinlik çəksin. Lakin biz demək istəmirik ki, kitabələrdəki yazıların hamısı belə sadə və anlaşıqlıdır, müasir dilimizin eynidir. Yox, belə düşünmək sadəlövhlük olardı. Bununla belə, kitabələrdə işlənən cümlələrin çoxu müasir Azərbaycan dili üçün də səciyyəvidir, bu onun köküdür, ana xəttidir.

2) "Paralellər" - təkrirlər haqqında

Kitabələrin dilində güclü "paralelizm"lər var, bizim dilçilik ədəbiyyatında onlar "təkrir" - bədii təkrar adlanır. Kitabələrdə bunlar elə məharətlə düşünülüb ki, yazıların maraqla oxunmasına kömək edir, onun dilinə xüsusi pafos verir və üslubi məziyyət gətirir.

Kitabələrdə ana dilinə, söz-söhbətə yüksək məhəbbət, vurğunluq var. Bu, təsadüfi deyildi. Bu fikri ifadə etmək məharəti müəyyən kamil şəxsiyyətlərlə, ziyalı adamlarla əlaqədardı. "Kitabələrin təkcə imlası deyil, onların inşası da, planı və üslubu da təsdiq edir ki, bunları yazan şəxs xüsusi istedad sahibi olduğu kimi, yetkin dilə və üsluba da malik imiş" (*216,* s.279). Bununla əlaqədar P.M.Melioranskinin çıxarışda belə bir qeydi də var ki, "Kitabələrin özündən bildiyimiz kimi, yazıların müəllifi hər yerdə açıqca xanın adından (mən, biz, mənim kiçik qardaşım və s.) danışan Bilgə xanın qohumu Yolluqtəkindən başqası deyildir" (*216,* s.279). Şübhə etmirik ki, kitabələri - qəbir daşlarını hər yetən yox, mütəxəssis ustalar, səbatlı adamlar yazmışlar. Gültəkin kitabələrinin də müəllifi Yolluqtəkindir. Lakin hələlik, elmi qənaət belədir ki, bütünlükdə "Orxon-Yenisey" kitabələri, təxminən üç-dörd əsrlik bir dövrə (V-VIII əsrlərə) aiddir. Onda, aydındır ki, bu kitabələr bir yox, ənənəvi şəkildə bir silsilə mütəxəssis adamlar tərəfindən yazılırdı ki, Yolluqtəkin bunların sonuncusu idi; həm də mətnin müəllifi o isə, bu mətnin daşlara həkk edilməsi başqalarının adı ilə bağlı ola bilər. Gümüş cam üzərindəki İssık yazısı sübut edir ki, bu həkketmə, döymə yazı mədəniyyətinin tarixi eramızdan əvvəlki birinci minilliyin ortalarına və daha qədimlərə gedib çıxır...

"Paralelizm" - bədii təkrar keçici, təsadüfi hal olmayıb, kitabələrin dil və üslubunda qabarıq şəkildə nəzərə çarpan məziyyətdir. Bu isə bir, ya iki müəllifin dili yox, V-VIII əsrlər ümumtürk yazılı ədəbi dilinin səviyyəsi idi. P.M.Melioranski abidələrin dilindəki bu məziyyəti xüsusilə qeyd etmişdi: "Abidələrin səciyyəvi üslub xüsu-

siyyəti, onların necə deyərlər, paralelizm üslubunda yazılmasındadır; həm də təkcə ayrı-ayrı cümlə qrupları yox, hətta, məsələn, türk ellərinin ayrılması, bərpası və s.-dən danışılan hissələr də bir-birinə uyğun gəlir. Ara-sıra alliterasiya da nəzərə çarpır" (*216,* s.280).

"Paralelizm" özünü müxtəlif forma və şəkillərdə göstərir.

1) Ayrı-ayrı fikirlər eyni ölçüdə, təxminən eyni şəkildə deyilir. Məs.:

a) *"Gül tikin.. uluğ sügüş sünüşmiş, alp Şalçı aq atın binip təkmiş... "* (Gt.32) = "Gültəkin ... böyük sünkü vuruşu eləmiş, alp Şalçı ağ atını minib hücuma keçmiş..."

b) *"(Gül)tikin ol sügüşdə otuz yaşayur ərti; alp Şalçı aq atın binip oplayu təkdi"* (Gt.32) = "Gültəkin o süngü döyüşündə otuz yaşında idi; alp Şalçı ağ atını minib hücuma atıldı".

c) *"Gül tikin bir qırk yaşayur ərti; alp Şalçı aqın binip oplayu təkdi"* (Gt.32) = "Gültəkin otuz bir yaşında idi; alp Şalçı ağını minib hücuma atıldı".

ç) *"Gül tikin Azman aqığ binip oplayu təkdi, altı əriq sançdı..."* (Gt.32) = "Gültəkin Azman ağını (ağ Azman atını) minib hücuma atıldı, altı əri sancdı (qılıncladı)".

d) *"Gül tikin Azman aqığ binip təkdi, sançdı... "* (Gt.32) = "Gültəkin Azman ağını minib hücuma keçdi, sancdı..." və s.

2) Ayrı-ayrı cümlələrdə eyni ifadələr təkrar edilir.

a) "İlqərü Şantuŋ yazıqa *təki sülədim,..* birqərü Tokuz Ərsəngə *təki sülədim,..* qurığaru Yinçu üküz keçə Təmir qapığqa *təki sülədim...*" (Gt.27) = "İrəli (şərqə) Şantun düzünədək (qoşunla) yeridim,.. Sağa (cənuba) Doqquz Ərsəngədək (qoşunla) yeridim,.. geriyə (qərbə) Yinçü çayını üzüb keçərək Dəmir qapıyadək (qoşunla) yeridim..."

b) "Eçim qağan birlə ilqərü Yaşıl üküz Şantuŋ yazıqa *təki sülədimiz,* qurığaru Təmir qapığqa *təki sülədimiz,* Kögmən aşa qır (qız yirinə *təki sülədimiz*)" - Gt.30 = "Gözüm xaqanla irəli (şərqə) Yaşıl çay Şantun düzünədək (qoşunla) yeridik, geriyə (qərbə) Dəmir qapıyadək (qoşunla) yeridik, Kögməni aşıb qırqız yerinədək (qoşunla) yeridik" və s.

3) Bir və ya bir neçə ayrı-ayrı cümlələrdə eyni sözlər təkrar edilir. Məs.:

a) "Ağılım on, yılkım sansız *ərti.* İnim yiti, urum üç, qızım üç *ərti*" (Yn.84) = Ağılım (heyvan saxlanan ağıl) on, ilxım sansız idi. Kiçik qardaşlarım yeddi, oğlum üç, qızım üç idi".

b) "Mən tokuz yegirmi yil şad *olurtım,* tokuz yegirmi yıl qağan *olurtım*" (Or.18) = Mən on doqquz il şad oldum, on doqquz il xaqan oldum.

4) Müəyyən səslər, hecalar, şəkilçilərlə alliterasiya yaradılır. Məs.:

a) "*B*ən itdim *b*unca *b*itigig... bitig bitidim" (Or.37) = Bütün bu yazıları mən etdim (təşkil elədim), yazını bitirdim (tamamladım).

b) "Eçümiz apamız Bumın qağan tört bulu*n*ığ qıs*mıs*, yığ*mis*, bas*mis*, ol qan yok boltuqda kəsrə el yet*mis*, içğın*mıs*, qaçış*mıs*..." (Or.8) = "Ata-babamız Bumın xaqan dörd tərəfi qısmış, yığmış, basmış; o xan yox olduqda elimiz itmiş (itib-batmış), səpələnmiş, qaçışmış..."

"Orxon-Yenisey" kitabələrində yazılı əsası qoyulan və "Dədə Qorqud"un həm nəsr, həm də şerində geniş və deyərdik ki, poetik vüsət alan paralelizm, bədii təkrar alliterasiya - səs və hecaların təkrarı bizim Azərbaycan ədəbiyyatının bütün tarixi boyu yüksək üslubi keyfiyyəti kimi bir ədəbi nəsildən o birisinə keçə-keçə müasir dövrə gəlib çıxmışdır.

3) Bədii dil xüsusiyyətləri

Kitabələrdə tarixi hadisələr, qəhrəmanlıq səhnələri və s. bəzən elə pafosla, elə bədii boyalarla təsvir olunur ki, adam tarix əsərindən daha çox bədii əsər oxunduğunu zənn edir. Fikri yığcam, təsirli və bədii vermək üçün bəzən maraqlı epitetlər, bənzətmələr işlədilir, məzmun obrazlı şəkildə ifadə olunur. Bu isə bizim ədəbi dilimizə ilkin bədiilik, ifadəlilik ünsürləri gətirir. Məs.: Gültəkin oğuzlarla süngü döyüşündə həlak olur. Həmin səhnənin təsvirindən bir parça belədir:

"İnim Gül tikin kərgək boltı, özim saqıntım, görür gözim görməz tək, bilir biligim bilməz tək boltı, özim saqıntım. Öd tənri yasar, kisi oğlı kop ölgəli (və ya: ölükli?) *törümis"* (Gt.33).

Bu parçada səbatlı oxucu üçün fikri almaq, başa düşmək o qədər də çətin deyil; bununla belə, həmin parçanı müasirləşdirməyi münasib sayırıq:

"Kiçik qardaşım Gültəkin həlak oldu, sarsıldım, gözlərim tutuldu, ağlım başımdan çıxdı; sarsıldım, insan taleyi tanrının əlindədir; bəşər övladı hamısı ölmək üçün törəmişdir".

Burada bizi fikrin obrazlı ifadəsi daha çox maraqlandırır; bütövlükdə fikir obrazlıdır, daxili sarsıntının, psixoloji vəziyyətin bədii şəkildə ifadəsidir: "Özim saqıntım", "Görür közim körməz tək, bilir biligim bilməz tək boltı" və yenə "saqıntım", "kisi oqlı kop ölgəli törümis". Burada fikrin qrammatik cəhətdən ifadə şəkli də diqqəti cəlb edir. Məsələn, eynilə həmin daxili sarsıntı, həmin psixoloji vəziyyət təxminən eyni əsrlərdə "Oğuznamə"də oğuz ədəbi dilində belə ifadə olunurdu: "Dəli Tomrulun görər közi görməz oldu" (157), "qara bağrı sarsıldı" (135); "Qazanın ağlı başından getdi, qara bağrı sarsıldı" (140); "Gəlimlü, gedimlü dünya, axır son ucı ölümlü dünya" (65). Belə bir fikri paralellik, obrazlı fikir və onun ifadə formalarının bir-birinə uyğunluğu, bəlkə də eyniliyi, sonluqların belə təskinedici tamamlanması bədii əsərə xas keyfiyyətlərdir. Bu mənada "Orxon-Yenisey" kitabələri ilə "Dədə Qorqud kitabı" arasında müəyyən bədii dil bağlılığı, müəyyən üslub oxşarlığı var...

Kitabələrdə "ölmək" anlayışı daha çox müxtəlif məcazlarla ifadə olunur: "uçdı", "uça bardı" (uçub getdi), "adrıldım" (ayrıldım), "bökmədim" (doymadım, kam almadım). "Qızıl qanım tökti (tükədi?) qara tərim yügürti" (Ton.52); bədii cümlələr "qara saçım tək" (Yn. 26), "Gümüş budunum"="gümüş xalqım" (Yn.44); və s. kimi müqayisələr və metafor ifadələr də kitabələrin dilinə bədiilik verən fikrin ifadə tərzləridir. Bu barədə P.M.Melioranski yazırdı: "Müqayisəli və metafor ifadələrə gəlincə, onların türk xalq ədə-

biyyatında sabitliyi və davamlılığı təəccüb doğurmur: onların çoxu indiyədək Altayda, qırğızlar arasında və b.-da işlənir və yəqin ki, bizim müasirimiz olan türklərin "özgələşmiş" qəbilələri tərəfindən də çətinlik çəkilmədən anlaşılır və dərk edilir" (*216,* s.280).

"Orxon-Yenisey" kitabələrinin dili poetik dildir; bu yazıları mənsur şer adlandırmaq daha doğru olardı. Çünki bu yazılarda güclü daxili harmoniya var; müxtəlif ritmik ölçülər, simmetriya qanunundan məharətli istifadə var. Təsadüfi deyil ki, bir sıra tədqiqatçılar bu yazılarda "türk şer ölçüləri tapır, bu kitabələrin məhz şerlə yazıldığını söyləyir, poetik əsərlər olduğunu sübuta çalışır, bu kitabələrdən türk xalqlarının VI-VIII əsrlər poeziyası deyə bəhs edirlər" (*197,* s.138). İ.V.Steblevanın şer, poetik əsər kimi götürdüyü mətnlərdən bir-iki nümunə verək:

1) "Tokuz oğuz bəgləri budunı
bu sabimin ədgüti esid
qatığdı tınla" =

("Doqquz oğuz" bəyləri, xalqı
bu sözümü yaxşıca eşid,
qatıca (möhkəmcə) dinlə!)

2) "Nəŋnəŋ sabım ərsər
bəngü taşqa urtım.
Anar körü bilin
türk amtı budun bəglər" =

(Bütün sözümü
əbədi daşa vurdum (həkk elədim).
Ona baxıb bilin
indiki türk bəyləri, xalqı!)

3) "Üzə kög təŋri
asra yağız yir qılıntıkda
əkin ara kisi oğlı qılınmıs" =
(Üstdə göy, tanrı

aşağıda yerlə qovuşduqda
ikisinin arasından insan oğlu doğulmuş)...
(*210*, s.71, 73, 74).

***

Qəbir daşlarına həkk olunmuş bütün bu dil faktları, bu "poetik əsərlər" ilə bizim aramızda çox uzun vaxt məsafəsi var. Bu dil, bu "poetik əsərlər" müasir Azərbaycan dili və şerinin 14-15 əsr bundan əvvəlki səviyyəsidir və ya buna aid nümunələrdir. Azərbaycan dilinin əsasını, kökünü bağladığımız fikrin bu ifadə formaları indi başa düşülürsə, onda həmin əsrlərə gəlib çıxıncayədək də müəyyən inkişaf yolu keçmişdi: bu ifadə formaları ancaq o əsrlərdə yaranmayıb çox-çox əvvəllərdən də mövcud olub.

Qədim Azərbaycan dili ilə müasir dilimizin arasındakı bağların, əlaqənin, yaxınlığın ümumi mənzərəsi təxminən belədir.

4. Kitabələrin dilinin fonetik xüsusiyyətləri

Qədim, bəlkə də, ilkin fonetik xüsusiyyətlər müasir dilimizdə öz izlərini mühafizə edir; kitabələrin aydın və zəngin əlifbası, səbatlı və dəqiq imlası bu xüsusiyyətləri tutuşdurmaq və müqayisə yolu ilə bir sıra həqiqətləri aşkar etmək imkanı verir.

Müasir dilimizdəki sözlərin səs sistemində bu gün belə davam etməkdə olan elə fonetik hadisələr, qanunauyğunluqlar var ki, bunlar çox qədim dövrlərdən gəlir. Türk dillərinin, habelə Azərbaycan dilinin inkişafı tarixində bir-birilə yaxın və eyni məxrəcli səslərin növbələşməsi, gah birinin, gah da digərinin fəallaşması, sabitləşməsi və bəzən bu sabitləşmə prosesinin hələ də tamamlanıb başa çata bilməməsi və s. özünü daimi bir proses kimi göstərir. "Orxon-Yenisey" yazıları məhz müasir dilimizlə kitabələrin dili, səs sistemi arasındakı əlaqələrin, sövti bağların möhkəm olduğunu sübut edir.

Azərbaycan dilinin inkişaf tarixi, habelə onun müasir fonetik qanunauyğunluqları, səs dəyişmələri, bir səsin başqasına keçməsi, səs düşümləri və s. ilə səsləşən, uyğun gələn əsas anları izləyək.

1) "t" ~ "d" əvəzlənməsi

a) Eyni tərkib sözlər həm "t", həm də "d" ilə yazılır. Məs.: "üç yaşımda" - altı yaşımta (Yn.21, 64); "adırıltım" - "adırıldım" (ayrıldım) - Yn.17-21; "öldüm" - "öltim" (Yn.43, 84); "görmədim" - "görtim" (Yn.84); "altım" - almadın" (Yn. 75, 53); "qıldı" - "qıltım" (Yn.21, Gt.31); "olurtım" - "olurmadım" (Gt.31)...

b) Müasir imlamızda "d" samiti ilə sabitləşən eyni tip söz və ifadələr həm "d", həm də "t" ilə yazılır. 1) "d" ilə yazılır: "tapdım" (Yn.35); "ölürdüm" (öldürdüm), "ölürmədim" (Yn.33); "qalmadın", "almadın" (Yn.53); "yığdm", "basdım", "yaydım" (Or.9); "sançdım" (or.17); "yaratdım" (Or. 39); "tutdım", "yetdim", "uçdı" (Or.35); "qatladım", "yayladım", "keçdim" (Or.36); "tikdim" (GT.31); "basdı" (Gt.39); "tutdı", "sançdı" (Gt.32)... 2) "t" ilə yazılır: "gəltim" (Tk. 61); "kirti" (Or.35); "ölti" (Gt.30); "qazğantı" (qazandı), "qaltı", "bultı - boltı" (Gt.31); "gəlürti" (gətirdi) - Gt.32; "könültə" (könüldə) - Gt.33...

c) Müasir imlamızda "d" samiti ilə sabitləşən bir sıra müxtəlif sözlər "t" ilə yazılır. 1) sözün əvvəlində: "ton" (don) - Yn.75; "tidi" (dedi), "tidim" (dedim) - Or.35, Tk. 61; "taş" (daş) - Gt.29; "tağ" (dağ) - Or.53; "tul" (dul) - Or.59; "təmir" (dəmir) - Tk.64; "tiri" (diri) - Or.17... 2) sözün ortasında və sonunda: "at" (ad - "ər atım" - ər adım) - Yn.38; "tört (dörd) - Yn.26; "yurt" (Gt.33); "yeti" (yeddi - "yetinç ay" - yeddinci ay) - Or.53, "küntüz" (gündüz) - Tk.64...

Məxrəccə "t", "d" bir-birinə çox yaxın fonemlərdir, odur ki, bu növbələşmə - "t" yerinə "d" və əksinə işlənməsi qanunauyğun bir hal kimi özünü göstərir. Buna görə, maraqlıdır ki, kitabələrdəki "𐰚𐰃 𐰴..." diftonqunu P.M.Melioranski "nd", S.Y.Malov və b. "nt" qəbul etmişlər. Məs., 𐰖𐰃𐰽,𐰖𐰃,𐰋𐰴𐰍𐰏 və s. kimi sözləri P.M.Melioranski "bunda" (bunda, bu anda), "anda" (orda, orada), "qazğandım" (qazandım, gətirdim), S.Y.Malov isə "bunta" (Gt.25...), "anta" (Gt.31...), "qazğantım" (Or.8...) şəklində oxumuşdur. Tomsen isə 𐰚 diftonqunun həm "nd", həm də "nt" olduğunu

göstərir: 𐰴 = nd (nt) ... “t”, “d” səslərinin növbələşməsi uzun tarixi prosesdir; dilimizdə bu gün belə, bir sıra eyni tərkibli sözlər “t” ilə tələffüz olunur (Məs., “süt”, “dört”, “yurt”, “bulut”, “qurt” və s.), “d” ilə isə yazılır (“süd”, “dörd”, “yurd”, “bulud”, “qurd” və s.). Bu o deməkdir ki, proses hələ də davam etməkdədir.

2) “s” ~ “ş” əvəzlənməsi

a) Eyni sözlər həm “s”, həm də “ş” ilə yazılır. Məs.: “kişi” // “kisi” (Gt.28); “üküş” (çox) // “üküs” (Gt.28); “gümüş” (GT.19) // “gümis” (Or.18); “sünгüşdimiz” (vuruşduq, hərfən: süngüləşdik), “sünгüsdimiz” (Gt.32, 33) // “sünгüsdükdə” (Or.28); “beş” (Yn.29) // “biş” (Gt.30) // “bes” (Or.16) // “bisinç” (beşinci) - “bisinç ay” = (beşinci ay) - Or.35...

b) Müasir imlamızda “ş” səsilə sabitləşən “mış, miş, muş, müş” zaman şəkilçiləri həm “ş”, həm də “s” ilə yazılır. 1) Eyni sözlərdə növbələşir: “ölürmiş” (öldürmüş) // “öldürmis” (Gt.32); “yağı bolmış” (yağı, düşmən olmuş) - “qullığ bolmıs” (qulluq eləmiş) - Gt.30-32; “barmıs” (varmış, gedib çatmış) - “barmış” (Or.36, 38); “qazğanmış” - “qazğanmıs” (Or.17, 19).. 2) Müxtəlif sözlərdə həm “ş”, həm də “s” yazılır; “almış” (Gt.32); “qalmış” (Or.59); “alınmış” (Yn.29). “qısmıs”, “yığmıs”, “yaymıs”, “basmıs”, “qaçışmıs” (Or.8); “aşmıs”, “qaçmıs” (Or.35); “tutmıs”, “körmis”, “timis” (demiş) - Gt.29; “tikmis” (Gt.30); “gəlmis”, “törümis” (törəmiş) - Gt.33; “ayudmus” (ayıtmış, demiş) - Tk.63...

Eyni tərkibli və ayrı-ayrı sözlərdə, xüsusən “mış, miş...” şəkilçilərində “ş”, “s” səslərinin belə növbələşməsi, birinin yerində digərinin işlənməsi də məxrəccə bunların yaxınlığı ilə izah edilə bilər. Müasir dilimizdəki “basmış”, “çaşıb”, “eşit”, “eşidin”... sözlərinin kitabələrdə “basmıs” - “başmış” (Or.8, 36), “şaşıp” (“şaşıp gəlti”) - Or.37; “esidgil” - “esidin” (Gt.27, 28) şəklində işlənməsi, yəni “ş”, “s”, “ç” səslərinin bir-birini əvəz etməsi də fikrimizin təsdiqinə kömək edir. Görünür, qədim dövrlərdə bu yaxınlıq daha çox olmuş, get-gedə isə azalmışdır...

3) "p" ~ "b" əvəzlənməsi

Bu xüsusiyyət özünü "-ıb, -íb,.." və ya "-yıb, -yib, .." və bunların arxaik şəkli olan "-ıban, -ibən,.." feli bağlamalarında göstərir. 1) "-ıb, -ib,.." və ya "-yıb, -yib",.. şəkilçiləri: "gəlip", "enip" (Yn.68); "qılıp" (Or.9); "keçip", "qazğanıp" (Or.17); "alıp", "ögünüb", "ağrıp" (ağrıyıb) - Or.18; "sançıp" "ölürip" (or.27); "kirip" (Or.28); "arturıp", "yanılıp" (Gt.28); "tutup" (Or.35) - "tutıp" (Gt.29); "itip", "yaratıp" (Gt.30); "tip" (deyib) - "tiyip" (Gt.28, 30); "yorıp" (Gt.32); "esidip" (eşidib) - Tk. 62... 2) "ibən, ıban..." şəkilçiləri: "gəlipən", "tutıpan" (Gt.29); "olurıpan" (Gt.30)...

4) "b" ~ "v" əvəzlənməsi

Bu xüsusiyyət özünü bir neçə sözdə göstərir. Məs.: "ab" (av, ov) - Or.27; "eb" (ev) - Or.35 - "ebin" (evin, evini) - Gt.32; "sebinip" (sevinib) - Or.11; "barıp" (varıb, çatıb) - Or.27; "barımın" (varını, dövlətini) - Gt.32; "barmadı" (varmadı, çatmadı) - Gt.33; "berdim" ("alı berdim" - alıb verdim) - Or.19; "qabışayın" - "qabışalım" (qavışayın, qavışalım - qovuşaq) - Or.36...

5) "b" ~ "m" əvəzlənməsi

Bu xüsusiyyətə də bir neçə sözdə təsadüf edilir. Məs.: "binip" ("boz atığ binip" - boz atı minib) - Gt.31; "bin" ("altı bin" - altı min) - Yn.19; "bən" - "mən" (Yn. 38, 56)...

. Bundan əlavə, "tip" (deyib) - Gt. 28; "tir" - "ter" (deyir) - Gt.29, Or.9; "qışlap" (qışlayıb) - Or.33; "alı" (alıb) - Or.19; "körü" (görüb) - Gt.20; "yası" (yastı) - Or.36; "ağrıp" (ağrıyıb, yaralanıb) - Or.18; "sımada" ("mənim sabımın sımadı" - Mənim sözümü sındırmadı, yerə salmadı) - Gt. 28; "yıl" (il) - Or.34; "yılkı" (ılxı, ilxı) - Or.35; "yılan" ("yılan yıl" - İlan ili) - Or.52 və s. kimi sözlərdə bir sıra fonetik səsdüşümü, səsartımı, səsəvəzetmə hadisələrinə rast gəlirik.

Bütün bunlar ədəbi dilimizin tarixi boyu hər vaxt nəzərə çarpan, izləri əksər müasir türk dillərində müşahidə edilən fonetik hadisələr, qanunauyğunluqlardır.

5. KİTABƏLƏRİN LÜĞƏT TƏRKİBİ

"Orxon-Yenisey" kitabələri maraqlı və zəngin lüğət tərkibinə malikdir. Bu sözlüyə Azərbaycan dili baxımından nəzər saldıqda, orada ona aid çox şey var. Azərbaycan dilinə məxsus sözlərin bir qismi bu gün də dilimizin lüğət fondunun əsl malı olan işlək sözlər, digər qismi isə şifahi və yazılı ədəbiyyatımızda tarix boyu işlənən və tədricən istifadədən qalan, yəni arxaikləşən sözlərdir.

1) Müasir dilimizin sözlərilə səsləşən, onların eyni olan sözlər

Kitabələrin sözlüyünü müasir nitq hissələri əsasında nəzərdən keçirək.

İsimlər. İsimlər sadə, düzəltmə və mürəkkəb olmaq etibarilə quruluşca üç növdə özünü göstərir.

Sadə isimlər. Bunlar kök, lüğət fondunun əsasını təşkil edən sözlərdir; bu gün də dilimizin fəal, işlək sözləridir. Məs.: "bəg"-bəy (Or.9); "təŋri" - tanrı, göy, allah (Or.8, Yn.11...); "ana" (Yn. 75); "ay" (Or.35); "gün" (Gt.29); "Gög" - göy, səma (Gt.28), "yol" (Tn.62); "kişi" - kişi, adam, insan, ər (Yn.21, Gt.33...); "ər" - ər, kişi (Gt.29); "oğul" - "oğlan" (Yn.84, Gt.27); "qız" (Or.19); "köz" (Or.20); "qaş" (Gt.33); "yaŋaq" - yanax (Or.18); "saç" (Or.19); "yaş" - yaş, hədd-büluğ (Or.16); "el" - el, el-oba (Or.17, Yn.81); "yer" (Or.17); "yurt" (Tk.62); "ab" - av, ov (Or.27); "eb" - ev (Or. 35); "at" - minilən at (Gt.30); "at" - ad (Yn.21); "iç" - içəri, daxil (Gt.28); "ok" - ox (Gt.32)...

Mürəkkəb isimlər. Mürəkkəb isimlər əsasən insan və yer adları kimi özünü göstərir.

İnsan adları. "Gültəkin" (Gt.32); "Külirkin" (Or.18); "Yolığtikin" (Or.19); "Külük Çur" (Yn.22), "Gülük Toğan" (Yn.80); "Ərdəm Anar" (Yn.70); "Ərən Uluğ" (Yn.56); "Alp Turan" (Yn.21);

"Inad Uğraç" (Yn.43); "Taman Tarkan" (Or.19); "Altun Tamğan" (Or.45), "Küli Çur Tonyukuk" (Or.27); "Bars bəg" (Gt.30); "Maqraç Tamğaçı" (Gt.33); "Bilgə Tamğaçı", "İnançu Çur" (Gt.33)...

Yer adları: "Təmir qapı" (Or.27); "Kömür tağ": Kömür dağ (Or.35); "Tutuq Başı", "Tayğan Göl", "Qara Yotalıq" (Or.36); "Bökli Çöl" (Gt.29); "Qara Göl" (Gt.32); Qara Qum (Tk. 61); "Yarış Yazı" (Tk.63)...

Düzəltmə isimlər: Onlar rəngarəng sözdüzəldici şəkilçilər vasitəsilə isimlərdən, eləcə də fellərdən düzəlir.

1) - çı, - çi,.. şəkilçiləri. Məs.: "el+çi": elçi, el nümayəndəsi (Yn.11); "yol+çı" (Yn.80); "tamğa+çı": damğaçı, damğavuran (Gt.33); "ınan+çu" - "ınan+çı": inanılan, inanılmış (adam), həm də ad (Yn.48, 63).

2) - lığ, - lıq, - lik, - lük şəkilçiləri. Məs.: "qağan+lığ": xaqanlıq (Gt.30); "qul+lığ": qulluq (Gt.30); "Bəg+lik": bəylik (Yn.50); el+-lik (Gt.31); "ərdəm+lik": ərlilik, kişilik... (Yn.53); "gün+lük" (Or.36); "güni+lik": günülük, qarabaşlıq (Gt.30); "yıl+lıq" (Or.36).

3) -iq, -ik, -uq, -ük, -k şəkilçiləri. Məs.: "bil+ik" (Gt.33); "tut+uq" (Gt.31); "buyur+uq" - "buyruq" (Gt.29, Or.19); "Gör+ük" (Tk.63); "törü+k" (Gt.31)... "Görük", "törük" sözləri arxaikdir. Hazırda bunlar əvəzinə "gözçü", "gözətçi", "törəmə", "nəsl" sözləri işlənir.

4) -sıq şəkilçisi. Məs.: "toğ+sıq" - "gün doğsıqda" - gün doğanda (Gt.29); "bat+sıq" - "gün batsıqdakı" (Gt.33)... Hazırda "sıq" şəkilçisi arxaikdir. "Toğsıq", "batsıq" və ya "gün doğsıq", "gün batsıq" sözlərinin əvəzinə müasir dilimizdə "gündoğan" və ya "şərq", "günbatan" və ya "qərb" sözləri işlənir.

İsimlərdə mənsubiyyət kateqoriyası.

Kitabələrdə mənsubiyyət mənası adətən birinci tərəfin iştirakı olmadan yaranır, şəxs mənası adətən birinci tərəfin iştirakı olmadan yaranmır, şəxs mənsub əşyanın şəkilçisi vasitəsilə ifadə olu-

nur. Bu isə türk dillərinin, o cümlədən Azərbaycan dilinin yığcamlılıq keyfiyyətilə əlaqədardır; bu kefiyyətin formalaşması və inkişafı, göründüyü kimi, çox qədim dövrlərdən başlanır.

Mənsubiyyət kateqoriyası şəkilçiləri bunlardır:

Birinci şəxs. Təkdə: -ım (-im, -um, -üm, -m). Məs.: "qız+ım" (Yn.38); "yılkı+m" (Yn.26, 80); "yağı+m" (Yn. 47); "qadın+ım" (Yn.39); "Oğl+um" - "oğlan+ım" (Yn.11, 84); "gün+im" (Yn.17); "ər+im" (Yn.76); "eb+im" (evim) - Or.36; "budun+um" (xalqım, camaatım) - Gt.33... "qız gəlinlər+im" (Yn.19); "atlar+ım" (Yn.73); "bəglər+im" (Gt.33, Or.9)... Cəmdə: -mız (-miz, -muz, -müz), -ımız (-imiz, - umuz, -ümüz). Məs.: "eb+imiz" (evimiz) - Yn.14; "bəg+imiz" (Yn.59); "törü+miz" (törəməmiz, nəslimiz) - Gt.30...

İkinci şəxs. Təkdə: -ın (-in, -un, -ün, -n). Məs.: "alp+ın (sənin igidin) - Yn.60; "oğl+ın - "iki oğlın birlə ölti (iki oğlunla birgə öldü) - Yn.61; "oğl+ın+a" - "altı bilgə bəg oğlına" (altı bilikli bəy oğluna) - Yn.62... Cəmdə: -ınız (-iniz, -unuz, -ünüz), -nız (-niz, -nuz, -nüz). Məs.: "at+ınız" (adınız) - Yn.48; "kan+ınız" (xanınız), alp+ınız (igidiniz), "ün+ünüz" (səsiniz) - Yn.47; "adas+ınız" "altmıs ər adasınız" (altmış ər adaşınız, yoldaşınız) - Yn.50...

Üçüncü şəxs. Təkdə və cəmdə: -ı (-i, -u, -ü), -sı (-si, -su, -sü). Məs.: "eb+i" (Evi) - "ebinə girtəcisən" (evinə girənsən, gedib-gələnsən) - Or.19; "oğl+ı" (Gt.30); "buyuruk+ı", "bəgər+i" (Gt.30); "sağdıçlar+ı" (Or.60); "yılxı+sı" (ilxısı) - Or.16; "qıs+ı" (qızı), "barım+ı" (varı, dövləti), "saç+ı", "kulqaq+ı" (qulağı), "yanaq+ı" (Or.18)... Bu, axırıncı sözlər əslində qısın", "barımın", "saçın", "kulqaqın", "yanaqın", şəklindədir; bunlar ismin təsirlik halının ("qısın+ı" "barımın+ı", "saçın+ı" "kulqaqın+ı", "yanaqın+ı") müəyyən deyiliş formasıdır ki, dilimizin tarixi boyunca müşahidə olunur.

Sifətlər. Kitabələrdə sifətlərin quruluşca iki növü özünü göstərir: sadə və düzəltmə sifətlər.

Sadə sifətlər. Sadə sifətləri şərti olaraq iki qrupda birləşdirmək olar:

a) Əlamət bildirən sifətlər. Məs.: "ağ": ağ, "ağ at" - ağ at (Gt.32); "qara" - "qara saç", "Qara baş" (Yn. 49, Or.53); "qara göz" (Yn.50); "kög": göy, "kög türk" (Gt.29); "boz" - "boz at". (Or.27, Gt.31)...

b) Keyfiyyət bildirən sifətlər. Məs.: "yaş": cavan, körpə - "yaş keyik" (Yn.54); "ağır": ağır, möhkəm - "ağır taş" - ağır daş, "bunca ağır" - bu qədər möhkəm (Or.19, 16); "uluğ": "böyük" - "uluğ oğlum" - (Yn. 84); "kiçik": az (Gt.27); "qısğa": qısa (or.22); "sık": sıx (Or.35); "yımşaq": yumşaq (Gt.28); "yası": yastı, "yası taşqa" - yastı daşa (Or.36)...

Düzəltmə sifətlər. Düzəltmə sifətlər müxtəlif sözdüzəldici şəkilçilər vasitəsilə düzəldilir.

1) - lığ, -lıq, -luğ, -luq, -lük şəkilçiləri müasir -lı, -li, -lu, -lü şəkilçiləri mövqeyində işlənərək isimlərdən sifət düzəldir. Məs.: "altun+lığ": altunlu, qızıllı (Yn.26); "tamqa+lığ", - "tamğalığ yılki" - damğalı ılxı (Yn.49); "at+lığ" - "at+luğ": atlı (Or. 18, Tk.61); "yaraq+lığ": yaraqlı (Gt.31); "ton+lığ": donlu (Gt. 31); "sünük+lük": süngülü (Gt.30); "Qaz+luq": "Qazluq Költə" - Qazlı Göldə (Or.36); "baş+lığ": başlı (Gt.30)...

2) -siz, -sız... şəkilçiləri isimlərdən sifət düzəldir. Məs.: "bilik+-siz" - "biliksiz qağan" - biliksiz xaqan (Gt.29); "at+sız", "ton+sız": donsuz, "yağı+sız": yağısız, düşmənsiz (Gt.31); "san+sız": sansız, saysız - "Yılkim sansız" - ilxım sansız-hesabsız (Yn.84)...

Saylar. Kitabələrdə sayların rəqəmlə deyil, hərflərlə yazılması onların dəqiq oxunması, müəyyənləşdirilməsi işini asanlaşdırır. Bir sıra fərqlər, dövrün dil xüsusiyyətlərilə əlaqədar cəhətlər və s. nəzərə alınmaqla, kitabələrdə işlənən miqdar sayları və sıra sayları, demək olar ki, müasir dilimizdəki saylarla tamamən səsləşir.

Miqdar sayları. Bu növ saylar özünü müəyyən və qeyri-müəyyən şəkildə göstərir. Müəyyən miqdar saylarını şərti olaraq iki yerə ayırmaq olar: sadə və tərkibi saylar.

Sadə miqdar sayları. "Bir" - "bir kisi" - bir kişi (Gt.28); "iki - "e-ki" - "iki uluğ süngüş" - iki böyük döyüş (Or.17), "eki oğlanıma" (Yn.38); "üç" - "üç qat" - üç dəfə (Yn.61); "tört" - "Tört oğlum bar..." - Dörd oğlum var (Yn.41); "beş" - "bes" - "beş yaşımta..." (Yn.81), "bes tümən" (or.16); "altı" - "altı bağ" - altı dəstə (Yn.11); "yeti" - "Yeti ərən" - yeddi ər igid (Or.9); "səkiz" - "səkiz oğlım" (Yn.35); "tokuz" - "tokuz oğuz bəgləri" (Gt.27); "on" - "on ay" (Yn.35), "on gün" (Or.37); "yegirmi": iyirmi (Or.16); "Otuz" - "otuz ər" (Yn.62); "qırk" - "qırk yaşımda" (Yn.80); "əlig" - "əlik yaşım..." - əlli yaşım (Or.18); "altmış - altmıs" - "altmış yaşımda", "altmıs ər" (Yn. 11, 50); "yüz" - "yüz ər" (Yn.50); "bin": min, - "altı bin": altı min (Yn.19); "tümən": on min, - "üç tümən": otuz min (Or.18)...

Tərkibi saylar. Kitabələrdəki tərkibi miqdar sayları müasir dilimizdəkindən fərqli olaraq, özünəməxsus xüsusiyyətlərilə diqqəti cəlb edir. Belə ki, tərkibi sayları təşkil edən sadə saylar az-çox dəyişikliyi ilə dilimizdəki sözlərin eyni olduğu halda, quruluş və ifadə tərzicə tamam başqadır. Məs.: onla iyirmi, iyirmi ilə otuz, otuzla qırx və s. arası saylar bu şəkildə verilir: "iki yegirmi" - on iki (Gt.31); "üç yegirmi" - on üç (Yn.21); "beş yegirmi" - on beş (Yn.29); "altı yegirmi" - on altı (Gt.31); "yeti yegirmi" - on yeddi (Or.16); "səkiz yegirmi" - on səkkiz (Or.16); tokuz yegirmi" - on doqquz (Or.18). Və ya, "bir otuz" - iyirmi bir (Yn.38); "eki otuz" - iyirmi iki (Or.52); "biş otuz" - iyirmi beş (Gt.30); "altı otuz" - iyirmi altı (Or.34)... Yaxud: "beş qırk" - otuz beş (Yn.47); "tokuz qırx" - otuz doqquz (Yn.26)... "iki əlik" - qırx iki (Yn.42); "üç əlik - qırx üç (Yn.43); "üç yetmiş" - altmış üç (Yn.19),.. "yüz beş igirmə bin" - yüz on beş min (Yn.82) və s... Maraqlıdır ki, "səkiz on" sayını mütəxəssislər "səksən" hesab etmişlər. Məs., "Uluğ Kuli Çur səkiz on yasap yok bol(ti)" - Ulu Külü Çur səksən yaşayıb yox oldu, yəni öldü (Or.27). Halbuki eyni prinsiplə "səkiz yegirmi" sayı da gərək iyirminin səkkiz dəfə cəmi, yəni "yüz altmış" hesab edilə idi... Yenə maraqlıdır ki, eyni tərkibi saylar bəzən iki formada yazılır və ikinci forma müasir dilimizə daha

uyğun gəlir. Məs.: "tokuz qırk" - "otuz artuqı tokuz" - otuz doqquz (Yn.26, Or.18); "səkiz qırk" - "otuz artuqı səkiz" - otuz səkkiz (Yn. 44, Or.18)... Bunu təsadüfi saymaq olmaz. Çünki yeri gəldikcə, bu formadan da istifadə edilir. Məs.: "otuz artuğı bir" - otuz bir (Or. 17, 18); "otuz artuğı üç" - otuz üç (Or.17); "otuz artuğı tört" - otuz dörd (Or.18)... və ya: "ay artuğı tört gün" - bir ay dörd gün (Or.19); "bir tümən artuğı yeti bin" - on yeddi min (Or.18)...

Sıra sayları. Sadə sıra sayları müasir dilimizdəki sıra saylarının təxminən eyni olub, "ınç", "inç", "unç", "ünç" şəkilçilərilə düzəlir; "birinci" sıra sayı əvəzinə "ilki", "ən ilki" sözləri işlənir, "ikinci" sıra sayı "ekinti" - "ikinti" şəklində verilir. Məs.: "ilki" - "ilki gün": ilk gün, birinci gün (Or.18), "ən ilki" - ən ilk, ən birinci (Gt.31); "ekinti" - "ekinti ay" - ikinci ay (Or.36); üç+ünç (Gt.31); "tört+ünç" - "tört+inç" (Or.35, Gt.32); "beş+inç" - "bis+inç" (Or.18, Gt.33); "yet+inç" - "yit+inç" - "yetinç ay" - "yitinç ay" (Or.9, Gt.33); "səkiz+inç" - "səkizinç ay" (Or.35); "tokuz+unç" - "tokuzunç ay" (Or.48, 50); "on+unç" - onunç ay" (Or.18).

Sıra saylarına tərkibi sayların içərisində də rast gəlirik. Məs.: "Bir yekirminç ay" - on birinci ay (Or.36)...

Qeyri-müəyyən saylar. Kitabələrdə "az" və "artuq" sözləri qeyri-müəyyən saylar kimi işlənir; "artuq" sözü "çox, çoxlu" mənasını verir, "az" sözünə "azca" şəklində də təsadüf olunur. Məs.: "az" - "az ər" (Or.36); "azca" - "azca budun tezmis..." - azca xalq qaçmış (Tn.63); "artuq" - "...qazğantı artuq yılqığ" - ...çoxlu ilxı qazandı (Or.28).

Əvəzliklər. Əvəzliklər müasir dilimizin əvəzliklərinə əsasən uyğun gəlir. Onların bir neçə növünə rast gəlmək olur.

Şəxs əvəzlikləri. "Mən - bən" - "mən oğlumqa..." - mən oğlu-ma... (Yn.56), "Bən təŋri elimkə elçisi ərtim" - Mən tanrı elimin elçisi idim (Yn.11); "sən" - "Arıq ok sən, açsıq, tosıq, ömәzsən..." - Sən arıqlıq, aclıq, toxluq (nə olduğunu) bilməzsən (Gt.28); "ol": o (Gt.27, 31...) "biz": "Biz azıb üküsik görtik" - Biz azı çox gördük (Or.10), "Biz qorqmadumuz, sügüşdümüz" - Biz qorxmadıq, vuruş-

duq (hərfən: süngüləşdik) - Tk.63; "siz" - "Sizin ər at Ur(ı)" - Sizin ər adınız Ur(ı)dır - Yn.50...

İşarə əvəzlikləri. Bu növ əvəzliklər daha çox "bu", "ol" (o) sözləri ilə ifadə olunur: Məs.: "bu" - "bu sabımın" - bu sözümün, "bu yirdə" - bu yerdə (Yn.27), "bu yolun" (Tk.62)... Əslində üçüncü şəxs əvəzliyi olan "ol"(o) sözü kitabələrdə əsasən işarə əvəzliyi yerində işlənir. Məs.: "ol": o - "öl ay" - o ay (Or.35), "ol eki kisi" - o iki kişi (Tk.61), "ol yolun", "ol sub" - o su, o çay (Tk.62), "ol təŋri" - o tanrı (GT.31), "Ol at anta ölti" - O at orda öldü (Gt.31)...

Qayıdış əvəzlikləri. Qayıdış əvəzlikləri müasir dilimizdəki kimi kitabələrdə də "öz" sözü və mənsubiyyət şəkilçiləri vasitəsilə düzəldilir. Məs.: "öz" - "öz yerim", "öz elim (Yn.76); "özimə" (Or.19), "Eltəbir özü gəlti" (Or.28), "özim kutım bar üçün" - özümün bəxti var deyə (Gt.28); "özi yaŋıltı" - özü yanıldı (səhv etdi, günah işlətdi) - Gt.30...

Sual əvəzlikləri. Kitabələrdə sual əvəzlikləri kimi "qanı?" (hanı?) və nə, hansı mənasına gələn "nə" sözlərinə təsadüf olunur. Məs.: "...Qağanım qanı, nə qağanqa isik küçik birurmən? (Gt.29)... Xaqanım hanı, nə (hansı) xaqana işimi, gücümü verim mən?..

Təyini əvəzliklər. Kitabələrdə bir neçə təyini əvəzliyə rast gəlinir: "öz", "qamuğ" - "qamuğı" (bütün, hamı, hamısı), "ança" (belə), "öz yerim", "öz elim" (Yn.76); "Öz Yikin Alp-Turan..." (Yn.21)... Buradakı "öz" sözləri, müəyyən mənada "mən" şəxs əvəzliyini təyin edir: (mənim) "öz yerim", "(Mənim) öz elim", "(Mən) özüm - Yigin Alp-Turan"... Başqa misallarda bu keyfiyyət daha aydın sezilir: "Bilgə Tonyukuk bən özüm Tabğaç ilinə quluntum" (Tk.61) - Mən özüm bilgə Tonyukuk Tabğaç elində tərbiyə aldım. Və ya: "Mən özüm bilgə Tonyukuk Ötükən yerig konmus..." (Tk.62) - Mən özüm bilgə Tonyukuk Ötükən yerinə qonmuş...

"Qamuğ", "qamuğı", "ança" sözləri də eyni təyini vəzifə daşıyır. Məs.: "Türk qara qamuğ budun ança timis..." (Gt.29) - Bütün türk qara camaatı belə demiş... Və ya: "Qamuğı biş otuz sülədimiz" (Gt.30) - Hamısı (cəmi) iyirmi beş dəfə qoşunla vuruşduq...

Fellər. Kitabələrdə başqa nitq hissələrinə nisbətən fellər çox zəngindir. Fellərin quruluşca, sadə, düzəltmə və mürəkkəb olmaq etibarilə üç növü vardır.

Sadə vellər. Məs.: "al-altım", "alıp", "alur" (Or. 9, 18); "aş": aş(-maq) - Or.17; "bas" - "basdım", "basdı" (Or. 9, Gt.33); "bil" - "bilin", "bilməz" (Or.17, 28); "qal" - "qaltı" (Gt.31); "qalmış" (Or.59), "qalmadu" (Gt.61); "qaç" - "qaçdı" (Or.9); "qon" - "qontuqda", "qonayın" (Gt.28); "qork" - "qorkmıs" - qorxmuş (Or.9), "qorkur biz" - biz qorxuruq (Tk.63); "yay" - "yaydım", "yığ" - "yığdım" (Or.9); "gəl" - "gəltim" (Yn.84), "gəlti" (Or.9), "gəlin" (Or.35); "gör" - "görtim", "görmədim" (Yn.84), "Körtik" (Or.9); "yet" - "yetdim" (Or.35); "öl" - "öldüm" (Yn.43), "öltik" (Gt.28), "keç" - "keçdim", "keçip" (Or.36); "gir" - "girti" (Or.35); "it" - "itip" - itib (Gt.30); "git" - "gitdim" - getdim (Yn.38); "tap" - "tapdım" (Yn.52); "tut" - "tutdım" (Or.35); "tutdı" (Gt.32); "uç" - "uçdı" - uçdu, uçub getdi, öldü (Or.35); "ürk" - "ürküp" - ürküb (Or.37); "sanç" - "sançdım" (Or.17); "sançdı" (Gt.32)... Çüt hecalılar: "ağla" - "ağlayur" (Or.63); "yanıl" - "yanıltıq" - yanıldıq (Gt.32); "tokı" - "tokıdım" - toxudum (Or.36); "tokta" - "toktamış" - toxtamış (Or.16)...

Düzəltmə fellər. Düzəltmə fellər sözdüzəldici şəkilçilər vasitəsilə ad və fellərdən düzəlir.

1) *-la, -lə* şəkilçiləri. Məs.: "baş+la" - "başladım" (Yn.81); "yay+la" - "yayladım", "qış+la" - "qışladım", "yaka+la" - "yakaladım" - yaxaladım (Or.36); "Yer+lə" - "yerlədim" - yer elədim, yerləşdirdim (Yn.44); "qılıç+la" - "qılıçladı" (Gt.32)...

2) *-t* şəkilçisi. Məs.: "yara+t" - "yaratdım" (Or.19), "yaratmış" (Or.16); "tokı+t" - "taş tokıtdım" - daş toxutdum (Or.19, Gt.28);

3) *-uq* şəkilçisi. Məs.: "yol+uq": yoluq(maq) - "yoluqayın", "yoluqdım" (Yn.26, Or.36)...

4) *-tıt, -turt* şəkilçiləri. Məs.: "yara+tıt" - "yaratıtdim" - yaratdırdım (Or.36); "qon+turt" - "qonturtımız" - qondurtduq, yerləşdirdik (Gt.30)...

5) *-ur, -ür* şəkilçiləri. Məs.: "art+ur" - "arturıp" - artırıb (Gt.28); "öl+ür" - "ölürəyin" - öldürəyin, öldürək (Gt.29). "Öl+ür"(mək)

sözündəki "ür" sözdüzəldici şəkilçisi müasir dilimizdəki eyni mənalı "dür" şəkilçisinə uyğun gəlir.

6) *-ın, -ün* şəkilçiləri. Məs.: "al+ın"; alın(maq), - "Bən beş yegirmi yaşda alınmışam..." - Mən on beş yaşımda alınmışam (Yn.29); "ög+ün", - "ögün!" (Gt. 30)...

7) *-lan* şəkilçisi. Məs.: "qatığ+lan" - "qatığlanğıl!" - qatılan, möhkəm ol, yəni kişiləş (Yn.29)...

Tərkibi fellər. Tərkibi fellərin iki üsulla yarandığı müşahidə olunur: a) köməkçi fellərin birləşməsi ilə yaranan tərkibi fellər; b) iki sözün birləşməsi ilə əmələ gələn tərkibi fellər.

a) tərkibi fellərin yaranmasında "qıl"(maq), "bul"(maq) - "bol"(maq) kimi indi arxaik olan sözlər xüsusi rol oynayır. Məs.: "yok qıltım" - yox elədim, məhv etdim (Or.18); "yok bolmuş" - "Eltəbər yok bolmuş" - Eltəbər yox olmuş, ölmüş (Or.18); "yok boltu" - yox oldu, yoxa çıxdı (Tİk.61); "yağı boltı" - yağı oldu, düşmən oldu (Or.17).

b) Tərkibi fellər iki sözün yanaşması, bir-birilə məna əlaqəsinə girməsi ilə yaradılır. Məs.: "sıka sançdım" - sıxıb sancdım, sıxıb məhv etdim (Or.35); "basa kəlti" - basıb gəldi (Or.17); "sürə kəlti" - sürüö gəldi (Or.36); "sıxa sançdi", "basa gəldi", "sürə gəldi" kimi formalara sonralar bizim klassik ədəbi dilimizdə tez-tez rast gəlirik, lakin indi bunlar arxaik hesab olunur.

Fellərin şəxs kateqoriyası

Kitabələrin dilində tək halda birinci şəxs şəkilçisinin əsas ünsürü "m"-dir. Bu, bütünlükdə müasir dilimizə uyğun gəlir. Lakin başqa şəxs şəkilçilərində müəyyən fərqlər, müxtəliflik və s. müşahidə olunur.

Şəxslərə görə fellərin təsrifi belədir.

Birinci şəxs.

Tək hal felin bütün növ şəkil və zamanlarında tək halda birinci şəxs şəkilçisinin əsas ünsürü "m"-dir. Məs.: "tapdı+m" (Yn.35); "görti+m", "görmədi+m" (Yn.84); "alınmışı+m" (alınmışam) - Yn.29; "azmadı+m" (Or.9); "tokıtdı+m" (Or.19), "tokıdı+m (Or.36);

"yolıkdı+m" (Or.36); "bən görtü+m" (Tk.61)... Bəzən "m" ünsürü əvəzinə birinci şəxs əvəzliyinin özü işlənir. Məs.: "barır+mən" (barıram, gəlirəm) - Or.52; "saqınur-mən (saqınıram) - Or.20... Bəzən də həm "m" ünsürü, həm də birinci şəxs əvəzliyi özü işlənir. Məs.: "qazğandı+m mən" (mən qazandım, gətirdim) - Yn.62...

Birinci şəxs cəmin şəkilçiləri müxtəlifdir. 1) Birinci şəxs təkin ünsürü "m" və "ız, iz"... şəkilçiləri: "kəlti+m+iz", "qonturtı+m+ız" (Gt.30); "basdı+m+ız", "yorıdı+m+ız" (getdik) - Gt.32; "altı+m+ız" (Gt.32)... 2) "g, k, k, ğ" ünsürləri: "görti+g" (Or.9), "qalmadu+k" (Or.35); "gəlmədü+k" (Or.36); "yanıltı+ğ" (Gt.30); "yanılmadu+k" (Or.9); "qılınmadu+k" (Gt.29)... Bəzən şəxs şəkilçisi ünsürü əvəzinə, şəxsin özü işlənir. Məs.: "qorkur biz" (qorxuruq və ya biz qorxuruq) - Tk.63... 3) "ayın" şəkilçisi: "yoluk+ayın" (yoluxayın, yoluxaq) - Yn.26; "qabış+ayın" (qovuşayın, qovuşaq) - Or.36... 4) "alım"... şəkilçisi: "qabış+alım" (qovuşalım, qovuşaq) - Or.36; "qal+alım" (qalaq) - Or.45...

İkinci şəxs.

İkinci şəxsin tək hal şəkilçisinin əsas ünsürü "n"-dir. Məs.: "qalmadı+n" (Yn.53); "almadı+n" (Yn.53)... Bəzən "gil", "qıl" şəkilçisi ikinci şəxsin təkini ifadə edir. "Qatığlan-qıl" (qatılaş, kişiləş) - Yn.29; "esid-gil" (eşidgil, eşidginən) - Gt.27...

İkinci şəxsin cəm hal şəkilçiləri müxtəlifdir. 1) İkinci şəxs təkin ünsürü "g" və "ız, iz..." şəkilçiləri. Məs.: "altı+ŋ+ız" (aldınız) - Gt.32; "bardı+ŋ+ız" (vardınız, gəldiniz) - Or.45; "ögünmədi+ŋ+iz", "görmədi+ŋ+iz" (Or.50); "gəlmədi+ŋ+iz" (Yn.59)... 2) "ıŋ, iŋ, yın, yin"... şəkilçiləri. Məs.: "saqın+ıŋ", "bil+iŋ" (Or.17); "gəl+iŋ" (Or.35); "yanılma+yın" (Or.38)...

Üçüncü şəxs.

Tək halı (və həmi). Üçüncü şəxsin təki (və cəmi) = "di (ti)", "du"... şəxs şəkilçilərilə ifadə olunur. Məs.: "gəl+ti" (Or.18); "gör+ti", "öl+ti" (Gt.30); "tut+dı" (Gt.32); "qoma+du" - qoymadı (Tk.61).

Zərflər.

Kitabələrdə zərflərin iki növü özünü göstərir.

Zaman zərfləri. Məs.: "ilki gün": ilk gün, əvvəlinci gün (Or.18); "güntüz": gündüz (Tk.64); "ən ilki": ən əvvəl, əvvəlcə (Or.17)...

Məkan zərfləri. Məs.: "anta": orada, "Ol at anta ölti" - O at orda öldü (Gt.31); "yatda": yadda, yad yerdə, qürbətdə (Yn.31); "yerdəki" (Yn. 49); "yerintə": yerində (Tk.61); "ıraq": iraq, uzaq (Gt.27); "ilqərü": irəli, qabaq-qarşı (Gt.29); "gün toğsıq": gündoğan, şərq, "gün toğsıqda": gün doğanda (Gt.29); "gün batsıq": günbatan, qərb, "gün batsıqdakı": gün batandakı, qərbdəki (Gt.33)...

Nəzərdən keçirdiyimiz nitq hissələri bu gün də müasir dilimizin işlək nitq hissələri, işlək sözləridir; bəzi cüzi fərqlərin nəzərə çarpması da tamamilə təbiidir; dilin tarixi kateqoriya olması ilə, onun daxili qanunauyğunluqları və tarixi inkişafı ilə əlaqədardır.

2) İstifadədən qalmış, arxaikləşmiş sözlər

Kitabələrin dilindəki bir qisim sözlər bu gün üçün arxaikdir, müasir dilimizdə onlardan ya heç istifadə olunmur, ya da onların şəkli dəyişmiş və ya nişanələri qalmışdır. Lakin bu sözlər tarix boyu istifadə edilə-edilə gəlmiş, müəyyən dövrdə onları başqa sözlər əvəz etmişdir. Bu da dillərin inkişafında təbii haldır. Belə sözləri iki qismə ayırmaq olar.

Tamam arxaikləşmiş sözlər: "aqıp" (ağıb): qalxıb (Or.64); "adrılmış": ayrılmış, "Qara Çur.. uyarlarına adrılmış" - Qara Çur... qohumlarından ayrılmış, (Or.60); "aydu": dedi, "Bilgə Tonyukuk bana aydu" - Bilgə Tonyukuk mənə dedi (Tk.63); "apa": ata, ata baba (Yn.40); "alp": iyid, "alp ərin": iyid ərin (Or.8); "ança": belə, beləcə, "Anı görip, anca bilin, ol taş... - "Onu görüb, beləcə bilin, o daş.. (Gt.28); "bitik": yazı, kitabə, "bitik taşı" - yazi daşı, kitabəsi (Gt.33); "qut, qutluğ": mübarək, xoşbaxtlıq (Or.47, Yn.84); "əsən": sağ-salamat (Yn.68); "üküş - üküs": çox, "üküş kişi öltik" -

çox kişi (adam) öldük (Gt.28); "Yek": yaxşı (Yn.44); "eş": iyid, qəhrəman, "el eşim" - el iyidlərim, qəhrəmanlarım (Yn.19); "sab": söz, nitq, danışıq, "sabın yımşaq" - sözün yumşaq (Gt. 28); "sü": qoşun, ordu, "Yarış yazuda on tümən sü tirildi" - Yarış yazıda on tümən ordu dirildi, yəni toplandı (Tk.63); "ur": nəsil, "Bəgilik urı oğlın qul boltı" - (sənin) Bəy nəsilli oğlun qul oldu (Gt. 31)...

Müəyyən dəyişikliyə məruz qalmış sözlər: "adaq": adaq, ayaq (Or.17); "anı": onu (Or.36); "anta": onda, o vaxt, orada, "Yılkısın, barımın anta altım" - İlxısını, var-dövlətini onda aldım (Or.16) və "Yay anta yayladım" - Yayı orada yayladım (Or.36); "bilgə": bilikli, ağıllı, müdrük (Or.9, 16...); "qazğantım": qazandım, əldə etdim, gətirdim (Gt.31); "qamuğ": hamı, hamısı, bütün (Gt.30); "qanı": "İlim amtı qanı?" - Elim indi hanı? (Gt.29); "kulqaq": qulaq, "Gözin görmədük, kulqaqın esidmədük" - Gözlə görmədik, qulaqla eşitmədik (Or.19); "urti", "urtım": vurdu, vurdum, "Bir ərik okun urtı" - Bir əri oxla vurdu (Gt.32); "sünük": süngü, cida, "Qara Gəltə sünüşdimiz" - Qara kəldə süngüləşdik (Gt.32); "tünli-günli": gecəli-gündüzlü (Or.19)...

İndi müştərək işlənən sözlər: "yağı": yağı, düşmən. "Bək oğuz ara yeti ərən yağı bolmis" - Oğuz bəyləri arasında yeddi ər düşmən olmuş (Or.9); "yazı": yazı, çöl, "İlgərü Şantun yazıqa təki sülədim" - İrəli (şərqə) Şantun yazıyadək qoşunla getdim (Gt.27); "ərən": ər, iyid, "Mana Lisün Taysənün başadu bis yüz ərən kəlti" - Mənə (qarşı) Lisün Taysənün başçılığı ilə beş yüz ər-iyid gəldi (Or.18); "ağır" - ağır, sanballı (Or.27, 45); "uluğ": ulu, böyük, "uluğ oğlum" - böyük oğlum (Or.18)...

6. Kitabələrin dilinin sintaktik quruluşu

"Orxon-Yenisey" yazılarında üst-üstə iki nöqtədən (:) başqa durğu işarələri yoxdur; bunun isə nə vəzifə daşıdığı mübahisəlidir. Bu səbəbdən cümlələri növlərinə görə ayırd edib, dəqiq fikir söyləmək

çətindir. Fikir, məzmun əksərən bütöv bir cümlə qrupu, silsilə ilə verilir. Cümlələrin mənaca və quruluşca növlərini onların ifadə etdikləri məna xüsusiyyətlərinə, özündən əvvəlki və sonrakı cümlələrlə münasibətinə və s. görə müəyyənləşdirmək olur.

Aydın olsun deyə bir parçanı nəzərdən keçirək:

"Kül tigin yadağın oplayu təgdi; On Tutuk yorçın yaraqlığ əligin tutdı yaraqlığdı qağanqa ançuladı. Ol süg anta yokqışdımız. Bir otuz yaşına Çaça Sənüngə sünüşdimiz; ən ilki Tadıqın Çurın boz (atığ binip təgdi, ol at anta) ölti. Eginti Işbarı Yamtar boz atığ binip təkdi; ol at anta ölti; üçünç Yəgin Silig bəgin qədimlig torığ at binip təkdi, ol at anta ölti" (Gt.31).

"Gültəkin piyada hücuma atıldı; On Tutuqu əlində yaraqlı rəhbərlərilə tutdu, yaraqları ilə (birgə) xaqana təqdim etdi. O qoşunu orada yox elədik. (Gültəkinin) iyirmi bir yaşında Çaça Səngünlə vuruşduq; ən əvvəl Tadıq Çurun boz atına minib hücuma keçdi; o at orda öldü. İkinci (dəfə) Etbarı Yamtarın boz atını minib hücuma keçdi; o at orda öldü; üçüncü (dəfə) Yəgin Silig bəyin yəhərli kəhər atına minib hücuma keçdi; o at orda öldü".

Tədqiqatçıların nöqtə, vergül və nöqtəli vergül qoyub ayırdıqları cümlələri biz də yerli-yerində hesab edirik. Bunlar elə belə də ola bilər. Lakin bu mətn öz-özlüyündə bütöv bir məzmun, bir silsilə fikirdir, bir cümlə qrupudur; odur ki, nöqtələrin yerinə vergül və ya nöqtəli vergül də qoymaq olardı.

1) Söz birləşmələri

Məlumdur ki, bitmiş bir fikirdən - cümlədən əvvəl ayrıca sözlər və söz birləşmələri gəlir. Söz birləşmələrinin sözdən cümləyə keçid mərhələsi hesab etsək bu, sintaksisin ilkin tədqiqat obyektidir. Kitablərdə söz birləşmələrinin rəngarəng növləri olduğunu görürük:

a) Birinci tərəfi sifət, ikinci tərəfi isə isimlə ifadə olunan söz birləşmələri. Məs.:

"alp-ər" (Yn.53); "yaş keyik" (Yn.54); "qalın yağı" (Yn.55); "qara budun" (qara camaat) - Yn.62; "aq qul" (Yn.80); "kümüş budun (kümüş xalq) - Yn.80; "gög tənri" (Or.16); "ağır taş" (Or.19); "yası taş" (yastı daş) - Or.36; "boz at" (Or.27); "qara baş" (Or.53); "bilgə qağan" (Gt.27); "aq at" (Gt.32); "qara göl" (Gt.31); "gög türk" (Gt.29); "simiz buqa" (kök buğa), "turuq buqa" (arıq buğa) - Tk.61...

b) Hər iki tərəfi isimlə ifadə olunan söz birləşmələri. "Adağlığ at" (ayaqlı, sürətli at) - Yn.26; "ər oğlan" (Yn.19); "türk budun" (Or.19); "türk bəglər" (Or.16); "təmir qapuğ" (Tk.64)...

c) Birinci tərəfi zərf, ikinci tərəfi isə isimlə ifadə olunan söz birləşmələri. Məs.: "iç sü" (içəri, daxili qoşun) - Yn.68; "ilki gün" (Or.18).

ç) Birinci tərəfi say, ikinci tərəfi isə isimlə ifadə olunan söz birləşmələri.

Məs.: "on ay" (Yn.55); "üç qat" (üç dəfə)- Yn.61; "On ər", "səkkiz oğuz", "toguz tatar" (Or.35); "otuz oğlan" (Or.60); "üç görük kisi (üç gözətçi kişi) - Tk.63, "toguz oğuz budun" (Gt.32)...

d) Birinci tərəfi işarə əvəzliyi, ikinci tərəfi isə isimlə ifadə olunan söz birləşmələri. Məs.: "ol ay" (Or.35); "ol at" (Gt.31); "ol tənri" (Gt.32); "bu qağan", "bu bəglər" (Or.19), "bu yol" (Tg.62); "bu bitig" (bu kitab, bu yazı) Gt.28...

Kitabələrdəki "on ok bəgləri" (Tk.63), "iç buyrukı" (Or.19), "el ebi" (el evi) - Or.37 kimi ikinci növ təyini söz birləşmələrinə də rast gəlmək olur.

2) Cümlənin növləri

Kitabələrdəki cümlələr quruluşu, mənaca növləri, cümlədə sözlərin sırası baxımından müasir dilimizə tam uyğun gəlir. Kitabələrdəki söz birləşmələri, cümlələr, cümlələr arasındakı əlaqələr, məntiqi və məna bağlılığı və s. müasir dilimizin qrammatik quruluşunun ibtidası, əsası olmaq etibarilə geniş tədqiqata möhtacdır. Biz imkan daxilində, bəzi ümumi cəhətləri göstərməyə çalışacağıq.

a) Sadə cümlələr

Adlıq cümlələr. Kitabələrdə, onların məzmunundan asılı olaraq, adlıq cümlələr xüsusi yer tutur. Adlıq cümlələr özünü əsasən iki cəhətdən göstərir:

1) Kitabənin, qəbrin kimə məxsus olduğu başqasının dilindən bildirilir. Məs.: "Umay bək" (Yn.53); "Qara qan" - Qara xan (Yn.67); "Yabqu oğlı Sabra" (Or.9), "Umac oğlı" (Or.68); "İç buyrukı bək Gül İrgin" (Or.19); "Buqa ər atı" - Buğa ər adı(dır) - Yn.98; "Sizin ər at Ur(ı) - Sizin ər adınız Urı(dır və ya idi) - Yn.50...

Bu cür cümlələr, görünür, adları daşlara yazan, həkk edən ustaların dilindən söylənilmişdir.

2) Kitabənin, qəbrin kimə məxsus olduğu, mərhumun guya bilavasitə özünün dilindən bildirilir. Məs.:

"Tarkan Saŋun mən" - Tarkan Sanqun mən(əm) - Yn.62; "Atım Qara Çur ayağ atı Qar(a) yazmaz" - Adım Qara Çur, sayılan adı(m) Qar(a) Yazmaz(dır) - Or.60...

Nəqli sadə cümlələr. Bu növ cümlələrin, müasir dilimizdə olduğu kimi, təsdiq və inkar, eləcə də yarımçıq, müxtəsər və geniş növləri özünü göstərir.

Yarımçıq cümlələr. Kitabələrdə mübtədasız, yəni subyekti zahirdə olmayan cümlələr çox işlədilir. Məs.: "Bir yılqa tort yolu süngüşdim" - Bir ildə dörd yol süngüləşdim (Or.17); "Yeti böri ölürdüm" - Yeddi canavar öldürdüm (Yn.33); "Altun yısıq yolsızın asdım" - Altun dağını yol olmadan aşdım (Tg.63)...

Bunlar mübtədasız, daha doğrusu, mübtədası xəbərində ifadə olunan cümlələrdir.

Müxtəsər cümlə olub, mübtədası xəbərlə birləşmiş yarımçıq cümlələrə kitabələrdə daha çox rast gəlirik. Məs.: "Tokıtdım" - "tokıttım" = Toxutdum (Or.9, 19); "Bitidim" - bitirdim (tamamladım) - Or.19; "Sançdı" (Or.27); "Tutdım" (Or.35); "Tokıdım" - Toxudum; "Gəlti" - Gəldi (Or.37), "Qabışım" - Qovuşum (Or.38); "Tuymadı" - Duymadı(lar) - Tk.63, "Sünüşdümüz" - Süngüləşdik (Tk.63)...

Müxtəsər cümlələr. Kitabələrdə sadə müxtəsər cümlələr də işlədilir. Belə cümlələr ancaq mübtəda və xəbərdən ibarət cümlələrdir. Məs.: "Taçam ölti" (Or.9); "Bəklər gəlti"; "Ər gəlti" (Or.36); "Biz korqmadımız" (Tk.63)...

Geniş cümlələr. Kitabələrdə fikir ən çox sadə geniş cümlələrlə ifadə olunur; sadə geniş cümlələrin fikri ifadə üsulları isə müxtəlif və çoxcəhətlidir. Məs.: "Bis yüz ərən gəlti" - Beş yüz ərən gəldi (Or.18); "Gül tikin Başğu boz at binin təkdi" - Gültəkin Başqu boz atı minib hücuma keçdi (Gt.32); "Bilgə Tonyukuk bana aydı" - Bilgə Tonyukuk mənə dedi (aydın etdi) - Tk.63; "Türk budun ölti, alqıntı, yok boltı" - Türk xalqı öldü (zəiflədi), gücdən düşdü, yox oldu (Tk.61); "Keyik yiyü, tabısğan yiyü, olurur ərtimiz" - Keyik yeyib, dovşan yeyib yaşadıq (Tk.61); "Oğuzdantan görük kəlti" - Oğuzlardan közçü (nümayəndə) gəldi (Tk.61); "Anta ötrü oğuz kolın gəlti" - Ondan sonra bütün oğuz gəldi (Tk.62); "Üç görük kisi gəlti" - Üç gözçü (nümayəndə) kişi gəldi (Tk.63)...

Sual cümlələri. Məlumdur ki, sual cümlələri intonasiya və müəyyən sual bildirən "nə", "mi" (mi, mu, mü) ədatları ilə ifadə olunur. Kitabələrdə hər iki hala təsadüf edilir.

a) İntonasiya ilə. Məs.: "Azu bu sabımda igid barğu?" - Bu sözümdə az da olsa yalan var? (Gt.28)...

b) Sual ədatları ilə. Məs.: "Qağanmu kısayın? - tidim" - (Onu) Xaqanmı olmağı məcbur edək? - dedim. (Tk.61); "Kıyınığ könlünçə ay. Bən sanıa nə ayayın?-tidi" - Könlünə düşən cəzanı de (ver). Mən sənə nə deyim? (aydın edim) - dedi (Tk.63); "Nə basınalım? təkəlim, -tidim" - Nə basılaq? Hücuma keçək - dedim (Tk.63)...

Əmr və nida cümlələri. Kitabələrdə əmr, xahiş, vəsiyyət, müraciət və ümumiyyətlə modallıq mahiyyətli fikrin ifadə şəkilləri xüsusi yer tutur. Məs.: "Yüz yaşayın!" (Yn.66); "Sabımı tükəti esidgil!" - Sözümü bütün eşidin! (və ya eşitginən) - Gt.27; "Türk oğuz bəgləri budun esidin!" - Türk oğuz bəyləri, xalqı eşidin! (Gt.30)...

Belə cümlə tiplərinə kitabələrin "Tonyukuk" qolunda daha çox rast gəlirik. Məs.: "Bilgə Tonyukuk ayığ ol, öz ol!" - Bilgə Tonyukuk, ayıq ol, özündə ol! (Tk.63); "Qatun yok bolmıs ərti... - tidi, su barın! - tidi, Altun yısda olurun! - tidi. Sü bası İnal qağan, Tardus sad barzun! - tidi..." "Xatın yox bulmuş (ölmüşdür)... - dedi, qoşun çəkin! - dedi, Altun dağda dayanın! - dedi. Qoşun başı İnal xaqan və Tarduş şadları (olsun!) - dedi (Tk.63).

Bunlar çox təbii görünür. Çünki Tonyukuk vəzifəsilə bağlı əmr, göstəriş verir, xahişlər edirdi...

b) Mürəkkəb cümlələr.

Həm sadə, həm də mürəkkəb cümlələr müstəqil olsa belə, yenə müəyyən qədər özündən əvvəlki və ya sonrakı fikirlə rabitədə, əlaqədədir. Bu isə kitabələrin ümumi tonu, üslubu və fikrin ifadə xüsusiyyətindən irəli gəlir. Mürəkkəb fikirləri ifadə edən cümlələrin hələlik iki növü üzərində dayanaq.

Tabesiz mürəkkəb cümlələr. Kitabələrdə silsiləli, mürəkkəb fikirlərin tabesiz mürəkkəb cümlələrlə ifadəsi geniş yayılıb. Kitabələrdə tabesiz mürəkkəb cümlələr iki və ya daha çox sadə cümlənin (onlar geniş, müxtəsər, cüttərkibli və ya təktərkibli ola bilər) birləşməsi şəklində özünü göstərir. Bu cümlələr bir-birilə ya bağlayıcı və ya intonasiya vasitəsilə bağlanır. Tabesiz mürəkkəb cümlələri xüsusiyyətlərinə, tabesizlik əlaqələrinə görə və s. təsnif etmirik. Bu, çox geniş mövzudur. Ümumi təsəvvür yaratmaq üçün bəzi nümunələrlə kifayətlənirik:

"Qara budun qağanım gəlti, tip ökdi" - Qara camaat "xaqanım gəldi" - deyib öyündü (Or.18); "Qamuk balıqka təkdim, kunladım altım; süsi gəlti, qarasın yığdım, bəki qaçdı" - Bütün şəhərlərə hücum etdim, hücum çəkib aldım; qoşunu gəldi, qara camaatın yığdım, bəyi qaçdı (Or.9); "Görük sabı antağ: Tokuz oğuz budun üzə qağan olurtu" - Elçinin sözü budur: Doqquz oğuz üzərinə xaqan təyin olundu (Tk.61); "Bir yılka biş yolı sünnüşdimiz; ən ilk Toğu

balıqda sünnüşdimiz" - Bir ildə beş yol vuruşduq (süngüləşdik) ən ilk (dəfə) Toğu şəhərində vuruşduq (süngüləşdik) - Gt.32; "Bən ança tirmən: bən bilgə Tonyukuk Altun yısığ asa gəltimiz, Ərtis ügüzüg keçə gəltimiz" - Mən belə deyirəm: mən bilgə Tonyukuk - Altun dağını aşıb gəldik, İrtış çayını üzüb gəldik (Tk.63)...

Tabeli mürəkkəb cümlələr. Kitabələrdə tabeli mürəkkəb cümlələri əmələ gətirən baş və budaq cümlələr, ayrı-ayrı cümlələr arasındakı tabelilik əlaqələri və s. o qədər inkişaf etməmişdir; tabelilik əksərən məna, fikir bağlılığında özünü büruzə verir. Məs.:

"Soqdaq budun itəyin tiyin, Yincü ügüzik keçə Təmir qapığqa təki sülədimiz" - Soqdi xalqını hazırlayaq deyə, İncü çayını keçib Dəmir qapıyadək qoşun yeritdik (Gt.32); "Mən iniligü bunca başlayu qazğanmasar, türk budun öltəci ərti, yok bultacı ərti" - Mən bunca arzu etməsə (arzuya düşməsə, başlamasa) idim, türk xalqı öləcəkdi, yox olacaqdı (Or.17)...

Cümlədə sözlərin sırası baxımından kitabələrin dili ilə müasir Azərbaycan dili arasında uyğunsuzluq yoxdur. Hər hansı bir münasibətlə buraya qədər xatırlanan cümlə nümunələri, cümlələrdəki sözlərin sırası da bunu təsdiq edir. Əlbəttə, indi belə yazanın - alimin, yazıçının, ziyalının özünəməxsus dəsti-xətti, üslubu və sairlə əlaqədar, sözlərin sırasında cüzi dəyişiklik, sözlərin dal-qabaqlığı ola bilər. Bu, təbii haldır. Kitabələrin özündə də belədir; çünki ayrı-ayrı vaxtlarda, ayrı-ayrı ustalar və ya müxtəlif dəsti-xətli adamlar tərəfindən yazılmış, daşlara həkk olunmuşdur.

***

Beləliklə, "Orxon-Yenisey" kitabələrinin dili ilə Azərbaycan dili arasındakı yaxınlığa, üslubi, fonetik, morfoloji və sintaktik bağlılığa ümumi nəzər salındı, bir sıra həqiqətlər aşkar edildi.

"Orxon-Yenisey" kitabələri ümumilikdə türk xalqlarınındır; onların hələlik ən qədim hesab edilən ortaqlı zəngin söz xəzinəsi, ədəbi-yazılı dilidir. Bu kitabələr Azərbaycan dilinin də kökünü hə-

min köklə bağlamağı tələb edir. Həqiqətən, Azərbaycan dilinin lüğət fondu, qrammatik quruluşu, fonetik və leksik xüsusiyyətləri, üslub rəngarəngliyi və s. orada öz əksini tapır, həmin dillə müasir dilimiz arasında mübahisəsiz bağlılıq, əlaqə, rabitə yaranır. Kitabələrdən gətirib izahını, şərhini verməyə çalışdığımız kök və düzəltmə sözlər, nitq hissələri, qrammatik dəyişmələr, əlaqə və xüsusiyyətlər, söz birləşmələri, cümlə quruluşları və s. tamamilə Azərbaycan dilinə aid olduğunu göstərir. Əlbəttə, bu sözləri, bu nitq hissələrini, bu qrammatik dəyişmə, əlaqə və xüsusiyyətləri, bu birləşmələri, cümlə quruluşlarını və s. türk ailəsinə mənsub olan hər hansı bir xalq özünəməxsus edə bilər, "bu sözlər, bu qrammatik dəyişmələr, şəkillər.. bizimkidir", - deyə bilər. Bu isə dediklərimizi, çıxardığımız nəticələri inkar deyil, təsdiq edir. Bu kitabələr içərisində Orxon abidələrinin daha çox Oğuz tayfa birliklərinə aidliyini də yaddan çıxarmaq olmaz.

Deməli, "Orxon-Yenisey" kitabələri; yəni bu kitabələrin dili nəinki Azərbaycan ümumxalq dilinin, həmçinin onun güclü ədəbi dil qolunun əsası, ilkin şəkli, güclü başlanğıcıdır.

V. "DƏDƏ QORQUD KİTABI", TARİXİ, DİLİ VƏ ÜSLUBU

Azərbaycan xalqının və onun dilinin tarixində VII-IX əsrlər çox böhranlı, keşməkeşli bir dövr təşkil edir. VII-VIII əsrlərdə ərəb hökmranlığı Azərbaycan - oğuz dilinin inkişaf imkanlarını get-gedə daraldır, bu dili rəsmi dairələrdən sıxışdırırdı; işğalçı hökmranlıq adət-ənənələri "təzələmək", mədəniyyəti "islamlaşdırmaq", qədim türk yazısını ərəb yazısı ilə əvəz etmək və s. üçün hər vasitədən istifadə edirdi. Tarixin isə öz dialektikası, inkişafın öz qanunauyğunluqları var. Dil, adət-ənənə, mədəniyyət xalqın güclü mənəvi sərvətidir; elə mənəvi sərvət ki, yad təsirlərə və təzyiqlərə laqeyd qala bilmir, müqavimət göstərir. Hər bir istedadlı xalq ağır, böhranlı şəraitdə belə, vəziyyətdən çıxış yolu tapır, mənəvi qüvvələrini səfərbər edib müəyyən səmtə yönəldir, mədəniyyətini nəinki inkişaf etdirir, həm də onu ümumbəşər mədəniyyəti səviyyəsinə yüksəldir. Azərbaycan xalqı məhz ağır, böhranlı əsrlərdə öz mənəvi sərvətlərini daha böyük qətiyyətlə və qüdrətlə qoruyaraq, bu sərvətlərin bəşəri keyfiyyətlərini yaşatmış və inkişaf etdirmişdir. Təkcə belə bir fakt kifayətdir ki, tarixi-rəsmi imkanların məhdudluğu üzündən Azərbaycan şifahi bədii yaradıcılığı daha güclü inkişaf etmiş, bəzən yazılı ədəbiyyatı üstələmişdi... "Dədə Qorqud kitabı" da yaranışdan sonra ağır, böhranlı əsrlərdə nəinki unudulub yaddan çıxmamış, rəsmi dairələrin gözündən uzaqda, "həyatın dibində", ziyalıların qələmində, xalqın ürəyinin dərinliklərində özünə yer edib qalmışdır.

Xalqın tarixinin ağır, böhranlı dövründə, müvəqqəti olsa da, bəzən kələfin ucu itirilir, həqiqət aşkara çıxarılınca əsrlər keçir, mübahisələr isə kəsilmək bilmir, müxtəlif fikir və mülahizələr baş alıb gedir. "Dədə Qorqud"un taleyi də belə olmuşdur. Buna görə, bu "Kitab"ın yaranma tarixi ilə bağlı məsələlərə toxunmadan birbaşa mətləbə keçmək çətindir.

1. "Dədə Qorqud kitabı" VI-VII əsrlərin abidəsidir

"Dədə Qorqud kitabı" - "Oğuznamə" ümumtürk kitabəsidir; bütün türkdilli xalqlar bu kitabədən pay uma və onu "özününkü" hesab edə bilərlər; müəyyən mənada onların buna haqqı da vardır. Lakin "Oğuznamə", onun dili bilavasitə Azərbaycan xalqının ədəbi abidəsi, ədəbi dilidir. Bununla belə, bir sıra məsələlərdə mübahisələr hələ də davam edir. Bu mənada, əvvəlcə kitabənin yazıya alınma tarixinə, dilinə və s. dair bir neçə söz demək zəruriyyəti meydana çıxır.

1) "Dədə Qorqud"un yazıya alınma - "kitab" bağlanma tarixi

Min ildən artıq bir dövr ərzində səsi-sorağı eşidilməyib, ancaq XVIII əsrdən məlum olan "Dədə Qorqud" elm aləminə "kitab", yazılı bir əsər kimi gəlib çıxıb. Belə olan surətdə, hansı elmi əsasa, hansı məntiqə görə indiyədək bu "Kitab" şifahi-bədii ədəbiyyat, folklor nümunəsi sayılıb?

"Dədə Qorqud kitabı"nın özünəməxsus ahəngi, üslubu var. Bu ahəng, bu üslub onun bir ağlın məhsulu olduğunu təsdiq edir. "Kitab" əsasən şerlə yazılıb və onun nəsri də mənzumdur, daxili qafiyələr, daxili ahənglənmə bu keyfiyyəti bir qədər də artırır. "Dədə Qorqud"dakı şerlər ölçücə də çox zəngin və rəngarəngdir, xeyli sonralar milli axara düşmüş heca ölçüsündə və gəlmə-alınma əruz

vəznində yox, xüsusi ahəng və ölçü ilədir. Bu vəziyyət özü də dastanın şerlərini eynilə yadda saxlamağa, sinələrə yazmağa mane olmaya bilməzdi. "Kitab"ın nizamlı və əksərən poetik biçimli yurd hissəsinin yadda saxlanması, bu şəkildə yaddaşlara həkk olunması da çətindir, ağlabatan deyildir.

"Kitab"da fikrin həmqafiyə sözlər və ölçülərlə ifadəsi çox səciyyəvi haldır. Bu ölçülər bəzən özünü məlum şer ölçülərindən daha geniş miqyasda göstərir. Məsələn:

"Dədə Qorqud keçi başlu Keçər ayğıra sıçradı, bindi. Dədəyi qoa-qoa Dəli Qarcar on yelək yer aşurdı" (84).

Və:

"Qazan bəgün qarıcıq olmış anası qara dəvə boynında asılu getdi. Xan Qazanın oğlı Uruz bəg üç yüz yigidlən əli bağlu, boynı bağlu getdi. Elin Qoca oğlı Sarı Qulmaş Qazan bəgün evi üzərinə şəhid oldı" (38).

Və ya:

"Ərənlər əvrəni Qaracuq Çoban sapanının ayasına taş qodı, atdı. Birin atanda ikisin-üçün yıqdı; ikisin atanda üçün-dördin yıqdı" (41).

İnsan ağlı, insan bədii təfəkkürü nə qədər məntiqi ardıcıllığa malik olmalıdır ki, müxtəlif fikirləri dalbadal beləcə sərrast və dəqiq ölçü ilə (18-18, 24-24-24, 24-24) ifadə edə bilsin, onu yadda saxlasın, şifahi olaraq nəsildən-nəslə ötürə də bilsin.

Həmin ölçüləri iki yerə böldükdə aşağıdakı biçim şerlər alınır:

1) "Dədə Qorqud keçi başlu Keçər ayqıra sıçradı, bindi.
Dədəyi qoa-qoa Dəli Qarcar on yelək yer aşurdı".

2) "Qazan bəgün qarıcıq olmuş anası
Qara dəvə boynında asılu getdi.
Xan Qazanın oğlı Uruz bək üç yüz yigidlən
Əli bağlu, boynı bağlu getdi.
Elin Qoca oğlı Sarı Qulmaş
Qazan bəgün evi üzərinə şəhid oldı".

3) "Ərənlər əvrəni Qaracuq Çoban
Sapanının ayasına taş qodı, atdı.
Birin atanda ikisin-üçün yıqdı,
İkisin atanda üçün-dördin yıqdı".

Əlbəttə, bu formanı, bu vəzni təsadüfi saymaq olmaz. Bunlar düşünülmüş ölçü üzrədir, poetik düşüncəyə, ağla əsaslanan ölçüdür.

Dədə Qorqudun şəxsi bədii istedadını, poema üzərindəki yaradıcılıq əməyini heç də azaltmadan deməliyik ki, əsərin "yurt" hissəsində də müşahidə edilən bu ölçü, bu ahəngdarlıq, bu axıcılıq hər şeydən əvvəl, dilin öz daxili potensialı, öz bədii qüdrətinin təzahürüdür.

"Dədə Qorqud kitabı"nda hadisə və əhvalatlar, ayrı-ayrı boylar arasında onları bir-birinə bağlayan, əsərin ümumi ahənginə, üslubuna uyğun elə məntiqi əlaqələr, dəqiq düşünülmüş, ölçülüb-biçilmiş elə paralellər, simmetriyalar, dönə-dönə və nizamla tənzimləmələr var ki, heç bir şifahi ədəbiyyatda buna rast gəlmirik; bunları ancaq kamil və qüdrətli bir qələmin məhsulu hesab etmək olar.

Tədqiqatçılar iddia edirlərsə ki, əldə olan məlum nüsxələr hər hansı özündən əvvəlki bir nüsxədən köçürülüb, burada həqiqət var. Bizə belə gəlir ki, "ilk nüsxə" Dədə Qorqudun özünün qələmilə yazıya alınan bir kitab olub. Sonrakı, bizə məlum və naməlum əlyazma nüsxələrinin əsası, ilki bu nüsxə, bu "kitab"dır. Bundan başqa, məlum əlyazma nüsxələrinin hər hansı bir münasibətlə də olsa, "kitab" adlanması, habelə kitabın ikinci adının "Oğuznamə" olması da burada az söz demir.

Dədə Qorqud hər "Oğuznamə"də, hər "boy"da sözünü mənalı və ibrətli sonluqla tamamlayır. Sonluqlarda qəhrəmanlara müraciətlə onların ata-babaları - dünyadan köçmüş, habelə boylardakı döyüşlərdə igidliklə həlak olmuş alp ərənlər yada salınır, böyük ehtiramla xatırlanır və qalanlara alqışlar edilir, xeyir-dua verilir. Bununla da keçmişlə boylardakı hadisələr arasında məntiqi-ənənəvi bağlılıq, əlaqə yaradılır, keçmiş alp ərənlər - ər ata-babalar, habelə həlak olmuş müasir qəhrəmanlar yad edilərək onların igidliyi-

nə ənənəvi keyfiyyət kimi qiymət verilir. Belə anlaşılır ki, Qorqud Atanın şadlıq məclislərində, toyda-düyündə və hər bir qələbə münasibətilə sonda söylədiyi "qazi-ərənlərin" başına gələn əhvalatlar bundan əvvəlki əhvalatlardır; bunlar sanki böyük bir nəslin, böyük bir imperiyanın süqutundan xəbər verir: "İmdi qanı dedigim bək ərənlər? Dünya mənim deyənlər! Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya! Soŋı ucu ölümlü dünya!" (201). Və ya: "Anlar dəxi bu dünyaya gəldi keçdi. Karvan kibi qondı, köçdi. Anları dəxi əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı!.." (34). Deməli, Qorqud Atanın, haqqında danışdığı "qazi ərənlər" artıq yoxdur, onlar igidliklər göstərib, ömür sürüb dünyadan köçmüşlər. İndiki alp igidlərə, bəy ərənlərə isə "yum verəyin" ki, öz ata-babaları kimi yaşasın, "namərdə möhtac olmasın", onların işi həmişə rast gətirsin. Bir sözlə, igidlik, mərdlik, qəhrəmanlıq ənənəvi bir keyfiyyətdir, bu keyfiyyəti qorumaq, yaşatmaq və gələcək nəsillərə vəsiyyət etmək lazımdır.

"Dədə Qorqud kitabı"nın leytmotivi, amalı budur. Bizə belə gəlir ki, Qorqud Ata dediklərini, düzüb qoşduqlarını vaxtındaca özü yazıya almış, "kitab" bağlamış ki, gələcək nəsillərə yadigar qalsın.

Lap bu son tədqiqatlarda xatırlanır ki, Sasani hökmdarı Ənuşirəvanın (531-579) vəziri Büzürkmehrdə *Uluxan Bitikçi* haqqında türkcə yazılmış bir "Oğuznamə" olubmuş. Ərəb xəlifəsi Harun ər-Rəşid (763-809) zamanında bir "Oğuznamə" ərəb dilinə də tərcümə edilibmiş (70, s.28).

Burada, bir-birinə yaxın dövrdə mövcud olan iki "Oğuznamə" xatırlanır: biri *Uluxan Bitikçi* haqqında - onun düzüb-qoşduğu və yəqin ki, yazıya da aldığı "Oğuznamə", digəri isə Dədə Qorqudun adı ilə bağlı - onun düzüb-qoşduğu və yazıya aldığı "Oğuznamə". Belə anlaşılır ki, qədim türklərdə - oğuzlarda "Oğuznamə" adlanan janrda hadisə və əhvalatları müşayiət edib, əsəri - indiki istilahla desək, poema şəklinə salan və yazıya alan ədəbi şəxsiyyətlər, ənənəvi olaraq, özlərini də ora əlavə edib, "Oğuznamə"nin əsas qəhrə-

manlarından və ya iştirakçılarından biri olurmuş... Vəzir Büzürkmehrə məxsus "Oğuznamə"nin adı və onun baş qəhrəmanı Uluxan Bitikçinin adı diqqəti cəlb edir. *Bitikçi* sözü indi arxaikdir, qədim türkcə "kitabçı", yəni kitab yazan deməkdir, müasir dilimizdəki yazıçı sözünə uyğun gəlir. Deməli, söhbət yenə kitabdan, yazıçıdan, yazılı ədəbiyyatdan gedir. Həm vəzir Büzürkmehrdə olan "Oğuznamə", həm də Harun ər-Rəşid zamanında "Oğuznamə"nin ərəb dilində tərcüməsi folklor nümunəsi deyil, kitab idi. Ənuşirəvan dövründəki "Oğuznamə" Dədə Qorquddan əvvəlki tarixə düşür, baş qəhrəmanı Uluxan Bitikçidir. Harun ər-Rəşid dövründəki "Oğuznamə", yəqin ki, elə baş qəhrəmanı Dədə Qorqud və ya Qazan xan olan ikinci bir "Oğuznamə", yəni "Dədə Qorqud kitabı"nın özü imiş ki, ərəb dilinə tərcümə edilibmiş.

O vaxtlar "Oğuznamə"nin ərəb dilinə tərcüməsini iki mənada izah etmək olar: 1) Dədə Qorqudla İslamın banisi Məhəmmədin tarixdən bizə məlum görüş, dostluq və diplomatik əlaqələrini nəzərə alsaq, onun kitabının ərəb dilinə tərcüməsi mümkün və ağlabatan idi; 2) Harun ər-Rəşidin xəlifəliyi dövrü Azərbaycanda ərəb işğalının ən güclü davam etdiyi dövr idi və işğalçı ərəblərə öz planlarını həyata keçirmək məqsədilə Azərbaycanı öyrənmək, ölkəyə, xalqa, xüsusilə oğuz-türk "qrımına" - xarakterinə yaxından bələd olmaq üçün bundan gərəkli bir kitab ola bilməzdi. Bu "ilk" nüsxə - "Dədə Qorqud kitabı", buna heç şübhə ola bilməz ki, "Orxon-Yenisey" yazısı adlanan qədim türk əlifbası ilə imiş... Ərəb əlifbası ilə bizə gəlib çatan və təxminən IX-X əsrlərdə üzü köçürüldüyü güman edilən Drezden əlyazması, güman ki, Dədə Qorqudun zamanında qələmə alınmış və "Orxon-Yenisey" əlifbası ilə yazılmış nüsxədən köçürülmədir. Təəssüf ki, ilk nüsxə və ya başqa bir nüsxə, hələlik elm aləminə bəlli deyildir. Tarixdən bizə məlumdur ki, ərəblər işğal etdikləri ölkələrin mədəniyyət abidələrini dağıdır, kitabları yandırır, məhv edirdi. İşğalçıların yandırdığı kitablar və əlyazmaları arasında "Dədə Qorqud kitabı"nın məhz qədim türk əlifbası ilə yazılmış nüsxələri ola bilməzdimi?..

Ərəb işğalına qədər qədim türk xaqanlığının təxminən 1300 illik tarixi bizə məlumdur. Yeni eranın əvvəllərindən xaqanlıqlar Kaspi dənizinin o tayında - Orta Asiyada güclənib mərkəzləşdiyindən Orxon-Yenisey kitabələri də orada yaranmış, inkişaf etmişdi. Hələlik Ön Asiyada bu yazı nümunələri tapılmayıb. Lakin qədim Azərbaycanda Tomiris (Massaket-sak) padşahlığının mərkəzi olan Örənqala - Bəyləkan torpağında zəngin bir mədəniyyət yatıb qalır. Orxon-Yenisey əlifbası ilə yazılmış kitabələr burada da olmamış deyil. Biz güman edirik ki, bunlar tapılacaqdır.

Yazı, əlifba ancaq daşlara yazmaq, əşya, saxsı, gümüş, qızıl və b. qablar üzərinə həkk olunmaq üçün yaranmır. Yazı, hər şeydən əvvəl, xalqlar, dövlətlər arasındakı əlaqə və ünsiyyət ehtiyacından, xalqın tarixini, mədəni münasibətlərini inkişaf etdirmək və s. lüzumundan yaranır. Belə əlaqələrin, belə münasibətlərin və tarixi, mədəni inkişafın yazıda əksi isə daha çox dəri, parça və kağız üzərində olur. Bizə qədim türk əlifbası ilə yazılmış sal daşlar, yazılı gümüş cam və başqa əşyalar, bir sözlə, zəngin mədəniyyət gəlib çatıb. lakin bu o demək deyil ki, bu əlifba ilə dəri, parça, kağız üzərində yazılar, yazışmalar, məktublar, habelə tarix kitabları, bədii əsərlər və s. olmayıb. Olub. Amma bunlar tələf olub gedib, ərəb işğalçılarının odu-alovunda qalanıb. "Dədə Qorqud kitabı"nın dərimi, parçamı, kağızmı üzərində yazılmış ilk əlyazma nüsxəsi də beləcə sıradan çıxıb, tələf edilib.

Buna görə, biz xalqımızın bu ilk, o vaxta görə, bəlkə də son nadir bədii incisini "dastan" - poema və ya, əslində olduğu kimi, "kitab" hesab edirik. Ümumilikdə "Yenisey" və "Gültəkin", "Tonyukuk", "Makilyan xan" kitabələri bu mənada, bir növ tarixi dastanlardır və ya belə demək daha dürüst olar ki, dastan-poema şəkilli tarixi əsərlərdir; bir sıra tədqiqatçılar həmin kitabələrin mənzum olduğunu iddia edərkən məhz bu məziyyəti nəzərə almışlar (*195*, s.139), XII əsrdə Nizami də "İskəndərnamə"ni dastan-poema adlandırmışdı; XIII əsrdə naməlum bir azərbaycanlı müəllif öz əsəri-

nə "Əhmət Hərami dastanı" adı vermişdi. Halbuki bütün bunlar yazılı kitablardır.

"Dədə Qorqud kitabı"nın bu kitabələrdən fərqli, özünəməxsus mühüm bir məziyyəti diqqəti cəlb edir: onu düzüb-qoşan el aşığıdır, ozanlar ozanı Qorqud Atadır. Ancaq bu mənada onun şifahi ədəbiyyatla əlaqəsi var. Qədim türk dünyasında söz düzüb-qoşanlara ozan deyirdilər. Şair sözü isə bizə sonralar, ərəblərlə gəlib. Görünür, "ozan" sözü Avropa tədqiqatçılarını çaşdırıb, ona görə də, ədəbiyyatşünaslıqda "Dədə Qorqud"a, bir qayda olaraq, müasir dastan - epos istilahı ilə yanaşılıb və bundan sonra belə demək ənənə şəklini alıb.

Əgər, doğrudan da "Dədə Qorqud" eposdursa, folklor nümunəsidirsə, bəs nə üçün nağıllarımızda, dastanlarımızda onun təsirinə, rast gəlmirik. Axı, folklor nümunələri həmişə bir-birinə oxşar olur, surətlər paralel xətlər üzərində qurulur və s. Doğrudur, tədqiqatçılar bu "təsiri" tapmağa çalışır, "paralellər" axtarırlar. (*85a,* s.143). Lakin gətirilən dəlillər, edilən müqayisələr inandırıcı deyil, çünki bilavasitə "Dədə Qorqud kitabı"ndan gəlmir, bunlar vahid bir xalqa məxsus keyfiyyətlərdir ki, istər folklor olsun, istərsə də yazılı ədəbiyyat, hər hansı bir bədii əsərdə özünü büruzə verə bilər. Doğrudur, tədqiqatçılar Dədə Qorqudun müdrik bir el ağsaqqalı, ədəbi şəxsiyyət kimi bəzi xələfləri (M.F.Axundov, Qul Ata və b.) tərəfindən yad edildiyini, xatırlandığını söyləyirlər. Lakin bu tamamilə təbiidir və digər ədəbi şəxsiyyətlər kimi, o da yaddaşlarda qala bilər, buna görə hörmətlə yad edilə, xatırlana da bilərdi.

Türk "Dədəqorqudşünaslığı"nda da məsələnin bu istiqamətdə həllinə yön alan fikirlər diqqəti cəlb edir. Ahmet Kabaklı yazır: "Qorqud Ata islamiyyətdən öncə türklər arasında yaşamış və hər türk boyunda başqa adla xatırlanmış şairlərə bənzəməkdədir. Tunquzların **Şaman**, Altay türklərinin **Kam,** yakutların **Oyun**, qırğızların **Baksı,** Oğuzların **Ozan** dedikləri bu qədim şairlər həm hatif, həm rahib, həm də kahin olmaqla yanaşı, sehrbazlıq, bəstəkarlıq, şairlik kimi neçə hünərlərə də sahib idilər" (*275,* s.189).

Məlumdur ki, ozan-aşıqlar nağıl və dastanların, eyni zamanda ifaçılarıdır, yəni onları məclislərdə söyləyənlərdir. Onlar dastan və ya nağıl danışarkən ümumi süjetə xələl gətirmədən istədikləri kimi danışır, əlavə edir, bəzən danışdıqları halda unudur və olduğu kimi dinləyicilərə çatdırmırlar; hər halda, yeri gəldikcə özlərindən də uydururlar. Ancaq deyə bilərikmi ki, tutalım, Nizaminin və ya Füzulinin "Leyli və Məcnun"u dastan gecələrində, haradasa aşıqlar tərəfindən danışılıb. Bu ola bilməz. Çünki poemanı əzbərləmək və onu olduğu kimi yadda saxlamaq və danışmaq qeyri-mümkündür...

Dünya elmi fikrində indyiədək "Dədə Qorqud kitabı"ndan folklor - şifahi bədii ədəbiyyatın nümunəsi kimi danışılmış, tədqiqat aparılmışdır. Bu "ənənəni" gözləyərək, daha dürüst desək, ümumi axına qoşularaq biz də bir sıra məqalə və son "Ədəbi şəxsiyyət və dil" ("Yazıçı", 1982) adlı kitabımızda bu yolla getmiş, "Dədə Qorqud kitabı"ndan epos kimi söhbət açmış, nəticə çıxarmağa tələsmiş, səhvlər buraxmışıq. Ağlın məntiqi və son tədqiqatların nəticəsi isə deyir ki, "Dədə Qorqud kitabı" folklor yox, yazılı ədəbiyyat nümunəsidir. Bu əsər qədim türk janrında yazılmış poemadır. Ərəb işğalçılarının məhv etdikləri mədəniyyətimizin külü arasında düşüb qalıb, xoşbəxt bir təsadüf nəticəsində əldə olan nüsxələrdən biri isə ərəb qrafikası ilə köçürülüb, Drezden kitabxanasına gedib çıxıbdır...

Sözsüz ki, sonralar "Kitab"a edilən əlavələr: bir neçə əsrin bəzi dil xüsusiyyətləri, dini-əxlaqi təsirlər və s. onu yenidən köçürən müəlliflərin öz əlavəsidir. Bu qəbildən olan dəyişikliklər Drezden və Vatikan əlyazma nüsxələrinin müqayisəsində də aşkara çıxır.

Beləliklə, elm aləminə "Kitabi - Dədə Qorqud" adı ilə qədəm basan əsər "kitab"dır, müəllifi - həm düzüb-qoşanı, həm də ilk yazıya alanı VI-VII əsrlərin tarixi-ədəbi şəxsiyyəti olan Dədə Qorquddur.

"Dədə Qorqud kitabı" Azərbaycan ana dilli ədəbiyyatımızın VI-VII əsrlər zirvəsidir. Bu zirvə, əlbəttə, birdən-birə fəth edilə bilməzdi, onu yetirən, bu səviyyəyə gətirib çıxaran uzun inkişaf yolu, ədəbi-tarixi zəmin, güclü ənənə olubdur. Dünya ədəbiyyatının na-

dir söz incilərindən sayılan bu "Kitab"ın VI-VII əsrlərdə bu şəkildə sintezi, yazılıb tamamlanması özü təsdiq edir ki, onun əsası, dayağı olan Azərbaycan ağız ədəbiyyatının - şifahi-bədii yaradıcılığının qatları çox dərindir, tarixi ondan çox-çox qabaqdır, min-min illərdir; lakin bu tarixi dəqiq müəyyən etmək çətindir...

2) "Dədə Qorqud kitabı"nın dili hansı əsrlərin dilidir?

Əgər "Dədə Qorqud" VI-VII əsrlərin məhsuludursa, onun dili hansı əsrin dilidir? Diqqəti bir anlığa Qorqud Atanın Drezden və Vatikan əlyazma nüsxələrindəki eyni sözlər arasında nəzərə çarpan dəyişikliyə yönəldək:

Drezden nüsxəsində: "Dədə Qorqut gəlübən boy boyladı, söy söylədi. Bu oğuznamə Yegnəjin olsun, - dedi" (212).

Vatikan nüsxəsində: "Dədə Qorqut gəlübəni söylədi; *gör ki, nə söylədi, xanum:* bu oğuznamə Yeknəgün olsun, - dedi. *Bəndən sonra alp ozanlar söyləsün! Alnıaçuq comərdlər dinləsün, - dedi"* (92).

Vatikan nüsxəsindən kursivlə verdiyimiz sözlər işarə edir ki, boylar Dədə Qorquddan sonrakı dədələr, "alp ozanlar" və katiblər tərəfindən üzü köçürülə-köçürülə gəlmişdir. Buna görə, təbiidir ki, dilcə dəyişikliklərə də uğramışdır. Lakin "Kitab" ilk yaranılışından elə yüksək sənətkarlıqla düzülüb-qoşulmuş, onun dili və üslubunda elə məntiq, uyğunluq və bağlılıq var ki, biz bu dəyişikliklərin az olduğuna şübhə etmirik, xüsusilə oradakı şerlərin - "söyləmələr", "ayıtmalar", qəhrəmanların adları və s. dəyişdirilə biləcəyi o qədər də ağla batmır.

Elmi ədəbiyyatımızda belə bir fikir mövcuddur ki, "Dədə Qorqud kitabı" X-XI əsrlərin yadigarıdır; elə onun dili də XI-XII və sonrakı əsrlərin dilidir. Əgər "Kitab" VI-VII əsrlərdən sonralar yaranmış olsaydı, orada ərəb və fars mənşəli çox sözə, adlara rast gələrdik. Halbuki təkcə dastanların baş qəhrəmanları və surətlərinin

adlarını xatırladıqda tamam başqa bir aləm görürük: *Dirsə xan oğlı Buğac, Ulaş oğlı Salur Qazan, Qıyan Səlcuk oğlı Dəli Tondar, Qazılıq Qoca oğlı bəy Yeynək, Elin qoca oğlı Sarı Qumaş, Elin qoca oğlı Alp Ərən, Qaragünə oğlı Qarabudaq, Bəyburanın oğlı Bamsı Beyrək, Qamğan oğlı Bayındır, Duxa oğlı Dəli Domrul, Qanlı Qoca oğlı Qanturalı, Uşun Qoca oğlı Səkrək, Dözən oğlı Alp Rüstəm, Əsən Oqçı, Əylik Qolca oğlı Dönəbilməz Dölək Uran, Qəflət Qoca oğlı Şirşəmsəddin, Doğsun oğlı Rüstəm, Buğrancı oğlı İlalmış, Bəkil oğlı İmran, Dəmir donlı Mumaq, Yalançı oğlı Yalancıq, Qonur Qoca Sarı, Aruz Qoca, Yüklü Qoca, Yapaqlı Qoca, Qaracıq Çoban, Dəli Qarçar, Qara Çökür, Dəli Əvrən, Soğan Sarı, Qoğan Aslan, Qırqqunuq, Qabangücü, Dəmirgücü, Tərsuzamış, Qılbaş, Əmən, Düyər, Əkrək, Qıyan, Uruz, Qapıqqan Basat, Burla Xatun, Qısırca Yengə, Boğazca Fatma, Selcan Xatun, Qaba Ağac, Banıçiçək...* Əgər bu qəhrəmanların adlarını onlara verilən əlavə müxtəlif sifətlər, ayamalarla birgə sadalasaq, daha zəngin və geniş bir mənzərə ilə qarşılaşmış olarıq.

Burada bir neçə söz - ad (*Qəflət* Qoca oğlı *Şirşəmsəddin*, *Rüstəm*, *Fatma* və b.) müstəsna edilərsə, qalan adlar türk mənşəlidir. Görünür, ərəb, fars mənşəli adlar dilə yenicə gəlməyə başladığından yayıla bilməmiş, yeni doğulanlara və qəhrəmanlara verilməmişdir. Mütəxəssislər də haqlı olaraq qeyd edirlər ki, "Dədə Qorqud"da islam dininin təsiri çox azdır... islam dini dərin və əsaslı kök salmamışdır" (55, s.7).

Bu hal özünü məhz adlarda daha qabarıq şəkildə göstərir. Həmin münasibətlə X-XI əsrlərin adlarını, məsələn, Mahmud Kaşğarlının və onun məşhur "Divanü-lüğat-it-türk" kitabında xatırladığı ikicə müasirinin adını yada salaq: *Məhəmməd Hüseyn oğlu Mahmud Kaşğari; Məhəmməd Çakır Tonqa xan oğlu Nizaməddin İsrafil Toğan Təkin; Arslan Təkin Qazi.* "Kitab"dakı surətlərin adları ilə müqayisədə burada güclü ikilik var; belə ki, adlar ərəb adlarıdır, ancaq təxəllüs və əsil-nəcabət türk sözləri ilə bildirilir. XII əsrdə

adlarda ərəb, fars təsiri daha güclü olmuşdur; elə bizim görkəmli sənətkarlarımızın adlarına diqqət yetirək: *Əbül Üla Gəncəvi, Əfzələddin İbrahim ibn Əli Xaqani Şirvani, İlyas ibn Yusif Nizami Gəncəvi* və b. Eyni sözü XIII əsr haqqında da demək olar; hətta bu əsrdə vəziyyət o yerə çatmışdı ki, əsrin görkəmli türkoloqu İbn Mühənna da əsl həqiqəti deyil, mövcud vəziyyətdən çıxış edərək belə bir yalnış fikir söyləmyə məcbur olmuş, "Türklər farslardan, onların (yəni farsların) öz dilinə məxsus sözləri götürür, ona görə ki, onların (yəni türklərin) öz (xüsusi) adları yoxdur və ya buna çox az təsadüf olunur" (*100,* s.43) - demişdi.

Burada haqlı sual doğa bilər ki, "Dədə Qorqud kitabı" X-XI əsrlərdən əvvəlki dövrün məhsuludursa, onda nə üçün XI əsrdə yazılmış "Divan-lüğat-it-türk" kimi mötəbər bir mənbədə bu adlar çəkilməmiş, heç olmasa, bunların bir qismi xatırlanmamışdır? Bu suala "Divan" müəllifinin öz cavabı var: "Türk dilinə sonradan gəlmiş olan sözləri yazmadım: kişi və qadın adları da yazılmadı. Bunlardan - ancaq doğru bilinməsi üçün - çox işlədilən, hər kəs tərəfindən tanınan adlar yazıldı" (I, 27-28).

Yenə sual doğa bilər ki, onda bəs nə üçün "Kitab"da adı çəkilən yerlər, dağlar, qalalar, çaylar və s. haqqında "Divan"da bir söz deyilmir, məlumat yoxdur? Bu suala da "Divan" müəllifi cavab verir: "Yazdığım dağlar, çöllər, dərələr, sular, göllər islam türklərin əllərində olanlardır. Çünki dillərdə dolaşan bunlardır. Bunların tanınmış olduqları üçün yazdım. Tanınmamış olanların bir çoxunu buraxdım" (1, 27).

Göstərilən axırıncı faktın özü belə, müəyyən mənada "Dədə Qorqud"un məkanını dəqiqləşdirməyə kömək edir; "Kitab"ın, o vaxtkı geniş türk dünyası ilə müqayisədə çox kiçik bir ərazidə - Qafqaz elində yaradıldığını bir daha təsdiq edir.

"Dədə Qorqud"un yarandığı Azərbaycan - oğuz dili türk dillərinin başqa qolları ilə müqayisədə getdikcə özünəməxsus üstünlükləri və inkişafı ilə seçilirdi. Mahmud Kaşğarlı da buna öz münasibətini bildirmişdi:

"Qırğız, Qıfçaq, Oğuz, Toxsi, Yağma, Zikin, Uqraq, Çaruq boylarının əsil türkcə olan ancaq bir dilləri vardır. Yeməglərlə başğırdların dilləri bunlara yaxındır" (1, 30).

"*Dillərin ən yenisi oğuzların, ən doğrusu toxsi ilə yağmaların dilidir* (1, 30).

"Bilmək lazımdır ki, oğuzların dili incədir" (1, 432) və s.

Bunlar təsdiq edir ki, Azərbaycan dili - yəni oğuz dili X-XI əsrlərədək xeyli işlənmiş, cilalanmış və "yeni" inkişaf yoluna düşmüşdü və türk dillərinin zərifi, "incə"si sayılırdı. Bu isə təsadüfi ola bilməzdi. Azərbaycan dilini, yəni oğuz dilini bu səviyyəyə yüksəldən "Dədə Qorqud" və bu kimi başqa, hələ naməlum "Oğuznamə"lər olmuşdur. "Dədə Qorqud kitabı"nın tədqiqatçılarından M.Erkin də yazır ki, "Yeni Dədə Qorqud boylarının ortaya çıxacağı hər zaman mümkündür" (*282*, s.33). Bu naməlum "Oğuznamə"lərə "Kitab"ın özündə çox güclü işarələr vardır. Məs. "Uruz bəgin tutsaq olduğu boy"da (122-154), habelə "Salur Qazanın evi yağmalandığı boy"da (35-66) və "Qazılıq Qoca oğlı Yeknək boyu"nda (202-213), "iyirmi dörd sancaq bəyi"nin səciyyələndiyini görürük. Bu səhnələrdə qəhrəmanlara verilən sifətlərin hərəsi bir "boy"dan xəbər verir. Qıyan Səlçük oğlı Dəli Dondarın "Dəmür qapu Dərvəndəki dəmür qapuyı qapub alması", Qara günə oğlı Qarabudağın "Mardin qələsin dəpüb alması", Qəflət qoca oğlı Şirşəmsəddinin "varıban distursuzca Bayındır xanın yağısın basması" və s. hadisələrlə əlaqədar bu keyfiyyətlərin onlara verilməsi təsadüfi deyildi; müəyyən hadisələrlə, göstərilən məşhur igidliklər və qəhrəmanlıqlarla əlaqədardı, Oğuz ərənlərindən, Qalın Oğuz bəylərindən, məşələn, "Beyrəkin boyı", "Yeknəkin boyı" və başqa boylar var; daha dürüstü, qəhrəmanların göstərdikləri igidliklərin bədii ifadəsi olan 12 "namə" - "boy" bizə məlumdur. Bəs, Qıyan Səlcük oğlu Dəli Dondarın və ya o biri Dəli Dondarın, Qaragünə oğlu Qarabudağın, Qəflət Qoca oğlu Şirşəmsəddinin, ya da "əlli yeddi qələnin kilidin açan" Elin Qoca oğlu Alp Ərənin və b.-nın

göstərdiyi igidliklərin bədii əksi, "namə"si, "boyu" hanı?! Bunlar olmamış deyil. Lakin hələlik naməlumdur. Vatikan nüsxəsindən 6, Drezden nüsxəsindən 12 boy məlum olmuşdur. Kim bilir, bəlkə başqa bir nüsxə də tapılacaq, orada isə 24 boy məlum olacaqdır...

Beləliklə, "Dədə Qorqud kitabı" VI-VII əsrlərin abidəsi, onun dili, təxminən VI-IX əsrlərin Azərbaycan dilidir. Hakimiyyətdə get-gedə ərəb, fars təsirləri gücləndikcə, "Kitab" zaman-zaman köçürüldükcə bu təsirlər onun dilinə də keçmiş, orada ərəb, fars sözləri, adları və ifadələri özünə yer tapa bilmişdir...


Tədqiqat "Dədə Qorqud"un Drezden əlyazma nüsxəsi üzərində aparılır. Həmin əlyazmanın imlasına nəzər salıb, "Kitab"ın bu əsasda tarixini araşdıraq.

2. Drezden əlyazma nüsxəsinin imlası

Elmi ədəbiyyatda belə bir fikir var ki, "Dədə Qorqud" ilk dəfə XI-XII əsrlərdə yazıya alınmışdır. Tədqiqatçılar həm Drezden, həm də Vatikan nüsxələrinin XV-XVI əsrlərdə, təxminən "XI-XII əsrlərdə qələmə alınmış" naməlum bir nüsxədən köçürüldüyünü də təxmin edirlər.

"Kitab"ın yazıldığı barədə artıq bizim fikrimiz məlumdur; yenidən məsələ üzərinə qayıtmaq niyyətində deyilik.

Aydındır ki, hər dəfə köçürüldükcə dövr, zaman, dil xüsusiyyətlərilə birlikdə dastanlara öz möhrünü də basmışdı. Belə olan surətdə əvvəlki bölmədə qoyulan suallar burada yenidən ortaya çıxır. Biz, hələ bundan bir neçə il qabaq - 70-ci illərdə tədqiqatçı-oxucuları bu suallarla müraciət etmişdik: "Əgər "Dədə Qorqud" dastanları VII əsrin məhsuludursa, dastanların dili hansı əsrin dilidir"; "Dədə Qorqud" dastanlarının mövcud nüsxələrinin dili VI-VII əsrlərinmi, X-XI əsrlərinmi, yoxsa XV-XVI əsrlərinmi dilidir?" Bu suallara Drezden əlyazma nüsxəsinin imlası üzərində aparılan müşahidələr əsasında gəldiyimiz nəticələrlə cavab verməyə çalışacağıq.



"Kitabi-Dədə Qorqud"un Drezden əlyazma nüsxəsinin başlanğıc səhifəsi.

"Dədə Qorqud"un Drezden əlyazma nüsxəsi ərəb əlifbasının "nəsx" xətti ilədir. Təkcə bu nüsxə özü - onun zəngin və çoxcəhətli imla xüsusiyyətləri kitabənin böyüklüyünün, tarixiliyinin və qədimliyinin təsdiqi üçün kifayət edir. Drezden əlyazma nüsxəsində müəyyən dərəcədə X-XI, habelə XV-XVI əsrlərin imla və üslub xüsusiyyətləri əks olunsa da, daha qədim V-VII əsrlər oğuz - Azərbaycan dilinin əsası, onun bir çox özünəməxsus incəlikləri, sözlərin, ifadələrin canlı tələffüzü və imlasındakı sabitlik və s. mühafizə olunmuşdur.

Kitabın yazıldığı əlifbaya diqqət yetirək.

1) Əlifba. "Dədə Qorqud"un Drezden nüsxəsi çox səbatlı bir ziyalının əlilə köçürülmüşdür. Görünür, o, ana dilinin həm canlı xüsusiyyətlərinə və poetik məziyyətlərinə, həm də tarixinə və sözlərin imlasındakı ənənəvi qaydalara yaxşı bələdmiş.

"Orxon-Yenisey" kitabələri ilə "Dədə Qorqud"un yazıldığı əlifbaların və müasir əlifbamızın qarşılıqlı sxeminə baxaq:

"Orxon-Yenisey" əlifbası	Dədə Qorqudun köçürüldüyü əlifba	Müasir Azərbaycan əlifbası	
𐰀 𐰇 𐰋	ا آ إ	a, ə	a, ə
𐰉 𐰊 𐰍	ب	б	b
𐰏 (𐰴)	ع	г	ğ
𐰔 𐰕	د	д	d
𐰃 (𐰤)	ى ا ـ	ы, и	ı, i
𐰆 𐰚 𐰖	ض ز ظ	з	z

𐰃 𐰉	ى	j	y
𐰇 𐰚 𐰴	ڭ ك	к, к	g, k
𐰀	ڭ ك	к	g
𐰋	ق	г	q
𐰆 𐰴	ق	қ	ķ
𐰼 𐰍	ل	л	l
𐰣 𐰸	م	м	m
𐰠 𐰋	ن	н	n
𐰽	ڭ نك	ң	ŋ
𐰆 𐰍	او و	у, о	u, o
𐰾 𐰾	اۆ ۆ	ү, ө	ü, ö
𐰉	پ	п	p
𐰺 𐰾	ر	р	r
𐰠 𐰽	ص س	с	s
𐰓 𐰔 𐰴	ط ت	т	t
𐰚 𐰾	چ ج	ч, ч	c, ç
𐰠 𐰽 𐰾	ش	ш	ş
—	خ	х	x
—	و	в	v
—	ف	ф	f
—	ه	h	h
—	ذ	дh	dh
—	ژ	ж	j
𐰭	—	ӈ	ñ

Göründüyü kimi, "Orxon-Yenisey" əlifbasından fərqli olaraq, "Dədə Qorqud"da altı əlavə işarə var: ژ ذ ف و ه ż (x, h, v, f, dh, j).

Onları nəzərdən keçirək:

ż (x) samitinin vəziyyəti. "Orxon-Yenisey" kitabələrində *q* və kar k samitlərilə yazılan sözlər "Dədə Qorqud"da iki və bəzən də üç vəziyyətdə özünü göstərir: müasir dilimizdəki "x" samitli sözlər həm *q*, həm də *x*, bəzən də *ğ* samitlərilə verilir; indiki "x" samitli söz və şəkilçilərin "Dədə Qorqud"dakı imlası təsadüfi sayıla bilməzdi, öz V-VII əsrlərdəki əslini saxlaması, dilin ümumi mühafizəkarlığı, yəni müqavimət qüvvəsilə əlaqədardı. Deməli, "x"

səsi sonralar törəmiş səsdir; *q, k, ğ* səslərinin şaxələnməsi və inkişafının nəticəsidir. "Dədə Qorqud" yaranıb dildə-ağızda söyləndikcə, habelə zaman-zaman köçürüldükcə *q, k, ğ* səslərindən "x" səsi də ayrılmışdır. Şəksiz, bu prosesə sonralar "Orxon-Yenisey" yazısını əvəz etmiş ərəb əlifbası, əlifbadakı "ç" samiti, dilə keçən "x" samitli ərəb-fars sözləri də təsir göstərmişdi. Lakin dilin öz daxilində, onun səs sistemində *q, k, ğ*-dən "x"-yə keçmə, yönəlmə meyli güclü olmasaydı, xarici amil o qədər rol oynaya bilməzdi. Bu fikri *q, k, ğ* səsli sözlərin həm əslində olduğu kimi, həm də yeni şəkildə "x" samitilə ikili imlası da təsdiq etməkdədir.









Orxon-Yenisey kitabələri qəbir daşları və sal qayalar üzərinə həkk olunmuş xatirə qeydləri, hərbi yürüş və qəhrəmanlıqlar haqqında bir növ məlumat yazılarıdır. Bu mənada onu "Dədə Qorqud" kimi zəngin və çoxcəhətli bədii əsərlə, onun dili ilə müqayisə edib dəqiq nəticələr söyləmək çətindir. Bir cəhəti də nəzərə alaq ki, bu kitabələr ərazicə bir-birindən çox uzaq məsafələrdə yaranmışdır, həm də bizə gəlib çatan "Dədə Qorqud" yarandıqdan sonra üzü təkrar-təkrar köçürülmüşdü. Bununla belə, təkcə bu kitabələrin imlasında bir-birini təsdiq edən sabitlik müşahidə olunmaqdadır.

"Dədə Qorqud"dakı müasir "x" samitli sözlərin böyük əksəriyyəti məhz öz V-VII əsrlər imlasını mühafizə edib saxlamış, "q" samiti ilə yazılmışdır.


Bəzi müqayisələr verək.

"Orxon-Yenisey"də:

Fel və fel tipli sözlər: yok  (Or.7); *yok bultıkda // boltıkda* (Or.7); *yok bultı // boltı* (Or.31); *yok bulmış // bolmış* (Or.14); *yok qıltım* - (Or.14), *yok qılmadım* (Or.31), *yokqışdım* (yok etdim, qırdım) - (Or.12), *yolıqayın* (yoluxaq, görüşək) - (Yn.25), *toqıdım* - (Or.32) *taş toqıtdım // taş tokıtdım*

 // (Kt.20) // *tokıdtım* -  (Or.8), *tokıdı* (toxundu, vurdu) -  (Gt.26) *tok* (tox) -  (Kt.20), *tok ərti* (tox elədi, doydurdu) -  (Tk.57), *toqtamış* -  (Or.11), "Sebini toqtamış gözi yükərü körti" - Sevinib toxtadı, gözü yuxarı baxdı, yuxarını gördü (Or.11-12), *korq // kork* (qorx, qorxmaq) -  ,  (Or.7, Tk. 59), *korqmadımız* (qorxmadıq) -  (Tk.59), *korqur biz* (biz qorxuruq) -  (Tk.59)...

"Dədə Qorqud"da:

Fellər və ya fel tipli sözlər. Müasir dilimizdə imlası "x" ilə qətiləşən fel və fel tipli sözlər "Orxon-Yenisey"də, bir qayda olaraq  samitləri ilə yazılırdısa, "Dədə Qorqud"da da əsasən həmin samitləri əvəz etmiş olan ق - ilə yazılır: *yoq* - يوق (10), *yoqdır* - يوقدر (160), *yoqmıdır* يوقمیدر (48), *yoqdan var* - يوقدن وار (251), *aqar* - اقر (27), *aqan* - اقان (25), *aqub gedən* - اقوب كيدن (147), *acıqır* - آجقر (50), *baqdı* - باقدی (16, *baqa qaldı* - بقا قالدی (73), *baq-baq* - باق باق (156), *baqar* - باقر (56), *baqardı* - باقردی (15), *baqsam* - باقسم (63), *baqam* - بقام (261), *baqsun* - باقسون (22), *baqsa* - بقسه (26), *baqğıl* - بقغل (261), *baqışurlar* - باقشورلر (270), *bıraqdı* - برقدی (93), *qalq* - قالق (113), *qalqa oynaya* - قالقه اوينايه (112), *qalqubanı* - قالقوبنی (12), *qonar-qalqar* - قونار قالقار (26), *qorqu* - قورقو (248), *qorqdı* - قورقدی (42), *qorqudan* - قورقودن (46), *qorquduban* - قورقدوبن (46), *qorqusından* - قورقوصندن (57), *yaqdı* - ياقدی (42), *yaqmaz* - ياقمز (91); *oda yaqar* - اوده يقر (181), *yıqam* - يقام (176), *yıqdı* - يقدی

(23), *yıqıldı* - يقلدي (17), *yıqılmışdı* - يقلمشدي (26), *yıqılacaq* - يقلاجق (9), *oqur* - اوقور (279), *oqıdı* - اوقدي (84), *oqınsa* - اوقنسه (6), *oqıyanda* - اوقيايده (6), *oqıtdılar* - اوقيتدلر (212), *saqlardı* - صاقلردي (93), *soqdı* - صوقدي (225), *soqmadın* - صوقمادين (24), *sıqdı* - صقدي (29), *sıqarlar* - صقرلر (160), *taq* - طاق (228), *taqdı* - طاقدي (234), *taqdılar* - طقدلر (30), *taqalım* - طقالم (29), *taqındım* - طقندم (228), *toqındı* - طوقندي (23), *tıqadı* - طقدي (265), *çaqdı* - چقدي (23), *çaqub* - چقوب (42), *çıqdı* - چقدي (18), *enər-çıqar* - اينر چقر (26), *çıqa gəldi* - چيقه كلدي (19), *çıqardı* - چقردي (260), *çıqalım* - چقالم (78), *çıqdılar* - چقديلر (79), *çıqayın* - چقاين (88), *çıqarmış* - چقرمش (97), *çıqsun* - چقسون (183), *çıqınca* - چقنجه (30), *çıqamaz* - چقامز (175)...

Bununla belə, həmin sözlərin ikili - həm ق, həm də خ ilə imlası da müşahidə olunur: yoq يوق (59) // yox - يوخ (242), yoqdır - يوقدر (28), yoxsa - يوخسه (27), qorqu - قورقو (248) // qorxu - قورخو (41), qorxmağıl - قورخمه غل (28); oqıdı - اوقدي (84) // oxıdı - اوخدي (283), oxıyalım - اوخيالم (28), yıqıldı - يقلدي (17) // yıxıldı - يخلدي (133), çıqardı - چقردي (260) // çıxardi - چخردي (261); toqındı - طوقندي (254) // toxınsa - طوخنسه (242)...

Bəzən də "ق" və "خ" samitlər yerində "غ" samiti işləndiyi müşahidə olunur: yoq // yox // yoğ - يوغ (225); yoqdır // yoğdı - يوغدي (254), yoğkən - يوغكن (30), yoğ imiş - يوغيمش (230)...

"Orxon-Yenisey"də:

İsim, say və b. sözlər. arqada (arxada) - 𐰇𐰾𐰃𐰍𐰇 (Tk.56), qadın - 𐰆𐰾𐰃: uyar qadınım (şöhrətli atam arvadı) - 𐰋𐰆𐰾𐰃 𐰍𐰆𐰺 (Yn.39), qatun - 𐰆𐰺𐰆𐰃 (Or.34) // 𐰆𐰺𐰆𐰃 (Yn.34) - ögim qatun (anam xatun) - 𐰆𐰺𐰆𐰃 𐰋𐰏𐰃 (kt.24), qağan - 𐰆𐰴𐰃 (kt.21), qan (xan) 𐰆𐰃: Ol qan yok bultıkda - 𐰇𐰾𐰉𐰆𐰇𐰉𐰺 𐰉𐰺𐰆 𐰆𐰃 𐰇𐰺 (Or.7), qanım (xanım) - 𐰋𐰆𐰃 (Yn.26), yılqı - 𐰃𐰃𐰇𐰃𐰆 (Yn. 30) // 𐰃𐰃𐰇𐰏 (Yn.49), yılqım - 𐰋𐰃𐰇𐰆 (Yn.83), ok - 𐰉 (Kt.25): On ok bəgləri - 𐰃𐰍𐰍𐰏𐰋 𐰉 𐰆𐰺 (Tk.59), qırk - 𐰴𐰃𐰃𐰃 (Yn.81) // qırq - 𐰃𐰃𐰃𐰃 (Yn.80)...

"Dədə Qorqud"da:

İsim, sifət, say və b. sözlər. Bu sözlərin yazılışında da fellərdəki vəziyyət özünü göstərir: aqça - اقچه (93), altun-aqca - التون اقچه (48), aqındılı - اقین دلی (147), arqasına - ارقاسنه (50), qadın: qadın ana - قادین انا (54), qaqınc - قاقنج (50), qalqan - قلقان (176), qalqanın - قلقانی (250), qırq - قرق (25), qırqınuza - قرقکوزه (178), yılqıcı - ایلقچی (263), yaqa - یاقه (94), yaqa tutıban - یقا طوتبن (212), yaqanla - یقاکله (53), yaqın - یقین (101), yaqınından - یقیندن (200), yıqıcı - یقیجی (61), yuqarıdan - یوقاریدن (178), oq - اوق (22), oqı - اوقی (247), oqın - اوقین (79), oqla - اوقله (22), oqlar - اوقلر (63), oqcısı - اوقجسی (130)... salqum - سلقوم (160), toqlı - توقلی (48), toqsan - طقسان (36), çuqa - چوقه (65), çoq - چوق (116) çoqdır - چوقدر (191), çoqmı? - چوقمی (73), comaq - چمق (42); çaqmaqlu - چقمقلو (47)...

Bununla belə, bu sözlərin ikili - həm "ق", həm də "خ" ilə imlası da müşahidə olunur: adaqlu // adaxlusın - ادخلوسن (100), arqasına // arxası - ارخاسی (75), arxacıqın - ارخاجغك (99) qadun // xatun - خاتون (30), qadun ana // xatun ana - خاتون انا (259), qaqınc // qaxınc - قاخنج (79), oq // ox - اوخ (242), oqı // oxı - اوخی (89), oqın // oxın - اوخن (198), oqla // oxla -- (230), oqlar // oxlar - اوخلر (249), oxa - اوخه (41), oxım - اوخم (261)... çuqa // çuxa - چوخه (121)...

Bəzən də "ق" samiti yerində غ samiti işləndiyi müşahidə olunur: çoq // çoğ - چوغ (73)...

Buraya "خ" səsli ərəb-fars sözlərini də əlavə edək: axı, axı(r) - اخر، اخی (27, 117), baxt, bəxt - بخت (136), zəxm - زخم (210), məxmuri - مخموری (60), müxənnət - موغنّت (278), meyxanə - میخانه (255), pütxanə - پتخانه (251), sərxoşdır - سرخوشدر (26), səxt - سخت (89), taxt, təxt - تخت (18), cəbbəxana - جبخانه (183)... Bu gəlmə-alınma sözlər içərisində "x" səsilə başlanan sözlər də vardır: xas / bəglər / - خاص (110), xəbər - خبر (19), xəzinə - خزینه (25), xəmir - خمر (122), xərac - خراج (235), xoş - خوش (18), xub - خوب (133), xud, xod - خود (169), xurd, xord - خرد (185) xurd-xaş - خردخاش (186), xəncər - خنجر (226)... həmçinin "x" fonemli gəlmə-alınma sözlər, təbii olaraq, dilin qayda-qanunlarına tabe olur, onun tam idarəsinə keçirdi:

a) dilin şəkli xüsusiyyətlərini qəbul edir, dəyişilirdi: başım baxt+ı - بشم بختی (24), evim taxt+ı - اوم تختی (24); sərxoş+dır - سرخوشدر (26); xüsusu+n+dan - خصوصدن (73), xəbər+ləş+əyim - خبرلشیم (242), xoş+mı+sız - خوشمیز (271)...

b) canlı tələffüzə uyğunlaşırdı: xatır+la+rı - خاطرلري (235), müxənnət+lığ+ilə - معرفت لغيله (302), xarc+lıq (xərclıq) - خرجلق (57)...

c) yerli sözlərlə calaqlanırdı: qulım - xəlayığım - خلا يغم قولم (118), axır-son: axır sonı - اخرصوكي (66), axır-sonı, ucı - اخرصوك اوجي (65), yaxşı-xub - يخشى خوب (155), salaxana - صلا خانه (234)...

Bununla da "x" samiti dilimizin səs sisteminə daxil olur, eyni zamanda dilin öz daxili imkanları hesabına yeni "x" səsli sözlər yaranırdı: qoxu: qoxusın - قوخوسن (246), doxar: doxarlıyı - دوخرليي (109), dəxi, daxı - دخي دانمي (15, 156), yaxşı - يخشى (73), yazıx - يازخ (56), yəxni - يخنى (208), oxşa: oxşarsan - اوخشارسن (75), uyxu - ايخو (191), xorla: xorlıyan - خورليين (62); xırlat: xırlatğıl - خرلتغل (157), xırılda: xırıldadıb - خرلدب (163)...

"Dədə Qorqud"dakı yeni və ya eyni tip sözlərin iki və üç şəkildə imlası diqqəti müəyyən nöqtələrə, müəyyən mətləblərə doğru yönəldir. "Orxon-Yenisey" kitabələrindəki sözlərin imlası ilə müqayisədə nəzərə çarpan fərqlər təbiidir.

Müasir dilimizdəki *xan, ox* sözləri, bir qayda olaraq, "Orxon-Yenisey"də 𐰖𐰍 qan (Or.7), 𐰴 - ok (okun urtı - 𐰴𐰆𐰑𐰃 𐰖𐰴 - Kt.25, On ok oğlım - 𐰋𐰃𐰑𐰃:𐰴 𐰖𐰃 Kt.27) şəklində yazılır. Bu sözlər "Dədə Qorqud"da çox işlənir və *xan* sözü hər vəziyyətdə "خ" hərfilə, "ox" sözü isə həm "خ", həm də "ق" hərfilə yazılır. Lakin bir neçə adın tərkibində sabit qalır və dəyişmir. Qamğ*an* oğlı xan Bayındır (قامغان اوغلى خان بايندر), Qanturalı (قان طورالى), *Qan* Abqaza eli (قان ابقازه ايلى), üç ok (اوچ اوق), Boz ok (بوز اوق) sözlərinin yazılışı diqqəti cəlb edir. Görünür, bu adların deyilişi və yazılışında ənənəvi qayda gözlənilmiş və həmişə əslində olduğu kimi işlənil-

mişdir. Artıq dildə (biz "Kitab"ın ilk yazıya alındığı və sonrakı əsrləri nəzərdə tuturuq) "x" səsi yaransa da, başqa hallarda *qan // kan // ğan, ok // oq* sözləri *xan, ox* şəklində işlənsə və ya ikili şəklə düşsə də, ölkənin hökmdarının əsli-nəcabəti, qədim Oğuz tayfa birlikləri və qonşu ölkənin adında eynilə qalmışdı. Qanlı Qoca oğlı Qanturalı birləşməsində də *Qan*turalı - *Xan*turalıdır. Boyun özü də hadisə söyləndiyi vaxtdan əvvəlki dövrlərə müraciətlə başlanır ("Oğuz zamanında Qanlı Qoca derlərdi bir korbız ər vardı. Yetişmiş bir cilasun oğlı vardı. Adına Qanturalı derlərdi" - 170); o zamanlar isə *xan* sözü *qan* şəklində işlənərdi, ad da Qanturalı idi, yazıya alındıqda belə, hər yerdə qan sözü xan şəklində işlənsə də, bu söz qəhrəmanın adında dəyişməmişdir. *Qan Abqaza eli* toponimində də *Qan* sözü *xan* sözüdür, *qan* şəklində saxlanmışdır. V.V.Bartold mətndə bu sözü "krovojadnıy" (qanlı, qana həris) tərcümə etmişsə də, sonda bunu *qan - qağan Abqaza* qeydi ilə düzəltmişdir (115, s.269).

Ərəb əlifbasında qədim türk əlifbasının 𐰴,𐰺,𐰀 (q. ķ, k) samitlərini bircə ق (q) fonemi ifadə etmişdir; bu isə bir çox sözlərin təhrifinə, əslindəkindən xeyli fərqli yazılışına səbəb olurdu. Məs., *yoq, baq, qorq, yaq, yıq, sıq, taq, çıq,..* və ya *oq, yaqa, qırq, yığıcı, çoq, çaq* və b.k. sözlər "ق" ilə yazıldığı üçün biz də "q" səsilə verdik. Halbuki, bu "ق"-lar əslində kar ķ fonemidir ki, dilimizin qədim dövr səs sistemində çox güclü olmuşdur; get-gedə isə "x"-laşmış və sıradan çıxmışdır. Biz P.M.Melioranskinin bu barədəki fikrini yenə təkrar etməyi lazım bilirik. O, hələ keçən əsrin sonlarında deyirdi: "hər halda, artıq indi ümumi hal alıb ki, ərəb əlifbası türkdilli səslərini əks etdirmək üçün çox az yararlıdır və bu vəziyyət həmişə belə olmuş və bizə gəlib çatan türk dili kitabələrinin, xüsusən fonetik və etimoloji cəhətdən tədqiqi üçün həmişə böyük əngəl olacaqdır (*100,* s.II-III). Dastanların kağızdan-kağıza köçürülməsi, onun səs sisteminə bir o qədər təsir göstərə bilməmişdi, yad təsirlər, hətta ərəb əlifbası sözlərin sabitliyini poza, dilin ruhuna hakim

kəsilə bilməmişdi. Lakin, təbii olaraq, dilin öz potensialı, daxili imkanları hesabına dəyişmə, inkişaf gedirdi, "x"-laşma və ya "b"-laşma prosesi başlanmışdı...

"و" (v) samitinin vəziyyəti. "Orxon-Yenisey" kitabələrində *v* samitinin vəzifəsini *b* görür; yəni bir sıra müasir *v* səsli sözlər "Orxon-Yenisey"də *b* ilə "Dədə Qorqud"da *v* ilə yazılır.

"Orxon-Yenisey"də:

Ab (ov) 𐰃𐰆 (Or.26), abda 𐰉𐰆𐰃𐰆 (yn.75), bar 𐰉𐰆 (Yn.41), bardım - 𐰆𐰆𐰉𐰆 (Or.34), bardı - 𐰋𐰆𐰉𐰆 (Kt.25), barın - 𐰋𐰉𐰆 (Tk.59), barıp - 𐰋𐰉𐰆 (Kt.20), barımım - 𐰆𐰆𐰉𐰆 (Yn.25), bardık - 𐰃𐰆𐰉𐰆 (Kt.23), barır - 𐰉𐰋𐰉𐰆 (Kt.22), // barur - 𐰉𐰃𐰉𐰆 (Kt.25), barmadı - 𐰋𐰆𐰆𐰉𐰆 (Kt.26), bardınız - 𐰇𐰉𐰋𐰆𐰉𐰆 (Or.8), bertim - 𐰆𐰇𐰍𐰆 (Or.14), berti - 𐰋𐰇𐰍𐰆 (Or.8), bertin - 𐰉𐰇𐰍𐰆 (Or.7), bermis - 𐰋𐰆𐰍𐰆 (Or.7), qabışı(m) - 𐰋𐰍𐰃𐰆 (Or.34), qabışalım - 𐰆𐰃𐰍𐰃𐰆 (Or.32) // qabısalım - 𐰆𐰃𐰋𐰃𐰆 (Tk.58), qabısır - 𐰉𐰍𐰃𐰆 (Tk.57), eb:ebdə - 𐰀𐰇𐰆 (Or.13), ebin - 𐰆𐰋𐰆 (Kt.25), ebinə - 𐰀𐰉𐰆 (Or.15), ebimə - 𐰀𐰆𐰆 (Or.33), ebimin - 𐰆𐰆𐰆 (Or.33), ebimiz - 𐰇𐰋𐰆𐰆 (Yn.14), eblədim - 𐰆𐰇 𐰍𐰆 (Yn.84), sebinip - 𐰴𐰆 𐰆 (Or.15)...

"Dədə Qorqud"da:

Av: av avladı - آو آولدي (20), ava: ava çıqdı - آوه چقدي (37), avdadır - آوه در (26), var - وار (160), vardum - واردوم (207), vardı (var idi) - واردي (15), vardı (getdi, çatdı) - واردي (87), varın - وارك (19), vardın - واردك (24), vararam - وارزم (225) varıb - واروب (30), varma - وارمه (225), vargıl - وارغل (244), varmış - وارمشی (258), verdim - ويردم (252), verdi - ويردي (38), verin - ويرك (216), vergil - ويركل (258), ev - او, evə

- اوه, evdə - اوده, evin - اوك (7), evimə - اومه (9), evinə - اونه (12), evün - ايوك (49), evini - اوكي (49), evərəyim - ايوارەيم (170), sevinsəm - سوسم (68), sevindi - سوندی (73)...

"Orxon-Yenisey"də *b* ilə yazılan sözlərin "Dədə Qorqud"da *v*-ləşməsi, deyək ki, *b*-nin tərkibindən yeni bir səsin törəməsi, bizcə, X əsrdən sonrakı dövrlərə, yəni əsərin üzünün köçürüldüyü sonrakı vaxtlara aid edilə bilər. "Dədə Qorqud"un yazıldığı VI-VII əsrlərdə bu sözlərin *b* səsilə səsləndiyinə şübhə etmirik; bir sıra - müasir dilimizdə imlası "v" səsilə müəyyənləşmiş digər sözlərdə "v" səsinin olmaması və nitqdə - danışıqda bu ehtiyacı ödəmək üçün müvafiq sait səsin davamlı tələffüzü də bu fikrin lehinədir.

"Dədə Qorqud"dakı bir qrup sözlərin imlasına ayrıca diqqət edək:

قوا قوا (76), قوا (كتدي), قاوشوب (258), قاورمه (قره) (53), قوارلر (273), قولايب (47), غوغا (156), قوار (119), دولبي (236), قومني (236), قرا ول (اغورك) (36), دولتم (227), كوده (آل) (253); دواخلو (260), ياوقلسي (داردي) (205), دولتلو نوبت (273), كيدرسه وز (273), قريلا وز (88), كوده سي (216), صورشدنم (95), سوغات (198), صورت (180), اوصل (220), تولا تولا (164), سوكلو (136), سودوكم (199), صورشمشلر (204), چاوشلي (85), توبه (261), تاولا (255), طاوشن (205), جلا وسز (240), چوكنجه (41), چوره (216), چوره الوب (208), چوردو (224), چورلدي (222). Mötəbər tədqiqatçılar belə öz tərtiblərində bu sözləri müasir imlaya uyğunlaşdıraraq *v* kimi oxumuşlar. Halbuki buna əsas yoxdu; buradakı ərəb-fars mənşəli söz-

lərdə də əslində *v* səsi olmamışdır: دولت (dolət), نوبت (nobət), عورت (orət), سوقات (soqat), توبه (tobe), جلو (celo).. Tarixi ənənəni saxlayıb, həmin sözləri "v"-sız oxumaq və yazmaq lazım idi. Buna isə elmi əsaslar vardır: 1) Qədim türk dillərində "v" səsi olmamış və bu səsi ya "b" əvəz etmiş, ya da söz "v"-sız, müvafiq saitin davamlı tələffüzü ilə ifadə olunmuşdur: 𐰴𐰣𐰺 qodı (Or.13), - 𐰴𐰣𐰼 (qodı) (Or.31) - qovdı...

2) Bu sözlərin "v"-sız tələffüzü müasir danışıq dilimizdə və şivələrdə hələ də mühafizə olunub qalır. Buna görə, əslində həmin sözlərin imlası belədir: (qara) *qaurma, qauşub, qoa* (getdi), *qoaqoa, qoar, qolayıb, qoarlar, ğoğa, qaraul, qomını,* (oğuzın) *döləti, dölətim, dölətlü, yauqlısı* (vardı), (al) *duaxlu, gödə, gödəsi, qırılauz, gedirsəüz, nöbət, ösəl // osəl, örət // orət, soğat, sorışdığım, sorışmışlar, södügim, sögülü, tola-tola, tauşan, taula, töbə, çauşlı, cilausın, çokanımca, çörə, çörə alub, çördim, çörüldi...* "Orxon-Yenisey"də də, "Dədə Qorqud"da da "qodı", "qodım", "qomadı",.. kimi sözlər həm "qoydı", "qoydım", qoymadı,.. həm də "qovdı, "qovdım", "qovmadı" mənalarına gəlir. Drezden nüsxəsində bunu fərqləndirmək üçün bir-iki sözdə "v" səsinin zəmmə ilə və bütöv şəkildə əlavə olunduğu müşahidə edilir: صرناچی لری قوُدی (122), چی لری قوُدی بتاره (112), قچانں قووسدی (194)... Biz bunu həmin eyni şəkildə yazılan sözləri ayırmaq üçün XV və ya XVI əsr katibinin əlavəsi hesab edirik.



Bununla belə, artıq dilin səs sisteminə *v* səsi daxil olur, get-gedə müstəqil fonem kimi mövqe qazanırdı; dildə, hansı əsrlərin məhsulu olduğunu dəqiq müəyyən edə bilmədiyimiz özünəməxsus "v" səsli sözlər yaranırdı: (qalqanın) avatdı - اواتدی (قلقانں) (250), qavat - قاوات (76), qavşurdı ("Qapurğasın qarnına qavşurdı") -

قاوشوردی (276), qarvar ("Qara dəvə ənsəmdən qarvar gördüm") - قرور (43), qarvaşdılar ("haman Beyrək atdan endi. Qarvaşdılar") - قاروشدلر (79) // قروا شدلر (184), qarvadı ("Atasın at üzərindən qarvadı") - قروادی (242), qaravaş ("Qul, qaravaşmı dilərsən?) - قراوش (111), qıvradı ("Qıvradı, qızın bağdamasın aldı, əmcəgindən tutdı") - قورادی (79), dəvə - دوه (10), əvrən ("Ərənlər əvrəni Qaracuq Çoban") - اورپا (41), yavrım - یاورپم (24), yalvar, yalvarırsan ("Mana niyə yalvarırsan? Allah taalaya yalvar") - یالوار، یالوارسی (160), savaş - صواشش (34), savaşayın ("Dönə-dönə savaşayin") - صواشه یرم (130), savıldı ("Yolundan savıldı") - صاولدی (17), savrılardı - صاورلردی (57), şalvar ("Şalvar, cübbə, çuqa verdi") - شلوار (65)... həmçinin dilə "v" səsli ərəb-fars sözləri daxil olurdu: avaz - اواز (51), vaqiə - واقعه (42), vallah - والله (189), vasil - واصل (299), vədə - وعده (94), vəsiyyət - وصیّت (301), qüvvət - قوت (223), dərviş - درویش (89), divan - دیوان (146), əvvəl ("Qızların yolı əvvəldir. Əvvəl sən at!") - اوّل (199), zaval // zəval - زوال (113), bizəval - بیزوال. (209), karvan - کروان (34), salavat - صلوات (63), seyvan - صیوان (202), sərvər - سروور (177), cavab // cəvab - جواب (25), canəvər - جانور (173), şivən - شیون (155)...

Təxmin edirik, qəti demir, məhz təxmin edirik ki, dilimizdə "v" fonemi və "v" səsli sözlər VIII-IX əsrlərdən sonra formalaşmış, ya "b"-dən "v" ayrılmış, bununla da dilin öz daxili ehtiyatı hesabına yeni "v" səsli sözlər törəmiş, ya da ərəb-fars dillərindən "v" samitli sözlər alınmışdır.

"H" samitinin vəziyyəti. Müasir dilimizdəki bir sıra "h" samitli sözlər "Orxon-Yenisey"də də, "Dədə Qorqud"da da "q" samiti ilə yazılır.

"Orxon-Yenisey"də:

Qanı ("qağanım qanı?) -  (Kq.22), qamuğ -  (Kt.21) // qamuk -  (Or.8), qamuğı -  (Kt.23),..

"Dədə Qorqud"da:

Qanı ("Qanı dedigim bəg ərənlər?) - قنی (303), qaçan - قچرم (45), qanda ("Qanda getdiŋ?") - قندە (92), qandan ("Gəlişiŋ qandan?") - قندن (78), qançaru ("Oğlan qançaru getdi ola?") - قنجرو (134), qanğınuzdır ("Qazan bəkün xatunı qanqınuzdır?") - قنقکوزدر (51)...

Lakin "Dədə Qorqud"da xeyli "h" səsli söz var; ana dilimizin öz sözlərində, demək olar ki, bu səs yoxdur və ya özünü çox zəif göstərir; "h" səsli sözlər əsasən əcnəbi - ərəb-fars dillərindən alınma, gəlmə sözlərdir: allah - الله (51), allahtaala - الله تعالی (10), bargah - بارگاه (271), bahadır - بهادر (253), behişt - بهشت (304), vallah - والله (73), vallah-billah - والله بالله (285), qəhər - قهر (49), qəhhar - قهار (210), dərgahdan - درگاهدن (210), əjdərha - اژدرها (173) // əjdaha - اژدها (206), gah - گاه (195), günah - گناه (28), gülah - گلاه (61), köhnə - کهنه (195), məlhəm - ملهم (27), // mərhəm - مرهم (28), məhbub - محبوب (172), məsləhətdir - مصلحتدر (37), möhür - مهر (229), möhkəm - محکم (50), nigah - نگاه (62), pəhləvan - پهلوان (79), təhsin

- تحیین (17), sabah // səbah - صباح (21), səhabə - صحابه (62), sərhəd - سرحد (125), söhbət - صحبت (20), haqq - حق (35), hazır - حاضر (26), hamilə - حامله (15), haman - همان (79), halal - حلال (145), haramzada - حرامزاده (247), həlak - حلاك (16), həmlə - حمله (16), həvalə - حواله (64), həsəd - حَسَد (18), hindu - هندو (56), heybətlü - هیبتلو (157), hekayət - حکایت (208), hümmət - همت (236), cahillər - جاهللر (168), şah - شاه (167), şahbaz - شهباز (38), şəhid - شهید (41)... Bu sözlər sırasında dini adlar da vardır: Nuh - نوح (9), Məhəmməd - محمّد (147), Həsən - حسن, Hüseyn - حسین (55), Şahmərdan Əli - شاه مردان علی (55). Ancaq bir neçə ah - اه (67), həb - هب (76), hay - هاي (266), hayqırdı - هيقيرد ي (227), hey-hey! - هي هي (77), həpümiz - هپومز (74), holi - هولي (255) və b.k. sözün dilin öz daxilində yarandığını düşünmək olar. Axırıncı boyda "hamın" ("hamın İç Oğuz yağmaladı") - همين (291) sözü işlənir. Bu söz, görünür, "qamuğ", "qamusı sözlərinin, artıq çevrilmiş, yəni "q"-nın "h"-laşmış şəklidir. Fars dilindən alınmış "hənа" - حنا sözü üç-dörd yerdə qına, qınalı - قنا ، قنالی ("Qızıl qına ağ əlinə yaqmaz oldı" - 91, "Əlləri biləgindən qınalı..." - 123, "Əlcügəzi qınalı qızcığazları çoq yemişəm" - 233, "...qınalı keyik üzərinə yürüş olsa" - 237) şəklində yazılır. Bu isə əcnəbi sözə, səsə qarşı dilin sabitliyi, müqavimət keyfiyyətilə əlaqədardı; indi isə söz nə əslini, nə də dilimizdəki qədim şəklini mühafizə edə bilmiş, üçüncü şəklə düşmüşdür: *xına.*

Beləliklə, qədim dövr dilimizdə "h" fonemi yox idi; bu samit özünü "Dədə Qorqud"da da - ana dilinin öz sözlərində zəif göstərirdi, amma hər halda törəmişdi, dilin səs sisteminə daxil olmuşdu.

"F" samitinin vəziyyəti. "Orxon-Yenisey"də "f" samitindən heç bir əsər-əlamət görünmür. "Dədə Qorqud"da ana dilinə məxsus bir-iki söz var, onun da ikisi təqlidi sözdür, yəni səs təqlidi ilə yaranmışdır: vaf-vaf - واق واق ("Qaranqu axşam olanda vaf-vaf ürən!") - 46, fısıl-fısıl - فصل فصل ("Söyləşdilər fısıl-fısıl") - 52. "Qaftan" - قفتان (89), "ufanmasun" - اوفا نمسون (35) sözləri də yerli türk-oğuz sözü ola bilər. Qalan "f" səsli sözlər alınma-gəlmədir: bitəkəllif - بی تکلّف. (63), ğafillə - غافلله (70), ğafillücə - غافللوجه (206), kafir - کافر (44), kəfənim - کفنم (167), müshəf - مصحف (295), səfan - صفاك ("Dölün almaqdan səfan varsa") - 59, təfərrüc - تفرّج (15), fani - فانی (34), felin - فعلم ("Kafirlərin felin tuydım") - 52, fikir - فکر (16), fürsət - فرصت (75), heyf - حیف (51), şəfqət - شفقت (290)...

Alınma-gəlmə sözlər sırasında dini səciyyəli şəxs adları da var: Zülfiqar - ذوالفقار (55), Məhəmməd Mustafa - محمّد مصطفی (66), Osman Üffan - عثمان عفّان (6), Fatimə // Fatma - فاطمه (45).

Beləliklə, "Dədə Qorqud"un yazıldığı əlifbada "f" samiti də vardı, amma çox zəif idi, bu samit demək olar ki, alınma sözlərin tərkibində gəlmişdi.

"ذ" (dh) samitinin vəziyyəti. Bu səsə ancaq bir-iki sözdə təsadüf olunur. Həm də eyni söz gah ذ, gah da د samiti ilə yazılır: ümud // ümid - امود (66) // امید (253) və ümidh - امیذ (154, 201), şadlıq - شادلق (271) və şadhlıq - شاذلق (153, 253)...

Ana dilimizin səs sistemində bu səs olmamışdır və indi də yoxdur.

2) Sözlərin yazılışı və "Orxon-Yenisey" kitabələrinin imlası ilə müqayisələr

Qədim türk və ərəb əlifbaları müxtəlif qrafikalı əlifbalardı. Lakin "Orxon-Yenisey" kitabələrilə ərəb əlifbasına köçürülmüş "Dədə Qorqud" dastanlarının imlasında - söz və ifadələrin yazılışında açıq-aşkar sezilən yaxınlıq və uyğunluq var. Əlifbaların müxtəlifliyi sözlərin qədim sabit imlasını dəyişə bilməmişdir.

a) əsil-nəcabətin - ad və familiyaların imlası

Başlıqlar da daxil olmaqla, boylardakı bütün surətlərin adları - onların əsid-nəcabət və sifətləri ilə təqdimi məhz V-VIII əsrlərdəki sabit qaydalar ilədir. Məs.:

"Orxon-Yenisey"də:

Buğa - 𐰚𐰃𐰣𐰍 (Yn.98), Gültəkin // Gültikin - 𐰴𐰉𐰇𐰃𐰼𐰓 (Kt.25), Yolığtəkin // yoluğtigin - 𐰴𐰉𐰃𐰖𐰃𐰍 (Or.19), Maqraç Tamğaçı - 𐰋𐰀𐰖𐰆𐰃 𐰸𐰃𐰸𐰆 (KT.27), İnançu Çur - 𐰃𐰍𐰸 𐰍𐰖𐰇 (Kt.27), Ərən Uluğ - 𐰇𐰖𐰍 𐰴𐰍 (Yn.56), Qara qan - 𐰇𐰃:𐰚𐰃𐰃 (Yn.59), Yaş Aqbaş - 𐰼𐰃 𐰸𐰉 (Yn.14), Külük Toğan - 𐰇𐰖𐰍𐰆 𐰉𐰼𐰓 (Yn.80), Tarqan Sanun - 𐰇𐰍𐰼𐰚 𐰇𐰃𐰃𐰆 (Yn.62), Oğuz Bilgə Tamğaçı - 𐰋𐰖𐰆𐰃:𐰚𐰉𐰼𐰍𐰋:𐰴𐰖𐰍 (Kt.33), Yikit Alp Turan - 𐰇𐰃𐰍𐰆 𐰋𐰃 𐰴𐰉𐰓𐰋 (Yn.21), El Toğan - 𐰇𐰖𐰍𐰆 𐰼𐰋 (Yn.11), Elçi Çur Gücbars - 𐰼𐰃𐰇𐰸𐰓𐰋:𐰃𐰍𐰸 𐰸𐰼𐰋 (Yn.37), Qapağan Əltəris qağan - 𐰇𐰖𐰴 𐰃𐰼𐰃:𐰇𐰖𐰴 (Or.7)...

"Dədə Qorqud"da:

Buğac - بوغاج (18), Basat - باسات (213), Qırqqınuq - قرق قنوق (180), Buğrancı - بغرنجی (205), Alb Ərən - البه ارن (62), Qara Çəkür - قره چکور (180), Qaragünə - قره كونه (218),

Qapıqqan - قاپیق قان (220), Qabanküci - قبان کوجی (39), Qılbaş - قلباش (292), Qonur Qoca Sarı - قوکور قوجه صاری (214), Dəmür Tonlı Mumaq - دمور طونلی ماق (218), Bığı qanlu Bükdüz Əmən - بیغی قانلو بکدر امن (218)...

Əlbəttə, bu adlar bir-birinin tam eyni ola bilməzdi, həm də ikinci abidə bədii əsərdi. Söhbət bu adların yazılışı barədə, birləşmə qaydalarının eyniliyi barədə, adları sifətləndirmə üsulu barədə gedir. Bunları tutarlı dəlil saymamaq və ya mübahisə eləmək də olar. Lakin, sabit, dəyişməz imla xüsusiyyəti kimi, əsil-nəcabətlərin bütöv təqdimində "oğlu" sözünün damaq saiti ilə "oğlı" şəklində yazılışı və "bəy" sözünün "bəg" şəklində imlası bizcə, mübahisə və şübhələrə son qoyur.

"Orxon-Yenisey"də:

Yabğu *oğlı* Sabra -  (Or.7), Ergin *oğlı* Yigən Çur - (Or.26), Bayna Sanun *oğlı* Gülük Çur - (Yn.22), Umay bəg -  (Yn.53), *Bəg* Ərigçə Sabıq Basar - (Yn.61), Bars *bəg* -  (Kt.30)...

"Dədə Qorqud"da:

Toğsun *oğlı* Rüstəm - طوغسون اوغلی رستم (206), Ulaş *oğlı* Salur Qazan - اولاش اوغلی سالور قزان (95), Elin Qoca *oğlı* Sarı Qılmaş - ایلك قوجه اوغلی صاری قلماشی (38), Yalançı *oğlı* Yalıncuq - یالنجی اوغلی یالنجوق (101), Ənsə Qoca *oğlı* Oqçı - اکسه قوجه اوغلی اوقچی

(302), Uruz *bəg* - اوروز بلك (38), Qazlıq Qoca *oğlı bəg* Yegnək - قاظلوق قوجه اوغلى بلك يكنك (61)...

b) arxaik sözlərin imlası
"Orxon-Yenisey"də:

Aydı (dedi, söylədi) - 𐰃𐰴𐰣 (Tk.59), alp (igid) - 𐰋𐰃 (Kt.20), alp ər - 𐰋𐰃 𐰇𐰃 (Yn.59), alp ərən (igid ərlər) - 𐰋𐰃 𐰇𐰃 (Or.7), anı - 𐰀𐰣 (Kt.25), anta - 𐰀𐰼𐰽 (Kt.19), arığ (təmiz) - 𐰇𐰘𐰍 (Kt.59), qutluğ (xoşbəxt) - 𐰴𐰃𐰆𐰘𐰍 (Yn.84), eşim (yoldaşım) - 𐰽𐰆𐰘 (Yn.14), yağı - 𐰍𐰴𐰣 (32), yağıda - 𐰓𐰴𐰇𐰴𐰘* (Yn.41), yağımız - 𐰍𐰽𐰴𐰣 (Tk. 57), yeg (yaxşı) - 𐰇𐰾 (Yn.44) // 𐰾𐰇 (Tk.59), yunt (at) - 𐰽𐰆𐰣 (Or. 34), yuntım (atım) - 𐰽𐰆𐰆𐰃𐰣 (Yn.19), simiz (arıq) - 𐰠𐰽𐰃 (Tk.56), sımadı (sındırmadı) - 𐰍𐰘𐰽𐰍 (Or.15), urtı (vurdu) - 𐰍𐰆𐰠𐰆 (Kt.24), urtım - 𐰽𐰆𐰠𐰆 (Kt.20), uluğ - 𐰺𐰃𐰆 (Yn.84), tün (gecə) - 𐰚𐰍𐰠 (Tk.57)...

"Dədə Qorqud"da:

Aydır - ايدر (28), ayıtdı - ايتدى (179), alp - الپ (256), alb ərən - الب ارن (62), alplar - الپلر (206), anı - انى (211), ana - انا (220), anun - انوك (150), anda - اندا (230), andan - اندن (109), arı - آرى (120), qutlu - قوتلو (75), qutsuz - قوتسوز (262), dün - دون (263), eş - اش, eşim - اشم (177), əsən - اسن (145), sağ-əsən - صاغ اسن (270), yağı - بغى, yağıyı, yağılığa -

* Bu söz ümumi qaydadan fərqli olaraq, soldan-sağa yazılıb.

يوند، يوندلرِي (263) yek - ياغي، يغلنه (285), yund, yundları - يك (224), yekrəgi (yaxşısı) - يكركي (273), simiz // simüz - سمز // سموز (57, 238), sımadı - صمادِي (31), sımayasan - صمايسن (54), ur - اور (89), urdı - اوردى (182), ursunlar - اورسونلر (53), ulı - اولى (14), ün - اون (47), ünüm ünлən! - اونى اكلك (36)...

Bu müqayisələrdəki bəzi imla fərqləri sərf-nəzər edilərsə (an*t*a // an*d*a, arığ // arı, qutluğ // qutlu, ur*t*ı // urdı, uluğ // ulı, *t*ün // *d*ün), qalan sözlər bir-birinin tam eynidir. "Dədə Qorqud"da işlənən arxaik sözlər, təbii olaraq, daha çoxdur. Burada xatırlamadığımız qalan arxaik sözlər, əgər "Orxon-Yenisey"də rast gəlinsəydi belə, bunların da çox az fərqilə eyni şəkildə yazılacağına şübhə yox idi.

c) sağır n-lu sözlərin imlası

Hər iki kitabənin əlifbasında sağır "n" özünü çox fəal şəkildə göstərir; həm söz köklərində, həm də sözlər dəyişdikdə sağır "n"-dan geniş istifadə olunur.

"Orxon-Yenisey"də:

Söz köklərində: an - anlanıp (anlanıb, başa düşülüb) - 𐰀𐰚𐰼 (Yn. 67), anlar (anlayan, başa düşən) - 𐰼𐰚𐰼 (Tk.59), bin - "eki-üç bin" (iki-üç min) - 𐰃𐰏 𐰋𐰍𐰃 (Tk.57), bəniz-bənzi - 𐰍𐰼𐰏 (Yn.50), bün // bun (dərd, qüssə, kədər) - 𐰚𐰞//𐰚𐰞//𐰚𐰞 (Yn.40, 46); qan (ata) - 𐰴𐰋 //𐰚𐰋 (Yn.58, 64), yanıl: yanılıp (yanılıb) - 𐰀𐰚𐰴𐰚 (Kt. 20), yanılmayın - 𐰽𐰃𐰚 𐰾𐰚𐰃𐰴𐰚 (Yn.34), gün (günü, qadın qulu) - "kız oğlın gün bultı" (qızın günü oldu) - 𐰃𐰍𐰞 𐰴𐰍𐰀 : 𐰴𐰚𐰽𐰞𐰃𐰉 (Kt.23); könül - könültə - 𐰞𐰃𐰲𐰴𐰍𐰀 (Kt.26); Könültəki - 𐰃𐰀𐰃𐰲𐰴𐰍𐰀

(Kt.20), könlüncə - 𐰴𐰇𐰾𐰾𐰃𐰣 (Tk.59) ön-öndən - 𐰃𐰍 𐰋𐰾𐰃 (Tk. 58), tan (dan söküləndə, tezdən) - 𐰾𐰆 (Tk.59), tanrı // tənri - 𐰚𐰾𐰃𐰉//𐰚𐰾𐰇𐰉 (Yn.16), tənrim - 𐰋𐰾𐰃𐰉 (Yn.66)...

Sözlər dəyişdikdə: bən, bana - 𐰃𐰍 (Tk.59), 𐰴𐰆 𐰇 (Yn.25), baş+ ına - 𐰴𐰚𐰇𐰾𐰇 (Kt.24), mən, mana - 𐰴𐰚𐰋 (Kt.24), bil, bil+in - 𐰾𐰾𐰇𐰣 (Kt.20), alp+ınız - 𐰉𐰆𐰚𐰴 (Yn.47); qan+ınız (xanınız) - 𐰉𐰆𐰀𐰴 (Yn.47); qağan+ına (Xaqanına) - 𐰴𐰚𐰀𐰋𐰴 (Kt.23), yaş+ına - 𐰴𐰚𐰇𐰾𐰇 (Kt.24); yet+di+n - 𐰾𐰋𐰉𐰤 (Or.31); gəl+in - 𐰾𐰾𐰆 (Or. 31), özi+nin - 𐰃𐰇𐰚𐰾𐰉 (Yn.50), öginmədi+niz - 𐰉𐰚𐰋𐰲𐰃𐰇𐰚𐰃 (Yn.50); sən, sana, sənə - 𐰴𐰚𐰀 (Tk.59), saqın+ın - 𐰀𐰆𐰉𐰾 (Or. 13); siz+in - 𐰾𐰉𐰇𐰀 (Yn.50)...

"Dədə Qorqud"da:

Söz köklərində: an - andı - اكدي (293), anmadı - اكدي (74), ban: ban banlatdılar - بك بكلتد لر (121), bin // pin - پك // بك (85), bənzi - بكزي (215); bənzini - بكزني (157), bənzər - بكزر (146), bun // bün: bünlü - بكلو (109), qan: qanlı qoca (atalı qoca) - قاكلى قوجه (170), qonur: qonur at - قوكرات (126), dinlə - دكله (95), dinlən - دكلك (36), dinləsün - دكلسون (169), yanıl: yanılsa - ياكلسه (278); yanlış - يكلش (261); yanaq: yanaqlarım - يكا قلر؟ (139); yalnuz - يا لكوز (137), yenilməz - يكلمز (177), könül - كوكل (92), könlüm - كوكلم (185), könüllə - كوكلله (95), könlündəsən - كوكلنده سن (161), ön - اوك (232),

önıncə - اوكنجه (286), önünə - اوكنه (44), öncəsinə - اوكجه سنه (276), tanı - طانك (11), tanı yelləri - طانك يللرى (11), alar tanıla - الار طاكله (145); son: axır sonı - اخر صوكى (154), tanrı // tənri - تكرى (35), tanrım // tənrim - تكرم (228), tanrının - تكرينك (55)...

Sözlər dəyişdikdə: baş+ına - باشكه (130), baş+ın - باشنك (187), baş+ın çün - باشنچون (287), as+un - اصونك (52), al+un - الونك (52); alnun+a - النوكه (48), bən: bana - بكا (48), mən: mana - مكا (28), sən: sana - سكا (31), qız+ın - قيزنك (79) // qız+un - قيزونك (80); dök+ün - دوكنك (243), yetür+in - يتورك (83), yigid+in - يكيدك (72), kəs+in - كسنك (243), gəl+ün - كلونك (52), götür+ün - كتورْنك (69), sən+in - سنك (33); sən+inçün - سنكچون // sən+ünçün - سنوكچوه // sən+in üçün - سنك اچون (129), siz+ün - سزونك (109), çəkün - حكونك (52)...

ç) dodaq saitli sözlərin damaq saitilə imlası

Bir qayda olaraq, hər iki kitabədə "u", "ü" dodaq saitli sözlər əksərən "ı", "i" damaq saitilə yazılır.

"Orxon-Yenisey"də:

Bunı - 𐰋𐰃𐰆 (Kt.20), bultı - 𐰋𐰇𐰆 (Or.13), buldım - 𐰋𐰇𐰃𐰆

(Yn.21), qulım - 𐰴𐰇𐰃𐰍 (Or.31), yolçı - 𐰍𐰉𐰇𐰃𐰆 (Yn.80), yorıdım - 𐰴𐰋𐰍𐰣𐰃𐰆 (Or.31), yorıyın - 𐰃𐰍𐰆𐰍𐰣𐰃𐰆 (Or.32), yorıdım - 𐰴𐰋𐰍𐰣𐰃𐰆 (Or.31), közi - 𐰍𐰤𐰍𐰓 (Or.11); közin - 𐰋𐰍𐰤𐰍𐰓 (Or.15), günim - 𐰴𐰣𐰍𐰓 (Or.33), gümis - 𐰇𐰴𐰍𐰓 (Or.15), gümişin - 𐰋𐰍𐰽𐰴𐰍𐰓 (Or.15), oğıl - 𐰇𐰤𐰃 (Kt.27), oğlım - 𐰴𐰇𐰤𐰃 (Or.14), oğlın - 𐰋𐰍𐰇𐰤𐰃 (Or.14), oğlı - 𐰍𐰇𐰤𐰃 (Yn.22); oğlıma - 𐰆𐰴𐰇𐰤𐰃 (Yn.79); oğlına - 𐰆𐰣𐰍𐰇𐰤𐰃 (Yn.62), özim - 𐰴𐰤𐰍 (Tk.56), özin - 𐰋𐰍𐰤𐰋𐰍 (Yn.53), öldim - 𐰴𐰼𐰽𐰍 (Yn.25), tutdım - 𐰴𐰋𐰺𐰃𐰺 (Or. 14), tutdı - 𐰍𐰋𐰺𐰃𐰺 (Or.25), toğdım - 𐰴𐰋𐰤𐰃𐰲 (Yn.57), tökdi - 𐰍𐰼𐰓𐰍𐰲 (Or.26), uçdı - 𐰍𐰋𐰠𐰃 (Kt.27)...

Bununla belə, bəzən eyni söz ikili və hətta üçlü şəkildə yazılır: oğlım - 𐰴𐰇𐰤𐰃 (Yn.42) // oğlum - 𐰴𐰃𐰇𐰤𐰃 (Yn.41) // oğulım - 𐰴𐰇𐰃𐰤𐰃 (Yn.84), buldım - 𐰴𐰋𐰇𐰃𐰞 (Yn.21) // bultum - 𐰴𐰃𐰺𐰇𐰃𐰞 (Yn.81)...

"Dədə Qorqud"da:

Bunın - بونلنه (180), buldınmı - بولدکی (171), qulım - قولم (118), qucdı - قوجدی (252), qondı - قوندی (160); döndi - دوندی (171); yortdı // yorıtdı - یورتدی (263), yortmış - یورتمش (263), gözi - کوری (157); gözin - کوزك (167), gözinə - کوزنه (157), gördi - کوردی (171), oğıl - اوغل (163), oğlım - اوغلم (37), oğlın - اوغلك (234), oğlı - اوغلی (222), oğlı-

nın - او غلنك (173), oldı - اولدی (159), oturdı - اوتوردی (179), özin - اورین (148), öldi - اولدی (156), öpdi - اوپدی (290), söndi - سوندی (227), tökdin - توكدك (254), tutdı - طوتدی (185), urdı - اوردی (160), urıb - اوریب (270). uçdı - اوچدی (240)...

Bununla belə, eyni söz bəzən ikili şəkildə də yazılır: ala gözli - الا كوزلی (76), // ala gözlü - الا كوز لو (32), yükli - يوكلی (212) // yüklü - يوكلو (211), görkli - كوركلی (35) // görklü - كوركلو (66), oğıl - اوغل (163) // oğul - اوغول (163); qulım - قولم (118) // quluma - قولومه (252)...

d) damaq saitli sözlərin dodaq saitilə imlası

Bir qayda olaraq, hər iki kitabədə ı, i damaq saitli sözlər, dodaq saitilə də yazılır; bu, əvvəlki bənddəki imlanın əksinə olan vəziyyətdir.

"Orxon-Yenisey"də:

I, i damaq saitli sözlərin *u, ü* dodaq saitilə imlasına az təsadüf edilir: arturıp (artırıb) - 𐰇𐰃𐰚𐰆𐰃 (Kt.20), yatu qalur (yatıb qalır) - 𐰃𐰚𐰉𐰋 𐰚𐰆 𐰉 (Tk.58), ilgərü (iləri-irəli) - 𐰋 𐱁𐰴𐰚𐰇 (Kt.21), alur - 𐰃𐰚𐰉 (Or.8), saqınur - 𐰃𐰚𐰍𐰋𐰃 (Or.45)...

Mütəxəssislər türk dilləri üçün səciyyəvi olan bu xüsusiyyəti nəzərdə tutaraq bir sıra - 𐰃𐰆𐰑 (Or.31), - 𐰋𐰃𐰉 𐰔𐰇𐰋𐰖 (Or.31), - 𐰓𐰆𐰃 (Or.27), - 𐰇𐰓𐰆𐰃 (Or.12)... kimi sözləri də "batur" (Or.35), "gicə yaruq" (gecə yarı) - Or.35, "artuk" (Or.27), "artukı" (artığı) - Or.17,.. "u" ilə oxumuşlar.

"Dədə Qorqud"da:

I, i damaq saitli sözlərin *u, ü* dodaq saitilə imlası daha üstünlük təşkil edir: adlu - ادلو (104), azğun - ازغون (127), alub - الوب (42), alur - الور (42), asılu - اصلو (38), asun - اصولی (52); atlu - اتلو (38), acdur - اج دور (111), bağlu - بغلو (134), batub - باتوب (175), bərü - برو (41); bilün - بیلوك (240), bellü - بیللو (38), varub - واروب (203), varsun - وارسون (39), verüb - ویروب (220), versün - ویرسون (144), qazanur - قزانور (131), qayğılu - قیغلو (40), qaralu-göglü - قرولوکوکلو (105), qalsun - قالسون (107), qalqub - قالقوب (188), qarğu dillü - قرغود للو (207); qılub - قیلوب (195), dəlü - دلو (110), dəmür - دمور (286), dəmrənlü - دمرنلو (199); dinlü - دینلو (37), enüb - اینوب (28), eləsün - ایلسون (111), etsün - ایتسون (235), ərdəmlü - اردملو (61), ilərü - ایلرو (199), içərü - اچرو (221), içüb - اچوب (157), yazsun - یازسون (48), yaraşur - یراشور (257), yeləklü - یلکلو (184), kəsilməsün - کسیلمسون (169), kəsəlüm - کسلوم (219), gerü - کرو (220), girüb - کیروب (201), gəlsün - کلسون (163), gizlü - کزلو (200), olmasun - اولمسون (175), salub - صالوب (252), saluban - صالوبن (113), saçlu - صچلو (38), söyləsün - سویلسون (169), çaqmaqlu - چقماقلو (40),

çalub - چالوب (62), çəküb - چکوب (288), çırpub - چیرپوب (46), çapub - چاپوب (271)...

Bununla belə, bəzən eyni söz ikili və hətta üçlü şəkildə də yazılır: kimün - کمون (103) // kimin - کیمك (100), keçdügində - کچدوکنده (104) // keçdigində - کچدکده (104), gəldügində - کلدوکنده (187) // gəldigində - کلدکده (103) // gəldigində - کلدکنده (187), södügim - سودوکم (167) // södigim - سودکم (24), sömağum yoq (söymərəm, söyməyəcəyəm, söyə bilmərəm) - صمغوم یوق (279) // sömağım yoq - صماغم یوق (278) // sömə-ğim yoq - صمغم یوق (277)...

e) sözlərin fonetik dəyişikliklərlə imlası

Hər iki kitabədə sözlərin müxtəlif sövti hadisələrə uğradığı vəziyyətlərdə imlası diqqəti cəlb edir.

Bunları ayrı-ayrılıqda izləyək.

1) d ~ t əvəzlənməsi

"Orxon-Yenisey"də:

"Orxon-Yenisey" yazılarında qalın və yumşaq olmaqla iki "t" və onun üç işarəsi (qalın: 𐰓,𐰔 yumşaq: 𐰕), iki "d" və onun iki işarəsi (qalın: 𐰉, yumşaq: x vardır; orada həm də qoşa səsin - diftonqun tərkibindəki "t" -dan (𐰺 = lt və 𐰴 = nt istifadə olunur:)

Bultı - 𐰋𐰺𐰇𐰞 (Kt.23), - kəlti 𐰋𐰇𐰃𐰞 (Kt.24), qıltım 𐰴𐰺𐰋𐰇 //𐰴𐰔𐰇𐰋 (Kt.24), kontı - 𐰋𐰴𐰃 (Or.18), yolta - 𐰚𐰔𐰇𐰉 (Kt.26), yurtda - 𐰚𐰉𐰔𐰋𐰉 (Kt.26), könültə - 𐰚𐰇𐰃𐰋𐰞 (Kt.26), görtüm - 𐰴𐰇𐰃𐰆 (Tk.56), güntüz - 𐰍𐰇𐰋𐰺𐰞 (Tk.57), ölti - 𐰋𐰇𐰃𐰺 (Kt.23),

tağ - 𐰴𐰃 (Or.52), taş - 𐰸𐰆 (Kt.27), təmir - 𐰉𐰚𐰋 (Tk.60), tirilip - 𐰇𐰸𐰇𐰉𐰇𐰋 (Or.13), tirilti - 𐰇𐰋𐰸𐰉𐰇𐰋 (Or.13), ton - 𐰚𐰃 (Yn.74), tonsız - 𐰋𐰏𐰚𐰆 (Kt.24), tonım - 𐰚𐰚𐰃 (Yn.74), tokuz - 𐰋𐰆𐰆𐰍 (Kt.19) tört - 𐰉𐰉𐰇𐰋 (Yn.25), tul - 𐰍𐰆𐰃 (Or.59), tuymadı - 𐰇𐰚𐰚𐰍𐰆 (Tk.59)...

Bununla belə, eyni söz həm "t", həm də "d" ilə yazılır: qıltım - 𐰚𐰆𐰍𐰇𐰋 (Kt.31) // qıldı - 𐰇𐰚𐰍𐰇𐰋 (Yn.21), yaşımta - 𐰸 𐰃𐰚𐰣𐰇 (Yn.64) // yaşımda - 𐰸𐰚𐰚𐰇 (Yn.21), öltim - 𐰚𐰋 𐰸𐰋 (Yn.84) // öldim - 𐰚𐰭𐰸𐰋 (Yn.43)...

"Dədə Qorqud"da:

"Dədə Qorqud"da nöqtəli və dəstəli olmaqla iki "t" (te: ت, ta: ط) və bir "d" vardır.

Bulıt - بولت (147), qanat - قتات (215), dört - دورت (136), yikit - يكت (180), polat - پولات (130), tağ - طاغ (28), tağlar - طاغلر (126), tarı - طالك (90), taş - طاشى (41), tağıtmyınuz - طاغتمكوز (126), tana - طنه (113), tartdı - طرتدي (240), tatlu - طتلو (163), tartub - طرنوب (270), tırnaq - طرناق (91), tar-tışaydıq - طارتشيدق (249), toquz - طقوز (120), tonın - طونى (286) // tonını - طونلك (249), tonlu - طونلو (126), tolandı - طولاندي (172), toğdı - طوغدي (90), toğranayın - طوغرنايين (98), toğmasun - طوغماسون (190), toğduğında - طوغدوغنده (163), tokuz - طكوز (268), toladı - طولادي (184), toğradı -

طوغرادي (210), tul - طول (232), turduğım - طوردوغم (268), tuymadı - طويمدي (157)...

Bununla belə, eyni söz həm "t", həm də "d" ilə yazılır: qartaş - قرطاش (56) // qardaş - قرداش (43), Qorqut - قورقوت (75) // Qorqud - قورقود (121), polat - پولات (129) // polad - پولاد (232), tayısı - طاييسى (208) // dayım - دايم (207); tolu - طلو (133) // dolu - دلو (278), tükənsə - توكنسه (63) // dükənsə - دوكنسه (151) turır - طورر (99) // durırsan - دورسن (100)...

Həmçinin bir sıra "t" səsli sözlərin "d" ilə yazıldığı müşahidə olunur, aqındılı - اقيندلى (179), dəpdi - ديپدي (34), dəpdilər - ديپدلر (41), dəpüb alan - ديوب الن (60), dəpə - ديه (39), dərəpə - دره ديه (272), dəpəsinə - ديه سنه (64), Dəpəgöz - ديه كوز (227), dəpərə tutıb - ديره طوتب (209), dikdirdi - دكدردي (153), dikərdi - دكردي (89), ditdi - دتدي (180), ditrədi - دترد ي (157), dökdi - دوكدي (64), dökübdir - دوكب در (74), dökilən - دوكلن (110), əlbətdə - البتده (175)...

2) b ~ p əvəzlənməsi

"Orxon-Yenisey"də:

"B" → p-yə keçir: Alıp 𐰃𐰇𐰋 (Or.13), bulıp - 𐰃𐰋𐰚𐰉 (Kt.22), qalıp - 𐰃𐰋𐰇 (Yn.81), kılıp - 𐰃𐰋𐰆 (Or.8), enip (inip) - 𐰃𐰇𐰃 (Yn.67),

yorıp - 𐰀𐰍𐰼𐰃 (Kt.25), keçip - 𐰀𐰴𐰆 (Or.33), gəlip - 𐰀𐰽𐰆 (Or.27), gəlipən - 𐰋𐰀𐰽𐰆 (Kt.23), girip - 𐰀𐰾𐰠𐰆 (Kt.25), ögünip - 𐰀𐰋𐰆𐰠 (Or.13), sancıp - 𐰀𐰺𐰾 (Or.25), sökipən - 𐰋𐰀𐰆𐰠𐰇 (Kt.25), tutıp - 𐰀𐰓𐰼𐰓 (Kt.22), tutıpan - 𐰀𐰓𐰼𐰓 (Kt.21)...

· "P" → "b"-yə keçir: tabdım - 𐰚𐰺𐰃𐰽 (Yn.20),..

"Dədə Qorqud"da:

"B" → "p"-yə keçir: qapardı - قاپردی (190), qapırğalı - قپورغالی (15), qapurğasın - قپورغاسن (276), parmaq - پرمق (289), pəs - پس (86), pirə - پره (88), pişürsün - پشورسون (220),..

"P" → "b"-yə keçir: altun kübəli - التون کوبلی (61), balcığı - بالجغی (175), balcığa - بالجغه (238), avımı bozma - آوی بوزمه (43), yaba-yalñuz - یبا یالکوز (148), yabışdı - یابشدی (267), sərb - صرب (148), tob - طوب (211), tobıqlarını - طوبقلرنی (61)...

Bununla belə, bəzən eyni sözdə iki səs növbələşir: ab-alaca - آپ الاجه (94), qapırğalı - قپرغالی (90) // ap-alaca - آب الاجه (15) // qabırqalu - قبرقالو - (256), bürə - بوره (86) // pürə - پوره (87) // pirə - پره (88), barmaq - بارماق (80) // parmaq - پرمق (289), sapanınıñ - صپا ننك (41) // sabanınıñ - صبانی نك (56)...

3) səslərin davamlı tələffüzü və imlası

"Orxon-Yenisey"də:

Ağrıp (ağrıyıb, yaralanıb) - 𐰴𐰍𐰃 (Or.14), yasap (yaşayıb) - 𐰴𐰉𐰆 (Or.25), qodı (qovdu) - 𐰇𐰃𐰆𐰍 (Or.31), qotım (qoydım) - 𐰇𐰆𐰍 (Or.33), tir (diyir, deyir) - 𐰉𐰇𐰋 (Kt.22) // ter (deyir) - 𐰉𐰋 (Or.7)..

"Dədə Qorqud"da:

Ayırman - ایرملك (259), bağlan - بغاللك (244), qapan - قپا لك (159), qo (qoy) - قو (53), qon (qoyun) - قوك (111), qodım - ("Ala gözlü körklün halalım yüklü qodım") - قودم (211), qodı qaçdı (qoydı qaçdı) - قودی قاچدی (216), qoma - قومه - (225), derdi - دیردی (155), derlər (deyərlər) - دیرلر (188), dersiz - دیرسز (295), dilən - دللك (76), dinlən - دكلك (36), elən - ایلك (243), nedəlim - نیله لم (81), neçün - نیچون (97), noldı - نولدی (83), nolur - نولور (180), noldın - نولدك (88), nolmuş - نولمش (149), paralan - پاره للك (295), ünlən - اكلك (36), soq - صوق (102), soq-soq sular - صوق صوق صولر (103)...

4) m ~ b əvəzlənməsi

"Orxon-Yenisey"də:

Binip - 𐰚𐰃𐰍𐰃𐰺 (Kt.26), at bintim - 𐰚𐰇𐰃𐰍𐰃𐰺 𐰀 (Yn.75), bin: altı bin yontım - 𐰚𐰀)𐰇𐰆 𐰃𐰍𐰃𐰺 𐰃𐰀𐰍 (Yn.19)...

Bununla belə, bəzən eyni sözdə hər iki səs növbələşir: bən - 𐰃𐰺 (Yn.38) // mən - 𐰃𐰚 (Yn.56)...

"Dədə Qorqud"da:

Bin // pin: bin ayğır seçdi - بك ایغر بچدی (87), pin qoç seçdi

- پك قوچ سچدی (87), bindim - بندم؟ (242), bindin - بندك (241), bindi - بندی (31), bingil - بنكل (240), binər - بینر (29), bindilər - بیندلر (272), binişdilər - بنشدلر (270), kibi - كبی (63)...

Bununla belə, bəzən eyni sözdə hər iki səs növbələşir: bən - بن (43) // mən - من (44), bənim - بنم (32) // mənim - منم (32), bana - بكا (48) // mana - مكا (32)...

5) səsdüşümü hadisəsi

Səsdüşümü istilahını şərti olaraq işlədirik. Müasir baxımdan səsdüşümü kimi nəzərə çarpan bu xüsusiyyət sözlərin ilk və ayrı-ayrı şivə və ya şivə qruplarındakı tələffüz şəkilləridir ki, əksərən digər müvafiq səslərin davamlı tələffüzünə səbəb olur.

"Orxon-Yenisey"də:

Alı bertim (alıb verdim) - 𐰃𐰇𐰴𐰍𐰃𐰣 𐰋𐰉 (Or.15), ağrıp yok bulça (ağrıyıb yox bulunca) - 𐰴𐰍𐰉𐰇𐰆 𐰃𐰆:𐰇𐰋𐰇 (Or.14), anar (onlar) - 𐰋𐰇 (15), yerin (yeriyin) - 𐰼𐰴𐰆 (Or.13), yeti (yetti, yeddi) - 𐰼𐰇𐰆 (Or.12), yası (yastı) - 𐰼𐰉𐰃 (Or.32), sımadı (sındırmadı, sözünü yerə salmadı - 𐰆𐰃𐰋𐰼 (Kt.20), uruş kılıp (vuruşub) - 𐰺𐰉𐰃𐰚𐰋𐰉 (Or.8)...

"Dədə Qorqud"da:

Alamadı - الامدی (148) // alımadı - الیمدی (203), doyamadım - دویامدم (100), derdim - دیردم (140), qoa getdi - قوا كتدی (76), qoa-qo - قوا قو (76), qoa-qoa - قوا قوا (119), qodı (qoydı) - قودی (227), qoma (qoyma) - قومه (225), yedi (yeddi) -

يدي (177), kiçi (kiçik) - کچی (94), neçün - نچون (155), nedər-sən - نیدرسن (204), tutamadınuz - طوتامدیکوز (264), urdı - اوردی (47), urdılar - اوردلر (119), sımayasan (sındırmayasan) - صمایاسن (54)...

Bununla belə, bəzən eyni söz ikili vəziyyətdə də işlənir: qodı - قودي (227) // qoydı - قويدي (263),..

6) səsartımı hadisəsi

Bir sıra sözlərin əvvəlinə "y" səsinin artırılması diqqəti cəlb edir.

"Orxon-Yenisey"də:

Yıl (il) - 𐰽𐰉𐰺 (Or.14), yılan: Yılan yıl onunc ayqa (İlan ili onuncu aya) - 𐰴𐰍𐰃 𐰇𐰃𐰆𐰃 𐰃𐰽𐰉𐰺 (Or.51), yılqı (ilqı, ilxı) - 𐰍𐰇 𐰽𐰉𐰃 (Yn.30)...

"Dədə Qorqud"da:

Yıl - يل (92), yılan - يلان (137), yigidim - يگيدم (116); yüzük - يوزك (217), yürəkli - يورکلی (134) // yürəklü - يورکلو (247), yuca - يوجا (218), yucaldı - يوجلدي (258), yucalardan yucasan - يوجالردن يوجاسن (261)...

7) o ~ a əvəzlənməsi

Bu xüsusiyyət özünü xüsusilə əvəzliklərdə göstərir.

"Orxon-Yenisey"də:

Anı (onu) - 𐰋𐰃 (Yn.44), anar (onlar, onlara) - 𐰀𐰽 (Or.15), anta // anda (onda, o vaxt) - 𐰀𐰣 (Or.7, 26), anı üçün (onun üçün) - 𐰀𐰃𐰍 𐰋𐰃

(Or.12), ab (ov) - 𐰀𐰃 (26), abda (ovda) - 𐰀𐰃𐰋𐰀 (Yn.74), qabışalım (qovuşalım) - 𐰴𐰀𐰃𐰋𐰀𐰍 (Or.32)...

"Dədə Qorqud"da:

Anı - انې (230), anlar - انلر (37), anda - اندە (243), andan - اندن (166), ana - اڭا (261), anların - انلرك (292), anunçün - انوكچون (272), av avlayu (ov ovlayıb) - آو آولیو (240), tauq (toyuq) - تاوق (255)...

8) s ~ ş ~ s əvəzlənməsi

"Orxon-Yenisey"də:

Basmıs - 𐰋𐰴𐰋𐰀 (Or.7) // başmış (basmış) - 𐰋𐰴𐰴𐰋𐰀 (Or.32), beş - 𐰚𐰇 (Yn.29) // bes - 𐰋𐰇 (Or.12), barmıs - 𐰋𐰴𐰉𐰀 (Or.33) // barmış - 𐰋𐰴𐰉𐰀 (Or.34), bulmıs - 𐰋𐰴𐰇𐰀 (Kt.22) // bulmış - 𐰋𐰴𐰇𐰀 (Kt. 25), kişi - 𐰴𐰀𐰍 (Kt.20) // kisi - 𐰴𐰀𐰍 (Kq.26), gümiş - 𐰴𐰋𐰀𐰍 (Kt. 19), // Gümis (ad) - 𐰋𐰴𐰀𐰍 (Or.14)...

"Dədə Qorqud"da:

Dan-danısux - دان دانسوخ (80) // dan-danışux - دان دانشوخ (69)...

9) "ç"-nın "ş"-ya keçməsi

"Orxon-Yenisey"də:

Şaşıp gəlti - 𐰴𐰃𐰇𐰍 𐰉𐰴𐰴 (Or.33)...

"Dədə Qorqud"da:

Əqli // Aqlı şaşmış - عقلي شاشمش (34),..

"Dədə Qorqud"da, təbii olaraq, daha əlavə sövti xüsusiyyətlər və bunların o şəkildə də yazıldığı müşahidə edilir.

a) səslərin yerdəyişməsi: köpri - كوپرى (155), topraq - طوپرق (190), tutsaq - طتساق (204), tutsağmış - طوتساغمش (257);

b) "l" səsinin "r"-ə keçməsi: qarardı - قاررديِ (134), bənzi sarmış - بكزى صارزمش - (241);

c) "r" səsinin "l"-ə keçməsi: müti ollam - مطيع اوللم (285);

ç) "l" səsinin "d"-yə keçməsi: uzdaşmadı - اوزدشمدىِ (204);

d) "r" səsinin "n"-ə keçməsi: utmanam - اوت منم (220);

e) "z" səsinin "s"-yə keçməsi: sırnaçıları - صرناچيلرىِ (112);

ə) "b" səsinin "m"-ə keçməsi: munı - مونى (226), munın - مونك (226) və s.

Beləliklə, "Dədə Qorqud"un dili öz kökü, əsası etibarilə, onun yarandığı VI-VII əsrlərin dilidir. Bu dil mütəmadi olaraq VII-IX əsrlərin canlı xalq dili zəminində cilalanmış, onun musiqi ahəngi təkmilləşmiş, poetik zirvəyə yüksəlmişdir. Dastanların dilinə keçən fars sözləri, adları və ifadələri, habelə islam dini təsirləri də dastanların ilk qələmə alınması dövrünün zaman etibarilə islamiyyətlə qarşılaşdığı VII-VIII əsrlərdə ola bilərdi.

Soruşula bilər ki, bəs nə üçün müasir dilimizə yaxınlıq mənasında, fikrin ifadə tərzi və üslubca "Orxon-Yenisey" kitabələrinin dili ilə "Dədə Qorqud"un dili arasında xeyli fərq vardır; halbuki bu kitabələr bir-birinə yaxın və ya eyni əsərlərdə yaradılıb? Biz bu suala hələlik aşağıdakı cavabları veririk: 1) "Orxon-Yenisey" kitabələrinin dili ilə "Dədə Qorqud"un dili arasında nəzərə çarpan fər-

qin özü təsdiq edir ki, çox geniş əraziyə səpələnmiş türk dilləri hələ o vaxtlardan ayrı-ayrı ərazilərdə və ictimai-siyasi şəraitdə bir-birindən uzaqlaşır, müstəqil inkişaf yoluna düşərək, özünəməxsus keyfiyyətlər qazanır, formalaşırdı; 2) "Dədə Qorqud" bizim Azərbaycan torpağının ədəbi-bədii məhsulu idi: buna görə, onun dili bizə daha doğma və müasir dilimizə, onun qrammatik quruluşuna daha uyğundur; 3) bir-birinə yaxın və ya eyni əsrlərdə, lakin ərazicə uzaq məsafələrdə yaranmış "Orxon-Yenisey" kitabələrilə "Dədə Qorqud-"un dili arasında ümumi anlaşılma baxımından görünən fərqi, elə təxminən indi də Orta Asiya türk xalqlarının dillərilə Azərbaycan dili arasında görmək olar.

Burada qarşıya yenə sual çıxır: Nə üçün "Orxon-Yenisey" kitabələri "təmiz türk dilində yazılmış", orada ərəb-fars adları və sözləri yoxdur? Bu suala belə cavab vermək olar. "Orxon-Yenisey kitabələri" V-VIII əsrlərdə necə yazılıb, daşlara necə həkk olunubsa, elə də qalıb, dəyişməyib... "Orxon-Yenisey" kitabələrində ərəb və fars sözlərinin olmaması bununla bağlıdır.

Burada qarşıya yenə də sual çıxır: "Dədə Qorqud"un yarandığı VI-VII əsrlərdirsə, onda nə üçün ümumi anlaşılma baxımından "Orxon-Yenisey" kitabələri dilinin eyni deyildir? Bu suala müsbət cavab verilə bilməz. Bir sıra əlavə amillərlə yanaşı, nəzərə alaq ki, 1) bu kitabələr janr etibarilə müxtəlifdir, birincisi tarix əsəri ikincisi isə bədii yaradıcılığın məhsuludur və 2) "Dədə Qorqud", başqa türk dillərilə müqayisədə, "yeni dil", "incə dil", "əsil türkcə" kimi şöhrətlənən oğuz dilində yaranmışdı.

Bunlar onu göstərir ki, "Dədə Qorqud"un dili öz əsası etibarilə VI-VII əsrlərin Azərbaycan-türk dilidir, oğuz dilidir.

3. "Dədə Qorqud"un bədii dili və üslubu

"Dədə Qorqud" kitabı Azərbaycan xalqının VI-VII əsrlər bədii istedadını, zövqünü, yaradıcılıq qüdrətini, dilinin zənginliyi və kəsər-

liliyini, ahəngdarlığını və poetik vüsətini, bu dilin geniş yaradıcılıq imkanlarına malik olduğunu və s. bütün aydınlığı ilə üzə çıxarır.

Bu üstünlükləri izləyək.

1) Dədə Qorqudun sözü və sazı - qopuzu

Xalq müğənnimiz Bülbülün oxuduğu bir mahnı qulağımızda hələ də səslənir:

Qalada yatmış idim,
Top atdılar oyanmadım.
Saz ilə söhbət ilə oyatdılar...

Bu şerin, bu mahnının haçan qoşulduğunu söyləmək çətindir. Bəlkə də top silahı yenicə çıxarkən ona qarşı deyilmiş; sazın, sözün-söhbətin, şerin-mahnının təsir gücü, zərbəsi topa qarşı qoyulmuşdu. Ulu babalar "Qılınc yarası sağalar, sağalmaz vsöz yarası" məsələni yaradanda da bu ideyanı, sözün qılıncdan kəsərli, iti və gərəkli olduğu fikrini iqrar etmişlər...

"Dədə Qorqud"da söz, saz-qolça, qopuz elə bil hər şeyə təkan verən qüvvə, hər şeyin başı-başlanğıcıdır.

a) Sözlə sazın qüdrəti

Oğuz elində sözün elə qüdrəti, kəsəri, elə təsir gücü var ki, onunla "Tanrıya - Allaha da təsir göstərmək, onu rəyindən döndərmək" olur. Məsələn, "boy"lardan birində Dəli Domrul tanrı ilə belə xəbərləşir:

"Yucalardan yucasan,
Kimsə bilməz necəsən,
Körklü Tanrı!
Çoq cahillər səni
Gögdə arar, yerdə istər..." (168)

Dəli Domrul bu sözlərlə iki dəfə Tanrını öz rəyindən döndərir: "Allah-taalaya Dəli Domrulun, burada sözi xoş gəldi. Əzrailə nida

eylədi kim... Dəli Domrula can yerinə can bulsun. Onun canı azad olsun - dedi" (161-162).

Və: "Haqq-taalaya Dəli Domrulun sözi xoş gəldi..."

Ulu babalarımızın təsəvvürünə görə "Uca göylərin yerlə qovuşmasından bəşər nəsli törəyərkən" Tanrı, yəni göylər iki şeyi - ağlı və sözü (nitqi, dili) özütək uca yaratmış və onu insana bəxş etmişdir. Maraqlıdır ki, "Dədə Qorqud"da qədim "Tanrı" sözü ilə VII əsrdən dilə gələn ərəb sözləri ("Allah", "Haqq-taala", "Allahtaala") indi də dilimizdə sinonimlər kimi işlədilir; bizdə VII əsrdən başlanan islam təsəvvürlərində də sözə eyni mövqedən yanaşılır. Qorqud Atanın fikrincə, ona bəxş edilmiş neməti insan oğlu - Dəli Domrul (və Yeynək) layiqincə, dərk etdiyi, yüksək səviyyədə mənimsədiyi və ağlı ilə düşündüklərini sözü ilə gözəl ifadə etdiyi üçün Tanrının (Allahın) onlardan xoşu gəlmiş və birinin günahından keçmiş, digərinin isə qələbəsini təmin etmişdir... Burada bədii, gözəl sözün, şerin, mahnının Tanrıya təsir edə, onu yumşalda, hökmündən döndərə biləcək yeganə qüvvə olduğu fikri söylənilir.

Bu, sözün təsir gücünün, nitqin, dilin, şerin, mahnının ilahiləşdirilməsi, Tanrı səviyyəsinə qaldırılması idi. Dədə Qorqud sözünün qüdrəti bir münasibətlə belə nümayiş etdirilir: "Dəli Qarcar qılıcın əlinə aldı. Yuqarısından öygə ilə həmlə qıldı. Dəli bəg dilədi ki, Dədəyi dəpərə çala. Dədə Qorqut ayıtdı: Çalırsan, əlün qurusun! - dedi. Haqq-taalanın əmrilə Dəli Qarcarın əli yuqarıda asılu qaldı. Zira Dədə Qorqut vilayət issi idi. Diləgi qəbul oldı" (84).

Dəli Qarcarın "əlinin asılı qalması" və vura bilməməsini "Haqq-taalanın əmrilə" izah edib, dini mənada başa düşmək sadəlövhlük olardı. Bu, Dədə Qorqud sözünün qüdrəti, zəhmi, psixoloji, hipnozedici təsiri ilə, bu sözə olan inamla əlaqədardır. Məntiqi vurğunu bu fikir üzərinə salmaq, onu qabartmaq üçündür: *"Zira Dədə Qorqut vilayət issi idi"*. Sonrakı dövrlərdə Dədə Qorqud şəxsiyyətinin ilahiləşdirilməsi, onun "imam Qorqud" deyə xatırlanması bu keyfiyyətlə də bağlı ola bilərdi. "Kitab"ın "Müqəddimə"sində belə,

Qorqud Ata sözünün hörmətinə və ötkəmliyinə, el arasındakı qədir-qiymətinə işarələr vardır: **"Hər nə ki, buyursa qəbul edərlərdi. Sözin tutub tamam edərlərdi"** (2).

Oğuz elində söz kimi saz-qopuz da qüdrətlidir, ona böyük ehtiram var. Əlində qopuz olan şəxsə hörmət edilər, "kafir" olsa belə, ona qılınc çalınmaz. "Səgrəkin boyu"nda bu fikir öz əksini yaxşı tapmışdır: "Oğlan sərmərdi uru turdı. Qılıncının belcağına yabışdı kim, bunı çırpa, gördi kim, əlində qopuz var. Aydır: "Mərə kafir, Dədəm Qorqud qopuzı hörmətinə çalmadım, - dedi. Əgər əlüñdə qopuz olmasaydı, ağam başıçün səni iki para qılurdım, - dedi". (267-268).

b) sözlə sazın vəhdəti

Oğuz elində söz şerə, nəğməyə dönəndə, sazla qovuşub bəstələnəndə qüdrəti zirvəyə yüksəlir, ərşə qalxır: qəhrəmanların ruhuna qida, qoluna qüvvət, qılıncına kəsər gətirir; söz və sazın gücü ilə qəhərmanlar ağır döyüşlərdən qələbə ilə çıxırlar.

Oğuz elində söz və saz qana bulaşıb, ölüm yuxusuna dalmış qəhrəmanın gözlərini açır, onu ayıldır, həyata qaytarır: "Oğlanıñ anası oğlanıñ üstünə çapub çıqa gəldi. Baqsa, görsə oğlancığı alca qana bulaşmış yatur. Çağıruban oğlancuğına soylar, xanım, görəlim, nə soylar? Aydır:

...Nə Qazlıq tağı aqar sənin sularıñ,
Aqar ikən aqmaz olsun!
Bitər sənin otlarıñ, Qazlıq tağı,
Bitər ikən bitməz olsun!..
Bu qəzalar saña nə yerdən gəldi?
Ol gödəndə canın varsa, oğul, xəbər maña!
Qara başım qurban olsun, oğul saña!
Ağız-dildən bir qaç kəlmə xəbər maña! - dedi.

Böylə degəc oğlanıñ qulağına səs toqundı. Baş qaldırdı..." (27-28).

Oğuz elində söz və saz qəhrəmanları cuşa gətirir, qələbəyə ruhlandıraraq döyüşə, mübarizə meydanına atır: "Hey qırq eşüm, qırq

yoldaşım! Niyə ağlarsız! Qolça qopuzum götürün, ögün məni! - dedi. Burada qırq yigit Qanturalıyı ökmüşlər, görəlim, xanım, necə ögmişlər? Aydır:

Sultanım Qanturalı!
Qalqubanı yerin dən turmadın mı?
Yelisi qara Qazlıq atun binmədin mi?..
"Buğa, buğa" dedikləri,
Qara inək buzağısı degilmidir?!
Alp ərənlər qırımından qayıdarmı olur?
Oldur, Sarı tonlu Selcan Xatun köşkdən baqar,
Kimə baqsa, eşqilə oda yaqar.
Qanturalı Sarı tonlı qız eşqinə bir "hu!" - dedi (181).

"Müqəddimə"də Qorqud Atanın dilindən verilən müdrik sözlər silsiləsi - atalar sözü və zərbi-məsəllər səviyyəsinə yüksələn kəlamlar boyların leytmotivi kimi, boylardakı hadisə və əhvalatlardan doğan məntiqi nəticələr kimi səslənir. Həm də bunlar sıralanaraq müəyyən ahəngə, melodiyaya görə də "Müqəddimə"də Dədə Qorqud adına 5-6 dəfə müraciət edilir və hər dəfə, hər "keçiddə" ton, deyiliş tərzi, üslub dəyişilir:

1. "Dədə Qorqud söyləmiş:

Ölən adam dirilməz.
Çıxan can gerü gəlməz";

Və:

"Oğul atanın yetiridir,
İki gözünün biridir..." (3);

2. "Dədə Qorqut bir dəxi söyləmiş:

At yemiyən acı otlar [bitincə] bitməsə, yeg!
Adam içməyən acı sular sızınca, sızmasa yeg!" (4)

3. "Dədə Qorqut söyləmiş...

Ərin ağırın, yünisin at bilür.." (5);

4. *"Dədə Qorqut genə söyləmiş...*

Dölümündən ağarsa, baba görkli
Ağ südin toya əmzirsə, ana görkli" (6);

5. *"Ozan aydır:*

"Qarılar" dört dürlüdü:
Birisi soldıran soydur.
Birisi toldıran toydur.
Birisi evin tayağıdır.
Birisi necə söylərsən, bayağıdır" (7).

Bunlardan əlavə hər "keçid"in sonunda tamamlayıcı tək və ya cüt misralı kəlamlar da var. Məsələ burasındadır ki, "Müqəddimə"-dəki bu ton əksər boylar, boylardakı "ayıtma"lar, "söyləmə"lər üçün səciyyəvidir. Görünür, Dədə Qorqud Oğuz elinin mənəvi atası olduğu üçün bütün bu aforizmlər onun adından, onun dilindən deyilir. Bu, eyni zamanda bütün dastanlara xas musiqi tonundan və sözlə sazın vəhdətindən yaranır; dilin cilalandığını, müvafiq ahəngə salındığını, ustalıqla işləndiyini, sözlərin, misraların dönə-dönə məşq edildiyini və s. göstərir.

"Bamsı Beyrək boyı"nda Beyrəklə bacısının söyləşməsini, qızın "ayıtma"larını alaq:

1) "Çalma, ozan! Ayıtma, ozan!
Qaraluca mən qızın nəsinə gərək, ozan?!
Qarşu yatan [qara] tağı sorar olsan.
Ağam Beyrəgin yaylasıydı.
Ağam Beyrək gedəli yayladım yoq.
Souq-souq suları sorar olsan.
Ağam Beyrəgin içədiydi,
Ağam Beyrək gedəli içədim yoq.
Tavla-tavla şahbaz atlarını sorar olsan,
Ağam Beyrəgin binədiydi.
Ağam Beyrək gedəli binərim yoq.
Qatar-qatar dəvələri sorar olsan,

Ağam Beyrəgin yüklədiydi.
Ağam Beyrək gedəli yüklədim yoq.

Ağayılda ağca qoyunı sorar olsan,
Ağam Beyrəgin şülәniydi.
Ağam Beyrək gedəli şülənim yoq.
Qaralu-göglü otağı sorar olsan,
Ağam Beyrəgindir.
Ağam Beyrək gedəli köçərim yoq - dedi".

2) "Yenə qız aydır:
Mərə ozan! Qarşu yatan qara tağdan,
Aşub gəldigində, keçdigində,
Beyrək adlu bir yigidə buluşmadınmı?
Taşqun-taşqun suları
Aşub gəldügində, keçdigində
Beyrək adlu bir yigidə buluşmadınmı?
Ağır, adlu şəhərlərdən gəldügində,
Beyrək adlu bir yigidə buluşmadınmı?
Mərə ozan! Gördünsə, degil mana!
Qara başım qurban olsun, ozan, sana! - dedi"

3) "Qız genə aydır:
Qarşu yatan qara tağım yıqılubdır,
Ozan, sənin xəbərin yoq.
Kölgəlicə qaba ağacım kəsilübdir,
Ozan, sənin xəbərin yoq.
Dünyəlikdə bir qardaşım alınubdır,
Ozan, sənin xəbərin yoq.
Çalma ozan! Ayıltma ozan!
Qaraluca mən qızın nəsinə gərək, ozan?..
Elündə dügün var, dügünə varub ötgil! - dedi" (103-105).

Bunlar ayrı-ayrılıqda üç şerdir: hər birinin öz məzmunu, öz forması-ölçüsü, nizamı var; *baş sözləri* ("Ağam Beyrək" - 12 dəfə) *baş ifadələri* ("Ağam Beyrəgin" - 6 dəfə, "Mərə ozan!" - 2 dəfə, "Aşub gəldigində, keçdigində" - 2 dəfə), *baş misraları* (Beyrək adlu bir yigidə buluşmadınmı?" - 3 dəfə, "Ozan", sənin xəbərin yoq" - 4 dəfə) var; bir baş beyt isə bu üç şeri məzmunca bir-birinə möhkəm bağlayır və bununla da mətləb tamamlanır:

Çalma, ozan! Ayıtma, ozan!
Qaraluca mən qızın nəsinə gərək, ozan?

"Uruz bəgin tutsaq olduğı boy"da Burla Xatunun Qazan bəylə söyləşməsində "keçid"lərdən alınan melodiya, ahəng daha artıq nəzərə çarpır:

1) "Aydır.
Bərü gəlgil, Salur bəgi, Salur görgi!
Başım baxtı, evim taxtı!
Xan babamın göygüsi!
Qadın anamın sevgisi!..;

2) "Genə söyləmiş, aydır:
Oğul, oğul, ay oğul! Ortacım oğul!
Qarşu yatan qara tağım yüksəgi oğul!..";

3) "Anası bir soy dəxi soylədi, aydır:
Qarğu cida oynadanlar vardı, gəldi,
Altun cida oynadana, yarəb, noldu?..";

4) "Bir dəxi söyləmiş:
Quru-quru çaylara su saldım,
Qara tonlı dərvişlərə nəzir verdim...";

5) "Bir dəxi söyləmiş:
Qarşu yatan qara tağdan
Bir oğul uçurdunsa, degil mana... - dedi".;

6) "Yoxsa, o Qazan, ayağımdan sərmüzə atayınmı?
Qara tırnaq ağ yüzümə çalayınmı?.."

7) "Bir dəxi söyləmiş:
Qalqubanı yerimdən turam, derdim.
Yelisi qara Qazlıq atuma binəyim derdim,
Qalın Oğuz içinə girəm derdim,
Ala gözlü gəlin alam, gerdim..." (135-140).

Burla Xatunun hər "ayıtma"sının, hər söyləməsinin bir hava üstündə oxuduğuna şübhə etmirik. Burada sazın-qopuzun çalınıb ça-

lınmaması da o qədər zəruri deyil. Ana qəlbi dolmuşdur, həzin-həzin, ola bilsin ki, zümzümə ilə boşalır... Burada da hər şerin öz məzmunu, öz forması var; təkrar-təkrar xatırlanan *baş sözlər, baş ifadələr; baş misralar* var. Bununla belə, bütün şerləri bir baş beyt əsas fikrə, mətləbə doğru çəkib bağlayır və fikir tamamlanır:

Yalnız oğul xəbərin, a Qazan, degil mana!
Deməz olsan yana-göynə qarğaram, Qazan sana!

Baş beytdə bəzən cüzi dəyişiklik də nəzərə çarpır, lakin bu dəyişiklik şüurlu edilir və şerin danışıq dili üzərində deyilişinə əsaslanır. Məs: həmin baş beytin növbəti deyilişində bir nida söz və ona müvafiq olaraq digər sifət söz dəyişdirilmişdir:

Yalnız oğul xəbərin, Qazan, degil mana!
Deməz olsan yana-yana qarğaram, a Qazan sana!

Dastanlarda poetik fikri təqdim edən və ya əsas məqsəd, qayə üzərinə məntiqi vurğu salan baş misralar, baş beytlər, habelə keçidlər əsas fikri qabardır, qanadlandırır, deyilən yeni sözü, yeni fikri ön plana çəkir; bununla da canlı söz, canlı dil poetik şəklə salınır, hamarlanır, dilin aydınlığı, rəvanlığı kimi məziyyətləri yaranır, inkişaf edir. Bütün "ayıtma" və "söyləmə"lərdə bu sənətkarlıq - poeziyada rəngarəng simmetrik ölçülərdən, söz və ifadələrin, misra və beytlərin nizamlı təkrarından istifadə məharəti özünü qabarıq şəkildə göstərir. Şerlərdə sözlərin seçilməsi, düzülüşü, sözlər, ifadələr, misralar, beytlər, hətta keçidlər arasındakı əlaqələr o qədər ahəngdar düşünülüb, o qədər cilalanıb ki, söylənildikdə sanki özündən hava, melodiya alınır; havasız, melodiyasız bu şerləri oxumaq olmur... Belə qanadlı söz, belə ifadəli melodik dil, belə zəriflik birdən-birə yaranmır; bunun üçün əsrlərcə məşq, güclü ənənə, bunun üçün dərin kök, əsas lazımdır; yeganə, tək bircə "Oğuznamə" ilə VI-VII əsrlərdə poetik sənətin, sözlə saz vəhdətinin bu zirvəsi fəth edilə bilməzdi...

2) "Dədə Qorqud" dilinin poetik ahəngi

Əsərin istər Drezden, istərsə də Vatikan əlyazmalarının nüsxələri nəsrə və şerə ayrılmadan birbaşa yazılmışdır. Lakin tərtibçilər dastanları çapa hazırlarkən, nəsrini nəsr, şerini də şer kimi ayırıb verməyə çalışmışlar. Bununla belə, dastanların nəsrində də bəzən elə ahəngə, elə ölçüyə rast gəlirik ki, şerindən çox az fərqlənir və ya heç fərqlənmir. Cümlələrin və cümlələrdəki sözlərin seçilməsi, bir-birilə uzlaşması, bağlanması; məna və məntiqi əlaqəsi və s.-də elə məharət, elə ustalıq müşahidə olunur ki, şer təsiri bağışlayır, bəzən nəsrlə şeri birbirindən ayırmaq çətin olur. Görünür, bu çətinliyi tərtibçi-mütəxəssislər də hiss etmişlər. Məsələn, H.Araslı "Bamsı Beyrək boyu"nda Qazan bəyin sifətlərini həm şerlə, həm də nəsrlə verir.

"Beyrək aydır:

Alar sabah sapa yerdə dikiləndə ağ ban evli!
Atlasda yapılanda kök sayvanlu!
Tavla-tavla çəkiləndə şahbaz atlu!
Çağıruban dad verəndə yol çauşlu!
Yayqanduğında yağ dökülən bol nemətlü!" (109-110).

Burada tərtibçi şeri kəsib, fikri nəsrlə davam etdirir: "Qalmış yigit arxası! Bizə miskin umudı! Bayındır xanın, göyküsi! Tulu quşun yavrısı! Türküstanın dirəgi!.. (*55*, s.62).

Qazan bəyin bu sifətləri bundan əvvəlki boyda da nəsrlə verilib. Halbuki cümlələr qoşa-qoşa heca ölçülərilə (7-7, 8-7, 7-8, 7-7-7) deyilir. Maraqlıdır ki, bu parça M.Erkinin tərtibində şerlə, H.Araslının tərtibində isə nəsrlə və əksinə verilir. Bunu təbii hesab edirik. Çünki, əsərin "nəsri" ilə şerini ayırd etmək çətindir.

Dastanlarda dilin ahəngini, "nəsr" dilində poetik keyfiyyətləri təmin edən məziyyətlər çoxdur. Məsələn: 1) "Baybörənin oğlı beş yaşına girdi. Beş yaşından on yaşına girdi; on yaşından on beş yaşına girdi. Çaya baqsa çalımlu, çal qaraquş ərdəmlü bir gözəl, yaxşı yigit oldı" (70); 2) "Dəxi kəndusi tola-tola atlarına vardı; bir ayğır

seçdi, dəvələrinə vardı, bin buğra nər seçdi, qoyunlarına vardı, bin qoç seçdi" (87).

Bu parçalarda dilə poetik vüsət verən, onu mənsur şerə çevirən məntiqi ardıcıllıqla yanaşı, əlavə keyfiyyətlər də var. Onların üzərində ayrı-ayrılıqda dayanaq.

a) mənsur şer dili

Dastanlarda hadisələr, qəhrəmanlar, onların danışıq və söhbətləri bədii boyalarla bəzədilir, canlı dilin, canlı ifadə vasitələrinin cazibəli, çoxcəhətli üsullarından güclü istifadə edilir; bununla da dil adi səviyyədən yüksəyə qalxır, qanadlı və cilalı şəkil alır.

Dastanların nəsr hissəsinin ümumi ahəngini, musiqi tonunu yaradan vasitələr müxtəlifdir. Bu vasitələri əsasən iki yerə ayırmaq olar:

1. Fikir müəyyən ölçülər, eyni və ya bir-birinə yaxın hecalı cümlələrlə söylənilir. Bu ölçülər fikrə xüsusi ton və axıcılıq verir. Fikir aşağıdakı sayda hecalı cümlələrlə ifadə olunur:

a) 4 və ya 5 hecalı: "Yay çəkmədün, ox atmadın, baş kəsmədin, qan tökmədin" (125); "Tökür alındı, kafir qaçdı" (153); "Haman at saldı, yel kibi yetdi" (210)...

b) 6 və ya 7 hecalı: "Ac görsə toyurdu, yalın görsə tonatdı" (15); "Yüz adam seçilün! Taraqa çatladın! Oğlanı qorqudın" (247); "Qılıcın gedir, yigit! Murad ver, murad al!" (260); "Alaylar bağlandı, qoşunlar düzüldi, borılar çalındı, taullar dögüldi" (302)...

c) 8 və ya 9 hecalı: "Çağırıb oğlana söylər, görəlim, xanım, nə söylər?" (52); "Bazirkanlar yüyürdilər, yigidin əlin öpdilər" (74); "Yedi gün, yedi gecə yortdı. Oğuzun sərhəddinə çıqdı" (190)...

ç) 10 və ya 11 hecalı: "Yaqanla boğazından tutaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla burnundan qan şorlataydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür, saqın qadın ana! Mənim üzərimə gəlməyəsin"... (53)

d) 12 və ya 13 hecalı: "Şamı günlügi yer yüzinə dikdirmişdi. Ala sayvanı kök yüzinə aşınmışdı. Bin yerdə ipək xalıçası döşənmişdi"

(10); "Bayındır xan bənim nə əksüklügüm gördi? Qılıcımdanmı gördi, suframdanmı gördi?" (11); "Köksi gözəl qaba tağa ava çıqdı. Sən varikən av avladı, quş quşladı" (20)...

e) 14 və 15 hecalı: "Bir neçə müddətdən sonra bir oğlan toğurdı. Oğlançuğını dayələrə verdi, saqlatdı" (15); Qara polat uz qılıcın belinə quşandı. Ağ tozluca qatı yayını əlinə aldı" (31); "Bunun adı boz ayğırlu Bamsı Beyrək olsun! Adını bən dedim, yaşını allah versün - dedi" (75)...

ə) 15 və ya 16 hecalı: "Qara polat uz qılıclar çalındı, yelmağı düşdi. Üç yeləkli qayın oqlar atıldı, dəmrəni düşdi" (63); "Mərə, bənim oğlum başmı kəsdi, qanmı dökdi? - Bəli, baş kəsdi, qan dökdi, adam axtardı - dedilər. - Mərə, bu oğlana ad qoyasınca varmıdır - dedi" (74-75)...

2. Fikir müəyyən ölçülər, eyni və ya bir-birinə yaxın hecalı cümlələr və həmqafiyə sözlərlə söylənilir. Bu cümlələr tam poetik keyfiyyətə malikdir. Ölçülər, həmqafiyə sözlər fikrə poetik boya, ton və axıcılıq verir. Fikir aşağıdakı sayda hecalı və həmqafiyə cümlələrlə ifadə olunur:

a) 4 və ya 5 hecalı və həmqafiyə: "Ulı toy *elə!* Hacət *dilə!*" (14); "Yarımasun, yarçımasun!" (19, 86); "Boy boyladı, soy soyladi" (34, 65); Av avlayalım, quş quşlayalım" (36); "At dəpdilər, ox səpdilər" (41)...

b) 6 və ya 7 hecalı və həmqafiyə: "Ünim ünlən bəklər, sözüm dinlən, bəklər!" (36); "Çiginləri toğrandı, qılıcları uvandı" (250)...

c) 8 və ya 9 hecalı və həmqafiyə: "Bir qiyamət *savaş* oldı, meydan tolı *baş* oldı" (120); "Qardaşım sağmış, *qayurmazam*. Qardaşsız Oğuzda *turmazam*" (257)...

ç) 10 və ya 11 hecalı və həmqafiyə: "Nə qaqırsan bana ağam *Qazan*? Yoxsa köksündə yoqmıdır *iman?*" (48); "Aydır: bərü gəlün, qırq *yoldaşım!* Sizə qurban olsun mənim *başım"* (132-133); "Tatlu damağ verübən *sorışdılar*; Ağ-boz atlar binübən *yortışdılar"* (200).

d) 12 və ya 13 hecalı və həmqafiyə: "Kölgəlicə qaba ağacın kəsilməsün! Qamən aqan görkli suyun *qurımasun!..* Çaparkən ağ-boz atın *büdrəməsün...* Axır sonı arı imandan *ayırmasun!"* (66)...

e) 14 və ya 15 hecalı və həmqafiyə: "Mərə, qoyun başları, ərkəc! Bir-bir gəl-keç! - dedi... Toğlıcıqlar, dölətim sağar qoç, gəl keç - dedi" (227)...

ə) 16 hecalı və həmqafiyə: "Bin ayğır diləyübdir kim, qısrağa *aşmamış ola.* Bin dəxi buğra dilədi kim, maya *görməmiş ola"* (86)...

Biz bu nümunələrdə eyni heca vəznli cümlələri xatırlatmağa çalışdıq. Bundan əlavə dastanlarda tez-tez həmqafiyə və daxili qafiyəli cümlə misralara rast gəlirik: "Qırq yoldaşım *aman!* Tanrının birliyinə yoqdur *güman!*" (32); "Anlar dəxi bu dünyaya *gəldi köçdi.* Karvan kibi *qondı köçdi*" (34); "Yerlü qara tağların *yığılmasun!..* Çalışanda qara polat üz qılıcın *güdəlməsün!* Dürtüşərkən ala göndərin ufanmasun!.." (35); "Yumru-yumru *ağladı.* Yanıq cigərcigini *tağladı*" (56); "Ol gün bir qiyamət *savaş oldı,* meydan tolı *baş oldı"* (63); "Sən bənim ünüm ünlə, sözüm *dinlə!"* (71); "Toyunca yüzünə baqmadığım, *xanım yigit!* Qanda getdin, məni yalnız qoyub, *canım yigit!*" (92)...

Əslində dastanların şer mətni əsasən beləcə xüsusi ahəng və öl-çü ilədir. Qeyd etdiyimiz kimi, bu üstünlüklər, məziyyətlər qədim türk-oğuz poetik ruhu və üslubundan gəlir.

Dastanlarda ümumxalqın, ünsiyyətdə olan fərdlərin dilə, danışığa şüurlu münasibəti, adların, qəhrəmanlara verilən sifətlərin ahəngdarlığına meylliyi açıq-aşkar sezilir. "Uşun Qoca oğlı Səkrək boyı"nda qəhrəman Əkrək adlı qardaşı olduğuna məhz bu sözlərin bir-birinə yaraşdığına görə inanır: "Ayıtdı: İmdi Əkrəkə Səkrək yaraşur. Qardaşum sağmış..." (257). Səkrək "ulu" qardaşının "sorusuna" verdiyi cavabda da Səkrək və Əkrək beytin həmqafiyə sözləri kimi işlədilir:

Mənim adım sorar olsan *Səkrək,*
Qardaşım varmış adı *Əkrək* - dedi" (269).

Dastanlarda bir sıra qəhrəmanların adları da beləcə yaraşdırılaraq verilmişdir: *Beyrək-Yeknək, Qaragünə oğlu Qarabudaq, Qanlı*

Qoca oğlu Qanturalı, Yalançı oğlu Yalıncıq və b. hətta bu yaraşdırma Qorqud minən atların adında da gözlənilib: *Keçi başlı Keçər* ayqır. *Toğlı başlı Turı* ayqır.

b) səslərin poeziyası

Eyni səs və ya hecaların təkrarından (alliterasiyadan) alınan poetik məziyyət dastanların dil və üslubuna, ahənginə xüsusi rəng, xüsusi boya verir, dilin musiqi ahəngini, şeriyyətini daha da artırır. Bu keyfiyyət özünü nəinki şeir, həmçinin nəsr parçalarında da göstərir: *"Ala Tağa ala ləşkər ava çıqdı" (37); "Çaya çalumlu çal qaraquş ərdəmlü, qurqurma quşqulu, qulağı altun kübəli bək Yeknək çapar yetdi" (61-70); "Ala gözlü oğlana al duaxlu gəlin aldı" (252-253)...*

Fikrin bu cür ifadəsində incə bir məziyyət - səslərin, hecaların, şəkilçilərin təkrarından yaranan şer, musiqi ahəngi alınır: *ala-ala-ava; ca-ca-ça; qu-qu-qu-qu.*

Bu vəziyyət dastanların şerləri, poetik parçaları üçün daha səciyyəvidir. Bunları səs və hecaların ahənginə görə belə qruplaşdırmaq olar:

1) a-a-a-a:

"Üç yüz altmış altı alp ava binsə..." (259);

2) ot-ot:

"Otuz bin ər yağı gördümsə, ota saydım" (277);

3) ök-ök-ök-ö:

Ögünərsə, ər ögünsün-aslandır,
Ögünməklik övrətlərə böhtandır" (198);

4) u-u-u:

"Urduğın ulıtmayan ulu Tanrı" (210);

5) əl-əl-ər:

"Əlli bin ər gördümsə, əl vermədim" (277);

6) b-bə-bə; bə-bə:

"Basduğın bəlürtmiyən bəllü Tanrı" (210);
Altundağı al ayğırı bilüriz,
Bəkilindir, Bəkil qanı?" (249).

7) q-q-q, qa-qa-qə, qı-qı-qı; qa-qa-qa...

"Qırq bin ər yağı gördümsə, qıya baqdım" (277);
Qarşu yatan qarlı qara tağlar,
Qarıyubdır, otı bitməz.
Qanlu-qanlu irmaqlar,
Qurıbdır, suyı gəlməz...
Qızıl-qızıl dəvələr,
qarıyubdır, köşək verməz" (59);
"Qanlu keyik üzərinə qoğa qopsa,
Qardaşlu yigitlər qalqar-qopar olur" (259);
"Qurumsı qırq tutam qara saçlım" (199).

Dastanlarda *q* səslərinin və ya *q* səsli hecaların, sözlərin təkrarı ilə yaranan ahəngdarlıq daha artıq müşahidə olunur; "q" səsləri çox tez-tez misraların başında iki-bir, üç-bir, dörd-bir və s. şəklində gəlir: Məsələn, aşağıdakı parçalar belə saylı "q" səsli sözlərlə başlanır:

2 misra q səsli:

"Qum-qumlamayım, quma yurdum!
Qulanla sığın keyikə qonşı yurdum" (44);
"Qarangu axşam olanda qayğılu Çoban;
Qarla yağmur yağanda çaqmaqlu Çoban" (47)...

3-4 misra q səsli:

"Qarmanıb dört yanına baqdınmı, qız?!
Qarqu kibi qara saçın yoldınmı, qız?!
Qara gözdən acı yaşı dökdünmi, qız?!" (115);
"qarusından ağ əlləri bağlu degil!
Qara qıldan sicim boynına taqılı degil!
Qara tonuz tamında yatur degil!
Qıl kəpənək boyuncığın sürər degil!" (144);

5-6 daha artıq misra q səsli:

"Qanlu kafir elinə dünnən girdin,
Qara buğa gəldügində xurd-xaş elədin,
Qoğan aslan gəldügində belini bükdün,
Qara buğra gəldügində nə gicidin?
Qara-qara tağlardan xəbər aşa,
Qanlu-qanlu sulardan xəbər keçə,

Qalın Oğuz elinə xəbər vara.
Qanlı Qoca Oğlı Qanturalı netmiş-deyələr" (186-187)

8) to-to:

"Toqsan bin yağı gördümsə, tonatmadım" (277);

9) Y-y-y-, ya-ya-ya-ya, ye, ye, ye-ye, yüz-yüz:

Yigirmi bin, ər yağı gördümsə, yılamadım" (277);
"Yapa-yapa qarlar yağsa, yaza qalmaz" 93);
"Yetdigimdə yel yetməzdi yedi urğunum,
Yeni bayırın qurdına bənzərdi yigitlərim;
Yedi kişilə qurulardı mənim yayım...
Yel əsdi, yağmur yağdı, büki qopdı.
Yedi qatla vardım.." (207);
"Yüz bin ər gördümsə, yüzüm dönmədi" (277).

Dastanlarda *y* səsi və ya *y* səsli hecalarla, sözlərlə başlanan beytlər də diqqəti cəlb edir.

"Yedi qız qarındaşın
Yedi yol ayrıdında ağlar gördüm, Bamsı!" (96);
"Ya qara buğranın, köksi altında qalam
Və ya buganın buynızında ilişəm,
Ya qoğan aslanın qeynağında didiləm,
Ya varam, ya varmıyam,
Ya gələm, ya gəlmiyəm" (176-177).

10) gö-gö-gö:

"Götürdügin gögə yetirən görklü Tanrı" (210).

11) sək-sən-sək-sən:

"Səksən bin ər gördümsə, səksənmədim" (277).

Alliterasiya dastanların fərdi-üslubi keyfiyyətlərini tamamlayan məziyyətlərdəndir. Bu məziyyət isə adi deyil, dilin poetik ruhu və musiqi ahənginin təzahürü, yeni keyfiyyəti kimi özünü göstərir. Sonuncu misalda eyni səs və hecaların təkrarından alınan ahəng sözlərə və sözlərin ahənginə çevrilib cinas yaratmışdır: *səksən*-say,

səksən-(-mək) -fel. Aşağıdakı misralarda da səslərin və hecaların ahəngi cinas sözlərə çevrilmişdir:

"Elə kim, mən çəkirəm göz bügüni,
Heç yigidə verməsün qadir Tanrı göz bu güni". (231).

Bu nümunələr Azərbaycan poeziya dili tarixində söz düzümlərinin - cinas qafiyələrin ilk çıxış, başlanğıc nöqtəsi sayıla bilər. Bu məziyyət orta əsrlərdə və daha sonralar inkişaf edib şaxələrə ayrılmış, eyni səs və hecaların ahəngindən alınan bədii estetik keyfiyyət öz inkişafının yeni mərhələsində tərkibcə eyni, mənaca müxtəlif sözlərin ahəngini - cinaslar aləmini yaratmışdır. Biz bu keyfiyyəti, onun inkişafının zirvəsini XVII əsrdə Sarı Aşığın bayatılarında, XIX əsrdə Aşıq Ələsgərin qoşma və təcnislərində görə bilərik...

v) paronim (qoşa) sözlər

Dastanların dilinə ahəng və canlılıq verən vasitələrdən biri paronim-qoşa işlənən eyni sözlərdir. Bu keyfiyyət özünü təkcə şerlərdə deyil, nəsr parçalarında da göstərir: "*Yata-yata* yanımız ağrıdı. *Tura-tura* belümiz qurudı" (36); "Oğlan böylə degəc *bıldır-bıldır* gözünün yaşı rəvan oldı" (54); "*Şahbaz-şahbaz* atlar yügürdi, nalı düşdi, *ala-ala* göndərlər susaldı" (63); "Bu məhəldə Oğuz ərənləri *alay-alay* gəldi. *Gupur-gupur* taullar, naqaralar çalındı" (147)...

Paronim sözlər qopuzla, sazla oxunub söylənən fikirlər, şerlər üçün daha səciyyəvi olub, deyilən sözü sanki hamarlayır, nizama salır, dili qanadlandırır.

Belə paronimlər "Dədə Qorqud kitabı"nda çox yayılıb.

Apul-apul: "Apul-apul yürişindən, Aslan kibi turuşından... (106)"; *asılan-asılan:* "Asılan-asılan qayalardan, Qazan, oğlan uçurdunmı?" (136); *açuq-açuq:* "Açuq-açuq meydana bənzər sənin alınçuğın (99); *baqa-baqa:* "Baqa-baqa Qazan oğlı Uruzun eşqi gəldi" (132); *böyük-böyük:* "Böyük-böyük suların köprüsü su!" (55); *qatar-qatar:* "Qatar-qatar dəvələrini sorar olsam yüklət ki-

mün?" (103); *qanlu-qanlu:* "*qanlu-qanlu* sular əsən olsa qamən daşar" (79); *qara-qara:* "Qara-qara tağlardan xəbər aşa" (186); *quru-quru:* "Quru-quru çaylara suçu saldım" (24); *dönə-dönə:* "Dönə-dönə savaşayın, dönə-dönə çəkişəyin" (130); *tolab-tolab:* "Tolab-tolab ağ südümi əmizirdigim oğul! (165); *tolamac-tolamac:* "Oğul, sən varacaq yerün tolamac-tolamac yolları olur" (175); *yalab-yalab:* "Yalab-yalab yalabıyan incə tonlum!" (199); *gumbur-gumbur:* "Gumbur-gumbur taullar çalındı" (132); *kasa-kasa:* "Kasa-kasa yeməgə yəxni yaxşı" (208); *soq-soq:* "Soqsoq (soyuq-soyuq): "Souq-souq binarlarım gərəksə, ana icət olsun!" (163) *tavla-tavla* // taula-taula: "Taula-taula şahbaz atları sorar olsam, binət kimün!" (103); *fısıl-fısıl:* "Söyləşdilər fısıl-fısıl, kafirin felin tuydum" (52) və s. və i.a.

3) Bədii təsvir və ifadə vasitələri

"Dədə Qorqud kitabı"nın dili obrazlı dildir, hadisələri, əhvalatları təsvir və ifadə tərzlərində bəzən elə yüksək bədiilik, elə poetik ruh, estetik gözəllik var ki, tədqiqatçı bu bədiiliyi, bu ruhu, bu gözəlliyi deməyə, şərh və təqdim etməyə layiq söz, ifadə tapmaqda çətinlik çəkir. Əlbəttə, burada sənətkarın, daha doğrusu dastanları düzüb-qoşan şəxsin, yəni Dədə Qorqudun kamalı, ağlı, düşüncəsi, estetik zövqü, dilinin məntiqi gücü və bədii keyfiyyəti özünü göstərir. Əsərdə bir neçə estetik keyfiyyətlər cəmləşmişdi: müəllif ana dilinin mahir bilicisi idi; o, istedadlı şair idi; o, gözəl musiqiçi, ifaçı, ozan-aşıq idi...

İkicə misal:

"Ol (yerə) gəldi ki, yağı basılmışdı. Gördi oğlunın ala gözlü qırq yigidi qırılmış, bədöy atı oğlanın oxlanmış yatur. Leş arasında oğlancığı leşin bulmadı. Altunluca qamçısın buldı. Yəqin bildi kim, oğlı kafirə tutsaqdır. Ağladı:

Qara tağım yüksəgi oğul!
Qanlu suyum taşqunı oğul!
Qocalığım vaqtı
Aldırduğım yalnuz oğul! - dedi" (141).

Və:

"Qanturalı baqdı gördi bu qonduqı yerdə quğı quşları, turnalar, turaclar, kəkliklər uçarlar. Soq-soq sular, çayırlar, çəmənlər... Selcan Xatun bu yeri görklü gördi, bəgəndi. Düşdilər, işrətə məşğul oldılar. Yedilər, içdilər" (191).

Hər iki misalda canlı dil, fikri sadə və təbii ifadə tərzi əsasdır. Burada elə həyati təsvir var ki, bunun şair tərəfindən uydurulmuş, cilalanmış olduğu təsəvvürə belə gəlmir; düşünürsən ki, o vaxt elə həyatda, canlı danışıqda da belə idi və ya belə ola bilərdi. Bu, dastanların dilinin həyatiliyinə, canlılığına və ya həyati dillə yarandığına dəlalət edir. Bu, o vaxtkı həyati dilin, canlı dilin Dədə Qorqud istedadından heç də geri qalmadığına, bəlkə də üstünlüyünə dəlalət edir. Bu isə tam təbiidir, dialektikdir. Axı, müəllif öz istedadını, kamalını, ağlını, "Dilini-ağzını" xalqın mənəvi zənginliklərindən, söz xəzinəsindən alıb; axı Dədə Qorqudun "dili-ağzı" da canlı dilə, xalqın dil zənginliyinə daxildir...

Hər iki misalda bədii dil, fikri məcazi ifadə tərzi əsasdır: sözlər yaradıcılıqla, zövqlə seçilmiş, sözlər bədii ifadə və təsvir vasitələrinə çevrilmiş, məcazi mənalar almışdır: *"Ala gözlü qırq yigid, bədöy at, altunluca qamçı, qara tağım yüksəgi oğul! qanlu suyum taşğunı oğul! yalnuz oğul!, soq-soq sular...*

Sözü yüksəltmək, ona yeni-yeni poetik mənalar vermək ozan-şair Dədə Qorqudun dili, üslubu üçün çox səciyyəvidir. Əsərdə hamı obrazlı danışır: Ozan da, çoban da, xan da, rəiyyət də, oğlan da, qız-gəlin də, bir sözlə böyük də, kiçik də; hər söz, hər ifadə, hər cümlə qanadlıdır, məcaz və məcazlar silsiləsi ilə deyilir.

a) təcəssümlər

Dastanların dilində insana aid keyfiyyətlərin heyvan, təbiət hadisələri, bitki və s. üzərinə köçürülməsilə yaradılan təcəssümlər xüsusi yer tutur. Məs.: Salur Qazanın qurdla xəbərləşməsi sözə, fikrə bədii don geydirir, dilin bədii təsirini artırır:

"Qazan aydır:

Qaranqu axşam olanda güni toğan!
Qar ilə yağmur yağanda ər kibi turan!
Qaraqoç atları kişnəşdirən!
Qızıl dəvə gördügində bozlaşdıran!..
Ordumun xəbərin bilürmisən, degil mаn a!
Qara başım qurban olsun, qurdum, sаn a!" (45, 46).

Qazan xan eyni şəkildə su ilə, Qaraca Çobanın köpəyi ilə xəbərləşir.

Dirsə xanın arvadı Qazlıq dağını günahlandırır. Ana elə zənn edir ki, oğlu dağdan uçub; onun bu hala düşməsində Qazlıq dağı müqəssirdir, Ana dağa belə qarğış tökür:

"Nə Qazlıq tağı, aqar sənin suların
Aqarkən aqmaz olsun!
Bitər sənin otların Qazlıq tağı
Bitərkən bitməz olsun!
Qaçar sənin keyiklərin, Qazlıq tağı
Qaçarkən qaçmaz olsun!.. (27)

Oğlunun anasına cavabı da yenə təcəssümlədir:

"Ağbirçəkli, izzətlü canım ana!..
Qazlıq tağının günahı yoqdur.
Bitərlidə otlarına qarmamağıl,
Qazlıq tağının suçı yoqdur.
Qaçar keyiklərinə qarğamağıl,
Qazlıq tağının günahı yoqdur... (28).

"Dədə Qorqud"dan başlamış ta bugünədək gələn həm şifahi, həm də yazılı ədəbiyyatımızın dilini təcəssümlər həmişə beləcə bəzəmiş, ona gözəllik vermişdir. Əsərdə surətlər, fikirlər əksərən qarşılaşdırılır, bununla da, bədii dilin daha parlaq, daha gözəl vasitələri yaranır. Qarşılaşdırma özünü müxtəlif şəkillərdə göstərə bilir.

Qaraca Çoban kafirlərə cavab olaraq Qazan xanın qarımış anasını başqa qarımış varlıqlarla belə qarşılaşdırır:

“Mərə, dini yoq, əqilsiz kafir!
Usu yoq, dirnəksiz kafir!
Qarşu yatan qarlı qara tağlar,
Qarıyıbdır otu bitməz.
Qarlu-qarlu irmaqlar
Quruyubdur suyu gəlməz.
Şahbaz-şahbaz atlar
Qarıyıbdır, qulun verməz.
Qızıl-qızıl dəvələr
Qarıyıbdır, köşək verməz.
Mərə, kafir, Qazanın anası
Qarıyıbdır, oğul verməz” (59).

Şerdə insan, insani keyfiyyətlər təbiət hadisələri ilə qarşılaşdırılır, fikir həyatın məntiqi ilə bədii şəklə salınır: Qazanın qoca, qarımış anası, qarlı qara dağlarla, qurumuş, suyu gəlməz qanlı-qanlı irmaqlarla, qarımış, qulun verməz şahbaz-şahbaz atlarla, qarımış, köşək verməz qızıl-qızıl dəvələrlə müqayisə edilir.

Burada zahirən qarlı qara dağlarla, çeşmələrlə Qazan xanın anasının əlaqəsi azdır; lakin bu qarşılaşdırmalarla qarımış ana qarımış dağlarla, qurumuş irmaqlarla bağlanılır, beləliklə dərin bir təsir yaradılır, qarşı tərəfə nifrət hissi gücləndirilir.

Beyrəyin nişanlısı qaynana və qaynatasına oğlanlarının gəlməsi xəbərini də belə qarşılıqlı surətlər təcəssümü ilə verir:

“Qaba ağacın qurımışdı, yaşardı axır!
Şahbaz atın qarımışdı, qulun verdi axır!
Qızıl dəvələrin qarımışdı, köşək verdi axır!..
On altı yıllıq həsrətin, oğulun Beyrək gəldi axır” (117)!..

Burada yenə zahirən qaba ağacla, atlar və dəvələrlə Beyrəyin əlaqəsi azdır, lakin bunlar arasında rabitə, daxili məntiqi əlaqə yaradılır; burada bədii məntiq güclüdür: Beyrəyin getməsilə məhv olmuş hər şey indi sanki birdən-birə canlanmışdır. Beyrəyin qayıtması ilə qurumuş ağac yaşarır, qarımış at qulun, qarımış dəvə köşək

verir... Bu qarşılaşdırmalarla böyük bir sevinc oyadılır, Beyrəyin gəlişilə yeni bir həyat, oyanış, dirilik başlandığı lövhələri yaradılır.

Qazılıq Qoca on altı il dustaq olduqdan sonra azad edilərkən, hamilə qoyub getdiyi halalını xatırlayır və "Hay, bəg yigitlər! Kafiri kim öldürdi? - deyə soruşur:

Qaytabanın mayasını yüklü qodum,
Nərmidir, mayamıdır, anı bilsəm?
Qara ayılum qoyunını yüklü qodum,
Qoçmıdır, qoyunmıdır, anı bilsəm?
Ala gözlü görklü halalım yüklü qodum,
Ərkəkmidir, qızmıdır, anı bilsəm?
Mərə bək yigitlər, xəbər mana,
Yaradanın eşqinə! - dedi.

Yegnək burada söyləmiş, görəlim, xanım, nə söyləmiş? Aydır:

Qaytabanın mayasını
Yüklü qodun nər oldı!
Qara ayıllu qoyunını
Yüklü qodun qoç oldı!
Ala gözlü körklü halalın
Yüklü qodun, aslan oldı - dedi (211-212).

Ata Qazlıq Qoca da, oğul Yegnək də qarşılıqlı surətlər təcəssümü ilə danışır.

b) epitetlər

Sözləri izah və təyin edən, canlandıran təyini sözlərə - epitetlərə dastanların hər sətrində təsadüf olunur. Məs: tək bircə qara sifətindən o qədər təyini söz, epitet kimi istifadə olunmuşdur ki, bunun sayına varmaq belə mümkün deyildir. Bu, əsərin dilinin yüksək bədiiliyilə bağlı bir keyfiyyətdir.

Sifətvermə, adamları sifətlərilə fərqləndirmə qəhrəmanların adlarında da müşahidə olunur; silsiləli epitetlərlə, bədii təyinlərlə bə-

zən qəhrəmanların şəxsiyyəti müəyyənləşdirilir. Məs.: **"Qaradərə ağzında qadir verən, qara buğa dərisindən beşiginiń yapuğı olan, acığı tutanda qara taşı kül eyləyən, bığın ənsəsində yedi yerdə dügən ərənlər əvrəni Qazan bəgiń qartaşı Qaragünə"** (59); **"Dəmür qapu Dərvəndindəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndərinin ucında ər bögürdən Qıyan Səlcük oğlı Dəlü Dondar"** (60). **"Kafirləri it ardına buraxıb xorluyan, eldən cıqub Ayğırgözlü suyundan at yüzdürən, əlli yedi qələniń kilidin alan, Ağ Məlik çeşmə qızına nigah edən, Sunu Sandal Məlikə qan qusduran, qırq cübbə bürünüb otuz yedi qələ bəginiń məhbub qızlarını calub bir-bir boynun qucan, yüzündən, todağından öpən Elin Qoca oğlı Alb Ərən"** (62) və h.b.

Poemada bəzən eyni adları bir-birindən fərqləndirmək üçün də sifətlərdən istifadə olunub: Məs: iki Aruz Qoca var:

1) "Altmış ərkəc dərisindən kürk eyləsə, tobuqların örtmiyən... qolu-budı xıranca, uzun baldırları incə, Qazan bəgüń tayısı at ağızlu Aruz Qoca" (61-62); 2), "toquz qoca başları Aruz" (151). Maraqlıdır ki, vuruş səhnələrində adını bilmədikləri kafirlərə də onların görkəminə, xasiyyətlərinə, boyuna-buxununa, geyiminə və s. görə sifətlər, adlar verilir: "Qaratükən Məlik", "Buğacıq Məlik" (152)...

Qorqud Ata başda olmaqla bütün qəhrəmanların dili ifadəli dildir, onlar hər yerdə obrazlı danışır, onların sözü-söhbəti təyini sözlər, epitetlər, təşbehlər ilə dolu olur. Görünür, oğuz-Azərbaycan dilində qeyri-bədii, obrazsız-məcazsız danışmaq mümkün deyil...

Hələlik ikicə misal:

"Bərü gəlgil, başum baxtı, evüm taxtı!
Evdən çıqub yürüyəndə səlvi boylum!
Topuqunda sarmaşanda qara saçlım!
Qurulu yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan tar ağızlım!
Küz almasına bənzər al yanaqlım!
Qadunım, dirəkim, döləkim!" (12).

Və:

"Toquz qara gözli, örmə saçlı, əlləri biləgindən qınalı, barmaqları nigarlı, boğazları birər qarış kafir qızları al şərabı altun ayaqlı Qalın Oğuz bəklərinə gəzdirərlərdi" (123).

Birinci əlvan portretdəki, ikinci əlvan mənzərədəki təyini sözlər təyin olunanları üstələmişdir; misralar, cümlələr əvvəldən axıra sadə və silsiləli epitetlər və məcazlardan ibarətdir.

Sadə epitetlər. Dastanlarda əsasən sifət və isimlərin vasitəsilə düzəldilən, məsələn, təkcə rəng bildirən "qara" və "ağ", "ağca" sifətləri ilə düzələn onlarca və bəlkə də yüzlərcə epitetə rast gəlirik: "qara otaq", "qara keçə", "qara bulut"; "qara yer", "qara göz"; "qara saç", "qara dəvə", "qara baş"; "qara qovurma", "qara taş"; "qara taq"; "qara ton"; "qara bağır"; "qara qaz"; "qara qıyma gözlər"; "qara gödə"; "qara tırnaq"; "qara qoç"; "qara kəpənək" (141); "qara qılıc"; "qara ayğır" (148); "qara buğa", "qara bığ" (149); "qara saqqal" (159); "qara salqum" (160); "qara buğra" (173) və ya: "ağ otaq" (10); "ağ boyun", "ağ əl" (30); "ağ üzlü" (32); "ağ saqqallu" (34); "ağ birçəklü" (66); "Ağ alın" (201); "ağ köks" (279); "ağ aqça" (280); "ağca qoyun" (46); "ağca yüz" (239)...

Başqa müxtəlif növ sifət sözlərlə də eyni qayda üzrə canlı və cazibədar epitetlər yaradılır: "ala sayvan", "qızıl otaq" (10) "ala çadır", "ulu toy" (14); "qatı taş" (15); "qatı qəzəb" (19); "alca qan" (23); "ağır xəzinə", "bol ləşkər" (25); "al şərab" (31); "bol ağca" (38); "qara diz" (67); "yaxşı yigit" (77); "gen ətək", "görklü su" (83); "qatı yay" (109); "görklü baş" (143); "acı soğan" (144); "qonur at" (145); "alp yigit" (188); "ala yorğan", "al duaq" (198); "incə ton" (199); "gög sayvan" (204); "bol nemət" (205); "ala tağ" (240); "sərb yer" (279); "ala ördək" (288)...

İsim epitetlər isimlərlə bağlı olub, biri digərini təyin edir, qüvvətləndirir: "ipək xalçası" (10); "tan yelləri" (11); "dəmur zəncir" (16); "altun cida" (31); "şahbaz at" (45); "bəg Yeknək" (67); "mərmər taş" (180)...

Fel epitetlər isimlərlə bağlı olub, onları təyin edir, onlarla uyuşur: "yetman oğul" (13); "yetman əyal" (14); "qurumuşca köks" (137); "yügrək su" (138)...

Bu cür epitetlər bağlandığı sözlərlə o qədər uyuşmuş, dildə o qədər sabitləşmişdir ki, bütöv bədii ifadələrə çevrilmişdir. İstər şifahi-bədii xalq ədəbiyyatımızın, istərsə də yazılı ədəbiyyatımızın dilində işlənə-işlənə gəlmiş, inkişaf etmiş, zənginləşmişdir.

Silsilə epitetlər. "Kitab"ın dilində iki və daha artıq təyinedici sözlərdən - silsilə epitetlərdən ibarət olan bədii təsvir və ifadə vasitələri daha zəngin və əhatəlidir.

İfadəli və silsiləli epitetləri, orada sözlərin iştirakına görə qruplaşdırıb nəzərdən keçirək.

1) Üç sözlü silsilə epitetlər: "Qara qoyun yəxnisi" (10); "qara qıyma gözlər" (14); "ağ saqqallu baba", "ağ birçəklü qız" (19); "ağ birçəklü ana", "ala qollı sapan" (41); "avazı qaba köpək" (46); "ala gözlü qız" (76); "gözəllər şahı Banıçiçək" (77); "ala gözlü gəlin" (140); "qara gözlü yigitlər"; "altun ban ev" (143); "qara qıldan sicim", "yanuş arpa ətməki" (144); "gözü göyçək qızlar" (158); "ala gözlü yigitlər" (186); "qadır ulu Tənrı" (188); "adı bəllü bəglər" (208); "qara tonlu kafir" (210); "ağ ələmlü bəg" (285); "ala bargah otaqlar" (294);

2) dörd sözlü silsilə epitetlər: "saqqallı uzun tat əri", "köksi gözəl qaya tağlar" (11); "qara polat üz qılıc" (13)4 "altun başlu ban ev", "çigini quşlı cübbə ton" (18); "boynı uzun bədöy at" (17); "köksi gözəl qaba tağlar" (21); "dənlügi altun ban ev" (57); "ayağı uzun şahbaz at" (95); "ala uran sur cida" (129); "boynı uzun bədöy keyik" (136); "qara gözlü qız qartaşum" (143); "ala qıyma görklü göz" (192); "Kök ala görklü çəmən" (200); "ala gözlü bəg yigitlər" (208); "ala gözlü görklü halal" (211)...

3) Beş və daha artıq sözlü silsilə epitetlər: "ağ birçəklü, izzətlü, canım ana!" (28); "dün qatmış, üç gün dünli yortmış yigit, qaranqulı gözlərini uyxu almış yigit" (263)... Bu cür silsilə epitetlər, artıq

qeyd edildiyi kimi, Oğuz qəhrəmanlarına verilən sifətlərdə özünü çox ecazkar şəkildə göstərir.

c) təşbehlər

Dastanlarda ən sadə və açıq məcaz növü olan müqayisə və bənzətmələrin müxtəlif üsul və yollarına müraciət edilir. Müəllif xalq yaradıcılığının bu sadə və canlı təsvir vasitələrilə surətləri daha cazibəli göstərir, hadisələri daha təsirli verir. Məs:

"Qanturalı niqabın sərpdi. Qız köşkdən baqardı, taraqlığı boşaldı, gödəsi moladı, ösəl olmış tana kibi ağzının suyı aqdı" (180).

Və:

"Baqdı gördi kim, ayun on dördünə bənzər bir məhbub, ala gözlü gənc yigit burcuq-burcuq dərləmiş, uyur, gələndən-gedəndən xəbəri yoq" (266).

Hər iki misalda *kibi* və *bənzər* sözlərindən istifadə olunub. Birinci misalda Qanturalının gözəlliyi, qəddi-qamətli igid olduğu fikrini gücləndirmək üçün ona baxan gözəlin - Selcan Xatunun bihallığı, ağzının suyunun axması "ösəl olmuş dana" ilə müqayisə edilir; həm də bu müqayisə həyati və canlıdır, ədəbi ölçüdən daha çox danışığa, kənd həyatına meylli loru müqayisədir, müqayisənin gözəlliyi də bundadır. İkinci misalda Səkrəyin gənclik təravəti, gözəlliyi fikrini gücləndirmək üçün o, "on dörd gecəlik ayla" müqayisə edilir; həm də bu müqayisə qəhrəmanın gənclik və gözəllik keyfiyyətlərinə hər cəhətdən rəng, boya verib onu tamamlayan silsilə epitetlərlə əhatə olunmuşdur.

"Kitab"da təşbeh yaratmaq üçün istifadə olunan sözlərin əksəriyyəti bu gün belə eyni vəzifəni daşımaqdadır. Bunlar aşağıdakılardır:

1) kibi. Bu qoşma rəngarəng məna çalarları yaratmağa xidmət edir: "Dəpə kibi ət yığdı, kəl kibi qımız sağdırdı" (15); "Küz alması kibi al yanağım yırtdığım çoq" (115-116); "Qar üzərinə qan tammış kibi qızıl yanaqlım!" (199); "Ağzım içi buz kibi, sünüklərim tuz kibi oldı" (157); "Buğa dizin çəkdi, buynuzı ilə bir mərmər taşı yoğurdı, penir kibi ditdi" (180); "Hasar qapusına girmişkən qara

polat uz qılıcı ənsəsinə elə çaldı kim, başı top kibi yerə düşdi" (211); "Oğlan kafiri götürdi, yerə urdı. Burnundan qanı düdük kibi şorladı. Sıçrayub şahin kibi kafirin boğazın ələ aldı" (252) və h.b.

2) bənzər: "Qurulu yaya bənzər çatma qaşlım" (12); "İki şəbçırağa bənzər sənin gözcigəzin.. iki qoşa qartaşa bənzər sənin qulaçığın" (99); "Qaza bənzər qızı-gəlini ağ çıqarmış, qara geymiş" (97); "Qaza bənzər qızım, gəlinüm ağ çıqardı, qara geydi" (146).

3) gəlməz mana. Qarşı tərəfin gücünü azaltmaq, zəiflətmək məqsədilə "gəlməz mana" birləşməsi ilə verilən müqayisələr daha orijinal və təsirlidir. Belə müqayisələr bənzədilənin təsir gücünü artırmaq deyil, əksiltmək üçündür. Qaraca çoban üzərinə gələn düşməni bu cür müqayisələrlə sındırır; onun qüvvəsini heçə endirir. Məs.:

"Altındağı aláca atun nə ögərsən?
Ala başlu keçimcə gəlməz mana!..
Altmış tutam köndərini nə ögərsən, mərə kafir?
Qızılcıq dəgənəgimcə gəlməz mana!
Qılıcunı nə ögərsən, mərə kafir?!
Əkri başlu çokanımca gəlməz mana!.." (41)

4) deməzəm-derəm. "Demək" sözünün inkar və təsdiqində işlədilməsilə yaradılan təşbehdən bir "ayıtma"da məharətlə istifadə olunub. At insana-qardaşa və dosta bənzədilir, onlardan da üstün tutulur; çünki atı Oğuz ərlərinin igidliyindən, qəhrəmanlığından ayrı təsəvvür etmək olmaz:

"At deməzəm sana, qartaş derəm,
Qartaşımdan yeg!
Başıma iş gəldi, yoldaş derəm,
Yoldaşımdan yeg!"

ç) mübaliğələr.

Dastanların bədii dil və üslubundan bəhs edərkən mübaliğədən yan keçmək olmaz. Çünki mübaliğə bədii xalq yaradıcılığı ilə, qəhrəmanlıq dastanları ilə də çox bağlı olub, qədim babalarımızın xə-

yali təsəvvür və arzularının ifadəsidir. Buna görə, əsərdə bədii təsvir və ifadə vasitəsi kimi mübaliğədən istifadə çox təbii görünür. Qəhrəmanların fəaliyyəti, göstərdikləri igidlik, şücaət bəzən heyrət ediləcək dərəcədə şişirdilir. Bu isə qəhrəmanları parlaq və əzəmətli göstərir, onların fəaliyyətinə yaddaqalan çalarlar verir. Məs.:

d) Qazan xanın döyüşlərdə göstərdiyi igidliklər bəzən mübaliğəli verilmişdir - onu parlaq və əzəmətli göstərmək üçün!

"Yedi başlu əjdərhayə yetüb vardım,
Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm!
Bir yılandan nə var ki, qorxdın!? - dedim.
Anda dəxi ərəm, bəgəm deyü ögünmədim.
Ögünən ərləri xoş görmədim..." (278).

2) Qaraca çobanın mübarizə eşqi, düşmənlə vuruşu yenə mübaliğəli verilmişdir - onu mətin və qüdrətli göstərmək üçün!

"Qaraca çoban zərb elədi, qara ağacı yerilə, yurdilə qopardı arqasına aldı, Qazanın ardına düşdi" (50); "Çobanın üçyaşar tana dərisindən sapanının ayasıydı, üç keçi tüyindən sabanının qollarıydı; bir keçi tüyindən çatlağusıydı, hər atanda on iki batman taş atardı. Atdığı taş yerə düşməzdi. Yerə dəxi düşsə, toz kibi savrulardı, ocaq gibi oyulardı. Üç yıladək taşın düşdüki yerin otı bitməzdi..." (56-57).

3) Qalın Oğuz elinə bəla kəsilmiş Təpəgözün yeməyi də mübaliğəli verilmişdir -onu dəhşətli və qorxunc göstərmək üçün!

"Dəpəgöz aydır: Gündə altmış adam verin yeməgə! - dedi. Dədə Qorqud aydır: Bu vəchlə sən adam qomaz, dükədərsən - dedi. - Amma gündə iki adam ilə beş yüz qoyun verəlim - dedi" (219-220).

4) Oğuza qarşı duran düşmənin təsvirində də mübaliğədən istifadə edilmişdir - onu heybətli, zəhmli göstərmək üçün!

"Ol qələnin bir təkurı var idi, adına Arşun oğlı Dirək təkur derlərdi. Ol kafirin altmış arşun qaməti vardı. Altmış batman gürz salardı. Qatı, möhkəm yay çəkərdi" (202-203) və h.b.

4) Cümlə quruluşu və intonasiya

"Dədə Qorqud kitabı"nın dili və üslubunda cümlə quruluşları mühüm rol oynayır. Əsərdə xalqın müxtəlif zümrədən olan bir çox nümayəndəsi danışır, misal çəkir, mübahisə edir, şer deyir, mahnı oxuyur və s. Bütün bunlar isə, hər şeydən əvvəl, canlı dilin zəngin ifadə tərzlərini çəkib ədəbi dilə gətirir, canlı nitqlə, danışıqla ədəbi dilin vəhdətini yaradır. Burada boyları söyləyən ozanın - Dədə Qorqud şəxsiyyətinin ədəbi istedadı, estetik zövqü, əhvalatları, söhbətləri düzüb-qoşma məharəti, şair təbi, yüksək dil mədəniyyəti və s.-də nəzərə alınarsa, təsəvvürəgəlməz fikri ifadə üsulları, cümlə quruluşları zənginliyi ilə qarşılaşırıq.

"Kitab"da cümlə quruluşlarının özü çox güclü bədii gözəllik, təsvir və ifadə vasitələrindən sayıla bilər. Cümlələrin bədii rəngarənglikl ə qurulmasında böyük və deyərdik ki, qeyri-adi bir fitri istedad müşahidə olunur. Cümlələrin aydınlığı və səlisliyi, canlılığı və təbiiliyi, emosionallığı və pafosu əsərin dil və üslubunun zənginliyini, habelə Dədə Qorqudun mahir söz ustası olduğunu da təsdiq edir. Cümlə quruluşlarındakı bədii gözəllik, rəngarənglik baxımından müəllifin öz dili, danışığı ilə ayrı-ayrı qəhrəmanların, surətlərin dili, danışığı o qədər də seçilmir; dastanları ilk dəfə düzüb-qoşan və qələmə alan Dədə Qorqud, bir növ ədəbi seçmə yolu ilə getmiş, dastanın dili və üslubunu ədəbi-kütləvi şəklə salmışdır. Hətta, bu ədəbi-kütləvilik "kafir" deyə bəhs olunan başqa dilli surətlərin oğuzca danışıqlarında da açıq-aşkar duyulur.

Fikrin bu ifadə üsulları, cümlələr qrammatik mənada yox, üslubi və bədii təsvir vasitələri olmaq baxımından diqqəti daha artıq cəlb edir. Əvvəla, əsər "Xan"a müraciətlə başlanır ("Xanım hey"! -10), "Xan"a müraciətlə davam etdirilir. ("...Söyləmiş, görəlim, xanım nə söyləmiş?...) və bununla da tamamlanır ("Xanım hey! - 304). Boylar da ayrı-ayrılıqda, əksərən eyni şəkildə, az-çox dəyişikliyi ilə, eyni üslubda, eyni sözlər və ifadələrlə başlanır: "Xanım hey! Bir gün Qamğan oğlı xan Bayındır yerindən turmuşdı. Şamı günlügi yer üzinə

dikdirmişdi. Ala sayvanı gök yüzünə aşıtmışdı..." (10, 66, 201, 235). Və ya: "Bir gün Ulaş oğlı... Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi" (35-36, 122).

Boylar tamamlanarkən bu paralellik daha qabarıq şəkildə müşahidə olunur; bütün boylar, təxminən eyni üslubda, eyni cümlələrlə bitir: "...Dədəm Qorqut boy boyladı, söy söylədi, bu Oğuznameyi düzdi, qoşdı, böylə dedi..." (34-35, 65-66, 121-122...).

Boylarda hadisələrə təkan verən əsas fikir, məzmun dəfələrlə beləcə təkrar olunur, dönə-dönə xatırlanır.

a) simmetriya və nizamlı təkrarlar

Nizamlı təkrarlar, təkrar cümlələr "Kitab"ın həm nəsri, həm də şerində bütün əsər boyu özünü ümumi üslubi məziyyət kimi göstərir, müvafiq hadisələrə, qəhrəmanlara diqqəti daha artıq cəlb edir, əsas məsələləri, mətləbləri qabardır, fikrin ifadəsinə xüsusi ton və ahəng verir. Beləliklə də, əsərin fərdi dil xüsusiyyətləri, üslubunun ümumi cizgiləri müəyyənləşir...

Birinci "Dirsə xan oğlı Buğacın boyı" Bayındır xanın bu fikri ilə başlanır və hadisələr cərəyan edir: "Bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ, qurdırmışdı. - "Kimün ki, oğlı-qızı yoq qara otağa qondurın, qara keçə altına döşən, qara qoyun yəxnisindən ön ünə gətürin, yersə yesün, yeməzsə, tursun getsün" - demişdi" (10).

Eyni sözləri Dirsə xan evə qayıdarkən arvadına söyləyir: "Görürmisin nələr oldı? Qalqubanı xan Bayındır yerindən turmış. Bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ dikdirmiş. Oğulliları ağ otağa, qızlıyı qızıl otağa, oğlı-qızı olmıyanı qara otağa qondırın, qara keçə altına döşən, qara qoyun yəxnisindən önünə gətürün, yersə-yesün, yeməzsə tursun getsün - demiş" (12-13).

Dirsə xanın arvadı cavabında: "Hey, Dirsə xan!.. Atdan ayğır, dəvədən bugra, qoyundan qoç öldurgıl! İç Oğuzım Taş Oğuzun bəglərin üstünə yığnaq etgil! Ac görsən toyurgil, yalıncıq görsən tonalgil! Borcluyı borcından qurtarğıl! Dəpə kibi ət yığ, göl kibi qı-

mız sağdır! Ulı toy elə! Hacət dilə! Ola kim, bir ağzı düalının alqışıyla Tənrı bizə bir yetman əyal verə - dedi" (14).

Eyni ifadələr, cümlələr təsdiq şəklində Ozanın dilindən deyilir, təkrarən xatırlanır: "Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəklərin üstünə yığnaq etdi. Ac görsə toyurdı..." (14-15).

Bu paralel cümlə qruplarında fikirlərin özünü nizama salan daxili paralellər, təkrar ifadələr, cümlələr də vardır. Bu üslub, hadisələri bu cür təqdimetmə tərzi ötəri olmayıb, bütün boylara xas keyfiyyətdir. Belə sadalamaları, nizamlı təkrarları əsərin "ayıtma" və "söyləmələr-"indəki baş və ya başlanğıc misralara, cümlələrə, baş beytlərə bənzətmək olar. Şerlərdə də belə bütöv parçalar, baş beyt və ya misralar var ki, əhvalatları bir-birinə bağlayır, boylardakı hadisələrə istiqamət verir, habelə fikrin ifadə tərzinə oynaqlıq gətirir, axıcılıq gətirir.

Paralellər, nizamlı təkrarlar, eyni ifadə, müraciət, sorğu-sual təkcə bir boy daxilində yox, ayrı-ayrı boylarda, təkcə bir qəhrəmanın və ya surətin dilində yox, başqa-başqa qəhrəman və ya surətlərin dilində də müşahidə olunur. Məs.:

Dirsə xan xatununa belə müraciət edir:

"Bərü gəlgil! Başım baxtı, evüm taxtı!" (12)

Xatun da öz ərinə belə müraciət edir:

"Bərü gəlgil! Başım baxtı, evüm taxtı!" (23-24)

Qazan bəyin arvadı da ərinə belə müraciət edir:

Bərü gəlgil! Salur bəgi, Salur görgi!
Başım baxtı, evüm taxtı! (135-136).

Hər üç danışıqda bu misralar başlanğıc cümlələrdir. Nəzəri ədəbiyyatda bunlara anaforalar deyilir. Xatunların ərlərinə müraciətindən sonra gələn bir neçə misra da yenə eyni tipli başlanğıc cümlələrdir.

Dirsə xanın xatunu davam edir:
Xan babamın göygüsi!
Qadın anamın sögisi!
Atam-anam verdigi!

Göz açuban gördügim,
Könül verib södügim,
A Dirsə xan!.. (24).

Qazan bəyin xatunu davam edir:

Xan babamın göygüsi!
Qadın anamın sögisi!
Atam-anam verdigi!
Göz açuban gördügim,
Könül verib södügim,
Bək yigidim Qazan!.. (136).

Bu qrup cümlələr içərisindəki bir beytdən isə başqa surətlərin, Dəli Domrulun və Bəkilin xatunlarının ərlərinə müraciətində başlanğıc cümlələr kimi istifadə olunub:

"Göz açuban gördügim!
Könül verüb södügim!" (167, 238-239).

Başqa müraciətləri alaq.

Ata Qazan oğluna müraciət edir:

"Oğul, oğul, ay oğul!
Qarşu yatan qara tağım yüksəgi oğul!
Qarangülü gözlərim aydını oğul!" (145)

Ana Burla Xatun da oğluna belə müraciət edir:

"Oğul, oğul, ay oğul! Ortacım oğul!
Qarşu yatan qara tağım yüksəgi oğul!
Qarangülü gözlərim aydını oğul!" (136-137)

Və ya:

Beyrək aydır...

"Ağız-dildən, qız kişi, xəbər mana!
Qara başım qurban olsun bugün sana" (103)

Uruz aydır...

"Ağız-dildən bir qaç kəlmə xəbər mana!
Qara başım qurban olsun, ağam sana!" (130)

Boylarda bir-birinə keçən belə paralellər kitabın üslubi keyfiyyətlərini ümumiləşdirir, həmçinin ona güclü fərdi keyfiyyətlər vermiş olur.

Əsərdə paralel cümlə qrupları ilə əlaqədar yaranan üslubi məziyyət o qədər zəngin, çoxcəhətli və müxtəlif çeşidlidir ki, bunları bütünlüklə əhatə etmək, qruplaşdırmaq çətindir; bu xüsusi bir tədqiqat tələb edir.

Bir neçə misalla kifayətlənək:

"Qaragünə çapar yetdi:

- Çöl qılıcın qardaş, Qazan, yetdim - dedi" (59-60, 150).

"Dəlü Dondar çapar yetdi:

- Çal qılıcın, ağam Qazan, yetdim, - dedi" (60, 150).

"Qəflət Qoca oğlı Şirşəmsəddin çapar yetdi:

- Çal qılıcın, ağam Qazan, yetdim - dedi" (61-150).

"Boz ayğırlu Beyrək çapar yetdi:

- Çal qılıcın, ağam Qazan, yetdim - dedi" (61-151).

"Qazlıq Qoca oğlı bək Yeknək çapar yetdi:

- Çal qılıcın, ağam Qazan, yetdim - dedi" (61-151)...

Cümlələrdəki eyni yürüş tonunu, ifadə tərzini Ozanın hər dəfə təkrar-təkrar dediyi eyni cümlələr bir daha tamamlayır:

"Bunun ardınca, görəlim, xanım, kimlər yetdi?" (60-62)
"Bunun ardınca, xanım, görəlim kimlər yetdi?..
Bunun ardınca, görəlim, xanım, kimlər yetdi?" (60-62)

Və ya:

"Anun ardınca, görəlim, xanım kimlər yetdi?
Anun ardınca, görəlim, kimlər yetdi?.." (150-151).

Bu paralellərdə bəzi sözlərin əvəzlənməsi, bir-iki sözün artıq və ya əskik işlənməsi təbii görünür. Bu, həm də təsdiq edir ki, bu paralel ifadə tərzləri bir "boy"dan götürülüb başqa birisinə eynilə korkoranə köçürülməmişdir; bu müraciətlər, sorğu-suallar və s. ağızdadildə daim işlənən, "düstur" halına düşmüş ifadə şəkilləridir ki, can-

lı danışıqda olduğu kimi də kitaba keçmişdir. Bu, həm də təsdiq edir ki, əsərin dili çox canlı, təbii və həyati dildir; o vaxtlar - "Oğuz zamanı"nda canlı dil, danışıq özü bu səviyyədə imiş, müəyyən mənada cilalanmış, öz sabit ədəb və ədəbi müraciət, dildə-danışıqda ədəb-ərkan normaları ilə zəngin bir dil olmuşdur. Onun məqbul qayda-qanunları güclü ənənəsi, məntiqi varmış. Sözü təsirli etmək, fikir üzərinə məntiqi vurğu salmaq üçün axırıncı paralel cümlələr qrupunun son cümlələrinin deyiliş tərzinə diqqət edək:

"Anun ardınca bin, qoum başları Dügər yetdi.
Anun ardınca bin Bükdüz başları Əmən yetdi.
Anun ardınca toquz qoca başları Aruz yetdi" (151)

Nəsr dililə bu fikirləri başqa quruluşda bir cümlə ilə də vermək olardı: "Onun ardınca min qoum başları Düyər, min Bükdüz başları Əmən və doqquz qoca başları Aruz yetdi". Lakin istənilən bədii təsir alınmazdı. Fikrin təkrirli ifadə tərzi daha təsirli, daha qabarıq və məntiqi vurğuludur. Hadisələrin gedişinə, real vəziyyətə, ümumi pafosa görə həmin fikirləri məhz belə demək lazım idi. Fikrin bu cür təkrirlərlə və təkidlə deyilməsinin özü oğuz dilinin çox təsirli bədii vasitələrindəndir.

b) Bədii suallar

Əsərdə fikrin bədii təsiri, gözəlliyi çox vaxt cümlələrin bədii qurulması və emosionallığından alınır. Bədii-sual üzərində qurulan cümlələr emosional təsiri iki cəhətdən gücləndirir: 1) cümlə bədii sorğu, sual üzərində qurulur, 2) bədii suallar bənzətmələrlə məntiqi təsdiqə çevrilir, lakin bu bənzətmələr açıq yox, örtülü, metoforik şəkildə verilir. Belə cümlələri sual-təsdiq cümlələr adlandırmaq daha dürüst olardı. Məs.: ölüm ayağında olan Uruz bəy anasına məhz belə emosional bədii suallar, bədii-təsdiq cümlələrlə təskinlik verir:

"Hey ana!
Ərəbi atlar olan yerdə
Bir qulunı olmazmı olur?!

Qızıl dəvələr olan yerdə
Bir köşəgi olmazmı olur?!
Ağca qoyunlar olan yerdə
Bir quzucuğı olmazmı olur?!
Sən sağ ol, qadın ana!
Babam sağ olsun!
Bir mənim kibi oğul
Bulunmazmı olur?!" (54-55).

Biz bu cümlələrin sonuna suallı nida (?!) qoyduq. Çünki hər cümlədəki fikir bədii sual və ona verilən məntiqi cavabdan, təsdiqdən ibarətdir: fikir bədii suallarla verilir, suallar isə qarşılaşdırmalar üzərində məntiqi yolla öz-özünə həll olunur; həmçinin burada bədii şəkildə, nəsil davamının, inkişafın dialektik qanunauyğunluğu şərh edilir; ata (və ya atalar), ana (və ya analar) ərəbi atlarla, qızıl dəvələrlə, ağca qoyunlarla, oğul (və ya oğullar) isə qulunla, köşəklə, quzucuqla müqayisə edilib tam bədii təsəvvür, bədii aləm yaradılır...

Növbəti misallar bədii-sual cümlələrin əlavə növlərindən sayıla bilər:

"Beyrək gedəli Bambam dəpə başına çıqdıñmı, qız?!
Qarmanıb dört yanına baqdıñmı, qız?!
Qarğu kibi qara saçın yoldıñmı, qız?!
Qara gözdən acı yaşı dökdüñmi, qız?!." (115)

Və:

"Hey yigidim! Bək yikidim!..
Qaraqoçda qazlıq atlar
Quluncuğın dəpərmi olur?!
Ağayılda ağca qoyun
Quzucuğın sürərmi olur?!
Alp yigitlər, bək yigitlər
Körklüsinə qıyarmı olur?!" (196-197)...

c) Nida-intonasiya cümlələr

NİIda cümlələr emosional vəziyyəti müxtəlif şəkillərdə ifadə edir. Bu müxtəliflik isə fikrin təsir qüvvəsini rəngarəng şəklə salır.

Burada məntiqi və emosional vurğular mühüm rol oynayır. Hər iki vurğu fikrin poetik ifadəsinə kömək edir. Məs.:

1) "Hey, Dirsə xan!
Oğlana bəglik vergil!" (17)
2) "Oğul, oğul, ay oğul!
Bilürmisən nələr oldı!" (52)
3) "Ölmüşmidin, itmişmidin a Qazan!..." (47)
4) "Əlan sabah yerindən turan qızlar!
Ağ otağı qoyuban qara otağa girən qızlar!" (105)

Bu cümlələrin hər biri nida cümlələrdir. Lakin bu cümlələrdə emosional vəziyyət həyəcan bildirən nida sözlər, məntiqi və emosional vurğular və s.-lə müxtəlif şəkillərdə ifadə olunub. Belə nida-intonasiya cümlələr "Oğuznamə"nin hər boyunda, boyların hər səhifəsində müşahidə edilir...

Bəzən cümlədə sözlərin yeri ümumi qaydadan, ədəbi normativdən fərqli olaraq dəyişdirilir. Bunlara sintaktik fiqurlar deyilir. Sintaktik fiqurlardan biri inversiyadır. Belə ki, cümlədə sözlərin öz yeri olduğu halda, məntiqi və emosional vurğuya əsasən yerini dəyişir. Poeziyada bu dəyişmə daha güclü olur və şerin emosional təbiətindən doğur. Buna görə də adi hal sayılır. Bu keyfiyyət özünü əsərin poetik parçalarında qabarıq şəkildə göstərir. Məs.:

1) "Bərü gəlgil, ağam Qazan!
Qalqubanı yerimdən
Bədöy atım saqlardım
Bugün üçün, güni gəldi.
Ağ meydanda səgirdəyin sənin üçün..." (129)
2) Qıraq yerdə tikilmiş otaxların
O zalım yıqdırdı ola, qardaş!
Yükrək olan atların taulasından
O zalım seçdirdi ola, qardaş! (222-223)
3) Altun aşıq oynar Suncıdanın bəgləri
Altı qatla Oğuz vardı, alımadı ol qələyi... (279)

Şerdə sözlərin, ifadələrin bu cür öz yerini dəyişməsi məntiqi vurğu və intonasiya ilə əlaqədardır; vurğu qəsdən müəyyən söz və

ya ifadələr üzərinə salınır; beləliklə; fikri ifadə xeyli qüvvətlənmiş olur.

Dastanların yurd hissəsində - nəsrində də inversiyadan istifadə vardır. Məs.:

1) "Simiz qoyun, arıq toqlı bayırda qalsa, *qurt gəlib yeməzdi sapanın qorqusından" (57).*

2) "Sağdan gedəni sağ alur, soldan gedəni sol alur, haqlıya haqqı degə, haqsıza yüzü qaralığa degə" (111)...

Sözün, fikrin çoxcəhətli, rəngarəng şəkillərdə deyilişinin özü əsilliklə, məziyyət və koloritlə, dilin daxili imkanları və inkişaf səviyyəsi ilə əlaqədardır. Bu mənada frazeoloji birləşmə və vahidlər "Kitab"ın dil və üslubunda əhəmiyyətli mövqe tutur.

5). Frazeoloji ifadə və vahidlər

Frazeoloji vahidlər xalqın mənəviyyat tarixinin çox güclü nişanələri, onun xəlqi-milli keyfiyyətlərinin qədim və davamlı ifadə şəkilləridir. Xalqın əski həyat tərzi, inamı, dini təsəvvürləri, adət-ənənələri və s. bu vaşidlərdə həkk olunub qalır. Odur ki, belə vahidlər xalqın tarixini, dilin tarixini öyrənərkən böyük əhəmiyyət kəsb edir.

"Dədə Qorqud"da frazeoloji dil materialını, hər şeydən əvvəl, çox mühüm üslubi əhəmiyyəti vardır. Kitabdakı bu dil materialı aşağıdakı mənbələrdən keçib gəlir.

a) Folklor-nağıl süjetlərindən gələn ifadə və vahidlər

Azərbaycan nağıl süjetlərinin kökləri çox qədimlərə gedib, bəzən əsatir və əfsanələrlə bağlanır. Bu süjetlərdə bəzi say sözlər diqqəti cəlb edir. Nağıl və əfsanələrimizdə "üç", "yeddi", "qırx" sayları məhz öz əsatiri-ənənəvi mahiyyətinə görə həmişə fərqlənmişdir; hadisələr, görülən işlər əksərən bu rəqəmlərlə bağlanar, cərəyan edərdi; odur ki, bunlar, bir növ, qeyri-adi rəqəmlərdir, seçilmiş, bir növ "xüsusiləşmiş sözlərdir". Dastanlarda folklor süjetlərindən gələn bu ifadələrə, frazeoloji vahidlərə xeyli yer verilir, hadisələr əksər halda bu saylarla bağlanır.

"Yeddi" sözü. Yeddi yer: "Dəvənin ağzın yedi yerdən bağlan - dedi" (135). Yeddi qız, yeddi yol: "Yedi qız qardaşın, yedi yol ayrıdında ağlar gördüm, Bamsı!" (96)... Yeddi gün: "Yedi gün bən Qazana möhlət vergil!" (140); "Qazanı küçücük ölüm tutdı, uyudı. Məgər, xanım, Oğuz bəkləri yedi gün uyurdı" (272); "Qazan vardı, odasına girdi; yedi gün divana çıqmadı" (300)... Yeddi gün yeddi gecə: "Yedi gün, yedi gecə yortdılar, kafirin sərhədinə irdilər" (177); "Yedi gün, yedi gecə yortdı, Oğuzun sərhədinə çıxdı" (190); "Yedi gün, yedi gecə yemə-içmə oldı" (153); "Yedi gün, yedi gecə toy-dügün edib yemə-içmə oldı" (290)...

"Qırx" sözü. Qırx yer: "Qırq yerdə otaq dikdirdi. Qırq yerdə qızıl ala gərdək dikdirdi" (189). Qırx yigit, qırx qız, qırx namərd, qırx eş, qırx yoldaş... "Qırq yigidlə babasına qarşu vardı, əlin öpdi" (174); "Qırq incə qızı boyuna aldı" (23); "Ol qırq namərd qarşu gəldi" (25); "Hey qırq eşim, qırq yoldaşım!.." (181); "Qırq evli qulla qırq cariyə oğlı başına çevirdi, azad elədi" (153); "Qırq baş qul, qırq qımaq oğlı Uruz başına azad elədi" (65)...

"Qırx gün; qırx gün qırx gecə": "Oğlanın qırq gündə yarası önəldi, sapa-sağ oldı" (29), "Qırq günə dəkin sıravardı göyəgün" (89), "Qırq gün qırq gecə toy-dügün elədilər" (73)...

Bir sıra "dönmə" ifadələr, hadisədən-hadisəyə keçidlər frazeoloji vahidlər səviyyəsinə yüksəlməsə də, nağıl süjetlərindən gəlir, bununla da dastanların dil və üslubuna nağıl tonu əlavə olunur: "Bunun üzərinə on altı yıl keçdi. Beyrəgin ölüsün-dirisin bilmədilər" (92), "Günlərdə bir gün Yeknək oturub bəklər ilə söhbət edərkən,..(204); "Oğul, uğurun açıq olsun! Sağ-əsən varub gələsən! - dedilər" (177); "Bu yana Şöklü Məlik kafirlərlə şən-şadman yeyüb-içüb oturardı" (51); "Ol zamanda bəklərin alqışı alqış, qarqışı qarqış idi" (68) və i.a.

b) Qədim türk kəlamlarından gələn ifadə və vahidlər. Dastanlarda elə cümlələr, ifadələr işlədilir, elə atalar sözü və məsəllərə müraciət edilir ki, bunların çox qədimlərdən - oğuzların, oğuz

boyları, oğuz bölgülərinin peyda olduğu dövrlərdən, "Oğuz zamanı"ndan da əvvəllər yarandığını güman etmək olar. Belə kəlamlar öz arxaikliyi ilə diqqəti cəlb edir; yəni fikir arxaik ifadə şəkilləri, sözlər və birləşmələrlə verilir. Bəzən də fikrin özü bütövlükdə arxaik olur. Məs.: qədim Yenisey türkləri, V-VI əsrlərdə qəbir daşlarına yazardılar:

"Elim, qanım sizə bökmədim..." - Elim, xanım - sizdən doymadım (və ya: sizi yarıtmadım). Və: "Qardaşım günümə yıta adırıltım, sizimə öz gümüş budunum yıta adırıltım" - Hayıf, dost-aşnadan, elimdən-günümdən ayrıldım; hayıf öz doğma gümüş xalqımdan ayrıldım (Yn.80).

Dastanlarda Əzrail canını almaq istərkən, Dəli Domrulun yalvarışları da, təxminən bu ruhda, bu üslubdadır:

Bəkligə usanmadım
Yigitligə toymadım!
Canım alma Əzrail, mədəd! - dedi (160).

Uruz bəyin "qənarə dibinə" gətirilərkən söylədikləri də eyni ton, eyni üslubdadır:

Bəkligə toymadım, özümə yazıx!
Yigitliginə usanmadın, canıma yazıx! (56).

Bu arxaiklik "keyfiyyəti" dastanların tarixini, onun dil və üslubunun əsaslarını yarandığı dövrdən daha qədimlərə çəkib aparır.

"Kitab"da belə qədim zamanlarla səsləşən kəlamlar - atalar sözləri, məsəllər səviyyəli ifadələr diqqəti cəlb edir: "Su haq didarın görmüşdür. Bən bu suyla xəbərləşim"; "Qurd yüzi mübarəkdir, qurdlan bir xəbərləşəyim" (45) kimi vahidlərin kökü, əsli uzaqlara gedir. "Qurd yüzi mübarəkdir... kəlamı, hər halda daha köhnə bir süjetlə - qədim türklərdə qurdun totem yarandığı dövrlərlə bağlı ola bilər. Bəs VII əsr və ya sonrakı əsrlər bu kəlama nə əlavə etmişdi?! Müəyyən söz dəyişikliyi, bir sözün başqası ilə əvəz edil-

məsi mümkündü: qutlu yerinə "mübarək", sorayım və ya soraqlaşayım yerinə "xəbərləşəyim" işlənə bilərdi ki, bu barədə irəlidə danışılacaq. Deməli, kəlamın qədim variantı daha əsil türkcə imiş; O, təxminən belə təsəvvür edilə bilər: "Qurt yüzi qutludur, qurtlan bir soraqlaşayım". Diqqətdən yayına bilməz ki, arxaik şəklini təsəvvürə gətirdiyiniz bu kəlam öz sonrakı "inkişaf" etmiş şəklilə müqayisədə həm daha saf türk dilindədir, həm də daha poetikdir: *qut-qutlu-qutlan.*

"Dədə Qorqud"da frazeoloji ifadə və vahidlərə bəzən kompleks şəkildə müraciət edilir və bu "komplekslər" hadisə və əhvalatların gedişindən doğaraq, ona təsir göstərir, yön və istiqamət verir.

1) "Padşahlar tanrının kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz. Arı könündə pas olsa, şərab açar" (240).

2) "Qalabalıq qorxudır. Dərin olsa baturır. Yayanın umudı olmaz" (133) Və ya: "Dərin olsa baturır. Qalabalıq qorxudır. At işlir, ər ögünür. Yayan ərin, umudı olmaz" (90).

3) "At ayağı kölük, ozan dili çevük olur. İyəkülü ulalur, qapırğalı böyür" (15).

Bu kəlamların bir qismi arxaikliyinə, digər qismi qədim türk həyat tərzinə, məişətinə aid olduğuna görə hələ islamiyyətdən əvvəlki dövrlərlə bağlanır.

Birinci kompleksdə atalar sözlərinin ikisi müəyyən mənada dini təsəvvürlərlə bağlı olsa, onunla səsləşsə də, üçüncüsü bu təsəvvürlərin əksinədir. Bu atalar sözləri eyni dövrün məhsulu ola bilməz. Bunların ikisinin sonralar da, islam dininin gücləndiyi dövrlərdə təzələndiyini, ya yarandığını və katiblər tərəfindən əlavə edildiyini güman etmək olar. Lakin kimsə "Arı könüldə pas olsa, şərab açar" məsələsinin VII əsrdən əvvəllər yarandığına şübhə etməz. Zira islami təsəvvürlər şərab içməyi qəti qadağan etmişdi. "Kitab"da isə nəinki üzüm bağlarından, üzümün tünd al şərabından danışılır, söhbət açılır (160), hətta şərabı tərif və təbliğ məqsədilə hazır fikrə - atalar sözünə müraciət edilir. Bəs şərab sözü buraya

hardan və necə düşmüşdür! Bu söz dilə keçə bilərdi; fars-ərəb-türk münasibətlərinin tarixi çox qədimdi...

İkinci kompleksdə üç-dörd atalar sözünə müraciət edilib; həm də bir az dəyişikliyi ilə kompleks təkrar olunub; beləliklə, dörd məsəl işlənib. Hər biri ibrətlidir, qədim babaların həyat tərzinin və ya bu həyatın ibrətli nəticələrinin vahidləşmiş ədəbi şəklidir.

Üçüncü kompleksdə iki atalar sözündən istifadə olunub. Ayrı-ayrılıqda isə bunlar dəfələrlə xatırlanır, hadisələrin gedişində sanki bir açar rolunu oynayır. Məs.: keçidlər yaranıb hadisələr yeni istiqamət alarkən "At ayağı kölük, Ozan dili çevik olur" məsəlinə dönə-dönə qayıdılıb və ondan 5-6 dəfə (15, 57, 174, 281...), "İyəgülü ulalur, qapırğalı böyür", "İyəgülü ulalur, qabırqalu böyür" məsəlindən isə iki dəfə (15, 256) istifadə olunub. Bu məsəllərin hər birində arxaiklik güclüdür, "İyəgülü ulalur" ifadəsi indi heç anlaşılmır. Bunlar isə VI-VII əsrlərdə xalq arasında, dildə-danışıqda, bu şəkildə imiş ki, Dədə Qorqud da onları götürüb qələmə almışdır. Müasir dilimizlə müqayisədə bunlarda fərq azdır, 1400-1500 il ərzində dəyişiklik o qədər çox deyil. Deməli, bu kəlamlar az və ya çox dəyişikliyi ilə eramızın əvvəllərində (və ondan əvvəllərdə) də mövcud imiş, amma nə şəkildə imiş, buna qəti demək çətindir.

"Kitab"da baş surətlər, baş qəhrəmanlar kimi Ozanın və Atın yüksək, ləyaqətli yeri var. Onların atalar sözü ilə, məsəllə əbədiləşdirilməsi də məhz bu yüksəklik, bu ləyaqətlə bağlıdır. Ata-babalarımızın təsərrüfat həyatında, xüsusilə, döyüşdə atın əvəzsiz rolu olduğu üçündür ki, indi dilimizdə atla bağlı yüzə yaxın atalar sözü və məsəl vardır. Dastanlarda atın vəsf edilməsinə (54, 95, 99, 103...), atın insanla ünsiyyətinə, dostluğuna və s. dair deyilən "At işləməsə, ər ögünməz; hünər atındır" (238); "At işlir, ər ögünür" (90), "At qulağı sağ olur" (264) kimi atalar sözləri məhz ata olan bu yüksək qiymət, bu yüksək ehtiramla bağlıdır.

Dastanlarda atalar sözləri və məsəllərlə yaradılan şirinlik, üslubi keyfiyyət o qədər qabarıq nəzərə çarpır ki, bu barədə ayrıca bəhs açmaq zərurətini doğurur.

c) atalar sözləri, zərbi-məsəllər. "Müqəddimə"də Dədə Qorqud dilindən təqdim olunan atalar sözləri, zərbi-məsəllər ilk baxışda diqqəti cəlb edir. Qorqud Ata bunları öz üslubunda, ahənglə bir-birinə uyuşan şəkillərdə bir neçə bölgüdə söyləyir. Bunları daşıdığı məna və əhatə etdiyi sahələrə görə belə qruplaşdırmaq olar:

a) ümumi həyat yolunun müəyyən olunmuş fikirləri əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Könlün yuca tutan ərdə dölət olmaz" (3), "Adam içməz acı sular sızınca, sızmasa yeg" (4), "Qafil başın ağrısın beyin bilür" (5)...

b) təbiət hadisələrinin gedişi əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Ulaşuban sular taşsa, dəniz tolmaz", "Yapa-yapa qarlar yağsa, yaza qalmaz", "Əski panbuq bez olmaz" (3)...

c) ailə-məişət, övlad-valideyn münasibətləri əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Yad oğlı saqlamaqla oğul olmaz, böyüyəndə salur gedər, gördüm deməz", "Qaravaşa ton geyürsən, qadın olmaz", "Qız anadan görməyincə ögüd olmaz" (3)... "Oğul dəxi neyləsün, baba ölüb mal qalmasa", "Baba malından nə fayda, başda dölət olmasa", "Ata adını yürütməyən xoyrad oğul, ata belindən enincə, enməsə yeg, ana rəhminə düşüncə, toğmaşa yek"; "Ata adın yürüdəndə dölətli oğul yek" (4)... "Oğul kimdən oldığın ana bilür" (5)...

ç) dostluq-düşmənçilik münasibətləri əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Qarı düşmən dost olmaz" (3).

d) heyvanlara münasibət əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Qara eşək başına üyən ursan qatır olmaz", "Qara ğoca qıymayınca yol alınmaz" (3); "Getdikcə yerin otlaqların keyik bilür", "Ayru-ayru yollar izin dəvə bilür", "Kökəz yerlər çəmənlərin qulan bilür", "Yedi dərə qoxuların dülki bilür", "Dünlə karvan köçdügin torağay bilür" (5)...

e) el aşığı, ozan haqqında yaranan təsəvvürlərdən çıxarılan nəticələrin bədii ifadəsi: "Qolca qopuz götürüb eldən-elə, bəgdən-bəgə ozan gəzər", "Ər comərdin, ər nakəsin ozan bilür", "Elinüzdə çalıb ayıdan ozan olsun!" (5).

ə) xəlqi keyfiyyət, məşğuliyyət əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Qara polad uz qılıcı çalmayınca qırım dönməz", "Ər malına qıymayınca adı çıxmaz" (3); "Qonağı gəlməyən qara evlər yıqılsa yek" (4)...

f) igidlik, mərdlik-namərdlik əsasında çıxarılan nəticələrin bədii ifadəsi: "Çala bilən yigidə oxla qılıcdan bir çomaq yek", "Sərp yürürkən qazılıq ata namərd yigit binə bilməz, binincə binməsə yek", "Çalub kəsər uz qılıcı müxənnətlər çalınca çalmasa yek" (4)...

j) göylərə sitayiş və islami təsəvvürlər əsasında çıxarılan nəticələrin bədii ifadəsi.

Qədim türk Tanrısı - göylərlə bağlı olur: "Qadir Tanrı vermə-yincə ər bayımaz" (2); "Azıb gələn qəzayı Tanrı savsun" (5); "Ol ökdügüm yuca Tanrı dost oluban mədəd irsün!" (7)...

İslami təsəvvürlərlə bağlı olur: "Əzəldən yazılmasa, qul başına qəza gəlməz" (2); "Əcəl vədə irməyincə kimsə ölməz" (2-3).

Atalar sözləri və zərbi-məsəllər dastanlarda hadisə və əhvalatların inkişafına təsir göstərir, dastanların dil və üslubunu canlı həyata, milli zəminə daha möhkəm bağlayır, dili, sözü-söhbəti şirinləşdirir.

Dilin bu hazır bədii materialından yeri gəldikcə də müxtəlif məqsəd və vəziyyətlərdə istifadə olunur.

Darda, çətində qəhrəmanlara yol göstərmək, onlara bəzən təskinlik vermək üçün: "Xanım qardaş! Mənim bu duşumu yorğıl mana - dedi. Qaragünə aydır: qara bulut dediginə sənin dölətindir. qar ilə yağmur dediginə ləşkərindir. Saç qayğudır. Qan qadadır. Qalanısın yora bilmən, allah yorsın - dedi" (43).

Ərlik, kişilik ləyaqətini qabartmaq üçün: "Qırımından dönməsə, qaçmasa ərlik- yaxşı" (208); "Aslan əniki yenə aslandır" (242); "Alp ərə qorqu vermək eyib olur" (248); "Ər ərdən adın yaşurmaq eyib olur" (288). "Ögünən ərənləri xoş görmədim" // "Ögünənləri xoş görmədim" (277, 278, 279, 280)...

Kişilərlə qadınlar arasındakı müəyyən həddi-hüdudu göstərmək üçün: "Ögünərsə ər ögünsün-aslandır, ögünmüklik örətlərə böhtan-

dır", "Ögünməklə örət ər olmaz" (198); "Aldayuban ər tutmaq örət işidir" (297).

Ata-oğul borcunu xatırlatmaq üçün: "Baba oğul qazanur ad üçün; oğul da qılıc quşanur baba qeyrətiçün" (131); "Oğul üçün ata ölmək eyib olur" (143);

Dastanlarda müxtəlif şəkillərdə ya tam atalar sözləri və zərbi-məsəllərə, ya da yarımçıq, yəni onların məzmununa müraciətlə sö-zə-söhbətə kəsər, nitqə-ifadəyə qanad verilir. Məs.: "A bək baba! Dəvəcə böyümüşsən, köşəkcə əqlin yoq. Dəpəcə böyümüşsən tarınca beynin yoq. Hünərin oğul atadanmı görər ögrənər, yoxsa atalar oğuldanmı ögrənür!" (125); Sarımsaq otın yemədin, Qazan, içim göynər" (137); "Mən səni gen yerdə istərdim, tar yerdə eyü əlümə girdin" (159); "Gen qapuyı qodı, tar bacadan qaçdı" (159), "Dünya şirin, can əziz, canımı qıya bilmən" (164, 165); "Baş əsən olsa bərk bulunmazmı olur" (193); "Daim gəldüğində tursa dölət yaxşı", "Bildüğin unutmasa, əqil yaxşı" (208); "Otuz iki dişdən çıqan bütün orduya yayıldı, Bəkil atdan düşmüş, ayağı sınmış döyü" (243); "Oğlan quş yürəkli olur" (247); "Yalnuz yigit alp olmaz, yoşan dibi bərk olmaz" (248); "Oğuzun arsızı türkmanın dəlüsinə bənzər" (249).

Dastanlardakı hadisə və əhvalatlardan doğub, məntiqi nəticələr kimi səslənən bu kəlamlar Azərbaycan xalqının hələ orta əsrlərə qədərki bədii təfəkkürdən, söz xəzinəsindən seçmələrdir. Bu çox uğurlu başlanğıc idi...

6). Obrazlı ifadələr. Ədəbi əsərdə obrazlılıq geniş anlayışdır. Söz ədəbi əsərin dili və üslubundan gedirsə, onda obrazlı sözün semantik mənası yox, məhz estetik və üslubi mənası üzərində dayanmaq, söhbəti fikrin qanadlı ifadə tərzi və bundan alınan bədii-estetik keyfiyyətlər, onun müxtəlif cəhətləri və s. doğru yönəltmək lazım gəlir.

"Kitab"da obrazlı söz, ifadə və vahidlərin əsas iki üslubi obyektini göstərmək olar:

1) surətlərin daxili aləmi, psixoloji vəziyyəti və b. keyfiyyətləri onların danışıqları, öz dillərilə bəyan edilir, açılır;

2) surətlərin daxili aləmi, psixoloji vəziyyəti və b. keyfiyyətləri Dədə Qorqudun dili və təsvirlərilə bəyan edilir, açılır.

Əsərdə qəhrəmanların öz danışığı, dili üstünlük təşkil edir ki, bu, əsərin janrı ilə də əlaqədardır. Hər iki halda dil obrazlıdır, fikrin ifadə tərzləri qanadlıdır, yüksək bədii səviyyədədir.

Obrazlı dil, obrazlı danışıq "Kitab"ın yüksək bədii keyfiyyətidir. Bu keyfiyyət Dədə Qorqudun öz dilində də, qəhrəmanların və əlavə surətlərin dilində də geniş şəkildə müşahidə olunur. Məs.: Dədə Qorqud elçi göndərilərkən qızın qardaşına belə müraciət edir:

Qarşu yatan qara tağını aşmağa gəlmişəm,
Aqındılı, görklü suyunı keçməgə gəlmişəm,
Gen ətəgünə, tar qoltuğuna qısılmağa gəlmişəm,
Tanrının buyruğilə, peyğəmbərin qovlilə
Aydan arı, gündən görkli qız qardaşın, Banıçiçəgi
Bamsı Beyrəgə diləməgə gəlmişəm (83).

Fikir bütünlükdə obrazlıdır - qohumluq əlaqələri, qohum olmaq arzularının bədii boyalarla ifadəsidir. Qorqud Ata elçilikdən qayıdarkən Baybörə bəyin sualı və ona verilən cavab da eyni səviyyədə və bəlkə də daha qanadlıdır. "Baybörə bək aydır: Dədə, oğlanmısan, qızmısan? Dədə: Oğlanam - dedi" (86).

Hər iki danışıqda obrazlı fikir içərisində, artıq ənənəvi münasibətlərə, vahid davranışa və adət-ənənəyə çevrilmiş xəlqi-milli təfəkkür tərzi vardır. Buna görə, təbiidir ki, V.V.Bartoldun tərcüməsində (115, s.36-37, 267), bu danışıqlara, bu kiçik mükaliməyə əlavə izahat verilsə də əsl fikir alınmamış və qeyri-türk oxucu bunu başa düşməkdə çətinlik çəkir.

Belə obrazlı ifadə və vahidlər özünü müxtəlif çeşidlərdə göstərir.

a) Xalq danışıq - həyat tərzli ifadələr. Dastanlarda, obrazlı dil, bədii dinib-danışmaq o qədər adi haldır ki, hər münasibətdə bu müşahidə edilir; təkcə *qara* və *baş* sözləri və *qara baş* birləşməsi üzərində nə qədər sifət, bənzətmə, habelə obrazlı fikir, idiomatik ifadə düşünülsə, deyilsə yaxşıdır!? Bunun sayına varmaq qeyri-mümkündür. Dədə Qorqudun təbirincə desək: "Sayılmaqla tükənsə olmaz".

Bəzi nümunələr verək.

"Qara eyib" (sonsuzluq): "Bu qara eyib bana ya bəndəndir, ya xatundandır" (12); "qara qayğulu vaqiə" (qorxulu yuxu) - 42; "qara şivən" (ağlaşma, yas): "Ol yigit üzərinə möhkəm qara şivən oldı" (155); "Qaralar geydi" (yasa batdı) - 92; "Qara qana bulaşdı" (298); "Qara başı bunaldı" (211); "Asmanlı gögdə qara bulut oluban kafirin üzərinə gurlayayım" (147); "Toyun-dügünün qara oldı deyü ağlar" (102); "Qara tırnaq ağ yüzümə çalayınmı?" (139)...

Və:

"Başım baxtı" (ömür yoldaşı, qadın) - 12; "başım tacı" (evin tacı, ər) - 148; "Başınuz yarağın görün" (284); "Baş yarağın eylən, üzərinüzə yağı gəlür" (243); "Ağam başıçün!" (268); "Mən Qazan uğruna başım qomuşam" (297); "Sənin yolunda baş verdi" (301); "Qara başım qurban olsun Çoban sana" (47); "Qazan ah etdi, əqli başından getdi" (48); "Qara başım büküldi" (48); "Qalın Oğuz bəgləri mənim başıma qaxınc qaxarlar" (34); "Qara başım sədəqəsi yigit, mədəd mana" (44); "Ağılları başlarından getdi" (52-53); "Başıma qaxınc, yüzümə toxunc olmasun" (175)...

Ozanın təsvirində, oğlunun başına bir iş gəldiyini duyan ana Burla Xatun belə daxili sarsıntı keçirir: "Qapaq qaldurdı, Qazanın yüzünə toğrı baqdı, sağilən soluna göz gəzdürdi, oğlancuğını - Uruzı görmədi. Qara bağrı sarsıldı. Düm yürəgi oynadı. Qara qıyma gözləri qan-yaş toldı" (135).

Ozanın təsvirində vəziyyətdən hali olan ata Qazan da eyni daxili sarsıntı keçirir: "Anası oğlanın böylə degəc, Qazanın ağlı başından getdi. Qara bağrı sarsıldı. Düm yürəgi oynadı. Qaranqulı gözləri qan-yaş toldı" (140).

"Kitab"da bu qəbil obrazlı ifadələrdən, idiomlardan ayrı-ayrı surətlərin təsvirində bəzən eynilə istifadə olunur: "Qapaq qaldırdı, Dirsə xanın yüzünə baqdı. Sağilən soluna göz gəzdürdi, oğlancuğını görmədi. Qara bağrı sarsıldı. Düm yürəgi oynadı. Qara qıyma gözləri qan-yaş toldı" (23). "Qazanın qara qıyma gözləri qan-yaş

toldı. Qan tamarları qaynadı. Qara bağrı sarsıldı" (44); "Qara qıyma gözləri qan-yaş toldı" (106); "Yegnək bu xəbəri eşitcək yürəgi oynadı. Qara bağrı sarsıldı" (204).

Görünür, daxili sarsıntı ilə, qara xəbərlə əlaqədar vəziyyətin bu cür obrazlı təsviri canlı dildə, həyatda təbii hal imiş ki, Ozan da bu danışıq-həyat tərzini olduğu kimi vermiş, dastanlara - ədəbi dilə gətirmişdi.

Buna şübhə yoxdur ki, fikrin belə obrazlı ifadə tərzləri canlı həyatda, nitqdə-danışıqda olmasa idi, şairin özü tərəfindən yaradıla bilməzdi: "Əl götürdülər, hacət dilədilər" (15); "Yalnızca oğul görünməz, bağrım yanar" (24); "Baş endirüb, bağır basğıl!" (40); "Kafirin gözü qorqdı" (42); "Ağlım, usum dərə bilmən" (43); "Başınuza çarə edin" (44); "Boyı uzun Burla bunı eşitdi. Yürəgilə canına odlar düşdi" (51); "Dünya-aləm kafirin gözünə qaranqu oldı" (57); "Beyrəgin qanı qaynadı, ədəblə yab-yab gerü döndi" (77); "Gözün kimi tutarsa, könlün kimi sevərsə, sən ana vargıl!" (167); "Bir canda nə var ki, sana qıymadılar?" (168); "Bu yigidi gözüm gördi, könlüm sevdi" (185); "Sən gəlürsən, bir bəbəgüm görünməz, bağrım yanar" (194); "Göz ucuyla ol ərə baqdım" (207); "Ayağın toprağına məni saldılar. Sana kəsim verəlim - dedi" (219); "Ağ birçəklü qarıcıqları çox ağlatmışam, gözi yaşı tutdı, ola gözüm səni"; "Mucağı qararmış yigitcikləri çoq yemişəm, yigitlikləri tutdı ola, gözüm səni" (233); "Ərliklə qardaşın qanın aldın. Qalın Oğuz bəklərini yükdən qurtardın!" (234); "Ava bingil, könlün açılsun!" (240); "Bağrımla yürəgim nə dağlarsan?" (245); "Qalqar bizə gen yazuyı tar göstərər" (266); "Uruzun şəfqət tamarları qaynadı. Qara qıyma gözləri qan-yaş toldı" (290); "Mənim qanım Aruza qomasun!" (299); "Beyrəgin qanın tayısından aldı" (303)...

"Kitab"da obrazlı fikir, qanadlı ifadələr elə rəngarəng və çoxcəhətlidir ki, ayrıca və geniş tədqiqat tələb edir. Biz bu barədə imkan daxilində danışa bildik.

b) Andlar. "Kitab"da qəhrəmanların maraqlı and içmələri var.

Andlar daha çox islamiyyətdən qabaqkı qədim türk inamı-tanrı (göylər), yer, ox, qılınc, oğul, ata, ana və torpaqla bağlıdır. Məs.: "Ana haqqı, Tanrı haqqı deyilməsəydi, qalqubanı yerimdən turaydım, yaqanla boğazından tutaydım..." (53) və yenə: "Ana haqqı, Tanrı haqqı olmasaydı, qara polad uz qılıcım tutaydım, qəfillücə görklü başın kəsəydim" (259). Eyni andın ayrı-ayrı fərdlər tərəfindən içildiyinə tez-tez rast gəlirik. Məs.: Qanturalı and içir: "Yer kibi gərtiləyin! Torpaq kibi saurılayın. Qılıcıma toğranayın! Oxuma sancılayın! Oğlum toğmasun, toğarsa on günə varmasun! Bəg babamın qadın anamın yüzin görmədin bu gərdəgə girərsəm" (190). Bu andı Səkrək də içir: "Mən qılıcıma toğranayım! Oxuma sancılayım! Oğlum toğmasun, toğarsa, on yaşına varmasun! Ağamın yüzin görməyincə, ölmüş isə qanın almayınca bu gərdəgə girərsəm" (260)...

Bu o deməkdi ki, o vaxtlar andlar özü də xüsusi ölçüyə, biçimə düşmüşdü.

Andların müəyyən qismi islami təsəvvürlərlə - Allahın adı ilə bağlıdır. Məs.: "Qazan aydır: Vallah, billah toğrı yolı görür ikən, əgri yoldan gəlməyəyin - dedi. Ayıtdılar: Vallah, Qazan eyü and içdi - dedilər" (276) və yenə: "Qazan aydır: Vallah, billah toğrı yolı görür ikən əgri yoldan gəlməyəlim - dedi" (285); "Yaradan haqqı çün!" (143)...

c) *alqışlar* (dua) və *qarğışlar*. Andlarda olduğu kimi, alqış və qarqışlarda da iki cəhət özünü göstərir. Mühüm qisim alqışlar güclü kolorit əsasında yaranmış ifadələrdir. Bunlar həm qəhrəmanların dilindən, həm də boyların sonluqlarında Dədə Qorqudun dilindən edilir. Məs.: "Oğül, uğrun açıq olsun! Sağ-əsən varub gələsən!" (177) və yenə: "Yort, oğul, uğurun açuq olsun. Sağ-əsən varıb gələsən!" (262-263); "Dölətlü xanın ömri uzun olsun!" (93)... Yaxud: "Yerlü qara tağların yıqılmasun! Kölgəligə qaba ağacın kəsülməsün! Qamən aqan görkli suyun qurumasun! Qanadların ucları qırılmasun! Çaparkən ağ-boz atın büdrəməsün! Çalışında qara polat uz qılıcın güdəlməsün..." (35, 66, 122, 154).

Digər qisim alqışlar islamiyyətlə, xüsusən Məhəmmədin adı ilə əlaqədardır. Məs.: "Müqəddimə" bu alqışla tamamlanır: "Andan dəxi, sizi, xanım, Allah saxlasun. Ocaqınıza buınçalayın örət gəlməsün!" (9). Dini məzmunlu alqışlar, əsasən boyların sonluqlarında Dədə Qorqudun dilindən deyilir: "Adını bən dedim, yaşını allah versün!" (75); "Ağ saqqallu babaın yeri uçmaq olsun! Ağ birçəklü anaın yeri behişt olsun!.. Ağ alnuında beş kəlmə dua qıldıq, qəbul olsun! Allah verən umudun üzülməsün! Yığışdırsun, dürüşdürsün, günahlarını adı görklü Məhəmməd Mustafa yüzi suyuna bağışlasun!" (66, 122, 154)... "Qadir Allah yüzün ağ etsün" (234).

Dədə Qorqudun və başqa surətlərin dilindən alqışlarla yanaşı, qarğışlar da eşidilir. Məs.: Qazan bəy oğlu Uruzla ova çıxır, evə tək qayıdır. Ana şübhəyə düşür.

"İki vardın, bir gəlürsən, yavrum qanı?
Deməz olursan yana-göynə qarğaram, Qazan, sana!" (136)

deyə həyəcanla ərini sorğu-suala tutur. Bu çox təbiidir. Alqış varsa, qarğış da var.

Qarğışlar da ikili məzmuna malikdir. Bunların mühüm qismi canlı həyat və məişətdə doğub xalqın mənəvi aləmilə bağlı qarğışlardır. Məs.: "Dədə Qorqut ayıtdı: Çalarsan əlün qurusun! - dedi" (84); "Ağzın qurusun, Çoban!" (48); "Məni sana asarlar, götürməgil, ağac! Götürəcək olarsan yigitligüm səni tutsun ağac! (56); "Ağzın qurusun, ana! Dilün çürüsün ana!.." (53). Yaxud: "Ana ağzın qurusun! Ana dilin çürüsün!" (258); "Əlün qurusun, barmaqların çürüsün!" (108); "Boynı sınsun, al ayğırı bütün bindin..." (244)...

Digər qisim qarğışlar dini təsəvvürlə bağlıdır. Bunlar azdır. Məsələn: "Qadir sənün alnuna qada yazsun, Çoban!" (48); "Sultan Tanrı bunın simüzin də alsun, arığın da alsun!" (88)...

ç) ağılar, dildemələr. "Bamsı beyrək" boyunda ağılar, dildemələr diqqəti cəlb edir. Bunlar Beyrəyin yeddi qız qardaşının (bacısının) dilindən eşidilir: "Vay bəgim qardaş! Muradına, məqsuduna

irəmiyən yalnuz qardaş!.. (91). Beyrəyin sevgilisi Banıçiçəyin dilindən eşidilir: "Vay al duağım ayası! Vay alnım, başım umudı! Vay şah yigidim! Vay şahbaz yigidim!.. Göz açuban gördügüm, könül ilə södügim! Bir yasdıqda baş qodığım! Yolunda öldügüm, Qurban olduğum! Vay Qazan bəgin inağı! Vay Qalın Oğuzun imrəncisi Beyrək!" (92).

Boylarda hadisələrin səciyyəsinə görə bəzən ağıların, dildemələrin tonu dəyişir. Məsələn, dar ağacına gətirilərkən Uruz bəyin dilindən eşidilir: "Taula-taula bağlananda atıma yazıx! Qartaş saqlayanda yoldaşıma yazıx! Yumruğumda talbınanda şahin quşuma Yazıx!" (56): Və ya: Səkrək Əkrək adlı qardaşı olduğunu eşidərkən: "Qaranqulu gözüm aydını qardaş!" (257) - deyib ağlayır...

d) oxşamalar. Dastanlarda oxşamalar müxtəlif müraciət və münasibətlərdə müşahidə olunur. Ana oğlunu oxşayır: "Dənlügi altun ban evimin qəbzəsi oğul! Qaza bənzər qızımın, gəlinimin çiçəgi oğul!" (52). Ata oğlunu oxşayır: "Ölüm ağzın, üçün oğul!" (246). Qayınata-ana gəlinin oxşayır: "Dilünü üçün öləyin gəlincigim! Yolunа qurban olayın gəlincigim!" (117). Oğul ananı oxşayır: "Ağ südün əmdigim qadunım ana! Ağ birçəklü, izzətli canım ana!" (28)...

Qazan bəyin dilindən eşidilən oxşamalar daha rəngarəngdir. Qazan bəy suyu oxşayır: "Ağac gəmilər oynadan su!.. Bağ və bostanın ziynəti su!.. Şahbaz atlar içdiyi su!.." (45). Qazan bəy iti oxşayır: "Acı ayran tökülləndə çab-çab içən! Gələn xırsızları qorqudan!.." (46). Qazan bəy qurdu oxşayır: "Avazı qaba köpəklərə qoğa salan! Çaqmaqlıca çobanları dünlə yügürdən! Ordumun xəbərin bilürmisin, degil manа! Qara başım qurban olsun, qurdum sanа!" (46) və h.b.

Təbii varlıqları oxşamalarda dini mahiyyət daşıyan ifadələr də var: "Həsən ilə Hüseynin həsrəti su!.. Ayişə ilə Fatimənin nigahı su!.." (45); "Məkkə ilə Mədinənin qapusı ağac! Musayi-Gəlimin əsası ağac!" (55) və h.b.

e) sevinc, razılıq və s. bildirən ifadələr. "Kitab"da "Nola, xanım, baş üzərinə!" (80), "Yüzünüz ağ olsun! Ağanuzın ətməgi sizə ha-

lal olsun!" (101-102); "Əlün var olsun!" (108); "Gözün aydın!" (270) və s. kimi ibarələr nəzəri cəlb edir. Sevinc və razılıq hisslərinin ifadə şəkilləri olan bu idiomlar əsl xəlqi mahiyyət daşıyır.

Bütün bu obrazlı ifadə və vahidlərdə, xüsusən and, ağı, alqış, qarğış, oxşama ifadələrdə müşahidə olunan iki mənbə və burada yerli kaloritin, xəlqi vahidlərin üstünlüyü islamiyyətdən əvvəlki mənəvi sərvətin - xalq danışıq, dil mədəniyyətinin "Dədə Qorqud"-da daha çox qorunub saxlandığını, mühafizə olunduğunu təsdiq edir.

Bütün bu obrazlı ifadə və vahidlərdəki dəyişiklik, inkişaf nəzərə alınmaqla, onların VII-VIII əsrlərdən dilə gələn islam dini ifadə və vahidlərdən daha əzəli olduğu düşünülə bilər. Bəlkə də, bu vahidlər, sözün, fikrin bu obrazlı ifadə tərzləri VII əsrdə və ondan əvvəllər bir qədər qəliz və arxaik idi; bəlkə də, bizə gəlib çatan "Dədə Qorqud"dakı ifadə tərzləri və şəkillərinin tam eyni deyildi, lakin bunlar vardı və bunların yaranma tarixi sabit ölçüyə, biçimə düşməsi, hər halda dilimizə, xalqımızın məişətinə keçən islami təsəvvürlər və onların ifadə tərzlərindən qabaq idi...

4. "Dədə Qorqud kitabı"na artırmalar və ya "yad qatlar"

"Dədə Qorqud kitabı"nın ilk dəfə yazıya alınmış naməlum nüsxəsi əski əlifba ilə üzü köçürüldükcə katiblər hər dəfə oraya öz əlavələrini də etmişlər. Bu, təbii haldır. Buna görə ilk nüsxədən - orijinaldan fərqli olaraq, "Kitab" yeni, yad dil-üslub "qatları"na məruz qalmışdır.

Bu "qatlar" əsasən üç yöndə özünü göstərir: şəxs adlarında islam dini söz və istilahlarında və islam dini təsəvvürlərinin təbliğində:

1). Şəxs adları. Bu adlar hansılardır? Əsərdə çəkilən şəxs adları, surətlərin çoxu sırf türk-oğuz adlarıdır. Lakin bir-iki ərəb və fars adı da var: *Qəflət* Qoca oğlı *Şir Şəmsəddin* (61,..), Alp *Rüstəm* (228), Qısırça *Fatma* (114).

Bunlar əsərin fəal surətləridir.

"Kitab"ın "Müqəddimə" və mətnində işlədilən dini-tarixi şəxs adları diqqəti xüsusilə cəlb edir: *Məhəmməd // Məhəmməd Mustafa* (5, 63, 66, 122,..), *Əbubəkr Siddiq (5), Şahi-Mərdan Əli (6, 55), Həsən, Hüseyn (6, 44,..), Osman Üffran (6), Ayişə, Fatimə (7, 44), Züleyxa, Zübeydə, Üridə (8), Musayi-Kəlim, Zülfiqar (55)* və b.

Bunlar əsərdə ötəri xatırlanan adlardır.

Bu adları Azərbaycan dilinin qrammatik quruluşuna tabe etmək, bir növ "doğmalaşdırmaq" üçün onlara öz sözlərimiz qoşulub, adlar müxtəlif növ şəkilçilər və s. ilə işlənib ki, "həzm oluna", dilimizə uyuşa, başqa sözlərlə "yola gedə" və anlaşıla bilsin. Bu proses, təbii olaraq, irəlidə haqqında bəhs ediləcək digər dini-tarixi adlar, sözlər və birləşmələrdə də özünü göstərir.

2). Dini söz və istilahlar. Bunlar az deyil. Ancaq iki türk-oğuz: *uçmağ // uçmaq, Təŋri // Taŋrı;* iki də buna qarşı işlənmiş yad: *behişt, allah // allataala // həqtaala* sözləri üzərində dayanaq.

"Dədə Qorqud" boylarının sonundakı alqışlardan ikisi aşağıdakı məzmunda olub, bir neçə dəfə eynilə xatırlanır:

"Ağ birçəkli anaŋ yeri *behişt* olsun!
Ağ saqqalu babaŋ yeri *uçmağ* olsun!" (35, 66,..).

Cümlələr bəzən növbələşir, ikinci əvvəl, birinci sonra deyilir. Lakin söhbət *uçmaq və behişt* sözlərinin məna və məzmunca eyniləşdirilməsindədir. Halbuki belə deyil. Uçmaq sözü Orxon-Yenisey kitabələrində də var: *uçdı, uça bardı* ("Qağan *uçdı"* - MÇs 12 = Xaqan uçdı, yəni öldü; "Bilgə qağan *uça bardı* - BKXs = Bilgə Xaqan uçub getdi, yəni öldü və h.b. Görünür, *uçmağ // uçmaq* adının əsası, ilk çıxış nöqtəsi bu *uçmaq* felindəndir; öldü, uçub getdi, əbədiyyətə qovuşdu,.. mənalarını verir. Sözün məna tutumunda mövhumi, uydurma söhbət yoxdur. Əksinə, *behişt* sözü islam dini istilahıdır, sözün məna tutumu hər cür mövhumi uydurmalarla (huri-

lər, mələklər aləmi və s.) doludur. Deməli, bu sözlərdə ancaq zahiri yaxınlıq vardır, bunlar bir-birinin eyni ola bilməz.

İkinci cüt sözlər üzərindəki müşahidələr real vəziyyəti bir qədər də aydınlaşdırır. Təkcə "Müqəddimə"də "Tanrı" və ona qarşı duran "allah" sözləri 15-16 dəfə xatırlanıb ki, bunun 10-nu "Tanrı"dır. Hər iki söz həm *allah-tanrı* ("Qamusuna bənzəmədi cümlə aləmləri yaradan *Allah-tanrı* körklü" - 7), həm də *allah-allah* ("*Allah-allah* deməyincə işlər önməz" - 2) şəklində qoşa da işlənib "Tanrı"ya bir and da içilib) "Qonşu haqqı, *Tanrı haqqı*" - 9).

"Müqəddimə"nin aşağıdakı cümlələri də məsələ ilə əlaqədar müəyyən söz deyir:

"Yazılıb-yazılıb gögdən endi *Tanrı elmi*
***quran* görklü,**
Alçaq yerdə yapılupdır *Tanrı evi*
***Məkkə* görklü" (6).**

"Allah elmi quran" hardan "Tanrı elmi" və "Allah evi Məkkə" hardan "Tanrı evi" ola bilərdi?

Bütün bunlar sonradan islami təsəvvürlərin çox məharətlə təbliği idi; islam dini-tarixi adlarını, istilahlarını təbliğ etmək, "allah" sözü və ideyasını "Tanrı" ilə eyniləşdirib beyinlərə yeritmək məqsədini güdürdü. Fikrimizi daha da aydın etmək üçün növbəti bölməyə keçək.

3). İslam dini təsəvvürləri. "Dədə Qorqud kitabı"nda allah (həqtaala, allataala) sözü ilə müqayisədə Tanrı sözünə sayca üstünlük verilsə də, hər yerdə qarşılaşdırılır; allah məvhumuna aid dini keyfiyyətlər, hər cür mövhumi rəvayət və uydurmalar və s. eynilə türk Tanrısına da şamil edilir. Halbuki türk-oğuz Tanrısı ərəblərin allahına bənzəməz. Çünki bu sözlərin məna tutumu başqa-başqadır. "Tanrı" daha real və həyati təsəvvürləri tənzim edir, bir sıra bəşəri keyfiyyətləri özündə cəmləyir. Onun maddi əsası da var; bizim ulu babalarımızın öz ağlının məhsuludur.

"Qazanın önünə bir su gəldi. Qazan aydır: Su *haq didarın* görmüşdür. Bən bu suyla *xəbərləşim* - dedi, görəlim, xanım, necə *xəbərləşdi*?

Qazan aydır:

Çığnam-çığnam qayalardan çıqan su!
Ağac gəmilər oynadan su!
***Həsən* ilə *Hüseynin* həsrəti su!**
Bağ və bostanın *ziynəti* su!
***Ayişə* ilə *Fatimənin nigahı* su!**
Şahbaz atlar içdiyi su!
Qızıl dəvələr gəlüb keçəki su!
Ağ qoyunlar gəlüb çörəsində yatdığı su!
Ordumun xəbərin bilürmisin, degil mana!
Qara başım qurban olsun suyum sana! - dedi.
Su qaçan *xəbər* versə gərək!.." (44-45)

Bu, oğuzlarda suya olan ilahi ehtiramın tərənnümüdür, suyu "tanrı"lığa qaldırıb dindirməkdir.

Lakin biz bu mətn üzərində digər bir xətti izləmək niyyətindəyik. Bu məqsədlə bir sıra söz və birləşmələri kursivlə verdik. Bunlar VI-VII əsrlərin türk-oğuz, yəni Azərbaycan dili ilə o qədər də uyuşmur. Çünki yad sözlərdir. Bunlar sonradan "kitabı" köçürən katiblər tərəfindən əlavə olunub. Mətndə alınma sözlərin hansı sözlərin yerinə işlədildiyi açıq-aşkar hiss olunur: *soraqlaşım, soraqlaşdı, soraqın, dinsə-danışsa* (xəbər versə) və s.

"Həsən ilə Hüseynin həsrəti su!
Ayişə ilə Fatimənin nigahı su!"-

misraları mətndə tamam artıq görünür, bunlar asanlıqla atıla, "redaktə" edilə bilər; şer bunlarsız daha təbii, milli koloritə daha uyğun olardı. Yaxud: "Su haq didarın görmüşdür" - cümləsinin "Su Tanrı yüzün görmüşdür" deyilməsi nə qədər doğma və əslinə yaxındır; axı, su doğrudan da göydən Tanrının üzündən süzülüb gəlir.

Qədim türklər Zöhrə ulduzuna *Sevid* deyiblər, *Sevid* su tanrısının adıdır; *sev, sevgi* sözləri də buradandır. Sevid ulduzu isə göylərdə yerləşir; "Tanrı"ya yaxındır. Tanrı sözü digər mənada işıq, həyat deməkdir, bu Günəşlə də bağlıdır; *tan // dan* sözləri də (müq. et: *tan // dan* söküldü, *tan // dan* yeri ağardı və s.) buradandır...

Mətnin əslini, təxminən bu şəkildə bərpa etmək olar:

"Qazanın önünə bir su gəldi. Qazan aydır: Su Tanrı yüzün görmüşdür. Bən bu suyla soraqlaşım - dedi, görəlim, xanım, necə soraqlaşdı. Qazan aydır:

"Çığnam-çığnam qayalardan çıqan su!
Ağac gəmilər oynadan su!
Bağ və bostanın *yaraşığı su!*
Şahbaz atlar içdiyi su!
Qızıl dəvələr gəlüb keçəki su!
Ağ qoyunlar gəlüb çörəsində *ya*tdığı su!
Ordumun *soraqın* bilürmisən, degil mana!
Qara başım qurban olsun, suyum sana! - dedi.
Su qaçan *dinsə-danışsa* gərək!.."

Qazan oğlu Uruzun ölüm ayağında "Ağacla söyləşməsi"ndən ayırdığımız yad qatlara diqqət edək:

***"Məkkə* ilə *Mədinənin* qapusı ağac!**
***Musayi-kəlimin əsası* ağac**
***Şahi-Mərdan Əlinin düldülünün əyəri* ağac!**
***Zülfiqarın qını* ilə *qəbzəsi* ağac!**
***Şah Həsənlə Hüseynin beşigi* ağac!.." (55).**

"Dədə Qorqud kitabı"nın ilk nüsxəsində bu sözlər və bu məzmunda misralar mümkün deyildi. Görünür, katib türk-oğuz adlarının, sözlərinin yerinə islam adlarını, sözlərini yerləşdirmiş və ya bunları özündən artırmış, daha dürüst desək, mətni zamanın ruhuna görə "düzəltmiş", "redaktə" etmişdir. Odur ki, "Dədə Qorqud"un ruhuna, məzmununa yapışmır, "yamaq" kimi görünür. Buradakı di-

ni-tarixi adlara "Müqəddimə"də də rast gəlmişik. Mütəxəssislərin - "Müqəddimə" dastanlara sonradan əlavə olunmuşdur", - fikrini nəzərə alsaq, bu adlar və onların vəsfi, habelə ümumən əsərdəki islam ruhunun, ərəb və fars sözlərinin orada özünə yer etməsi və s. elə həmin "Müqəddimə"ni yazan (əgər doğrudan da belədirsə) islam ziyalısının əlavəsi, "redaktəsi"dir.

Bu əlavələr, bu "redaktə" ki, biz onu yeni və yad dil - üslub "qatları" adlandırırıq, digər nümunələrdə, cümlə və birləşmələrdə, dini-mövhumi təsvirlərdə də müşahidə olunur. Məs., ayrı-ayrı boylardan bir-birilə səsləşən iki mətni eynilə bura köçürək:

1) "Pəs Qazılıq Qoca oğlı Yegnək, taza yigitcik yaradan *allahına* saqındı. *Bizaval məbudı* ögdi, aydır:

Yucalardan yucasan!
Kimsə bilməz necəsən, əziz Tañrı!
Sən anadan toğmadıñ,
Sən atadan olmadıñ,
Kimsə rizqin yemədiñ,
Kimsəyə güc etmədiñ,
Qamu yerdə əhədsən,
Allah - səmədsən,
Adəmə sən tac urdıñ,
Şeytana lənət qıldıñ,
Bir suçdan ötüri
Dərgahdan sürdüñ.
***Nəmrud* kökə ox atdı,**
Qarnı yarıq balıqı qarşı tutdıñ.
Ululuğ *həddin* yoq,
Sənin boyuñ-*qəddiñ* yoq.
Ya cismlə cəddiñ yoq!
Urdığın ulıtmıyan ulu Tañrı!
Basduğın bölürtmiyən bəllü Tañrı!
Kötürdügin kögə yetirən körklü Tañrı!
Qaqdığın *qəhr* edən *qəhhar* Tañrı!
Birlikiñə sığındım, *çələbim* qadir Tañrı!
***Mədəd* səndən!**

Qara tonlu *kafirə* at dəpərəm,
İşümi sən oŋar! - dedi" (209-210)

2). Bəkilin oğlu *"Allah taalaya* yalvarub söyləmiş, görəlim necə söyləmiş, aydır:

Yucalardan yucasan,
Yuça Taŋrı!
Kimsə bilməz necəsən
Körklü Taŋrı!
Sən *aləmə tac* urduŋ,
Şeytana lənət qıldıŋ,
Bir suçdan ötəri
Dərgahdan sürdüŋ.
İbrahimi tutdurduŋ,
Xam gönə çulğadıŋ
Götürüb oda atdırdıŋ,
Odı bostan qıldıŋ,
Birlüküŋə sıqındım əziz Allah!
Xoçam, maŋa *mədəd!* - dedi" (251)

Mətnlərdəki *taŋrı // allah // allah taala və əziz taŋrı // ulu taŋrı // bəllü taŋrı // görklü taŋrı // qəhhar taŋrı // qadir taŋrı // əziz allah* paralelləri nəzərdən qaça bilməz; buradakı yad görülən ünsürlər katiblərin işi, daha dürüst desək, əsrlərin əlavəsi, artırmasıdır. Kursivlə verilən sözlər, ifadələr və həmin əsasda deyilən fikirlər diqqəti cəlb edir. Katib "Kitabı" köçürərkən onun üzərində xeyli "düzəliş" aparmış, bir sıra sözləri dəyişdirmiş, zamanın ruhunu ora hopdurmuşdur. Məs., "görklü" ilə yanaşı bir əziz sözü də işlətmiş, "yağı"nı "kafir", "oŋarı" *mədəd* və s. etmiş, "tanrı" ilə "allah", "boyun"la "qədd" sözlərinin sinonim cərgəsinə salmış, dövrünün islami təsəvvürlərini, dini-mövhumi rəvayətləri və s.-ni oraya yerləşdirmişdir. Bu dini-mövhumi əlavələr isə Oğuz tanrısına və onun haqqında olan təsəvvürlərə yaddır, deməli, "Dədə Qorqud"a da yaddır. "Birlikinə" sözü əslində türk-oğuz sözüdür, lakin islam di-

ninə xidmət mövqeyinə keçib, dini istilaha çevrilib: allahın "birliyi" vahidliyi, təkliyi anlamını verir; "əhəd" sözünün ("Qamu yerdə *əhədsən*") qarşılığıdır. Belə sinonimlik qoşalaşma "Kitab"ın dili və üslubunda tez-tez nəzərə çarpır.

Beləliklə, "Dədə Qorqud kitabı" keçib gəldiyi dövrlərin, islam dini və təsəvvürlərinin təsirlərinə məruz qalmış, bu təsir özünü əsərin dili və üslubunda da göstərmiş, öz möhrünü onun üzərinə basmışdır. Əgər biz indi bu, sonradan əlavələri - "yad qatları" götürsək, yəni "redaktə edib çıxarsaq (əlbəttə, indilikdə bizim belə bir niyyətimiz yoxdur və buna ehtiyac da duyulmur), "Kitab" heç nə itirməz və bəlkə də onun ilk müəllif nüsxəsi bərpa edilmiş olardı.

***

"Dədə Qorqud"un dili - fikrin, sözün belə yüksək şairanə ifadəsi, söhbətin, danışığın belə obrazlı ifadə tərzi və s. Azərbaycan xalq dilinin mövcud ədəbi-poetik inkişaf səviyyəsini göstərməklə, dilimizin o vaxtkı ədəbi-poetik imkanlarının genişliyini də nümayiş etdirir. Bu genişlik, vüsət, mənəvi poetik aləm elin "sənət kahini", ədəbi siması olan Qorqud Atanın sazında, sözündə-söhbətində, ayrı-ayrı fərdlərin dilində, bir-birilə olan ünsiyyətində özünü parlaq şəkildə göstərir. "Dədə Qorqud"un dilinin yüksək bədii səviyyəsi bu dildə danışan xalqın bədii təfəkkür səviyyəsi, onun tarixi mövqeyi, ədəbi istedadilə əlaqədardı. "Dədə Qorqud" dilinin poetik vüsəti, oradakı sazla sözün ahəngdar vəhdəti tarixi ənənənin, xalqın güclü estetik zövqünün, həyat tərzinin nəticəsi idi...

"Dədə Qorqud"un bədii dilini, üslubunu, bəlkə, onun ölməz qəhrəmanlarına, bu qəhrəmanların mənəvi aləminə, əzəmətinə, vüqarına bənzədək. Bəlkə, bu dili, bu üslubu bizim muğamlarımızdakı müdrüklük, dünyavilik, saflıq və zənginlik ahəngi ilə, mahnılarımızdakı məftunedici gözəllik, ali sadəlik və xəlqiliklə müqayisə edək.

Bəli, burada bənzəyiş vardır. Axı, "Dədə Qorqud" boyları da muğamlarımız, mahnılarımız kimi, mütəmadi olaraq xalqın ümumyaradıcılıq dühası ilə nurlanmış, ölməzlik səviyyəsinə - zirvəyə yüksəlmişdir.

Bəli, burada bir az fərq də vardır. Axı, "Dədə Qorqud" boyları daha qabaq, yazıya alınmış, bir neçə əsr sonra ərəb qrafikası ilə köçürülmüş xoşbəxt bir təsadüf onu, təxminən VI-IX əsrlərdə olduğu kimi gətirib müasir dünyaya çıxarmışdır. Bu isə yeni söz demək, fikir söyləmək üçün geniş meydan açır.

VI. "DİVANÜ LÜĞAT-İT-TÜRK" ƏSƏRİ VƏ AZƏRBAYCAN DİLİ

1. "DİVAN"IN YARANMA ŞƏRAİTİ

Hələ VIII-IX əsrlərdən başlayaraq Azərbaycanda ərəb, fars dilləri "rəsmi" dil sayılmış, yeni yad qanunlar ana dilində yazmağı bərk qadağan etmişdi. Bir neçə əsr davam edən bu yad qanunlar öz işini görmüşdü: uzun müddət Azərbaycanda elm dili ərəb, poeziya dili fars dili olmuşdu. "IX əsrdən etibarən fars dili poeziya dili kimi Yaxın Şərq xalqları içərisində yayıldı. Dini və elmi əsərlər ərəb dilində yazılır, şəriət qanunları ilə əlaqədar məsələlər bu dildə aparılırdı, ərəb dili din dili kimi öz hüququnu saxlasa da, fars dili şer dili olaraq şöhrətləndi və bu dil Orta Asiya, İran və Azərbaycan feodal saraylarında "rəsmi" dövlət dili və ədəbi dil kimi möhkəmlənməyə başladı. Fars dilinin nüfuz və hörməti artdı və fars dilində əsər yazdırmaq dəb şəklini aldı" (2, s.42); "Azərbaycan feodalları ərəb dilini dini - ayin və elm dili kimi saxlayır, ədəbiyyat isə fars dilində inkişaf edirdi" (*300,* s. LİX).

Bununla belə, ana türk dili öz mövqeyini vermir, öz üstünlüyünü, öz varlığını dönmədən təsdiq edir; bu dildə böyük həcmli, güclü bədii əsərlər yazılır, xalq arasında yayılırdı. XI əsrin əvvəllərində doğulub, mükəmməl təhsil almış, dövrünün alim-mütəfəkkir şairi Yusif Balasağunlunun "Qutadğu bilig" əsəri bu yad təsirlər qarşısına çıxan ana-türk dilində yazılmış böyük həcmli əsərdir. 14 min misraya yaxın (6645 beyt) olan bu poema 1069-1079-cu illərdə tamamlanıb, əruz vəznində yayılıbdır. "Qutadğu bilig" zəngin və

çoxsahəli xəzinədir; "Kamil insan" anlayışı və tərifi ilə yanaşı, daha bir çox məziyyətlər əsərin əsasını təşkil edir. Hər dürlü biliyə yiyələnmək, oxumaq, yazmaq, gözəl yazmaq, "bütün" əlifbaları və "bütün" dilləri bilmək, şer demək, bəlağət, hesab və həndəsə elmlərini öyrənmək, heyət elminə vaqif olmaq, tibbi bilmək, yuxu yozmaq və bu kimi dövrün elm sahələrinə aid mövzuları əhatə edən bu əsərdə türk mühitinə xas ovçuluq, quşçuluq, ox atmaq, çövkan və şahmat kimi məharətlərə dair bəhslər də vardır (300, s. XXI). Göründüyü kimi, "Qutadğu bilig" türk mənəvi aləmini hərtərəfli əhatə edən qüdrətli bədii əsərdir ki, burada *bilik öyrənmək, oxumaq, gözəl yazmaq, "bütün" əlifbaları və "bütün" dilləri bilmək, şer yazmaq, bəlağət* (natiqlik məharəti, *gözəl* danışmaq qabiliyyəti) kimi kamillik keyfiyyətləri ön plana çəkilib. Bu isə, əsərin ana dilində yazılması bir yana, elm, bilik öyrənmək, nitq-danışıq məharəti qazanmaq, əlavə çoxlu dil bilmək, şer yazmaq və s. kimi insan həyatı üçün çox zəruri məsələləri təbliğ edir, geniş yayırdı, xalqı oxumağa, öyrənməyə, zənginləşməyə çağırırdı.

Poema bu beytlərlə başlanır:

Bayat atı birlə sözüg başladım,
Törütgən, igidgən, keçürgən idim.
Ögüş ögdi birlə tümən min səna,
Uğan bir bayatqa anar yoq fəna

(*s.17;* 1-2-ci beytlər)

Burada müasir oxucu üçün çətin anlaşılan qədim arxaik sözlər vardır: *Bayat:* qədim tanrı adı; *törütgən:* törədən, yaradan, yaradıçı; *igidgən:* yetişdirən, tərbiyə verən, bəsləyən; *keçürgən:* keçirən, bağışlayan; *ögüş:* çox, xeyli; *ög, ögdi:* mədh etdi, tərifləndi; *tümən:* on min; *səna:* səna, alqış; *uğan:* qadir, tanrı; *fəna:* zaval, yox olma.

Beytləri bu şəkildə müasirləşdirmək olar:

"Bayat" (tanrının) adı ilə sözə başladım; yaradan, tərbiyə verən, bağışlayanam mən; çox tərif ilə on min-min alqış (olsun) qadir tanrıya, ona zaval yoxdur".

Poemada aşağıdakı misralar da diqqəti cəlb edir:

Kitab atı urdum "Qutadğu bilig"
Qutadsu oqığlığa tutsu elig.
Sözüm sözlədim mən bitidim bitik,..
Qutadmış bulur bu sözüm çin bütün.
(*s. 49-50*; 350-352-ci beytlər)

Burada da müasir oxucu üçün çətin anlaşılan sözlər vardır: *qut:* səadət, iqbal, dövlət,.. *qutad:* qutlu olmaq, səadətli olmaq, dövlətli olmaq; *oqığlıq:* oxuyan, oxucu; *tutsu:* davamlı; *elik:* el; *bitig:* kitab, əsər; *çin:* doğru, dürüst,..

Misraları bu şəkildə müasirləşdirmək olar:

"Kitabın adını "Qutadğu bilig" qoydum, oxuyana qutlu olsun, yol göstərsin. Sözümü söylədim və əsərimi yazdım... Qutlu, tamam doğru olacaq bu sözüm, inanın".

Türk dillərində yazılan əsərlərin o vaxtlar belə bir ənənəyə söykəndiyi bizə məlumdur. Bir qədər sonra şair Əlinin "Qisseyi-Yusif"ində də, naməlum şairin "Əhmət Hərami dastanı"nda da bu ənənə davam edib, əsərlər belə başlanğıc, oxucuya müraciətlərlə yazılıb...

Yusif Balasağunlunun "Qutadğu bilig" və Mahmud Kaşğarlının "Divanü lüğat-it-türk" əsərləri eyni vaxtda yazılıb. Hər iki əsər - biri Nizamiyə qədərki ümumtürk bədii təfəkkürünün, digəri isə elmisinin dilçilik sahəsinə aid məlum yüksək səviyyəsidir.

"Divanü lüğat-it-türk" bilavasitə türk dillərinin nüfuzuna, əhatə dairəsinə, söz və ifadə zənginliyinə, onların qrammatik və leksik xüsusiyyətlərinin, qayda-qanunlarının izahı, elmi şərhi və s.-ə həsr olunmuş kapital tədqiqatdır. "Divan" Nizamiyə qədərki və Nizami dövrünün türk dillərinin, o cümlədən Azərbaycan dilinin X-XII əsrlər ümumi mənzərəsi barədə tam geniş təsəvvür yaradır.

Mahmud Kaşğarlı "Divanü lüğat-it-türk" əsərini türk dillərinin inkişafına yad təsirlərin güclü olduğu bir tarixi şəraitdə yazmışdı. Əsərin türk dilində yox, ərəb dilində yazılması səbəblərindən biri

də budur. Lakin burada o qədər zəngin material var ki, əsər haqlı olaraq XI əsr türk dillərinin "ensiklopediyası" adlanır.

XI əsrdə "Divanü lüğat-it-türk" kimi bir kitabın yazılması türk dillərinin hüquq yox, məhz nüfuz dairəsilə əlaqədardı. Görünür, ərəb dünyasında türk dilini öyrənmək zəruiri imiş ki, belə bir əsərə ehtiyac duyulmuşdu. Bu mənada "Divan"ın öz dövrü üçün trk dilini öyrənmək baxımından böyük əməli əhəmiyyəti də olmalı idi.

Kaşğarlı "Divan"da ərəb oxucularına türk xalqlarının dilləri, canlı dil xüsusiyyətləri, onların adət-ənənələri və s. haqqında ətraflı məlumat verir. O yazır:

"Mən onların ən aydın dillisi, ən açıq üslublusu, ən incə ağıllısı, nəsilcə ən köklüsü, ən yaxşı qələm çalanı olduğum üçün şəhərlərini, çöllərini başdan-başa dolaşdım. Türk, Türkmən, Oğuz, Cigil, Yağma, Qırğız boylarının dillərini, qafiyələrini öyrənərək faydalandım. Belə ki, məndə onlardan hər boyun dili haqqında mükəmməl təsəvvür yaranmışdır. Mən onları ən yaxşı şəkildə sıraladım, ən yaxşı bir qayda ilə nizama saldım.

Mənə sonsuz bir şöhrət, bitməz-tükənməz bir qida mənbəyi olsun deyə bu kitabımı - Tanrıya sığınaraq - Divanü lüğat-it-türk - "Türk dilləri qamusu" adını verib yazdım" (1,4).

Ümumtürk yazılı abidələrinin dili ilə oğuz qrupu dilləri, eləcə də Azərbaycan dili arasında yaxınlıq, ümumilik olduğu üçün onlardan dilimizlə müqayisəli şəkildə bəhs etmək zəruridir.

Maraqlıdır ki, Kaşğarlı "Divan"da "Oğuz" boyundan, onun mövqeyindən xüsusilə danışır. Müəllif "oğuz" sözünə belə izahat verir:

"Oğuz. Bir türk boyudur... Bunlar 22 qoldur; hər birinin ayrıca nişanəsi və ev heyvanlarına vurulan əlaməti vardır. Bir-birlərini bu nişanələrlə tanıyırlar" (1, 55).

"Divan"dakı misalların qarşısında tez-tez "oğuzca", "bu oğuzcadır", "oğuzlar belə deyərlər".. kimi izahlar verilir. Oğuz dilinə aid nəzəri fikirlər, sözlər, ifadələr, cümlələr və s. Azərbaycan dilinə, hətta onun müasir vəziyyətinə çox yaxındır; bu cəhət oğuz dili başqa türk dilləri-lə müqayisə edildikdə də daha qabarıq üzə çıxır, özünü göstərir.

"Divan"ın giriş hissəsində müəllif yazır ki, "qayğılı və ya sevincli günlərdə yüksək düşüncələrlə söylənilən zərbi-məsəlləri də aldım. Onları ilk söyləyənlər sonrakılara, bunlar da daha sonrakılara bildirmişlər" (1,8). Bir az irəlidə oğuz "bölükləri", oğuz oymaqları haqqında danışılarkən yenə deyilir: "Bu bölüklərin adları onları yaratmış olan qədim babaların adlarından alınmışdır" (1, 59).

Kaşğarlının bu sözlərindəki vurğunu bir mühüm həqiqət üzərində görürük: tədqiqatçının topladığı, misal gətirdiyi cümlələr, atalar sözləri, məsəllər məhz təkcə kitabın yazıldığı dövrün məhsulu olmayıb, ondan əvvəllər də, *"qədim babaların"* dilində mövcud imiş; *"onları ilk söyləyənlər sonrakılara, bunlar da daha sonrakılara bildirmişlər"*.

Buradakı məntiqi nəticə:

1) deməli, "Divan" təkcə Kaşğarlının yaşadığı, yazıb-yaratdığı əsrin deyil, ondan əvvəlki əsrlərin - heç olmasa, ən azı X əsrin də dil materialını əhatə edir;

2) deməli, Kaşğarlının "Divan"ı və onun Azərbaycan dili ilə olan ayrılmaz bağlılığı bu əsərin qədim və müasir Azərbaycan dilinin ən başlıca abidəsi kimi öyrənilməsi vəzifəsini qarşıya qoyur.

"Türk dilləri qamusu" böyük tədqiqat əsəridir; bu fəsillə əlaqədar araşdırmaları məhz tədqiqat əsəri üzərində aparacağıq. Kaşğarlının "Divan"ı və onun Azərbaycan dili ilə olan yaxınlığı, bugünkü dilimizlə X-XI əsrlərin dili arasındakı əlaqələr, bağlar və s. aid söz deyəcək, bəzi qeyd və mülahizələrlə kifayətlənəcəyik.

2. "DİVAN"IN YAZILDIĞI DİL VƏ ƏLİFBA

X-XI əsrlərdə artıq türkdilli xalqların öz milli əlifbaları tarix səhnəsindən çıxmışdı. Görünür, Mahmud Kaşğarlının da qədim türk əlifbasından xəbəri yox imiş.

Kaşğarlı əsərini ərəb dünyası üçün ərəbcə və ərəb əlifbası ilə yazmışdı.

Türk-Azərbaycan sözlərini ərəb əlifbası ilə necə ifadə etdiyinə və dilin sövti xüsusiyyətlərini necə verdiyinə diqqət yetirək:

1). Əlifba: "Divan" kiçik girişdən sonra türk dillərinin o vaxt işlətdikləri əlifba haqqında sözlə başlanır; türk dilləri yazısına ərəb əlifbası əsasında olduğu qeyd edilir və 18 şəkli göstərilir:

ا ف خ و ز ق ی ك ذ م

س ب ج ر ش ت ل

Kaşğarlı əlavə edir: "Yazılışda yeri olmayan, lakin tələffüzdə gərəkli olub kökdən sayılmayan yeddi hərf dəxi vardır" (I, 8).

Həmin hərflər bunlardır:

1) sərt "ڽ = n"

2) qafa bənzər ərəb "ڃ = c"

3) "ژ = z" ilə ڜ = ş" arasında olan ڗ = j";

4) ڤ = f" ilə ڽ = p" arasında söylənən ڤ = ş

5) nöqtəli "ۼ = ğ";

6) ڤ = k" ilə ك = k arasındakı yumşaq qaf "g";

7) ں = n"-ə bənzəyən ڭ = nq".

Kaşğarlı yazır ki, "türk olmayanlar bu hərfləri tələffüz etməkdə çətinlik çəkərlər. Bu, kökdən sayılmayan yeddi hərf kökdən olan hərflər şəklində yazılır; ancaq bunlara nöqtə qoymaqla o birilərindən fərqləndirilir... ۀ , ۼ , ڑ hərfləri "ۻ" kimi nöqtəli yazılır və üzərinə bir bəlgə qoyulmaqla tanınır" (I, *8, 9* və *31*).

Beləliklə, hərəkətlərlə verilən saitlər də nəzərə alınarsa, Kaşğarlıda bu fonemlər var:

a) samitlər: b, v, q, ğ, d, j, z, y, k, g, l, m, n, p, r, s, t, f, x, ç, c, ş.

b) saitlər: a, ə, e, i, ı, o, ö, u, ü.

c) "qovuşuq" samitlər: ڈ = dh", ڤ = vf", ڭ = nq".

Bunları Azərbaycan dilinin müasir yazısı ilə müqayisə etdikdə də elə bir fərq görmürük; təxminən min illki bir dövrdə bu çox böyük sabitlikdir. Ancaq üç "qovuşuq" səs nəzərə çarpır ki, bunlardan biri elmi ədəbiyyatda indi də işlənir və "sağır nun" adlanır, müasir işarəsi də "ڭ" və ya "nq"-dır. Bu səs qədim əsrlərdən ta müasir dövrə qədər davam edib gəlmiş, hətta əsrimizin 20-30-cu illərinədək dilimizdə işlənmişdir. Ərəb əlifbasından latın, sonra rus qrafikası əsaslı əlifbaya keçərkən sıradan çıxmışdır. Qalan iki səs, Kaşğarlının verdiyi izahatdan da məlum olur ki, türk dillərinin hamısına aid deyildir və hələ o vaxt məhdud dairədə işlənirmiş.

a) "ڈ" hərfilə əlaqədar verilən izahatda deyilir:

"Yağma, Toxsi, Qıfcaq, Yabaku, Tatar, Qay, Comul və Oğuzlar bir-birinə uyğun olaraq "ڈ = dh" hərfini həmişə "ج = j"ə çevirərlər və heç vaxt "ڈ"-ni söyləməzlər... Türklərin "qohumluq və qayın" mənasına işlətdikləri "قڈن" "qadhın" kəlməsini bunlar" قین "qayın" deyə söylərlər. Bunuŋ kimi, cigillər və başqa türklərin söylədikləri bu hərfi Rus və Rum ölkələrinə qədər uzanan Bulqar, Suvar, Yəmək, Qıfcaq boyları hamısı "ز = z" şəklində deyirlər" (I, *32*).

b) "ۏ" hərfilə əlaqədar verilən izahatda deyilir: "Türklərdə ف ilə ب arasında söylənən "ۏ = w" hərfi oğuzlarla onlara yaxın olanlar tərəfindən و-yə çevrilir. Türklərin "آۏ-ew" dediyinə oğuzlar "اَو ev" deyirlər. Türklər "av"a "آۏ-aw", oğuzlar "آو -av" deyirlər" (I,32).

2). Səsdəyişmələri: "Divan"da Oğuz dili başqa türk dillərindən, ilk növbədə məhz fonetik xüsusiyyətlərinə görə fərqləndirilir.

1) "Zaman və məkan isimlərinin sonundakı ځ-lar oğuzlarda "əlif"ə çevrilir. Türklər "gediləcək yer"ə "barğu yer", oğuzlar "ba-

rası yer" deyirlər. "Duracaq yer"ə türklər "turğu oğur", oğuzlar "turası oğur" deyirlər" (I, *33*).

2) "Oğuzlarla qıpcaqlar əvvəlində "ژ" olan isim və fellərin ilk hərfini "əlif"ə, yaxud "c"-yə çevirirlər. Başqa türklər "yolçu"ya "yelkin", oğuzlarla qıpçaqlar "elkin" deyirlər. Onlar "ılıq su"ya "yılığ suv", bunlar "ılığ" deyirlər... Türklər dəvənin uzanmış tükünə "yuğdu", oğuzlar və qıpcaqlar *"cuğdu"* deyirlər" (I, *31*);

3) "Oğuzlarla onlara yaxın olanlar sözdəki "t" hərfini "d" hərfinə çevirirlər. Türklər dəvəyə "təvəy", bunlar "dəvəy" deyirlər" (I,*31*);

4) *"əmdi:* indi. "Əmdi gəldim = İndi gəldim". Oğuzlar "əlif" hərfini kəsrə olaraq söyləyərlər, *"imdi"* deyərlər" (I,*125*);

5) *"qıldı:* "Ər iş qıldı = Ər iş gördü"... Oğuzlar bu sözü söyləməkdən çəkinərlər və "qıldı" yerinə *"etti"* deyərlər" (II,*25*) və s.

Burada oğuz dili ilə əlaqədar deyilən mülahizələr, verilən misallar onun müasir Azərbaycan dilinə daha artıq uyğun gəldiyini, oğuz dili ilə Azərbaycan dili arasındakı bağların, tarixi əlaqənin daha möhkəm olduğunu təsdiq edir.

"Divan"da bir sıra elə səs dəyişmələri, elə səs uyuşmaları və başqa sövti hadisələr verilir ki, bunlar, demək olar, XI əsrdən əvvəlki və sonrakı bütün mövcud ədəbi abidələrimizdə müşahidə edilir, onlara bu gün belə canlı danışıq dilində və şivələrimizdə rast gəlirik.

Bunlardan aşağıdakıları qeyd edək.

1) d ~ t əvəzlənməsi. Bu, əsasən iki vəziyyətdə özünü göstərir.

a) sözün əvvəlində: "*tüz*: düz, düz olan bir şey. "*Tüz* yer-düz yer" (I, *325*); *"talaq:* dalaq" (I, *411*); *"tirək:* dirək", *"tilək:* dilək" (I, *412*); *"tükmə:* dükmə" (I, *432*); *"toğdı:* "Gün toğdı" (II, *14*); *"tügdi:* "Ər tükün tügdi"; *"ton:* "Ər ton tikdi (II, *20*); *təmür:* "Təmür suvda çökdi" (II, *21*), *"teşildi:* "Qab teşildi" (II, *127*); *"tiş:* diş" (III, *125*), *"töl:* doğum vaxtı" (III, *133*); *"tişi:* tişi tükə = dişi düyə" (II, *229*); *"tolu:* göydən yağan dolu" (III, *233*); *"töşədi:* "Töşək töşədi = Döşək döşədi"; *"tişədi:* "Təkirman tişədi = Dəyirman dişədi" (III, *266*); *"tondı:* "Suv tondı" (III, *390*)...

b) sözün sonunda: bu, xüsusən sonu "t" və ya hər hansı bir kar səslə bitən sözlərə *dı, di, du, dü* xəbər şəkilçiləri qoşularkən baş verir; şəkilçinin cingiltili *d* səsi kar *t*-ya çevrilir: *"unıttı:* "Ol sözin unıttı" (I, *215*); *"sökti:* "Ol yamağ sökti"... "Ol evin sökti" (II, *21*); *"genütti:* "Ər evin genütti" (II, *326*); *"toğrattı:* "Ol anar ət toğrattı" (II, *330*); *sattı:* "Ol tavar sattı" (II, *295*); *"yırttı:* "Ol tonın yırttı" (III, *235*)...

Bu vəziyyəti Kaşğarlı özü belə təsvir edir:

"Hər hansı bir feli icbar növə çevirmək istədikdə, yaxud iki isim-failə keçmək lazım gəldikdə felə bir *t* hərfi əlavə edilir və keçmiş zaman şəkilçisinin *d* hərfi bu *t* ilə şiddətlənir, onda *t* ikiləşir: birincisi d-dən çevrilən və idqam olunan *t*-dır; ikincisi feli icbar növə çevirən *t*-dır. "Söz üşkürdi" demək "Sözü xatırladı" demək-dir; "üşkürtti" demək isə "xatırlattı" deməkdir" (I, *229).*

2) *o ~ a* əvəzlənməsi. *"Av:* ov, "Bəg avqa çıqdı = Bəy ova çıxdı" (I, *81*); "Bəg av avladı" (I, *287*); *"anı:* onu, "Ol anı sögdi = O, onu söydü" (III, *184*); "Anıŋ başı ağrıdı" (I, *273*), *"savur, savurar, savurmaq:* "Ər tarıg savurdı" (II, *82*)...

3) *ə ~ a* əvəzlənməsi: "Ol *maŋa* söz sözlədi" (III, *296*);

4) *l ~ r* əvəzlənməsi: *"qarardı:* "Tün qarardı = Gecə qaraldı", "Ton qarardı = Don qaraldı" (II, 77);

5) *f ~ b* əvəzlənməsi: *"yubqa:* yubqa; "f" ilə də işlənər: "f" "b"-nın yerinə keçər" (III, *34*);

6) *l ~ n* əvəzlənməsi: *"taraldı:* "Saç taraldı = Saç tarandı" (II, *126*);

7) *v ~ y* əvəzlənməsi: *"küyə:* güvə. Keçə və keçəyə bənzər şeyləri yeyən böcək" (III, *170*);

8) *n* - sağır-nuna (ŋ, nq) keçir: *"siŋir:* sinir" (III, *326*); *"toŋuz:* donuz", *"təŋiz:* dəniz" (III, *363*); *"könül:* könül... "Köŋlün nətək = Köŋlün necədir?" (III, *366*); *"sənək:* su sənəyi" (III, *367*), *"yeŋi:* "yeŋi nən = Yeni şey" (III, 369); *"təŋri:* tanrı" (III, *376*), *"yeŋgə:* yengə" (III, *380*), *"siŋdi:* "Söz köŋülgə siŋdi" (III, *391*), *"gəŋ əşdi:* "Ol maŋa gəŋəşdi = O, mənə gənəşdi, mənimlə məsləhətləşdi" (III, *394*)...

Səs dəyişmələri, bir səsin başqa bir səsə çevrilməsinə dair Kaşğarlının özünün də fikir və mülahizələri vardır:

Bəzi hallarda:

1) "r" səsi "l"-ə keçir" (I, *33*);

2) "q" səsi "k"-ya, "k" səsi də "q"-ya keçir" (I, *33*);

3) "ﺐ = b" səsi "م = m" ilə, ن =n" səsi "ل =l" ilə əvəzlənir" (I, *10*).

XI əsrdən əvvəlki və sonrakı bütün yazılı abidələrimizdən, həmçinin müasir danışıq dili və şivələrdən Kaşğarlının bu fikirlərini təsdiq edən çoxlu misallar gətirmək olar.

a) səslərin yerdəyişməsi. Bəzi hallarda səslərdə yerdəyişmə müşahidə olunur: *"təprətti:* Ol təprətti nəɳni = O, bir şeyi tərpətdi", "Ər təvəysin təprətti = Ər dəvəsini tərpətdi" (II, *329*)...

b) səsartımı. Müasir Azərbaycan dilində bir sıra *i* ilə başlanan sözlər var ki, tarixən bunlar *i*-dən əvvəl bir *"y"* səsinin əlavəsilə işlənmişdir. Kaşğarlı da həmin sözləri eyni şəkildə verir: *"yip:* ip" (III, *3*); *"yikit:* igit"; *"yığac:* ağac. Buradan alınaraq "üzüm yığacı"... (III, *8*); *"yürək:* ürək, qəlb"; *"yüzük:* üzük" (III, *18*); *"yinçü:* inci" (III, *30*); *"yikdə:* iydə" (III, *31*); *"yignə:* iynə" (III, *35*); *"yulduz:* ulduz..." (III, *40*)...

Bir sıra sözlər, onların müasir şəklindən fərqli olaraq ortaya bir ğ səsinin əlavəsilə işlənir: *"yavğan*: yavan. "Yavğan aş", *"yalğan:* yalan. Bəzən bu kəlmə sifət də olur... "yalğan söz" kimi" (III, *37*); *"orğaq:* oraq" (I,*119*), "Ol orğaq tişədi" (III, *267*); *"qazğanc:* qazanc" (III, *386*), *"qazğandı:* Ər tavar qazğandı = Ər mal qazandı" (II, *249*); *"yumırtğa:* yumurta" (III, *433*)...

c) səsdüşümü. Bir neçə vəziyyətdə müşahidə olunur:

1) söz kökündə müəyyən səslər düşür: *"qılıc:* "yalın qılıc = qınından çıxarılmış qılınc" (III, *373*); *"örklədi:* "Ol atıq örklədi = O, atı örüklədi" (III, *443*); *"aldadı:* "Ol yağını aldadı = O, düşməni aldatdı" (I, *273*); *"qaçıttı:* "Ol anı qaçıttı = O, onu qaçırtdı" (II, *300*)...

2) canlı tələffüzə uyğun olaraq bir sıra sözlərdə sait uzadılmaqla müəyyən səslər düşür: "Nə *tirsən* = Nə diyirsən?" (III, *214)*; *"yeldi:* "Aş yeldi = Aş yeyildi" - müəllif özü qeyd edir ki, bu söz "söylənişdə qısa və asandır; ərəb hərflərilə iki hərflə yazılır" (III, *185*)...

Bütün bu fonetik hadisələr bu gün belə dilimizdə müşahidə edilən, onun daxili qanunauyğunluqları ilə səsləşən canlı xüsusiyyətlərdir.

3. "DİVAN"IN SÖZLÜYÜ

Kaşğarlının "Divan"ı çox zəngin abidədir. Orada səsdən, şəkilçidən tutmuş sözə, istilaha qədər, birləşmədən, ifadədən tutmuş cümləyə, nəzm nümunələrinə qədər, atalar sözlərindən, məsəllərdən tutmuş bayatılara, ağılara, nəsr parçalarına qədər olduqca zəngin dil materialı var.

Müəllif özü bu barədə yazır: "Mən bu kitabı hikmət, nəzm, atalar sözü, şer, rəcəz, nəsr kimi şeylərlə zənginləşdirərək heca hərfləri sırasilə tərtib etdim. Oxucu onu yerində tapsın, arayan sırasında arasın deyə, hər sözü yerli-yerinə qoydum; dərinliklərini üzə çıxardım, sərtliklərini yumşaltdım. İllərcə bir çox çətinliklərə sinə gərdim. Bu lüğət kitabını (sözlüyü) əvvəldən sonadək səkkiz fəslə böldüm" (I, 5).

Daha sonra: "Kitabda türklərin təcrübələrini, biliklərini göstərmək üçün söylədikləri şer nümunələrini verdim... Bunlarla yanaşı, kitabda bir çox qiymətli sözlər topladım; beləliklə, kitab aydınlıqda son məziyyəti, gözəllikdə son yüksəkliyi kəsb etdi" (I, 8).

"Divan"ın sözlüyünə əsasən nəinki X-XI əsrlərdə Azərbaycan xalq dilindən, yazılı ədəbi dilin varlığından, həm də dilimizin bir sıra fonetik və qrammatik qayda-qanunlarının elmi şərhi və izahından - elmi qrammatikasından belə danışmaq mümkündür; çünki bu qiymətli əsər eyni zamanda türkdilli xalqların ərəb dilində yazılmış ilk müqayisəli qrammatikası sayıla bilər.

Məqsədimiz məhz bu zəngin xəzinədə Azərbaycan dilinə məxsus inciləri seçmək, onları klassik irs və müasir dilimiz baxımından

araşdırıb şərh etmək, bugünkü dilimizlə ən azı X-XI əsrlər arasındakı bağları, əlaqə və yaxınlığı müəyyənləşdirmək və möhkəmlətməkdən ibarət olacaqdır.

"Divan"da əhatə olunan sözlüyə - lüğət materialına nəzər salaq:

1). Müasir dilimizlə səsləşən sözlər

Azərbaycan dilinin lüğət tərkibi, söz ehtiyatı baxımından "Divan"da elə sözlər, elə ifadələr var ki, bunlar bugünkü dilimizlə müqayisədə fərqlənmir və ya az fərqlənir, X-XI əsrlərdəki (və daha əvvəllərdəki), şəklini indi də saxlayır, o vaxtlar daşıdığı eyni mənanı, eyni məzmunu indi də daşıyır. Biz həmin sözləri, ifadələri mümkün qədər öz misalları və izahları ilə verəcəyik ki, şəkk-şübhə, mübahisə yeri qalmasın. Həm də biz o sözləri seçəcək, o sözlər üzərində dayanacağıq ki, onların misalları da müasir dilimizə uyğun gəlir, ancaq bəzi söz və ifadələrin, şəkilçilərin tələffüzü və imlasında az fərqlər görünür ki, bu da təbiidir; belə halları yeri gəldikcə aydınlaşdırmağı, izah etməyi lazım bilirik.

a) isimlər. Məlum olduğu kimi, müasir dilimizdə isimlər quruluşca üç qismə ayrılır: sadə, düzəltmə və mürəkkəb. Kaşğarlı isimləri iki yerə bölür: "İsimlər iki cürdür: əslində isim olaraq yaranmış isimlər, düzəltmə yolu ilə törənmiş isimlər" (1, 10).

Kaşğarlı "əslində isim olan" sözlər dedikdə, sadə isimləri nəzərdə tutur; "qılıc (qılınc), "ok" (ox) - 1, 10, kimi kəlmələr də sadə isimlərə misal gətirilir.

Sadə isimlər. Sadə isimləri, müəllifin öz üslubuna uyğun olaraq, sözlərdəki səslərin sayına görə qruplaşdıraq:

1) iki səsdən ibarət sadə isimlər: *"at" (1, 34), "ot", "it", "ər (1, 35), "öc" (1, 43), "uc" (1, 44), "iş" (1, 45), "el" (1, 48), "iz", "aş" (1, 80)...*

2) üç səsdən ibarət sadə isimlər: *"ilk" (1, 43), "oda", "ata" (1, 86), "ara" (1, 87), "ana" (1, 93), "saç", "qoç" (1, 321), "qul" (1,*

336), "qın: "qılıc qını" *(I, 339), "qaq:* "ərük qaqı" *(II, 282), "çöp:* "üzüm çöpi", *"küp", kip:* "kərpic kipi" *(III, 119), "güc" (III, 120), "toz" (III, 123), "söz" (III, 124), "suv" (III, 129), "bel:* "Anı belində(n) tut" *(III, 133), "töl"* (döl) - *III, 133, "kol" (III, 134), "göl" (III, 135), "gön" (III, 140), "yer" (III, 142), "sac" (III, 147), "baş" (III, 151), "qaş" (III, 152), "bal" (III, 156), "san", "xan" (III, 157), "yaz", "yağ" (III, 159), "yal:* "at yalı" *(III, 160), "yay"* (fəsl) - *III, 160...*

3) dörd səsdən ibarət sadə isimlər: *"ögüt:* "Algil ögüt məndin oğul!.." (1, 51), *"ağız" (1, 55), "öküz" (1, 59), "adaş"* (dost) - 1, 61, *"uruğ:* "uruğ-turuğ" (1, 63-64), *"ocaq" (1, 64), "aşuq:* İnsanın topuq sümüyü" (1, 66), *"uşaq:* "uşaq oğlan" (1, 67), *"ətək"* *1, 68), *"ərük:* "qara ərük" (1, 69), *"ağıl:* qoyun yatağı" (1, 73), "oğul" (1, 74), *"üzüm"* (1, 75), *"oyuq", "oyun" (1, 85), "ögey:* "ögey ata", *"arpa:* "Arpasız at..." (1, 123), *"türk" (1, 353), "yurt"* (III, 7), *"yaka"* (yaxa) - III, 24, *"qaya" (III, 170), "küpə" (III, 217), "keçi" (III, 219), "quzı", "buğa" (III, 224), "təkə" (III, 228), "tügə:* "tişi tügə" (III, 229), *"bala" (III, 232), "gəmi" (III, 235), "gənc" (III, 438)...*

4) beş səsdən ibarət sadə isimlər: *"armut" (1, 95), "alqış" (1, 97), "artuq", "ortaq" (1, 99), "ördək" (1, 103), "oğlaq" (1, 119), "qatır", "qısır", "boğaz" (1, 364), "qamış" (1, 369), "balıq" (1, 379), "pamuq:* pambıq" (1, 380), *"çolaq", "çomaq", "çanaq" (1, 381), "qulaq", "qılıq" (1, 383), "təzək" (1, 386), "qızıl" (1, 394), "tikən:* dikən" (1, 400), *"çoban" (1, 402), "laçın:* şahin" (1, 410), *"saman" (1, 415), "görgi" (1, 430), "toqlı:* altı aylıq quzu" (1, 431), *"təknə" (1, 343), "yamac" (III, 28), "keyik" (III, 268), "boyın" (III, 169)...*

5) altı səsdən ibarət sadə isimlər: *"kətmən" (1, 444), "baldız" (1, 457), "bəkməz" (1, 459), "qarqış" (1, 461), "başmaq" (1, 466), "topraq" (1, 467), "muncuq" (1, 474), "kirpik" (1, 478), "kəklik" (1, 479)...*

Düzəltmə isimlər. Düzəltmə isimlər müvafiq sözdüzəldici şəkilçilərin vasitəsilə düzəlir. Belə isimlər, müasir dilimizdə olduğu kimi isim, fel, sifət və başqa nitq hissələrindən törənir. Məs.:

İsimdən düzələn isimlər:

1) -çı, -çi, -çu, -çü şəkilçilərilə: *"qara+çı" (1, 445), "sav+çı" (III, 154), "soruğ+çı", "qoruğ+çı" (III, 242), "süt+çü (III, 368)...*

2) -lıq, -lik, -luq, -lük şəkilçilərilə: *"ət+lik" (1, 101), "ac+lıq" (1, 114), "adaş+lıq" (1, 149) "uşaq+lıq" (1, 150), "otun+luq:* odun-luq" (1, 162), *"buz+luq" (1, 466), "toq+luq:* toxluq" (1, 469), *"sap+lıq" (1, 470), "quş+lıq", "qış+lıq" (1, 474), "tər+lik" (1, 476), "qamış+lıq" (1, 495), "qabaq+lıq:* qabaq tarlası" (1, 503), *"söküt+lük", "kömür+lük:* kömür üçün kəsilmiş ağac və ya kömüplü yer" (1, 506), *"kəpək+lik" (1, 508), "gərək+lik", "töşək+lik:* "töşəklik barçın" (1, 509), *"yigit+lik" (1, 511), "göz+lük" (1, 530)...*

Kaşğarlıda - *lığ, -liğ* şəkilçiləri də var ki, bunları *-lıq, -lik* şəkilçiləri ilə qarışdırmaq olmaz; bu şəkilçilər müasir dilimizdəki *-lı, -li* şəkilçilərinin məzmununa uyğun gəlir. Məs., *"ocaq+lığ:* "ocaqlığ ev=ocaqlı ev" (1, 147), "yamağ+lığ: yamağlığ ton = yamaxlı don" (1, 150), *"yaş+lığ:* "yaşlığ göz = yaşlı göz", *"yaş+lığ:* "yaşlığ ər = yaşlı ər" (III, 42), *"yarağ+lığ:* "yarağlığ ər = yaraqlı, silahlı ər" (III, 49), *"yürək+liğ:* "yürəkliğ ər = ürəkli, cəsarətli ər" III, 51...

3) - *laq // -lağ* şəkilçisi ilə: *"yay+lağ", "qış+lağ" (1, 13). "quş+lağ" (1, 465).* Müəllif özü izahat verir ki, "yaylağ" sözü "yay" kök ismindən alınmışdır; qışlanacaq yerə deyilən "qışlağ" sözü də "qış" sözündən əmələ gəlmişdir (1, 13).

Feldən düzələn isimlər.

1) *-ım, im, um, üm* şəkilçiləri ilə: *"ak+ım:* "bir akım suv", *"ək+im:* "bir əkim yer", *"öl+üm"* (1, 75), "al+ım: "Ol alımın aldı = O, alacağını aldı" (1, 168); *"biç+im", "bük+üm"* (1, 395), "sağ+ım: "bir sağım süt" (1, 397), *"yoğr+um:* "bir yoğrum un", *yügr+üm:* "bir yügrüm yer" (III, 47);

2) *-ın, -in...* şəkilçiləri ilə: *"ak+ın", "yığ+ın:* "yığın topraq" (1, 15), *"ək+in"* (1, 78)...

3) *-ış, -iş, -uş, -üş* şəkilçiləri ilə: *"öp+üş", "at+ış", "öt+üş:* "ötüş-ötüş" (1, 60-61), *"bak+ış", "tut+uş" (1, 367), "gəl+iş" (1, 370), "yar+ış:* "Ol at yarıştı" (III, 10)...

4) *-ıq, -ik, -uq, -ük, q // -ğ, -k* şəkilçiləri ilə: *"ör+ük:* "örük saç" (1, 69), "qorı+ğ" (1, 17), "ört+ük" (1, 103), "istə+k", "oyna+q" (1, 120), *"qoş+uğ:* şer, qoşma" (1, 376), "bəzə+k", *"böl+ük:* "bir bölük kişi", *"bil+ik:* "Bilik ögrən" (1, 385), *"süz+ük:* "süzük suv" (1, 389), "köp+ük" (1, 390)...

5) *-aq, -ək* şəkilçiləri ilə: *"quc+aq" (1, 382), "qon+aq" (1, 384), "kəs+ək:* "bir kəsək ətmək" (1, 391)...

6) *-ınc, -inc, -unc, -ünc* şəkilçiləri ilə: *"sev+inc" (1, 12), "gül+ünc" (III, 374), "qorq+unc" (III, 387), "um+unc*: umma, ümid etmə. "Umunc tənrikə = ümid tanrıya, ümid tanrıdan" (III, 450),..

7) *-ma, -mə* şəkilçiləri ilə: *"kəs+mə" (1, 11), "ör+mə" (1, 129), "süz+mə", "tik+mə"*, "qat+ma" (1, 433)...

8) *-qı, -ki, -qu, -kü* şəkilçiləri ilə: *"sor+qu" (1, 16), "iç+kü" (1, 128)...*

9) *- mur // - mır, -mırcıl* şəkilçiləri ilə: "yağ+mur" (1, 16), *"yağ+mırcıl:* "yağımlı yer" (III, 56)...

10) *-maq* şəkilçisi ilə: *"çaq+maq"* (1, 469). Bu sözlə əlaqədar izahatda deyilir: "Bu kəlmə həm isim, həm də məsdərdir" (1, 470).

Ümumiyyətlə, düzəltmə isimlər kimi bəhs etdiyimiz sözlər, yerinə görə sifət də ola bilir; Kaşğarlı da bunlardan elə bu şəkildə danışır.

Mürəkkəb isimlər. Mürəkkəb isimlərə, xüsusilə tayfa, yer adlarında təsadüf edirik. *"Alqabölük", "Qarabölük"* (1, 56), mürəkkəb isimləri Oğuz qollarının adlarıdır. *"Qaranquş"* (III, 221) - qaraquş, *"Qaraquş"* (III, 221) - Müştəri ulduzu və bu kimi mürəkkəb adlar sifət və ismin birləşməsindən əmələ gəlmişdir.

Kaşğarlıda mürəkkəb söz kimi *"qulaç" // "Qulaç"* sözlərinin maraqlı izahı vardır:

"Qulaç: kişi adlarındandır;

qulaç: Bunun əsli "qol aç"dır. Məs.: "bir qulaç barçın = bir qulaç ipək qumaş" deyilir" (1, 354).

b) sifətlər. Kaşğarlının əhatə etdiyi, misal gətirdiyi sözlərin müəyyən qismi bir nitq hissəsi kimi sifətə daxildir. Onlar quruluşca sadə və düzəltmə olmaqla iki qrupa ayrılır.

Sadə sifətlər. Bu sifətlər əsli sifətlərdir, kök sözlərdən ibarətdir; əsasən rənglərin adını və keyfiyyət bildirir, iki və daha artıq səsdən ibarət olur.

1) iki səsdən ibarət əsli sifətlər: *"aq:* "aq saqal ər" (1, 81), "aq bulıt" (1, 354), *"al"* (al rəng) - III, 162...

2) üç səsdən ibarət əsli sifətlər: *"yaş:* "yaş ot (III, 4), "*boz:* "boz at" (III, 122), "boz buğa" (III, 224), *"boş:* "boş ev" (III, 125), *"çik:* "çik ət görəyin" (III, 130), *"kök:* "kök ton" (III, 132), *"sağ:* "sağ könül" (III, 154), *"çal:* "çal qoy" (un) - III, 156,..

3) dörd səsdən ibarət əsli sifətlər; *"aç+uq:* "açuq gög", *"ılığ:* "ılığ suv" (1, 65), "arıq" (1, 66), "uzun" (1, 77), *"qara:* "qara örük" (1, 69), *"bərk:* "bərk nən" (1, 349), *"yeni:* "yeni nən" (III, 368)...

4) beş səsdən ibarət əsli sifətlər: *"axsaq" (1, 119), "kiçik" (1, 390), "körpə:* "körpə yemiş", "körpə oğul" (1, 415), *"qaşğa:* "qaşğa at" (1, 426), *"yoğun" (III, 29), "yaxşı:* "yaxşı iş" (III, 32), "yaşıl" (III, 162), *"sarığ:* "sarığ örük" (1, 69), "sarığ buğa" (III, 224)...

5) altı səsdən ibarət əsli sifətlər: *"yumşaq" (III, 44), "yüksək:* "yüksək tağ" (III, 45), *"yorığa:* "yorığa at" (III, 174)...

Düzəltmə sifətlər. Düzəltmə sifətlər aşağıdakı şəkilçilərlə düzəlir.

1) - *ğan, -gən* şəkilçiləri: *"qaçur+ğan" (1, 517), "tokut+ğan"* (1, 519), "sümür+gən" (1, 523), *"yügür+gən:* "yügürgən at" (III, 54), *"yatur+ğan", "yapuş+ğan:* "Ol ər ol işgə yapuşğan" (III, 53), *"yayıl+ğan*: "yayılğan kişi" (III, 55)...

2) *-şin* şəkilçisi: *"gök+şin:* "gökşin nən" (1, 437)...

3) *-suz, -süz* şəkilçiləri: *"ök+süz:* çaşqın" (1, 96), *"yol+suz:* yolunu azmış kimsə" (III, 40)...

4) *-ük* şəkilçisi: *"yükı+ük:* "yükrük at=qoşucu, keçici, yükrək at". Oğuzlar, bilikli, təmkinli, ağıllı, ərdəmli kişilərə "yükrük bilkə" deyirlər" (III, 45)...

Sifətin "artırma" dərəcəsi. Kaşğarlı yazır ki, "bir şeyin təsirini artırmaq üçün bütün türk dillərində sifətlənən kəlmənin ilk hecası alınır və ona **p** hərfi əlavə edilir; bu, oğuzcada **m**-nin əlavəsilə olur" (1, 328).

Kaşğarlı bu xüsusiyyəti izah edərkən aşağıdakı misalları gətirir:

1) "Tünd göy rəngində olan şeyə türklər "köp gög", oğuzlar "göm kök" deyirlər, "göm göy" deməkdir. Türklər kəlmənin ilk hecası olan kökü alaraq, **p** ilə birləşdirib **göp** demişlər. Bu artırma ədatıdır; sonra da rəngin adını gətirərək "köp gög" deyirlər"; "Oğuzlar **p**-ni **m**-yə çevirərək "göm gög" deyərlər, "tünd göy" deməkdir" (1, 328-329).

2) "Sarı şeyə "sarığ", tünd sarı şeyə "sapsarığ" deyilir. "Sarığ" sözünün birinci hecası alınaraq p ilə birləşdirilmiş, beləliklə, artırma alınmış, sonra da rəngi bildirən söz gətirilmişdir" (1, 329).

3) "Bunun kimi, boş yerə, açıqlığa "yazı" deyilir. Bunun təsvirində artırma istənildikdə "yap yazı" deyilir.

Bütün artırmalar məhz belədir" (1, 329)...

Kaşğarlının misal çəkib izahat verdiyi *"yaş-yuş" (III, 4), "yaşıl-yuşul", "yap yaşıl" (III, 19), "qara-qura" (III, 222)* kimi sifətlər də indi canlı dilimizdə işlək olan, hər zaman istifadə edilən sözlərdir.

c) ***saylar.*** Mahmud Kaşğarlı "Divan"da miqdar və sıra saylarına aid aşağıdakı misalları verir:

Miqdar sayları: "bir" (1, 322), "iki" (1, 131), "üç: "iki qaz üçləndi" (1, 256), *"beş" (III, 125), "yetti:* "yetti qat gök" (III, 27), *"səkiz // səkkiz"* (1, 365), "on" (1, 49), *"yigirmə // yigirmi" (III, 48), "ottuz" (1, 142), "qırq" (1, 349), "əlliğ" (1, 143), "səksün:* səksən. Əsli "səkiz on"dur, "səkkiz kərə on" deməkdir; iki söz birləşdirilmişdir", *"toksun:* doxsan. Əsli "tokuz on"dur, "doqquz kərə on" deməkdir; iki söz birləşdirilmişdir" (1, 437)...

Sıra sayları: sıra sayları miqdar saylarının sonuna, müasir dilimizdən bir az fərqli olan *-ınc, -inc, -unc, -ünc* şəkilçilərini artırmaqla əmələ gəlir: *"bir+inc" (III, 373), "iki+nc", "üç+ünc" (1, 131)...*

Kaşğarlı sıra saylarının əmələ gəlməsini belə izah edir:

"Bu bir qaydadır. 10-dan aşağı olan saylarda kökə, özündən əvvəlki saydan sonra gəldiyini bildirmək üçün *ünc* və *inc* hərfləri

əlavə olunur. "Törtünc", "beşinc" sözləri kimi (əsilləri "tört" ilə "beş"dir). Bu mənanı verə bilmək üçün kökə n və c hərfləri əlavə olunur. Bütün köklərdə belə edilir. Belə ki, onuncuya "onunc", iyirminciyə "yigirminc" deyilir" (1, 132).

ç) ***əvəzliklər.*** "Divan"da şəxs, işarə, sual və qayıdış əvəzliklərindən ətraflı danışılır...

Şəxs əvəzlikləri. Şəxs əvəzlikləri əsasən müasir dilimizdəki kimidir.

Təkdə:

I şəxs. *"Mən"* (1, 340), "Mən anı tuşladım" (III, 294), "Ol manı a baqdı" (III, 16)...

II şəxs. *"Sən"* (1, 339), "Türklər "sən" deyərlər" (III, 138)...

III şəxs. *"Ol"*, "Ol atın tərlətti" (II, 342), "Ol anı süngülədi" (III, 405), "anı" (III, 238)...

Cəmdə:

I şəxs. "*Biz"* (II, 61), *"biz:* "bizin ev" (III, 370)...

II şəxs. *"Siz"* (1, 339).

III şəxs. *"Olar:* "Olar ikki tutuşdılar" (II, 88), "Olar bir-birgə bakışdı" (II, 103)...

"Divan"da "sən", "siz" əvəzliklərinə belə izahat verilir: *"Sən.* Türklər bu kəlmə ilə uşağa, uşaq kimi özlərindən yaşca və ağılca kiçik olanlara müraciət edərlər. Ağıllı, sayılan kimsələrə qarşı *z* ilə *siz* deyilir. Oğuzlar əksinə olaraq, böyük üçün "sən", kiçik üçün "siz" deyirlər. Cəmində də belə deyilir. Qaydada da budur; çünki "siz" cəmi olan bir isimdir" (1, 339).

İşarə əvəzlikləri. "Bu: "bu ər" (II, 208), *"Ol:* "Ol Tənri səni mana sevtürdi" (II, 185), "Bu itmi?", "Bu oğul səninmi?" (III, 214)...

Sual əvəzlikləri. "Kim: Sual ədatıdır. Ərəbcə bunun qarşılığı "mən"dir. "Mən haza" deyilir ki, "bu kim" deməkdir. Bu kəlmə tək və cəm üçün işlədilir. Oğuzlar "boy kim" deyərlər ki, "hansı qəbilə" deməkdir" (1, 338), *"Kim:* "Kökün kim? = əslin kimdir? Hansı boydansan? Oğuzca, qıpçaqca" (II, 284), "neçə: "Qoy sanı neçə? =

Qoyunun sayı neçədir?" (III, 157), "nə: "Bu oğul nə ter?" (1, 74), *"qanı:* "Oğlım qanı = Oğlum hanı?" (III, 237)...

Qayıdış əvəzlikləri. "Öz: "Ol özin ögündi" (II, 203). Kaşğarlı bir münasibətlə yazır ki, "Ər alımın aldı" cümləsi "Ər alacağını özü aldı" mənasında işləndiyi zaman "öz" kəlməsi gəlir. "Özinə = özünə", "özi = özü" deməkdir... İşlər bütün insanlar arasında otraqlıdır. Birisi bir işi başqasının yardımı olmadan görürsə, "öz" sözü söylənmədən ifadə nöqsanlı sayılır; "öz" sözü söyləndikdə tamamlanır. Beləliklə, iş iş görənlə bağlı olur, ortaqlıqdan çıxır" (II, 159).

Tədqiqatçının bu izahı bir qayıdış əvəzliyi kimi "öz" sözünün müasir dilimizdəki məna və vəzifəsinə bütünlüklə uyğun gəlir.

d) fellər. Müasir dilimiz baxımından felləri araşdırdıqda daha artıq zənginliyə rast gəlirik. Kaşğarlı yazır ki, "Fellər iki, üç, dörd, beş, altı hərfli ola bilir" (1, 19); "Əvvəlcə iki hərflilərdən başladıq, sonra üç, dörd, beş, altı hərfliləri söyləyəcəyik" (1, 23).

Müəllifin prinsipi əsasında biz məhz Azərbaycan dilində bu gün belə işlənən felləri seçib şərh etməyə çalışaq.

Sadə fellər. Sadə fellər heç bir şəkilçi qəbul etmədən hal və hərəkət əks etdirən fellərdir. Bu fellər bir-birindən ancaq səslərin sayına görə seçilir.

1) iki səsdən ibarət sadə fellər: *"öp, öpər, öpmək:* "Ol məni öpdi", *"aç, açar, açmaq", "uç, uçar, uçmaq:* "Quş uçdı" (1, 163), *"iç, içər, içmək:* "Ər suv içdi" (1, 164), *"üz, üzər, üzmək:* "Ol yıp üzdi = O, ip kəsdi", *"əs, əsər, əsmək" (1, 165), "ək, əkər, əkmək":* "Ol butaq əgdi", *"al, alar, almaq:* "Ol alımın aldı" (1, 168), *"əm, əmər, əmmək:* "Gənc anasın əmdi", *"um, umar, ummaq:* "Ol məndən nəhs umdı" (1, 169), *"at, atar, atmaq*: "Ər oq attı" (1, 170), *"öt, ötər, ötmək:* "Oq keyiktən ötti" (1, 171), *"ac, acar, acmaq:* "Ər actı (1, 172), *"az, azar, azmaq:* "Ol yol azdı", *"as, asar, asmaq:* "Ol ət asdı", *"aş, aşar, aşmaq:* "Ol tağ aştı" (1, 173), *"ög, ögər, ögmək:* "Ol məni ögdi" (1, 174), *"ye, yer, yemək:* "Ər aş yedi" (III, 67), *"yu, yur, yumaq:* "Ol ton yudı" (III, 249)...

2) üç səsdən ibarət sadə fellər: *"tap, tapar, tapmaq:* "Ol nəӈni tapdı", *"çap, çapar, çapmaq:* "Ər suvda çapdı,.. (II, 3), *"qap, qapar, qapmaq:* "Ər ton qapdı" (II, 4), *"qaç, qaçar, qaçmaq:* "Ər qaçdı", *"keç, keçər, keçmək", "köç, köçər, köçmək:* "Sü köçti = Əsgər köçdü" (II, 5), *"sür, sürər, sürmək:* "Ol at sürdi" (II, 7), *"gör, görər, görmək:* "Ol məni gördi", *"gir, girər, girmək:* "Ol evgə girdi" (II, 8), *"süz, süzər, süzmək:* "Ol suv süzdi", *"sız, sızar, sızmaq:* "Yağ sızdı" (II, 9), *"qaz, qazar, qazmaq:* "Ər arıq qazdı" (II, 10), *"kəs, kəsər, kəsmək:* "Ol yığac kəsdi" (II, 11), *"sağ, sağar, sağmaq:* "Ər qoy sağdı = Ər qoyun sağdı", *"sev, sevər, sevmək:* "Ol məni sevdi" (II, 15), *"çak, çakar, çakmaq:* "Ol çaqmaq çakdı" (II, 17), *"çök, çökər, çökmək:* "təvi çökdi = Dəvə çökdü", *"bil, bilir, bilmək:* "Ol bilik bildi" (II, 22), *"qıl, qılur, qılmaq:* "ər iş qıldı", *"gəl, gəlir, gəlmək:* "Ər evgə gəldi" (II, 25), *"gül, gülər, gülmək:* "Ər güldi", *"cum, cumar, cummaq:* "Oğlan suvda cumdı" (II, 26), *"sın, sınur, sınmaq:* "yığac sındı" (II, 29), *"yat, yatur, yatmaq:* "Ər yattı" (II, 313), *"yar, yarar, yarmaq:* "Ər yığac yardı" (III, 57), *"yüz, yüzər, yüzmək:* "Ər suvda yüzdi" (III, 59), *"yağ, yağar, yağmaq:* "Yağmur yağdı" (III, 60-61), *"yığ, yığar, yığmaq:* "Ol tarığ yığdı = O, taxıl yığdı" (III, 61), *"yık, yıkar, yıkmaq:* "Ol evin yıkdı" (III, 63), *"sor, sorar, sormaq:* "Gənc süt sordı" (III, 181), *"soy, soyar, soymaq:* "Ər qoyuğ soydı" (III, 244), *"üşi, üşir, üşimək:* "Ər üşidi" (III, 254)...

3) dörd səsdən ibarət sadə fellər: *"utan, utanur, utanmaq:* "Ol məndin utandı" (1, 199), *"inan, inanur, inanmaq" (1, 206), "ügit, ügitür, ügitmək*: "Ol tarığ ügitti" (1, 213), *"ağrı, ağrır, ağrımaq:* "Anın başı ağrıdı" (1, 273-274), *"axsa, axsar, axsamaq:* "At axsadı" (1, 276), *"oxşa, oxşar, oxşamaq:* "Mən anı oxşadım... Bir nəӈ birgə oxşadı" (1, 282-283), *"əsnə, əsnər, əsnəmək*: "Ər əsnədi" (1, 288), *"yama, yamar, yamamaq:* "Ol ton yamadı" (III, 91), *"gici, gicir, gicimək:* "Ətim gicidi" (III, 259), *"tara, tarar, taramaq:* "Qız saçın taradı" (III, 260), *"qarı, qarır, qarımaq:* "Ər qarıdı", *"bəzə,*

bəzər, bəzəmək: "Ol evin bəzədi" (III, 263), *"qazı, qazır, qazımaq:* "Ol yeriğ qazıdı" (III, 264), *"qaşı, qaşır, qaşımaq:* "Ol məni qaşıdı" (III, 267), *"bələ, bələr, bələmək:* "Ol gəncin bələdi" (III, 270), *"sına, sınar, sınamaq:* "Ol anı sınadı", *"qına, qınar, qınamaq:* "Bəg anı qınadı" (III, 272), *"qana, qanır, qanımaq:* "Burun qanadı" (III, 272-273), *"sana, sanar, sanamaq:* "Ol qoyın sanadı" (III, 274), *"sanc, sancar, sancmaq:* "Ol anı biçəgin sancdı = O, onun bıçağını sancdı" (III, 420), *"qorq, qorqar, qorqmaq:* "Qul Tənridən qorqdı" (III, 421), *"qırq, qırqar, qırqmaq:* "Ol qoyun qırqdı" (III, 422), *"silk, silkər, silkmək:* "Ər yığaç silkdi" (III, 422-423), *"kərt, kərtər, kərtmək:* "Ol yığac kərtdi" (III, 427)...

4) beş səsdən ibarət sadə fellər: *"axtar, axtarur, axtarmaq:* "Ol yer axtardı" (1, 219), *"ögrən, ögrənür, ögrənmək:* "Ol bilik ögrəndi" (1, 252), *"götür, götürür, götürmək:* "Ər yük götürdi" (II, 75), *"çevür, çevürər, çevürmək:* "Ər ok çevürdi", *"gəgir, gəgirər, gəgirmək:* "Ər gəgirdi" (II, 84), *"süpür, süpürür, süpürmək:* "Ol ev süpürdi" (II, 85), *"savaş, savaşur, savaşmaq:* "Olar ikki savaşdı" (II, 102), *"tokuş, tokışur, tokışmaq:* "Bəklər tokuştı" (II, 103), *"tükət, tükətür, tükətmək:* "Ol işin tükətti" (II, 309), *"yubat, yubatur, yubatmaq:* "Ol işiğ yubattı" (II, 315), *"yügür, yügürür, yügürmək:* "Ər yügürdi" (III, 68), *"yapış, yapışur, yapışmaq:* "İt keyikgə yapışdı" (III, 70), *"baqır, baqırar, baqırmaq*: "Təvəy baqırdı = Dəvə bağırdı" (III, 186), *"qurşa, qurşar, qurşamaq:* "Ol qaftan qurşadı" (III, 287), *"qarğa, qarğar, qarğamaq:* "Tənri anı qarğadı" (III, 290), *"gizlə, gizlər, gizləmək:* "Ol gizlədi nənni" (III, 300), *"kişnə, kişnər, kişnəmək:* "Qatır kişnədi" (III, 302)...

5) altı səsdən ibarət sadə fellər: *"əsirgə, əsirgər, əsirgəmək:* "Ol əsirgədi nənni" (1, 306), *"səgrit, səgritür, səgritmək:* "Ol atın arıqtın səgritti = O, atını arxdan səyritdi" (II, 333), *"sarsıt, sarsıtur, sarsıtmaq:* "Ol anı sarsıttı" (II, 336), *"qorqıt, qorqıtur, qorqıtmaq:* "Ol anı qorqıttı" (II, 339), *"yalvar, yalvarur, yalvarmaq:* "Ol mənə yalvardı" (III, 99-100), *"qaytar, qaytarur, qaytarmaq:* "Ol atığ

qaytardı" (III, 193), *"yoğurt, yoğurtur, yoğurtmaq:* "Ol anar un yoğruttı" (III, 436), *"yügürt, yügürtür, yügürtmək*: "Ol anı yügürtti" (III, 437)...

Düzəltmə fellər. Düzəltmə fellər isim və fellərə müvafiq sözdüzəldici şəkilçilərin əlavəsi ilə düzəlir.

Feldən düzələn fellər.

1) *-ış, -iş, -uş, -üş* şəkilçiləri ilə: *"öp+üş, öpüşür, öpüşmək:* "Ol mənin birlə öpüşdi", *"at+ış, atışur, atışmaq:* "Ol mənin birlə oq atışdı" (III,1, 180), *"iç+iş, içişür, içişmək:* "Ol mənin birlə süt içişdi" (1, 181), *"təp+iş, təpişür, təpişmək:* "Ol mənin birlə təpişdi" (II, 87), *"qaç+ış, qaçışur, qaçıtmaq:* "Olar bir birdin qaçıştı" (II, 92), *"gör+üş, görüşür, görüşmək*: "Ol mənin birlə görüşdi" (II, 99), *"boğ+uş, boğuşur, boğuşmaq:* "Olar ikki boğuşdı", *"sağ+ış, sağışur, sağışmaq:* "Olar ikki süt sağışdı" (II, 101), *"sev+iş, sevişür, sevişmək:* "Olar ikki sevişdi" (II, 102), *"yar+ış, yarışur, yarışmaq:* "Ol anın birlə at yarışdı" (III, 72)...

2) *-ın, -in, -un, -ün, -n* şəkilçiləri ilə: *"okı+n, okınur, okınmaq:* "Ol bitik okındı" (1, 202-203), *"um+un, umunur, umunmaq:* "Mən Tənridən umundum" (1, 206), *"bürü+n, bürünür, bürünmək:* "Urağut yoğurqan büründü" (II, 141), *"boğ+un, boğunur, boğunmaq:* "At boğundı", *"bəzə+n, bəzənür, bəzənmək:* "Ev bəzəndi" (II, 142), *"sarı+n, sarınur, sarınmaq:* "Ər işgə sarındı" (II, 151), *"sev+in, sevinür, sevinmək:* "Ər sevindi" (II, 53), *"gör+ün, görünür, görünmək:* "Ol bəgkə göründi" (II, 157)...

3) *-ıl, -il, -ul, -ül* şəkilçiləri ilə: *"iç+il, içilir, içilmək:* "Suv içildi" (1, 194), *"üz+ül, üzülür, üzülmək:* "Anın əti üzüldi" (1, 196), *"eş+il, eşilür, eşilmək:* "Quş eşildi" (1, 197), *"oy+ul, oyulur, oyulmaq:* "Yer oyuldu" (1, 268), *"tut+ul, tutulur, tutulmaq:* "Keyik tutuldı" (II, 120), *"qat+ıl, qatılur, qatılmaq:* "Arpa ögür birlə qatıldı" (II, 121); *"sər+il, sərilür, sərilmək:* "Ər sərildi", *"sür+ül, sürülür, sürülmək:* "At sürüldi" (II, 123), *"süz+ül, süzülür, süzülmək:* "Suv

süzüldi", *"sağ+ıl, sağılur, sağılmaq:* "Süt sağıldı" (II, 124), *"sık+ıl, sıkılur, sıkilmaq:* "Üzüm sıkıldı" (II, 125), *"tak+ıl, takılur, takılmaq*: "Ət şişgə takıldı", *"tök+ül, tökülür, tökülmək:* "Suv töküldi" (II, 129), *"boğ+ul, boğulur, boğulmaq:* "Ər boğuldı" (II, 131), *"qaz+ıl, qazılur, qazılmaq:* "Arıq qazıldı" (II, 135), *"keç+il, keçilür, keçilmək:* "Suv keçildi", *"gör+ül, görülür, görülmək", "kəs+il, kəsilür, kəsilmək" (II, 136-137), "sürt+ül, sürtülür, sürtülmək", "sanc+ıl, sancılur, sancılmaq" (II, 231), "qırk+ıl, qırkılur, qırkılmaq:* "Yun qırkıldı", *"kərt+il, kərtilür, kərtilmək:* "Qul boynı kərtildi" (II, 236)...

4) *-tır(-dır), -tir(-dir), -tur(-dur), -tür(-dür)* şəkilçiləri ilə: *"öp+tür, öptürür, öptürmək:* "Ol anı öptürdi" (1, 217), *"iç+tür, içtürür, içtürmək:* "Ol mana suv içtürdi" (1, 218), *"as+tur, aşturur, asturmaq:* "Ol ət asturdı" (1, 220-221), *"bas+tur, basturur, basturmaq:* "Bəg oğrını basturdı", *"boğtur, boğturur, boğturmaq:* "Ol anı boğturdı" (II, 171), *"tut+tur, tutturur, tutturmaq:* "Bəg oğrını tutturdı", *"tök+tür, töktürür, töktürmək:* "Ol suv töktürdi", *"tik+tür, tiktürür, tiktürmək:* "Ol ton tiktürdi" (II, 174), *"çap+tur, çapturur, çapturmaq:* "Ər qulun suvda çapturdı" (II, 180), *"çök+tür, çöktürür, çöktürmək:* "Ol anın təvəsin çöktürdi" (II, 181), *"cum+tur, cumturur, cumturmaq:* "Ol anı suvqa cumturdı" (II, 182), *"süz+tür, süztürür, süztürmək*: "Ol suv süztürdi" (II, 184), *"sök+tür, söktürür, söktürmək:* "Ol ton söktürdi" (II, 186), *"qon+dur, qondurur, qondurmaq:* "Ol evində quş qondurdı" (II, 192), *"gül+tür, gültürür, gültürmək:* "Ol məni gültürdi" (II, 195)...

Müasir Azərbaycan dilinin qrammatikası kitablarında *-ın, -in, -un, -ün, -n, -ıl, -il, -ul, -ül, -dır, -dir, -dur, -dür* şəkilçilərindən dözəltmə yox, növ şəkilçiləri kimi bəhs olunur. Bu barədə mübahisə etmək niyyətində deyilik. Hər iki vəziyyət belə tədqiqatımızın istiqamətinə uyğun gəlir, əsl məqsədə yan alır.

5) *-ız, -iz, -uz, -üz* şəkilçiləri ilə: *"əm+üz, əmüzür, əmüzmək:* "Urağut oğlına süt əmüzdi" (1, 180), *"tut+uz, tutuzur, tutuzmaq:*

"Mən anar söz tutuzdum", *"tam+uz, tamuzur, tamuzmaq:* "Ol suv tamuzdı" (II, 86)...

6) *imsin, ümsin* şəkilçiləri ilə: *"gəl+imsin, gəlimsinir, gəlimsinmək:* "Ol bərü gəlimsindi = O bəri gəlmək istədi". *"Gül+ümsin, gülümsinür, gülümsinmək:* "Ər gülümsindi" (II, 269)...

İsimdən düzələn fellər.

Kaşğarlı isimdən düzələn fellər üzərində geniş dayanır; *-la, -lə* şəkilçilərinin məhsuldarlığını xüsusi qeyd edir. Kaşğarlı yazır: "*-la, -lə* isimlərə qoşulur və onları felə çevirir: "Bəg quşladı" sözündə olduğu kimi; "Bək quş ovladı" deməkdir. "Quş" kəlməsi isimdir; təsrif olunmaz, dəyişməz; *-la* qoşulduqda fel olur, başqa fellər kimi hər cür dəyişilə bilir. Bu çox böyük bir qanundur, bunu yadında saxla. "Bak kənddə qışladı" da belədir... "Qış" kəlməsinin sonuna la gətirilərək düzəlmişdir" (1,22).

"Divan"da işlənən isimlərdən fel düzəldən şəkilçilərdən aşağıdakıları göstərmək olar:

1) *-la, -lə* şəkilçiləri: *"ot+la, otlar, otlamaq:* "At otladı" (1, 285), *"iş+lə, işlər, işləmək:* "Ər işlədi" (1, 286), *"ögüt+lə, ögütlər, ögütləmək:* "Ol oğlın ögütlədi" (1, 299), *"ucuz+la, ucuzlar, ucuzlamaq:* "Bəg anı ucuzladı" (1, 301), *"ağu+la, ağular, ağulamaq:* "Ol aşın ağuladı" (1, 310), *"bağ+la, bağlar, bağlamaq:* "Ol otun bağladı" (III, 292), *"tər+lə, tərlər, tərləmək:* "At tərlədi", *"tuz+la, tuzlar, tuzlamaq:* "Ol ət tuzladı" (III, 293), *"taş+la, taşlar, taşlamaq;* "Ol itin taşladı", *"tiş+lə, tişlər, tişləmək:* "Ol ani tişlədi", *"tağ+la, tağlar, tağlamaq:* "Ol atın tağladı" (III, 294), *"sap+la, saplar, saplamaq:* "Ər qılıc sapladı" (III, 296), *"sız+la, sızlar, sızlamaq:* "Anın tişi buzdın sızladı" (III, 297), *"qar+la, qarlar, qarlamaq:* "Bulıt qarladı" (III, 298), *"gəz+lə, gəzlər, gəzləmək:* "Ol okın gəzlədi", *"göz+lə, gözlər, gözləmək:* "Ol anı gözlədi", (III, 300), *"yağ+la, yağlar, yağlamaq:* "Ər qoğuş yağladı = Ər qayış yağladı" (III, 308), *"yük+lə, yüklər, yükləmək:* "Ol təvəyqə yük yüklədi" (III, 309), *"yay+la, yaylar, yaylamaq*: "Ər tağda yayladı" (III, 311),

"qılıc+la, qılıclar, qılıclamaq: "Ol anı qılıcladı" (III, 331), *"qarış+la, qarışlar, qarışlamaq:* "Ol barçın qarışladı" (III, 336), *"qucaq+la, qucaqlar, qucaqlamaq:* "ol barçın qucaqladı", *"qaşuq+la, qaşuqlar, qaşuqlamaq:* "Ol balığ qaşuqladı = O, balı qaşıqladı" (III, 338-339), *"təzək+lə, təzəklər, təzəklədi:* "At təzəklədi" (III, 340), *"körük+lə, körüklər, körükləmək:* "Ol otuğ körüklədi = O, odu körüklədi" (III, 341), *"qoltuq+la, qoltuqlar, qoltuqlamaq:* "Ol otun qoltuqladı" (III, 351), *qamçı+la, qamçılar, qamçılamaq:* "Ol atın qamçıdı" (III, 352)...

2) *-lan, -lən* şəkilçiləri: *"at+lan, atlanur, atlanmaq:* "Ol tağqa atlandı" (1, 256), *"ət+lən, ətlənür, ətlənmək:* "Oğul ətləndi" (1, 256), *"öküz+lən, öküzlənir, öküzləmək:* "Ər öküzləndi = Ər öküz sahibi oldu", *"ocaq+lan, ocaqlanur, ocaqlanmaq:* "Ev ocaqlandı" (1, 293), *"ətək+lən, ətəklənür, ətəklənmək:* "Ton ətəklənidi" (1, 295), *"arpa+lan, arpalanur, arpalanmaq:* "At arpalandı" (1, 296), *"bağ+lan, bağlanur, bağlanmaq:* "Otun bağlandı" (II, 238), *"tiş+lən, tişlənür, tişlənmək:* "Oğlan tişləndi" (II, 244), *"saç+lan, saçlanur, saçlanmaq:* "Ər saçlandı" (II, 246), *"suv+lan, suvlanur, suvlanmaq:* "Anın gözi suvlandı" (II, 247), *"güc+lən, güclənür, güclənmək:* "Ər gücləndi", *"kir+lən, kirlənür, kirlənmək*: "Ton kirləndi" (II, 252), *"göz+ləndi, gözlənir, gözlənmək:* "Ok gözləndi" (II, 252-253), *"bulıt+lan, bulıtlanur, bulıtlanmaq:* "Gök bulıtlandı", *"butaq+lan, butaqlanur, butaqlanmaq:* "Yığaç butaqlandı" (II, 264), *"balıq+lan, balıqlanur, balıqlanmaq:* "Göl balıqlandı" (II, 265), *"söküt+lən, sökütlənür, sökütlənmək:* "Yer sökütləndi" (II, 266), *"qanat+lan, qanatlanur, qanatlanmaq:* "Ər qanatlandı", *"qılıc+lan, qılıclanur, qılıclanmaq:* "Ər qılıclandı", *"cığır+lan, cığırlanur, cığırlanmaq:* "Yer cığırlandı" (II, 267), *"qamış+lan, qamışlanur, qamışlanmaq:* "Yer qamışlandı" (II, 268), *"surquc+lan, surquclanur, surquclanmaq:* "Biçək surquclandı" (II, 271), *"kirpük+lən, kirpüklənür, kirpüklənmək:* "Anın gözi kirpükləndi" (II, 277), *"kirşən+lən, kirşənlənür, kirşənlənmək:* "Urağut kirşənləndi"

(II, 278), *"yağ+lan, yağlanur, yağlanmaq:* "yağlandı nən (III, 111), *"tilkü+lən, tilkülənür, tilkülənmək*: "Ər tilküləndi", *"tükmə+lən, tükmələnür, tükmələnmək:* "Ər tükmələndi" (III, 202)...

3) *-lat, -lət* şəkilçiləri: *iş+lət, işlətür, işlətmək:* "Ol anar iş işlətti", *"tuz+lat, tuzlatür, tuzlatmaq:* "Ol ət tuzlattı" (II, 242), *"tağ+lat, tağlatur, tağlatmaq:* "Ol atın tağlattı", *"sap+lat, saplatur, saplatmaq:* "Ol qılıc saplattı" (II, 344), *"söz+lət, sözlətür, sözlətmək:* "Ol məni sözlətti" *"sız+lat, sızlatur, sızlatmaq:* "Buz tışığ sızlattı = Buz dişi sızlatdı" (II, 346), *"göz+lət, gözlətür, gözlətmək:* "Ol ok gözlətti", *"giz+lət, gizlətür, gizlətmək:* "Ol mana söz gizlətti" (II, 348), *"yaz+lat, yazlatur, yazlatmaq:* "Ol qoyın yaylağda yazlattı", *"yük+lət, yüklətür, yüklətmək:* "Ol yük yüklətti" (II, 355-356), *"yay+lat, yaylatur, yaylatmaq:* "Ol anı tağda yaylattı" (II, 357)...

4) *-laş, -ləş* şəkilçiləri: *"saç+laş, saçlaşur, saçlaşmaq:* "Ol ikki bilə saçlaşdı = Onlar ikisi bir-birinin saçından yapışdı", *"söz+ləş, sözləşür, sözləşmək*: "Ol mənin birlə sözləşdi", *"sav+laş, savlaşur, savlaşmaq:* "Ol mənin birlə savlaşdı" (II, 215-216), *"göz+ləş, gözləşür, gözləşmək:* "Ol mənin birlə gözləşdi" (II, 224)...

e) ***zərflər.*** "Divan"da daha çox zaman və məkan zərfləri işlənmişdir.

Zaman zərfləri: "axşam" (1, 107), "ertə" (1, 124), "imdi" (1, 125), "ikindi" (1, 140), "gec: "Gec gəldi" (III, 121), *"gecə" (III, 219)...*

Məkan zərfləri: "uzaq" (1; 66), "anda: orada, orda" (1, 125), *"yakın:* "yakın yer"; "yakın ər" (III, 22), *"yıraq:* "yıraq yer" (III, 28)...

ə) çoxmənalı sözlər, omonimlər.

Sözün çoxmənalılığı dillərin müəyyən inkişaf səviyyəsi, zənginliyi ilə əlaqədar keyfiyyətdir. Kaşğarlı eyni səs tərkibli sözlərin müxtəlif mənalarda işləndiyinə aid çoxlu misallar, nümunələr verir. Burada eyni səs tərkibli bir söz bəzən üç-dörd, hətta beş-altı məna daşıyır.

Sav: Bu söz müasir dilimiz üçün arxaik sayılır; ondan nişanə olaraq bir "savaş"(maq) sözü qalmış ki, əsasən öz ilk sözləşmək, davadalaş eləmək mənasına uyğun gəlir. Lakin "sav" sözü vaxtilə geniş əhatə dairəsinə malik olmuş, rəngarəng mənalarda işlənmişdir. Məs.:

1) "atalar sözü, zərbi-məsəl...";

2) "qısa, tarixi şeylər";

2) "hekayə";

4) "məktub, risalə";

5) "söz";

6) "xəbərlər, əhvalatlar. Buradan alınaraq elçiyə "savçı" deyilir. Çünki elçi bir çox xəbərlər gətirir, yazılan şeyi yerinə yetirir,.. onun sözünü buna, bunun sözünü ona çatdırır" (III, 154).

Oğur: Bu sözün vaxtilə ifadə etdiyi mənaları çoxu bu gün də qalır.

1) "vaxt: "Nə oğurda gəldin = Nə vaxt gəldin?" (1, 53); "Oğurlu-ğ iş = vaxtında və yerində görülmüş iş" (1, 146);

2) "dövlət: "Bəg oğrında mənin işim etildi = Bəyin dövlətindən mənim işim düzəldi";

3) "bir işdə imkan və fürsət: "Bu iş oğurluğ boldı = Bu iş sırasında və yerində oldu";

4) "qarşılıq, əvəz. Oğuzca. "Atqa oğur aldım = Ata əvəz aldım";

5) "xeyir və bərəkət. Oğuzca. Yolçuya "Yol oğur bolsun" deyilir. "Yol uğurlu olsun" deməkdir" (1, 53).

Ağız: 1) "irmağın, su tuluğunun, küpənin, küpün və quyunun ağzı";

2) "insanın və heyvanın ağzı..." (1, 55) və s.

Biz üçcə sözə nəzər saldıq. Burada eyni səs tərkibindən ibarət olan sözlər müxtəlif mənalarda işlədilmişdir. Əlbəttə, bu müxtəlif mənalar sözün ilk mənası əsasında törəmişdir. Bu keyfiyyət "ağız" sözündə xüsusilə nəzərə çarpır.

"Divan"da işlənən çoxmənalı sözlər sırasında omonimlər üzərində ayrıca dayanmaq lazımdır.

"Divan"da eyni səs tərkibli müxtəlif mənalı sözlər - omonimlər xüsusi maraq kəsb edir. Bunlar ayrı-ayrı nitq hissələrinə məxsus

olur; azı iki mənada çıxış edir, bəzən isə yeddi-səkkiz məna daşıyır. Məs.: "sağ" sözünün "Divan"da səkkiz mənada işləndiyini müşahidə edirik. Həm də "sağ" omonimi o vaxt ifadə etdiyi mənaların çoxunu, demək olar ki, bu gün də saxlayır, ifadə edir.

1) "ağıl";

2) "zirəklik, anlayış. Oğuzca. "Səndə sağ yoq = Səndə zirəklik yox, anlayış yox";

3) "sağlıq, salamatlıq. "Yinin sağmı = Vücudun sağmı";

4) "sağ suv: sağ su, dadlı su";

5) "sağ əliğ: "Sağ əl". Oğuzca. Başqa türklər bu kəlmələri bilməzlər";

6) "sağ: sağ. Yun atmaq, yun çırpmaq üçün işlədilən çubuqların adı";

7) "sağ yağ: sadə yağ, sağ yağ";

8) "sağ könül: təmiz, sağlam, isti qəlb" (III, 154).

"Divan"dakı bu cür eyni səs tərkibli omonim sözləri aşağıdakı qruplara ayırmaq olar.

1) iki səsdən ibarət omonim sözlər:

Al. 1) "al rəng: "...Turuncu rəngə dəli al deyilir". (1, 81); 2) "hiylə, al" (1, 81).

Ay. 1) Ay, planet (1, 82); 2) "ay: 30 gündən ibarət olan ay" (1, 82).

2) üç səsdən ibarət omonim sözlər:

Gün. 1) "Gün, Günəş: "Gün toğdı = Günəş doğdu"; 2) "Gün: "Bu gün barğıl = Bu gün get" (1, 340).

Yaş. 1) "Göz yaşı: "Gözüm yaşı akdı"; 2) "səbzəvat, göyərti: "Yaş yedim = göyərti yedim"; 3) "yaş, təzə: "Yaş ət = təzə ət" (III, 159).

Gök. 1) "Gök. Bu məsəldə də getmişdir: "Göggə sudhsa yüzgə tüşür = Göyə tüpürsə üzə düşər"; 2) "Qadınların üzünə düşən çillik. Başqasının üzünə də çil düşəndə belə deyilir"; 3) "Gög rəng: "Gög ton = göy rəngli don"; 4) "kənd gögi = şəhərin dörd ətrafında olan bağları, bostanları; şəhərin göylüyü" (III, 132-133).

Qaz. 1) "qaz"; 2) "Qaz. Afrasyabın qızının adı. "Qazvin" şəhərini bu qurmuşdur. Əsli "Qaz oynı"dır. Çünki Afrasyabın qızı orada oturar, orada oynarmış..." (III, 149).

Bağ. 1) "bağ, üzüm bağı"; 2) "Odun və oduna bənzər şeylərin bağlanması" (III, 152).

Yem. 1) "Ot yem"... "Yem" sözü tək işlənməz, "ot" ilə birlikdə söylənər" (III, 5); 2) "yemək, təam... Yem gəldür = Yemək gətir" (III, 144).

3) dörd səsdən ibarət omonim sözlər:

Ağır. 1) "ağır; "ağırlığ kişi = xalq və ya bəy tərəfindən sayılan adam", 2) "ağır: "ağır nən = qiyməti ağır şey, dəyərli şey" (1, 52).

Atış. 1) "atış, atışma", 2) "Atış: Kişi adlarındandır" (1, 60).

4) beş səsdən ibarət omonim sözlər:

Bilik. 1) "bilik, elm: "Bilik ökrən"; 2) "Hikmət" (1, 185); 3) "ağıl" (1, 186).

Gümüş. 1) "pul; çünki pulda gümüş vardır"; 2) "qadın adlarından" (1, 371).

Sirkə. 1) "sirkə"; 2) "sirkə; Başda törəyən bit toxumu" (1, 430).

Burun. 1) "burun"; 2) "tağ burnı = dağ burnu, dağın irəliyə doğru çıxıntısı" (1, 398)

5) altı və daha artıq səsdən ibarət omonimlər:

Günlük. 1) "Gün hesabilə görülən iş"; 2) "günlük yem = günlük azuqə". Bu kəlmə az işlənir" (1, 480).

Köçürmə. 1) "köçürmə ocaq = Bir yerdən başqa yerə köçürülə bilən ocaq" (1, 490); 2) "köçürmə oyun = "ondört" adı da verilən bir oyun. Yerdə qala kimi dörd cızıq çəkilir, sonra ona qapı qoyulur, fındıq və findığa bənzər şeylərlə bu qapılar üzərində oyun oynanır" (1, 491).

Ucuzluq. 1) "ucuzluq"; 2) "dəyərsizlik, kiçiklik" (1, 149)...

i) təqlidi sözlər. "Divan"ın sözlüyündəki müəyyən qisim sözlər təqlidi sözlərdir. Bu sözlər də müasir dilimizdəki eyni qisim sözlərlə uyğun gəlir, onlarla səsləşir. X-XI əsrlərdə ifadə etdiyi məna və məzmunu bu gün də ifadə edir. Quruluşuna görə bu sözləri iki qrupa ayırmaq olar.

1) canlı həyatdakı mövcud bəzi sadə səslərin təqlidi olan sözlər: *"bə:* qoyun mələməsini bildirir. "Qoy bələdi" (III, 206), *"quğu:* ququ quşu" (III, 225), *"cing:* "Qulaqım cing etti", *"danğ*: "Danğ-dunğ etti nən" (III, 357), *"tiring:* "Qulaqım tiring etti", "*çiring:* ləyənin və ləyənə bənzər şeylərin çıxardığı səsi bildirir" (III, 370)...

2) canlı həyatdakı mövcud bəzi qovuşuq səslərin təqlidi olan sözlər: *"çap-çap:* qamçı vurularkən çıxan səs və dodağın şappıltısının anladılması. "Ol ərük çap-çap yedi" (1, 318), *"cür-cür:* süt saçılarkən çıxan səsi anladır. Hər hansı bir axar səs çıxardıqda da belə deyilir" (1, 323), *"şar-şar:* güclü yağan yağışdan çıxan səs. Hər hansı bir axar səs çıxardıqda da belə deyilir. Bu sözdəki ş hərfi *c*-dan çevrilmişdir", *"qar-qur:* "Qar-qur etti qarın = Qarın quruldadı" (1, 324), *"çaq-çuq:* Odun, qoz, sümük kimi şeylərin qırılmasından çıxan səsi bildirir və "çaq-çuq etti" deyir" (1, 333), *"gürt-gürt:* "At arpanı gürt-gürt yedi" (1, 343), *"qur-qur:* "Qarın qur-qur etti" (1, 486), *"cağ-cuğ*: "Cağ-cuğ qopdı" (III, 128), *"çaq-çuq*: "Qaz çaq-çuq etti" (III, 130), "*şap-şap:* "Ol qaqunuğ şap-şap yedi = O, qovunu şap-şapla yedi" (III, 146)...

2). Arxaik sözlər. "Divan"ın sözlüyündə müasir dilimiz üçün artıq arxada qalmış, istifadədən düşmüş bir çox sözlər vardır. Bunlar dilimizin inkişafı tarixində öz rolunu oynamış sözlərdir; klassik ədəbi dilimizin, onun söz xəzinəsinin müəyyən tərkib hissəsi olmuş sözlərdir; buna görə də qiymətlidir, xüsusi diqqətə, tədqiqata möhtacdır.

Artıq, əsas tutduğumuz üsluba uyğun olaraq, "Divan"dakı arxaik sözləri də onlardakı səslərin sayına görə qruplaşdırıb nəzərdən keçirək.

1) iki səsdən ibarət olan arxaik sözlər: *"al:* hiylə, al" (1, 81); *"ağ:* qalxmaq: Ağdı, bulıt kükrəyü... = Bulud kükrəyərək yüksəldi" (1, 354)...

2) üç səsdən ibarət olan arxaik sözlər: *"alp:* igid" (1, 41); *"qat:* yan, ön mənasındadır. Oğuzca. "Bək qatında", *"qut:* qutluluq, dövlət. Bu sözdən alınaraq "qutluğ" deyilir" (1, 320), "Ərdəmsizdən

qut çərtilür-Fərsizdən dövlət uzaqlaşır" (II, 229); *"tün:* gecə. "Tünlə gəldim = Gecəylə gəldim" (1, 339); *"sun, sunar, sunmaq:* "Ol manıa ətmək sundı = O, mənə çörək verdi" (II, 28)...

3) dörd səsdən ibarət olan arxaik sözlər: *"Ögüş*: çox. "Ögüş nən = çox şey" (1, 62) *"arığ:* "arığ nən = təmiz şey" (1, 63); *"görk:* gözəllik, gözəl və görkəmli olana görklük deyilir" (1, 353), "Görk gözəllik deməkdir" (II, 340); *"ulaş, ulaşur, ulaşmaq:* "Bir nən bir-gə ulaşdı = Bir şey bir şeyə qovuşdı" (1, 189); *"yazı:* boşluq, açıq-lıq, çöl"; *"anda:* orada, orda" (1, 125); *"qanı:* hanı, harda" (III, 238); "*ayıt, ayıtur, ayıtmaq*. Oğuzlar "Mən anar söz ayıttım" de-yərlər ki, "Mən ona söz söylədim" deməkdir" (1, 215-216); *"əsən:* sağ, səlim. Bu kəlmə "səlamət" mənasında dəxi işlədilir" (1, 77)...

4) beş səsdən ibarət olan arxaik sözlər: *"qanca:* "Qanca bardın ay oğul... = Hara getdin, ay oğul!.." (1, 74); *"əsrük:* sərxoş" (1, 105), "Əsrük sərkəglədi = Sərxoş söyəlləndi" (II, 389); *"tanuq:* şahid" (1, 380); *"uçmaq:* cənnət" (1, 118); *"cərik:* döyüş səfi, döyüşdə sıra, cərgə" (1, 388); *"bitik:* Ol manıa bitik okıttı = O, mənə kitab oxutdu" (1, 212); *"qubuz:* qubuz, uda bənzər çalğı" (aləti) - 1, 365; *"sükəl:* xəstə. Oğuzca" (1, 394); *"qanda:* harada mənasını verən ədatdır" (1, 418); *"qaçan:* nə vaxt. "Qaçan gəldin?" (1, 403); *"qamuğ:* hamısı, hamı" (1, 376); *"birlə:* birgə, birlikdə, ilə" (1, 430), "Ol mənin birlə suv geçişti" (II, 93); *"yaşru:* gizli. "Ol yaşru gəldi" (III, 31)...

5) altı səsdən ibarət olan arxaik sözlər: *"qazğan:* qazan demək-dir" (1, 18), *"urağut:* arvad, övrət" (1, 138), "Urağut ərləndi" (1, 257); *"batman:* "bir batman ət" (1, 444)...

6) yeddi və daha artıq səsdən ibarət olan arxaik sözlər: *"ağırlığ, ağırla, ağırlar, ağırlamaq; ağırlan, ağırlanur, ağırlanmaq:* "Tənri məni ağırladı", "Ər ağırlandı" (1, 300, 291); *"ökrəyük:* adət-ənənə (1, 159); "qarındaş", "Bir anadan olmuş iki uşağa "qarındaş" deyi-lir" (1, 406-407)...

Bu sözlər bugün dilimizdə işlənmir, arxaikdir. Lakin XI əsrdən sonrakı yazılı ədəbi abidələrimizdə - İbn-Mühənnanın "Lüğət"in-

də, şair Əlinin, Qazi Bürhanəddinin, Nəsiminin, Kişvərinin, Xətainin, Füzulinin və b. sənətkarlarımızın əsərlərində işlənə-işlənə gəlmiş, get-gedə azalmış, yavaş-yavaş dildən çıxıb arxaik olmuşdur.

Müasir dilimizdə işlənən bir sıra sözlərin qədim imla və tələffüz şəkli də olmuşdur. Bu sözləri şərti olaraq aşağıdakı qruplara ayıraq.

1) Müasir dilimizdən fərqli olaraq, sonda bir ğ səsinin əlavəsilə işlənmiş sözlər: *"əlliğ"* (əlli) - 1, 143; *"sarığ, sap-sarığ"* (sarı, sap-sarı) - 1, 329; *"quyuğ"* (quyu) - III, 166...

2) Müasir dilimizdən fərqli olaraq, sonda bir y səsinin əlavəsilə işlənmiş sözlər: *"buğday"* (buğda) - 1, 149 və III, 240...

3) Müasir dilimizdən fərqli olaraq, əlavə dəyişikliklərlə işlənmiş sözlər: *"suv"* (su) - III, 14, *"ol"* (o) - II, 21; *"biçək"* (bıçaq) - 1, 384; *"əliğ"* (əl) - III, 154; *"qoy"* (qoyun) - III, 142; *"çəçək"* (çiçək) - 1, 508...

Dil tarixi kateqoriyadır; buna görə də sözlərin dəyişməsi, tarixən öz rolunu oynayıb sıradan çıxması, yeni mənalar kəsb etməsi, mənasını genişləndirməsi və ya daraltması və s. təbii haldır.

3). Alınma sözlər haqqında. "Divan"ın giriş hissəsində deyilir: "Ən açıq və doğru dil ancaq bir dil bilib, farslarla qarışmayan və başqa ölkələrə gedib-gəlməyən kimsələrin dilidir. İki dil bilən şəhərlilərlə əlaqə saxlayanların dilləri qarışıqdır" (1, 29).

Belə məlum olur ki, Kaşğarlı bir dil bilən, "ən açıq və doğru dilli" kimsələri daha çox dindirmiş, öz əsərində onların sözü, danışığı və kəlamından daha çox istifadə etmiş, bəhrələnmişdir. Müəllif özü deyir ki, "Türk dilinə sonradan girmiş olan sözləri yazmadım" (1, 27). Buna görə, təbii olaraq, "Divan"ın sözlüyündə əcnəbi təsirə, xüsusilə fars sözlərinə az təsadüf edirik. Bu, "sözlük"dən - Azərbaycan dilinin malı və ya bu dilə yaxın olan, uyğun gələn söz və ifadələrdən, cümlələrdən istifadədə daha artıq müşahidə edilir. Tədqiqatçı fars sözlərinə rast gəldikdə və ya sözün türkcə olduğuna şübhə etdikdə öz fikrini deyir, izahat verir. Məsələn, "örən" sözünün mənasını izah edərkən yazır:

"*Örən* - hər şeyin pisi. Oğuzca. Bu sözün farscadan alınmış olduğunu güman edirəm; çünki farscada xarab olan şeyə "viran" deyərlər. Oğuzlar farslarla çox qarışmış olduqları üçün bir çox türkcə kəlmələri unutmuşlar, yerinə farsca kəlmələr işlətməli olmuşlar. Bu da belədir" (1, 76); "oğuzlar su qabına "aftabı" deyirlər. Farsca-da da "aftabe" deyirlər" (1, 432).

Bundan əvvəlki bölmədə xatırladığımız və ya xatırlamadığımız bir çox *"al"* - hiylə, məkr, *"nan"* =şey, *"ösrük"*=sərxoş, *"tanuq"*= şahid, *"uçmaq"*=cənnət, *"yercü"*=məzar, qəbir, *"sükəl//sökəl"* = xəstə, naxoş; *"urarğut"* = övrət, arvad, *"bitik"* = kitab, *"ökröyük"* = adət-ənənə, *"əsən"* =sağ-salamat və bu kimi oğuz-türk mənşəli sözlər elə Kaşğarlıdan sonrakı dövrlərdə fars (və ya ərəb) sözlərilə əvəz olunub sıradan çıxmış, unudulmuşdur.

4. Bəzi sintaktik xüsusiyyətlər

1) Söz birləşmələri haqqında. Müasir elmi ədəbiyyatda ismi birləşmələrdən daha çox "təyini söz birləşmələri" kimi bəhs edilir. Kaşğarlıda təyini söz birləşmələrinin bu növləri müşahidə olunur:

Birinci növ təyini söz birləşmələri. Bu növ söz birləşmələrinin hər iki tərəfi sözdüzəldici şəkilçisiz bir-birinə yanaşır. Nitq hissələrilə ifadəsinə görə özünü aşağıdakı şəkillərdə göstərir:

a) hər iki tərəfi isimlə ifadə olunur: "yığın topraq" (1, 15), *"qamışlıq yer"* (1, 495)...

b) birinci tərəfi sifət, ikinci tərəfi isimlə ifadə olunur: *"ögöy ata", "ögöy oğul", "ögöy qız" (1, 123), "qır yağı", "qır at", "kür ər" (1, 324), "qara quş" (1, 331), "tərs iş" (1, 348), "qara bulıt" (1, 354), "qaşqa at" (1, 426), "tüm qara at" (1, 338); "boz buğa" (III, 224); "Körpə at" (1, 415)...*

c) birinci tərəfi say, ikinci tərəfi isimlə ifadə olunur: *"iki qaz" (1, 256), "bir qarış" (1, 369)...*

ç) birinci tərəfi əvəzlik, ikinci tərəfi isimlə ifadə olunur: *"bu at" (1, 329), "bu oğul" (III, 214), "ol Tanrı" (II, 185)...*

İkinci növ təyini söz birləşmələri. Bu növ söz birləşməsinin ikinci tərəfi üçüncü şəxsi bildirən mənsubiyyət şəkilçilərindən birini qəbul edir: *"ordu başı" (1, 124), "ev qızı", "ok gəzi" (1, 326), "qılıc qını" (1, 339), "təgirmən koğuşı" (1, 369), "at qamçısı" (1, 417)...*

Üçüncü növ təyini söz birləşmələri. "Mənim yorığım" - mənim yerişim", *"sənin yorığın", "anın yorığı"* (II, 40). İzahat üçün sözü Kaşğarlının özünə verək: "Ata" sözünün sonundakı əlif dəyişməzdir. İzafət düzəldikdə "anın atası" deyilir... "Ana" sözü də belədir, bunun sonunadək əlif dəyişməzdir. İzafət halında "anın anası" deyilir".

Kaşğarlı sonra "oğul", "at" sözlərilə əlaqədar birləşmələr üzərinə gəlir: "İzafət halında "anın oğlı"; "anın atı" deyilir... Bütün türk dillərində qayda belədir" (III, 210).

2) *cümlələr*. Müasir dilimizdə işlək olan sadə quruluşlu cümlələr, fikrin canlı, həyati ifadə tərzləri "Divan"ın sintaktik quruluşunda mühüm yer tutur. Atalar sözləri, məsəllər və şer parçalarında mürəkkəb cümlələrə də rast gəlinir.

a) nəqli cümlələr. Bu növ cümlələr müxtəsər geniş və yarımçıq olmaqla özünü bir neçə şəkildə göstərir.

Müxtəsər sadə cümlələr. Kaşqarlı sözlərin aydın olması və izahı üçün, əksərən müxtəsər cümlələrə müraciət edir, daha çox misalı ailə-məişətlə bağlı, həyati nümunələrdən verir. Məs.:

"Ər atlandı" (1, 255), "Ər qusdı" (II, 10), "Biz gəldük" (II, 61), "Tiş qamaşdı" (II, III), "Tavar satıldı" (II, 121), "Oğlaq çəpişləndi" (II, 266), "Gün battı" (II, 292), "Quş qondı" (III, 184), "Sirkə acıdı", "Yağ ərüdi" (III, 252), "At kişnədi" (III, 302), "Bulıt qarladı" (III, 319), "Ət pişdi" (III, 321), "Məni ağırla" (III, 344)...

Geniş sadə cümlələr. "Divan"da istifadə olunan bu növ cümlələr müasir baxımdan da baş və ikinci dərəcəli üzvlü normal cümlələrdir. Bu cümlələri onlarda işlənən sözlərin sayına göpə qruplaşdıraq.

1) üç sözdən ibarət geniş sadə cümlələr: "Ol mana gülümsindi" (I, 20), "Bək el basdı" (II, 10), "Ol atın tağlattı" (II, 344), "Ol üzüm sığdı" (II, 18), "Ol atın arpaladı" (I, 316), "Sən anı qaçırdın" (II,

167), "Ol oğlın qulaqladı" (III, 339), "Ol anı burunladı" (III, 341), "Maña at bağışla" (III, 344), "Ol atığ çıbıqladı" (III, 346), "Ol yeriğ qığlattı" (III, 348); "Mən anı oxşadım" (I, 282); "Mən Təñridən umundum" (I, 206)...

2) dörd sözdən ibarət geniş sadə cümlələr: "Çomaq tat boynın çapdı" (II, 3), "Ol evkə suv saçdı" (II,4), "Ol anı evində qışlattı" (II, 347), "Ol maña at bağışladı" (III, 347)...

3) beş sözdən ibarət geniş sadə cümlələr: "Ol mənin birlə işkə girişdi" (II, 99), "Ol mənin birlə suvqa cumışdı" (II, III,), "Olar bir birgə oq yonuşdu" (III, 75)...

Yarımçıq sadə cümlələr: Kaşğarlının işlətdiyi cümlələrdə bəzən müəyyən üzvlər buraxılmış olur; cümlə yarımçıq verilir. "Divan"-da, daha çox mübtədasız yarımçıq cümlələrə rast gəlirik. Bunlar özləri də müxtəlif və rəngarəngdir. Məs.:

"Tək gəldim" (I, 334), "Gəlmədim" (II, 62), "Gəldin" (II, 46), "Gəldi" (II, 69), "Gəlmədi" (II, 63), "Gəlsün", "Gəlməsün" (II, 64), "Gəldük", "Gəlmədük" (II, 62), "Sevinmə" (II, 167), "Anı suvdan keçirdi" (II, 164)...

b) sual cümlələri: "Divan"da sual cümləsini əmələ gətirən və haqqında danışılan sorğu ədatları bunlardır: "mi", "nə", "nə tək", "necə".

Kaşğarlı, yeri gəldikcə bu ədatlar üzərində geniş dayanır, izahlar verir, misallar gətirir; beləliklə də sual cümləsi haqqında tam təsəvvür alınır.

Kaşğarlı yazır:

1) *"Mi:* isimlərin və fellərin sonuna gələn sorğu ədatıdır. "Bu atmı", "Bu itmi" kimi ki, "bu atmı", "bu köpəkmi" deməkdir. Fellərlə gəldiyinə nümunə: "Bardınmı", "Gəldinmi" kimi ki, "Getdinmi", "Gəldinmi" deməkdir. Oğuzlardan bir qrupu feili-qaibin sorğusundan başqa türklərə uymayaraq, *m*-i kəsrə ى hərfini ﻲ edərlər və "Ol bardımı" deyərlər, "O, getdimi" deməkdir; isimlərdə başqa türklərdən ayrılmazlar. "Bu at sənimmi", "Bu oğul sənimmi" deyərlər..." (III, 214).

2) "Neçə: "neçə" mənasında bir sözdür. "Neçə yarmaq berdin" - Neçə para verdin". Bəzən bu söz "sorğu ədatı" olaraq işlədilir" (III, 220).

3) "Mənin yorığım nə tək", "Sənin yorığın nə tək", "Anın yorığı nə tək" deyilir ki, "mənim gedişim", "sənin gedişin", "onun gedişi" necədir, - deməkdir" (II, 40).

Kaşğarlının dediyi sözlər, söylədiyi mülahizələr, göstərdiyi misallar sual cümləsi haqqındakı müasir fikir, müasir anlayışlarla tamam səsləşir.

c) *əmr cümlələri.* Kaşğarlı əmr forması, əmr cümlələrindən söhbət açarkən "bar" (get), "gəl" kimi ərəb əlifbası ilə iki səslə yazılan kök sözlərdən başlayır.

Sonra əlavə edir:

1) "Türklərin çoxu qalın səsli, qalın ahəngli, *ğ*-lı sözlərdə əmr formasının təkinin sonuna *ğ, l;* sözün sonunda *ğ* olursa *ğ, l* gətirirlər. Söz necə ahəngli, yaxud *g*-li olursa *l* ilə bərabər g gətirilir. Beləcə fel iki səslidən dörd səsliyə, üç səslidən beş səsliyə, dörd səslidən altı səsliyə keçmiş olur. "Barğıl", "turğıl" deyilir, "get", "dur" deməkdir. Bu iki söz ağır ahəngli olduğu üçün sonuna *ğ* və *l* gəlmişdir" (II, 43).

2) "Sonu *ğ*-li olan sözlərdə də belədir. "Tağqa ağqıl", "Süt sağqıl" deyilir ki, "Dağa çıx", "Süt sağ" deməkdir. Sözlərin sonu *ğ-l*i olduğu üçün ğ gətirilmişdir" (II, 44).

3) "*g*-li sözlərdə "Evkə kirgil", "Yarmaq tərgil" deyilir, "Evə gir", "Para topla" deməkdir. Yuxarıda söylədiyim səbəblərə görə bu sözlərin sonuna *g, l* gətirilmiş; söz iki səslidən dörd səsli olmuşdur" (II, 44).

4) "Yük götür", "Tam ötür" cümlələrindəki "götür" və "ötür" sözlərinin sonuna "gil" gətirilərək "götürgil", "ötürgil" deyilir; bu sözlər beləcə üç səslidən beş səsli olur" (II, 44).

Burada verilən izahat, söylənən nəzəri fikirlər "barğıl", "turğıl", "ağqıl", "sağqıl", "girgil", "tərgil", "götürgil", "ötürgil" kimi arxa-

ik formalara istinadəndir. Lakin mətləb aydındır; yəni deyilən qayda, əsas birdir, müasir əmr şəkli, əmr cümləsi məzmununa uyğundur.

ç) *həmcins üzvlü cümlələr.* Kaşğarlının misal-cümlələri içərisində qovuşuq fikirlərin ifadəsi olan həmcins üzvlü cümlələr də var. Məs.:

"Ay, gün keçti" (II, 5), "Quş, qurt qamuğ tirildi" (II, 6); "Yağmur, tolı səkriyü=Yağmur, dolu səkriyir / tökür" (I, 354)...

d) *mürəkkəb cümlələr.* Fikrin mürəkkəb və silsiləli ifadə şəkli olan cümlələr, atalar sözləri və məsəllərdə, kiçik şer parçalarında müşahidə edilir. Təfərrüata varmadan, kiçik şer parçalarında müşahidə edilir. Təfərrüata varmadan, mürəkkəb cümlələrin tabesiz və tabeli növünə aid misal verməklə kifayətlənək:

Tabesiz mürəkkəb cümlələr: "Tünlə bilə köçəlim, Yamar suvın keçəlim = Gecə ikən köçək, Yamar suyunu keçək" (II, 5); "Yağmır yağın saçıldı, türlüq çəçək suçuldı = Yağmır, yağın saçıldı, dürlü çiçək açıldı" (II, 123); "Mən Tənrigə tapındım, ol bəkgə tapındı = Mən Tanrıya sığındım; o, bəyə sığındı" (II, 140); "Gücəndi biləkim, yağudı tiləkim = Gücə düşdü biləyim, yaxınlaşdı diləyim" (II, 148); "Oğlum öküt algil, biliksizlik gitər = Oğlum öyüd al, biliksizlik gedər" (I, 440).

Tabeli mürəkkəb cümlələr: "Atası acıq almıla yesə, oğlının tişi qamar = Atası acı alma yesə, oğlunun dişi qamaşar" (II, 311); "Gülsə kişi yüzinə görklük yüzin görüngil = Bir kişi üzünə gülsə, gülər üzlə görün (onu gülər üzlə qarşıla) - (III, 43)...

3) cümlədə sözlərin sırası. Müasir dilimizdə cümlədə sözlərin müəyyən sırası, sıralanma qaydası vardır. Cümlədə sözlər baş və ikinci dərəcəli üzvlərə ayrılmaqla, hər üzvün də müəyyən yeri olur. Müxtəsər sadə, geniş sadə, sual və əmr cümlələrində bu yer təxminən sabitdir. Belə ki, müxtəsər sadə, geniş sadə və sual cümlələrində, əsasən əvvəl mübtəda, sonra xəbər gəlir; bir qayda olaraq ikinci dərəcəli üzvlər mübtəda ilə xəbərin arasında yerləşir. Əlbəttə, məntiqi vurğu və üslubi xüsusiyyətlərlə əlaqədar bəzən sözlər yerini dəyişə də bilir...

Dilimizin inkişafı tarixində bu keyfiyyət məhz çox qədim dövrlərdən formalaşmağa başlamış və get-gedə sabitləşmişdir.

"Divan"da cümlədə sözlərin sırasının pozulması halları çox cüzi müşahidə olunur. Məs.: "Təpildi yer (II, 119), "Ol gizlədi nəռ" (III, 300), "Güldi ər" (II, 35), "Ol qarmaladı nəռi" (III, 354) və s. kimi cümlələrdə sözlərin sırası müasir ədəbi normaya yox, canlı dilə, danışığa uyğun gəlir ki, bu da tamamilə təbii görünür. Çünki Kaşğarlı sözlərdə səslərin dəyişilməsi, sözlərin tələffüzü və s.-də canlı xüsusiyyətləri saxladığı kimi, cümlədə sözlərin sırasında da bəzən canlı ifadə şəkillərini, danışıq xüsusiyyətlərini saxlamağı unutmamışdı.

Bununla belə, bütün bu fikrin müasir tipli ifadə şəkilləri ilə, bütün bu cümlələrlə yanaşı, arxaik ifadə formalarına, cümlə quruluşlarına da rast gəlirik. Məs.: üç tip cümləni xatırlayaq:

1) *"Mən* saռa barıqlı *mən"* (II, 57);
2) *"Sən* qaçan barsa *sən"* (III, 207);
3) *"Ol* evkə iriksək *ol"* (II, 55)...

Bü cümlələrə müasir baxımdan ötəri nəzər salaq.

Görünür, bu formalar, cümlənin bu şəkilləri, hələ X-XI əsrlərin özündə hörmətlə yad edilən "qədim babaların" ondan çox-çox əvvəllər də işlətmiş olduqları formalar, fikrin ifadə şəkilləri imiş ki, həmin əsrlərə də gəlib çıxmışdır. Cümlədə sözlərin sırası baxımından burada fərq olmasa da, indi bu ifadə şəkilləri arxaikdir. Bununla belə, cümlələrin üçü də eyni dərəcədə arxaik deyildir; onlarda müasir dövrə gəlib çıxan bir-birindən fərqli incə tellər, incə bağlar müşahidə olunur.

Cümlələrin müasr ifadə şəkilləri belədir:

1) "Mən sənə getmək istəyirəm";
2) "Sən haçan gedərsən";
3) "O, evə girmək istəyir".

Daha qədimdə və ya X-XI əsrlərdə işlənən *"Sən* qaçan barsa sən" ifadə şəkli ilə onun müasir "Sən haçan gedər*sən*" ifadə şəkli

eyni tip cümlələrdir: ikinci şəxs, yəni "sən" mübtədası "gedər" xəbərində öz ifadəsini tapır, eynilə təkrar olunur.

"Mən sana barıqlı *mən"* ifadə şəkli ilə onun müasir *"Mən* sənə getmək istəyir*əm"* ifadə şəklində isə birinci şəxsin, yəni "mən" mübtədasının xəbərdə ifadəsi, eynilə təkarrı yox, onun əlaməti ("əm", "m") qalmışdır.

"Ol evgə kiriksək ol" ifadə şəkli ilə onun müasir *"O*, evə girmək istəyir" ifadə şəklində isə, əvvəlki cümlələrdən fərqli olaraq üçüncü şəxsin, yəni "ol" mübtədasının xəbərdə nə özü, nə də əlaməti vardır.

Burada üç vəziyyət müşahidə olunur; belə ki, vaxtilə şəxslərlə ifadə olunan cümlələrin xəbərlərində şəxslər eynilə öz əksini tapdığı halda, bunlar getdikcə dəyişmiş, eyni tip cümlələr üç şəkildə formalaşmışdır. Lakin bu proses X-XI əsrlərdən çox-çox əvvəllər başlamış və davam etmişdir. Çünki X-XI əsrlərdə bu tip cümlələrə az təsadüf olunur, tamamilə müasir dilimizlə səsləşən cümlələr o dövrdə də üstünlük təşkil edirdi.

Deməli, hər üç şəxsin xəbərdə eynilə ifadəsi tarixən olmuş qədim bir formadır, bu forma Azərbaycan dili üçün indi tamam arxaikdir. Bu formalar mənsubiyyət şəkilçilərinin əvəzliklərdən törəməsi fikrini bir daha sübut edir.

5. Atalar sözü və məsəllər

"Divan"da atalar sözü və məsəllərə xüsusi yer verilir. Bunlar əksərən söylənilən nəzəri bir fikri əsaslandırmaq üçün gətirilir. Bunların içərisində elələri var ki, indi heç bir izahat vermədən, bəzi sözləri aydınlaşdırmadan da başa düşülür, anlaşılır.

Bununla belə, həmin atalar sözü və məsəlləri həm olduğu kimi, həm də bir az asanlaşdıraraq müasir dilimizdə ola biləcəyi kimi - əsasən iki şəkildə verməyi məqsədə müvafiq sayırıq.

Kaşğarlıda: "Alın arslan tutar, gücin oyuq tutmas" (I, 81).

Müasir dilimizdə: "Hiyləynən aslan tutular, gücnən oyuq da tutmaq olmaz".

Kaşğarlıda: "Qulaq eşitsə könül bilir, Göz görsə üdhik gəlir" (I, 211-212).

Müasir dilimizdə: "Qulaq eşitsə könül bilir; göz görsə, sevgi gəlir" və ya: "Göz gördü, könül sevdi".

Kaşğarlıda: "Günə baqsa göz qamar" (I, 340).

Müasir dilimizdə: "Günə baxsa, göz qamaşar".

Kaşğarlıda: "Tatsız türk bolmas, başsız bərk bolmas" (I, 349) və (II, 281).

Müasir dilimizdə: "Tatsız türk, başsız bərk olmaz".

Kaşğarlıda: "Bir qarğa birlə qış gəlməs" (II, 26).

Müasir dilimizdə: "Bir qarğa ilə qış gəlməz".

Kaşğarlıda: "Ata tonı oğulqa yarasa atasın tiləməs" (III, 87).

Müasir diliimzdə: "Ata donu oğula yarasa, atasın diləməz" və ya: "Ata paltarı oğula yarasa, atasını istəməz".

Kaşğarlıda: "Ğanığ qan birlə yumas" (III, 157).

Müasir dilimizdə: "Qanı qanla yumazlar" və h.b.

Burada bir-iki atalar sözünə, zərbi-məsələ tarixi və müasir baxımdan diqqət yetirək, keçib gəldiyi yola ötəri nəzər salıb, məsələlərin bir az dərinliyinə gedək.

1) *"Ağız yesə göz uyadhur"* (I, 55). Məsəldəki "uyadhur" (اُيَا دُ وُ رْ) sözü, bəlkə də başqa türk dillərində qalıb. Lakin bizdə bu sözə rast gəlmirik; müasir dilimiz üçün də tamam arxaikdir.

Məsəlin hərfən mənası "Ağız yesə, göz utanır", bədii əsər kimi müasir dövrə "Ağız yeyər, göz utanar" şəklində gəlib çıxmışdır. Söz yox, məsəl bu bitkin şəkli alınca müəyyən inkişaf yolu keçib gəlmiş, ilkin məna, ilkin məzmun qalsa da, bir sənət nümunəsi, bədii əsər kimi yenidən formalaşmış, sabit şəkil almışdır. Əgər biz məsəlin formalaşması və sabitləşməsinə doğru sözlərin rolu və inkişafına nəzər salsaq, sözlər arasında incə, məntiqi bir əlaqə, bağlılıq, cilalanma və s. keyfiyyətlər sezərik.

"Göz" sözünün ortadan çıxması və "göz"ə aid məzmunun "ağız" üzərinə keçməsi məcazi mənanın daha da qüvvətlənməsi özünü təbii və məntiqi bir proses kimi göstərir. Həqiqi mənada "utanmaq" daha çox gözə məxsus keyfiyyət olduğu halda, "göz" sözünün ixtisarı "ağız" sözünün vəzifə və fəaliyyətini artırır, məcaz daha tünd şəkil alır ki, bu da atalar sözü və məsəllərə xas mühüm cəhətdir. Deməli, dildəki məcazi mənaların ilk çıxış, doğuluş nöqtəsi həqiqi, müstəqim mənalardır; məcazi məna həqiqi məna əsasında yaranır və formalaşır.

2) "Oğlaq yiliksiz, oğlan biliksiz" (1, 119). Məsəl müasir dilimizdə belə işlənə bilər: "Oğlaq iliksiz, oğlan biliksiz" və ya: "Biliksiz oğlan, iliksiz oğlaq". Burada fərqli ancaq "yiliksiz" sözündəki "y" səsinin artıqlığıdır ki, bunun qanuni bir hal olduğu barədə danışılmışdır.

Burada biz diqqəti bir cəhətə, mühüm bir daxili məziyyətə yönəltməyi lazım bilirik.

Məsəli təşkil edən dörd sözün dördü də həmahəngdir; dörd sözdə ancaq dörd fonem fərqi vardır: *q, n və y, b.*

1) oğlaq, oğlan.

2) yiliksiz, biliksiz.

"Oğlan" sözü yerinə, bəlkə *uşaq, cocuq* sözlərindən də istifadə edilə bilərdi. Lakin dildəki ahəngdarlıq xüsusiyyəti tələb etmiş ki, "oğlaq" sözünə oxşar "oğlan" sözü işlədilsin; "yiliksiz", "biliksiz" sözləri də belə.

Eyni fikri "Ac nə *yeməs,* toq nə *teməs* = Ac nə yeməz, tox nə deməz" (1, 79), "Alın *arslan* tutar, gücin *sıçqan* tutmas - Hiyləynən aslan tutular, gücnən sıçan da tutmaq olmaz" (III, 412) və s. kimi məsəllərdəki ahəngdarlıq keyfiyyəti haqqında da söyləmək mümkündür.

Belə daxili harmoniya, ahəngdarlığa meyllilik bizim atalar sözləri və məsəllərin üstünlüyüdür, səciyyəvi cəhətidir. Bu keyfiyyətin ünsürləri, görünür, çox qədimlərdən, atalar sözləri və məsəllərin təşəkkül tapdığı, formalaşdığı zamandan özünü büruzə vermiş,

get-gedə inkişaf edərək, səciyyəvi bir hal, məziyyət kimi kamil şəkil almışdır. Ümumiyyətlə, atalar sözləri və zərbi-məsəllərimizdəki ahəngdarlıq, daxili harmoniya elə yüksək bir keyfiyyətdir ki, ayrıca və diqqətli tədqiqata möhtacdır.

3) "Tağ tağqa qav(f)uşmas, kişi kişikə qav(f)uşur" (III, 153). Məsələn müasir dövrə gəlib çıxan şəkillərilə ("Dağ dağa qovuşmaz, adam adama qovuşar" və ya" "Dağ dağa rast gəlməz, insan insana rast gələr") müqayisədə müəyyən fərqlər müşahidə olunur.

Bu fərqlər aşağıdakılardır.

1) Fonetik fərqlər: "tağ", "qav(f)uşmas" sözlərindəki "t", "a", "f(f)" və "s" səsləri.

Müasir dilimizdəki "dağ" və "qovuşmaz" sözlərinin Kaşğarlıda *tağ, qav(f)uşmas* şəklində verilməsi dilimizin qanunauyğunluqlarından, daxili inkişaf xüsusiyyətlərindən kənar deyildir.

"Tağ" sözünün tərkibindəki ilk səsin müasir baxımdan "d" yox, "t" işlənməsi bu səslərin bir-birinə yaxınlığı və həmcinsliyi ilə əlaqədardır; elə də olur, belə də; bu səslərin bir-birini əvəz etməsi hallarına dilimizin tarixində az rast gəlmirik. Bu gün də bu səslər biri o birini əvəz edir, biri o birinin yerində işlənir (*müq. et:* "süd // süt", "tutdu // dutdu", "Əhməd // Əhmət" və s.).

"Qav(f)uşmas" sözünün tərkibindəki "v(f)", "s" səsləri haqqında da təxminən eyni sözləri demək olar. Belə ki, həm "v, f" səsləri, həm də "s, z" səsləri əmələgəlmə yerinə görə eynidir; yəni bu səslər dodaq-diş samitləridir, hər ikisi novlu, saf və küylüdür. Bu səslər ancaq birinin cingiltili, digərinin karlığı ilə fərqlənir. Odur ki, xüsusən tələffüz zamanı "v"-da "f"-lıq, "z"-da "s"-lıq və əksinə keyfiyyətlər müşahidə olunur. Görünür, "v" səsinin qovuşuqluq keyfiyyəti X-XI əsrlərdə daha üstün imiş ki, Kaşğarlı həmin səsin hər iki xüsusiyyətini saxlamaq istəmiş, onu müəyyən transkripsiya ilə ("ڤ") vermişdir; "qovuşmaz" sözünü indi də söylərkən "v" səsində bir fışıltılıq hiss olunur. Sözün sonundakı "s" səsinin "vəziyyətini" əks etdirən səslər dilimizdə indi də vardır; belə ki, bir sıra

sözlərin sonu həm "s", həm də "z" ilə (*müq. et:* "almas // almaz", "solmas // solmaz", "xorus // xoruz", "Aras // Araz" və s.) deyilir. Halbuki bu sözlər müasir imla qaydalarına əsasən "z" ilə yazılır və buna aid xüsusi maddə verilir; çünki bu sözlərə cingiltili samitlə başlanan şəkilçi və sait səs bitişdikdə "s" səsi öz keyfiyyətini bərpa edir və "z"-ya çevrilir. "Qav(f)uşmas" sözündəki "s"nın da vəziyyəti belədir. Kaşğarlının özünün qeyd etdiyi - "bəzi hallarda "z" səsi "s"-ya və "s" səsi "z"-ya çevrilir" (1, 33) fikri də məhz türk dillərindəki, o cümlədən Azərbaycan dilindəki bu keyfiyyəti nəzərdə tutur.

Sözün kökündəki "a" səsinə gəlincə, bu da dilimizdə bəzən "o" səsinin "a"-ya keçməsi hadisəsilə (*müq.et:* "ov // av", "qovun // qavun" və s.) əlaqədardır.

Kaşğarlı "Divan"da verdiyi misal və nümunələrin, mümkün qədər, o vaxtkı tələffüzünü, canlı danışıqdakı şəklini yazıda saxlamağa, əks etdirməyə çalışmışdı.

2) *şəkli* (morfoloji) *fərqlər:* "tağqa", "kişigə" sözlərindəki "qa", "gə" şəkilçiləri.

Müasir dilimizdə yönlük halının öz şəkilçiləri var: *-a, -ə; -ya, -yə*. Burada isə həmin şəkilçilərin yerinə "qa // ğa // kə // gə" işlənir. Maraqlıdır ki, bu formaya orta əsr yazılı abidələrində də təsadüf edilir; Kişvəridə, Saib Təbrizidə, Məhəmməd Əmanidə və b. məhdud dairədə olsa da işlədilir, sonralar isə yoxdur, arxaikləşmişdir. Bu forma əski uyqur (ümumiyyətlə karluq) dilinin normal yönlük hal şəkilçiləri sayılır. S.Y.Malov qədim uyqur kitabələrindən bəhs edərkən yazır ki, bu dildə "yönlük hal həmişə Mahmud Kaşğarlının əsərində olduğu kimi, normal şəkildə "-gə" və "-ğa" (ـغا ; ـڭا) ilə bitir" (*207*, s.300)

3) *"üslubi fərq*(lər): "qav(f)uşur" ifadə tərzi.

Məsəldə - cümlənin sonunda xəbər formal cəhətdən indiki zamandadır, lakin əslində "ur" şəkilçisi qeyri-müəyyən gələcək zaman mənasını verir. Cümlənin birinci yarısında fikri inkara bağlayan "qav(f)uşmas" ifadə tərzi də bu şəkilçinin "ar" mənasında iş-

ləndiyini təsdiq edir, əks təqdirdə həmin ifadə "qav(f)uşmur" şəklində olardı. Deməli, "ur" şəkilçisi "ar" müzare zaman şəkilçisinin arxaik formasıdır. Hələ "Dədə Qorqud" dastanlarında öu şəkilçilərin hər ikisi müştərək işlənmişdir. Müzare zamanın belə ikili ifadə şəkli bizdə ta XIX əsrə qədər davam edib gəlmiş, nəhayət bunların biri *(ır, ir, ur, ür)* ancaq indiki zaman, digəri *(ar, ər)* isə müzare zaman şəkilçiləri kimi sabitləşmişdir.

4) *leksik fərq*(lər): "Kişi" sözünün başqa sözlərlə əvəz olunması.

Məsəlin hər üç variantındakı leksik fərqlər - "kişi", "adam", "insan" sözləri diqqəti cəlb edir. Elə bu sözlərə əsaslanıb təsəvvür etmək mümkündür ki, Kaşğarlının"Divan"da verdiyi "variant" daha qədimdir; məsələn, elə lap ərəb istilasınadək mövcud imiş və xalq arasında işlənirmiş. Lakin VII əsrdən başlanan ərəb istilası, islam dini, güclü ərəb təsiri və s.-lə əlaqədar dini istilahlar, ifadələr, sözlərlə yanaşı, dilə "insan" sözü, bundan əvvəl və ya sonra "adəm // adam" sözü gəldi; bu sözlər dilimizdə sinonimlər kimi müştərək işləndi, gəlmə sözlər yavaş-yavaş xalq arasında yayıldı, anlaşıqlı oldu, doğmalaşdı, yerli "kişi" sözünün də mənasını nisbətən daraltdı. Beləliklə, məsəldəki "kişi" sözünü də "insan" və "adam" sözləri əvəz etməyə, yaxud, bu sözlər növbə ilə biri o birinin yerinə işlənməyə başladı; illər, qərinələr keçdikcə, əsrlər dolandıqca, əcnəbi sözlər yerli "kişi" sözünü atalar sözünün tərkibindən qopardı, onun yerinə özləri keçdi...

Azərbaycan dilinin adına çıxdığımız bütün atalar sözləri, zərbi-məsəllər üzərində beləcə geniş dayanmaqla, qaranlıq cəhətləri, mübahisəli və şübhəli görünə bilən halları tamam aradan qaldırmaq olardı.

Lakin bu bir-iki nümunə də az söz demir...

6. Bəzi bədii dil xüsusiyyətləri

Tədqiqat obyektinin xarakterindən asılı olaraq "Divan"da bədii sözdən, bədii dildən ayrıca bəhs edilmir. Lakin gətirilən misallar

bəzən öz bədiiliyi ilə diqqəti cəlb edir. Məs.: "Göq açıldı", "İş açıldı", *(1, 193-194)*, "Gönül açıldı" *(1, 194)* kimi cümlələrdə məcazi məna həqiqi mənadan güclüdür; "açıldı" anlayışı həm "göy", həm "iş", həm də "könül" sözlərinə aid edilməklə fikrə bədii don geydirilmiş olur. "Ol anın könlin acıttı" *(1, 207)* cümləsində də fikrə bədii boya verən "acıttı" (acıtdı) sözüdür. Çünki "könül acıtmaq" da "könlün açılması" kimi fikrin bədii-məcazi ifadə şəklidir.

"Divan"da "bulıt" (bulud) sözünün izahı üçün "ağ bulıt", "qara bulıt" misalları verilir. Sonra deyilir: "Saçın gurluğu dəxi buluda bənzədilərək "bulıt tək saçı" deyilir ki, "saçı bulud kimi çox" deməkdir" *(1, 354)*. Burada "bulıt" sözünə verilən "qara bulıt" misalının özündə də müəyyən məcazilik var. Lakin "bulıt tək saç" bənzətməsində bu məcaz daha da güclənmişdir. Buradan sözün məcazi mənasının təxminən belə bir yaranma və inkişaf prosesi müşahidə edilir: "bulıt" - "ağ bulıt" - "qara bulıt" - "bulıt tək saç" və s.

Kaşğarlının misal gətirdiyi şer parçaları - beyt və bəndlər bəzən yüksək bədiiliyə malik olub, sözün poetik səviyyəsini nümayiş etdirir. Bir neçə beyt və bəndi xatırlayaq:

1) "Qış yay bilə tokuştı
Qınır gözün bakıştı *(I, 170);*
2) "Ərən alpı okıştılar
Qınır gözün bakıştılar... *(I, 359);*
3) "Yügürdi gəvfəl at
Çakıldı qızıl ot *(II, 133)*;
4) "Ağdı qızıl bayraq
Toğdı qara topraq *(III, 183)*...

Bütün beytlərdə söz poetik vüsət almış, fikir bədii dil üçün səciyyəvi sayılan məcaz aləmilə verilmişdir.

Birinci beytdə qışla yazın toqquşması, qışın çıxıb yazın gəlməsi təsvir olunur; qış yaza asanlıqla təslim olmur, qonur gözlər birbirinə baxışır: ildırım çaxır, göy gurlayır və s. İkicə misrada nə qədər real və poetik bir mənzərə!..

İkinci beytdə çağrışan, "oxuşan" igid ərlərdən söhbət gedir; gənclik - igidlik ehtirası ilə coşub parlayan qonur gözlər bir-birinə baxışır... Maraqlıdır ki, birinci misaldakı eyni güclü məcaza, eyni epitetə burada da müraciət edilir. Azərbaycan dilinin müasir tələbinə uyğun olaraq təbiət hadisələrinin - qışla yazın "toqquşması" tək halda, insanların - igid ərlərin "toqquşması" isə cəm halda götürülür.

Üçüncü beytdə "gövfəl", yəni əsilli, cins atın gözəl qaçışı vəsf edilir; yüyürək atın ayaqları altından "çaxılan" qığılcım, od qızıla bənzədilir, həm də bu adi bənzətmə, təşbeh deyil, daha qüvvətli bədii vasitə sayılan istiarədir.

Bununla da atın qaçışı, bu qaçışdakı gözəllik haqqında incə və canlı bir xəyal yaradılmış olur.

Dördüncü beytdə qızıl bayrağın "ağması" - yüksəlməsi, ucalması, yəqin ki, çalınan qələbə, qara torpağın "doğması" - təbiətin oyanması ilə müqayisə edilir, əlaqələndirilir; həm də bu müqayisə, bu əlaqələndirmə güclü bədii məntiqə əsaslanır: məgər torpağın ayılması özü də baharın qış üzərində qələbəsi deyilmi?!. Məgər hər bir qələbə özü bahar müjdəsi kimi şirin deyilmi!?. Belə bir müqayisə, belə bir əlaqələndirmə özü də vaxtına görə mühüm poetik kəşf sayıla bilər.

X-XI əsrlər və daha əvəllərdəki ədəbi sözün, dilin bədii keyfiyyəti haqqında təsəvvürü artırmaq üçün beytlərdən bəndlərə keçib bir-iki misal verək.

Bu şerdə yazın gəlişi təsvir olunur:

Qar, buz qamuğ ərüşdi,
Tağlar suvı akışdı,
Gögşin bulıt örüşdi,
Qayğuq bolup əkrişür *(1, 186).*

Bütün qar, buz əridi; dağların suyu axıb gəldi, mavi ("gögşin") bulud su üzərində görünən qayıq kimi havada üzür.

Bu şerdə, oyanan təbiət, gözəl bahar təsvir olunur:

Türlüğ çəçək yarıldı,
Barçın yadhım gərildi.
Uçmaq yeri göründi,
Tumluğ yana gəlgüsüz" ***(1, 119)***

Dürlü çiçəklər açıldı; elə bil hər yerə ipək qumaşdan döşək sərilib, cənnətin yeri göründü, daha qış gələn deyil.

Bu şerdə daim axan çay təsvir olunur:

Etil suvı aka turur,
Qaya tübi kaka turur.
Balıq telim baka turur,
Gölün takı güşərir ***(1, 73)***

İtil çayı axmadadır, qaya dibini hey döyür, suyun axarından göl dolub daşır, göldəki bol balıqlar baxışır.

Bu şer igidlikdən dəm vuran dəli-dolu bir gəncin özünü tərifdir:

Öpkəm gəlip oğradım,
Arslan layu kükrədim.
Alplar başın toğradım,
Emdi məni kim tutar ***(1, 125)***

Ciyərlənib düşmən üzərinə yeridim, aslan kimi kükrədim, igidlərin başını kəsdim, indi (qalibiyyətdən sonra) məni kim tutar!!!

Bu şer qəflətən yaxalanmış bir adama müraciətdir:

Görüp nəçük qaçmadın,
Yamar suvın keçmədin,
Tavarınnı saçmadın
Yesin səni ar böri ***(1, 79)***

Məni görüb nədən qaçmadın? Nə üçün Yamar suyunu keçmədin? Niyə malını atıb başını qurtarmadın? Səni görüm kaftar yesin.

S.Y.Malov bu şerləri "Kaşğarlının mahnıları" adlandırır (*207*, s. 306). Bunlar Azərbaycan ellərinin bayatılarını xatırladır. Fərq ondadır ki, bizim bayatıların çoxu "əzizim", "əzizinəm", "mən aşıq",

"mən aşıqam" kimi ifadələrlə başlanır. Görünür bu, daha sonrakı, bayatı janrının zirvəyə yüksəldiyi əsrlərin əlavəsidir...

Bu şerlər, əlbəttə, Kaşğarlının deyildir. Özünün qeyd etdiyi kimi, bunları babalarımızın dilindən toplamış və qələmə almışdır. Babalar bu şerləri çox-çox qədim dövrlərdən, xalqın yaddaşından, sinələrdən ala-ala gətirib X-XI əsrlərə çıxarmışdılar.

"Divan"a düşən çoxlu şerlərdən 11-i Alp Ər Tonqa, yəni Əfrasyab haqqında deyilmiş elegiya - ağılardır; bunlar miladdan qabaq VII-VI əsrlərdə Əfrasyabın ölümü münasibətilə deyilib, dillərə düşmüş matəm nəğmələridir.

Azərbaycan ədəbiyyatının dili və üslubunun qaynaqları beləcə uzaq keçmişlərdən gəlir, beləcə çox dərinlərə, miladdan qabaqkı dövrlərə gedib çıxır...

Buna görə:

1) bu şerlərin dili türk dillərinin, o sıradan Azərbaycan dilinin şifahi və yazılı qolunun X-XI əsrlərdən qabaqkı yüzilliklərin səviyyəsini müəyyən edir.

2) bu şerlərin dili Azərbaycan klassik poeziya dilinin, bugünkü qüdrətli ədəbi-bədii dilimizin qaynaqlarından olmaqla, o, dövrlərin estetik keyfiyyətli yüksək bədii və yetkin dilidir.

3) "Divan"ın ümumilikdə mövcud söz xəzinəsi məhz X-XI əsrlərə qədərki min illərin yaratdığı məhsul, mənəvi zənginlik idi ki, kitabda toplanmışdı.

Beləliklə, Kaşğarlıdan müxtəlif münasibətlərlə xatırladığımız, misallardan seçdiyimiz bütün sözlər, ifadələr, cümlələr məhz ədəbi dil nümunələridir, hər cəhətdən, hətta cümlədə sözlərin sırası baxımından belə ədəbi dil normalarına cavab verir.

Beləliklə, Kaşğarlıdan gətirdiyimiz bütün bu cümlələr, cümlə quruluşları müasir baxımdan belə həm ədəbi, həm də canlı xüsusiyyətləri əks etdirir. Bu cümlələr, bu cümlə quruluşlarında nəzərə çarpan bəzi sözlərin fonetik dəyişiklikləri, bəzi arxaik ünsürlər müstəsna edilərsə, öz ifadə tərzləri, fikirlərin təbiiliyi, həyatiliyi,

canlılığı və s. cəhətdən eyni fikirlərin müasir ifadə şəklindən çox az seçilirlər.

Bu, yüksək keyfiyyətdir; dilimizin lüğət fondunun, onun qrammatik quruluşunun sabitliyi, az dəyişkənliyi keyfiyyətidir.

"Ot öz kökü üstündə bitər" - demişlər. Hələ XI əsrdə "Lüğət" kitabında bəzi nümunələri verilmiş bu kökün, bu ənənənin parlaq gələcəyi olmalı, daha zəngin tarixi yaranmalı idi...

Mahmud Kaşğarlının "Divanü lüğat-it-türk" kitabında - XI əsrin bu zəngin xəzinəsində Azərbaycan dili, onun tarixi qrammatikası, ədəbi dilimizin inkişafı baxımından öyrəniləcək, üzə çıxarılacaq çox şey var. Biz ancaq məqsəd və mövzumuzun məzmununa uyğun olaraq bir sıra mühüm və zəruri məsələlər üzərində dayana bildik.

Gələcək tədqiqatların yeni həqiqətləri daha cəsarətlə aşkar edəcəyinə əminik.

İndi də XII-XIII əsrlərin ədəbi aləminə - dilimizin keçib gəldiyi inkişaf yolunun, müəyyən mənada yeni - "dönüş" mərhələsinə nəzər salaq.

VII. AZƏRBAYCAN DİLİ
YENİ İCTİMAİ-SİYASİ ŞƏRAİTDƏ

Adətən, XII əsri Azərbaycan xalqının mədəni inkişafı və mənəvi fikri tarixində "intibah" dövrü adlandırırlar. Bu fikirdə həqiqət var.

"Orxon-Yenisey" kitabələrinin məşhur tədqiqatçısı P.M.Melioranski yazır ki: "VIII əsr türklərinin yüksək mədəniyyətini təqdim etmək üçün Orxon kitabələrinin özü də kifayətdir" (216, s.278). Üç-dörd əsrlik (və daha artıq) bir dövrü əhatə edən yazılarda imla xətası tapmayan tədqiqatçı belə nəticəyə gəlir: "Yeri gəlmişkən deyək ki, tam səlis türk əlifbası ilə, imla qaydaları tam gözlənilməklə, tam səlis türk dilində yazılmış Orxon kitabələri, sırf dilçilik baxımından çox nəhəng abidədir, lakin söhbət onda deyil, biz burada, necə deyərlər, sadəcə onu göstərmək istəyirik ki, VIII əsr türklərinin yüksək səviyyədə "savadlılığına" iki mühüm Orxon yazısı şahidlik edir" (216, s.278). Bu fikirləri P.M.Melioranski hələ kitabələr yenicə oxunmağa başlarkən, XX əsrin əvvəllərində demişdi. Sonrakı tədqiqatlarda aşkar oldu ki, kitabələrin Yenisey qolu daha qədimdir, V əsrdən başlayır (208, s.8). Deməli, P.M.Melioranskinin bu fikri bütövlükdə V-VIII əsrlər türklərinə aid edilə bilər. Söz yox, bu "yüksək mədəniyyət". bu "yüksək səviyyədə savadlılıq" türklərin əsas qollarından biri olan Azərbaycan xalqına da aiddir.

Bu "yüksək mədəniyyət", bu "yüksək səviyyədə savadlılıq" təkcə ümumtürk yazı mədəniyyəti nümunəsi olan "Orxon-Yenisey" kitabələri və ya Mahmud Kaşğarlının "Divan"ı ilə məhdudlaşmırdı.

Bu "yüksək mədəniyyət", bu "yüksək səviyyədə savadlılıq", eyni zamanda dünya mədəniyyəti xəzinəsinə öz dilində "Dədə Qorqud", fars dilində isə Nizami "Xəmsə"sini bəxş etmişdir.

Lakin nizamişünaslıqda hələ də belə bir səhv fikir yürüdülür ki, Nizamini, onun dünyagörüşünü bu xəlqi ənənə, bu milli zəmin yox, guya antik dünyanın ənənələri formalaşdırmışdır, bu isə ancaq iki yolla - Suriya-ərəb və Vizantiya-gürcü və ya erməni mədəniyyətlərinin vasitəçiliyi ilə mümkün olmuşdur. Y.E.Bertels yazır: "Müxtəlif xalqların bir-birinə qarışması onların baxış dairəsini genişləndirir, ən müxtəlif ənənələrlə tanış olmağa imkan verirdi. Bu qarışma nəticəsində Azərbaycan antik dünyanın ənənələrindən iki yolla - Suriya-ərəb və Vizantiya-gürcü, yaxud erməni mədəniyyətləri vasitəsilə istifadə etmək imkanını tapırdı. Antik nəzəriyyələrlə tanışlıq oyanmaqda olan elmi fikri irəliyə aparırdı. Nizaminin dünyagörüşü yalnız bu, olduqca əlverişli şəraitdə təşəkkül edə bilərdi".

Nizaminin dünyagörüşünün formalaşması və "təşəkkül etməsində", əlbəttə, antik dünya nəzəriyyələrinin, Suriya-ərəb elmi-nəzəri fikirlərinin də rolu vardı və bunu inkar etmək olmaz. Lakin bu əsas deyildi. XII əsrdə Nizamini yetirən xalq, onun qədim tarixi və mövcud ictimai-siyasi mövqeyi, mədəni-elmi səviyyəsi, güclü ədəbi zəmini olmasaydı, dünyəvi elmlərə maraq dairəsi geniş və əhatəli olmasaydı, dünya elmi və mədəniyyətini öyrənmək, əxz edə bilmək ənənələrinə və imkanına malik olmasaydı Nizami kimi şəxsiyyət yetişə bilməzdi.

"Xəmsə"nin məzmunundan, habelə Nizaminin özü barədə dediyi və verdiyi məlumatlardan anlaşılır ki, şair Gəncədən kənara çıxmamış, oxumaq, təhsil almaq üçün başqa bir şəhərə, ölkəyə getməmişdir. Ciddi mütaliə yolu ilə dövrünün tarix, fəlsəfə, məntiq, poetika, astronomiya, heyət, həndəsə, coğrafiya, fiqh (şəriət) və b. elmlərini mükəmməl öyrənə bilmişdir; memarlıq, musiqişünaslıq, rəssamlıq kimi sənət növlərinə yaxşı bələd olmuşdur. Azərbaycan,

fars, ərəb, pəhləvi, yunan dillərini dərindən bilməsi ona qədim dünya və orta əsrlərin əsas elmi və ədəbi məxəzlərilə tanış olmaq imkanı vermişdi və s. Onda sual olunur: Gəncədən kənara çıxmayan şair bütün bu elmlərin əsaslarına necə yiyələnmiş, indi belə öz qiymətni, öz dəyərini saxlayan elmi bilikləri necə öyrənmiş, necə mənimsəmişdir? Bunun üçün ən azı iki mühüm amil zəruri idi: əvvələn, Nizaminin atadan qalma zəngin kitabxanası olmalı imiş ki, bu elmləri mənimsəmək, əxz etmək mümkün olsun; ikincisi, XII əsr Gəncəsi Şərqin qədim və zəngin elmi-mədəni mərkəzlərindən biri olmalı idi.

Azərbaycan çoxdan qüdrətli dövlət idi. Müəyyən etik-əxlaqi normalar xalqın ruhuna, canına hopmuşdu. İndi dünyada məşhur olan memarlıq məktəbi yaranırdı, dilçilik lüğətləri tərtib edilirdi; musiqi, incəsənət, təbabət, muğam inkişaf etmişdi. Nizami əsərlərini fars dilində yazsa da, onun əsərlərindəki elmilik, tarixilik Azərbaycan ictimai mühitinin məhsuludur, o zamankı mənəvi təkamülün bəhrəsidir. Digər mədəniyyətlər də Nizamiyə müsbət təsir göstərə bilərdi. Əsas özül isə milli zəmin idi.

Dühanın yetişməsində milli-xəlqi zəmin ilkin şərtdir. Təkrar edirik: Nizami dühasının parlamasında Azərbaycan xalqının zəngin mənəvi aləmi, estetik fikir dünyası, zəkası məhz ilkin mənbə və daxili amillər kimi mühüm rol oynamışdır. Xarici amillər isə sonra gəlir...

Nizamini, Nizami dühasını məhz bu ilkin xəlqi zəmin, ana dilində zəngin mənəvi fikir, düşüncə aləmi, bir sözlə, Azərbaycan xalqının öz dühası, öz daxili məzmunu yetirmişdi.

Təkrar edirik: hələ V-VIII əsrlərdə öz qəhrəmanlıq tarixini, dünyagörüşünü "Orxon-Yenisey" kitabələrinə həkk etmiş, habelə XI əsrdə dünya türkologiya elminin banisi Mahmud Kaşğarlını yetirmiş "yüksək mədəniyyət" və "yüksək səviyyədə savadlılıq" öz inkişafının müəyyən mərhələsində Nizamini də yetirməli idi.

Təkrar edirik: hələ VI-VII əsrlərdə bəşər mədəniyyətinin nadir incisi sayılan "Dədə Qorqud"u yaratmış Azərbaycan xalqı öz bədii-

estetik fikir dünyasının növbəti inkişaf mərhələsində Nizamini yetirməli idi...

Beləliklə, XII əsr Azərbaycanın intibah dövrü səviyyəsinə yüksəldən çox güclü xəlqi-milli zəmini olmuşdu. Ana dilinin get-gedə yazıda klassik şəkil alıb sürətlə inkişafında da əsas və təkanverici qüvvə məhz bu zəmin idi.

Nizami fars dilində yazsa da, onun ana dil zəmini çox güclü olmuşdur. O, yüksək mədəniyyət və yüksək səviyyədə savadlı bir xalqın oğlu idi.

1. Dövrün "ədəbi dili" məsələsi

Azərbaycan dilinin inkişafı tarixində XII-XIII əsrlər özünəməxsus xüsusiyyətləri və öz ziddiyyətlərilə diqqəti cəlb edir.

Artıq qeyd edildiyi kimi, ərəb dili uzun müddət ölkədə din, şəriət, elm dili olaraq işlənmişdi, lakin heç zaman xalq arasında hakim mövqe qazana bilməmişdi. Fars dili də Azərbaycanda ikinci dərəcəli ədəbi dil kimi yaşayırdı. Bu dil xalq arasında az-çox yayılmışdı, lakin xalqın dili ola bilməmişdi. Ərəb və fars dilləri xüsusilə, IX-XII əsrlərdə ictimai-siyasi və mədəni həyata təsirsiz qalmamış, ana dilimizə zəruri və qeyri-zəruri söz, istilah, hətta ibarə və bütöv tərkiblər gətirmişdi; dilə keçmiş ərəb, fars sözlərinin, ifadə və tərkiblərin mühüm bir qismi xalq arasına yayılmış, ailə və məişətə yol tapmış, mənimsənilib dilin öz malı olmuşdur.

Lakin bütün bunlarla yanaşı, Azərbaycan dilinin inkişafı tarixində IX-XII əsrlər ərəb, fars dilləri "hökmranlığının" və ya təzyiqinin son mərhələsi hesab edilə bilər.

Ona görə ki, öz ana dilində "Dədə Qorqud" kimi zəngin ədəbi yaradıcılığı olan bir xalqın X-XII əsrlərdə yazılı heç nəyi qalmamış, hamısı yadellilər tərəfindən tələf olub getmişdir; qədim tarixə malik, zəngin türk əlifbası məhv edilib, onun yerini ərəb əlifbası tutmuşdur; xalqımızın Xətib və Qətran Təbriziləri, Fələki və Xa-

qani Şirvaniləri, Əbül-Üla və Nizami Gəncəviləri fars dilində yazıb-yaratmağa məcbur olmuşlar...

XIII əsrdə nəzərə çarpan ümumi tərəqqi ana dili və onun inkişafı sahəsində açıq-aşkar hiss olunurdu. Xəlqi meyllərin güclənib get-gedə öz yoluna düşməsi, söz yox, Azərbaycan Atabəylər dövləti, onun ictimai-siyasi fəaliyyəti və nüfuz dairəsilə əlaqədardı. Buna görə, XIII əsrin dili o vaxta qədərki dövrlərdən əhatəli görünür. "Qisseyi-Yusif" kimi geniş həcmli bir əsərin ana dilində yazılması bu fikrimizi təsdiq edir. Bununla belə, X-XII əsrlər, hətta, müəyyən mənada, XIII əsrin özü də çox ziddiyyətli dövrlərdi. Bir tərəfdən dilin rəsmi hüquqları sıxışdırılıb aradan çıxarılır, digər tərəfdən əcnəbilər tərəfindən onun öyrənilməsinə maraq artır, ehtiyac duyulurdu; bir tərəfdən Təbrizilər, Şirvanilər, Gəncəvilər ərəbcə, farsca yazmağa təhrik edilir, digər tərəfdən bu sənətkarların ana dilini öyrənmək üçün tədbirlər tökülür, izahlı və ya ikidilli, üçdilli danışıq lüğətləri yazdırılırdı. XI əsrdə Kaşğarlı Mahmudun böyük ümumtürk lüğət "Divan"ı, XIII əsrdə İbn-Mühənnanın bilavasitə Azərbaycan dilinə aid ayrıca "Kitabi-tərcüman"ı və s. bu məqsədlərlə yaradılmışdı. Ərəbcə yazılsa belə, xarakter və məzmunundan asılı olaraq bu kitablarda türk dilləri, habelə Azərbaycan-türk dili öz zənginliyi ilə ortaya çıxır, öz əzəmətini göstərir, öz varlığını təsdiq edirdi...

X-XII əsrlərədək inkişaf edib gələn ana dilli ədəbi yaradıcılıq öz yerini ərəb, fars dillərinə vermişdi. Doğma yurdun ədəbi şəxsiyyətləri də istər-istəməz bu vəziyyətlə hesablaşmalı, öz yönünü dəyişməli olmuş, dövrün tələbinə məruz qalmışlar. Bununla yanaşı, onlar həmişə doğma ana dililə yaşamış, ana dilində düşünüb, farsca yazmışlar; təbii olaraq, farsca yazdıqları əsərlərində, yeri gəldikcə, ana dilinin söz və ifadələrinə müraciət etmişlər. Tədqiqatçılar araşdırıb aşkara çıxarıblar ki, XI-XII əsrlərdə farsca yazıb-yaratmış Azərbaycan yazıçıları əsərlərində ana dilinin xeyli söz və ifadələrini işlətmişlər:

Qətran Təbrizidə: "dağ" (mal-qaraya basılan dağ mənasında), "tağ" (dağ); "ayaq" (qədəh), "sürmə", "xan", "muncuq", "tuğ", "tapança", "xatun", "tər" (yaş, təzə), "qar", "qır" (6, s.147-150) və h.b.

Fələki Şirvanidə: "dağ", "başlıq", "xatun", "beydəq", "tayı", (bərabəri) (6, s.148) və h.b.

Xaqani Şirvanidə: "su", "ətmək", "beydəq", "tanrı", "tutuq" (pərdə), "yığlıq" (ox), "çuxa", "qunduz" (su iti), "xatun", "sürmə", "astar", "qərətığan", "qızıl", "qərə", "qız", "xan", "tuğ", "dağ", "axur" və h.b. Şair bir beytində isə çox incə bir mətləblə bir kəlmə doğma türk sözünü yad söyüşünə sipər tutur:

Məra dər parsi fohşi ge quyənd,
Be torki çərxeşan quyəd ge "sənsən" -

yəni: fars dilində mənə söyüş versələr çərxi-fələk onlara türk dilində deyər ki, "sənsən" (6, s.149).

Zülfüqar Şirvanidə: "Ay", "beydəq", "səncaq", "yətəğlıq", "çaxmaq", "əklil", "tuğ", "tutuq", "çodar", "xatun", "tutmac", "sürmə", "gəlin", "dağ", "qulac", "külüng", "ata", "qar", "taş", "tay" (6, s.150) və h.b. "Şair altı dildə şer yazdığını söyləyir, azərbaycanca şer yazdığına da işarə edir" (2, s.200).

Azərbaycan dilinin söz və ifadələri təkcə farsca yazan Azərbaycan şairlərinin deyil, təbii olaraq, fars yazıçı və alimlərinin əsərlərində də özünə yer tapırdı. Hələ X əsrdə Firdövsü "Şahnamə"də bir sıra türk-Azərbaycan sözləri işlətmişdi: "tək" (vahid), "Qara xan", "dağ" (dağ basmaq), "qərbil", "xatun", "güvancı", "çodar", "dəxmə", "qoç", "qacarbaşı", "çaka-çak", "çaq-çaq" (təqlidi sözlər) (6, s.150) və h.b.

Məhəmməd ər-Ravəndinin 1202-ci ildə tamamladığı "Rahət-üs-südür və ayət-üs-sürür" əsərində Azərbaycan söz və ifadələrinə təsadüf edilir: "danışıq" (məsləhət, razılığa gəlmək), "qara göz", "qır" (qıraq, sərhəd), "ata" (ada), "uluğ", "yığlığ", "tuğ", "çomaq", "çodar", "təmğacı", "tağ" (dağ), "ağcə", "xatun", "kəhriz", "atabək" (6, s.151) və h.b.

Eyni vəziyyət bizim ana dilli ədəbiyyatımızda da müşahidə edilir. Azərbaycan yazıçıları ana dilində yazdıqları əsərlərində fars (habelə ərəb) sözlərinə müraciət etmişlər.

Azərbaycan-fars qonşuluq və ictimai-siyasi münaşibətlərinin tarixi çox qədim dövrlərə gedib çıxır; bu münasibətlər onların mədəniyyətinə, dilinə də qarşılıqlı təsir göstərmişdir. Xatırlanan faktlarda da Azərbaycan dili ilə fars dili arasındakı əlaqə qarşılıqlı təsir münasibətlərilə izah oluna bilər. Azərbaycan dili tarixinin inkişaf məsələlərilə bağlı olan bu sahəsi məhz tədqiqat obyekti kimi hər dövrdə diqqətdən yayına bilməz, buna görə də irəlidə, yeri gəldikcə izləniləcəkdir...

1). Xaqani və Nizaminin ana dili

Tarix şahidlik edir ki, ictimai-siyasi şərait mövcud vəziyyəti dəyişir, bəzən hər şey öz əksinə, başaşağı çevrilmiş olur.

Xaqaninin, Nizaminin doğma ana dili türk-Azərbaycan dili idi; onlar bu dildə danışmış, ana laylası eşitmiş, bu dildə sevmiş və nifrət etmişlər; ana dilinə məhəbbət, vurğunluq heç vaxt onlara yad olmamışdır; bu elə təbii, elə bəşəri duyğudur ki, onu heç kəs onların əlindən ala bilməzdi, hər vəziyyətdə o, baş qaldırar, özünü büruzə verərdi. Xaqani, Nizami məhz ana dilində düşünüb farsca yazmış, fikirlərini ana dilində yoğurub fars dilində yapmışlar. Şərqşünas Y.N.Marrın rəyincə, farslarda Xaqani və Nizamiyə qarşı qəribə bir soyuqluq və etinasızlıq duyulur. Y.N.Marr həmin münasibətlə İran alimi Səid Nəfisinin bu fikrini xatırladır: "Nizami fars şairi deyil, o, Azərbaycan mühitində yaşamış, yazıb-yaratmışdır və onun şerləri farslara qəribə gəlir" (215, s.265). Güclü türklük ruhu, milli zəmin, Azərbaycan torpağına bağlılıq və s. farslarda Xaqani və Nizami poeziyasına qarşı "soyuqluq" və "etinasızlıq" hissini doğurmaya bilməzdi: "Nizami əsərlərini fars dilində yazmasına baxmayaraq, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz obrazlı ifadələ-

rini həmişə xalqdan, canlı xalq dilindən almışdır. Təsadüfi deyildir ki, farslar Nizami və Xaqani şerlərindən danışanda "buyi-türk miayəd" - deyirlər" (8, s.3-16).

H.Araslıdan gətirdiyimiz fikirlərdə həqiqət daha artıq qabarır. Biz də deyilənlərə bəzi əlavələr etməyə çalışacağıq.

H.Araslı Nizaminin əsərlərində, yeri gəldikcə, işlətdiyi türk Azərbaycan dili söz və şəkilçilərini tədqiq edir və göstərir ki, bunların mühüm hissəsi "Dədə Qorqud"da da işlənir. Məs.: *xatun, çaliş* (vuruş, qılınc çalmaq, qılıncla hücum çəkmək), *səncəq // sancaq* (bayraq, sancılan), *qlauz* (bələdçi, yol göstərən), *külüng, qırmızı, gərdək, tutuq* (örtük, pərdə), *alaçuq, yaylaq, tutmac, xan, muncuq...*

Burada daha maraqlı və diqqətəlayiq cəhət budur ki, şəkilçilərin sözlərlə, sözlərin sözlərlə birləşməsi, qaynayıb-qarışması kimi yeni keyfiyyətlər müşahidə edilir. Məs.:

a) Fars sözləri Azərbaycan şəkilçiləri ilə işlənir: *səng+lax* (daşlax), *div+lax* (divlər olan yer), *miyan+çi* (miyançı, əlaqə yaradan)...

b) Azərbaycan sözləri fars şəkilçiləri ilə işlənir: *bi+qlauz* (qlauzsuz, bələdçisiz), *yaylaq+iyan* (yaylaqlılar, dağlıq yerdə yaşayanlar)...

c) Azərbaycan sözləri fars sözlərilə farssayağı birləşir: *səncəqi-pəhləvi* (pəhləvi sancağı, bayrağı), *tasəkhayi-muncuq* (muncuq tasları), *rəhi-biqlauz* (qlauzsuz, bələdçisiz yol), *qirmiziyi-ruxo-to* (sənin qırmızı yanağın), *tutuği-nur* (nur pərdəsi, tutuğu, örtüyü), *bərgi-tutman* (tutmağ yarpağı)...

ç) Azərbaycan sözləri Azərbaycan sözlərilə farssayağı birləşir: *xani-xanan* (xanlar xanı), *alaçuqi-türkmani* (türkmən alaçığı)...

Buradan da bir dilin başqa dilə təsiri, dilin sözləri və şəkilçilərinin başqa bir dildə istifadəsi, onları bir-birinə bağlamağın, uyuşdurmağın ilk örnəyi, nümunələri yaranmış olur. Nizamidən sonra gələn şair Əli, Həsənoğlu, Qazi Əhməd, Nəsimi, Kişvəri, Xətai, Füzuli və b. klassiklərimiz ana dilində yazıb-yaradarkən fars sözləri, şəkilçiləri və birləşmələrdən, təxminən eyni qaydada istifadə et-

miş və dilə gətirmişlər. Başqa sözlə, Nizami farsca yazarkən türk-Azərbaycan söz və şəkilçilərindən, birləşmələrindən necə istifadə etmişsə, onlar da ana dilində yazarkən ərəb, fars söz və şəkilçilərindən, birləşmələrindən təxminən eləcə istifadə etmişlər. Lakin Nizaminin öz əsərlərində ana dilinin söz və şəkilçilərindən, birləşmələrdən istifadəsi o vaxtlar türk-Azərbaycan dilinin *"təbii"* üstünlüyü ilə, Nizamidən sonrakı ana dilində yazan klassiklərimizin öz əsərlərində ərəb, fars söz və şəkilçilərindən, birləşmələrdən istifadəsi bu dillərin *"rəsmi"* üstünlüyü ilə əlaqədardı.

Nizamişünaslar Nizami əsərlərində işlədilən bir çox obrazlı-idiomatik ifadələrin, atalar sözü və zərbi-məsəllərin ancaq ana-türk dilinə məxsusluğunu və bunların Nizami qələmi və kalka üsulu ilə tərcümə olunub fars dilinə keçdiyini və yayıldığını iddia edirlər. Bu fikrin təsdiqi üçün gətirilən faktlarda həqiqət var.

Azərbaycan obrazlı - idiomatik söz və ifadələrinin farscaya tərcüməsi: "ağ tozlu yay - kəmani səpid tuz", "gözə gəlmək, göz dəymək - çeşmrəsidə, çeşmzədə", "quş dili - morğzəban", "Başımı qaşımağa macalım yoxdur - Nə pərdazəm besər xaridəni-xiş"... Azərbaycan atalar sözü və zərbi-məsəllərinin farscaya tərcüməsi: "Öz əlilə öz ayağına balta çalır - Be dəsti-xod, təbər bər payi-xod zəd", "Qurdla quzu bir yerdə otlayır - Ekcə ab xordə görg ba miş", "Hər kəsin tüstüsü öz bacasından düz çıxar - Danəd dudi - hər kəs rahi-rövzən", "Ev oğrusunu tutmaq olmaz - Dozdi dər bəst nətvan", "Gəl əyri oturaq düz danışaq - Biya ta gəc nişinim, rast euyim", "Oddan kül törər - Xakistər bovəd fərzəndi atəş", "Yel ilə gələn yel ilə gedər - Amədeyi-bad, be-badi şəvəd", "Su həmişə bir arxla axmaz - Nəmanəd ab daim dər yeki cuy", "Ot öz kökü üstə bitər - Bəvəd tərrə be toxmi-xiş manənd", "Söyüd ağacı bar verməz - Kül arəd bid, leykin bər nəkirəd", "Özgəsinə quyu qazan özü düşər - Hər ku çəh kənəd üftad dər çah", "Heç kəs öz ayranına turş deməz - Kəs nə kuyəd ki, duği-mən turşəst", "Qara rəng çirk götürməz - Çirkini bər siyah nənşinəd"...

Farsca yazarkən Azərbaycan atalar sözləri və zərbi-məsəllərindən istifadə edilməsi: "İsinmədim istisinə, kor oldum tüstüsünə - Nəkəştəm z-atəşəm kərəm ey diləfruz, Beduət kur migərdəm şəbü ruz" (yəni: Sənin odundan isinmədim, tüstündən isə gecə-gündüz kor oldum), "İt itliyindən əl çəkər, sümsüklüyündən əl çəkməz - Kər səgi xod bəvəd mürəqqəpuş, Səgdilira koca konəd fərmuş" (yəni: Əgər it sufi paltarı geysə, it ürəkliliyindən necə əl çəkər?), "Vaxtsız banlayan xoruzun başını kəsərlər - Nəbini morğ çün bivəqt xanəd, Becayi-pərfəşani, sər fəşanəd" (yəni: Görmürsənmi xoruz vaxtsız banladıqda, qanad vuran yerdə başını itirər), "İynə atsan yerə düşməz - Gər uftadi səri-yeksuzən əz miğ, Nəbudi cayisuzən cüz səri-tiğ" (yəni: Əgər bulutdan bir iynə başı düşsəydi, qılınc başlarından yerə düşməzdi)...

H.Araslı yazır: "Nizaminin xalqdan aldığı ifadələri, məsəl və atalar sözlərini saymaqla qurtarmaq olmaz. Bunların hamısını oxucunun nəzərinə çatdırmaq üçün cildlərlə əsər yazmaq lazım gəlir... Bu misallar aydın surətdə göstərir ki, dahi sənətkar Nizami Azərbaycan xalq ədəbiyyatını çox dərindən bilib, yeri gəldikcə bu bitməz-tükənməz xəzinədən məharətlə istifadə etmişdir" (8, s.14).

2). Xaqani və Nizaminin ədəbi-yazı dili

Əvvəldə dedik ki, X-XII əsrlər Azərbaycan xalqı və onun dilinin inkişafı tarixində çox böhranlı dövr olmuşdu; xalqımızın Xaqani və Nizami kimi doğma sənət bahadırlarının öz əsərlərini farsca yazması faktının özü belə vəziyyətin nə yerdə olduğunu dəqiqləşdirməyə kömək edir. Burada təkcə mövcud vəziyyətə qarşı Nizaminin səsini dinləmək kifayət edərdi. "Leyli və Məcnun" poemasını yazmaq üçün Nizami Şirvanşah Əxsitandan belə bir sifariş almışdı:

Bu təzə gəlinə çəkəndə zəhmət,
Fars, ərəb dililə vur ona zinət...
Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə".

Nizami "Leyli və Məcnun"a qədərki əsərlərini farsca yazdığı və bundan Şirvanşahın xəbəri olduğu halda, indi nə vacib imiş ki, "Leyli və Məcnun"u ərəb və ya farsca yazmağı, "ərəb, fars dili ilə ona zinət vurmağı" sifariş verirdi? Ağlın məntiqi deyir ki, Nizami türkcə də yazırmış ki, şah bu əsəri türkcə yazacağından ehtiyat edərək, ona xüsusi sifariş göndərmişdi.

Bu misraların farsca əslini də verməyi məqsədəmüvafiq sayırıq:

در زیور پارسی و تازی
این تازه عروس را طرازی...
ترکی صفت وفای ما نیست
ترکانه صفت سزای ما نیست

(خمسه نظامی، چاپ هجری ۱۳۱۴ (میلادی 1899) səh.8)

Böyük Nizaminin mənliyinə bərk toxunulmuş, o, təhqir olunmuşdu. Şah özü türk əsilli ola-ola, "türklülük ona əskiklik gətirir" deyirdi. Bu təhqirə Nizami necə dözə bilərdi?..

Qulluq həlqəsinə düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım.
Nə cürətim vardı ki, evdən qaçam,
Nə də gözüm vardı, xəzinə açam.
Ömrüm viran oldu, solub saraldım,
Bu əmrin önündə cavabsız qaldım.

(*65a*, s.23-24)

Bizcə, bu sözlər hər şeyi aydın edir. Nizaminin ana dilində yazdığı əsəri, hələlik bizə məlum deyilsə də, bu fikir ondan daha artıq söz deyir və şairin ana dilində əsəri olduğunu söyləməyə məntiqi əsas verir. Nizamiyə aid olduğu sübuta çalışılan bəzi şer mətnləri barədə fikir və mülahizələr varsa da, bu hələlik əfkari-ümumiyyə tərəfindən tam qəbul edilməyib.

Məsələyə münasibətlə əlaqədar bir fikri xatırlamaq da yerinə düşər: "Nizaminin qadını Afaq 1180-ci ildə vəfat etmişdi. Şairin iki

poeması - 1176-cı ildə tamamladığı "Məxzənül-əsrar" arvadının sağlığında, "Xosrov və Şirin" isə onun ölümündən sonra "yüksək dildə" yazılmışdı. Şirvanşah bunu bilməmiş deyildi və bununla belə, "Leyli və Məcnun" poemasını Nizamiyə sifariş edərkən yazırdı:

Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə.

"Yüksək dildə" iki poema yazmış Nizami fars olsaydı, onda hansı əsasa görə türk qızı olan arvadının ölümündən səkkiz il sonra ona Şirvanşah məktub yazmalı idi? Bunu ancaq belə əsaslandırmaq olar: Şirvanşah bilə-bilə ki, Nizami türkdür, onun ana dili türkcədir, istəməmiş ki, sifariş elədiyi poema türkcə yazılsın... Nizami, oğlu Məhəmmədi "türkzadə" adlandırmışdı, ona görə yox ki, o türk qızından olmuşdu, ona görə ki, nəsl ata telilə bağlı olur" (*255*, s.30).

Demək, Xaqani və Nizami ona görə farsca yazıb-yaratmışlar ki, bu, zamanın tələbi idi, tariximizin müəyyən mərhələsində dövrün fars dilinə verdiyi "rəsmi" üstünlüyün nəticəsi idi.

Lakin Nizami yaradıcılığı, eyni zamanda bizim türkdilli mədəniyyətimizin bitməz-tükənməz xəzinəsi, istinadgahı olmuşdur. Buna görə Nizaminin söz, kəlam, sözün qüdrəti, mövqeyi və s. haqqında dediyi fikirlər üzərində dayanıb, diqqəti bəzi məsələlərə doğru yönəldə bilərik.

Nizaminin təsvirincə -

Söz hər şeyin əzəlidir:

"Bu xərabazar dünyada abad sözdür, bu söz haqq,
Çərxdən cavandırsa da, doğulmuş ondan qabaq".

Söz dünyanın ilk gözəlidir:

"Bu xəlvət pərdəsini açan zaman əlbəəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl".

Söz düşüncənin əvvəlidir:

“Düşüncənin əvvəli, bütün sayların sonu
Sözdür, yadında saxla, unutma əsla bunu”.

Söz dünyanın naxşıdır:

“Alaraq bizim sözü, öz qızılını mədən,
Söz sərrafı önünə qoydu yerlərə birdən.
Sordu: “Köhnə qızılmı, təzə sözmü yaxşıdır?”
Söz sərrafı söylədi: “Söz dünyanın naxşıdır”.

Söz ruhumuz, canımızdır:

“Söz eşqin lüğətində öz canımızdır bizim,
Biz sözük, bu bədənsə eyvanımızdır bizim”.

Söz əbədi yadigardır:

“İnsanın qalacaq sözü yadigar.
Yeldir yerdə qalan, başqa hər nə var”.

Söz ölkələr fəth edir:

“Söz bayraqdan daha çox əldə eyləyər zəfər,
Qələmdən daha artıq qalxıb alar ölkələr”.

Sözü tərif etməyə dil acizdir:

“Yoxdur zərrəcə rəngi baxsan öz şanına
Dil acizdir, deməyə tərif sözün şanına”.

Sözün incə qanadları var:

“Sözün qanadları var, quş kimi incə-incə
Dünyada söz olmasa, nəyə gərək düşüncə”.

Sözdən gözəl övlad doğulmayıbdır:

“Varlığın anası doğmamış, inan,
Sözdən gözəl övlad, şahiddir cahan”.

Dünyanın gözünü gözəl söz açmışdır:

"O zamandan ki, qələm yazı yazdı, dür saçdı
Bu dünyanın gözünü ən gözəl söz açdı".

Dünya söz şöhrətini sözlə qazanmışdır:

"Yalnız sözlə qazandı kainat bu şöhrəti,
Bir bu qədər dedilər, azalmadı qiyməti" və h.b.

Buna görə, Nizami müasirlərinə, gələcək ədəbi nəsillərə - "söz əhlinə" dönə-dönə demişdir:

"Polad kimi bərkit qızıl sözü sən,
Salsın söz sikkəsi pulu qiymətdən".

"İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin".

"Söz durduqca dünyada, buraq sözü car olsun
Nizaminin də adı sözlə paidar olsun" və h.b.

Nizaminin söz, kəlam haqqındakı bütün bu fikirləri bizim istər farsca, istərsə də azərbaycanca yazıb-yaratmış sənətkarlarımızın söz axtarışlarında həmişə onlara ilham verib, əsl sənət yolunu göstərən mayak olmuşdur.

AZƏRBAYCANIN XIII ƏSR ANADİLLİ KİTABƏLƏRİ

XII əsrdən fərqli olaraq, XIII əsr Azərbaycan ədəbiyyatı və dilinin inkişafı tarixində xəlqi meyllərə doğru "yeni dönüş" əsridir; "Qisseyi-Yusif" mənzum romanı (əsrin əvvəli) və "Dastani-Əhməd Hərami" (əsrin sonu) ana dilində geniş həcmli əsərlər yaratmağa olan meylin güclənməsi və keçmiş ədəbi ənənələrin bərpasını göstərirdi. Bu da, öz növbəsində, qədim ədəbi janrların - poema, mənzum roman və s.-in qədim kök üstündə yenidən meydana çıxması, müəyyən şəkil alıb inkişaf etməsi demək idi.

Hələlik, elm aləminə məlum olan bu ikicə kitabla biz, hər halda, Azərbaycan dilinin inkişafı tarixində yad dil maneələrinə qarşı doğma dilimizin göstərdiyi müqavimətin təzahürünü görürük.

1. Əlinin "Qisseyi-Yusif" poeması və onun dili

Qədim Gəncədən 1960-cı ildə Respublika Əlyazmaları Fonduna bir əlyazma verilmişdir. Bu əlyazmanın elm aləmində şair Əlinin adı ilə məşhur olan "Qisseyi-Yusif"in (və ya "Yusif və Züleyxa"-nın) yeni bir nüsxəsi olduğu müəyyən edilmişdir. Verilən ilkin məlumatda bu, "Bakı" nüsxəsi adlandırılmışdır.

Burada məhz "Bakı" əlyazma nüsxəsi əsas götürülüb.

1). Şair Əli Nizaminin ana dilində yazan müasiridir

Əlinin "Qisseyi-Yusif" poemasının Kazan, Berlin, Drezden, Sankt-Peterburq əlyazma nüsxələri çoxdan mövcuddur. Buna görə abidənin dili türkoloqların diqqətini hələ XIX əsrdən cəlb etmiş, onun harada və hansı xalq tərəfindən yarana bilməsi barədə mübahisələr başlanmışdır. F.Köprülüzadə, Y.E.Bertels və b. bu poemanın Xarəzmdə Oğuz tayfaları içərisində yarandığı fikrini söyləmişlər. K.Burokkelmanin, Dr.Saadet, Ş.Cağatay və b.-nın da bu barədə mübahisəli fikirləri vardır.

Bu mübahisələr indi də davam edir.


Bu yaxınlarda "Literaturnaya qazeta"da (15 fevral 1984) iki məqalə dərc olunmuşdur. Hər iki məqalə müəllifi dəlilsiz-sübutsuz "Qisseyi-Yusif" poemasını bulqar-tatar yazılı poeziyasının əsası kimi təqdim edir. Georgi Lomidze yazır ki: "keçən əsrdən indiyədək "Qisseyi-Yusif"i tatarlar 70 dəfə çap ediblər". Lakin bu o deməkdirmi ki, poema onlara məxsus olmalıdır? "Dədə Qorqud kitabı" Türkiyədə Azərbaycandakından bir neçə dəfə artıq çap olunmuş və tədqiq edilmişdir. Amma türklər "Kitab"ın məhz Azərbaycan mü-

hiti və dilinin məhsulu olduğunu inkar etmirlər. Eyni sözləri "Əhməd Hərami dastanı" və onun dili haqqında da demək olar...

"Qisseyi-Yusif"i tatarlara çıxan məqalə müəlliflərinin elmi dərəcəsi və nüfuzuna hörmətimiz var. Söz yox, "Qisseyi-Yusif" ümumtürk kitabəsidir. Amma fakt faktdır; hər hansı bir bədii əsərin və onun müəllifinin milli mənsubiyyətinin müəyyənləşdirilməsi işində dil faktını heç nə əvəz edə bilməz. "Qisseyi-Yusif"in dili Azərbaycan-türk dilidir; oradakı arxaik söz və ifadə şəkillərini nəzərə almaqla, bu dil XII-XIII əsrlər və ondan qabaqkı Azərbaycan dili ilə də, müasir Azərbaycan dili ilə də tam səsləşir. Buraya onu da əlavə edək ki, "Qisseyi-Yusif"in məlum əlyazmalarında müəllifinin adı heç yerdə tatar dilində olduğu kimi Qali yazılmayıb. Hər bir nüsxədə ad Əli (علی) şəklində gedib. Bu faktın özü də Əlinin milli mənsubiyyəti barədə az söz demir. Hələ 1940-cı illərdə H.Araslı həmin kitabənin Azərbaycan dilində yazılmış ən qədim mənzum əsər olduğu fikrini söyləmişdi. Məlum nüsxələrin dilinə əsasən türk alimləri Dr.Saadet və Ş.Cağatay yazırlar: "Əsərdə bir çox sözlər, eynilə Azərbaycan dilində olduğu kimi ön səsdə əski t yerinə d yazılıbdır, bol yardımçı feli ol şəklində qarışıqdır, bar yerinə var feli işlənir və h.b." (208, s.91). Məşhur türkoloq Ə.N.Nəcib belə nəticələrə gəlmişdir: 1) "Bu kitabə əsas əhalisi Oğuz qəbilələri olan və onlarla birgə qıpçaqlar da yaşayan ərazidə yarana bilərdi. Kitabənin dilinin hər cəhətdən dəqiq tədqiqi bunu göstərir ki, kitabə o yerdə yaranıb ki, ona qədər orada oğuz ünsürləri üstünlük təşkil edən bu qarışıq dildə başqa ədəbi əsərlər vardı"; 2) "Qisseyi-Yusif" və "Kitabi-Dədə Qorqud"un müxtəlif xarakterli məzmunu kitabənin yaranma yeri və milli mənsubiyyəti məsələsini düzgün həll etmək üçün çox şey verir"; 3) "Əlinin poemasının digər Orta Asiya türkdilli kitabələrdə olmayan arxaik qrammatik ünsürləri, demək olar ki, bütünlüklə "Dədə Qorqud"da təkrarlanır. Deməli, təsdiq etmək olar ki, bu kitabələr əsas əhalisi oğuz qəbilə və nəsilləri olan eyni bir ərazidə yaranmışdır" (247a, s.79, 84...).

H.Araslının yeni "Bakı" əlyazma nüsxəsi əsasında söylədiyinə görə, "Azərbaycanlı Əlinin yazdığı "Qisseyi-Yusif" uzun müddət tatar mədrəsələrində, məktəblərində dərslik olaraq oxunduğundan, tatar ədəbiyyatının inkişafına qüvvətli təsir göstərmişdir; Lakin, hər şeydən əvvəl, Azərbaycan mühitinin məhsulu olduğu üçün Azərbaycan ədəbiyyatı və ədəbi dil tarixinin öyrənilməsi işində böyük tarixi, elmi əhəmiyyətə malikdir. Elməddin Əlibəyzadənin əsərin dil xüsusiyyətlərinə həsr etdiyi bu məqalə gələcəkdə görüləcək mühüm elmi işlərin başlanğıcıdır" (26, №11).

"Bakı" əlyazma nüsxəsinin dili, üslubu, arxaik söz və qrammatik ünsürlərinin tədqiqi mübahisəli fikirlərə son qoymaqla, yuxarıda xatırlanan alimlərin mülahizələrini də tamamilə təsdiq edir.



"Bakı" əlyazma nüsxəsindən bir səhifə.

"Qisseyi-Yusif" Azərbaycan anadilli yazılı ədəbiyyatımızın çox zəngin nişanəsidir. XII-XIII əsrlər canlı Azərbaycan dilində yazılmış bu əsər böyük bir eşq - məhəbbət dastanı, mənzum romandır. Əlinin harada doğulduğu və vəfatı tarixi məlum deyil. Şairin əldə olan yeganə əsəri "Qisseyi-Yusif"də də bu barədə məlumat yoxdur. Məlum olan ancaq budur ki, əsərin sonunda belə bir tarix qeyd edilib:

"Tarix altı yüz toqquzından. Bu zəif, bu kitabı düzdi imdi" (70)

609-cu il hicri. Miladi tarixə çevirəndə *1212-ci il* edir ki, bu, təxminən böyük Nizaminin yazıb-yaratdığı son illərdir. Bu həcmdə poetik əsəri, müəllifin öz kamil dövründə tamamladığını və poema üzərində uzun illər işlədiyini nəzərə alsaq, o, elə Nizaminin müasiri olmuş olur.

Xoşbəxtlikdən "Qisseyi-Yusif"in yaxşı nüsxələrindən biri öz milli zəminində mühafizə olunub qalmışdır. Burada əlyazmanın qədim Gəncədən tapılması orada mühafizə olunub qalması isə daha xoşbəxt bir təsadüfdür və bu özü də az söz demir. Nizami kimi dühanı yetirən Gəncə ədəbi mühiti ana dilində yazıb-yaradan şair Əlini də yetirə bilərdi; bəlkə, elə o özü də Gəncədən imiş.

Poemada öz bədii həllini tapan problemlərdən biri insanın insanlıq ləyaqətini təsdiq edən dili, gözəl danışığı, ağlı və kamalıdır. İnsan bu məziyyətlərilə şöhrət tapır, ucalır. Əsərin baş qəhrəmanı Yusif Kənan məhz bu keyfiyyətlərinə görə yüksəlir, xalqın sevimlisi olur, hamı ona ehtiram göstərir, hamı onu dinləmək istəyir, nəticədə ölkənin padşahlıq taxtında əyləşməyə layiq görülür. Bu mənada Əli özünü Nizaminin ilk ədəbi varisi kimi göstərir.

Sözün qüdrəti, insanın nitq-danışıq mədəniyyəti məsələsində Əli böyük müasiri Nizami ənənələrini özünəməxsus ədəbi səliqə və yeni şəkildə davam və inkişaf etdirirdi. Şərqdə məşhur olan qədim "Leyli və Məcnun" dastanını ilk dəfə qələmə alan Nizami əsəri ana dilində yazmağın sənətkar üçün müqəddəs borc olduğuna işarə etmiş, poemanı fars və ya ərəb dilində yazmaq sifarişini alar-

kən, ürək ağrısı ilə kədərlənmişdi. Sanki şair Əli Nizaminin ürək ağrılarını duymuş, digər bir qədim "Yusif və Züleyxa" dastanını öz ana dilində yazmışdı. Maraqlıdır ki, Nizaminin "Leyli və Məcnun" (S.Vurğunun tərcüməsi) və Əlinin "Qisseyi-Yusif" poemasında bədii paralellər, bir-birini xatırladan təsvir və ifadə vasitələri müşahidə olunur.

"Leyli və Məcnun"da:

"Hər gün parladıqca sübhün güzgüsü,
Doğardı Şərqin də Yusif üzlüsü:
Öz reyhan köksünə turuncu fələk
Qızıl bir turuncla verirdi bəzək.
Leyli də bəhs edib turunc fələklə,
Turunc çənəsini alırdı ələ.
Turunclu gördükcə xalq o nigarı,
Açıldı eşqinin yetişmiş narı.
O təzə turunca baxdığı zaman
Turunc tək əlini kəsərdi insan". (61).

"Qisseyi-Yusif"də:

"Urağutlar kursi üzə olturdılar,
Birər turunc, birər pıçaq gətürdilər,
Əlnə verüb, kəskil deyü buyurdılar.
Ol hal üzə Yusif dəği gəlür imdi.

Yusifə anlar gözləri düşmüş oldı.
Anlar Yusif cəmalına cilvə qıldı.
Ol övrətlər bağıbanı anı gördi.
Turunc sanıb barmaqların kəsər imdi" (33 b).

Məcnunun halının təsvirində:

"Məcnunun dilində əzbərdi Leyli,
Başqa heç bir sözə düşməzdi meyli.
Yanında özgə bir ad çəkən olsa,
Onu dinləməzdi, dinməzdi əsla" (s. 64).

Və Leylinin halının təsvirində:

"Göz yaşının gülünü islatdıqca hey,
Məcnun görünürdü gözünə hər şey!" (s.88).

Züleyxanın halının təsvirində:

"Züleyxa ol hala düşdi, anda güzin
Bir saəti görməz irsə Yusif yüzin,
Səbr tükəməz, anlamaz həm kimsə sözin,
Nə sözlərsə, "Yusif" deyü, sözlər imdi" (24 b)...

Şair Əliyə qədər inkişaf edib gələn həm anadilli şifahi, həm də farsdilli yazılı ədəbiyyatımızın zəngin təcrübəsi, dövrün artıq qəlibə düşmüş müəyyən bədii təsvir vasitələri və ifadə şəkilləri vardı. Bizə belə gəlir ki, böyük müasirinin "Leyli və Məcnun" poemasından Əlinin xəbəri ola, ondan təsirlənə bilərdi. Bədii söz axtarışlarında o öz müasiri və müəllimi Nizamidən daha çox öyrənmişdi.

Nizami yazır ki: *"Söz dünyanın naxışıdır"*.

Əli bədii yolla təsdiq edirdi ki, həm də *"Söz insanın naxışıdır"*.

Nizami yazırdı ki: *"Söz kainatın şanı-şöhrətidir"*.

Əli bədi yolla təsdiq edirdi ki, həm də *"Söz insanın şanı-şöhrətidir..."*.

Beləliklə, hələ öz sağlığında anadilli ədəbiyyatda da Nizami təsiri genişlənir, Nizami ənənələri yaranır və inkişaf edirdi.

Bu təsir, bu ənənələr şair Əlidə keçici olmayıb əhatəlidir, bir sıra problemlərin həllində özünü daha qabarıq göstərir. İnsan problemində - şəxsiyyətin azadlığı, insan hüququ və ləyaqətinin müdafiəsi və s.-nin tərənnümündə şair Əli müəllimi Nizaminin əsl varisi və davamçısıdır.

Əsərin yazılış üsulu diqqəti cəlb edir.

"Qisseyi-Yusif" qoşma şəklində (bunu o vaxtkı istilahla "qoşuğ" adlandırmaq daha doğru olar), dördlüklə yazılıb, fikir dörd misrada tamamlanır, "imdi" sözü ilə indiki zamana bağlanır; yəni bütün bəndlər "imdi" sözü ilə bitir. Məs.:

"Məlik aydur: bən sizlərə həm inandum,
Razı oldum, qulıñızı satun aldum.
Ol üç eybi birlə anı qəbul qıldum,
Bu beh üzə bir biti gərək imdi.

Anlar cümləsi bu sözi rəva gördi,
Biti yazub verməgə iqrar qıldı,
Qamuları batil işə doğrı durdı,
Qabaləsin ver maña sizlər imdi" (9) və h.b.

Növbəti bəndlər də bu şəkildə davam edir.

Bu çox orijinal formadır. Lakin sonralar bu forma, bu şer "tutumu" ənənəsinin davamı və inkişafı görünmür. Söz yox, əsassız, bünövrəsiz, zəminsiz bu həcmdə poema - mənzum roman yarana bilməzdi. Görünür, "Qisseyi-Yusif" müəllifin yeganə əsəri deyilmiş; zəngin yaradıcılıq yolu keçməyən bir sənətkarın birdən-birə bu səviyyədə əsər yazması ağlasığmazdır. Lakin şair təkcə bu mənzum romanı ilə də dövrünün görkəmli sənətkarı və ədəbi şəxsiyyəti səviyyəsinə yüksəlir.

2). Əsərin dil və üslubunun bəzi ümumi cizgiləri

"Qisseyi-Yusif" Azərbaycan ədəbi dilinin çox zəngin abidəsidir. XII əsr, ondan qabaqkı yüzilliklər və XIII əsrin ilk illərinin canlı Azərbaycan dilində yazılmış bu əsər böyük bir eşq-məhəbbət dastanıdır. Burada türk dillərinin bir sıra ümumi xüsusiyyətləri və o vaxtın ləhcə qarışıqlığı da hiss olunur. Bu isə təbii haldır. Türkoloqların fikrincə, XIII və hətta XIV əsrlərin Azərbaycan dili və ləhcələrilə digər qərbi Oğuz dilləri və ləhcələri arasındakı fərqi müəyyən etmək çətindir. Bu münasibətlə A.N.Kononovun bir xatırlaması yerinə düşür: türk alimi "A.Dilaçar deyirsə ki, o vaxtlar qərbi Oğuz ləhcələrilə Azərbaycan ləhcələri arasında dəqiq sərhəd qoymaq mümkün deyildir, deyəsən, o haqlıdır" (194a, №4, s.24).

Kitabə türk dillərinin bəzi ümumi xüsusiyyətləri və ləhcə qarışıqlığını əks etdirsə də, Azərbaycan dili ilə daha çox səsləşir və ilk növbədə bu dilin kitabəsidir. Zəngin faktik dil materialı bir yana, təkcə poemanın fikri ifadə tərzi, üslub xüsusiyyətləri də bu fikri təsdiq edir.

Poemanın üslub məziyyətləri və ifadə tərzlərinə müraciətlə XII-XIII əsrlər ədəbi-yazılı dilimizin, hələlik ümumi cizgilərilə tanış olaq.

Yusifin Misrə gəlişi və qarşılanması səhnəsinin təsvirini xatırlayaq.

"Misir xalqı anı görüb qaldı heyran.
Aýdurlar: bəs bu, degüldür adəmidən!
Bir neçələr surəti-cəmalını gördi,
Bir neçələr surəti-kəmalını gördi,
Bir neçələr risalədə halın gördi,
Hər taifə bir ər dürlü görür imdi.

Surətini görən malın əta qıldı,
Surətini görən canın fida qıldı,
İgirmi min kişilər şəhid oldı,
Risalət görən iman gəltürür imdi.

Bəs qadirdən hökm təqdir eylə oldı,
Məlik Doğar Yusifi alıb gəldi.
Ğəs içrə altun kürsi hazır qıldı,
Yusif ol kürsi üzə olturur imdi.

Münadilər cövrə durıb çağırdılar:
Bu oğlannı kim satıba alur? - derlər,
Qanğı kişi qiymətini bilür? - derlər,
Hər kim baha yetkürsə, alur imdi.

Munı eştib Misir əhli cümlə gəldi;
Ulu, kiçi, bay, fəqir cümlə gəldi.
Xalvacı, ətməkçi, əttar təmə qıldı.
Hər biri "bən alsam" deyib - deyür imdi" (17 b).

Bu parça bütünlükdə poemanın dili və üslubunu, o vaxtkı fikrin Azərbaycan dilində ifadə tərzlərini təsəvvür etmək üçün yaxşı nü-

munə sayıla bilər. Buraya sözlərin ərəb əlifbası ilə yazılışı, o vaxtkı deyiliş tərzi və tələffüzünü də əlavə etsək, müasir dilimiz baxımından elə bir fərq görünmür; fikir anlaşıqlıdır, sadədir, canlı dilin, danışığın təsiri açıq-aşkar hiss olunur. Zaman, məsafə nəzərə alınarsa, yad birləşmə şəkli, izafət tərkibləri, sonrakı, məs.: XIV-XVI əsrlərlə müqayisə edilməyəcək dərəcədə azdır.

Bütün əsərdə müşahidə olunan beş-on izafatın ikisi ("surəti-cəmalını", "surəti-kəmalını") təsadüfən misal çəkilən bu parçaya düşmüşdür və s.

Bununla belə, burada şairin öz dəsti-xəttini, üslubunu cızan cizgilər, özünəməxsus keyfiyyətlər: "Hər taif bir ər dürlü görür imdi", "hər biri"bən alsam" deyib-deyür imdi", "bir neçələr" surətini görən" təkrirləri və s. var.

Bununla belə, burada əsrin dil, üslub mənzərəsini canlandıran, ümumi cizgilərini çəkən arxaik sözlər: *anı* (onu), *aydurlar* (dedilər, aydın etdilər, söylədilər), *qanqı* (hansı), *ol* (o), *kiçi* (kiçik), arxaik ifadə və sözlərin qədim tələffüz şəkilləri: *oğlannı alur, bilür, munı, eştib, kürsi üzə, əta qıldı, fida qıldı, hazır qıldı, satıba alur, yetkürsə, göltürür, olturur*... alınma ərəb, fars sözləri: *xalq, heyran, cəmal, kəmal, risalə, taif, hal, surət, mal, əta, fida, şəhid, risalət, iman, hökm, təqdir, hazır, münadi, qiymət, bəha, fəqir, cümlə, əttar, təmə* və s. var.

Poemanın bu ümumi dil və üslub mənzərəsini genişləndirən, ona müxtəlif səmtdən naxışlar vuran digər nümunələrə müraciət edək:

Yusifin itməsi və onun ölüm xəbərini eşitdikdə ata Yəqub huşunu itirir, özünə gələndə oğlunun köynəyini belə əzizləyir:

"Əqli gəldi, köləgini əlinə aldı,
Öpə-quca ağlayu nəzər qıldı" (4 b).

Oğlunu itirmiş dərdli-ələmli ata bu sözlərlə təskinlik tapır:

"Bən səbr qıluram, səbrim cəmil,
Səbr birlə Murad hasil olur imdi" (5 b).

Ürəyi dağlı ata oğlunun ölümünə, onu "qurt yediyinə" heç vəchlə inanmır, buna dəlil, sübut istəyir:

"Yəqub aydur: əgər eylə olur irsə,
Yusifi qurt yeyib həlak qılur irsə,
Əzasından bir nəsnə qalur irsə,
Ol əzanı bana alub gəltür imdi" (4 b).

Qardaşları onu qul adı ilə satarkən, Yusif onlara ancaq bu mənalı suallarla müraciət edir:

"Yusif aydur: imdi məni satarmusız?
Həsrət, qürbət odına yaqarmusız?" (8).

Məlik Doğar Yusifi qul kimi alıb, müqavilə kağızı yazılarkən, şair onun halını bircə beytlə verir:

"Yusif anı eşidübən qanın ağlar,
Həsrət odı için yağar, bağrın dağlar" (9 b).

Yusif anasının qəbri üstə gəlib öz halını ona izhar edir:

"Zarı qılıb aydur: anam Ümmürahil!
Bənim halım neçük oldı, gözün görgil...

Həsəd qıluban atamdan ayurdılar.
Firqət odın canıma qoyırdılar.
Ğürbət tonını əgimnə geyürdilər
Əl-adağım zəncir ilə bağlu imdi...

Anasının qəbrindən bir ün gəldi:
Ya Yusifim, halın netə beylə oldı?
Qardaşların bu işləri nedən qıldı?
Oğlum, sən bu hala netə düşdün imdi?

Canım oğlum, bu cəfanı netə bulduŋ?
Sana düşman olanlara nə suç qılduŋ?
Bu hal içrə bənim qəbrim üzə gəldüŋ?
Gorum içrə canım məcruh qılduŋ imdi" (11, 11b).

Şair Züleyxanın Yusifə məhəbbətinin yaddan çıxmaz bədii lövhələrini çəkir:

"Aqibət ol Yusifə aşiq oldı,
Gün gəldükcə, hər dəm eşqi artar imdi.

Bəd əzan tənindən qan aldurur olsa,
Həccam anıŋ tamarına nəşər salsa,
Ələlhal qan aquban yerə ensə,
Yer üzə "Yusif" atı yazulur imdi.

Müdam əgər köŋül taba nəzər qılsa,
Kök yüzində yulduzlar görür irsə,
Həman dəm Yusif anıŋ öninə gəlsə,
Ol yulduzlar, "Yusif" deyü, sözlər imdi" (24 b) və h.b.

Bütün bu misallar, müxtəlif ədəbi surətlərin nitq-danışığı, verilən suallar və cavablar, şairin öz səliqəsincə bunları yazıya alaraq, özünün də əlavə etdikləri və s. XII-XIII əsrlərdə ana dilində fikri ifadə tərzinin ümumi mənzərəsini cızır. O, əsrlərin dil, üslub və tarixi xüsusiyyətlərini lazımınca əks etdirən bu mətnlər bugün üçün də tamamilə anlaşılır, başa düşülür.

Poemanın dili şairin özünəməxsus fərdi dil üslubuna təzə rənglər vuran təbii və duzlu bədii təsvirlər, bənzətmə və epitetlərlə zəngindir. Elə yerlər də var ki, XII-XIII əsr şairinin dili, lap Vaqif dilinin, Vaqif ifadə tərzinin, Vaqif bənzətmə və epitetlərini xatırladır:

"Vüsalınnı dilərim bən can rahatı,
Cəmalıŋ quyaş kibidür, eşqiŋ qatı,
Surətiŋ əcəb türfə, lütfiŋ yiti,
Xəncər kibi bu çağdan keçər imdi...

Hilalə bəŋzər sənin qaşların var.
Saf yincüyə bəŋzər səniŋ dişlərin var.
Əcəb ziba saçlarıŋ həm dəğı var,
Bənim əlim urmagilən layiq imdi.

Əcəb türfə əzim nəhan zülflərin var.
Hələvətlü, mürüvətlü sözlərin var.
Ğəmzə qılsa, diləfzun gözlərin var.
Kirpiklərin bu çağdan keçər imdi....

Yaquta bənzər sənin yanaqların
Yaş almadan lətifraq sağaqların,
Bal şəkərdən datluraqdur dodaqların.
Vay, ayaqların genlimizi ötər imdi.

Yeni bitmiş dal çubuqdan barmaqların,
Lölə mərcandan düzülmüş dırnaqların,
Kafurdan dəği ağraq sokaların,
Əllərin hərirdən yumşaq imdi" (29, 29 b).

Maraqlı cəhət həm də budur ki, bu sözlər, bu sifətlər, bədii təyinlər Züleyxanın dilindəndir; bu sözləri oğlan qıza yox, qız oğlana deyir. Bu çox orijinal görünür.

Poemanın dil, üslub xüsusiyyətləri, bədii tərənnüm üsulları rəngarəng və çoxcəhətlidir. Şair Yusifin gözəlliyini təsvirdə daha maraqlı, yaddaqalan ədəbi üsul və vasitələrə müraciət edir. Məs.: şair Züleyxanın vurğunluğu və aləmə car olan məhəbbətinə haqq qazandırmaq üçün bir "səhnə" yaradır. rəfiqələri və qonum-qonşu Züleyxaya tənə edir, onu danlayırlar ki, özünü ələ al, bizi bədnam eləmə! Bu tənələrə, danlağa o, sözlə cavab vermir və ya verə bilmir, susur. Belə bir "əyani" vasitəyə əl atır: arvadların qabağına gətirib bir qab turunc qoyur və hərəsinə bir bıçaq verir ki, kəssinlər. Bu an Yusifi onların gözü önündən keçirir. Qadınlar Yusifi görüb özlərini elə itirirlər ki, "turunc sanıb" əllərini kəsib-doğrayırlar:

"Anlar Yusifə baqmağa uğradılar.
Əllərini kəsibən doğradılar;
Əllərin kəsdügin hərgiz duymadılar.
Ol övrətlər cümlə heyran qalurlar imdi" (33 b) və h.b.

Züleyxa haqlı çıxır; o öz eşq və məhəbbətini beləcə əyani yolla təsdiq edir:

"Züleyxa aydur: sizlər əyan gördiռizmü?
Bənim bənzim soldığını bildiռizmü?
Bir baqmaqdın əllərnizi kəsdüռüzmü?
Bixud olıb düşdüռüzmü sizlər imdi" (34).

Azərbaycan bədii-estetik fikir tarixində belə "əyani" şəkildə, canlı səhnə ilə gözəlliyi tərənnüm və həqiqəti təsdiqetmə çox orijinal keyfiyyətdir.

Poemada dil-danışıq tərzinə, üslubi keyfiyyətə müqayisəli şəkildə diqqət edək.

1) "Yəqub baqdı, ol məqamda avaz çıqar,
Bəs Yusifniռ fəraq odı bağrın yaqar,
Yarlı Yəqub yığılayu anda baqar,
Yusifimi görsəm deyü, istər imdi". (4)

2) "Rəvail aydur: veriռizlər minnət ilə!
Yoqsa, bir gəz nərə uram heybət ilə!
Cümlə həlak olasız cəmət ilə!
Ünüm eşdən canın təslim qılur imdi" (7b)

3) "Məlik aydur: əhvalını eyləռ əyan!
Neçə dürli eybi vardır, qılıռ bəyan!
Həm söz qələt olmasun, həm anda güman.
Səhih şərt dürüst satu qılam imdi" (8 b)

Burada XII-XIII əsrlərdə mövcud olan, təxminən üç danışıq tərzini görürük: 1) təhkiyə - nəqletmə, əhvalatı danışma, 2) xof gəlmə, hədələmə, 3) təkid, həqiqəti araşdırma. Biz bu nümunələri üç ayrı-ayrı fərddən - poemanın müəllifi şairin, əzazil qardaş qatili Rəvailin və tədbirli qul taciri Məlik Doğarın dilindən götürdük. Bu danışıqlarda müəyyən özünəməxsusluq, fərdi dil-danışıq xüsusiyyəti nəzərə çarpır. Başqa surətlərin dili-danışığında da bu cəhəti sezmək mümkündür.

Azərbaycan dilində fikri ifadə üsulları, qayda-qanunları və s. baxımından hər üç danışıq məqbuldur və qüsursuzdur. İstər sövti-fo-

netik, istər nəhvi-qrammatik, istər dilin lüğət tərkibi və istərsə də fikri ifadə üsullarının rəngarəngliyi, sözlərin tələffüz şəkli, deyilişi və cümlədə yeri, intonasiyası baxımından müasir dilimizdən fərqlənmir. Buna görə, müasir elmi qrammatika kitablarında dilimizin mövcud qayda-qanunlarının təsviri, təsdiqi və təqdiri üçün "Qisse-yi-Yusif" əsərinin dilindən istənilən fəsil və bölmələrdən istənilən qədər nümunə-misallar vermək olar. Əlbəttə, tarixilik, yəni o dövrün dil "mühiti", dil xüsusiyyətləri baxımından da burada yenə söz demək, fikir söyləmək mümkündür.

Poemada təkrar-təsdiq cümlə misralar, fikirlər diqqəti cəlb edir; "Dədə Qorqud"dan gələn bu məziyyət bir növ, fikri qabardan, diqqəti mühüm nöqtələrə yönəldən məntiqi vurğulardır.

Təkrar-təsdiq cümlələr poemada əsas iki məziyyətdə özünü göstərir.

1) Fikir təsdiqi mənada eynilə təkrarlanır. Məs.: ata Yəqub həqiqəti üzə çıxarmaq üçün Qurdu dindirir, ona "Ya qurt, Yusif ətin nə tək yedün?" sualı ilə müraciət edir. Qurd:

Peyğəmbər əti bizgə həram imdi (5b) -

deyə cavab verir.

Bu misra - cümlənin yenə qurdun dilindən ikinci dəfə təkrar-təsdiq mənada xatırlanması qoca Yəqubda qəti inam yaradır:

Peyğəmbərlər əti bizgə həram imdi (5b)

Yusifin acı kədərini verib, daxili aləmini açmaq, onun insani keyfiyyətlərini qabartmaq üçün eyni misra-cümləyə iki dəfə müraciət edilir: birdən-birə azadlıqdan qul vəziyyətinə düşmüş Yusifin insani duyğuları baş qaldırır, ata-anasını, sevildiyi, əzizləndiyi keçmiş günlərini xatırlayıb ağır-ağır kədərlənir:

"Bu həsrəti, aqibəti kim unutdacı?
Azad özüm bəndəligə düştüm imdi" (10)

Anasının qəbri üstə gəlib dərdini ona söylərkən eyni misra-cümlə bir daha təkrarlanır:

"Qardaşlarım satdı bəni bəyan bilgil,
Azad özüm bəndəlikgə düştüm imdi" (11)

Poemada səbrli, təmkinli olmaq leytmotivini qabartmaq, ön plana çəkmək üçün eyni misra - cümləyə iki dəfə müraciət edilir:

"Bən səbr qıluram, səbrim cəmil,
Səbr birlə murad hasil olur imdi" (5b)

Və yenə:

"Səbr ilə murad hasil olur imdi" (20b).

Yusifin gözəlliyi və görkəminin təsirli, nüfuzedici olduğu fikrini qabartmaq, ön plana çəkmək üçün eyni misra-cümləyə iki dəfə müraciət edilir:

"Andan ötdi, Bulus şəhrinə anlar girdi.
O şəhər əhli Yusifin görgin gördi (13 b)

Andan keçdi, Niyan şəhrinə anlar girdi.
Ol şəhər əhli Yusifin görgin gördi" (13b)

Züleyxanın və Yusifin gözəlliyini bərabər tutmaq, onları yaraşdırmaq, bir-birindən ayırmamaq üçün eyni bənzətmə - cümləyə iki dəfə müraciət edilir. Oxucuya təqdim edilərkən Züleyxa haqqında həmin bənzətməni şair deyir:

"Tolun Ay tik balqır idi anın yüzi,
Uçmax içrə hurliyinə bənzər imdi" (19)

Yuxuda görüb aşiq olduğu oğlanı təsvir edərkən eyni bənzətməni Yusif haqqında Züleyxa deyir:

"Dolun Ay tik balqır idi anın yüzi...
Ansız bana bu cahan xoş degül imdi" (20b)

Kənandan qayıtmış ərəbdən Yusif səbirsizliklə xəbər gözləyir, atasının hal-əhvalını bilmək üçün tələsir:

"Yusif aydur: ya ərəbi, nə deyürsən?
Qanca vardun, nə işin, nə aydursən?
Bu günahsız dəvəni (neçün) urursən?
Qandan gəldun cərünni vergil imdi" (37)

Yusif nigarandır. Şair bu nigarançılığı, Yusifin daxili narahatlığını qabartmaq, ön plana çəkmək üçün yenə eyni suallarla onun ərəbə müraciətini təkrar edir:

"Yusif aydur: ya ərəbi nə deyürsən?
Qanca vardın, nə işin, nə aydursən?
Bu günahsız dəvəni neçün urursan?
Qandan gəldun cərünni vergil imdi" (37)

Yusifin satın alındığı səhnədə təkrar-təsdiq cümlələr xüsusi şəkildə nəzərə çarpdırılır. Misir Əzizi nəyin bahasına olursa-olsun Yusifi alıb azad etmək istəyir. Yusifi özü ağırlığında "altun"a almağı sövdələşirlər; bu fikir iki dəfə təkrarlanır:

"Hər mətadan Yusif ağrı, olsun imdi" (22)

Və:

"Hər birisi oğlan ağrı, olsun imdi" (22)

Yusifi ümumiyyətlə, əslində insanı satmağın qeyri-mümkünlüyü, onun puldan, qızıldan, daha dəqiq deyilsə, dünyanın mal və dövlətindən "ağır" olduğu fikrini qabartmaq, ön plana çəkmək üçün eyni təkrar-təsdiq cümləyə dönə-dönə, üç dəfə müraciət edilir:

"Altun barı Yusif ağrı, olmaz imdi (22)
Tamam malı Yusif ağrı, olmaz imdi (22)
Degil malı Yusif ağrı, olmaz imdi" (22b) və h.b.

2) Fikir, görüləcək iş və onun icrası məzmunca təkrarlanır. Məs., xəyalən Yusiflə Xaliq arasında söhbət gedir, onlar belə bir razılığa gəlirlər:

"Xaliq aydur: yüz döndürib qaçmaq səndən,
Qüdrət birlə yeti qabığ açmaq bəndən" (32)

İş icra olunduqda, fikir yenidən xatırlanır:

"Xaliqğa sığındı Yusif qaçdı,
Qüdrət birlə yeti qabığ xaliq açdı" (32).

Yaxud, hamıya bildirilir, elan edilir ki, Yusifə xüsusi hörmət və ehtiram göstərilsin:

"Müdam anın buyrığından çıxman imdi" (13)

İş icra olunduqda, fikir yenidən xatırlanır:

"Heç kimsənə çıqmaz anın buyrığından" (13) və h.b.

Bütün bu keyfiyyətlər poemanın ümumi dil və üslub cizgilərini çəkir, özünəməxsus fikri ifadə və təqdimetmə üsullarını müəyyənləşdirir, əsər müəllifinin fərdi dil və üslub xüsusiyyətlərinin zənginliyini təsdiq edir...

3). Dil və nitq-danışıq mədəniyyəti

Şair ana dilində sadə, aydın nitqin, şirin, dadlı danışığın, sözün-söhbətin vurğunudur. O, qəhrəmanı Yusif Kənanı bu cəhətdən xüsusilə sevir və onu sevdirməyə çalışır.

Poemada maraqlı əhvalatlardan biri Yusifi qul kimi almağa gəlmiş Qarğa ibn-Talutla onun qarşılaşdığı səhnədir:

"Yusifə ol sorar: nə oğlansan?
Bən bilürəm, həqiqət qul degülsən.
Ayıtgil: kimsən, kimnin əslindənsən?
Qanqı sultan oğlısan? - deyür imdi.

Uşbu hallar hərgiz sana layiq degül,
Sən hərgiz qul dedügin bayıq degül,
Hər kim sana söz deməgə layiq degül,
Qanğı kişi sana baha tikrür imdi...

Ayıtkil bana, bu arada nə hikmət var?!
Əhvalın bana bəyan qılğıl imdi" (18).

Yusifə verilən sualların cavabı üzərində geniş dayanılmır, çünki bu suallara poemada əhvalatların gedişi cavab verir. Odur ki, burada verilən cavabın təsir gücü təsvir olunur. Başına gələn müsibətləri danışdıqca Yusifin "sərrast" kəlamı, "qəhərli", ələmli söhbəti dinləyicilərı nəinki mütəəssir edir, onlar nəinki göz yaşı axıdırlar, Yusif öz "dadlı", "şirin" nitqi, ağıllı və mənalı söz-söhbətilə get-gedə onların önündə yüksəlir, ağlının, kamalının artdığını da nümayiş etdirir:

"Sözlədikcə Yusifin qəhri artar,
Sözi tatlu, ləfzi şirin, əqli artar..." (13).

Şair dönə-dönə Yusifin nitqinə olan heyranlıq, aludəlik, onun söz ehtiyatının zənginliyi və keyfiyyətlərindən söhbət açır.

"Andan sonra salam verdi ol Rəyyana,
Yetmiş iki lüğət birlə sözlər imdi.
Dürlü-dürlü ol Rəyyana mədh qılur,
Sözin eşdən əcəbləyü heyran qalur" (42)

Züleyxanı məftun edən, eşq-məhəbbət alovunda yandırıb-yaxan da, ilk növbədə Yusifin "dadlı" danışığı, sözü-söhbətidir. Hələ yuxuda aşiq olarkən Yusifin dili, sözü-söhbəti onu heyran etmiş, bu dil-danışıq ona "bal", "şəkər" tək şirin gəlmişdi:

Bal, şəkər dik datlu idi anın sözi (20 b)

Onu həya, ismət götürsə də, ona ağır gəlsə də bunu Yusifin özünə etiraf etməyə məcbur olur:

"Züleyxa aydur: ya mehriban mürvətlu,
Xülqin lətif, yüzin yaxtu, sözün datlu (28 b)
Bu kəlam məcaz degül, bayıqdurur (28 b)
Qövlin, felin, eşqin yulaq datludurur (28b)

Və:

Söylər irsən sözləməgə sözün yaxşı,
Xaliq sana əta qılmış uşbu nəqşi.
Səni görüb kimin səbri qalur imdi?" (47) və h.b.

Poemanın digər qəhrəmanları da Yusifin zahiri yə daxili məziyyətlərinin vurğunudur. Hamı onu sevir, hamı ondan danışır, hamı onu dinləmək, səsini eşitmək istəyir.

"Məlik aydur: ya Yusif, yüzün mürvətlu,
Firiştə sifətlu, *sözün datlu" (22)* və h.b.

Saqi də etiraf edir ki:

"Anın ləfzi bana şirin gəldi imdi" (40)

Yusif özü deyir ki, Əziz ona görə onu alıb qul vəziyyətindən xilas edib ki, onun sözü, nitqi dili ona "lətif", gözəl, şirin, incə gəlib, çox xoş təsir bağışlayıb:

"Yusif aydur: bəni Əziz satun aldı,
Sözüm ol Əzizə lətif gəldi" (28 b).

İnsan üçün gözəl dil, nitq, danışıq qabiliyyəti əvəzsiz nemət olduğu kimi, gözəl söz eşitmək, şirin sözə-söhbətə qulaq asmaq da fərəhlidir, istirahətdir. Sevən qəlblərin dinib-danışmasından alınan zövq və mənəvi "rahatlıq" isə vəsfə gəlməzdir. Şair bu ali hissi necə də gözəl duyub, fikri necə də gözəl deyib, yerinə salıb ifadə edib: Züleyxa Yusifi dinlədikcə dinləmək istəyir, ondan zövq alır, bu ona ruhi qida verir.

"Yüzin lətif, kəlacın nə mürvətlu!
istəsəm bənim rahətim artar imdi" (29 b) və b.

Şair bütün bu təsvirlərilə demək istəyir ki, dil, nitq-danışıq mədəniyyəti insanın şüuru, ağlı ilə vəhdətdə təzahür edir; bir-birilə qırılmaz vəhdətdə olan bu məziyyət insanın insanlığını, insanın ləyaqətini nümayiş etdirir. Söz insanın "qapalı" daxili aləminin açа-

rıdır; insanın mənəvi saflığı, təmizliyi və ümumən mənəvi keyfiyyətləri, ilk növbədə, onun sözü, nitqilə aşkar olur. Buna görə, insanın dili ilə qəlbi bir olmalıdır. Söz nəinki düz olmalı, onda kiçik bir güman, şübhə yeri də qalmamalıdır.

Bu məziyyət, bir sənətkar kimi, şairin özünə də aiddir. Şair Əli dili ilə qəlbi, sözü ilə əməli bir olan sənətkardı.

Qəhrəmanı zahiri və mənəvi keyfiyyətlərinin vəhdətində götürüb, xüsusilə onun dilinə, nitq-danışıq mədəniyyətinə görə ona olan ehtiram və məhəbbəti tərənnüm səmtindən - təqdimat özü orijinal ədəbi üsuldur. Ola bilsin ki, **şair qarşısına məhz ana-türk dilində layiqincə yüksək səviyyədə danışmağın gərəkliyi və bunun vətən övladına hörmət, ehtiram, məhəbbət və şan-şöhrət gətirdiyi məsələsini qoymuşdur: ölkəyə rəhbərliyi də belə hərtərəfli, kamil adamlar etməlidir. Əgər belədirsə, poemada bu məsələ öz bədii həllini çox real şəkildə tapır.**

Poemada qoyulan növbəti problem bunun məntiqi davamıdır. **Ana dilinə hörmət etmək, onu yaxşı bilmək və bununla yanaşı, başqa bir və ya bir neçə dil öyrənməyin zəruri olduğu həmişə bizim klassik ədəbiyyatımızın təbliğ və təqdir etdiyi mühüm məsələlərdən sayılmışdır.** Şair qəhrəmanın şirin dilli, aydın və dürüst sözlü, "ləfzi qutlu" olması ilə öyündüyü kimi, onun çoxlu "yetmiş iki dil" bilməsilə də öyünür, ondakı bu üstünlüyü təbliğ və təqdir edir; Yusifin zahiri gözəlliyini onun daxili zənginliyi, mənəvi keyfiyyətlərilə tamamlayır:

"Əvvəl oldur, qəddi yuxşı, zərif üzlü,
Həm ikinci, bənzi yaxtu, görklü yüzlü,
Üçünci, dili fəsih, səhih sözlü,
Yetmiş iki dili tamam bilür imdi" (21 b).

Maraqlıdır ki, uzun ayrılıqdan sonra ilk baxışda Yusifi tanımayan qardaşları onun əqli və kamalının "rast"lığı, sözünün axıcılığı və rəvanlığına heyran qalır, bu məziyyətlərinə görə onun Yusifə bənzədiyini, Yusif olduğunu söyləyirlər.

"Əqli səhih, *dili fəsih, mürvətlu,*
Könül müşfiq, özi arlu, bənzi nurlu,
Kəmalı rast, *ərür sözi yulaq, datlu,*
Cəmalı Yusif siddiqə bənzər imdi" (49) -

Kiçik qardaş İbn-Yabin (Beniyəmin) daha cəsarətli çıxır:

"Aydur: *sənin sözin bana datlu gəldi.*
Bənim mehrim səndən yana qalib oldı...
Bir sözim var, söyləməgə dilim yarmaz,
Surətin xoş, Yusifə bənzər imdi" (53) -

deyir.

Buradan daha yeni bir problemə keçilir. Şair XII-XIII əsrlərdə ana dili, onun əhatə dairəsi, nitq, danışıq mədəniyyəti və bu mühüm həyati məsələlərin qoyuluşu, həlli problemlərinə toxunur. Qardaşlar onlara "dürlü nemət" verən, "ağır xələt geyirən" Yusifi tanımır, ondan "kimsən, kimin olğusan?" - deyə soruşurlar. Şair, yəqin mətləbə keçmək üçün:

"Anlar ilə ərəbcə söz sözlədi...
Nə sözlərsə, saqicə sözlər imdi" (49) -

deyə əlavə edir; vəziyyət elə gətirib ki, şahlıq taxtında, rəsmiyyət naminə o, "saqicə söyləyir" - öz qardaşları ilə ərəbcə danışmalı olur. İbn-Yabinin Yusifə verdiyi bu sual da mənalıdır:

"Ərəbcə xoş sözlərsən, *sözin datlu,*
***Uşbu dili neşə ögrəndün?* - deyür imdi" (52 b).**

Bizim üçün bu sualın cavabı maraqlı deyil; bu suala poemada əhvalatların gedişi cavab verir. Məsələ burasındadır ki, ərəb dili Yusifin ana dili deyil, sonradan öyrənilmə dildir...

Şairin bu cür - dövrün zəruri problemlərinə müraciət edib poetik üsulla onların həllinə çalışması mövcud vəziyyətdən doğurdu. Bunu dövr, zaman tələb edirdi. Azərbaycanın Atabəylər dövləti (1136-1225) başçıları, müəyyən mənada farspərəst olsalar da,

ümumi ruh anadilli qədim ənənələri dirçəldir, bərpa edirdi. "Qisse-yi-Yusif" kimi geniş həcmli əsərlərin yazılıb, dövrün bu cür mühüm problemlərinin qoyuluşu və həlli tamamilə real idi. Anadilli bədii əsərlər yaranırdı.

XII əsr və XIII əsrin əvvəlləri üçün belə ədəbi üsul və dəlillərin özü Azərbaycan bədii-estetik fikri və dili tarixində böyük mədəni nailiyyət idi.

***

"Qisseyi-Yusif"in dili min illər boyu inkişaf yolu keçmiş və XII-XIII əsrlərdə zirvəyə yüksəlmiş ədəbi dil nümunəsidir. Poemanın dili göstərir ki, o dövrdə Azərbaycan-türk dilinin sabit qrammatik qanunları vardı, onun cümlələri səlis, ifadələri yerində idi. Ad, adamlara əsl-nəsəbinə görə müraciət şəkilləri müəyyən idi; bunun ədəbi qaydada deyilişi və yazılışının qayda-qanunları qəti, bugünkü dilimiz baxımından tam yerində idi.

Bir-iki misal:

"Misir içrə ulu Məlik olur idi,
Anın adı *Məlik-bin Doğar* idi,
***Doğar oğlı ol Məlik* bir duş gördi,**
Müəbbirə təvilini sorar imdi" (6).

Bu misralar "Yusifin quyudan çıxarılıb satıldığı" fəslin başlanğıcıdır. Burada diqqəti daha artıq cəlb edən bir cəhətə fikir verək. Maraqlıdır ki, şair bircə bənddə bir xüsusi ismi iki şəkildə işlədib: əvvəlcə ikinci misrada *Məlik-bin* Doğar, üçüncü misrada isə dərhal onu ana dilinə çevirib *Doğar oğlu Məlik* şəklində verib. Təqdirə və xüsusi qeyd edilməyə layiqdir ki, sonra hər yerdə bu adın ancaq ikinci şəkli işlədilib: *Məlik və Məlik Doğar* və ya *Doğar oğlu.* Bu da mənalıdır ki, Yusif satıldıqda bağlanan "müqavilə"də - "biti"də yenə onun adı ana dilində *Doğar oğlu Məlik* yazılır.

Poemada bir sıra digər məşhur ərəb adları da belə türkcəyə çevrilib işlədilib: *Ömər Xəttab oğlu, Sabit oğlu Neman, Salam oğlu Əb-*

düllah, Yəqub oğlu Yusif, Yəqub İshaq oğlu,.. Deyərdik ki, ad məsələsi əsərdə problem səviyyəsinə yüksəlir. Hadisə və əhvalatlar Misirdə, Kənan elində baş versə də şair çoxlu Azərbaycan-türk adlarına müraciət edir; bunun üçün münasibət tapır. Məs., uzun ayrılıqdan sonra Yusif qardaşı Beniyəminlə (və ya İbn-Yabinlə) görüşür, halәhvallaşır, ilk növbədə onu qardaşının evlənib-evlənmədiyi, oğuldan-qızdan nəyi olduğu və onlara necə adlar verdiyi maraqlandırır:

"Andan sonra sorar, aydur: öyləndiñmü?
Aya qarındaşım, oğul-qızıñ buldımu?
Oğlanlarına atların atadıñmu?
Neşə dürlü atlar verdüñ, deyir imdi?" (55b)

Beniyəmin on iki oğlu olduğunu deyir və bir-bir onların adını sayır; bu adların əsərdə baş verən hadisə və əhvalatlarla bağlı, hər birinin müəyyən münasibətlə qoyulduğunu izah edir; bunların hamısı azərbaycancadır:

1) *Tenqiz // Dəniz* (qardaşının dərdindən dəzinlər kənarında çox ağladığına görə);
2) *Qurt* (əsərdəki "mehriban" qurd surətinə görə);
3) *Quyu* (qardaşı quyuya salındığına görə);
4) *Qan* (qardaşının qanlı köynəyi gəldiyinə görə);
5) *Kor* (atasının ağlamaqdan gözləri tutulduğuna görə);
6) *Dar* (ölkədə baş verən yeddi illik darlığa, qıtlığa görə);
7) *Bar* (ölkədə darlıqdan sonra gələn bara, bol məhsula görə);
8) *Arslan* (arslanları tutub qardaşını onlardan soraqlaşdığına görə);
9) *Muzdur* (qardaşını muzdurlar, qullar arasında aradığına görə);
10) *Qayğu* (qardaş qayğısından gecə-gündüz ağladığına görə);
11) *Qərib* (qardaşını qəriblərdən soruşduğuna görə);
12) *Qul* (qardaşı qul adı ilə satıldığına və qullarla mehriban olduğuna görə).

Sonuncu dörd adın qoyulması səbəbini Beniyəminin öz dilindən eşidirik:

"Həm qulları görücək ağlar idim,
Həm qəribləri görücək sorar idim,
Şol qayğuları görücək ağlar idim,
Həm qullara mehriban qıldım imdi" (56).

Yusif qardaşından oğlanlarına nə üçün belə adlar qoyduğunun səbəbini soruşur:

İbn-Yabin aydı: Cümlə sənin dərdin!!! (56) -

cavabını alır.

Poemada belə bir səhnənin verilməsi təsadüfi deyil, şüurlu idi. Bu, şairin güclü xəlqilik ruhundan, şair-vətəndaşlıq borcundan irəli gəlirdi.

Şair Əli bütün poema boyu bu yolla hərəkət edir, ana dilinin hüququnu hər vasitə ilə və hər yerdə qorumağa, üstün tutmağa, alınma söz və ifadələri dilin qrammatik quruluşuna, öz qayda-qanunlarına doğru çəkib tabe etməyə çalışır. Bu, deyərdik ki, ədəbi dilimizin, xüsusilə onun yazılı qolunun inkişafı tarixində misilsiz xidmət idi, sənətkarın xəlqi-milli üstünlüyü, onun bədii tərənnümü idi.

XII-XIII əsrlərədək, təxminən min il və bir qədər də artıq müddət ərzində farsdilli tayfalarla əlaqə-ilişkənliyə, bu və ya başqa münasibətlərə və beş yüz ilə yaxın bir vaxtda qatı ərəbçilik siyasətinə baxmayaraq, "Qisseyi-Yusif" poemasının dili göstərir ki, Azərbaycan dili öz varlığını qoruyub saxlamış, yad təsirlərə qarşı güclü mübarizə aparmışdır. Məsələn, beş min misralıq poemada təkrarolunma ilə 400-ə qədər ərəb-fars sözü işlənmişdir ki, əsərin ümumi həcmi və o dövr nəzərə alınsa, bu cüzi və əhəmiyyətsizdir. Dövr, zaman, istər-istəməz bu sözləri dilə, xüsusilə ədəbi-yazılı dilə gətirirdi. Şair özü buna meylli deyildi. Türk dilləri tarixən gəlmə söz və ünsürləri qəbul etmədən daha səlis, daha uyarlı, böyük əsərlər yarada bilib; bu dil heç bir dildən dilin canı sayılan bircə fel belə qəbul etməmiş, götürməmişdir. Tarixən təmizliyi, ülviliyi ilə diqqəti cəlb edib öz özlüyündə nadir incilər yaratmışdır; qədim nəğmələr, ağılar, mahnılar, "Orxon-Yenisey" yazıları, "Dədə Qorqud kitabı", "Qutadğu bilik" və b. belə əsərlərdir.

Doğma ana dilinin vurğunu, mahir bilicisi olan şair Əli ərəb-fars dillərini mükəmməl bilirmiş. Şair başqa ahəngdə, başqa sistemdə olduğuna baxmayaraq, ərəb-fars sözlərini ana dilində yazdığı əsərin misra və beytlərinə məharətlə tabe etmiş, qəlibə salmışdır. Hətta şair bütöv bir ayə və ya ərəbcə misalı seçdiyi 12 hecalıq şerin ölçü-biçiminə salır. Bununla o, doğma dilin imkan və qüdrətini bu mənada da göstərə bilibdir.

4). Abidənin dilinin tarixiliyi

Hər bir kitabə yarandığı dövrün məhsuludur. Buna görə, dövrünün dil və üslub xüsusiyyətlərini də əks etdirir. Bəzən isə elə olur ki, tarixi, dövrü naməlum bir kitabənin dili, üslubu onun tarixini, dövrünü müəyyənləşdirməyə kömək edir. Burada dialektik həqiqət var.

"Qisseyi-Yusif" XIII əsrin başlanğıcında yazılıb tamamlanmışdır. Bu o deməkdir ki, XII əsrin sonu və XIII əsrin əvvəllərinin dil, üslub və leksik xüsusiyyətləri burada öz əksini tapıb; elə sözlər, elə ifadə tərzləri, hətta şəkilçilər var ki, həmin dövrlə, tarixlə bağlıdır; o vaxtlar işlək olub, zaman keçdikcə, ya tamam sıradan çıxıb, ya da öz şəklini, ifadə tərzini dəyişib müasir dövrə gəlib çatmışdır. Belə sözlərə ümumi istilahla "arxaizmlər" deyirik. Arxaizmlər dili müəyyən tarixə bağlayan, dilin, üslubun müəyyən dövrlə bağlı məziyyətlərini açmağa, tədqiq etməyə kömək edən sözlər, ifadə tərzləridir ki, bunlardan dilin "qədim sözlər"i deyə də bəhs edilir.

Poemanın dili, təbii olaraq, müasir dilimiz üçün arxaik sayılan bu qədim Azərbaycan sözləri - arxaizmlərlə zəngindir. Məs.:

"*Uçmax* verüb *tamuğ* otın satun alman
***Tamuğ* içrə baqi qalman sizlər imdi" (I)**

Və:

"Uzun saçım *darayuban* kim *ördəci,*
Məğmunlığım, məhzunlığım sordacı?" (10)

Misallardakı *uçmax* (cənnət), *tamuğ* (cəhənnəm), *ördəci* (örəcək, örəcəkdir), *sordacı* (soracaq, soruşacaq, soruşacaqdır) arxaizmləri habelə müasir dilimizin *verib, odun* (odunu), *almayın, qalmayın, darayıb* deyiliş və ifadə şəkilçilərinin *verüb, otın, alman, qalman, darayuban* şəkilləri bu mətnləri uzaq keçmişə bağlayır, onlara tarixilik keyfiyyəti verir. Məs.: *ördəci, sordacı* sözlərindəki müasir *acaq, əcək* mənasında işlənən *dacı, dəci* arxaik şəkilçilərinə hələ V-VIII Orxon-Yenisey kitabələrində təsadüf edilir.

Bu tarixilik təkcə ayrı-ayrı arxaik söz və şəkilçilərdə deyil, birləşmələrdə, ifadə tərzlərində, bəzən bütöv cümlə quruluşlarında da müşahidə edilir. Məs.:

"Yalançıdur, heç sözinə *inanmağıl!*
Əsirgəbən mehribanlıq *eyləməgil!*
Heç ana sən edhkü *söz sözləməgil!*
Təam arpa ətməgini *vergil* imdi (9)

Ağlamaqdan *iki gözi görməz oldı.*
Zəiflıqdan *sünükləri durmaz oldı.*
Heç qanca *iş-gücə varmaz oldı.*
Hər dəmət ol Yusif deyü aqlar imdi" (36 b)

Bu mətnlərdə iki arxaik ifadə tərzi diqqəti cəlb edir:

1) inanmağıl, eyləməgil, söz sözləməgil, vergil; 2) gözi görməz oldı, sünükləri durmaz oldı, iş-gücə varmaz oldı. Hər iki ifadə tərzi poemanın dil və üslub əsaslarını nəinki XII-XIII əsrlər, daha qədim dövrlərlə bağlayır, V-VI əsrlərə və daha əvvəllərə aparıb çıxarır. Məs.: müasir dil baxımından burada "Gözi görməz oldı, iş-gücə varmaz oldı" ifadə tərzləri bizə daha yaxındır, forma qədim olsa da, fikir anlaşıqlıdır. Bu formaya, təxminən eynilə V-VIII əsrlər "Orxon-Yenisey" kitabələrində: "Görər gözii görməz tək, bilər biligim bilməz tək bultı" (Kt.33) və VI-VII əsrlər "Dədə Qorqud" kitabəsində: "Dəli Domrulın görər gözi görməz oldı. Tutar əlləri tutmaz oldı" (157) rast gəlirik. Eyni mövqedən yanaşdıqda mətnlərdəki digər arxaik ifadə tərzləri bundan da qədim dövrlərlə bağlı olmuş olur.

Azərbaycan yazılı ədəbi dilində işlənmiş, indi isə arxaik olan ifadə şəkilləri XII-XIII əsrlərədək, heç olmasa, canlı dildə, danışıqda neçə əsrlik yol keçməli idi ki, bu cür şəkildən-şəklə düşə bilsin. Bunun üçün o vaxtadək yüz illər və bəlkə də, min illər lazım idi...

"Qisseyi-Yusif"də işlənən qədim Azərbaycan sözləri ondan əvvəlki ümumtürk kitabələrində, xüsusilə, "Dədə Qorqud"da geniş şəkildə müşahidə edilir. Tədqiqatımızı "Orxon-Yenisey" kitabələri, habelə S.Y.Molovun "Lüğəti" (207, s.353-444), "Dədə Qorqud" və "Divanü lüğat-it türk"lə müqayisəli şəkildə aparırıq ki, XII-XIII əsrlər Azərbaycan dilinin qaynaqları və daha qədim dövrlərlə bağlılığı, əlaqəsi və s. barədə müəyyən təsəvvür yarada bilək.

Əsərdə işlənən qədim sözləri əsasən iki yerə ayırmaq olar.

a) unudulub dildən çıxmış sözlər

Bu sözlərə müasir dilimizin lüğət tərkibində rast gəlmirik. Bunlar ancaq qədim kitabələr, klassik ədəbiyyatımız, habelə xüsusi lüğət kitabları və tədqiqat əsərlərində müşahidə olunur.

Məsələn:

Ağ(maq) - qalx(maq), yüksəl(mək).

"Ol məzlummın münacatı göggə *ağdı*,
Ərş Tanrısı bizlərə bəla verdi" (12b).

Anı eştib Züleyxanın əqli şaşdı,
Fəryad qılıb, *ağınuban* yerə düşdi" (20).

"Orxon-Yenisey"də *ağ, ağ+ımğa, ağ+dı:* "Ağımğa altmış at bintim - Altmış atın üstünə qalxıb mindim" (Yn.41) "Yışqa *ağdı* - Qaragüruh üstünə çıxdı" (BK.37), "Dədə Qorqud"da *ağ+dı:* "Şahin pərvaza ağdı. Gözlədilər" (272). Mahmud Kaşğarlıda *ağ, ağ+maq, ağ+dı, ağ+ar, ağ+duq, ağ+gil*... "Ol tağqa *ağdı* - O, dağa qalxdı" (I, 173), "Tağqa *ağgil* - Dağa çıx" (II, 43), "*Ağdı* qızıl bayraq, Toğdı qara topraq - Yüksəldi qızıl bayraq, Dirçəldi qara torpaq" (III, 183).

Ağır, ağırla(maq) - qiymətli, dəyərli, möhkəm, əzizlə(mək), hörmət et(mək), ehtiram göstər(mək...).

"Yusifi götürübən qonaqladı,
Yoldaşları birlə cümlə *ağırladı* (14-14b)
Yusifi *ağırladı*, hörmət qıldı" (24).

"Orxon-Yenisey"də *ağır // ağur:* "Bunca *ağır* törük - Bunca möhkəm qayda-qanun" (Moq. 2); "Azğanaz ər *ağır* bədismis - Azğanaz kişi yaxşı bəzənmiş" (A.3.). "Dədə Qorqud"da ağır, *ağır+la, ağır+lar, ağır+ladı, ağır+lıq: "Ağır* xəzinəsini, bol aqçasını yağmaladılar" (38), "Dügün etdi, Qalın Ouz bəglərin *ağırladı"* (200), "Taş Oğuz bəglərinə *ağırlıq* edüb toyladı" (294). Mahmud Kaşğarlıda *ağır, ağır+lan, ağır+lıq:* "Təŋri məni *ağırladı* - Tanrı məni əzizlədi" (I, 53), "Ər *ağırlandı* - Ərə hörmət edildi" (I, 291), "Məni *ağırla* - Mənə hörmət et" (III, 344)...

Ay(maq) - de(mək), söylə(mək), aydın et(mək)...

Ya Yusif, sən baŋa nə *ayıtursan?*
Sən buyursaŋ, bən anı qılam imdi" (14 b).

"Saqi *aydur:* bən duşımı eylə gördim,..
Xəbbaz *aydı:* bən dəği bir duş gördim" (35)...

"Orxon-Yenisey"də *ay, ay+dı, ay+ğuçı, ay+u gəlti:* "Bilkə Ton-yukuk baŋa *aydı*" (Ton.31), "Qağanı alp ərmis, *ayğuçısı* bilgə ərmis - Xaqanı igid idi, məsləhətçisi bilikli idi" (Ton.10), *"Ayu* gəlti - Söyləyə gəldi" (M.27). "Dədə Qorqud"da *ay+ıt // ay+ıd, ay+ıtdum, ay+ıtdı, ay+ıtur, ay+ıtdılar, ay+ıtayım, ay+ıtuŋuz, ay+ıta, ay+ıdan, ay+ıtdığında...:* "Elüŋüzdə çalıb ayıdan ozan olsun!" (5), "Dirsə xan *aydır*: Bayandır xan bənim nə əksikligim gördi" (11), *"Ayıtdı:* Nə olursa-olsun hələ mən avımı alayın - dedi" (76). Mahmud Kaşğarlıda *ay, ay+dım // ay+dum, ay+dın, ay+dı, ay+ur, ay+ın, ay+mış, ay+gil, ay+tur, ay+turdı, ay+turur, ay+ıttım, ay+ıttı, ay+ıt, ay+ıtur...:* "Çin *aydıŋ* - Doğru söylədin" (I, 339), "Bu söz soŋunda *aygil* - Bu sözdən sonra söylə" (III, 367)...

Alda(maq) - aldat(maq), kələk gəl(mək), hiylə qur(maq)...

"*Aldayuban* Yusifi alduqların,
Tonun soyıb dar quyuya adduqların",..(53b)

"Biz *aldayuban* Yusifi səndən alduq,
Yenə qul deb anı yıraq yerə satduq" (64b).

S.Y.Malovda "hiylə", "hiyləgər (Pam., 356) mənalarında *al, al-cı,* "Dədə Qorqud"da aldayuban: *"Aldayuban* ər tutmaq övrət işidir" (291). Mahmud Kaşğarlıda *alda, alda+dı, alda+r, alda+maq.* "Ol yağını aldadı - O, düşməni *aldatdı"* (I, 273).

Alb // alp - igid, cəsur, qəhrəman, bahadur...

"Beşinci, *alb* yürəklü, həm heybətlü.
Altıncı, qamulardan qatı qutlu" (22)

"Orxon-Yenisey"də *alp, alp+ın, alp ər, alp qağan:* "Biz uya *alp ər* - Biz nəsilcə igid ərlərik" (Yn.28), "Kanın üçün, *alpın* üçün, ərdəmin üçün - Xan üçün, qəhrəmanlıq üçün, mərdlik üçün" (Yn.31), *"Alp ər* - İgid ər" (0.3), *"Alp qağan* - igid xaqan" (On.4). "Dədə Qorqud"da *alp, alp+um, alp+umuz, alp+unuz, alp+ları, Alp Ərən, Alp Rüstəm: "Alp* ərə qorxu vermək eyib olur" (176), "Məgər xanım, Uşun Qocanın kiçi oğlı Səgrək eyü bahadır, *alp,* dəlü yigit qopdı" (256). Mahmud Kaşğarlıda *alp, alp+ın, alp+lar, alp+təkin: "Alplar* başın toğradım - İgidlər başın doğradım" (I, 125), *"Alplar* birlə uruşma, bəglər birlə turuşma - İgidlərlə vuruşma, bəylərlə duruşma" (I, 182).

Arığ - təmiz,..

"*Arığ* yuvunub sudan tışra gəldügindən
Hüllə geyib könli şad, kam olduğından,.." (16b).

"Orxon-Yenisey"də *arığ:* "Ol sabığ esidip, bəglər kopan yanalım! *Arığ* obutı yig, tidi - O, sözü eşidib bəylər hamısı dedi: qayıdaq! Təmiz abır-həya yaxşıdır" (Ton.37), "Dədə Qorqud"da *arı:*

"Qalın Oğuz bəgləri *arı* sudan abdəst aldılar" (120). Mahmud Kaşğarlıda *arı // arığ: "Arığ:* təmiz mənasını verir" (I, 18); *"Arığ: arığ* nəռ - təmiz şey" (I, 63).

Bozla(maq) - bağır(maq), böyür(mək), böyürərək ağla(maq).

"Yusif anda idügini tava bildi
Ya Yusif, deyü *bozladı,* zarı qıldı" (36b)

S.Y.Malovda *bozutçı* (Pam., 373). "Dədə Qorqud"da *bozla, bozla+r, bozla+dı:* "Uruz aydır: qadın ana! Qarşum alub, nə bəgrərsən?! Nə *bozlarsan,* nə ağlarsan?!" (54). Mahmud Kaşğarlıda *bozla, bozladı, bozla+r, bozat, bozla+ttı, bozla+tur, bozla+maq:* "Ol totunı *bozlatı* - O, dəvə balasını bağırtdı" (II, 341), "Titir *bozladı* - Dişi dəvə bağırdı" (III, 291).

Qaqı, qaqır(maq) - əsəbi, hirsli, qəzəblə çağır(maq)
"Münadilər uluğ ün ilə *qaqırdılar:*
Bu oğlannı kimdür satun alur, derlər" (21b)

"Dədə Qorqud"da *qaqır+san, qaqır+di, qaqı+yup, qaqır+duğın:* "Çoban aydır: nə *qaqırsan* baռa, ağam Qazan!" (48), "Bunı gördi Qazan bəgin xatunı boyu uzun Burla *qaqdı*" (112). Mahmud Kaşğarlıda *qaqı, qaqı+dı, qaqı+r, qaqı+maq:* "Ol andın *qaqıdı* - O, ondan hirsləndi" (III, 269).

Qanca - hara, haraya, hayana.
"Yusif aydur: ya ərəbi nə deyürsən?
***Qanca* varduռ, nə işiռ, nə edürsən?" (37).**

S.Y.Malovda *qanca* (Pam., 411). "Dədə Qorqud"da *qancaru:* "A bəglər! Oğlan qancaru getdi ola! - dedi" (134). Mahmud Kaşğarlıda *qanca:* "Yılan yarpuzdın qaçar, *qanca* barsa, yarpuz uqru gəlür - İlan yarpızdan qaçar, hara getsə, ona qarşı gələr" (III, 40).

Qat - yan, hüzür, qarşı, ön.

"Qüddüs məliki Yusifiռ *qatına* gəldi.

Məlik Doğar ol məlikdən dəstur aldı" (15).
"İbn-Yabin *qatıŋızda* nə suç qıldı?
Nə mənidən anı məhbus qılduŋ imdi?" (60b).

"Dədə Qorqud"da *qat, qat+ına, qat+ında:* "Xaṇ babamıŋ *qatına* bən barayım. Ağır xəzinə, bol ləşgər alayın" (25). Mahmud Kaşğarlıda *qat, qat+ın, qat+ında:* "Bolgil kişiğ bəglər *qatın* yaxşı ulan - Bəylər yanında yaxşı işəyarar kişi ol" (I, 64).

Qoşar, qoşarğuçı - şer qoşan, yazıçı, şair.

"İsraildən həsrət ilə ayrulmağı,
***Qoşarğuçı qoşarmağa* qanqısı imdi?" (8)**

"Bəs Məsalim ol saraya girdi isə
Ol *qoşar* qarşusına gəldi isə..." (54b)

"Dədə Qorqud"da *qoş, qoş+ursan, qoş+dı:* "Bunı eşitcək Banıçıçək qaqdı aydır: Mərə, dəlü Ozan, mən eyiblümiyəm, maŋa eyib *qoşursan?" (115).* "Dədəm Qorqut boy boyladı, söy sözlədi, bu oğuznameyi düzdi, *qoşdı" (34).* Mahmud Kaşğarlıda *qoş, qoş+dı, qoş+ar, qoş+uğ:* "Ol yır *qoşdı* - O, qoşma qoşdu" (II, 14).

Qır - çöl, düz, əkin yeri, yastı dağ.

"Bağrı yanar, qanın ağlar ikən fəraq,
Ağlar ikən müdam *qıra* baqar imdi" (10b)

"Dədə Qorqud"da *Ərqıc qır+da, Ortac qır+da: "Ərqıc qırda* döndərdigim, mərə kafir, sənin babaŋ" (279). *"Ortac qırda* sizin keyiklərinüz turğurmaya" (280). Mahmud Kaşğarlıda *qır: "Qır:* basıq dağ, açıq yer" (I, 324).

Qut, qutlu - uğur, dövlət, bəxtli, taleli.

"Ol Şəmunnıŋ *qutı* ol qədir idi,
Yügrüb, yetib arslanları dutar idi" (60).

"Toquzıncı, xülqi lətif, ləfzi *qutlu.*
Onuncı, peyğəmbərlər nəsli imdi" (22).

"Orxon-Yenisey"də *qut, qut+ı; qut+ım, qut+luğ:* "Tənri yarlıqaduqın üçün, özim *qutım* bar üçün qağan olurtım - Tanrının rəhminə görə özümün də bəxtim var deyə xaqan oldum" (KTm.9). "Dədə Qorqud"da *qut+lu, qut+suz, qutlu Məlik:* "Dibdə oturan xas bəglər! *Qutlu* olsun dövlətiniz! - dedi" (110). "Qız aydır: qədəmi *qutsuz* gəlin deyincə, udsuz gəlin desünlər" (262). Mahmud Kaşğarlıda *qut, qut+ı, qut+uğ, qut+luğ, qut+luğqa, qutluğ təkin:* "Uluğnı uluğlasa *qut* bulur - Ulunu ulu sayan dövlət sahibi olar". (I, 304).

Diziş(mək) - düzül(mək), sıralan(maq), birləş(mək).

"Misir içrə bir neçə urağutlar
Bunı eşdüb bir-birinə *dizişdilər" (33).*

"Dədə Qorqud"da *dizil+mişdi:* "Altun ayaq surahılar *dizilmişdi" (36, 123).* Mahmud Kaşğarlıda *tiziş, tiziş+di, tiziş+ür, tiziş+mək: "Tizişdi.* "Ol mənin birlə yincü *tizişdi* - O, mənimlə inci düzüşdü" (II, 100).

Dün // tün, dün-gün - gecə, gecə-gündüz.

"Ol *tün* üç yüz altmış yol bihuş oldı.
Əqli gah gəlübən, gah getər oldı" (4).

"Yeməkdin, içməkdin məhrum qaldı,
***Düni-güni* Yusifi ögər imdi" (19 b)**

"Orxon-Yenisey"də *tün: "Tün* yazı konayın - Gecəkən yazıya qonaq (çataq) - (KTm.7); "Ol sabığ esidip, *tün* udısıqım gəlmədi - O sözü eşidib gecə yuxum gəlmədi" (Ton.12); *"Tün* qatdımız - Gecə dayanmadan getdik" (Ton.35). "Dədə Qorqud"da *dün, dün+lə, dün+in, dünli+günli: "Dün* qatdı, yort eylədi, üç gün *dünli-günli* yortdı" (263). Mahmud Kaşğarlıda *tün, tün gün, tün+i, tün+lə, tün+ə, tün+ədi, tün+ər, tün+ərdi... "Tün:* gecə, *"Tünlə* gəldim - gecəkən gəldim" (I, 339). *"Tün gün* birlə qarıştı - Gecə gündüzlə qarışdı" (II,97).

Duş - yuxu, vaqiə.

"Züleyxa aydur: yatuban uyur idim,
***Duşım* içrə bir ziba surət gördim" (19)**

"Bir *duş* gördi Misir şahı Məlik Rəyyan,
Müəbbirlər bu *duş* içrə qaldı heyran" (39b)

S.Y.Malovda *tuş* (*Pam.*, 436), "Dədə Qorqud"da *duş, duş+ı, duş+ımı, duş+ımda, duş+ın, duş+ında:* "Məgər ol gecə Yegnək *duş* gördi. *Duşın* yoldaşlarına söylədi" (206), "Xanım qardaş! Mənim bu *duşumu* yorğıl mana - dedi" (43). Mahmud Kaşğarlıda *tuş: "Tuş: duş*, yuxu. *"Tuş* yordı - Yuxu yozdu" (III, 125).

İlət(mək) - götür(mək), götürüb apar(maq) və s.

"Yusifi sizlər məndin dilədiniz,
Alıb *ilətib* anda həlak elədüniz" (5).

"Dədə Qorqud"da *ilət, ilət+dilər, ilət+miş, ilət+əyin, ilət+ün, ilət+ələm, ilət+sünlər, ilət+məsünlər:* "Vardılar, kömləgi Banıçiçəgə *ilətdilər" (94),* "Qoy ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının önünə *ilətsünlər" (53).* Mahmud Kaşğarlıda *ilət, ilət+ti, ilət+ür, ilət+ip:* "Ol qaqun evgə *ilətti* - O, evinə qovun götürdü". Başqası da belədir; *ilətür, ilətmək" (I, 214).*

İr(mək) - et(mək), ol(maq), izlə(mək), yet(mək), var(maq), çat(maq).

"Əgər sən bundağ duş gördün isə,
Duşın içrə ol məqamə *irdün* isə,
Həqiqətən, sən ol duşı *irdün* isə,
Bir şərif qul əlinə girər imdi" (6).

"Orxon-Yenisey"də *ir // er, irsər // ersər, erdük, er+ti // ir+ti:* "Keyik yiyü, tabısğan yiyü olurur *ertimiz* - Keyik yeyib, dovşan yeyib yaşadıq" (Ton.8), "Girür *erti* - Girirdi" (0a 4), "Baqırı bunsız *erti* qara saçın tək - Onun pulu qara saçı tək saysız idi" (Yn.26). "Dədə Qorqud"da *ir+di, ir+dilər, ir+sün, ir+übən, ir+məzəm, ir+məyincə, ir+məyən:* "Dədə Qorqud"un ardından Dəli Qarcar irdi" (84), "Ol ögdügün yuca Tanrı dost oluban mədəd *irsün!" (35),*

"Anа *irübən* qondılar" (202). Mahmud Kaşğarlıda *er, er+dim, er+din, er+ür, er+sə:* "Ol məni suvdın keçrükli *erdi* - O, məni sudan keçirənlərdən idi" (II, 169).

Poemada "ir" sözü "irdi // erdi" şəklində "idi" köməkçi feli mənasında da işlənir, bəzən özünü "idi" köməkçi felilə yanaşı göstərir. "Ayda bir gəz Yusif nəbi çıqar *irdi.* Görklü yüzdən niqabın soyar *irdi" (43 b).* Yenə eyni səhifədə, eyni məzmunlu digər misra: "Əziz Yusif ayda bir gəz çıqar idi"...

Eş - yoldaş, dost, həmdəm, müttəfiq.

"Bir neçəsi firiştələr gəlmiş idi,
Quşa bənzəş Yusifə *eş* olmış idi" (6b)

"Orxon-Yenisey"də *es//is//eş//iş:* "İltəris qağan bilik *esin* üçün, alpın üçün Tabğacqa yeti yegirmi sünüşdi - Eltəris xaqan bilik qazanmaq üçün, igidlik üçün tabğaclara on yeddi dəfə hücum etdi" (Ton. 48)... "Dədə Qorqud"da *eş, eş+üm*: "Hey qırq *eşüm,* qırq yoldaşım!" (190). Mahmud Kaşğarlıda *eş, eş+in, eş+lik: "Eş:* dost, yoldaş" (I, 47).

Əsən - sağ, sağ-salamat.

"Xəbər sordı Cəbraildən ol İsrail:
Yusifim *əsənmü?* - deyirsər imdi" (59b).

"Orxon-Yenisey"də *əsən:* "Bağım gəlip *əsən* enip, anlanıp - Əslim gəlib, sağ-salamat enib anlayıb" (Yn.38), "Dədə Qorqud"da *əsən, əsən+misin, əsən+misiz; əsəndür:* "Bəg ərənlər *əsən* olsa oğlı toğar. Sən *əsən* ol, anam *əsən* olsun. Məndən yegrək qadir sizə oğul verər" (145), "Qoca bəg oğullarına qarşu gəldi: Xoşmısız, *əsən*misiz, oğullarım? - dedi" (271). Mahmud Kaşğarlıda *əsən, əsən+də, əsən+lədi, əsən+lər: "Əsən:* sağ, səlim. *"Əsən+msən?* - Sağmısan?" Bu kəlmə "səlamət" mənasında da işlənir" (I, 77).

Yavız // yavuz - müdhiş, yava, acıqlı

"Ah, ol yerdə bir *yavuz* qurt var imiş,
Həqiqət, Yusifi ol yemiş" (4 b).

"Əziz anda hazır idi, anı gördi,
Züleyxanın bənzi *yavız* düşmüş idi" (32)

S.Y.Malovda *yavuz // yavız* (Pam.386) "Dədə Qorqud"da *yavuz*: "Ol bir *yavuz* canavardır" (87). "*Yavuz* yerlərə yeltəndin qayıda döngil! Ağ saqqallı babanı, qarıcıq olmış ananı bozlatmağıl! - dedi" (176). Mahmud Kaşğarlıda *yavuz, yavuz+ı, yavuz+la, yavuz+ladı, yavuz+lar, yavuz+lan, yavuz+landı, yavuz+lanur:* "Ol *yavuzladı* nənni - O şeyi pislətdirdi", *yavuz+lar,* yavuzla+maq" *(III, 342).*

Yazu - çöl, oba, düzənlik, səhra.

"Yəhudə ol *yazuya* hər gün çıqar,
Ol quyuya varuba hər gün baqar" (5 b)

"Orxon-Yenisey"də *yazı:* "Anda sancdım, Sələnəgə sıqa sancdım, *yazı* qıltım - Onda sancdım (qələbə çaldım), onları Sələnəyə sıxıb məğlub etdim, düm-düz elədim" (MC 16). "Dədə Qorqud"da *yazu // yazı, yazı+da, yazı+dan, yazı+sında, yazu+yı:* "Dirsə xan! Görürmüsən oğlanı! *Yazıda* - yabanda keyiki qoar, sənin önünə gətürər" (22), "Qalqar bizə gen *yazuyı* tar göstərər - dedilər" (266). Mahmud Kaşğarlıda *yazı, yazı+da, yazı+dakı, yazı+n: "Yazı*: yazı, boşluq, açıqlıq, düzənlik" *(III, 24), "Yazıda* böri ulısa, evdə it bağrı tartışır - Çöldə qurd ulasa, evdə itin bağrı sızlar" *(III, 255).*

Yazuq, yazuqlu - günah, təqsir, günahkar, təqsirli

***"Yazuq* qılan kimsənəniz tövbə qılın,**
Yoqsa, həlak olduq qamu bizlər imdi" (12b)

"Yusif aydur: aya Əziz, oldur suçlu,
Həqiqət, bən ərvən, ol *yazuqlu*" (32b)

"Orxon-Yenisey"də *yazıq, yazuq+lığ, yazuq+lat*: "Anta sancdım. *Yazuqlığ* atlığ... - Onda sancdım (qələbə çaldım). Günahkar adlı-sanlı..." (MÇ. 14). "Dədə Qorqud"da *yazuq+ı:* "Mənim üçün gəldünsə, oğlancığım öldürmüşəm, yigit, sana *yazuğı* yoq, döngil gerü! - dedi" (33). Mahmud Kaşğarlıda *yazuq, yazuq+ın, yazuq+ı*

na, yazuq+tın, yazuq+lığ, yazuq+sız: "Anın *yazuqın* ertürdi - Onun günahından keçdi" (I, 220), "Ot tütünsüz bolmas, yigit *yazuqsız* bolmas - Od tüstüsüz, igid günahsız olmaz" (I, 400).

Yor(maq) - yoz(maq), məna ver(mək).

"Müəbbir aytur: olturğıl bu yanımda,
Yorayım duşunnı təbirimdə,
İki qızıl altun qoyğıl bu yanımda,
Bu işinni mübarək yorayım imdi" (6).

S.Y.Malovda *yor, yor+çı, yor+ğıçı* (Pam., 389) "Dədə Qorqud"da *yor, yor+qıl, yor+sun, yor+a bilmən:* "Xanım qardaş! Mənim bu duruşumu *yorğıl* manna - dedi", "Saç qayğudır. Qan qadadır. Qalanısın *yora* bilməm, allah *yorsun* - dedi" (43). Mahmud Kaşğarlıda *yor, yor+dı:* "Tuş *yordı* - Yuxu yozdu" (III, 125).

Gəz - dəfə, səfər.

"Yusif aydur: bu *gəz* iş andan keçdi (23)
Bu *gəzin* həzan şiddətə təbir oldı.
İbn-Yabin, həm Yəhuda anda qaldı" (60).

S.Y.Malovda *gəzik, gəziklik* (Pam., 393) "Dədə Qorqud"da *gəz:* "Sudan keçdi. Bu *gəz* bir qurda tuş oldı" (45), "Bu *gəz* Beyrək qızın belinə girdi" (79). Mahmud Kaşğarlıda *gəz* ancaq "Ok *gəzi"* mənasında işlənib (I, 326, III, 106).

Güz - payız.

"Telim müddətlər kob keçdi, anda *güzin*
Ol Züleyxa Qənzəfrdən saqlar özin" (21)

S.Y.Malovda *küz* (Pam., 398), "Dədə Qorqud"da *güz: "Güz* almasına bənzər al yanaqlım" (12). *"Güz* alması kibi al yanaqın yırtdı" (94). Mahmud Kaşğarlıda *"güz:* payız mövsümü, son bahar" (I, 327), *"Güz* gəliki yazdın bəlgürər - Payızın gəlişi yazdan bəlli olar" (II, 172).

Görk, görklü - gözəl, göyçək, görkəmli.

"Bunuñ qədri hərgiz anа bənzəriş degül,
Anuñ bundan *görki*, qılığı artuq imdi" (20b).

"Bu oğlannı kim satun alur, derlər.
***Görklü* yüzindən niqabın götərdilər" (21).**

S.Y.Malovda *görk, görklük* (Pam., 396) "Dədə Qorqud"da *görk, görk+i, görk+lü, görk+lüm, görk+lümi, görk+lün ilə, görk+lüsi, görk+lüsinin, görk+lüsinə: "Gög* alan görkli çəmənə çadır tikdi" (126). "Aydır: *Görglüm!* Oğul gəlsə səndənmi sorardım?" (140). Mahsud Kaşğarlıda *görk, görg+inə, görg+lük: "Görg:* gözəllik. Gözəl və görkəmli olana "görklük" deyilir" (I, 353) və yenə: "Görk gözəllik deməkdir" (II, 340).

Nəsnə - bir şey, mal.

"Sizə telim dürlü *nəsnə* bəxşiş verəm,
Atañıza hidayə irsal qılam imdi" (50 b).

"Orxon-Yenisey"də nənı: *"Nəñ nəñ* sabım ərsər bənqü taşğa urtım - Nə sözüm vardısa, əbədi olaraq daşa cızdım" (KTM, II). "Dədə Qorqud"da *nəsnə, nəsnə+mi, nəsnə+dir, nəsnə+yi, nəsnə+dən, nəsnə+i, nəsnə+ləri:* "Götür, bu ismarladığın *nəsnədir"* (88), "Oğul çoban, qarnım acdır. Heç nəsnəñ varmıdır yeməgə?" (49). Mahmud Kaşğarlıda *nəñ, nəñ+i, nəñ+in, nəñ+ni:* "ağır *nəñ* - qiymətli şey" (I, 93).

Oqu(maq) - çağır(maq), çağrış(maq), oxu(maq).

"Əmr qıldı, Yusifi ündədilər,
Səni xatun *oqudı*, gəlgil, dedilər" (27b).

S.Y.Malovda *oqı, oqı+çı, oqı+maq* (Pam., 404). "Dədə Qorqud"da *oqı, oqı+r, oqı+dı, oqı+duban, oqı+yanda*: "Namərd tayın al eyləmiş, *oqıyuban* bizi aldılar. Vardıq" (300). Mahmud Kaşğarlıda *oqı, oqı+dı, oqı+r, oqı+t, oqıt+tılar, oqıt+dı*... "Ərən alpı *oqıtdılar* - İgid ərlər çağırdılar" (I, 359), "Ol manа bitik *oqıttı* - O, mənə kitab oxutdu" (I, 212).

Ör, örü(mək) - bəlir(mək), yüksəl(mək), dikəl(mək)

"Münəqqəş tac *öründi* oldı hüba,
Münəvvər təxtinə oturdı, oldı xoca" (27b)

S.Y.Malovda *örü: "Örü* bar-qalx", "Turdı *örü* - Yerindən qalxdı, durdu" (Pam., 407), "Dədə Qorqud"da *ör, örü turdı, örü turğıl, örü turdun:* "Alar sabah Dirsə xan yerindən *örü turdı" (21).* "Qalqubanı yerindən *örü turdun!" (136).* Mahmud Uaşğarlıda *ör, ör+di, örlən+di, ör+ər, ör+ür:* "Bulıt *ördi* - Bulud bəlirdi", *örər, örmək*" (I, 173), "Bulıt *örləndi* - Bulud bəlirdi", *örlənür, örlənmək.* Ən yaxşısı "ördi" - deyə söyləməkdir" (I, 267).

*Sun(*maq) - ver(mək), çat(maq), uzat(maq), uzadıb ver(mək).

"Yusifə ol dürlü təam aş gətürdi.
Yusif əlin sunub bir löqmə təam yedi" (14b)

"Sundı muradına irdim deyür,
Əzizi-Misr cəmalını gördim deyür" (20).

S.Y.Malovda *sun* (Pam., 427), "Dədə Qorqud"da *sun, sun+dı, sun+ı verdi:* "Basat qoçun başını Dəpəgözün əlinə *sundı" (228);* "Qanturalı bir kəpənəgi qapağına toladı, aslanın pəncəsinə *sunı* verdi" (185). Mahmud Kaşğarlıda *sun, sun+dı, sun+ar, sunuş, sunuş+dı, sunuş+ur:* "Olar ikki ətmək *sunuşdı* - Onlar bir-birlərinə çörək verdilər", *sunuşur, sunuşmaq" (II, 112).*

Semiz - yağlı, ətli-canlı, kök.

"Aclıqdan olmışlar yulaq zəif,
Oşal *semiz* sığırlar yeyərlər imdi" (40).

"Orxon-Yenisey"də *semiz: "Semiz* buqa, turuq buqa" - kök buğa, arıq buğa" (Ton.6). "Dədə Qorqud"da *semüz, semüz+in, semüz+in* də: "Noldun böylə büküldün? *Semüzin* al, arığın qo! - dedi. Dəlü Qarcar aydır: hay Dədə! Sultan Tanrı bunun *semüzin* də alsun, arığın da alsun" (88). Mahmud Kaşğarlıda *semiz // semüz, semiz+lik:* "Semiz" yağlı hər heyvan" (I, 288).

Tanuğ - şahid.

"Gör *tanuqluq* sənin üçün netə verdi?
Nə mənidən sana layiq degül imdi?" (44)

S.Y.Malovda *tanuq, tanuq+la, tanuq+luq* (Pam., 426). "Dədə Qorqud"da *tanıq // tanığ:* "Siz *tanıq* olun, mənim qızım Baybura bəg oğluna beşikkərtmə yavuqlı olsun - dedi" (69); "Ərş *tanıq* olsun, Kürsi tanığ olsun!.." (168). Mahmud Kaşğarlıda *tanuğ, tanuq+luq: "Tanuq:* şahid" (I, 380); *"Tanuqluq:* şahidlik" (III, 503).

Uş, uşbu - bu, məhz, məhz bu, kimi...

"Yusif aydur: bu nemətlər ol tanrımdan,
***Uşbu* qamu lütf-gərəm sübhanımdan" (36).**

S.Y.Malovda *uş, uşbu* (Pam., 439), "Dədə Qorqud"da *uş:* "Dədə Qorqud: hay, oğlan Qarcar, adama *uş* bükələk kibi büklüdür" (87). Mahmud Kaşğarlıda *uş*: "Aqar gözüm *uş* dəniz - Gözüm dəniz kimi axar" (II, 45), "Toqmuş güni *uş* batar - Doğan günəşi indi batar" (II, 128).

Uçmax - cənnət, behişt.

"Cəbrail *uçmax* taba səfər qıldı,
***Uçmaxdan* hüllə, təam alıb gəldi" (3):**

S.Y.Malovda *uçmaq* (Pam., 437) "Dədə Qorqud"da *uçmağ // uçmaq:* "Ağ saqqalu babanı yeri *uçmaq* olsun! Ağ birçəklü anan yeri behişt olsun!" (213). Mahmud Kaşğarlıda *uçmaq:* "Məndə bulnur sevinc otı qadhğu atlar, Qarşı görüp sağdıç anı *uçmaq* atar - Məndə olan sevinc odu qayğını atar, Sağdıcım qarşıdan görüb, onu cənnət sanar" (III, 374).

Çəri - əsgər, qoşun, ordu.

"Ağ atlas döşəklər həm döşətdi,
***Çərisi* xadimlər ilə belə vardı" (34b, 35)**
"Əziz Yusif ol şəhərə *çəri* verdi" (43).

· "Dədə Qorqud"da *çəri, çəri+nün, çəri+sin, çəri+sini, çəri başı:* "Qaragünə *çəribaşı* oldı, borı ağardıb köçdülər, yola girdilər" (283). Mahmud Kaşğarlıda *çəriğ // çərik, çəriq+də:* "Savaşda qarşı-qarşıya duran səflərə, sıralara "çəriq" deyilir" (I, 323), *"Alp çəriq* - igid əsgər" (I, 123), *"Alp çəriq* tarasladı - İgid, əsgər taraşladı, dağıtdı" (III, 332).

Biz, "Qisseyi-Yusif"də işlənmiş, bu gün üçün arxaik olan sözlərin müəyyən bir qismini nəzərdən keçirdik.

Poemada elə arxaizmlər də var ki, bunlara xatırlanan kitabələrin hamısında rast gəlmirik. Bu, elə belə də olmalıdır. Belə ki, hər hansı bir kitabə, nə qədər zəngin olur-olsun, dilin bütün sözlərini özündə cəmləyə bilməz. Məs.: "Kitab", "yazı", "məktub", "müqavilə", "bitmiş - tamamlanmış kitabə" mənalarını verən *biti // bitik // bitiq* arxaizmini götürək.

"Yulavçılar *biti* alıb ana gəldi...
***Biti* açıb rəva gördi, riza verdi imdi (19b)**
Ol *bitini* oqıdı həm Yusif siddiq,
Əhvalının netəligin bildi təhqiq" (61).

"Orxon-Yenisey"də *biti // bitiq // bitit: "bitiq*-kitabə, yazı" (Yn. 37), *"Bitiq* bitidim - Kitabəni yazdım, bitirdim" (MÇ 39)... Mahmud Kaşğarlıda *biti // bitiq // bitik, bitik+lig // bitik+lik:* "Ol mənin birlə *bitiq* oqışdı - O, mənimlə kitab oxuşdu" (I, 186), "Ər *bitik* bitidi - Ər kitab yazdı" (II, 327).

Biti // bitiq // bitik sözü "Dədə Qorqud"da yoxdur.

Poemada tez-tez müraciət edilən və doğru, dürüst, təbii, həqiqi, düz, aydın mənalarını verən "bayıq" arxaizmi də diqqəti cəlb edir.

"Bən duşımda gördügüm *bayıq* degil,
***Bayıq* bilin, bu öyümə layiq degil" (20b).**

Mahmud Kaşğarlı *bayıq* sözünün mənasını verir, sözün "Oğuzca" olduğunu da qeyd edir;

Bədii əsərdə fikir demək, sözə bədii boya vermək, canlı dil-danışığın dərinliklərinə baş vurmaq üçün daha geniş imkan vardır.

Buna görə, başqa növ əsərlərdən fərqli olaraq, bədii əsərlərdə danışıq dili və ifadə şəkillərinə, hətta sözün canlı tələffüzü və deyiliş şəkillərinə daha artıq müraciət edilir. Bu mənada "Dədə Qorqud"la "Qisseyi-Yusif"də yaxınlıq çoxdur.

"Qisseyi-Yusif"də elə arxaik söz və ifadə şəkilləri var ki, bunlar, eynilə "Dədə Qorqud"da müşahidə edilir. Məs.:

"Dolun ay tik *balqur* idi bənzin nəqşi" ***(47).***
"Şərif, lətif şəfaətindən nuru *balqıb.*
Qadir Tanrı ol Yusifi ağırlayub... ***(17b)***
"Cümləsi Yusif qatına *dirnəşdilər" (13b)*
"Telim yılğa, muradına ol *irişdi" (3)*
"Netə Yəqub ol Yusifi sevər idi,
Yusif anın *uylığında* getməz imiş" ***(19)***
"Mövla Xəlil məğfirət layiq qıldı,
Cümlə malın fəqirlərə *ulaşdurdı" (18b) və h.b.*

Misallardakı *balqır, balqıb, dirnəşdilər, irişdi, uyluşında(n), ulaşdurdı* sözlərinə diqqəti cəlb edək.

Balqır, balqıb: parlaq, işıqlı, parlayıb, işıqlanıb. "Dədə Qorqud"da eyni mənada *balqır:* "Ötəgi Qara Tağın bir yanında altı başı *balqır* bir ər gördüm" (207).

Dirnəşdilər: toplaşdılar, yığışdılar, birləşdilər. "Dədə Qorqud"da eyni mənada *dirnək* (toplantı, yığıncaq, birlik): "Yavuqlısı vardı. Tez dügün - *dirnək* etdilər..." (260), "Mərə dini yoq, əqilsiz kafir! Usu yoq, *dirnəksiz* kafir!" (59).

İrişdi: yetişdi, çatdı. "Dədə Qorqud"da eyni mənada irişdi: "Qanturalı gərdəginə girüb muradına, məqsudına *irişdi" (201),* "Ağ-boz atlar binübən yortışdılar. Bək babası yanına *irişdilər" (200).*

Uyluqunda(n): Ombasında, dizi üstündə. "Dədə Qorqud"da eyni mənada *uyluq // oyluq:* "Boynı sınsun. Al ayğırı bütün bindim. Av avlayub, quş quşlayub gəzərkən bunaldı, sürcdi, sağ *uyluğum* sındı" (244). "Aruz qara polad üz qılıcın tartub Beyrəgin sağ *oyluğın* çaldı, qara qana bulaşdı" (297).

Ulaşdurdı: paylaşdırdı. "Dədə Qorqud"da *Ulaş* oğlı Salur Qazan adında müşahidə edilir, həmin mənaya uyğun gəlir: "Üç Ok, Boz Ok yığnaq olsa, Qazan evin yağmaladardı" (291), yəni ulaşdırardı, paylaşdırardı; yəqin bu şəxsi keyfiyyətinə görə də o, *Ulaş* oğlu adı ilə məşhur olmuşdur...

"Qisseyi-Yusif"də elə arxaik sözlər də var ki, "Dədə Qorqud"da yoxdur. Bunlar Mahmud Kaşğarlı "Lüğət"ində müşahidə edilir. Məs.:

"Cəmalın *quyaş* kibidir, eşqin qatı" (29)
"Bənim halım Yəquba ismarlağıl,
Bənim üçün *edhgü* dua qılsun imdi" (38)

***"Yarlı* Yusif *qızğurıban* qanın ağlar,**
Ağlar irkən qardaşların öbər, qucar" (10b).

"Züleyxa aydur: ḍutman, qoyın bən düşəm,
***Telim yılğı* həsrətimə qovuşalım" (21b).**

"İbn-Yabin şad olıb tura gəldi,
Yusif ana sağ yanında *urun* verdi" (56b).

"Şamdan bana qapuğda ol gəlib durur,
Kimi görsə *çər* sorur, həm yalvarur" (52) və h.b.

Misallardakı *quyaş, edhkü, qızğurıban, yalğı, çər* və s. sözlərinə diqqət edək.

Quyaş: qaynar, qızmar günəş. Mahmud Kaşğarlıda *quyaş: "Quyaş:* bərk isti. Günəşin şiddətlə vurması" (III, 172).

Edhgü: yaxşı, gözəl, ədalətli. Mahmud Kaşğarlıda *edhgü, edhgü+ni, edhgü+lügün, edhgü+lini: "edhgü:* yaxşı, gözəl" (I,128). "Ol mana *edhgü* söz eştürdi - O, mənə yaxşı söz eşitdirdi" (I,221).

Qızğurıban: daxili əzab çəkib, daxilən cəza alıb. Mahmud Kaşğarlıda *qızqur, qızqur+dı, qızğur+ur, qızğut: "Qızqurdı.* Ol anı bu iştə ğızqurdı - O, onu bu işdə cəzalandırdı", *qızğurur, qızğurmaq*" (II, 194), "Anı *qızğurdı* - Onu cəzalandırdı" (II, 200).

Yalğı: ağılsız, şüursuz, beyinsiz. Mahmud Kaşğarlıda *"yalğu:* axmaq, beyinsiz adam. Oğuzca" (III, 33).

Urun: yer. Mahmud Kaşğarlıda *urun, urun+dun:* "Ol məni *urundun* turğurdi - O, məni yerimdən durğuzdu" (II, 177).

Çər: vaxt. Mahmud Kaşğarlıda *çər, çər+lik, çər+likdə;* iki mənada verilir: 1) *"Çər:* vaxt. "Bu *çərlikdə* gəl - Bu vaxtda gəl" (I, 323); 2) *"Çər:* "Anın evi bu *çərlikdə* - Onun evi bu qarşıdadır" (I, 323).

Poemanın dilində *aya*: qoruyucu, saxlayan, sahib "hər birisi dövlət *ayası* olur imdi" (23); *yarlı, yarlığa*: rəhimli, rəhm et ("Bəs Yusifin fəraq odı bağrın yaqar, *Yarlı* Yəqub yığlayu anda baqar" (4), "Bunı etib ah qılıb, ya Kərəm, der, Fəzlin birlə y*arlıqağıl*, ya rəhim, der" (12); *yaxtu // yəxtu:* göyçək, qəşəng (*"Yəxtü* yüzdən niqabını soyu aldı" (41); *yulaq:* qaynaq, sızaq, su gözü, su damcıları ("Dubi viran, suvı yulaq acı idi. Anın suyın heç kimsənə içməz imdi" (1b); *kob // kop*: çox, xeyli, məhz, bütün, tamam ("Cəhd qılıb əkinləri *kob* əkdürdü, *Kob* əkdürdi yavan kop yığar imdi" (42b); *ön*(mək); böyümək, yetişmək ("Yeti yildə gögdə yağmaz, heç yağmadı, Yenə dəği yerdə nəbat heç *önmədi" (42b); ögüş*: çox, saysız ("Ol səbəbdən *ögüş* rəhmət buldacısan. Bu duş içrə *ögüş* dövlət görünür imdi" (6), *puş // buş*(maq): sıxılmaq, daralmaq, usanmaq ("Quyu içrə salmağa qəsd qıldılar, Qanqısına yalvarursa *puşar* imdi", "Cümləleri dura-bağa *buşarlar* imdi" (2); *taba:* yön, hənidəvər, səmt, tərəf, doğru ("Qoşdurur olsan anı cənnət taba, Cənnət içrə bana qonşı qılqıl imdi" (39): *telim*: bol, çox, xeyli ("Az saatda ol məqamı görmişdim, Kiçi ikən anda *telim* durmışdım" (52b): *uğ*: çadırın üst kəmələri *("Uğları* idi ağla müfil, Körlini həsrətlə dağla müfil" (59b), *uyatlu:* utanan, utancaq ("Ol oğlanğa *uyutlu* oldım, Anı sana andurmağa vədə qıldım" (40b), *urağut*: qadın, arvad, zənən ("Züleyxanı eyibləşü *urağutlar*, Bəzisi dəlü oldı ol *urağutlar" (33b); çalıq*: göylərə, obalara car çəkmək, xəbər yaymaq ("Bunı qıluban *çalıqdan* rəhmət olmaz, Yekrək oldur tövbə qılıb dönin imdi" (1), *coğ*: çığırış, bağırış ("Andan başlarını qaldurıban görişdilər, Yulaq qatı həsrət ilə *çoğlaşdılar" (63)* və s. kimi arxaik sözlər də

var ki, bu sözlərin bir qisminə "Orxon-Yenisey"də, digər qisminə isə ya "Dədə Qorqud"da və yaxud da M.Kaşğarlıda rast gəlirik.

b) şəkilcə arxaik sözlər

Bu bölmədə izlənilən arxaizmlər öz qədim mənasını saxlamaq, şəkilcə bir qədər dəyişikliyə uğramaqla müasir dövrə qədər gəlib çıxmışdır.

Ana, anı, anın... - ona, onu, onun.

"Uluğ hörmət verdi *ana* Məlik Sübhan,
Heç kimsənə çıqmaz *anın* buyrığından" (13)
"Məlik Doğar anı eşdüb andan keçdi" (6b).

"Orxon-Yenisey"də *anar: "Anar* görü bilin - onu görüb bilin" (KTm.11). "Dədə Qorqud"da *ana, anı, anın, anınla, anlar; ana görə, anun çün*: "Könlün kimi sevərsə, *ana* varğıl! - dedi" (261), *"Anınla* dəxi oyunın oynasun, - dedi" (185). *"Anun* ardınca Qaragünə gəldi" (285)... Mahmud Kaşğarlıda *ana, anı, anın // anun, anar:* "Ol *anı* ögrətti - O, onu öyrətdi" (I, 261), *"Anın* yorığı nətək? - Onun yerişi necədir?" (I, 27).

Anda - orda // orada, onda, o vaxtda.

"Qamuları anda məcmu olmış idi...
Məlik Doğar ol quşları anda gördi" (6b)

"Ol ulu balıq yenə anda hazır gəldi (16)
Şəmun *anda* qalmaqlığa boyun verdi" (50b).

"Orxon-Yenisey"də *anda // anta: "Anta* sancdım - Orda qələbə çaldım" (MÇ.16), "Ol süq *anta* yokqışdımız - O qoşunu orada yox etdik" (KTb.32) "Dədə Qorqud"da *anda: "Anda* iki qılıc var; biri qınlu, biri qınsuz" (230), *"Anda* dəxi ərəm, bəgəm deyü ögünmədim" (280). Mahmud Kaşğarlıda *"Anda:* orada, orda" (I, 130).

Andan // andın - ondan, ondan sonra.

"Yahudə aydur: *andan* bilin bəyan,.." (48b)
***"Andın* Qüddüs məliki aydur bu məlikə,**
Uşbu layiqdurur əxi sərvərligə" (15)

"Orxon-Yenisey" *anta:* "Tutdım, qatunın *anta* altım" (MÇ.10). S.Y.Malov *"anta"* sözünün iki halda, həm çıxışlıq (ondan sonra), həm də yerlik halında (onda) ola biləcəyini söyləyir (211, s.9). Buna görə həmin cümləni iki şəkildə müasirləşdirmək olar: "Tutdum, ondan sonra arvadını aldım" və ya: "Tutdum, onda arvadını aldım". "Dədə Qorqud"da *andan, andan sonra: "Andan* götürüb yerə urdi" (185), "Aradan Beyrəgi götürəlim, *andan sonra* Qazan ilə işümüz xeyir ola - dedi" (295). Mahmud Kaşğarlıda *andan, andın:* "Andan: "ondan sonra" mənasında bir söz. Oğuzca. *"Andan* aydım - Ondan sonra söylədim" (I, 109). "Ol andın küsdi" - O, ondan küsdü" (II, 12).

Ayruq - ayrı, başqa, özgə.

"Yusif yenə *ayruq* sirri xəlvət qıldı" (54)"
"Yəhudə qaldı, *ayruq* yola girdi,
İbn-Yabin ilə birgə qalur imdi" (59)

"Orxon-Yenisey"də *ad(ı)rıl, adırıldım // adırıltım, adırılıpan, adırılu, adırılmaduk, özgə:* "Uyar bəkimkə *adırıltım,* uyar qadaşımqa *adırıltım* - Bəy əslimdən ayrıldım, əsil yoldaşlarımdan ayrıldım (yəni öldüm) - (Yn.17); "Əltərəs qağanta *adırılmaduk,* yanılmaduk - Əltərəs xaqandan ayrılmadıq, yanılmadıq" (0a 3), "Dədə Qorqud"-da *ayru, ayruq, ayrulıq:* "mana tutan gərdəgə *ayruq* girsin" (144). "Əl-aqibət uzun yaşın ucı ölüm, axırı *ayruluq" (303).* Mahmud Kaşğarlıda *ayru, ayruq: "Ayruq:* başqa mənasına işlənən bir söz. Oğuzca" (I, 112).

Qanda, qandan - handa, haraya, harada, haradan.

"Cəbrail aydı: Yusifin əsəndürür,
Həm anın *qanda* idüki bəyandürür" (59b)

"Əya Əziz, sən bu sözi eşit bəndən
Ki, anla övrətinin əsli *qandan?" (33)*

"Orxon-Yenisey"də *qantan // qandan:* "Yarlıqlığ *qantan* gəlip - Yaraqlılar haradan gəlib?" (KTb.23), "Dədə Qorqud"da *qanda, qandan*: "Oğul Çoban, *qanda* gedirsin? - dedi" (49), "Bəg, gəlişin

qandan?" (78), Mahmud Kaşğarlıda *qanda // xanda: "Qanda:* "harada" mənasında bir ədatdır. *Qanda* erdiŋ - Harada idin?" (I, 418). *"Xanda* erdin - Harada idin?" (III, 218).

Qanı, qanğı // qanğı - hanı, hankı, hansı.

"Oğlanların ündədi, genə sordı:
***Qanı* bənim Yusifim? - deyür imdi" (4b).**

"*Qanqı* eldən gəlürsən, qaçan varursan?
Nə ağlarsan, nə işiŋ var, nə istərsən?" (52).

"Orxon-Yenisey"də *qanı:* "İlim amtı *qanı?* - Elim imdi hanı?" (KTb.9). "Dədə Qorqud"da *qanı, qanqı, qanqı+sıdur, qanqı+nuzdur, qanqı+nıza:* "İki vardıŋ bir gəlirsən, yavrım *qanı?" (24)*, "Qazan bəgün xatunı *qanqınuzdır?* - dedi. Qırq yerdən avaz gəldi. *"Qanqısıdır*, bilmədilər" (51). Mahmud Kaşğarlıda *qanı, qanu: "Qanı:* hanı" (III, 238), *"Qanu:* Qanu kişi? - Hankı kişi?" (III, 237).

Qaçan - haçan, nə vaxt, nə zaman.

"*Qaçan* əyərlənür irsə, kişnər idi.
Misir əhli cümləsi anı eşdür imdi" (43b)

***"Qaçan ki,* əqli başına gəldi isə,**
İkiləsi durıb görüş qıldı isə..." (55).

S.Y.Malovda *qaçan* (Pam. 409). "Dədə Qorqud"da *qaçan, qaçan ki // qaçan kim:* "Qurd *qaçan* xəbər versə gərək?" (46), *"Qaçan ki,* Qazan evin yağmaladardı, Taş Oğuz bəgləri belə yağmalardı" (294). Mahmud Kaşğarlıda *qaçan:* "Sənin barğun *qaçan?* - Sənin getməyin haçandır?" (II, 69).

Qamu // qamuğ - hamı, hamısı.

***"Qamusı* anıŋ tədbirin rəva gördi...**
***Qamuya* anı məlum qılmış idi" (I b).**

"Orxon-Yenisey"də *qamuk: "Qamuk* balıkka təgdim, kunladım altım - Bütün şəhərlərinə hücum çəkdim, yürüş etdim aldım" (0a

1), "Dədə Qorqud"da *qamu: qamu+sına:* "Kimsəyə güc etmədiո! *Qamu* yerdə əhədsən" (210). Mahmud Kaşğarlıda *qamuq // qamığ, qamuq+qa:* "Qar, buz *qamuğ* ərüşdi - Qar, buz hamısı əridi" (I, 186), "Quş-qurt *qamuğ* tirildi - Qurd-quş hamısı dirildi" (III, 6).

Ulu // uluğ // uluq - ulu, böyük, yüksək, uca.

"Ya Züleyxa, bu oğlanğa hörmət qılqıl,
Ol qədər *uluğ*, layiq anա izzət qılqıl" (24).

"Bu təqdiri qıldı manա mövlam ğafir,
Məgər yenə *uluğ* rəhmət verə imdi" (11).

"Orxon-Yenisey"də *uluğ:* "Özüm qarı boltım, *uluğ* boltım - Özüm qocaldım, ucaldım" (Ton.56), *"Uluğ* Gülü cür səkiz on yasap yoq boltı - Ulu Gülü-cür səksən yaş yaşayıb yox oldu (öldü) - KÇZ. "Dədə Qorqud"da *ulu, ulu+sı, ulu+lığına:* "Bəzirganınո *ulusı* tutuldı, kiçisi qaçaraq Oğuza gəldi" (71). Mahmud Kaşğarlıda *uluq // ülüğ, uluğ+nı, uluğ+qa, uluğ+luq, uluğ+luqqa; "Uluğ* Tənրi ağırladı - Ulu tanrı kərəm qıldı" (I, 301), *"uluğluq; ululuq, şərəf... uluğluq:* yaşca böyüklük" (I, 150).

Şol, ol - o, bu.

***"Ol* Yusifniո yolı üzə məqam oldı,**
***Şol* yol üzə hər dəm eşqi artar imdi" (45).**

"Orxon-Yenisey"də *ol: "Ol* sabığ esidin, sü yorıtdım - O sözü eşidib, qoşun yeritdim" (Ton.35). "Dədə Qorqud"da *ol, şol:* "Dəpəgöz aydır: saոa ölüm yoğ imiş. *Şol* mağarayı gördünmi?" (230), "Mən qaraqoç atıma binmədin, ol binmax gərək" (81), Mahmud Kaşğarlıda: *"Ol* saç ördi - O, saç ördü" (I, 172).

Şöylə - öylə, elə.

"Yusifiո bir tazı atı olur idi.
Ol tazınıո adəti *şöylə* idi..." (43b).

"Dədə Qorqud"da *şöylə, şöylə kim, şöylə+dür: "Şöylə* nərə urdı, hayqırdı kim, tağ və taş yanqulandı" (227), "Qız bir oxla Qanturalıyı atdı. *Şöylə* kim, başında olan bit ayağına endi" (199). Mahmud Kaşğarlıda *öylə:* "Eylə: *öylə. "Eylə* qılqıl - Eylə et" (I, 113), "Mən *eylə* usdum - Mən elə sandım" (I, 166) və s.

c) arxaik şəkilçilər

Abidələrimizdə müasir dilimizin eyni qrammatik şəkilçiləri bəzən özünü bir neçə şəkildə göstərir. Məs.: hər dövrdə işlək olan *-ıb, -ib, -ub, -üb; - yıb, -yib, -yub, -yüb* feli bağlama şəkillərinin XII-XIII əsrlərdə bir neçə əlavə variantları da müşahidə olunur.

"Həm Züleyxa bir gün *yatıb* uyur idi,
Yusifin surətini duşda gördi.
***Görübə* Yusifə ol aşiq oldı,**
***Ağlayuban* oyanub gəlür imdi" (19)**
"Ehtiyat *qılıbanı* gerü döndi,
Sezinübən qıra *dönüb* qaçar imdi" (27b)

Misallardakı feli bağlama şəkillərinin variantlarından indi dilimizdə ancaq üçü (yat+*ıb,* oyan+*ub*, dön+*üb*) işlənir, qalanlar (gör+*übə,* ağla+*yuban,* qıl+*ıbanı,* sezin+übən) istifadədən qalıb, arxaikləşibdir, lakin bəzi şivələrimizdə nəzərə çarpır.

Eyni vəziyyət şəxs sonluqlarında da müşahidə olunur...

Bunları ayrı-ayrılıqda izləyək.

1) *-avuz, -əvüz, - yavuz, - yəvuz*. Bu şəkilçilərin müasir *-aq, -ək, -yaq, -yək* şəxs sonluqlarının birinci şəxsin cəmini bildirən arxaik şəkilləridir: *alma+yavuz, olma+yavuz,..* ("Bunlar aydur: ol satı *qılmayavuz,* Qulımıza kalə qumaş almayavuz, Bu satuya hərgiz razı *olmayavuz" - 8b)...*

2) *-ayım, -əyim*. Bu şəkilçilər müasir *-ım, -im, -aq, -ək, -yaq, -yək* şəxs sonluqlarının birinci şəxsin təki və cəmini bildirən arxaik şəkilləridir: *ol+ayım* ("Bizlər dəği ana bəndə olayım imdi" - 13 b), *gör+əyim* ("Övladımı toyanca bən görəyim" - 9b). *yor+ayım* ("Du-

şınnı ayıt bən yorayım, deyür imdi"- 35), *sor+ayım* ("Sorayım, ündəsəm bən, ol zəlil" - 65),..

3) *-ayın, - əyin, -yin*. Bu şəkilçilər müasir ım, im şəxs sonluqlarının birinci şəxsin təkini bildirən arxaik şəkilləridir: *var+ayın* ("Dəstur vergil, gerü yenə *bən varayın"* - 9b.), *dilə+yin* ("Yazuqlarımnı anlardan *bən diləyin" - 9b)*, *çağır+ayın* ("İbn-Yabinni bən andan *çağırayın"* - 58)...

4) *-alım, -əlim, -yalım, -yəlim*. Bu şəkilçilər müasir *-ım, -im, -aq, -ək, -yaq, yək* şəxs sonluqlarının birinci şəxsin həm təki, həm də cəmini bildirən arxaik şəkilləridir: *var+alım, ver+əlim, götür+əlim,* ("Dilərisən, buyurğıl, bən *varalım,* Aləm içrə qurtları bən *dərəlim,..* Cümləsini tapunıza *gətürəlim*" -5b), *olma+yalum, varma+yalım* ("Bəni satman, kafir qulı *olmayalum,..* Qürbət odı həsrətinə *varmayalum"* -8), *gir+əlim, sor+alım* ("İkiləmiz pütxanəyə biz girəlim, Sənəm halın-əhvalın biz *soralım"* - 14b.), *eylə+yəlim, bildür+əlim* ("Kim idügim sana məlum *eyləyəlim*, Amma, lakin ol şərt ilə *bildürəlim*"..." -22b), *saqla+yalım, bil+əlim* ("Qədrin bilib sənin*çün saqlayalım,* Ol biləzik nə üçün imiş biz *bilәlim"* -53b),..

5) *-vən*. Bu müasir dildə xəbərlik kateqoriyasının - *am, -əm, -yam, -yəm, -m* şəxs sonluqlarının birinci şəxsin təkini bildirən arxaik şəklidir.

Aşağıdakı vəziyyətlərdə işlənir:

a) indiki zamanı əks etdirən fellərlə işlənir: *anlayur+vən, alur+vən, eyləyür+vən* ("Məlik aydur: nə deyürsiz, *anlayüvən*, Həqiqət, bu qulı bən *alurvən,* Eybi birlə icab qəbul eyləyürvən" -8b), *deyür+vən* ("Nə *deyürvən*, fəhm qılıb, eştib anla!" -29b)...

b) qeyri-qəti gələcək zamanı əks etdirən fellərlə işlənir: *qorqar+vən, saqlar+vən* ("Yusif aydur: xaliqdən bən qorqarvən; Kənduzimi günah işlərdən bən *sağlarvən"* -30), *umar+vən* ("Yəqub aydur: bən Tənridən eylə *umarvən"* -59),..

c) inkarda işlənən müzare fellərdən sonra gəlir: *olmaz+vən* ("Anın üçün müti *olmazvən*, bilgil imdi" -30b), *qılmaya+vən, ol-*

maya+vən ("Yusif aydur: ol işi bən *qılmayavən*,.. Suçlını qoyıb suçsuzlardan *olmayavən"* -58),..

ç) isimlərdən sonra gəlir: *qul+vən* ("Dilin birlə *qulvən* deyü iqrar qılğıl" -9), *oğlı+vən* ("Bən ol Yusifin *oğlıvən ki*, anlağıl" - 55), *qadir+vən* ("Qadirvən qaçan vədeyi-xaliq qılam" -63)...

6) *-ğa // -qa, -ğə, -qə, -kə // -ka, -gə.* Bunlar müasir *-a, -ə, -ya, -yə* yönlük hal şəkilçilərinin arxaik şəkilləridir: biz+gə ("Peyğəmbər əti bizgə həram imdi" - 2b), *yarmaq+ğa, ayrılmaq+ğa, varmaq+ğa* ("Anlar səni satdılar kəm *yarmaqğa,* Diləkləri həm səndin *ayrılmaqğa*, Layiq degil sən anlara həm *varmaqğa"* - 9b), *görmək+gə* ("*Görməkgə* yulaq müştaq qılın imdi" -17), *xəzinədar+ğa, xəzinə+ğə* ("Əziz *xəzinədarğa* əmr qıldı,.. Əziz *xəzinəğə* xəbər sordı" -23b), *həq+ğə* ("Məazallah deyüb *həqğə* sığınur imdi" -28), *tərəf+qə* ("Hər tərəfqə baquban, hər qapuya,.." - 51b),..

7) *-qıl // -ğıl, -gil, // -gilən.* Həm təsdiq, həm də inkarda işlənən fellərin sonuna gəlir: *var+qıl, gir+gil, gər+gil ("Varğıl* oh Ad quyusuna girgil, dedi. Siddiq Yusif cəmalın görgil, dedi" -2), *bil+gil* ("Bigünah mən, müəyyən *bilgil* imdi" -5b), *al+ğıl* ("Ol oğlannı kəm bahaya satun *alğıl"* -6b), *qıl+ğıl, ol+ğıl* ("Həqiqətdə sən müəyyən *qılğıl* imdi. Anlar aydur: qulluqğa sən riza *olğıl"* -9), *ver+gil, kəs+gil* ("Hər neçə kim, layiqdurur baha *vergil,* Əgər malın yetməz irsə, təmə *kəsgil*" -18b), *qurtar+ğıl, ögütlə+gil* ("Fəzlin birlə sən *qurtarğıl* bəni bundan,.. Təçil *varğıl*, Yusifi *ögütləgil"* - 31b), *ayrılma+ğıl* ("Barğıl, qardaşlarından ayrılmağıl" -56), *ağlama+ğıl, dağlama+ğıl* ("Bəşir aydur: aya anam, *ağlamağıl*, Həsrətilə yüreğini *dağlamağıl"* -64), *urma+gilən* ("Bənim əlim *urmagilən* layiq imdi" -29),..

8) *-dağı.* Müasir *-dakı, -dəki* şəkilçisinin arxaik şəklidir: *su+dağı* ("Ol *sudağı* balıqlara həm buyurdı" -16), *baş+dağı* ("Ümid var kim, boyun verə, müti ola, Başdağı dərdinə şayəd dərman ola" -27).

9) *-dacı, -dəci, -dacı+dır, -dəci+dir.* Müasir *acaq, əcək, acaq+dır, əcək+dir* şəkilçilərinin arxaik şəkilləridir: *satıl+dacı, kubbul+*

dacı, salın+dacı ("Quyudan çıqaruban *satıldacı*, Andan sonra töhmətlər *kobbuldacı*, Bəd əzan zindana *salındacı*, hər hal içrə bən belə olam imdi" -3b), *sal+dacı* ("Yiti gözlər görməz olub saldacı" -29), *bul+dacı+dır, qal+dacı+dır, bil+dəci+dir* ("Görklü görksə cümləsi yoq *buldacıdır*. Gor içində giriftar *qaldacıdur*, Hər nə qılğan qılduğun *bildəcidür*" -31b)...

10) *-din, -dın.* Müasir dan, dən çıxışlıq hal şəkilçisinin arxaik şəklidir; *mən+din* ("Felinizdə məndin güman tutarmusız?" -8), *an+dın* ("Andın Yusif Məlikkə cavab eylər" -14), *sən+din* ("Cəhan içrə *səndin* bəşər olmış degül" -18), *buyruğın+dın // buyruğın+dan* ("Müdam anın *buyruğından* çıqman imdi... Heç kimsənə *çıqmaz* anın buyruğından" -13), *gün+din* günə ("Aşiq bənzi gündin-günə sola durur" -26),..

11) *-durur, -dürür*. Müasir *-dır, -dir, -dur, -dür* şəkilçilərinin arxaik şəklidir: *xaliq+durur, razıq+durur* ("Yusif aydur: yaratğanım *xaliqdurur*, Yerdə-gögdə qullar üzə *razıqdurur"* -13b), *əcəb+dürür* ("Züleyxa aydur: uşbu iş *əcəbdürür"* -25), *qadirdurur, hazırdurur, zahir-durur* ("Yusif aydur: ol subhanım *qadirdurur*, Barca işlər qullar üzə *hazırdurur"* -25),..

12) *-ıban, -ibən,. -uban, -übən, -yıban, -yübən, -yuba, -uba, -übə, -yu, -yü*... Müasir *-ıb, -ib, -ub, -üb, -yıb, -yib, -yub, -yüb* feli bağlama formalarının arxaik şəkilləridir.

a) *-ıban, -ibən, -übən, -yıban, -yibən, -yuban, -yübən: dur+ıban* ("Qafilə *durıban* dəndi ol aradan" -11b), *al+uban* ("Əqlim *aluban* səbrimi ğarət qıldı" -19b), *düzüş+übən* ("Qamuları *düzüşübən* sorarlar imdi" -21b), *eşit+übən* ("Əziz anı *eşitübən* heyran qaldı" -23b), *sun+uban, oxşa+yuban ("Sunuban* Yusifin əlni aldı. *Oxşayuban* kəndü taba tartar imdi" -28),..

b) *-ubə, -yuba, -übə: ol+uba* ("Mütəhəyyir *oluba* durur imdi" -22), *ağla+yuba* ("Ol mənidə *ağlayuba* durdım imdi" -19 b),..

c) *-yu, -yü, -u, -ü: ağlaş+u* ("Cümlələri *ağlaşu* varurlar imdi" -3b), *ağla+yu* ("Oğlanları *ağlayu* anda gəldi" -4), *de+yü* ("Bəglərin kim-

dür, *deyü* xəbər sordı" - 13b), *arzula+yu* ("*Arzulayu* soldurdı görklü yüzin" - 21), *bənzət+ü* ("Yenə sanа *bənzətü* qılsunlar imdi" -27),..

ç) *-ıbanı: qıl+ıbanı* ("Ərusinə *qılıbanı* köşkgə girdi" -27b),..

13) *-ız, -üz,..* Müasir birinci şəxsin cəmini bildirən *-ıq, -ik,..* şəxs sonluqlarının arxaik şəklidir: *elətüməz+üz, qılumaz+ız (*"Səni görü atamıza *elətüməzüz.* Uşbu işə heç bir tədbir *qılumazuz" - 10 b),..*

14) *- layın, - ləyin,..* Müasir kimi qoşmasının və *-dıqda, -dikdə,..* şəkilçisinin mövqeyinə uyğun arxaik şəkilləridir: *bulduğın+layun (*"*Bulduğınlayun* Yusifi bir qul urdı" -11b), *iblis+ləyin ("İblisləyin* kop peşiman olmaz imə,.." -28),..

15) *-mayın, -məyin.* Müasir *-madan, -mədən* şəkilçilərinin arxaik ekvivalentidir: *əksil+məyin // iksid+məyin* ("Üç yüz toqsan kişi yedi, cümlə toydı. Neməti heç *iksilməyin* qalur imdi" -15)...

16) *-nı, -ni,..* Müasir *-ı, -i, -u, -ü* təsirlik hal şəkilçilərinin ilkin variantıdır: *başın+nı* ("Ya Yusif, *başınnı* qaldur, deyür imdi" -16), *oğlan+nı* ("Ol *oğlannı* görməgə həvəs qılın" - 17), *qiymətin+ni* ("Bu göz görməgil *qiymətinni* neçük oldı" -24), *cəmalın+nı ("Cə-malınnı* bu xatunlar görsün imdi" -33b), *sözün+ni* ("Ərəb aydur: anladım bu *sözünni"* -37b), *qardaşınnı ("Qardaşınnı* görməgə varğul imdi" - 52)...

17) *-nin, -nın,..* Müasir *-ın, -in,..* yiyəlik hal şəkilçilərinin arxaik şəklidir: *zahid+nin* ("Ol *zahidnin* duası qəbul oldı - 2), *Məlik+nin* ("Yusif *Məliknin* sözinə müti oldı" -16), *oğlan+nın*, ("Ol *oğlannın* tanuqlığnı qəbul qıldı" -33),..

18) *-kəc.* Müasir *-cək* şəkilçisinin çevrilmiş şəklidir: *eşit+kəc ("Eşitikəc* fəryad qıldı Yəqub nəbi" - 51)...

19) *-ləsi,..* Müasir birgə, ikilikdə mənalarına uyğun gələn arxaik şəkilçidir: *iki+ləsi ("İkiləsi* dövlət iyəsi olur imdi" -16b, *"İkiləsi* həm şəhərə belə girdi" - 52b),..

20) *-raq.* Sifətin müqayisə dərəcəsini bilidrən şəkilçidir: *artuq+ raq* ("Həm Züleyxa atasına şöylə idi. Bəlkə dəği *artuqraq* sevər imdi" - 19), *datlu+raq* ("Bal, şəkərdən *datluraqdur* dodaqların" -29).

ç) arxaik ifadələr

Poemada elə maraqlı arxaik formalar var ki, bunlar, dövrünə görə, həm canlı dil-danışıq, həm də ədəbi-yazı dili üçün məqbul sayılıb. Poemanın zəngin lüğəti, canlı dil-danışıq və üslub xüsusiyyətləri, arxaik söz və şəkilçiləri bu arxaik forma və ifadələrin də doğmalığını, ana dilimizin XII-XIII əsrlərdəki səviyyəsi, daxili inkişaf qanunauyğunluqları ilə bağlı olduğunu sübut edir.

Poemada arxaik birləşmələr özünü bir neçə vəziyyətdə göstərir.

Feli bağlama və fel birləşməsi: baga qaldı ("Yarlı Yusif *baga qaldı*, qanın ağlar" -2), *çıqa gəldi* ("Yusif quyunın içində *çıqa gəldi*" -7), *ötə keçdi* ("Bir gorıstan qırağında *ötə keçdi*" -11), *örtə qoydı* ("Tünlə ol sənəmi *örtə qoydı*" -31), *ura durdı* ("Hizmətinə ayağını *ura durdı*" -41), *ağlayu qılur* ("Namaz qılsa, *ağlayu qılur imdi*" -4), *bilü bildi* ("Əziz, əhval netəkligin *bilü bildi*, Yusifin art ətəgini yırtıq gördi" -33), *bulu vergil, qılu vergil* ("Bən məhzunə Yusifi *bulu vergil*. Bana minnət inayəti *qılu vergil*" -59b)...

Fellə "idi" köməkçi fel birləşməsi: aldum idi, qıldım idi, oldım idi ("Əvvəldə bən səni satun *aldum idi*, Cümlə malım sana fida *qıldım idi*, Sənin eşqindən bən heyran *oldım idi*, Bugünki gün uşbu hala düşdüm imdi" -45b)...

Arxaik fel birləşmələri: olar irsəm ("Oğlum bana bundan sonra dua qıla, *Olar irsəm*, ya Yusif, deyir imdi" - 16b), *aytur verdi* ("Rəyyan duş təvilini *aytur verdi" -41), qılur irsə* (Hər nə *qılur irsə* ana layiq durur. Bana boylə təqdir ol qıldı imdi" -18b) *aydun aygıl* ("Sorar irsə əhvalını, bəyan qılğıl, Ol məhzunə kim, *aydugin ayğıl* imdi" - *54b)*...

İsimlə fel birləşmələri: qanın aqlar ("Yusif anı eşidüb *qanın ağlar*" -9b), *gözün görgil* ("Nə bahaya satılursan *gözün görgil" -7)*...

İsimlə qoşma birləşmələri: gor üzə ("Yusif nəbi bir *gor üzə* yüzün döşədi" -11), *qəbrim üzə* ("Bu hal içrə bənim *qəbrim üzə* gəldün" -11b)...

Əvəzliklə fel birləşmələri: netə düşdün? ("Oğlım, sən bu hala *netə düşdün* imdi?" -11), *nəçük bildün?* ("Anın müəbbir idügin *nəçük bildün?* Təbir elmin bildügin *netə bildün?" - 40)*...

Əvəzliklə zərf birləşmələri: oluq saət, oluq zaman (*"Oluq saət* Cəbrail hazır gəldi" - 15b), *"Oluq zaman* məzkur saqi hazır gəldi" -40), *oşal vəqtdə, oşal dəmdə, oşal halda, oşal güni ("Oşal vəqtdə* anlar Yusifi gördi" - 15b, *"Oşal dəmdə* Mələk Rəyyan əhval sordı" -42b, "Yusif aydur: anlarmusan *oşal güni,* Batil işə ündəridün kim, sən bəni" -47),..

Zərflə fel birləşmələri: yaqın gəlürmədi, baha olumadı ("Baha tikrüb kimsə *yaqın gəlürmədi,* Misir malı ana *baha olumadı*" -21),.. və h.b.

Poemada bir sıra: *"öldür+ür+məz"* ("Yoq deyürsən, *öldürürməz,* bəlli bilgil" -9), *"gör+ür+dügin"* ("Səməd *görürdügini* heç ya yanılmaz" - 31), *"gör+ür+ğıl"* ("Şərabdar aydur: Rəyyanı *görürğıl,* Yusifi ol zindandan sən çıqarğıl" -41), *"Söylə+yür+məz"* ("Oquban əhvalını *söyləyürməz"* -61b), *"gəltürür* - gətirir ("Risalət görən iman *gəltürür* imdi" -17b), *"olturur"* - oturur ("Yusif ol kürsi üzə *olturur* imdi" -17b), *"olturdılar"* - oturdular ("Dəstur verdi, on qardaşı *olturdılar"* -49b), *"yetkürdi"* - yetirdi ("Həq səlamın Yusifə həm *yetkürdi"* - 46b), *"bağlıladı"* - bağladı ("Yeti qabuğ *bağluladı,* kim açdurdı" -36), *"qamularıyub"* - hamısını götürüb, qamarlayıb ("Uşbu işini *qamurlarıyub* qıla, Bu tonları Əziz dəği geyməz imdi" -24 *"qayğurmağıl"* - qayğılanma" *("Qayğurmağıl,* xatirin, xoş dutğıl imdi" - 52b), *"varınızlar"* - varın, varınız ("Bu gəzin Yəqub aydur: oğlanlar! Təcil gerü *varınızlar*" siz Misrə" -61b), *"bilməzmiz"* - bilməzik, bilmərik, *"vermәzmiz*" - verməzik, vermərik ("Anlar aydur: bizlər həm *bilməzmiz,* həm oquban sana *vermәzmiz"* - 61b) və s. kimi arxaik ifadə formaları, söz və ifadələrin o vaxtkı canlı deyiliş və tələffüz şəkilləri də XII-XIII əsrlər Azərbaycan dilinin inkişafının ümumi mənzərəsini təsəvvürə gətirməyə kömək edir.

5). Söz yaradıcılığı

Söz yaradıcılığı dilin inkişafını əks etdirən ən fəal prosesdir. Hər hansı bir kitabədə bu inkişafın izlənilməsi dilin bir sıra tarixi inkişaf xüsusiyyətlərini öyrənməyə yaxşı kömək edir; nəinki kitabənin yarandığı dövrün, habelə ondan əvvəlki və sonrakı dövrlərin inkişafı vəziyyəti barədə dürüst söz demək, fikir söyləmək imkanı verir. Fikrimizi, hələlik bircə misal üzərində cəmləyək:

"Yaquta bənzər sənin *yanaqların*
Yaş almadan lətifraq *sağaqların" (29).*

Beytdəki yanaq, sağaq düzəltmə sözlərinin biri müasir, digəri arxaikdir; həmqafiyə işlənmişdir.

Dildə yeni sözlərin yaranması, ilk növbədə dilin öz daxili imkanları hesabına olur, bu prosesdə isə sözdüzəldici şəkilçilər mühüm iş görər. Bunun bizdə çox qədim tarixi var. "Qisseyi-Yusif" poemasında söz yaradıcılığı o qədər zəngin və çoxcəhətlidir ki, bununla biz nəinki XIII əsrin əvvəlləri, hətta ondan əvvəlki dövrlərin də inkişaf yolunu təsəvvür edir, o vaxtdan bugünədək olan inkişafı izləyə bilirik.

Yeni sözlərin yaranması.

Sözdüzəldici şəkilçilər hər dövrdə öz məhsuldarlığı və qeyri-məhsuldarlığı ilə diqqəti cəlb edir.

"Qisseyi-Yusif"də müşahidə olunan sözdüzəldici şəkilçilər bunlardır:

1) *-lı, -li, -lu, -lü.* Bu şəkilçilər məhsuldardır; isimlərdən əsasən sifət düzəldir - *məqam+lı: "Məqamlı* məqamına cümlə girdi" (16), *ar+lu:* "Özü *arlu* yulaq mürvətlüdürür" (17), *borc+lu:* "Təhqiqdür bunda, *borclu* anda odur" (30), *qayğu+lu*: "Aydur: qanı *qayğulu* Yəqub nəbi?" (38b), *bəzək+lü:* "Bu sifətlü, *bəzəkli* rast qılur imdi" (41b), *örtü+lü:* "Niqabilə bəs anın yüzi örtülü" (53), *yaş+lu, baş+lu, qardaş+lu:* "Yusif aydur: nə mənidən gözün *yaşlu,* həm könlün qayğuludur bağrın *başlu,* Nə güssən var bunun kibi on *qardaşlu...*"

(54b), *qan+lı: "Qanlı* könləgin dutıb çoq ağladım" (56), *yer+lü:* "Bir xoş *yerlü* anı mədfən qılur imdi" (68b)...

O dövrün *-lı, -li, -lu, -lü* şəkilçilərilə yaranmış digər sözləri də vardır ki, bunlar artıq arxaikdir - *görk+lü: "Görklü* yüzdən niqabın heç götürmədi" (39), *qut+lu:* "Altıncı, qamulardan qatı *qutlu" (22), suç+lu:* "Gərəkməz kim, səni *suçlu* bilə imdi" (25), *qorquğ+lu* ("Xəbbaz aydur: *qorquğlu* sənin duşun" (35b), *yazıq+lu, tanuq+lu:* "Həqiqət, bən ərvən ol *yazıqlu.* Züleyxanın tanuqı yoq, bən *tanuqlu"* (32b), *uyat+lu:* "Ol oğlanığa *uyatlu* oldım" (40b)...

2) *-lıq, -lik, -luq, -lük.* Bu şəkilçilər daha məhsuldardır.

a) İsimdən mücərrəd isim düzəldir - *seyid+lik: "Seyidligə* Yusif layiq, bizdən, dedi" (15), *müsəlman+lıq:* "Yusif ana *müsəlmanlıq* elan qıldı" (18b), *təvazö+lıq: "Təvazölıq* birlə hizmət qılur imdi" (48), *yigit+lik: "Yigitlikdə* heç həsibin yoqmu imdi" (31b), *sultan+lıq: "Sultanlıq* Məlik Rəyyana qalur imdi" (35), *qız+lıq:* "Andan sonra *qızlıq* ola, aləm dola" (41), *şad+lıq:* "Ya könlümin şadlığı, gözim nurı" (59b), *ucuz+luq:* "Yusif aydur: yeti yıl *ucuzluq* ola..." (41), *var+lıq, aş+lıq: "Varlıq* keçdi, altı yıl tamam oldı; Həm anbarda tamam aşlıq həm qalmadı" (43), *ay+lıq:* "Oşal halda ol bir *aylıq* oğlan idi" (44), *saqi+lıq:* "Cümləsinə *saqilıq* sən qılğıl imdi" (48b), *inam+lıq:* "Hər birisi *inamlıq* qılurlar imdi" (51b), *uğur+lıq:* "İbn Yabin *uğurlıq* qıldımu əyan" (59), *oğrı+lıq:* "Həm oğlanları *oğrılıq* qılmaz olur" (60b), *altun+luk:* "Qaçan kim, Musa gəlim tabutını aldı, Qızıl *altunlux* üzə yazar imdi" (69)...

b) sifətdən isim düzəldir - *kiçik+lik: "Kiçiklikdən* düşdi bana uşbu hizmət" (11), *ğammaz+lıq*: "Oğlan, bən *qammazlıq* qılumazvən" (33), *netə+lik*: "Məlik Rəyyarı *netəligin* bilsün imdi" (41b), *gen+lik, dar+lıq;* "Misir içrə yeni yıl *genlik* oldı, Dürlü-dürlü nemət ilə aləm doldı, Ol keçdi yeti yıl *darlıq* oldı" (42b), *toğrı+lıq // doğrı+lıq: "Toğrılıqğa, tanuqlıqa* verür imdi" (32b), "Əgər sizlərdə *doğrılıq* olur isə..." (50b)...

c) feldən isim düzəldir - *qılmaq+lıq:* "Qorqub rücu *qılmaqlığa* dərmanım yoq" (30), *durmaq+lıq:* "Ağac dartıb *durmaqlığa* həmlə qıldı" (37), *etmaq+lıq, soymaq+lıq:* "Yusif nəbi aydur: sanа ayt-maqlıqğa, Həm yüzimdən niqabı *soymaqlıqğa...*" (38).

ç) zərfdən isim düzəldir - *iraq+lıq // yıraq+lıq:* "Şəhər birlə ol zindanın *yıraqlığı* Dört fərsəng yer idi bəs *iraqlığı*" (41b)...

Poemada *-lıq, -lik, -luk, -lük* şəkilçiləri ilə yaranmış, müasir dili-miz üçün artıq arxaik olan sözlər də işlənmişdir - *tanuq+lıq:* "Ol oğlannın *tanuqlığnı* qəbul qıldı" (33), *uluğ+lıq:* "*Uluğlıqğa* ana la-yiqdür, deyür imdi" (36), *urmaq+lıq:* "Dəpəni *urmaqlığa* niyyətin nədür?" (37)...

3) *-çı, -çi, -çu, -çü.* Bu şəkilçilər isimdən isim düzəldir - *xalva+çı, ətmək+çi: "Xalvaçı, ətməkçi,* əttar təmə qıldı" (17b), *muşt+çı:* "Məgər ki, sən *muştçısan?*- deyür imdi" (64)...

Poemada *-çı, -çi, -çu, -çü* şəkilçiləri ilə yaranmış, artıq arxaik olan çoxlu sözlər də vardır: *yulav+çı: "Yulavçılar* biti alıb ana gəl-di" (19b), *buraqın+çu: "Buraqınçu* verdi Cəbrail dönə gəldi. *Bura-qınçunı* Yusifin ağzına saldı" (35), *ayğı+çı:* "Bir *ayğıçı* kimsə təam yeməz imdi" (43b)...

4) *-la, -lə.* Bu şəkilçilər adlardan fel düzəldir - *söz+lə: "Sözlə-dikcə* Yusifin qəhri artar" (13), *ögüt+lə:* "Təcil varğıl, Yusifi *ögüt-ləgil"* (31b), *dinn+lə:* "Həm oxşayu, həm *dinnləyü* sorar imdi" (32b), *əyər+lə:* "Qaçan *əyərlənür* irsə kişnər idi" (43b), *qonaq+la:* "Qardaşların ikiləyin *qonaqladı" (56b), göz+lə:* "İbn-Yabinin yü-künə sağ gözlədi" (56b)...

Poemada *-la, -lə* şəkilçiləri ilə əmələ gəlmiş, müasir dilimiz üçün artıq arxaikləşmiş sözlər də işlənmişdir: - *ağır+la* "Ol bizləri *ağırladı*, qıldı ehsan" (51), *boz+la:* "Ya Yusif deyü *bozladı*, zarı qıldı" (36b), *satuq+la:* "Yük ilə *satuqlanız*, yoqdur altun" (47b)...

5) *-laş, -ləş* şəkilçiləri adlardan fel düzəldir - *ant+laş:* "Xəbbaz ilə saqini *antlaşdurdı*" (35), *söz+ləş:* "Neməti çoq deyübən *sözləş-dilər" (49), alqış+laş: "Alqışlaşu* düa qılıb dəbrəndilər" (57)...

6) *-iş, -ış, -üş, -uş* şəkilçiləri feldən fel düzəldir - *dön+üş:* "Mə-lik dəği ana *dönüşüb* işlər imdi" (13), *yügr+üş:* "Münadilər nühas içrə *yügrüşdülər"* (21), *gül+üş:* "Ol xatunlar Züleyxadan *gülüşdi-lər" (33), dur+uş:* "Axirət üçün *duruşmaq* gərək imdi" (38b), *gör+ üş:* "Cümləleri Yəqub üzə *görüşdilər*" (64 b)...

7) *-sız, -siz, -suz, -süz* şəkilçiləri isimdən sifət düzəldir - *güman+ sız:* "Heç *gümansız* mömin müxlis oldum imdi" (14b), *günahsız:* "Bu *günahsız* dəvəni urursan" (37), *baha+sız:* "Heç *bahasız* telim aşlıq verəm imdi" (50b), *qardaş+sız:* "Bən *qardaşsız* qaldum bu qapu-ya,.." (52), *xəta+sız:* "Yəqub aydı: *xətasızı* dedin imdi" (65 b)...

Poemada *-sız, -siz, -suz, -süz* şəkilçiləri ilə əmələ gələn müasir dilimiz üçün artıq arxaikləşən sözlər də müşahidə olunur: *-suç+suz // suç+sız* "Yusif *suçsuzdur,* qamusından, - dedi" (34b), "Yusif *suç+ sız* degil, suç bizdən imdi" (41b), *dəstur+sız: "Dəstur* yoqdur uşbu işi qılmaqlıqğa, *Dəstursız* iş mübarək olmaz imdi" (38)...

8) *-lan, -lən* şəkilçiləri isim və saydan fel düzəldir - *at+lan, niyyət+ lən:* "On iki bin əsgər birlə *atlandılar*, Yusifi almağa *niyyətlən-dilər*" (15), *iki+lən:* "Varıb yoldi bir mənzildə *ikiləndilər" (57)...*

9) *-ıq, -uq, -q* şəkilçiləri feldən isim düzəldir - *buy(ur)+uq // bu-y(u)r+ıq:* "Xəlil sənin *buyruğın* rəva gördi" (12), "Heç kimsənə çıqmaz anın *buyrığından"* (13), *yırt+ıq:* "Yusifin art ətəgini *yırtıq* gordi" (33)...

Poemada *-ıq, -uq, -q* şəkilçiləri ilə yaranmış, müasir dilimiz üçün artıq arxaik olan sözlər də işlənmişdir: *sat+uğ: "Satuğına* peşman olıb sorar imdi" (22b), *tanu+q*: "Ol oğlannın *tanuqlığnı* qəbul qıldı" (33)...

10) *-aş, -əş, -ş* şəkilçiləri feldən fel düzəldir - *sor+aş:* "Yusifdən hal-əhval *soraşdılar* imdi" (13b), *ağla+ş:* "Oğlanları deyübən *ağ-laşdılar"* (64b)...

11) *-çıq (-çik)* forma düzəldici şəkilçiləri də poemada tez-tez iş-lənir və kiçiltmə çaları düzəldir - *oğlan+çıq:* "İmdi bizim bir qul *oğlancıq* asi oldı" (34b).

12) *-inc, -ınc...* şəkilçiləri feldən isim düzəldir - *sev+inc:* "Möhnət sonı rahət, *sevinc* olur imdi" (59), *saq+ınc:* "Bu *saqınc* sanа layiq degül imdi". Qeyd edək ki, *"saq"* sözü müasir dilimiz üçün arxaik olsa da, *"saqın"*, *"saqınc"* sözlərinin kökünə rast gəlirik. M.Kaşğarlıda *"saq"* kökünün "diqqətli, ehtiyatlı, ayıq, düşüncəli və s. mənaları (1, 85, 333) göstərilir.

13) *-ı, -i, -u, -ü* şəkilçiləri feldən isim düzəldir - *ol+u, keç+i:* *"Oluya, keçiyə* həm bildürdi" (13), *yaz+u:* "Rəvail baqdı, ol *yazunı* anda gördi imdi" (54)...

14) *-daş* şəkilçisi isimdən isim düzəldir - *yol+daş:* "İbn-Yabin sizinlə gəlür isə, Atanız sizə anı *yoldaş* qılur isə..." (50b), *sevik+daş*: "Bənim dəği var idi bir qardaşım. Bir anadan doğmuş idük, *sevikdaşım"* (52)...

15) *-mur* şəkilçisi feldən isim düzəldir - *yağ+mur:* "Yel əsdi, həm qara yağmur qatı yağdı" (12)...

16) *-nca* şəkilçisi sifətdən isim düzəldir - *qara+nca:* ("Yılan-çıyan, qurt, *qaranca* düzülübən, Ağız, burun, til, tamağdan gedər imdi" -30)...

17) *-raq, -rək* şəkilçiləri sifətlərə birləşərək müqayisə dərəcəsi yaradır - *artuq+raq:* "Bəndən anа *artuqraq* hörmət qılğıl (24), *datlu+raq:* "Bal, şəkərdən *datluraqdur* dodaqların" (29), *ağ+raq:* "Kafurdan dəği *ağraq* səkələrin" (29b), *yek+rək*: "Batil işdən zindan banа *yekrək* imdi" (34) və h.b.

Burada, habelə o vaxtlar işlək olub, zaman keçdikcə unudulmuş düzəltmə arxaizmlər barədə də söz demək lazım gəlir. Poemada müşahidə edilən arxaik düzəltmə sözlər də, şübhəsiz, XIII əsrin əvvəllərinin məhsulu olmayıb, daha əvvəlki dövrlərdən xalq arasında, canlı dildə mövcud imiş. Əlinin məharəti onda idi ki, bu sözləri canlı dildən, danışıqdan götürüb ədəbi dilə gətirmiş, çox halda isə sözün tələffüzünü eynilə saxlamışdır. Bu da XII-XIII əsrlər ədəbi dilimizlə canlı danışıq dilinin qarşılıqlı əlaqədə inkişafını göstərir.

Məsələ mühüm olduğundan bunun üzərində ayrıca dayanaq.

6). Canlı dil-danışıq xüsusiyyətləri və imla

"Qisseyi-Yusif"in dili canlı danışıq-dil xüsusiyyətləri ilə zəngindir; bəzən söz və ifadələr ağızlarda, şifahi nitqdə deyildiyi, tələffüz olunduğu kimi də yazıya alınıb. Bu baxımdan poemanın imla xüsusiyyətləri "Dədə Qorqud"un imlası ilə daha çox səsləşir. Bu keyfiyyət, söz yox, şairin xalqla, canlı həyatla bağlılığı, insanlarla yaxından ünsiyyətilə əlaqədardır.

Azərbaycan yazılı ədəbi dilinin canlı dillə, danışıqla qarşılıqlı əlaqədə inkişafı mütərəqqi meyl kimi qiymətləndirilə bilər. Burada isə iki mühüm cəhət diqqət mərkəzində dayanır.

Sözlərdə səslərin əvəzlənməsi, bir səsin məxrəcə ona yaxın digər səslə növbələnməsi, sözlərin davamlı tələffüzü, səsdüşümü, səsartımı və bunların imlası dilin dərin qatları, inkişafın özünəməxsus daha qədim mərhələlərilə bağlıdır. Bunların tədqiqi dövrün nitq-danışıq mədəniyyətilə yazılı ədəbi dili arasındakı əlaqə və yaxınlığı öyrənmək üçün xüsusi əhəmiyyət kəsb edir.

a) səs dəyişmələri

1) t ~ d ~ t əvəzlənməsi.

Poemada bu samitlərin yeri sabit olmadığı kimi, onlar növbələşir, gah söz əvvəlində, eləcə də söz ortasında **t,** bəzən də **d** özünü göstərir.

Söz əvvəlində və sonunda t samitinə tez-tez rast gəlinir. Məs.: tar - تار (2b), taş - تاشی (3), tağda - تاغدا (5b), tağdan - تاغداً (5), tartdılar - تارتدیلر (7), ton - صلون (13), tonları - صلونلاری (17), toydı - تویدی (15), tiləsəm - تیلسام (26), tartar (dartar) - تارتار (28), til - تیل tamağ - تماغ (30), tul - صلول (45); eştib // eşitib - اشتب (7b), düştüm - دوشدوم (11), düştük - دوشتوک

(11b), etib - ايتب (12), eşitübə - اشتوبا (12b), getib - كتب (13), yüklətüb - يوكلتوب (18b), butaqları - بوتاقلارى (26b); *t* samitinə söz sonunda daha çox rast gəlinir. Məs.: *ot* (od) - اوت (2), *ant* - انط (8), *qurt* - قورت (12), *bulut* - بولوت (12), *dört* - دورت (27)...

Bir çox hallarda *t* - *d*-yə keçir: *dutmış* - دتمش (1b), *dutar* - دوتار (11b), *dutdı* - دوتدى (18b)...

Bununla belə, bəzən *d, t* səsləri növbələşir; eyni söz həm *d,* həm də *t* ilə yazılır: *otın* - اوتن (1), // *odın* - اودين (11), *tüşti* - توشتى (2b), *düştük* - دوشتوك (11b), *eşitib* - اشتب (11b) // *eşidüb* - اشدوب (61b), *tatlu* - تاتلو (13) // *datlu* - داتلو (22b), *adını* - ادنى // *atını* - اتنى (56), *töyü* - تيو (2) // *deyü* - ديو (7b)...

2) b ~ p ~ b əvəzlənməsi.

B → p-yə keçir: *poşanuban* - پوشانوبن (10b), *pişdi* - پشدى (60b), *eşidüp* - اشدوپ (64)...

P → b-yə keçir: *öbə-quca* - اوبه قوجه (10), *öbər-qucar* - اوبرقوجار (10b), *öb* - اوب, *öbər* - اوبار (12b), *bəndinə* - بندنه (27), *qabuda* - قبودا (36b), *badşahlıq* - بادشاهلق (42b), *alb-alb* - البالب (12).

Bununla belə, bəzən *b, p* səsləri növbələşir, eyni söz həm *b,* həm də *p* ilə yazılır: *öbə-quca* - اوبه قوجا (10) // *quca-öpə* - قوجا اوبه (4b), *bənd* - بند (14b) // *pənd* - پند (28b), *bəndinə* - بندنه (27) // *pəndim* - پندیم (29), *qabuğ* - قبوغ *qapuya* - قپویه (32), *badşah* - بادشه (42b) // *padşah* - پادشه (43b)...

3) b ~ v ~ b əvəzlənməsi.

Eyni söz həm *b*, həm də *v* ilə yazılır: *berdi* - بردی // *verdi* - ویردی (41), *var* - وار // *bar* - بار (18), *bardur* - باردور (12b), // *varur* - واروور (24), *vardı* - واردی (17) // *bardı* - بردی (25) // *barıb* - باریب (12b), *yalbaruban* - یالباروباً // *yalvarur* - یلڤاروور (25) // *yalvarurlar* - یلڤاروورلار (2), *varurlar* - واروورلار // *barurlar* - باروورلار (47b)...

4) *m* ~ *b* ~ *m* əvəzlənməsi.

Eyni söz həm *m*, həm də *b* ilə yazılır: *mən* - من // *bən* - بن (15), *mana* - منکا // *bana* - بنکا (11), *munı* - مونی (17b) // *bunı* - بونی (13), *munlar* - مونلار (9) *bular* - بولار (48) // *bunlar* - بولار (49b), *bin* - بنگ (18) // *min* - من (32)... Lakin *bindürdi* - بندوردی (33), *bindi* - بندی (41b), *binübən* - بنوبن (43b), *bindürəlim* - بندورالیم (41b) sözlərinin ilk *b* səsinin m-lə növbələşdiyi müşahidə edilmir.

5) z ~ s əvəzlənməsi: *palas* - پلاس (52), *palasını* - پلاسنی (13), *bulmas* - بولماس (36b), *irməs* - ایرمس (44b)... Bəzən bu sözlər növbələşir: *qılumasvən* - قیلوماسواً (29) // *qılumazvən* - قیلومزواً (33), *bulmasvən* - بولماسواً (29), *olumazvən* - اولومزواً (33)...

6) o ~ a əvəzlənməsi: *ana* - آنکا (13), *anı* - آنی (16), *anın* - انڭ (13), *andan* - اندآ (3b), *anın ilə* - انکیله // (19b) // - انڭکیله (16b), *avlab* (ovlayıb) - اڤلاپ (5), *qavuşmaqdan* - قاوشمقداً (55b)...

7) l ~ d əvəzlənməsi: *ündədi* - اوندادی (ünlədi, səslədi, çağırdı) - *66b*, *ündəb* - اوندابه (ünləyib: səsləyib, çağırıb) - *68*...

8) ə ~ ü əvəzlənməsi: *yüz döndürüb* - یوز دوندورب (9), *yüzün döşidi* - یوزون دوشیدی (11), *yüklümədi* - یوکلومادی (11b), *göndürgil* - کوندورگیل (61)...

9) ş → s-ya keçməsi: *düşmis* - دوشمس (12), *dosədilər* - دوسادیلار (21), *misk* - مسک (27)...

10) **səsartımı.** Bir sıra sözlərin əvvəlinə y samiti əlavə olunur: *yüzinə* - یوزینکا (3), *yığac* - یغاج (3b), *yincü* - یجو (6), *yıraq* - یراق (10b), *yıldurım* - یلدورم (12b), *yutmış* - یومش, *yüzik* - یوزیک (16b), *yiti* - یتی (29b), *yigit* - یکت (30), *yigirmi bin* - یکرمی بنک (39)...

Bununla belə, həmin sözlərin ikili vəziyyəti də müşahidə edilir: *yüzi* - یوزی // *üzi* - اوزی (15b), *yırağlığı* - یراغلغی // *iraqlığı* - ایراقلغ (41b), *ağlayu* - اغلایو (56) // *yığlayuban* - یغلایوبن (55b)...

11) səslərin uzanması. Poemada söz daxilində müəyyən səslərin davamlı tələffüzü nəzərə çarpır; sözdə bir səsin düşməsi digər bir səsin uzanmasına səbəb olur. Bu xüsusiyyət özünü ikinci şəxsin cəminə müraciətdə daha qabarıq göstərir. Məs.: *qılman* - قیلمانگ, *olman* - اولمانگ, *alman* - المانگ, *qalman* - قالمانگ, *olmasız* - اولماسز (1), *öldürmən* - اولدورمنگ *yetürmən* - یتورمنگ (1b), *uyman* - اویمانگ, *soyman* - سویمانگ, *saqlan* - سقلانگ (2b), *eylən* - ایلانگ (8b), *qorqman* - قورقمانگ (15), *baqman* - باقمانگ (16), *dinlənız* - دنکلانگز *aŋlan* - انکلانگ (19), *dutman* - دوتمانگ (21b), *saqlanız* - ساقلانگز, *girmənız* - کرمانگز (51b), *demən* - دیمانگ (59b), *bağlan* - بغلانگ (62b)... Digər vəziyyətlərdə də sözlərin davamlı tələffüzü müşahidə olunur: *avlab* - اقلاب (5), *bağlab* - بغلاب (10b), *kükrəb* - کوکراب (12b), *buz ərübən* - بوز ایروبن (13), *oqıb* - اوقیب (19b), *// oqub* - اوقوب (20), *görkən* - کورکن (24b), *işləb* - اشلاب, *eyləb* - ایلاب (28), *sözləb* - سوزلاب (32b), *ögütləb* - اوکوتلاب (35), *qodı* - قودی (38), *gördim duş* (gör düyüm duş, vaqiə) - کوردیم دوشی (40b), *kişnəb* - کشناب (45), *əsirgəbən* - اسرکابن (48b), *qoşdım* - قوشدم, *qoşdı* - قوشدی (55), *ağlab-ağlab* - اغلاب اغلاب (55b), *başlab* - باشلاب (57), *qoşmadın* - قوشمدین (59b), *der // dir* - دیر (1b), *derlər // dirlər* - دیرلر (2), *deb // dib* - دیب (3)...

12) ç ~ ş əvəzlənməsi. Bu xüsusiyyət özünü ancaq çaş(maq) sözündə göstərir: *əqli şaşdı* - عقلی ششدی (15), *əqli şaşar* - عقلی ششر (15b), *əqlin şaşıb* - عقلنك ششيب (148)... Əslində ta qədimdən "şaşmaq"dır. Sözün müasir şəklindən çıxış edir və ç-nın ş-ya keçdiyi fikrini şərti olaraq söyləyirik.

13) damaq saitlərinin dodaq saitinə keçməsi: *qıldun* - قيلدونك (11b), *bağlu* - باغلو (11), *deyür* - ديور (12), *gəldün* - كلدونك, *qaldurdı* - قلدوردی, *yalvarur* - يلواورور, *geyürdi* - كيوردی, *bindürdi* - بندوردی (13), *bilüb* - بلوب, *verüb* - ويروب, *qarşu* - قارشو (14), *eşitdügin* - اشدوكنك, *dedügin* - ديدوكنك, *etdüm* - اتدوم, *bildüm* - بلدوم (14b), *degül* - دكول, *gəlsün* - كلسون, *yatur* - ياتور (15), *qaldur* - قالدور, *artuq* - اريوق (16), *qılsun* - قيلسون (16b), *gerü* - كيرو, *keysün* - كيسون, *qalur* - قالور (17), *girürlər* - كيرورلر (17b), *yüklətüb* - يوكلتوب. *gətürür* - كتورور (18b), *əmanətdür* - امانتدور (23), *bəzənübən* - بزانوبان. (27), *açdurdı* - اجدوردي (36), *idük* - ايدوك, *dərtlü* - درتلو (51), *qapudan* - قپوداً (51b), *gəldük* - كلدوك (52), *verdük* - ويردوك (60)...

14) dodaq saitlərinin damaq saitinə keçməsi: *gördi* - گوردی, *buyurdı* - بيوردی (3b), *durdı* - دوردی (3), *buldı* - بولدی

(4b), *gördim* - کوردیم (6), *sordı* - صوردی (9), *doğmış* - دغمش, *oğlı* - اوغلی (14), *sözin* - سوزنک (14b), *toydı* - تویدی, *köçdi* - کوچدی (15), *müti oldı* - مطیع اولدی (16), *munı* - مونی (17b), *naçar olıb* - نجار اولب (25), *bunı* - بونی (31), *qulına* - قولنه (33b), *öpdi* - اوپدی (40b), *doğrılıq* - دوغریلق (50b)...

Bununla belə, ikili vəziyyət də müşahidə olunur: *eşitib* - اشتیب (7b), // *eşitüb* - اشتوب (10b), *qıldum* - قیلدوم // *qıldım* - قیلدیم (12), *alıb* - اولب (25) // - اولیب, *oluba* - اولوبا (32), *gördinizmü* - کوردونکزمو // *gördünüzmü* - کوردونکزمو (34), *yüzin* - یوزین // *yüzün* - یوزون (42)...

15) x ~ q əvəzlənməsi. Kitabədə x səsli sözlər azdır, x səsini əksərən q əvəz edir: *toqunursa* - توقونورسه (12), *qorqar* - قورقار (12b), *çıqaruban* - چقاروبا" (13), *saqlarlar* - ساقلارلار (14), *toqsan* - توقسان, *qorqman* - قورقمانک, *çıqdı* - چقدی (15), *çıqardı* - چقاردی (17), *qorqıb* - قورقب, *yoq* - یوق.., *çoq* - چوق (30), *yoqmu* - یوقمو (31b), *yoqsa* - یوقسه (34), *baqmaz* - باقمز (37b), *baqsam* - باقام, *çıqsam* - چقام (38),.. həm x səsli ana dilinin öz sözlərinin, həm də alınma ərəb və fars sözlərinin, bir qayda olaraq nöqtəsi buraxılmışdır: حصه. Biz bu

sözləri müasir imla ilə x oxuduq: *uçmax* - اوچماغ (1), *uçmaxdan* - اوچماغدان (3), *xatun* - خاتون (20b), *oxşayuban* - اوخشایوباً ... *xaliq* - خلق (2), *xatırından* - خاطرندان (3b), *bixud* - بخود (7), *xudavənda* - خداوندا, *xətalardan* - خطالردآ (12), *xəbər* - خبر (13b), *xələt* - خلعت (17), *xəzinə* - خزینه (26), *xeyir* - خیر (26b), *məxluq* - مخلوق (31),.. Bir-iki söz müstəsnadır; belə ki, "halvaçı" sözü *xalvaçı* - خلواجی şəklində nöqtəli yazılıb ("Xalvaçı, ətməkçi, əttar təmə qıldı" - 17b), yəqin ki, *hal* sözü ilə qarışmasın deyə *xalın* - خالنک sözündə də *x*-nın nöqtəsi qoyulmuşdur.

Ümumiyyətlə, kitabənin imlasının qeyri sabitliyi, bir sözün bir neçə şəkildə yazılması çox səciyyəvi haldır; bir sözün iki şəkildə yazılışı daha artıq.nəzərə çarpır: *sonra* - صنکره // *sora* - سورا (2), *genə* - کنه // yenə - ینه (6b), *dəvəyə* - داقیه // *dəvəyə* - داویه (18), *bular* - بولار (48) // *bunlara* - بونلاره (49b), *sevər* - سور (50) // *sevər* - سؤر (47), *dövlətli* // *dölətli* - دولتلی // *dövlət* - دؤلت (16b), *böylə* - بویله (30) // *şöylə* - شیله (34), *söylər* - سیلار (47) // *sözlər* - سوزلار (49), *söyləməgə* - سویلامکا (53), *sözləməgə* - سوزلامکا (47)...

Kitabədə elə sözlər, ədatlar və s. var ki, özünü nəinki iki, hətta üç, dörd şəkildə göstərir. Məs.: ulu sözü üç şəkildə: *ulu* - اولو (16) //

uluq - اولق (11) // *uluğ* - اولوغ (24); dəxi ədatı üç-dörd şəkildə: *dəxi* - دخی (8) // *dəği* // *dağı* - داغی (9b, 17) // *təqi* - تقی (14b); *ilə* (la, lə) qoşması öz arxaik formaları ilə birlikdə dörd-beş şəkildə: *həsrət ilə* - هسرتیله *atamız ilən* - اتامزیلك ن, *həsrətlə* (10b), *fəzli birlə* - فضلی برله (11), *anın ilə* - اننکیله (16b) // yazılıbdır.

"Qisseyi-Yusif"in imla xüsusiyyətlərinin bu çoxcəhətliliyi, ilk növbədə canlı dilin yazılı dilə güclü təsiri və bunların qarşılıqlı əlaqəsindən irəli gəlirdi. İmlada vahid qayda-qanuna əsaslanmamaq canlı danışığın zəngin xüsusiyyətlərini, söz və ədatların müxtəlif tələffüz şəkillərini yazılı dilə gətirirdi. Bu cəhət XII-XIII əsrlər ədəbi dilimizin ümumi sövti mənzərəsini təsəvvür etməyə, yazılı dillə, şifahi danışığın qarşılıqlı əlaqəsini izləməyə geniş imkan verir. Həmin əsrlərdən yazılı dillə canlı danışıq dili bir-birinə elə yaxın olub, bir-birini elə tamamlayıb ki, bunu biz dilin həm öz, həm də gəlmə ərəb-fars sözləri əsasında yaranan düzəltmə sözlərdə də müşahidə edirik. Məs.: *-lıq, -lik, -luq, -lük* şəkilçiləri ilə düzələn sözlərdə canlı tələffüzə uyğun olaraq əksərən *-lik* (لیك) əvəzinə *-lıq* (لیق) şəkilçisi işlənir: *təvazö+lıq* - تواضیع لیق (48), *peğəmbər+lıq* - پیغمبر لیق (2b), *huri+lıq+lar* - حورلقلار (25), *siddiq+lıq* - صدیق لیق, *sadiq+lıq* - صادیقلق (28), *zəif+lıq* - ضعیف لیق (36b), *saqi+lıq* - ساقی لیق (48)... Bu, sırf danışıq dilinə, şifahi nitqə uyğun tələffüzün imlasıdır ki, indi də canlı danışıqda müşahidə olunur. Alınma "aşiq" sözündən yaradılıb *aşıq+lıq* - عاشق لیق (25b), *aşıq+lıq+ım* - عاشقلقم (34).. şəklində yazılan sözlərə əsasən demək olar ki, aşiq sözü də canlı danışığa uy-

ğunlaşaraq o vaxtlar *aşıq* şəklində tələffüz olunurmuş. Eyni fikri alınma *düşman* - دوشمان, *düşmanlıq* - شمانلیق دو (10), *dünyalik* - دنیالک (39), *peşman* - پشمان (10b) və b. kimi sözlər haqqında da söyləmək mümkündür.

b) alınma sözlər və onların dilə-danışığa uyuşması

Dillər arasındakı qarşılıqlı əlaqə, yəni bir dilin başqa bir dildən söz alması tarixi və əbədi prosesdir.

"Qisseyi-Yusif" poemasından belə anlaşılır ki, XII-XIII əsrlər Azərbaycan dilində xeyli ərəb-fars sözləri işlənirmiş. Bu sözlər "əsl" sözlərimizlə qaynayıb-qarışmış, dilin mövcud qayda-qanunlarına, qrammatik quruluşuna tabe olmuşdur: istər gəlmə-alınma, istərsə də dilin öz sözlərinin idarə üsulları eynidir, dildə bütün sözlər eyni qayda-qanunlara tabedir.

Azərbaycan ədəbiyyatının, anadilli zəngin yazılı kitabəsi olmaq etibarilə "Qisseyi-Yusif"də alınma sözlərin dilə uyuşması, qaynayıb-qarışması, idarə üsulları və s. barədə bir qədər geniş danışmaq lazım gəlir.

Alınma ərəb və fars sözlərinin XII-XIII əsrlərdəki idarə üsulları müasir dilimizdən, demək olar ki, fərqlənmir; alınma sözlər hər vəziyyətdə indiki kimi dəyişilir, haldan-hala düşür, yeni söz yaradıcılığı prosesində iştirak edir. Təbii olaraq, alınma sözlər dilin mövcud qanun-qaydalarına tabe olur, uyğunlaşır və s. Bu isə onu göstərir ki, alınma sözlərin ana dilinə keçməsi, canlı dildə, danışıqda işlənməsi tarixi yazılı dildən daha qədimdir; görünür "Qisseyi-Yusif"ə qədər, hələ bizə məlum olmayan yazılı kitabələrdə də təcrübə edilibmiş.

Bir-iki misal:

1) Şairin öz dilində:
***"Züleyxa,* ol *Məlik Telmus* qızı imiş,**
Yastığı atasının dizi imiş" (19)

2) Züleyxanın atasının dilində:
"Bəs atası sorar, aydur: nə ağlarsan?
Könlündən nə keçirüb, nə tilərsən?" (19)

3) Yusifin dilində:
***"Bəyan* bilgil, sən bənimsən, bən *həm* sənin,**
Bəndən artuq heç kimsənə bəs, bulumın" (19b).

Beytlərdə kursiflə verdiyimiz sözlər alınmadır, qalan bütün sözlər ana dilimizin öz "əsl" lüğət tərkibi və lüğət fonduna aiddir.

Dayənin "sana layiq bir saraya bina" etdir - təklifi, Züleyxaya verdiyi məsləhəti və xəyalən sarayı təsvirindən bir parça verək:

***"Saf* qızıl altundan atlar eyləsün,**
***Göhər, yaqut,* yinçü birlə bəzək qılsun,**
Çörəsində telim dürlü yığac diksün,
Yemişləri *həm* altundan olsun imdi.
Ol yığaclar özəsində quş qondursun,
Ol quşların tikməsi bir dürlü olsun..." (26b)

Burada da yenə kursivlə verilən bir-iki söz istisnadır, burada əsas yeri dilin öz sözləri tutur, aparıcılıq işini onlar görür.

Lakin bəzən mövcud vəziyyətdən, təsvir obyektindən asılı olaraq, alınma sözlər çoxalır, ana dilinin öz "əsl" sözlərini üstələyirsə də, qrammatik quruluş alınma sözləri himayəsinə götürüb elə idarə edir ki, fikrin ifadə tərzi tamam xəlqi-milli "qəlibə" düşür. Məs.:

***"Mövlə Xəlil məxfirət layiq* qıldı,..**
***Günahların cümləsini əfv* qıldı" (18b)**

Və:

***"Həman dəm* bin Cəbrail hazır gəldi,**
***Mövla xaliqdən Yusifə səlam* qıldı" (22b)**

Birinci beytdə *qıldı* arxaik köməkçi felindən başqa qalan sözlər alınmadır, ərəb və fars sözləridir. Lakin misralarda sözlər elə idarə olunmuş ki, dilimizin bugünkü quruluşu, imla xüsusiyyətlərilə də

tam səsləşir. İkinci beytdə də *bin* (min) sayı, *gəldi* feli və yenə arxaik *qıldı* köməkçi felindən başqa qalan sözlər alınmadır, ərəb və fars sözləridir. Lakin kimin ağlına gələ bilər ki, bu beytlər, bu cümlələr azərbaycanca deyil.

Alınma söz ki, dilə gəldi, tədricən özəlləşir, başqa sözlərlə "qaynayıb-qarışır", doğmalaşır, yəni dilin xüsusiyyətlərinə, qrammatik quruluşuna tabe olub müəyyən "qəlibə", ölçüyə düşür, çevrilib dilin öz malı, öz sözü olur.

Alınma sözlərin ana dilinin öz sözlərilə ayrı-ayrılıqda əlaqəsi və idarəsi mətn daxilində, cümlədə tamamlanır; qrammatik quruluş sözləri dəyişdirir, birləşdirir, dilin mövcud qayda və qanunlarına uyğun olaraq nizama salır, yerbəyer edir. Beləliklə, bütöv yeni fikirlər alınır və bu fikirlər müəyyən "qəliblərə", ölçülərə düşür, dilin ritminə, daxili ahənginə və digər məziyyətlərinə uyğun şəkil alıb dilin öz malı olur.

Bunu aşağıdakı parçadan aydın görmək olar:

"*Andın sonra* ələddəvam təam *qıldı*,
Günah+*lar+ın* cümlə+*si+ni* əfv *qıldı*" (18b).

"Bu dünya+*nın* vəfa+*sı yoq, gəlür, getər.*
Axirət *üçün duruşmaq gərək imdi" (38b).*

"Fəzl+*i birlə* xaliq *anı qıldı yarlu*,
Hökm+*i birlə* əql+*i* tamam, *özi arlu*,
Din+*i bütün*, elm+*i* tamam, *yüzi* nur+lu
Yüzin görən canın* fəda *qılar imdi" (44b).

Misallarda kursivlə verilən sözlər və rəngarəng şəkilçilər alınma sözlərin idarə olunmasında əsas rol oynayır, söz, ifadə, birləşmə və cümlələrin tam azərbaycanca olmasını təmin edir.

Dilin inkişafı tarixində bu çox mühüm və əbədi prosesdir.

Alınma sözlər dilin bütün nitq hissələrilə idarə oluna bilir. Bu prosesdə fellər fəallıq göstərir.

Fellərlə idarə. Fellərlə idarənin dörd vəziyyətini qeyd etmək olar.

1)·Müstəqil fellərlə idarə. Alınma sözlər *qal*(maq), *bil*(mək), *dilə*(mək), *ver*(mək), *gör*(mək), *çıx*(maq), *gəl*(mək), *get*(mək), *çaşşaş*(maq), *um*(maq), *kəs*(mək), *dön*(mək), *ye*(mək), *uy*(maq) və s. kimi sözlərlə işlənib ya mürəkkəb fel, ya da müəyyən işə, hərəkətə aid tərz, keyfiyyət mənaları bildirən sözlər olur: *rəva gördi (3b), həlak elədünüz (5), hazır gəldi (7), əhval bildi (7b), güman tutarmısız (8), ğafil düştük (11b), bəlayə düşmis, əlamət göstər (12), zülm gördi (12b), cəvab eylər, xəbər sordı (14), qübbə gəldi, cümlə çıqdı (16), hacət dilər (16b), əcayib qalur (17), heyran qaldı (18b), aciz qaldı, məhrum qaldım (23), əyan bilir (17), bəyan bilgil (19b), bəyan bildi (35), icazət diləyübən (38b), xəbər verdi (38b), ğələt çıqdı (20b), cilus gəldi (35), hazır gəlmiş (33b), əqli getdi (21), əqlin şaşdı (22), xələt verdi, qəzası dönməz (35b), visal umar (36b), təam yeməz (37b), həqğa uyub (30b),..* Bəzən idarəetmədə müasir dilimiz üçün arxaik olan müstəqil fellər də iştirak edir: saqi aydur (35), rast ayıdursan (26)...

2) Köməkçi fellərlə idarə. Alınma sözlərin idarəsində *ol*(maq) daha fəal, *et*(mək) və *idi* köməkçi felləri isə zəif iştirak edir: *qəbul oldı (2), şəfqət oldı (3), müti olın fərman oldı (5), məcmu olmış idi (6b), razı olmayavuz (8b), bezar oldınız (10), peşman olurlar (10b), məlum olmadımu? (11b), müxlis oldum (14b), bixub olıb (15), xəbər oldı (18), müti oldı (16), müti olsa (34), müti olmaz (21), sabit oldı (16), şəhid oldı (17b), aşiq oldı (19), aşiq olmış (33b), zay oldı, hasil olur (20b), mütəhəyyir oluba (22), xali olmış (23b), sücud oldı (24b), rəva olmaz (31), xəcil olmış, rüsvay oldılar (33b), asi oldı (34b), əsir olub (35), mömin oldı, xübbaz oldım (35b), nicat oldı (37), rahət ola, düası qəbul ola (38), məhbus olmış (38b), məqam oldı, aciz oldım (45), pünhan olub (49b), təcil olsun (50b),.. habelə: oldı məğmum (23), oldı heyran (37), istər dərman (37b), məlum eyləmiş (22b), məlum idi (21),..* Bəzən idarəetmədə müasir dilimiz üçün arxaik olan köməkçi fellər də iştirak edir: riza irdi (19b), nicat irdi (35b).

3) arxaik *qıl*(maq) felilə idarə. Maraqlıdır ki, alınma sözlərin idarəsində "olmaq", "icra etmək", "yerinə yetirmək" mənalarında işlənən *qıl*(maq) arxaik köməkçi feli başqa sözlərlə müqayisəyə gəlməz dərəcədə fəal iştirak etmişdir: *taət qıldı (2), duạ qılub (5b), dua qıldı, dua qıla (16b), ğüsl qıldı (16), səbr qılsun, ruzi qıldı, ruzi qıla, qəbul qıldı (16b), vida qılubaп, əmr qıldı, hazır qıldı, rəhmət qıldı, həvəs qılın (17), əta qıldı, fida qıldı (17b), fida qılur, fida qıldım (34b), hiylə qıldı (18), nəzər qıldı (18), nəzər qılsa (23), bəyan qıldı (18), heyran qıldı, təam qıldı (18b), zahir qıldı, fəryad qıldı (20), elam qıldı (22), elam qılğıl (25), cəfa qılursan, mürüvvət qıldım (30b) qəsd qılıb (31), rüsvay qıldun (32), hökm qılğıl (33), hökm qılsa (36), töbə qılğıl (33), töbə qıldı (36), cilvə qıldı (33b), hasil qıldı (34), keyd qıldı, vəfa qılmaz, məhbus qılğıl (34b), xilas qıldı, sücud qılıb (36), zare qıldı, ələm qıldı (36b), hizmət qılır (37), salam qılğıl (38), namaz qılıb (38b), cəhd qılıb (42), fəryad qılur (45),.. habelə: qıldı fərman, qıldı salam (16b), qılğıl zahir (43), qıldı ehsan (50b)...*

4) "var", "yoq", "deyil" sözlərilə idarə. Bu sözlərlə idarə azdır: *qiyməti yoq (8b), hikmət var (18), kəlamın var, qamətin var (29), zövqin yoqtur (30), təcil varğıl (31b), vəfası yoq (38b) zindana vardım (40), rəva degül (41), layiq degül (44)...*

İsimlərlə idarə. İsimlərlə idarə, bir tərəfi ərəb, fars, digər tərəfi Azərbaycan sözlü təyini növ söz birləşmələri yaradır: *fəraq odı (4), kafir qulı, ğürbət odı (8), qul səbri, qul tədbiri (10b), sərvər balıq (16b), vüsal güli (29b), bəla odın (44b), həsrət odı (45)...*

Əvəzliklərlə idarə. Alınma sözlər həm şəxs, həm işarə, həm də sual əvəzliklərilə idarə olunur.

1) Şəxs əvəzliklərilə: *mədəd səndən (2b), günah bəndən (12b), sənin düan (16b), bənim halım (18b), bənim rəncim (34), sənin həsrətinni (36b), bənim rahətim (29), sən diyarlu (29b), mədəd andan (31), anın ləfzi (40), sənin eşqin, bənim sirrim (46b)...*

2) İşarə əvəzliklərilə: *bu əhvalı (5), ol səbəbdən (6), bu qəzanı, ol şərtilə (8), bu möhnətdən (12), ol sərvər (16b), ol vəqt (19b), ol*

vəqtdə (21), bu cahan (20b), bu xəbər (21), ol xəlayiq (21b), ol sirrini (22b), bu razımı (23), bu sirri, bu ehsan, bu niyyət (23b), ol saqiyə (35), ol şərabdar, ol xübbaz (35b), ol ərəbi (37), o ərəbi (37b), ol məhzunə (38), bu dünyanın (38b), bu sifətlu (48b), ol həsrətdən, ol dünyadan (50),.. habelə: oluq saət (20), oşal dəmdə (21b), oluq zaman (40),..

3) Sual əvəzliklərilə: *nə bəhaya? (8), neçə bəha? (21b), xəbərin nə? (38b), nə mənidən? nə səbəbdən? (39), günahımız nə? (43), nə hacət? (49b).*

Sifətlərlə idarə. Sifətlərlə idarədə bir neçə vəziyyət özünü göstərir. Məs.:

Cavab verdi: ***mürüvətlü, yumşaq, rəqiq***
Pənd, nəsihət verüb nəhy qılur imdi (29b)

beytində sifətlər alınma "cavab" sözü ilə bağlıdır, buna görə zərf kimi də düşünülə bilər. Sifət sözlərin biri ana dilinin öz sözü *(yumşaq)*, ikisi isə alınma *(mürüvətlü, rəqiq)* sözüdür. Deməli, həm alınma, həm də ana dilinin öz sözləri sifət kimi çıxış edir, həm alınma, həm də ana dilinin öz sözlərilə qarşılıqlı əlaqəyə girir, yəni idarəetmədə tərəflər növbələşir.

Bu növbələşmə özünü aşağıdakı şəkillərdə göstərir.

1) ana dilindəki sifət sözlər alınma isimlərdən qabaq gələ bilir və ona sifət verir: *görklü cəmal (18b), yaxşı qamətin (25), yiti əndam (29b), dürlü nemətlər, ağır xələtlər, dürlü-dürlü mədh (42)...*

2) ana dilindəki sifət sözlər alınma isimlərdən sonra gələ bilir və ona sifət verir: *xülqin yaxşı, qəddin yaxşı, lütfin yiti, ləfzin şirin, eşqin qatı (29), ləfzi qutlu (22),*

3) ana dilindəki isim sözlər alınma sifətlərdən qabaq gələ bilir və sifətlənir: *dili fəsih (21b), boyun lətif, yüzin lətif (29), könül müşfiq (49),*

4) ana dilindəki isim sözlər alınma sifətlərdən sonra gələ bilir və sifətlənir: *ziba ton, fəsih dili, ğaqi ömrü (18), səhih sözlü, zərif*

üzlü (21b), ziba saçların, diləfzun gözlərin, hələvətlü sözlərin, hərirdən yumşaq əllərin (29b), səhih sözin (32b), batil iş (34), batil işə (23), batil işdən (34), fəsad işdən (31b), adil kişi (48b)...

Zərflərlə idarə. Alınma sözlərin zərf olmasında, xüsusilə arxaik "içrə" (içində, sahəsində) sözü fəallıq göstərir: *aləm içrə (5b), rəxt içrə (7b), dünya içrə (19), meydan içrə (21b), zindan içrə (38b), cənnət içrə (39),.. telim müddətlər (21), ayrılmaqlıq vəqti (23), gor içində (29b), bir neçə vəqt (36b),..*

"İmdi" zaman zərfilə idarə olunan alınma sözlər, poemanın yazılış tərzinə, üslubuna uyğun olaraq diqqəti ayrıca cəlb edir. "İmdi" sözü ilə idarə olunan alınma sözlər, əksərən mürəkkəb fellərlə "qıl(maq)" arxaik, "ol(maq)", "et(mək)" köməkçi və b. əsas fellərlə işlənir: *hasil olur imdi (3), giryan olur imdi (3b), təvazölıq qılur imdi (5), təcil qılqıl imdi (6), təslim qılur imdi (7b), bəxşiş qılın imdi (8b), hasil qılğıl imdi (11b), fəryad olmaz imdi, həlak olduq imdi (12b), əyan bilür imdi (17), baha etməz imdi (21), müyəssər ola imdi (26), hasil qılam imdi (28), düşvar imdi, ğarət qıldı imdi (30), heyran qalurlar imdi, nicat oldı imdi (33b), yadigar olsun imdi, mübarək olsun imdi (38), nə damət olur imdi (40), mömin oldı imdi (45b), rəva olmaz imdi, məşhur imdi (50),..*

Modal sözlər, bağlayıcı və s. ilə idarə. Burada *ilə, -la, -lə* bağlayıcısının arxaik şəkilləri olan **birlən, birlə** bağlayıcıları daha fəaldır: *fəzli birlən (3), fəzli birlə (16b), zülmü birlə (5b), həsrətlə // həsrətilə (8), eybi birlə (9), malım birlə, qəm-ğüssə birlə (20), xadimlər ilə, xübbaz ilə (35), qüdrət birlə (36), təcil birlə, fəraq üçün (36b), axirət üçün (38b), ğürbət üçün (39b), ya İsrail! (39), nemət ilə (41), hər vəqt (44b), aya, şahi-cahan (45b), aşiq irsən, sadiq irsən, bürhan gərək (46),..* və h.b.

Göründüyü kimi, alınma sözlər ana dilinin müstəqil sözləri ilə idarə olunduqda belə arada şəkilçilər mühüm rol oynayır, həm sözdəyişdirici, həm də sözdüzəldici şəkilçilər hər vəziyyətdə fəaliy-

yət göstərir, dilin daxili qayda-qanunlarına müvafiq tarazlıq yaradır, onu istiqamətləndirir; beləliklə də, alınma sözün, deyilən yeni fikrin ana dilinə tam uyğunluğu təmin edilmiş olur.

Alınma sözlərin idarəsində məhz şəkilçilərin rolu diqqəti ayrıca cəlb edir.

Alınma sözlərin şəkilçilərlə idarəsi

Sözdəyişdirici şəkilçilərlə dilə gələn əcnəbi söz, ilk növbədə şəkilçilərlə qarşılaşır, şəkilçilərin "müqavimətinə" rast gəlir; belə ki, gəlmə söz ana dili şəkilçilərini qəbul etməli olur, şəkilçilər sözü dəyişdirir, haldan-hala salır, beləliklə, alınma söz dilin öz malına çevrilir. "Qisseyi-Yusif"dəki alınma sözlər şəkilçilərlə aşağıdakı şəkillərdə işlənir.

İsmin hal şəkilçilərilə. *Adlıq halda: səvab, rəva, məruf (1), kitab (1b), aqibət (2), risalət, bəşarət (2b), əcəl, əhval (3b), qəza, həqiqət (4b), hikmət (5), qəsd, təam (5b), küfr, şirkət (7), bəxşiş (8b), zəlil, kafir, təqsir, səbr (10), girov, tədbir, haq təqdiri (10b), şad (16b), şərif, lətif (17b), mal, xəzinə, əhval, mömin (18), surət, fəhm (19b), cahan, ğələt, murad (20b), müşk-ənbər (22b), xaliq, inayət (24), əqd-nikah, ilham (32), cəmal (34b), nədamət, saqi (40), rəva (52b), risalət, kəramət (54b),..*

Yiyəlik halda: həqq+in, meh+rin (2b), həqq səlam+ın (3b), qüvvələr+in, bəşarət+in (7b), adəmi+nin (34), şeytan+ın (34), cümləsi+nin (b), şöbə+nin (36), dünya+nın (39b), səlam+ın (46b), məlun+un (51),..

Yönlük halda: zindan+a (3b), müəbbir+ə, məqam+ə (16), mənzil+ə, kəmbəha+ya (6b), qövlümüz+ə (9), cəma-ı(n)+a (18), xatiri(n)+ə, murad-ı(n)a (20), hörmət-im+ə (21b), xəzinə+yə // xəzinə+ğə (23b), həbib+ğa (25b), ibrət+ə, qüdrət-i(n)+ə (33) , əmrim+ə(34), saqi+yə (36), dünya+ya (38b), zəlil+ə (39b), zindan+a (40b), cəmal-ım+a ((43),..

Bəzən, göründüyü kimi, *a, ə, ya, yə* əvəzinə arxaik *ğa (ğə), gə* şəkilçilərinə də təsadüf edilir; təbii olaraq, bu arxaik hal şəkilçiləri öz sözlərimizdə də işlənir: *oğlan+ğa (24), oğlancıq+ğa, toğrılıq+ğa (32b),..*

Təsirlik halda: qəza+nı (5b), təvil-i+ni (6), niyyət-i+ni (9), həsrət+i, aqibət+i (10), əndam+ı, siddiq+i (16), xələt+i (17), surəti-cəmal-ı+nı, surəti-kəmal-ı+nı (17b), səbr-im+i, qəza+nı (8b), halı+nı, bu əhval+ı (20), meydan+ı (21), qiymət-i+ni (22), mal+ı (22b), düa-sı+nı, bu raz-ım+ı (23), hörmət-i+ni (24), aşiq-lığ+ı (27), məbud-im+i (31), cəmal-ın+nı (33b), zindan+ı, murad-ı+nı, nəfs-i+ni (34), saqi+ni (35), razı+nı (37b), salam+ı (38), əhval+ı (38b), ibrət+i (46b),..

Bəzən canlı danışığın təsirilə hal şəkilçisinin bir hissəsi yox olur, zahirən görünmür, məzmuna görə müəyyən edilir: *niqab+ın* ("Körklü yüzündən niqabın götürdilər" *(21), xəzinə+sin* ("Xəzinəsiin dolu mal görər imdi" *(23b), can+ın* ("Yüzin görən canın fida qılur imdi" (34),..

Yerlik halda: axirət+də (1), təbir-im+də (6), həqiqət+də (9), risalə+də (17b), xəzinə+də (22), həzrət-nı+də (34b), şəhərin+də (35), Kənan+da (36b), dünya+da (38b), ərş+də (42b), mürvət+də (51), saət+də (52b), fəraq-ın+da (53),..

Çıxışlıq halda: axirət əzab-ın+dan, rəhmət-in+dən (1), ixvanım+dan (2b), xatır-ın+dan (3b), xaliq+dən (5), möhnət+dən (6b), cəfa-sın+dan (8), xatir-im+dən (19b), siddiq+dən (23), məbud-im+dən (31), qadir+dən (32), keyd-in+dən, dəvət-in+dən (34), zindan+dan (36), möhnət-lər+dən (36), eşq-in+dən (45b), bəxt-im+dən, təxt-im+dən (46), dünya+dan (50),..

Mənsubiyyət şəkilçilərilə idarə. Alınma sözlər hər üç şəxsdə - həm təkdə, həm də cəmdə işlənib mənsubiyyət şəkilçiləri qəbul edir. Poemada daha çox istifadə olunan mənsubiyyətin ifadəyə qənaət şəkillərinə diqqət edək.

Təkdə:

I şəxs: *səbr+im (5b), bəha+m(7b), mal+ım (18b), xətr+im, nəfs+im, əql+im, mülk+üm (19b), minnət+im (23b), murad+ım-ı (28), aşıq-lığ+ım (33), subhan+ım-dan (36), məmləkət+im (42), hacət+im (47),güman+ım (45b),..*

II şəxs: *cəmal+ın (2), əhval+ın (3b), mal+ın, günah-lar+ın, ömr+in (18b), əql+in (21b), sirr+in-i (22b), qövl+in, fel+in, eşq+ in (28b), həqq+in (34), rahət+in (45), şərafət+in (44b), vüsal+ın (52),..*

III şəxs: *vədə+si (6b), əql+i (8), qəbr+i (32), düa+sı (38),..*

Cəmdə :

I şəxs: *nəsib+imiz (39b), günah+ımız (41b), hal+ımız-ı (48b), nəsl+imiz-dir-lər (47b),..*

II şəxs: *murad+ınız (5), ehsan+ınız, cümlə+niz-ə (50b),..*

III şəxs: *dua-lər+i (5), həsrət-lər+i, dost-lar+ı, düşmən-lər+i (32),..*

Cəm şəkilçilərilə. Alınma sözlər hər vəziyyətdə cəm şəkilçilərilə işlənir: *biçarə+lər (2b), dərmandə+lər (3), möhnət+lər, həsəd+lər (3b), firiştə+lər (6b), günah+lar-ın cümləsini (18b), münadi+lər (21), peyğəmbər+lər (22), bəsarət+lər, düa+lar (23), aşıqlıq+lar-a (27), xadim+lər, mal+lar (35), nemət+lər, hacət+lər (36), təzərrü+lər (37b), ehtiram+lar (41), şiddət+lər, rahət+lər (46b), ğəm-qüssə+lər (44b),.. və h.b.*

Sözdüzəldici şəkilçilərlə. Alınma sözlərin sözdüzəldici şəkilçilərlə işlənib alınma sözlər əsasında yeni sözlərin yaranması prosesi başlanğıcdan özünü çox mühüm keyfiyyət kimi göstərir.

Ana dilimizin öz "əsl" sözləri kimi, bir qayda olaraq, alınma sözlər də sözdüzəldici şəkilçilərlə ifadə olunur, müvafiq şəkilçilərlə yeni sözlər düzəlir, bu şəkilçilər alınma sözlərin dilə uyuşması üçün daha artıq iş görür, onu əslindən uzaqlaşdırıb, bir növ "doğmalaşdırır", söz dəyişilib tamam yeni, "milli" forma və məzmun kəsb edir. Məs.:

Heç *gümansız* mömin, müxlis oldum imdi" (14b),
***"Biədəblik* qılmağıl sən, derlər imdi" (20),**
***"Hələvətlü, mürüvətlü* sözlərin var" (29),**

"*Ədəbsizlik* qılmışdır olu, deyür imdi" (32b),
"*Bivəfalıq* qılduñ bizə, suçlu olduñ" (32b)...

Misralarda alınma *ədəb* və *biədəb* sözlərinə *sız* və *lıq* sözdüzəldici şəkilçiləri qoşulub müstəqil sözlər - sifət (ədəb+*siz*) və isimlər (ədəbsiz+*lik*, biədəb+*lik*) düzəlmişdir; *bivəfa* və *güman* sözləri sözdüzəldicilərlə yeni şəkil və məzmun almış, ön şəkilçili *bivəfa* (bi+vəfa) alınma sifəti -*lıq* şəkilçisilə ismə (bivəfa+*lıq*) və *güman* ismi isə sız şəkilçisilə sifətə (güman+*sız*) çevrilmişdir; *həlavət, mürvət* alınma sözləri, yəni isimləri *lü* sözdüzəldicisi ilə çevrilib sifət (həlavət+*lü*, mürvət+*lü*) olmuşdur.

Alınma sözlərin sözdüzəldici şəkilçilərlə bu cür dəyişilib yeni mənalar kəsb etməsi gedişi ana dilimizin öz sözlərindən fərqlənmir, biz bunu sözdüzəldici şəkilçilərlə düzələn bütün alınma sözlərdə müşahidə edirik.

Alınma sözlər aşağıdakı sözdüzəldici şəkilçilərlə mənaca dəyişdirilir və yeni sözlər olur.

1) *-lı, -li, -lu, -lü* şəkilçilərilə isimlərdən sifət düzəldilir - *nur+lu // nur+lı:* "Hər birinin Yusifdən yüzi nurlu" (15b), məqam+*lı*: "Məqamlı məqamına cümlə girdi" (16), sifət+*lü:* "Heç kimsə sən sifətlü olmış degül" (18), məsləhət+*lü*: "Bana məsləhətlü söz sözləyirsən" (26), həlavət+*lü*, diyar+*lu*: "Heç kimsənə görmiş degül sən diyar*lu*" (30), rahat+*lu* // rahat+*lı:* "Rahatlı muştlarvən deyür imdi" (41b), dərt+l*ü:* "Yəqub aydı: ol sözin dərtlü gəldi" (51), şəfaət+*lü*: "Qulu yulaq mehriban, həm şəfaətlü" (63b),..

2) *-lıq, -lik, -luq, -lük* şəkilçiləri

a) isimdən isim düzəldilir - aşıq+*lıq*: "Yusif üzə aşiqlığım hər dəm artar" (34), siddiq+*lıq*, sadiq+*lıq*: "Həm siddiqliq, həm sadiqlıq ana dəgdi" (28), dünyə+*lik*: "Bu dünyəlikdə muradım hasil oldı" (39), axirət+*lik*: "Bənim üçün axirətlik düa qılğıl" (39), badşah+*lıq* // padşah+*lıq*: "Badşahlıq bəndən sana layiqdurur" (42b), "Padşahlıq qılasan təslim yerə" (44b), xüda+*lıq*: "Darlıq uzakda xudalıq qılur gördi" (42b), məlik+*lik:* "İzası məliklik ruzi qıldı"

(44b), sərvər+*lik*: "Aləmin sərvərligni qılur irdim" (45), səltənət+*lik:* "Səltənətlik məqamın gördilər isə,.." (49b), məğbun+*lıq*, məhrum+*lıq*: "Məğbunlıqdan, məhrumlıqdan yıraq olğıl" (53), səfa+*lıq*, halal+*lıq:* "Səfalığın, halallığın dilər imdi" (66b),..

b) sifətdən isim düzəldilir - zəif+*lıq*: "Zəiflıqdan sünükləri durmaz oldı" (36b),..

3) *-çı, -çi, -çu, -çü* şəkilçilərilə: duva+*çı*: "Duvaçı Yəqubdan hacət dilər" (39), xidmət+*çi:* "Bəni sizə xidmətçi verdi imdi" (49),..

4) *-la,.-lə* şəkilçilərilə: arzu+*la*: Arzulayu soldurdı görklü yüzin" (21), zindan+*la*: "Züleyxa aydur, bu oğlannı zindanlağıl" (32b),..

Beləliklə, söz yaradıcılığında ana dilinin öz sözlərilə yanaşı, bəzi alınma ərəb və fars sözləri də dili yeni sözlər hesabına zənginləşdirirdi.

Bununla da biz XII-XIII əsr Azərbaycan ədəbiyyatının ən mühüm yazılı kitabəsi - Əlinin "Qisseyi-Yusif" mənzum romanı və onun dili haqqında ümumi təsəvvür yarada bildik; lakin bu, hələ son söz deyil, filologiyamızda bu sahədə görüləcək mühüm işlərin başlanğıcıdır.

2. "Əhməd Hərami dastanı" və onun dili

Bizə qədərki fikir və mülahizələrə görə Azərbaycan dilində yazılmış bu əsər XIII əsrin sonlarına aiddir; müəllifi məlum deyil. Əsər gözümüz önündə 7 əsr bundan əvvəlki Oğuz türkcəsinin, Azərbaycan dilinin ümumi mənzərəsini canlandırır.

Türk alimi Tələt Onay yazır: "Əsərin dili, ümumiyyətlə oğuz türkcəsi, Azərbaycan ləhcəsidir"; "Şairin o zamankı türkcəni yaxşı bildiyi, sözləri yerli-yerində işlətdiyi, hətta farscaya da tam bələd olduğunu söyləyə bilərik"; "Təbiidir ki, bugünkü dil və üslubla müqayisə oluna bilməz. Amma tamamilə XIII əsrin dil və üslub xüsusiyyətlərinə malikdir. İfadə sadədir, axıcıdır; oxuyarkən çətinlik çəkilmir, aparıcıdır" (281, s.VIII-X). Daha sonra: "Şairin vəzni

müvəffəqiyyətlə işlətdiyini söyləmək olmaz, "imalə" və "zihar" çoxdur. Bu bir qüsur deyildir. Çünki türkcəni əruz qəliblərinə salmaq əzəldən çox çətin olmuşdur" (281, s.X).

Beləliklə, "Əhmət Hərami dastanı" Azərbaycan dili və ədəbiyyatının XIII əsr kitabəsidir. Təəssüf ki, "Dastan"ın əsli, əlyazma nüsxəsi və ya heç olmasa, ərəb əlifbası ilə köçürülmüş bir əlyazması, yaxud çap nüsxəsi əlimizdə yoxdur. Tələt Onayın latın əlifbası ilə çap etdirdiyi məlum mətni etibarlı sayır və tədqiqatı həmin nəşr üzərində aparırıq.

1). "Dastan"ın dil və üslub məziyyətlərinə dair

"Dastan", adına uyğun şəkildə dastan üslubunda nəql olunur; müəllifin özünü təqdimi, hadisələrin bir-birilə bağlanması və əlaqəsi üsullarında bu özünü aşkar göstərir.

a) Şair, söz və məna aləmi. Şair əvvəldə söz, məna aləminə münasibətini bildirməklə söhbətə başlayır. Kiçik "Giriş"də müəllif söz, "mənalar kanı", fikir aləminə qiymət verir, məna aləmini ümman, sözü dəryadan çıxarılan gövhərlə müqayisə edir, bunları özünəməxsus dəst-xəttilə mənalandırır.

"Anun keyfiyyəti bulunmadı heç,
Məkanı qandadur, bilinmədi heç.

Nə zahirdür ol kim, gözdən irəlməz,
Nə batidir ol kim, hərgiz görünməz.

Anun əvvəlinün önü bulunmaz,
Anun axirinün sonu bulunmaz" (4).

Şair dastan yaratmağın, söz deməyin, mənanı, fikri "zikr" etməyin məsuliyyətini dərk edərək, təvazökarlıqla, səmimi-dildən üzrxahlıq edir, "Mənalar kanı", fikir aləminin şərhində acizliyini ("üzüm qara"), biliyinin azlığını ("nə bilim var ki"), "yolu doğru"

tutsa da, sözünün "qısa", özünün ixtiyar ("belüm əgri") olduğunu söyləyir.

"Nə dilim var, anı şərh eyləyəm bən,
Nə bilüm var ki, şərhin söyləyəm bən...

Yüzüm qara, sözüm qısa, suçum bol,
Belüm əgri, yolum doğru, boyum sol" (4) və h.b.

Bu uğurlu başlanğıcdır; oxucunu ələ almağın, dastanı oxumağa maraq oyatmağın çox orijinal üsuludur.

Sonra, şair yenə təəssüflə deyir:

"Qova-qova könül dünyaya irdi,
Ömür keçdi, saqalı, saç ağardı.

Əbəs yerlərdə xərc etdim yaşum bən
Yeridür, taşlara dögsəm başum bən" (5).

Daha sonra, şair zamanın tələbinə uyğun olaraq dini söhbət açır, "mədəd" diləyir:

"Gəl, imdi Mustafaya ver salavat,
Deyəlüm necədür, anla hekayat" (6) -

deyə əsl mətləbə keçir.

Bu, dastan söyləməyin, sözə, söhbətə başlamağın, zamanına görə, məqbul üsulu idi. XIII əsrdə bu yeni deyildi. Yusif Balasaunlunun, Nizaminin, Əlinin dastan-poemaları da belə söz, məna aləmi haqqında qiymətli fikirlər söyləməklə, belə təsvirlər, belə müraciətlərlə başlanırdı. "Dastan" müəllifi böyük sələflərindən, habelə şifahi xalq ədəbiyyatının keçib gəldiyi zəngin dastan janrı və dastansöyləmə, dastanyazma ənənələrindən öyrənə, bəhrələnə bilərdi.

XII-XIII əsrlərdə -istər farsca yazılsın, istərsə də türkcə - "Dədə Qorqud" ənənələri, Nizami poeziyasının təsir dairəsi, bununla bağlı xalqın səviyyəsi, estetik zövqü, poeziyaya olan tələbi o qədər güclü idi ki, oxucunu qane etmək, razı salmaq hər sənətkarın hünə-

ri deyildi. Bunu "Dastan" müəllifi də yaxşı bilirdi. Buna görə, məsuliyyət hissilə deyirdi ki, oxucu adi oxucu deyil, "mənalar bəhrini seyr edən", "dərya gövhərindən" - söz incilərindən həzz alan, mənalar aləmində tükü tükdən seçib "qılı ikiyə biçə" bilən arif adamlardır. Sözü elə demək lazımdır ki, onların səviyyəsincə olsun; sözü elə demək lazımdır ki, "xatırda zərrəcə müşkül qalmasın":

"Gölün, ey, məni bəhrin seyr edənlər!
Bu dərya gövhərindən xeyr edənlər!

Məanidə qılı iki biçənlər!
Dilindən daima gövhər saçanlar!

Gəlün barı, bugün söhbət qılalum,
Məani kanının dürrün bulalum.

Anun birliginin zikr eyləyə dil,
Xatırda qalmaya zərrəcə müşkil" (3).

Hələ XIII əsrdə, adı hələlik bizə məlum olmayan bir sənətkar sözə belə ehtiramla yanaşır, ona ali mövqedən qiymət verir və qarşıya belə yüksək tələblər qoyurdusa, bu yetkinlik, bu mənəvi yüksəklik, bu ədəbi zəmin XIV əsrdən Qazi Əhmədi, Nəsimi dühasını yetirməli, ana dilində yazılı söz sənətinin zirvəsi fəth edilməli idi...

b) Hadisədən hadisəyə keçidlər və bağlama üsulları. "Dastan"da hadisədən hadisəyə, məclisdən məclisə maraqlı keçidlər, əhvalatları bir-birinə bağlama üsulları var. Bu üsullar öz rəngarəngliyi ilə diqqəti cəlb edir. Şair lap əvvəldən qarşısına məqsəd qoyur ki, gərək hər şey aydın ola, nəzərdən heç nə qaçmaya.

Altı "Məclis"dən ibarət olan dastanın hər məclisi orada vaqe olacaq hadisəyə, əhvalata işarə ilə başlanır. Məs.: kiçik "Başlanğıc"ın sonunda hadisələrin təsvirinə - məclisdən məclisə bu keçidlər yaradılır:

"Eşit, gəl bir Həraminün sözünü,
Əgər görür isən məni yüzünü.

Olursa həq-təaladan inayət,
Qılam bu qisseyi bir-bir hekayət" (6)

Məclis başlanır və davam edir... İkinci məclisə keçid yaradılır:

"İkinci məclisə ağaz edəlüm,
Yenə Əhmət Həramiyə gedəlüm" (18)

Məclis başlanır və davam edir... Üçüncü məclisə keçid yaradılır:

"Gələlüm bu üçüncü məclisə biz
Xəbərimdən eşidün çün xəbər siz" (35)

Məclis başlanır və davam edir... Dördüncü məclisə keçid yaradılır:

"Sən uş dördünci məçlisə nəzər qıl!
Görün kim, nəyə varur iş bu mənzil" (50)

Məclis başlanır və davam edir... Beşinci məclisə keçid yaradılır:

"Bu məclisi bu yerdə qəsr edəlüm,
Bu göz beşinci məclisə gedəlüm" (65)

Məclis başlanır və davam edir... Altıncı məclisə keçid yaradılır:

"Bu gəz altıncı məclisə girəlüm,
Güləndam nə qılur, anı görəlüm" (78)

"Dastan"da məclislər arasındakı bu ardıcıllıq, əlaqə XIII əsrə qədər bizdə güclü dastan ənənəsinin, dastansöyləmə mədəniyyətinin, dastan üslubunun tam şəkil aldığını, onun yazıya da alınma təcrübəsinin mövcudluğunu, habelə əsər müəllifinin səliqəli, aydın təfəkkürlü kamil sənətkar - ədəbi şəxsiyyət olduğunu təsdiq edir.

Ayrı-ayrı məclislərdə söylənən, bir-birini təqib edən hadisə və əhvalatlar arasındakı keçidlər, əlaqələr əsərin dilindəki aydınlıq və bağlılığı bir daha artırmış olur:

"Gələlüm biz həramilər sözünə,
Biləsiz anlarun fikri, sözü nə?" (13)

"Yenə Bağdada suvar oldu rəvanə,
Qulaq ur, billahi, bu dastanə" (19)

Və yenə:

"Çu bunlar oldılar yola rəvanə,
Qulaq ur, billahi, bu dastanə" (38)

"Oralardan bular durmadı getdi
Eşit imdi, Hərami anda netdi?" (45)

Və yenə:

"Qılıcını çəküp irdi Hərami,
Eşit gör, nə cavap verür Hərami?" (46)

"Beş-on gün çün bular işrətlər etdi,
Eşit gəl, məniyi anla ki, netdi" (63)

"Görün ol zalimi ki, nə qəsd etdi,
Atına bindi dağa doğru getdi" (70) və hb.

Bütün bu "gələlüm biz", "biləsiz", "qulaq ur", "eşit imdi", "eşit gör", "görüp ol zalimi ki" müraciətləri bir-birinə calanan hadisələr arasında elə rabitə, bağlılıq yaradır ki, oxucu əsərdən ayrıla bilmir, hadisələri diqqətlə izləməyə məcbur olur. Bu, əsərin əsas üslubi məziyyətlərindən sayıla bilər.

Uzun söhbətləri kəsmək, qısaltmaq məqsədilə işlənən "keçidlər" daha maraqlı olub, eyni üslubi nöqtəni vurmaqla, əsərə daha yeni bir məziyyət - artıq sözə-söhbətə yol verməmək, sözə qənaət etmək, yığcamlılıq məziyyəti əlavə edir. "Dastan"da yorucu, uzun-uzadı əhvalatlar yoxdur, mətləbdən kənar söz deyilmir. Müxtəlif keçidlər, "söz kəsmələrlə" qısa yollar seçilir, söz yığcam deyilir. Məs.: bir yerdə "nə söz uzayın bən" ("sözü niyə uzadım" və ya "sözün qısası"), bir çox yerdə isə "söz əgiş" // "söz ögüş ("söz çoxdur, qısa edək" və ya "xülasə") keçidlərilə hadisələrə xitam verilir, son nəticə söylənilir, ümumi süjetə yeni hadisələr calanır.

"*Söz ögüş*, aqibət şəhrə varurlar,
Həqə şükr eyləyübən yüz ururlar" (48),

"*Söz ögiş*, biri-bir buları qırdı,
Tənindən başlarını cümlə aldı" (73) və hb.

Bütün bu keçid səciyyəli qısaltmalar bədii təsvirlər və xüsusilə surətlərin təqdimində özünü daha qabarıq göstərir.

2). Bədi təsvir dili

"Dastan"ın dili bədii boyalarla zəngindir; fikir aydındır, oxucuya tez çatır.

a) surətlərin təsviri və təqdimi

Şairin estetik idealı qəti müəyyəndir. Bu, özünü təsvir və ifadə vasitələrində də aydın göstərir. Əsərdə surətlərin təsvir və təqdimi diqqəti xüsusilə cəlb edir. Şair hər surətin özünə layiq söz deyir, onların zahiri və daxili aləmini açan münasib təşbeh, ifadə tərzləri işlədir, surəti tam şəkildə alıb, həm müsbət, həm də mənfi keyfiyyətlərini açıb göstərir, müsbəti təqdir, mənfini rədd edir.

Bu mənada ikicə surətin - əsərin baş qəhrəmanları olan Güləndamla, ona qarşı dayanmış Əhmət Həramini təsvir dilinə nəzər salaq.

Güləndam əsrinin nadir gözəli, "məhbubi-zəmanə" kimi təsvir və təqdim olunur:

"Bəğayət, xub idi ol şəhi-şəngül,
Yüzi gül, sözü bülbül, saçı sünbül.

Güləndam idi ol nigarın adı
Şəkərdən şirin idi sözü, dadı...

Gümüşdür, tazə boyun billurə bənzər
iki cadu gözü səhharə bənzər..." (10)

Güləndam əsrinin ziyalı, oxumuş, səbatlı qızı kimi təsvir və təqdim olunur:

"Yanardı şəmidanı ilində
Yazardı xət, qələm tutmuş əlində.

Divani xət içində sehr edərdi,
O xət içində yanı mehr edərdi" (10)

Güləndam əsrinin mərd qızı, qılınc vuran qolu kimi təsvir və təqdim olunur:

"Şoluq dəm belinə qılınc quşandı
Bulardan qorqdu və nə utandı" (12)

"Başın çıqardı kim, baqaydı andan
Boğazından çalar o güli-xəndan.

Fələk peymanəsin ol dəmdə içdi,
Başı uruldı anun taşra düşdi.

Biri dəxi irişdi ol şərabə
Nə şərabdur, ömür verdi xərabə.

Macal vermədi, anı dəxi çaldı,
Həman dəm göğdəsindən başın aldı..." (14, 15).

Bu dil müsbət planda işlənmiş surəti təsvir dilinə nümunədir. İlk söz, ifadə və beytlərdən son söz, ifadə, cümlə və beytlərədək surəti açır, onun zahiri gözəlliyi ilə mənəvi gözəlliyini vəhdət halında üzə çıxarır.

Əks tərəfi - Əhməd Həramini təsvir dili, birincidən fərqli olaraq həm mənfi, həm də müsbət keyfiyyətləri açır, qarşı-qarşıya qoyur, biri təqdir, digəri isə rədd edilir.

Əhməd Həramı qüvvətlidir, qağan aslan cüssəlidir, qılınc çalandır:

"Qılıc çalsa, bin ərə dəpinəydi,
Qağan aslan kibi kim çapınaydı" (7).

Amma bu qüvvəni, bu cüssəni şər işlərə sərf edir, soyğunçuluqla məşğul olur:

"Delim mal yığladılar anda olar
Hesabı yoq qumaşı, simü zərlər" (7)

Əhməd Hərami elmlidir, nicum elminə bələddir, o Əli Bu Sinanı da oxumuşdur:

"Bilürdü sehr elmindən bəğayət,
Nicum elmində də qadirdi qayət...

Əli Bu Sina elmindən bilürdi,
Şəhabəddinə ol hizmət qılurdı" (6, 7).

Amma bu elmdən şər işlər üçün istifadə edir, əfsun oxuyub xəzinə qapısı açır, oğurluq edir:

"Demişlər adına Əhməd Hərami,
Cavı tolmuş idi illər təmami.

Toquz kişi anun yoldaşlarıydı,
Dünü gündüz bilə haldaşlarıydı...

Buların cavı düşdi Ruma, Şama,
Kimsənə varmaz oldı ol məqama" (7, 8)

"Dastan"da dil aydınlığı fikir aydınlığını yaradır. Şair elə bənzətmələr, sifətlər, bədii söz və ifadə şəkilləri seçib işlədir ki, bunlar nəinki zamanın mövcud bədii dil və üslubunu, şairin fərdi dil və üslub məziyyətlərini də müəyyənləşdirməyə kömək edir.

"Dastan"a bədii vüsət verən və bilavasitə şairin dil yaradıcılığı və axtarışlarının məhsulu olan obrazlı dili, atalar sözü və zərbi-məsəllər üzərində dayanaq.

b) obrazlı dil

Bədii əsərdə sözün, fikrin qanadlı ifadəsi mühüm şərtdir. Poeziya mənəvi aləmin zirvəsidir və ondan aşağı enə bilməz. Məhz obrazlı dil bədii əsərin təbiətindən doğur. "Dastan"da da başlanğıcdan belə bir istiqamət götürülür.

Əsərdə ailə münasibətlərinin təsvirində ata qızına bu obrazlarla müraciət edir:

"Şəhinşah dedi: *ey canum parəsi*
Ki, *sənsin gözümün ağı, qarəsi" (30)*

Güləndama aid bu sifət qayınana olacaq ananın dilindən də eynilə təkrar olunur:

"Dedi: gəldi bizə bir can parəsi,
Ki, *oldur gözlərin ağı, qarəsi" (54).*

Yaxud, vuruş səhnələrinin təsvirində "öldü", "öldürdü" anlayışları çox orijinal obrazlı ifadələrlə verilir: "ömri tağıldı" (məhv oldu), "fələk peymanəsin içdi", "ömür verdi xərabə", "göğdəsindən başın aldı", "başın kəsdi" (15). Və ya: "qanın içdi" (74), "qana qərq oldı" (75), "canını cəhənnəmə ismarladı" (79) və hb.

Belə obrazlı dil, fikrin məcazlarla ifadəsi əsəri fərdi üslubi keyfiyyətlərlə zənginləşdirir, onun özünəməxsus məcazlar aləmini yaradır. Əsərdə obrazlı ifadələr, idiomlar çoxdur, bunlardan aşağıdakıları göstərək.

"Ağlını iş etmək" (fikirləşmək, götür-qoy etmək; ciddi düşünmək): "Güləndam bu sözü bir-bir eşitdi, Özünə ağlını bir-bir iş etdi" (27).

"Ağzunu göz görə nuş eyləmək": "Dedi kəndəzinə ah neylədüm bən. Ağuyı göz görə nuş eylədüm bən" (39).

"Bağrı başı sökülmək": "Bunı dedi gözindən aqdı yaşı, Yenə söküldi ol dəm bağrı başı" (75).

"Bıçaq sümügə irmək (çatmaq, dirənmək)"; "Fürsət ələ girmək": "Bıçaq sünügə irdi, neyləyəyin? Barı razumı bir-bir söyləyəyin" (52); "Güləfrux der: bıçaq sünügə irdi, Nə səbr edəm, çü fürsət ələ girdi" (57).

"Qanı halal olmaq": "Əgər atam bəni buna verürsə, Halal olsun qanum kim, öldürürsə" (29).

"Qanlı yaşın dökmək": "Dögərdi qanlu yaşın, ağlar idi. Başına gələni şərh eylər idi" (53).

"Qəza yoluna başı canlar qoymaq": "Cəbə cövşən silahı geydi anlar, Qəza yoluna qoyup başı çanlar" (9).

"Dərisinə sığmaz olmaq", "Könlündən güssə getmək": "Sevindi, dərisinə sığmaz oldı, Könüldən güssə getdi, şadi oldı" (70).

"Dərd odından ahən ərimək": "İçindən keçirür dərdilə ahın, O dərd odından əriyəydi ahən" (77).

"Döşək vaqtı olmaq": "Qaçan ki, döşək vaqtı olurdı. Donanurdı ol işə qız gəlürdi" (34).

"Eşq odunı canda yaqmaq": "Əl aluşub yenə taxta çıqarlar. Yenə eşq odunı canda yıqarlar" (61).

"İçində dərd odı, cigər dolu qan (olmaq)": "Turı gəldi Güləndam key, pərişan, İçində dərd odı, cigər tolı qan" (77).

"İçini od dutmaq": "İçini od dutdı, istərdi qızı. Ovavü tağıvü meşəvü yazı, Aradı çoq, nə bulud və nə duydı" (47).

"Yer yüzünə uçurmaq": "Uçurdı yer yüzünə ol hərifi, Zi gənc arslan, dilavər gör zərifi" (79).

"Yürəgi təzələnmək, su saçılmaq": "Anı gördi yenə açıldı. Yürəgi təzələndi, su saçıldı" (17).

"Yürəginə su səpilmək": "Çü surçdı ayağı ol nabəkarun, Yürəginə su səpildi nigarun" (79).

"Könlün görmək": "Nə dürlüdür onun könlün görəlüm. Bəs andan bu işə bünyad uralum" (25).

"Gərdəyə girmək": "Çü dügün savulup axıra irdi, Hərami ol gecə gərdəgə girdi"; "Bənüm şəklüm olubən gərdəgə gir, Sənünlə arada olsun bu tədbir" (33).

"Gözündən yaş yerinə qan dögülmək": "Şu rəsmi kim, qılurdı ahü əfğan. Gözündən yaş yerinə dökülür qan" (43).

"Min könüldən sevmək": "Göricək yüzini bin cani dildən. Güləfrux sevdi anı bin könüldən" (69).

"Sağını, solunu gözləməmək": "Gözətmədi sağını və solını, Həman ol tutdu Gürcistan yolını" (38).

"Səməndər kimi odlara dutuşmaq": "Nədən qorqarisəm ona sataşdum, Səməndər kibi odlara dutuşdum" (39)

"Xalq içində dəftər açılmaq": "Açıldı xalq içində iş bu təftər, Oqındı, xəlqi-aləm qıldı əzbər" (18).

"Həsrət odına yaqmaq": "Kərəm eylə, sözümdən çıqma, ey dost! Bəni həsrət odına yaqma, ey dost!" (37)

"Can qulağın dutmaq": "Dutub can qulağın bu sözi dinlə. Nəyə varur bu işün sonı, anla" (78).

"Can gülməmək": "Bu iş bitməzsə könlüm sakit olmaz. Yüzüm gülərsə, canum bil ki, gülməz" (63).

"Cigərinə qorqu boyanmaq": "Güləndam qorqdı bəlinər oyanur. Anun cigərinə qorqu boyanur" (74).

"Şahinin qarğa şikarı olmaq": "Cahanda yoqmudur bir şahzadə Ki, verirlər bəni bir xoryadə. Netə rəva görür heç anı barı Ki, bir şahinin ola qarğa şikarı" (27) və hb.

Bütün bunlar XII-XIII əsrlər ana dilimizin xəlqi keyfiyyətlərini əks etdirir; xalqımızın yüksək obrazlı bədii dilə, estetik zövqə, mili adət-ənənələrə, yüksək ədəb-ərkana, hörmət və ehtiram hisslərinə malik olduğunu göstərir ki, bu, təkcə həmin əsrlərin məhsulu olmayıb, uzaq keçmişlərdən yığılıb gəlirdi.

c) cinas sözlər və qafiyələr. Cinas sözlər, xüsusilə qafiyələr qoşmaq söz yaradıcılığının incə bir qolu olub, bədii söz sənəti tariximizdə özünəməxsus inkişaf yolu keçib gəlmiş, bu inkişaf XII-XIII əsrlərdən daha aydın istiqamət alıb yoluna düşmüşdür.

"Dastan"da müasir dilimizlə tam səsləşən cinas sözlər, cinas qafiyələr özünü həm göz, həm də qulaq cinasları kimi göstərir. Sözlərin və şəkilçilərin birləşməsilə yaranan eyni tərkibli, müxtəlif mənalı bu sözlər XII-XIII əsrlərin yazı dilinə yeni bədiilik gətirir, ahəng verir. Cinas söz və qafiyələr aşağıdakı şəkillərdə düzülüb-qoşulur.

1) eyni tərkibli sözlərin biri xüsusi isim, ad, digəri ismin təsirlik halında işlənməklə: *Hərami // həram+i.*

"Məgər kim, ol zamanda bir *Hərami,*
Dərüb döşirmiş idi çoq *hərami" (6)*

2) eyni tərkibli sözlərin biri ismin təsirlik halının canlı dildəki tələffüzü, digəri arxaik feli bağlama şəkilçisi ilə işlənməklə: *ara+yı / ara+nı // ara+yı*

"Turaq ediptilər bir sərp *arayı,*
Oları kimsə varmaya *arayı" (7)*

3) eyni tərkibli sözlərin (və ya sözlə birləşmənin) biri ismin yönlük halında, digəri "nə?" sual əvəzliyi ilə işlənməklə: *söz-ü+nə // söz-ü nə? suç-ı+na // suç-ı nə?*

"Kələlüm biz Güləndamun *sözünə,*
Nədür halı, nədür fikri, *sözü nə?" (28)*

"Güləndam ayıtdı kim, bunun *suçı nə?*
İşi etmək gərək layiq *suçına" (76)*

4) eyni tərkibli sözlərin biri ismin təsirlik halında, digəri sözdüzəldici şəkilçi ilə işlənməklə: *qılıc+ı // qıl+ıcı.*

"Yalın eylədi ol hindi *qılıcı,*
Görün, nə qılur ol fitnə *qılıcı" (12).*

5) eyni tərkibli sözlərin biri sifət, digəri xəbər şəkilçisi ilə işlənməklə: *bahadur // baha+dur.*

"Özü gürbüzdürür, yavlaq bahadur,
Bahadırlıq yolunda key bahadur" (6)

6) eyni tərkibli sözlərin biri "lər" cəm şəkilçisi ilə, digəri "ləyər" şəkilçilərinin canlı tələffüzə uyğun "lər" şəklində işlənməsilə: *əcəb+lər // əcəb+lər // əcəb+lə+yər),*

"Eşid imdi bu yanadan *əcəblər,*
Eşidənlər anı yavlaq *əcəblər" (33).*

7) eyni tərkibli sözlərin biri isim, digəri fel olaraq işlənməklə: *gül // gül!*

"Ayıtdı: sözüm eşid, ey üzü *gül!*
Şükür qıl padşaha, ağlama, *gül" (49).*

8) eyni tərkibli sözlərin hər ikisi isim (lakin biri müasir baxımdan arxaik) olaraq işlənməklə: *yazı* (yazı, məktub) // *yazı* (çöl, oba, düzənlik).

"Diriğa, gör nə yazülmış bu *yazı,*
Nə üşənəydi gəzmək dağı, *yazı" (53).*

9) eyni tərkibli sözlərin biri isim (muğam adı), digəri isə iki müstəqil sözün birləşməsi ilə: *Şahnaz// şah naz.*

"Gəlür ağazə dürlü sövti-pərdə
Eşidənlər bulur dərmanı dərdə.

İraqü İsfahan, Novruzü *Şahnaz,*
Edərdi bir-birinə iki *şah naz" (62).*

10) eyni tərkibli sözlərin biri ismin yönlük halında, digəri isə fel olmaqla: *yol+ı+na // yol+ın+a* (yoluna, yonula, soyula).

"Könildi girdi ol qəza *yolına,*
İşin bilməz kişi, sonra *yolına" (71)*

11) eyni tərkibli sözlərin hər ikisi canlı tələffüzə uyğun şəkildə işlənməklə: *qarar+ı* (qararır // qaralır) // qarar+ı (qarar+ı // qərar-ı) - biri fel (qaralmaq), digəri isə isim (qərar)

"Durı gəldi yenə könli qararı.
Dəxi heç qalmadı səbri, qararı" (71) və hb.

Cinas söz və qafiyələr "Dastan" müəllifinin ustad, XII-XIII əsrlər ana dilimizin daxili incəliklərinə dərindən bələd, istedadlı sənətkar olduğunu göstərir.

ç) atalar sözü və məsəllər

"Dastan"da atalar sözü və məsəllər bədii təsvir vasitələrindən biri olub, onu gücləndirən, fikri xalq həyatı, ailə-məişətlə bağlayan hazır kəlamlar kimi təbii səslənir. Bunlar fikri canlı həyata bağlayıb ona daha artıq bədii qüvvət və ötkəmlik verir. Şair xalq dilinin bu hazır bədii mənbəyinə, öz nitqinə, dediyi sözə istiqamət və təsdiqedici bir amil kimi yanaşır. Hadisə və əhvalatların səciyyəsindən asılı olaraq atalar sözü və məsəllər ya olduğu kimi işlənir, ya misra və ya beytlərin tələbinə uyğun ölçülüb biçilir, ya da onun məzmunundan istifadə edilir.

Atalar sözü və məsəllər özünü aşağıdakı vəziyyətlərdə göstərir.

1) müvafiq məsələlərə müraciət və "məsəl" sözü xatırlanmaqla fikrə qüvvət verilir: *"Məsəldir: sevəni sevmək gərəkdir, Eyü niyyətlərə irmək gərəkdür" (57); "Məsəldir: kəndü düşən ağlamaz,* - der. Aqan dəryayi kimsə bağlamaz, - der" (67).

2) müvafiq məsəllərə müraciətlə fikir tamamlanır: "Həraminün xod istədigi oldı, *Fələkdə istədügün yerdə buldı (25); "Gəlür başına nə kim, yazsa təqdir*. Adəm dedigi olmaz cümlə təqdir" (37); "Hələ yazuydı ki, gəldi başa, *Əzəldən yazılan bozula, haşa!" (53);* "Güləndam dəxi söyləmədi təkrar, *həqiqət, tinməməklik olur iqrar" (58); "Kimsənəyə vəfa qılmaz bu dünya, Olur fani, bəqa qalmaz bu dünya" (48).*

3) müvafiq məsəllə fikrə nəticə vurulur, yeni hadisəyə əlaqə yaradılır: "Deməzdi kim, *olan oldı və getti..." (66).*

4) müvafiq məsəllə fikir təsdiq olunur: *"Adıdır dünyada qalan kişinün, Əgər ərkək ola və gər dişinün" (9).* Məsəl mənfi surətin dililə, onun öz düşüncəsincə işlənib. İkinci misra müəllifin ürəyindən keçən fikrə keçiddir ki, "Aslanın erkəyi, dişisi olmaz" məsəlini doğurur; Əhməd Həraminin dilindən deyilsə də, Güləndamın aslan ürəkli olduğu fikrinin təsdiqinə hazırlıq məqsədilə deyilmişdir. Yenə Əhməd Həraminin dilindən verilən və onun öz düşüncəsincə mənalandırılan *"Nə var, tanrı bir isə iş ikidir. Ölüm dedikləri san-*

ma ikidir" (13) məsəli və ya kəlamından da ("Tanrı birdir, əməl iki", "Bir gün yaranmışıq bir gün ölməyə") bu cür istifadə edilmişdir.

Bu üsulla Güləndamın dilindən deyilən kəlamlar isə müsbət mənadadır və insani keyfiyyətlərin təqdirinə kömək edir:

"Ərənlərün işi mürvət degülmi? Bugün dünya, yarın axrət degülmi?" (40), "Güləndam aydur: ey kani-səxavət! *İmanlu kişidə olur şəfaət" (49);* "Gəliməz bunda, ey xuplar güzini, *Keyik basmaz olur arslan izini" (58).*

Müəllifin öz nitqində, yəni bilavasitə onun öz dilindən deyilən atalar sözü və məsəllər də insaf, mürvət, xeyirxahlıq, mərdlik təlqin edir, nəsihətamiz mahiyyət daşıyır.

1) insani keyfiyyətləri təqdir edir, aşılayır, insanları həmişə ehtiyatlı olmağa çağırır: *"Kişi könlündəkin kişi nə bilə?* Nə var içində məgər fitnə qıla" (24); *Kişinin kim bilür könlündə varın" (28);* "Yamanlıq sansa bir kişi eşinə, *Son ucı sandığ, gəlir başına" (66), "Kişi bir yavuz işə etsə bünyad, Son uçı andan alur haqqın ustad" (79).*

2) dini ehkamlardan çıxış edərək insan kininə, küdurətinə qarşı durur: "Kin olduğu könüllərdə din olmaz" (6); "Gedərməzdi dilindən kibri, kini. Kin əhlidür yıxanlar mülki, dini" (66).

3) zamanın gərdişindən şikayətlənir: "Dilini tutdı əbsəmcək oturdı, *Vəvası yoq cəhanun çünki gördi" (35); "Cəfayımış bu dünyanın vəfası..." (42)* və h.b.

"Dastan"da atalar sözü və məsəllər əsərin dili və üslubunu zənginləşdirir, ona XII-XIII əsrlərin zaman koloritini verməklə, dövrün ədəbi dil və üslub mənzərəsini çəkməyə kömək edir.

3). "Dastan"ın canlı dil xüsusiyyətləri

Əsərin dastan adlanmasına və bu üsulla da yazıldığına görə, təbii olaraq, dilində canlı danışığın təsiri güclüdür. Bu, özünü ilk növbədə, sözlərin sövti hadisə və dəyişikliklərə uğraması, bir sözün bir və ya bir neçə variantda yazılması və deyilişində göstərir.

Məxrəccə bir-birinə yaxın olan səslərin əvəzlənməsi və növbələşməsi, bir sözün bir neçə şəkildə işlənməsi diqqəti xüsusilə cəlb edir.

1) *t - d - t* əvəzlənməsi

Söz əvvəlində *t* işlənir: *toquz, tolmuş (7), turursuz turun (8), taş (10) tuyur (17), toldı (48), tuz (49), tağıldı (79)...*

Söz ortasında t işlənir; bu vəziyyət sözlərə bitişən *-dı, -di, -du, -dü, -dır, -dir, -dur, -dür, -dan* şəkilçilərində özünü daha çox göstərir: *get+ti (17), dut+tı (19), et+ti (23), eşit+ti (44), net+ti (66), çıq+tı (74), et+tün (76), baq+tı-lar (20), iraq+tan, qutturdu (45), baştan başadək (17)...*

Söz sonunda *t* işlənir: *güt*(mək) *-4, qanat (24), dört (40), qurt (32),* but (81)...

Dastanda bunun tam əksinə də rast gəlinir: Söz əvvəlində *d* işlənir: *dəpəsünün (15), dər (tər) - 30, dut(maq) - 37, dutuşdun (39), dökdilər (59), ditrər (74), dutub (77), doqundı (79)...*

Söz ortasında *d* işlənir: *eşiddim (8), eddigünü (39), inildi (42)...*

Söz sonunda *d* işlənir: *sərd* söylər (39).

Bu növbələşməni hətta eyni sözdə də görə bilirik: *dayə // tayə (26), dağ // tağ (16, 47), tutdı // dutdı // duttı (38, 47, 19), eşitdi // eşitti (27, 44), yoqtur // yoqdur (44, 59)...*

2) b - p - b əvəzlənməsi.

B-nin *p* ilə deyilişi daha üstünlük təşkil edir; *-ıb, -ib, -ub, -üb, -yıb, -yib, -yub, -yüb* feli bağlama şəkilçiləri əksərən p samiti ilə verilir: *tut+up, qoy+up, çıq+ıp, en+ip (9), düş+üp (12), an+up (18), qıl+up, keç+üp (20), vur+up (34), ayrıl+up (35), eylə+yüp (39), çək+üp (46), otur+up (48), ol+up (52), dön+üp (58), gör+üp, gəz+üp, eyləmə+yüp (65), baq+up (71), sevin+üp (82)...* və ya: təəssüp, əcayip (16), nəsip (38)...

Söz əvvəlində *p* samitinin *b* ilə əvəzlənməsi özünü bir-iki sözdə göstərir: *bozulur (8), bozıldı (34), dəbrənür (13)...*

Bununla belə, bəzən *b, p* səsləri növbələşir, eyni söz həm *b,* həm də *p* ilə verilir: *gəl+üp // gəl+üb (61, 71), ed+üp // ed+üb (19, 65), al+up // al+ub (56, 69), var+up // var+ub (41, 69)...*

3) söz əvvəlində *b* işlənir: *bindi (20), bin (min) - 45, bən (47), buna (76), bənüm (49).*

4) söz əvvəlində *a* işlənir: *anun (4), savulup (33), avûmı (46), av, avçı (70), qavuşturayımmı? (49), tavus (56), avunsun (57), tavşan (59), qavğa (32), savurdı (73).* İndi həmin sözlərdə *a-o* əvəzlənməsi baş verib.

5) bəzən *p* və *r* səsləri yerini dəyişir: *yapraq, topraq (41),*

6) bir sıra sözlərin əvvəlində *y* səsinin əlavəsinə rast gəlinir: *yüz (16), yüzində (30), yılduzlar (22), yigid (30), yutmaq (37),..*

7) bir sıra sözlər danışığa uyğun şəkildə davamlı tələffüz edilir və saitlər uzanır: *istən, aran (18), yamanlaman (21), üşənmən (çəkinməyin, qorxmayın), demən (45), yerlər, derlər (70),..*

8) bir sıra sözlər *nə* sual əvəzliyi ilə bir vurğu altında deyilir və qoşa gələn saitlərdən biri ixtisara düşür: *nedəyin* (nə edəyin) - 18, *netdi* (nə etdi) - 38, *nedərüm* (nə edərəm, nə edəcəyəm) - 41, *nedəriz* (nə edərik) - 47, *neçün* (nə üçün) - 26, *nedirlər* (nə edirlər), *noldı* (nə oldu) - 82,.. habelə müasir *qov*(maq), *qoy*(maq) felləri lap qədim dövrlərdə olduğu kimi, "Dastan"da da belə işlənir: *qo*(maq); *qosunlar* (qoysunlar) - 63, *qodı* (qovdu) - 75, *qodum* (qoydum) - 80 (Bu halda - samitlərin düşməsi ilə bağlı olaraq ikinci uzanma baş verir - *o* saiti uzanır).

9) damaq saitləri dodaq saitlərinə keçir: *qapusun (9), degüldür, bilün (11), etdün, sənündür, silüb (16), gerü, malum (17), gətürünüz (18), satun (19), qarşu (20), gətürdüm (21), arturdu (31), nemətlərün, içdüm, keçdüm (33), bularun (45), alur, gəlür (56), dərdün, sevinsün (57)...*

10) dodaq saitləri damaq saitlərinə keçir: *döndi (16), qurıdan, durdı, buldı (17), oturdı (19), bunı (20), öpdi, oldı (23), tutdı (35), görişdi, sorışdı (67), öldi (68), qondı, (71), uçurdı (79)...*

Bununla belə, ikili vəziyyət də var, eyni söz həm damaq, həm də dodaq saitləri ilə işlənir: *oldu // oldı (45, 59), olmuş // olmış (20, 73), oğlunun // oğlını (55, 56)...*

11) *x* samiti *q* samitinə keçir: *çoq (18), yoq (9), oqudu (12), çıqun (14), baqtılar (20), aqşam (22), yaqın (28), yaqtı (35), doqudı (41), oq (43), qorqu (45), saqlasunlar (63), aqar (64), yıqdı, yuqaru . (73), doqundı (79)...*

12) *ş - s* əvəzlənir: *tanısuban //* danışıban: (danışıb, məsləhət edib) - 11; *b* yerinə *v: ova* (oba, çöl) - 47; *l* yerinə *r: sarardı* (saraldı) - qararı (qaralıb) - 71; *z* yerinə *s*: *nərgis* (61) işlənir.

"Dastan"da, eyni bir sözün bir neçə şəkili diqqəti cəlb edir: *qılınc // qılıc (12), o // ol // şol (19, 26), ona // ana (24, 25), çü // çün // çünki // çünkim (32, 35, 31, 53), bular // bunlar (9, 12), kimsənə // kiməsnə (11), ki // kim (22, 27), imdi // indi // şimdi (77, 48, 58), aslan // arslan (7, 18), bunun // şunun (34, 230, kimin // kimün (68), yaraq // yarağ (32, 59), yoqdur // ɣoğ idi (59, 51)* və hb.

Sözlərin yazılışında özünü göstərən bu qeyri-sabitlik canlı dildən gəlir, danışıqla yazılı dilin yaxınlığına, qarşılıqlı əlaqəsinə əsaslanır. O söz ki, ədəbi dildə, yazıda sabitləşir, tarixi inkişafın gedişində öz sabit şəklini alır, həmin sözün ilkin şəkli canlı dildə uzun müddət qala da bilir. Xalqa, canlı həyata və dilə daha meylli sənətkarların dilində bu tez-tez üzə çıxır. Beləliklə də, eyni bir kitabədə, eyni bir sənətkarın qələmində, istər-istəməz, bir sözün bir neçə şəkli alınmış olur. Bu mənada "Dədə Qorqud kitabı", "Qisse-yi-Yusif" poeması və "Əhmət Hərami dastanı" bir-birilə səsləşir.

4). "Dastan"ın dilinin lüğət tərkibi

"Dastan" XII-XIII əsrlərin dil xüsusiyyətlərini özündə əks etdirən sözlüyə malikdir. Əsər öz lüğət tərkibi etibarilə müasir dilimizin ruhunu bütünlüklə ehtiva edir. Bununla belə, zamanının xüsusiyyətlərinə uyğun olaraq əsər qədim sözlər - arxaik söz, birləşmə və ifadə şəkillərilə, habelə arxaik şəkilçilərlə zəngindir; əsərdə alınma ərəb və fars sözləri də müəyyən yer tutur.

a) müasir dilimizin sözləri

"Dastan"da əsas aparıcı dil materialı müasir dilimizlə səsləşən söz, birləşmə və fikri ifadə şəkilləridir.

Güləndamın dilindən deyilən "Yalvarış" adlı bir parçanı eynilə xatırlayaq:

"Görün imdi bana netdi zəmanə?
Əlümi aldı uş atdı yabanə.

Nədür bunca bana çövrü cəfalər?
Məgər kim, qəhr üçün bəslədi anə?

Suçum nədür, əcəp netdüm, nə qıldum?
Qara bağrum bənüm qərq oldu qanə.

Hənuz dəxi qızıl gül qönçəsindən
Açılmadan nə tez döndi xəzanə.

Cəfaymış bu dünyanın vəfası,
Ki, bin yaxşı işi dəgməz yamanə.

Görün, bu çərxi-gərduni ki, bəni
Sapanə qoyuban atdı yabanə.

İlahi, düşmüş əhvalın bilən həq!
Sənə sığındım, ey həyyi-təvanə" (42-43).

On dörd misralıq bu şerdə 71 söz var. XIII əsrdə istifadə olunan bu 71 sözdən bu gün ancaq ikicə izafət ("çərxi-gərdun", "həyyi-təvan") və bir-iki arxaik söz ("uş", "suç", "hənuz") çıxdaş edilə bilər. Qalan bütün sözlər müasir dilimizdə işləkdir, eyni məna və məzmunlarda çıxış edir. Sözlərin bir-birilə əlaqəsi və birləşməsi qaydaları, fikirlərin müxtəlif ifadə vasitə və şəkilləri, məcazlar sistemi və s. müasir dilimizə - onun həm ədəbi, həm də canlı danışığına tam uyğundur. Güləndamın daxili aləmi "öz dililə" epik-lirik tonda bədii sualla müraciətlərlə çox təsirli, hüznlü şəkildə açılır... Əgər "Dastan"dakı əhvalatlar bir saz aşığının dilindən söylənsəydi, şək-

siz, müəyyən hadisələr, məs.: elə Güləndamın "Yalvarış"ı və s. şerlə deyilməli idi. Bu isə bizim şifahi xalq dastanları üslubuna uyğundur. "Dastan"ın dilinin sadəliyi və axıcılığı, ilk növbədə, bu keyfiyyətlə bağlıdır. "Dastan"ın dili şifahi-bədii dillə yazılı dilimizin sintezidir.

Dildə onun lüğət fondu hesabına artım qanuni haldır; daimi dildə morfoloji yolla sözdüzəldici şəkilçilərlə külli miqdarda yeni söz-lər yaranır. Dilə gələn alınma sözlər də bu prosesdən kənarda qala bilmir. Bəzən də sözlər bir-birilə birləşib yeni söz yaradır, habelə birbirini sıxışdırıb sıradan çıxarır, söz dilin arxaik fonduna keçir. Bu sonuncu prosesdə alınma sözlər də öz işini görür. Bu, uzun tarixi və qarşısıalınmaz daimi inkişafdır. Bu mənada dildə söz yaradıcılığının bir sahəsini - morfoloji yolla söz yaradıcılığı prosesini izləyək.

"Dastan"da yeni söz yaradan aşağıdakı şəkilçilər müşahidə olunur.

1) *-lı, -li, -lu, -lü* şəkilçilərilə əsasən isimdən sifət düzəlir - *surət+lü:* "Delim oğlanlar aldı, ay *surətlü*" (19), *yüz+lü, söz+lü:* "Yedi dəxi qız oğlanlar ay *yüzlü,* Dişi inci kibi, gül şəhd *sözlü* (21), *dərt+li:* "Əgər *dərtli* isəm dərman sənindür" (31), *tat+lu:* "O tatlu sözlərə könlü qapuldı" (37), *yaraq+lu, yürək+lü, çıraq+lu:* "Atı yügrək idi, kəndi *yaraqlu, Yürəklüydi* ol gözi çıraqlu" (43), *zaval+lı: "Zavallı* başuma dərman edəyim" (50),..

2) -lıq, -lik, -luq, -lük şəkilçilərilə müxtəlif nitq hissələrindən yeni sözlər düzəlir.

a) isimdən isim düzəlir - *bəzirkan+lıq: "Bəzirganlıq* çərinün nə işidür?" (20), *qul+luq;* "Bizə söz söyləmək düşməz qanunda, Həmin *qulluq* gərəkdür həzrətündə" (31), *şahzadə+lik:* "Anup *şahzadəligin* ah edərdi" (39), *bahadur+luq: "Bahadurluq* ana olmuş idi iş" (43), *axirət+lik:* "Bən *axirətlik* səni qardaş edindüm" (49), *kindar+lıq:* "O *kindarlıq,* eşit kim, ana netdi?" (66),..

b) sifətdən isim düzəlir - *şad+lıq:* "Qapundan ayrı bana gün gərəkməz.Bəşarət, *şadlıq*, dügün gərəkməz" (36), *yaman+lıq: "Yamanlıq* sansa bir kişi eşqinə,.." (66)...

c) saydan isim düzəlir - *çoq+luq:* "Dedilər kim, bu nə *çoqluq* kişidür" (20), *bir+lik:* "Həmin *birlikini* zikr eylənürdi" (41)...

ç) zərfdən isim düzəlir - *yaqın+lıq:* "Anun ilə *yaqınlıq* istəməzdi, Zira kibr içindən getməzdi" (38),..

d) feldən isim düzəlir - *tinməmək+lik:* "Həqiqət, *tinməməzlik* olur iqrar" (58),..

3) *-çı, -çi, -çu, -çü* şəkilçilərilə isimdən isim düzəlir - *qapu+çı:* "Məgər *qapuçılar* anu görürlər, Şoluq dəm xatuna xəbər verirlər" (51), *av+çı:* "Varur dağda bulur *avçı* yikitlər, Avı xod xoş bilür *avçı* yigitlər" (70), *bək+çi*: "Nə kim, *bəkçi* qulun var idi qırmış" (80),..

4) *-la, -lə* şəkilçilərilə adlardan fel düzəlir - *yaman+la: "Yamanlaman* bizi biliştirün siz" (21), *din+lə:* "Haqına *dinlədi* bir-bir Hərami" (70), *boğaz+la: "Boğazladı* anı götürdi atdı" (73),..

5) *-ış, -iş, -uş, -üş* şəkilçiləri ilə feldən isim düzəlir - *ged+iş:* "Kəhi başı dönər; gay ayağı, O *gedişdə* kişi nedər dayağı" (79).

6) *-sız, -siz, -suz, -süz* şəkilçilərilə isimdən sifət düzəlir - *hesab+sız: "Hesabsız* dəxi altun və gümüşlər,.." (13), *şəfaət+süz: "Şəfaətsüzdürür*, yoqdur amanı, Nə din bilür o zalım, nə imanı" (75), *iman+suz: "İmansuzda* nə din var, nə dinayət" (76),..

7) *-lan, -lən* şəkilçiləri ilə adlardan fel düzəlir - *təzə+lən:* "Anı gördi yenə sultan açıldı, Yürəgi *təzələndi*, su səpildi" (37), *at+lan:* "Qamu *atlandı* ana qarşu getdi" (20), *yaraq+lan:* "Dedi: xoca *yaraqlandı* gedəlüm, Buyur, nə qulluğun varsa edəlüm" (23), *ev+lən:* "Hənuz *evlənmiş* idi ol cəvan bəxt" (54), *para+lan: "Paralandı* ayağı, başı, əl, qol" (79),..

8) *-ıq, -ik, -uq, -ük, -q* şəkilçiləri ilə feldən isim düzəlir - *tanış+ıq:* "Bunun kibi tanışıq eylədilər" (24), *qon+uq: "Qonuqluq* etdi onları doyurdı" (21), *buyur+uq:* "Mütiyəm bana *buyurursa* buyruq" (25).

9) *-ıncı, -inci, -uncu, -üncü* şəkilçilərilə miqdar saylarından sıra sayları düzəlir - *iki+nci: "İkinci* məclisə ağaz edəlüm" (18), *üç+üncü:* "Gələlüm bu *üçüncü* məclisə biz" (35),..

10) *-ıcı, -ici, -ucu, -ücü* şəkilçilərilə feldən sifət düzəlir - *yan+ıcı, qoy+ucı, ur+ucı:* "O da *yanıcı* düşman, yil *qoyucı,* Ətini dişləyüp, köksin *urucı" (66),..*

11) *-dıç* şəkilçisi ilə zərfdən isim düzəlir - *sağ+dıç:* "Bədəxşan şahı *sağdıç* oldı ana" (69),..

12) *-daş* şəkilçisilə isimdən isim düzəlir - *raz+daş* (sirdaş): "Güləndamın məgər bir *razdaşı,* Var idi, xoş idi anunla başı" (33), *yol+daş, hal+daş:* "Yügürübən irər *yoldaşlarına,* Dedi əhvalı ol *haldaşlarına" (44),..*

13) *-aq // -ağ, -q:* şəkilçilərilə feldən isim düzəlir - *otur+aq:* "Ol *oturaqda* kim, qullar olurmış, Qılıcı hərbələr əldə götürmiş" (72), *yar+aq // yar+ağ:* "Qamu bəylər gəlür anda irişür, Dügün üçün *yaraq* edüp durışur" (32), *daya+q*: "Ọ gedişdə kişi nedər *dayağı" (79).*

14) *-gi, -gilü* şəkilçilərilə feldən isim düzəlir - *sev+gi, sev+gilü:* "Der idi: qanı *sevgülü* yarənlər? Nər arslan kibi ol gürbüz ərənlər?" (18),..

15) *-kin, -gin* şəkilçilərilə isimdən sifət düzəlir - *qəm+gin:* "Məlul, *qəmgin* qıluban ol nigarın, Sorardı gül yüzünün növbaharın" (31),..

Beləliklə, izlədiyimiz düzəltmə sözlər "Dastan"ın dilinin lüğət tərkibinin müasir dilimizlə nə qədər əlaqəli, bağlı olduğunu təsdiq edir. Əlbəttə, müasir normalar baxımından bu sözlərdə, xüsusilə sözlərin imla və tələffüzündə nəzərə çarpan fərqlər müşahidə olunur. Bu isə təbiidir; bu fərqlər az və ya çox dərəcədə hər zaman özünü göstərə bilər. Habelə, bir sıra *yaqtu+lu:* qəşəng, nurlu, işıqlı (32), *qut+lu:* mübarək, uğurlu və s. (37), *qutlu+la:* təbrik et, xeyir-dua elə (59), *eyi+lik:* yaxşılıq (24), *əsən+lə*: sağlıq dilə, xeyir-dua ver (31) və s. kimi düzəltmə qədim sözlər var ki, bunlar müasir dilimizlə səsləşmir, istifadədən qalıb, dilin arxaik fonduna keçibdir. Bu sözlər üzərində ayrıca dayanmaq lazımdır.

b) qədim sözlər - arxaizmlər

Tarixi bədii əsərlərdə qədim sözlərin tədqiqi mühüm və əhəmiyyətli məsələdir. Bəzən bircə söz, bircə ifadə yaddan çıxmış, üzərinə kölgə düşmüş gərəkli bir həqiqəti, müəyyən xəlqi keyfiyyəti aşkar edir, onun unudulmuş, itib-batmış adını üzə çıxarır, bərpa edir. Bu mənada "Dastan"da işlədilmiş qədim sözlər, yəni arxaizmlər yada çox şey salır. Məs.: ikicə - "dügün saçusı" ifadəsi və "yaqtu" ("yaqtulu") // "yəqtü" sözünə diqqət edək. Bu gün də bizdə gəlingəlmə mərasimində gəlinin başına kasa dolu sovqat (noğul, kişmiş, xırda pul, qoz-fındıq içi, buğda dənəsi və s.) səpərlər, daha dürüst desək, "saçar"lar. Bunun ənənəvi mənası var: Gəlinin qədəmləri uğurlu olsun, qoy həmişə şirinlik, bolluq olsun! Bu mərasim indi də mövcuddur, amma adı unudulub, dildən düşüb. Heç demə, hələ XII-XIII əsrlərdə bu mərasim çox təntənəli keçirmiş, onun özünəməxsus adı, istilahı da varmış: "dügün saçısı", bu mərasim üçün halı-halına xüsusi adamlar çağırılar, "ulular", böyüklər, "əmirlər" dəvət olunarmış...

"Çü sübh oldı, yerində durdı sultan,
Oqudı bəylərini dərdi ol xan.

***Dügün saçusına* gəldi ulular,**
Əkabirlər, əmirlər, *yaqtulular" (32).*

Beytlərdəki arxaizmlər *(çu, oqıdı, dərdi, dügün saçusı)* içərisində *yaqtu // yəqtü* sözü diqqəti cəlb edir. Bu sözə *göyçək, qəşəng, nurlu, işıqlı, aydın* mənalarında "Qisseyi-Yusif"də də rast gəlmişik. Burada *-lu* şəkilçisilə işlənib, müasir *ziyalı, elmli, oxumuş* mənalarını verir. Tələt Onay çıxarışda yazır: *"Yaqtılular:* yaqtılı, mənvvər, ziyalı deməkdir. Maarif vəkaləti kitabxanasındakı qədim bir Quran tərcüməsində "kövkəbi-dürri" sözü "böyük yaqtılı... deyə tərcümə edilmişdir. Yaqtılı sözünün bir mənası da bugünkü təbirlə başbilən, arif adam, ziyalı kimsə deməkdir. Burada mötəbər, əşrəf mənasındadır" (32).

"Dastan"da, təbii olaraq, çoxlu qədim sözlər - arxaik söz, ifadə və şəkilçilər vardır. Bu sözlər "Qisseyi-Yusif"də də işlənmiş; orada bunları ətraflı qədim kitabələrimizlə müqayisəli şəkildə izləmişik. Burada ona ehtiyac duymur, həmin sözlərin müasir mənalarını göstərmək və onları mətn daxilində verməklə kifayətlənirik.

Unudulub dildən çıxmış sözlər. Bu sözlər öz dövrü üçün, şəksiiz, işlək olub. Lakin bugün arxaikdir, tədricən unudulmuş, müasir dövrə gəlib çıxa bilməmişdir. Məs.:

Ağ(maq) - qalx(maq), ucal(maq), yüksəl(mək): "Əgər ol sehrilə Aya saçarsa, Əgər Zöhrə olurp kögə *aqarsa...*" (66).

Ay(maq), *ayıtdı // eyitdi, aydur // eydur, aydam // eydəm* - de(mək), söylə(mək), dedi // söylədi, deyir // söyləyir, deyəm // söyləyəm: *"Ayıtdı* kim, ey qız etdün bana sən" (16), "Sevindi aydur: imdi neyləyəlüm?" (25): "Nə aydam ki, neçə düzdilər anı, Eşitdüm qırq ayaqdur nərdübanı" (70).

Al - hiylə, fel: "Anı bir al ilə Hərami almış, Tamam bir yıl anun ilə dirilmiş" (69).

Arı - təmiz, saf, duru: "Yedi oğlan gətirdüm. Aydan *arı*, Yüzi güldür, şəkərdür ağzı yarı" (21).

Bayağ - şübhəsiz, adətən, indiki halda: "Məlul olma ey yüzü gülü lalə, *Bayağından* şükür eylə bu halə" (48).

Bayıq - aydın, dürüst, həqiqi: "Dəxi aldı qız oğlanlar, xəlayiq, huri sanur görən bunları *bayıq" (19).*

Bəliklən(mək) - yaraqlan(maq), silaha sarıl(maq): "Yaraqlandı, *bəlikləndi,* donandı, Yüzi qarardı, gözi qana döndi" (71).

Bəxş - qisim, hissə, bölüm, parça: "Oturdı ol gecə bunlar tapışdı, Qaçan kim, dünün iki *bəxşi* keçdi" (9); "Gəlürkən nagəhana yolu azdı, Yol üç *bəxş* oldu, ol birinə getdi" (48).

Biti - yazı, nüsxə, dua: "Sənə ertə bitilər yazdırayım. Həkimə dəxi şərbət düzdürəyim" (80).

Bıçıq // bıçuq // buçuq - yarım (il); "Ayıttı kim, əgər diri qalursam, *Bıçuq* yıl əglənəm, gər çoq olursam. *Buçuq* yıl müntəzir olun bizə siz. Tapuna altı aydan irəvüz biz" (36).

Qağan - heybətli, hiddətli, qəzəbli: "*Qağan* arslan kibi yaxşı yigitdür, Gözəldür surəti, naqşı yigitdür" (27),..

Qaqı(maq), *qaqıdı* - hirsləndi, qəzəbləndi: "Şu gənc arslan kibi xubi-zəmanə, *Qaqıdı* xişmilə oldu divanə" (12),..

Qat - yan, hüzur, qarşı, ön: "Cavabını onun çün aldı bunlar, Genə sultan *qatına* gəldi bunlar" (25), "Bu nə sözdür ki, söylərsiz *qatımda"* (27),..

Qatı - çox, bol, bərk: "Şol ulu xoca ki, gəlmişdi bunda, *Qatı* hörmətlüdür atan *qatında"* (26), "Anun sultanun ikən söylədilər, Anun malın *qatı* vəsf eylədilər" (8),..

Qağır(maq), qığırdı - çağır(maq), çığır(maq), dəvət et(mək), çağırdı, çığırdı, dəvət etdi: "Buyurdı: *qığırun* eldə və şərdə, Bulun, istən, aran, əğyarü yarda" (18).

Qıynaq - dırnaq, çaynaq: "Olar dilərdi kim, həmlə qılalar, Bunı *qıynağ* ilə yırtıb didələr" (72),..

Qırnaq - qulluqçu qız, qadın, qaravaş: "Həmin bir *qırnaq* aldı və iki qul, Görüşti şah ilə tutdı həman yol", "Qodı Əhmət Hərami anda rəxti, Ol iki qulı, *qırnağı* bıraqdı" (38).

Qıl(maq), *qılurdı, qılalum, qılmış* - et(mək), ol(maq), elədi, edək, etmiş: "Cahanda biz ana bir iş *qılalum" (8),* "Yuca, möhkəm, lətif key xoş yanılmış, Zəhi memar anı arəstə qılmış" (10), Müasir dilimizdə "namaz qılmaq" ifadəsində qalıb.

Qut, qutlu, qutlula(maq) - mübarək, uğurlu, xeyirli, təbrik et(mək), xeyir-dua elə(mək): "Bilə gəl gedəlüm bu *qutlu* yola. Ola kim, Tanrı xeyrin vermiş ola" (37), "Ulu, kiçi anı qamusı bildi, Dügün *qutlulamağa* cümlə gəldi" (59),..

Quşan(maq) - geyinib-keçin(mək), hərb paltarı gey(mək); qurşan(maq): "Nə tutrursuz, turun bir-bir *quşanun" (8),* "Qılıc *quşandı* ol dəmdə belinə, Görün kim, nə gəlür onun yoluna" (71),..

Delim - bol, çox, xeyli: "Əlin öpdi şahın Əhmət Hərami. *Delim* lütf ilə söylədi kəlami" (23); "*Delim* nemətlərün xoş yedüm, içdüm, *Delim* işrətlər etdüm şadi keçdüm" (35), "Vəli həq Tanrının lütfi *delimdür" (43).*

Dənli // dənlü - iki mənada işlənir: 1) qədər, miqdar: "Bana bunun kibi lütf işləyən kim? - Bu *dənlü* xəznəyi bağışlayan kim? Nə kişidür gətürünüz görəyim, Nə *dənlü* mal dilər isə verəyin" (18). 2) tərbiyəli, diqqətli, qayğıkeş: "Dedigün *dənlü* varmıdır, görəyin, Əgər canum sevə, könül verəyin" (55).

Dəril(mək), *dərildi* - topla(maq), cəm ol(maq), yığıl(maq), toplandı, cəm oldu, yığıldı: "Buyurdı, çünki memarlar *dərildi.* Bu ulu köşk üçün bünyad uruldı" (63). Bu söz müasir dilimizdə ancaq meyvə və tərəvəz bitkilərini dərmək, toplamaq, yığmaq mənasında işlənir.

Dizin(mək), *dizindi* - sıralan(maq), cızıl(maq), sıralandı, "Nühüft eyləyübən cəngi dizildi. Qopızı şəstə avazı *düzildi"* (62), "Zəbərcəddən həm ördəklər *düzildi,* Kənarına suyun çevrə *dizildi"* (64), "həyasından qızardı eylə derlər, Sanasın kim, gülə *dizildi* dürlər" (57).

Donan(maq), *donat*(maq) - geyin(mək), geyindir(mək): "Varup qız *donanup* gəldi oturdı" (34), "Neçə qulları azad eyləmişdi, Yalun *donadun* aclar toylamışdı" (51).

Dükəli - bütün, tamam: *"Dükəli* ərməğanın aldı vardı. Şəhinşah eşigində gəldi durdı" (22), "Buyurdılar yarağ edün dügünə, Xəbər oldı *dükəli* elə, günə" (59).

Dün - gecə, dünən, dünənki gün: "Günüzin özlərin gizlərlər idi. *Dün* olsa, yolların gözlərlər idi" (9); "Keçüb ol dün yenə çün oldu gündüz, Nur ilə toldu aləm yüzi düpdüz" (16); "Düni günə ulayubən gedərdi, Anup yoldaşlarını ah edərdi" (18).

Düni-güni - gecə-gündüz, gecəli-gündüzlü: "Güləndamun digərgün oldu halı, Həramidür düni-güni xəyalı" (32); *"düni-güni"* arxaizmlə müvazi əsərdə tez-tez "gecəvü-gündüz" (63), "gecə-gündüz" (65), "dün ilə gündüz" (66) birləşmələri də işlənir.

Duş-yuxu, vaqiə: "Məgər *duş* görür ol gecə Güləndam, O *duşun* heybətindən ditrər əndam. Bu yidi gördügü *duş* ol nigarın, Görür bir qara it gəzər kənarın" (74).

Ev(mək), evdi - tələsmək, tələsdi: "Məlul gördi atasın oldı pürğəm, İlərü evdi, əlin öpdi ol dəm" (29).

Edin(mək) // *idin*(mək), *edürver(*mək) - elə(mək), elan et(mək), bəyan et(mək): "Şunun kibi yer etdi şaha ol ər, Keçürdi yanına, *edindi* sərvər" (23); "Güləndamın qatına gəldi, sordı, Güləndam halın ana edüverdi" (44).

Eş - yoldaş, dost, həmkar: *"Eşindən* ayrılup, hal oldu düşvar. Der idi: qanı ol yarı-vəfadar" (35).

İkən - o qədər, çox (varlı), saysız-hesabsız: "Gedərkən irdilər bir xoş araya, *İkən* gökçək yapılmış bir saraya" (9), "Kim ol sultanun adıymış Şəhinşah, *İkən* çoq malı varmış, oldum agah" (8), "Ola kim, aqibət bir gün gələ ol, *İkən* zalimdürür, bir iş qıla ol" (58).

İlət(mək), *ilətdi* - çatdır(maq), yetir(mək), çatdırdı, yetirdi: "Bunı dedi və xadim durdı getdi, Güləndamun sözin şaha *ilətdi" (29).*

İkrəş(mək) - boğuş(maq), mırılda(maq); "İki arslan qapuda əgrəşürlər, Biri-birinə qarşu *ikrəşürlər" (70).*

Əsən, əsənlədi - sağ, sağ-salamat, xeyir, dua etdi, vidalaşdı: "Gedərəm bən, *əsən* qal sən, ey sərvər!" (50); "Həzəran dürlü ana alqış etdi, *Əsənlədi* qızını, durdu getdi" (31); "Şəhinşaha der: ey bəylər bəyi sən, Cahan içində daim olğıl *əsən" (35)*...

İr(mək), *irəlməz, irdi, irincək, irüp* - gəl(mək), çat(maq), aralanmaz, gəldi gəlincə, çatınca, gəlib çatıb: "Nə zahirdür ol kim, gözdən *irəlməz"* (4), "Çü gördi bunları ol durdı getdi, Şəhinşah həzrətinə *irdi*, yetdi" (17).

Isır(maq) - dala(maq), tut(maq): "Gəlübən xişm ilə üstünə durdı, *Isıraydı,* yəni kim, dalardı" (74).

Isuz - tənha, qeyri məskun: "Ol iqlimlər *ısuzluq* olmuş idi, Kimsənə uğramaz tuyımuş idi" (43).

Yağma - talan, qəsb (məcazi mənada): "Güləndam könlün anun qıldı *yağma,* Güləfrux şaha düşti eşqi-sövda" (56).

Yavlaq - iki mənada işlənir: 1) çox, hədsiz: "Eşidənlər anı *yavlaq* əcəblər" (33); 2) düşmən, qorxunc: "Özü gürbüzdürür, *yavlaq* bahadur" (6),..

Yavuz - sərt, yaman, pis: "Görür kim, atası gəlür yaluğız, Gəlür illa məlul xatiri *yavuz" (29); "Yavuz* sanıları başına gəldi" (82),..

Yazı - çöl, oba, düzənlik: "Atun kişnəməsi və can əvəzi, Tolu olmuş idi ol ulu *yazı" (20)*,..

*Yor(*maq) - yoz(maq), məna ver(mək): "Hələ bir dəm duşı təkrir edərdi, Yenə xeyrə *yorub* təbir edərdi" (75),..

Gəz - dəfə: "Bu gəz ol dəxi qapuya yüridi, Qalan yoldaşların taşda sanurdı" (15); "Der idi: Gər anı bir *gəz* bulaydum, Ana bən bilür idüm nə qılaydum" (66),..

Kiş - ox qabı, sadaq: "Xətayi yay əlində, oq tolu kiş, Bahadurluq ana olmış idi iş" (43),..

Oqı(maq) // oqu(maq) - çağır(maq), dəvət et(mək): *"Oqudı* bəylərin dərdi ol xan" (32), "*Oqıdılar* anası gəldi şahə. Görür oğlanı düşmüş dürlü ahə" (56); "Bir-iki xas xadimlər *oqudurlar..." (25)*,..

Oran - miqdar, say-hesab: "Gərəkcə bitdi qəlyəvü boranı, Şu dənlü dökdilər, yoqdur *oranı" (59).*

Ög - ağıl, fikir, şüur: "Ol ucdan mənzilə irəməyəvüz, *Ögümüz*, usumuz dirəməyəvüz" (13), "Güləndama dedi: dövşür ögünü, Bilirmisin bana sən eddügünü?" (39)...

Önürdi - öncə, qabaqca, əvəlcə: *"Önürdi* məskənətlə söyləyəlüm, Becit olurusa, cəng eyləyəlüm" (46),..

Sıy(maq) - qır(maq), kəs(mək), rədd et(mək): "Rəvamıdur bənüm sözüm *sıyasın,* Gərəkməz ol əri bana deyəsin" (30),..

Sun(maq), *sunul*(maq) - ver(mək), çat(maq), qısıl(maq): "Ata atlanub ol iki gənüldi, Görəlüm bu nəsib kimə *sunuldı" (22),* "Ağalar dedigün dutmaq gərəkdür, Ağu *sunar* isə yutmaq gərəkdür" (37),..

Tana - heyrət, çaşqınlıq: "Alub vəzirlərini gəldi sultan, Buları gördi *tana* qaldı sultan" (17); "Keçə andan, girür qullar qatuna, Tana qıldı buların heybətinə" (72).

Tapu - hüzur, ön: "Qatı müştaq idim, irdüm qapunda, Könüldən qul yazıldum uş, *tapunda" (23); "Tapuna* altı ayda irəvüz biz", (36),..

Toyla(maq) - doyur(maq), yedir(mək), hörmət et(mək): "Gələn xalqı yedirdi, *toyladı* xoş, Tamam qırq gün dügünü eylədi xoş" (32),..

*Tolun(*maq) - bat(maq), çəkil(mək), tülu et(mək): "Çün aqşam irişübən gün *tolundı,* Qamu dağlar başı yavı qılındı" (22),..

Ulal(maq) - ulu ol(maq), böyü(mək), yüksəl(mək), hörmət qazan(maq): "Küçücüktən bilə *ulalmış* idi, Güləndamun xuyunu almış idi" (33).

Uss-ağıl, şüur: "Güləndam *ussını* başa götürdi, Həqə sığındı, gör nə iş bitürdi" (78),..

Ur(maq) - uç, dörd mənada işlənir: 1) yüklə(mək), çat(maq): "Malın, gəncin dükəli atda dərdi, O atlar üstünə cümləsin urdı" (19); 2) çək(mək): "Müsənniflər delim rəsm urmış idi" (64); 3) qədəm bas(maq): "Qədəm Bağdat yoluna urayımmı?" (49); 4) oda qala(maq): "İki at yükü odın varup aldı, Güləndamı oda urmağa gəldi" (45),..

Uş // oş - bu, məhz, indi: "Əlimdən qafilin çıqdı nedəyin, Avarə oldum *uş* qanda gedəyin?" (18), "Dönüp dedi kim, ey xatuni-sərvər, hüma idüm, vəli *uş* dögmişəm pər" (58),..

Uçmağ - cənnət, behişt: "Sanasın tavus idi bağ içində, Ya huri qızıdur *uçmağ* içində" (56).

Urun(maq) // *örün*(mək) - geyin(mək), yüksəl(mək): "Qaçan xurşit ki, məşriqtən göründi, Ulu dağlar qamu nur tac *urundı" (16),*

Ülü - qisim, bölük: "Məgər bir qafilə yol azmışdı, Günün iki *ülüsü* keçmişdi" (43).

Üşən(mək) // *işən*(mək): ürpəş(mək), çəkin(mək), qorx(maq): *"Üşənürlər,* Hərami duya derlər, Gələ bizi qıra və soya derlər. Yigit aytdı: *üşənmən,* qorqmən, Bizə qarşu Hərami dura demən" (45).

Cav - şöhrət, şan, səs-səda: "Buların *cavı* düşdi Ruma, Şama" (8); "Gəlincə xoçalar *cavın* eşitdi" (20); "Əlümdən sizlər alursız avumı, Dəxi eşitmədünüzmi *cavumı?" (46),..*

Çəri-əsgər, dəstə, sıra: "Dedilər kim, bu nə çoqluq kişidür? Bəzirganlıq *çərinün* nə işidür" (20),..

Çığır(maq) - dəvət et(mək), çağır(maq), səslə(mək): "Güləfrux xalqına ol dəm çığırdı, Yaraqlanun gəlüp deyü *çığırdı" (81)* və hb.

Şəkilcə arxaik olan sözlər. Bu qisim sözlərdə müəyyən səs dəyişikliyi var: söz öz müasir şəklindən fərqli olsa da eyni mənada işlənir.

Ayruq - ayrı, qeyri, başqa, özgə: "Yarağın düzdi, qoşdı ol Hərami, Krımda qalmadı *ayruq* arami" (19),..

Anda - orda, orada: "Bir oda tuttular şəhrin ucunda, İkən azadəvü ğavğa yoq *anda" (9),* "Həman Əhmət Hərami qaldı *anda,* Qalanı qərq olub yaturdı kanda" (15),..

Andan - ondan, o cəhətdən, o səbəbdən, o yerdən, oradan: "Şaşı baqdım, çüda düştüm bən *andan,* Bənüm halım necə olusər *andan" (5);* "Başın çıqardı kim, baqaydı *andan" (14),..*

Ana, anı, anun, anları - ona, onu, onun, onları: "Dedi sultan ki, bən bilməz olayın, *Ana* söylən, nədür fikri biləyin" (24); "Dedi ana görüp sevdüm bən *anı, Anun* eşqi bulıbdur könlü, canı" (56),..

Qaçan, qaçan ki - haçan, haçan ki, nə vaxt: *"Qaçan kim,* qızı gördü döndü getdi, Yenə yoldaşları qatına yetdi" (11); "Əlimdən can *qaçan* qurtarsın sən, Di imdi eylə başın çarəsin sən" (76),..

Qamu, qamusu - hamı, hamısı: "Qılup mürvət xocayı gətürdilər, *Qamusı* ana qulluq yetürdilər" (20); "Nə kim, Əhmət Hərami dedi şaha, *Qamu* ərz eylədilər padşaha" (25).

Qancarı - hancarı, hayana, hansı tərəfə: "Dedi: bunlar əgər bizdən olaydı, Bu vaqtın *qancarı* seyran qılaydı" (12).

Qanda, qandalığı - harda, harada, harada olduğu: "Məkanı *qandadur* bilinməz heç" (4); "Xəzinə *qandalığın* bildi bunlar, Qolay yol nerdəy isə buldu bunlar" (9).

Necəyi - necə, nəyi, nə işi: "Bular gərci bu işi tədbir etdi, Xuda gör kim, *necəyi* təqdir etdi?" (14) və hb.

Arxaik birləşmə və ifadələr. "Dastan"da elə birləşmə və ifadələr müşahidə olunur ki, XII-XIII əsrlərin dil və üslub xüsusiyyətlərinə uyğundur; buna görə müasir dil baxımıqdan müəyyən izah tələb edir. Məs.:

"Güləndam yerinə ol qız *varurdı*
Çü haşa! Cariyə *varup görürdi.*

Netə kim, ol gecə *olurdu* hacət,
Qız ilə *olur idi* ol hekayət" (34).

İlk baxışda *varurdı, varup görürdi, olurdu // olur idi* ifadə şəkilləri öz müasir şəkillərindən bir o qədər fərqlənməsə də *-ur, -ür (və ya ır, ir)* şəkilçiləri o sözlərə yeni məna çaları verib: *varurdı* - vardı gəldi, *varup görürdi* - onun işini gördü, onu əvəz etdi və *olurdu // olur idi* - baş verdi, yerinə yetirdi mənalarını ifadə edir. Halbuki, *ur, ür* hazırda ancaq felin indiki zaman şəkilçiləridir.

"Dastan"da belə ifadə şəkilləri az deyil.

Bıyıq bur(maq) - görk elə(mək), özünü ədalı göstər(mək): "Keçüp Əhmət *biyıq burdı* oturdı. Oqudı ululərını gətürdi" (20),..

Döşin ver(mək) - qonaq elə(mək), qonaqla(maq): "Bir ulu xanə gəldi qondı bunlar, *Döşin verup* qamusu indi bunlar" (48),..

Düni-günə ula(maq) - gecəni gündüzə qat(maq): *"Düni-günə ulayubən* gedərdi, Bulammı qızı deyü fikir edərdi" (19),..

Nəsnə bitir(mək) - qərar ver(mək), qəti qərara gəl(mək): "Biriki gün qərar etdi oturdı, Görüp fikrində nə *nəsnə bitürdi" (19).*

Örü dur(maq) - ayağa dur(maq), dik qalx(maq): "Rəvan yenə yerindən *örü durdı,* Satun aldıvü on atlar gətürdi" (19).

Laf ur(maq) - çərənlə(mək), söhbət elə(mək): *"Uruban lafı* bunlar tədbir etdi, Eşit, təqdir işi onlara netdi" (11).

Utalu-utalu get(mək) - əyilə-əyilə, sinə-sinə get(mək): "Dükəli çünkü açıldı qatular, *utalu-utalu* çün *getdi* bular" (12).

Şoluq dəm // şolıq dəm // ol dəm // olıq dəm - dərhal, o an; "Görür kim, xəslt getmişdür qatından, Şolıq dəm atlayub endi atından" (44); "Güləfrux buyurur kim, tez *olıq dəm* Ki, bir köşk yandururlar yunca, möhkəm" (70),.

"Dastan"da bir sıra gir+di+lər+di, al+dı+lar+dı, qıl+dı+lar+dı və s. bu kimi ifadələr var ki, bunlar indi bu şəkildə işlənməz. Məs.:

"Xəzinəyə bular kim, *girdilərdi*,
Gümüş, altun və ağça *aldılardı*.

Gərəgincə bulardan *aldılardı*,
Gerü getməgə niyyət *qıldılardı (13)*.

Habelə bir sıra *ged+ər+ür* (gedə bilən, hərəkət edən), *de+gür+di* (dedi, vəsf elədi), *məhmuz+ə urdı* (məhmizlədi), *göz+ət+di* (gözlədi), *ev+ər+mək* (evləndirmək) və s. bu kimi ifadələr də indi arxaikdir, öz şəkillərini dəyişmişdir. Məs.:

"Güləndamün şeşdi əlini, ayağını,
Dügəli *gedərür* bəndi-bağını" (44);

"Anası anı qatına çıqırdı
Qızın vəsfin ana bir-bir *degürdi" (54);*

"Yügürdi atını *məhmizə* urdı,
Buların izlərin *gözətdi* gördi" (45)

"Şiraz iqlimi şahıydı atası
***Evərmək* niyyətindəydi anası" (54)**

Arxaik şəkilçilər. Arxaik söz və ifadələrlə yanaşı, "Dastan"da, təbii olaraq, indi müasir dilimiz üçün arxaik olan şəkilçilər də işlənib. Bu şəkilçilər aşağıdakılardır.

1) *-avuz, -əviz, -yavuz, -yəviz* (müasir *-aq, -ək, -yaq, -yək* şəxs şəkilçilərinə sinonim olub birinci şəxsin cəmini bildirən şəkilçilərdir). Məs.: *başla+yavuz, işlə+yəvüz* ("Mübarək dügün edüb *başlayavuz,* Ana görə işimiz *işləyəvüz" - 24); al+avuz* ("Neçün əlindən *alavuz* şikarun?" -47),..

2) *-ayın, -əyin* (müasir *-ım, -im, -um, -üm* və *-aq, -ək, -yaq, -yək* şəxs sonluqlarına sinonim olub birinci şəxsin təki və cəmini bildirən şəkilçilərdir). Məs.: *gəl+əyin, qıl+ayın* ("Ayıtdı kətxuda tanla *gələyin,* Tapun nə kim, buyurursa *qılayın" -21); al+ayın, ged+əyin, bildür+əyin* ("Səni bən dəxi *alayın gedəyin,* Bana etdügün işi *bildirəyin" - 76)*... Bəzən bu şəkilçilər ayım, əyim şəkilçilərilə

müştərək işlənir və eyni mənanı ifadə edir: *var+ayım // al+ayım // qır+ayın* ("Yenə bir dəxi onlara *varayım*, Alayım malın anları *qırayın" - 47); sor+ayım // dur+ayın* ("Bu şəhrün hakimi kimdür *sorayım*, Qaravaş olubən anda *durayın" -50)*...

3) -ayım, -əyim (birinci şəxsin təki və cəmini bildirən şəkilçilərdir). Məs.: *gör+əyim, sor+ayım* ("Alun gəlün oları, der *görəyim*, Nəyə gəldi xəbərlərin *sorayım" -26), ged+əyim, cəm ed+əyim* ("İcazət bən quluna ver *gedəyim*, Varubən anları həp cəm *edəyim" -36)*...

4) alım, əlim, yalım, yəlim (birinci şəxsin həm təki, həm də cəmini bildirən şəkilçilərdir). Məs.: *var+alum, gör+əlüm* ("Dedi vəzirlərə durun *varalum*, Necə haldur, nə başlardur *görəlüm" -17), gizlə+yəlüm, gözlə+yəlüm, duruş+alum, ed+əlüm, uruş+alum* ("Yikit aydur ki, qızı *gizləyəlüm*, həramiyi yaluğuz *gözləyəlüm*. Gəlüb söylərsə, cənkə *duruşalum*, Anunla cəng edəlüm, *uruşalum". -46)*,..

5) -vən (-van) (birinci şəxsin təkini bildirən şəkilçidir). Məs.: *bil-ür+vən, ol-ur+vən* ("Der şəhər kətxudasına *bilürvən*, Özün yaxşı kişi dövlət *olurvən" -21), deyə+vən* ("Nə kim şah der isə bən ana fərman, Neçün yoq *deyəvən*, nə kim desə xan" -25),..

6) *-ğa // -qa, -ğə* (yönlük hal şəkilçiləridi. Məs.: *qapu+ğa* ("Sizə gəldügümüz eyb etməyəsiz. Atan hökmilə gəldük *qapuğa* biz" -29), *sözü+ğə* ("İnanub sözinə ol şahi-peykər, Eydildüm *söziğə*, - dedi, - ey sərvər!" -37),..

7) *-qıl, -gil* (felin əmr şəklinin şəkilçiləridir). Məs.; *demə+gil, eyləmə+gil* ("Saqın, bu razı kimsəyə *deməgil*. Bu sözi kimsəyə efaş *eyləməgil" -34); ol+gil // ol+ıl* ("Cahan içində dayim *olğıl* əsən" - 35, "Bilüb sirrimi bəndən **olğıl** agah" -63),..

8) *-dağı (-dəği)* (müasir -dakı, -dəki sifət düzəldən şəkilçilərdir). Məs.: *ağzın+dağı* ("Utanur inci dişi danəsindən, Sədəf *ağzındakı* dür danəsindən" -10),..

9) *-durur, -dürür* (xəbərdən düzələn şəkilçilərdir). Məs.: *kim+ dürür* ("Görəlüm *kimdürür*, nə xocadur ol, Ki, bənüm eşqümə çıqmış delim yol" -22), *qüdrət+dürür* ("Qılan bu işləri cümlə xüdadür, Əgər

qüdrətdürür, əgər qəzadür" - 37), *alub+durur, olub+durur* ("Dedi: kimin nəsin *alubdurur* ol, Kimün qızına cift olubdurur ol" -68),..

10) *-ziz (-zız, -zuz, -züz)* birinci şəxsin cəmini bildirən şəkilçilərdi). *bil-mə+ziz // bil-mə+züz* ("Dedilər: gəldi bir kişi əbalı, Durur qapuda *bilməziz* nə halı?" 052).

11) *-isər, -yisər, -usər, -üsər* (gələcək zaman şəkilçiləridi). Məs.: *ol+usər* ("Bənüm halum necə *olusər* andan" -5); *gəl+üsər* ("Güləndamı alup getdi işinə, Görün nə *kəlüsər* anun başinə" -38); *de+yisər* ("Neçün yüz döndürəlüm bir kişidən, Nə *deyisər*, bizi ayıdun eşidən" -46),..

12) *-ıban, -ibən, -uban, -übən, -yıban, -yibən, -yuban, -yübən, -yı, -yi, -yu, -yü, -ı, -i, -u, ü* (feli bağlama şəkilçiləridir). Məs:

a) *-ıban, -ibən, -uban, -übən, -yıban, -yibən, -yuban, -yübən: dur+ubən* ("Durubən şah qızına göndürdilər" -25); *keç+übən ("Keçübən* ol keçə çün sübh oldı,.." -28); *qorq+ubən* ("Qaçan kim, yoldaşları qızı gördilər Qamusı *qorqubən* candan keçtilər" -44), *ara+yuban* ("Dedi kim, nə səbəbdən aldı anı, *Arayuban* ya qanda buldı anı" -69).

b) *-yı, -yi, -yu, -yü: sözlə+yi* ("Yanınca bunların *söyləyi* getdi" -12); *uğurla+yu* ("Arayıraq bəni qapunda bulur. *Uğurlayu* gəlür, biz dünlə alur" -49); *istə+yü* ("Yayıldı ol yigitlər cümlə dağa, Şikar *istəyü* baqup sola, sağa" -71),..

c) *-ı, -i, -u, -ü: tur+ı* ("Bular *turı* gəlüp dedi, ey sərvər!" -9); *tut+ı* ("Dedi ki, diri keyik gərəkdür, *Tutı* verün bana anı tezrəkdür" -71), *utan+ı* ("Atasından *utanı*, həm qızardı" -31), *gör+ü* ("Şamu bəylər *görü* qapuya gəldi" -61),..

13) *-layın* (müasir *-yaraq, -yərək* və ya *-la, -lə* şəkilçilərinin mövqeyinə uyğun şəkilçidir) Məs.: *uğur+layın* ("Ərənlərə qılıc vurmaq necədür? *Uğurlayın* yigit qırmaq necədür?" -39).

14) *-ləzin* (müasir kimi qoşmasına uyğun şəkilçidir). Məs.: *nərgis+ləzin* ("Dəri dür kibi yüzində dizildi, Gözi *nərgisləzin* ol dəm süzildi" -30).

15) *-məz*, (felin müzare zamanı birinci şəxs təkin inkarını bildirən şəkilçidir). Məs.: *bil+məzüm* ("Başına bir zaval gəldi nedəyin, *Bilməzüm* ki, qançaru gedəyin" -52); *get+məzəm* ("Qul oldum, *getməzəm* qapından ayruq" -25).

16) *-raq, -rək* (sifətin müqayisə dərəcəsini bilidrən şəkilçidir). Məs.: *qatu+raq* ("Görür on kişi *qaturaq* gedərlər, Xəzinədən yana azim edərlər" -12), *iraq+raq* ("Bənüm şəhrümə əzm edərmisin sən? *İraqraqdır* ölüm, gedərmisən sən?" -49),.. .

17) *-sın, -sin, -sun, -sün* (ikinci şəxsin təkini bildirən şəkilçidir). Məs.: *əyalüm+sin, canum+sun, cigərüm+sin, qanum+sun* ("Əyalümsin bənüm, həm canumsun, Cigərümsin tamarum, həm qanumsun" -30), *bilə+sin // bilə+sın, qıla+sın* ("Qızıyam şahi-Bağdadun *biləsın*, Gərək bu dərdümə dərman *qılasın" -52)* və hb.

c) alınma sözlər

"Dastan"ın dilinin lüğət tərkibində alınma ərəb və fars sözləri müəyyən yer tutur. Ana dilinin öz "əsl" sözləri kimi alınma sözlər də, bir qayda olaraq, dilin qayda-qanunlarına uyğun şəkildə işlənir, dəyişir, hallanır, söz yaradıcılığında iştirak edir və s. Bu sözlər XII-XIII əsrlərdə neçə və hansı mənalarda işlənirdisə, bugün də eləcə işlənir.

Məsələn:

"Güləndam kimsəyə söyləmədi heç,
Bu *razı xalqa faş* eyləmədi heç" (18)

"Yatur ol gecə *qəmgin zaru tənha*
İçindən geçürür nə söz, nə ğavğa" (32)

"Dedi kim, ey bənüm *yarüm, nigarum,*
Vəfadarum, həlalum, ğəmküsarum" (36)

"Nələr qılur, görün bu *çərxi-qəddar,*
Qılur dərdə neçələri giriftar" (41).

"Alıb varub anı *çarmuxa* gərmiş,
***Nigah* bir *qafilə* üstünə irmiş" (69) hb.**

Əvvəldə "Qisseyi-Yusif"in dili bölməsində alınma sözlərin dildə işlənmə üsullarından ətraflı bəhs etmişik, burada da eyni vəziyyət müşahidə olunur. Ona görə də, bu barədə bəhs açmağa ehtiyac duyulmur.

3. Azərbaycan dilinin tədqiqi

Azərbaycan dilinin canlı lüğət ehtyiatını, danışıq xüsusiyyətlərini elmi şəkildə təhlil, tədqiq və təqdir edən danışıq lüğəti - "Kitabi-tərcümani farsi və türki və moğuli" ana dilimizin inkişaf tarixində daha yeni və mühüm mərhələ idi; düzdür, əsər ərəbcə yazılmışdı, lakin tədqiqat obyekti Azərbaycan canlı danışıq dili idi, onun lüğət tərkibi, daxili qayda-qanunları və qrammatik xüsusiyyətlərinə həsr olunmuşdu. Bu isə, öz növbəsində, ana dilinin lüğət tərkibini, canlı dialekt və şivə xüsusiyyətlərini, sözlərin deyiliş və yazılış şəkillərini üzə çıxarır tədqiq edirdi.

1). "Kitabi-tərcüman"... və onun dil materialı

"Kitabi-tərcümani farsi və türki və moğuli" əsəri ilk dəfə əldə edilərkən onun nə müəllifi, nə tarixi, nə də yazıldığı yer məlum idi. P.M.melioranski ərəbcə yazılmış bu əsəri, yəni onun beş əlyazmasını müqayisəli şəkildə götürüb, hələ keçən əsrin sonlarında rus dilinə tərcümə etmiş və əsər üzərində geniş tədqiqat işi aparmışdı. Tədqiqatçı əsərə yazdığı geniş "Giriş"də kitabın yazıldığı tarixi və yeri müəyyən etmiş, müəllifinin kimliyi məsələsini isə açıq buraxmışdı, buna görə, o, hər yerdə ona "naş avtor - bizim müəllif" deyə müraciət edirdi.

a) "Kitabi-tərcüman"ın müəllifi, yazıldığı yer və tarix

P.M.Melioranski mövcud vəziyyətə görə əsərin yazıldığı yeri və vaxtı müəyyən etməyin çətin olduğunu qeyd edir. O yazır: "Türk dili tarixi o qədər yaxşı öyrənilməyib ki, dürüst dilçilik sü-

butları ilə bu əsərin yazıldığı yeri və vaxtı müəyyən etmək mümkün olsun; bununla yanaşı, deməyə haqqımız çatır ki, elə hadisələr var, ehtimal ki, onlar mənşəyini indiki Azərbaycanla bağlayır və bunun mümkünlüyü əleyhinə elə bir fikir yoxdur" (*218*, s. XVIII). P.M.Melioranski bir sıra axtarışlar və məntiqi mülahizələrin nəticəsi olaraq bu fikrə gəlir: *"bu əsər yəqin, İranın şimali-qərbində, Hülakilər dövründə XIV əsrdən gec olmayaraq, bəlkə, hətta XIII əsrin axırında yazılmışdır"* (*218*, s. XVI). Həm də "O, XIII əsrin ikinci yarısından çox qədim ola bilməz", çünki bizim müəllif özü iki yerdə Məhəmməd Kaysın türk dilinə aid yazdığı "böyük kitabını" xatırladır; bu kitab isə 1231-ci ildə vəfat etmiş Xarəzmşah Cəlaləddin üçün yazılmışdı (218, s. XVI). P.M.Melioranski əsərin müəllifinin milliyyətcə kim olduğuna işarə vurur: "Çox güman ki, bizim müəllifin təsviri, əsasən, onun öz müasir Azərbaycan dilindədir. Onun vaxtında Azərbaycanda qarışıq türk əhalisi vardı; bir qismi, yəqin, cənubi, digər qismi isə, şərqi-türk ləhcəsində danışırdı" (218, s. XXXII); lakin adını müəyyən edə bilmir.

Sonrakı tədqiqatlarda bu müəllifin adı da müəyyən edildi: İbn Mühənna (210, s.221, 248).

P.M.Melioranskinin söylədiyi fikir və gəldiyi nəticələri belə xülasə etmək olar: "Kitabi-tərcüman" XIII əsrdə - əsrin ikinci yarısında Azərbaycan ərazisində, azərbaycanlı müəllif tərəfindən yazılmış və onun təsviri "əsasən, onun öz müasir Azərbaycan dilində" olmuşdur.

Lakin burada bir məsələyə münasibət bildirməliyik. S.Y.Malov yazır ki, "Vaxtilə P.M.Melioranski öz dissertasiyası üçün İbn-Mühənnanın həmin "Lüğəti"nin o vaxt məlum olan bütün beş əlyazmasından (3-ü Oksfordda, 1-i Parisdə və 1-i də Berlində) istifadə etmişdi. İndi, İbn Mühənnanın əsərinin altıncı əlyazması da məlum oldu; Konstantinopoldakı Dövlət Muzeyi Kitabxanasından tapılan yeni əlyazmasının 400 illik tarixi var və A.Rifətin ədalətlə qeyd etdiyi kimi, o Qərbi Avropa kitabxanalarında olan mükəmməl və lü-

ğət cəhətdən yaxşı əlyazmasıdır (210, s.221). S.Y.Malov davam edir: "Əgər prof. P.M.Melioranski ona məlum olan beş əlyazmasının təsvirinə əsasən o dili qədim - Azərbaycan dili hesab etdiyi doğrudursa, onda belə düşünürəm ki, mən də indi o dili İbn Mühənnanın əsərinin altıncı əlyazmasının və habelə İbn Mühənnanın özünün (onu köçürənlərin yox) şərqi Türküstan, kaşğar və uyğur dilindən çıxış etdiyinə əsaslansam, güman edirəm, günaha batmaram (210, s.247).

Hər iki alimə böyük ehtiramım var. Əgər S.Y.Malovun fikrinə qarşı çıxıb, P.M.Melioranskinin tərəfində dursam və onun beş əlyazması üzərində apardığı tədqiqatı daha etibarlı sayıb, fikrini *müasir Azərbaycan dili baxımından bir daha tədqiq və təsdiqə* çalışsam, belə hesab edirəm ki, mən də "günaha batmış" olmaram.

Beləliklə, biz "Kitabi-Tərcüman"dan məhz XIII əsrdə - ya əsrin ortaları, ya da axırlarında yazılmış, əsasən Azərbaycan dilinə aid bir əsər kimi, oradakı lüğət materialından həmin əsrin Azərbaycan dili, söz, lüğət ehtiyatı kimi bəhs açа, danışa bilərik.

b) "Kitabi-tərcüman"da Azərbaycan dili, qanunauyğunluqlarının tədqiqi

Kitabın ümumi bölməsində bir sıra maraqlı nəzəri məsələlərə toxunulur. Bunlar türk dillərinə indiki elmi baxımdan belə faydalıdır; bunlar, həqiqətən, türk dilləri, XIII əsrdə onların mövqeyi, müxtəlif qolları, dialekt və şivələri, bu dialekt və şivələrin bir-birilə əlaqəsi, yaxınlığı və s. barədə əhəmiyyətli mülahizələrdir. Müəllif tez-tez "bizim ölkənin türk dili və ya ləhcəsi" istilahını işlədir ki, bu, "Azərbaycan ölkəsi və onun dili" deməkdir.

Burada yenə məsələlərin qoyuluşuna P.M.Melioranskinin münasibəti diqqəti cəlb edir. O yazır: "Bizim müəllif, daha sonra, qrammatikanın müxtəlif yerlərində dialektlər arasındakı fərqlərdən danışır. O, ümumiyyətlə dialektləri belə fərqləndirir: türküstan, türkmən və "bizim ölkənin türk", yəni, məncə, "qədim-Azərbay-

can" dialekti (hətta, dialektləri, məs.: bax 6, 13 - 0,8, 10). Bizim müəllif türkmən dialektindən çox ötəri bəhs edir, lakin "bizim ölkənin türk" dili ilə müqayisədə "türküstan" dilinin səs quruluşunu kifayət qədər dolğun səciyyələndirir; bununla belə, o, əlbəttə, bu axırıncı ilə daha çox məşğul olur, həm də, hətta, müxtəlif kənara çıxmalarla "bizim ölkənin türk"ləri arasındakı şivələri dönə-dönə nəzərə çarpdırır, belə ki, görünür, bu dialekt tam eyni şəkilli deyildi" (218, s. XX).

Belə aydın olur ki, İbn Mühənna öz əsərində ümumilikdə "türk dili" və ya "türk dilləri" dedikdə, onun üç mühüm qolundan danışır ki, bunların biri də "qədim - Azərbaycan" dili və ya dialekti, hətta dialektləridir. Kitabda məhz bu axırıncı Azərbaycan dili üzərində geniş müqayisə və tutuşdurmalar aparılır.

Beləliklə, üçdilli "Kitabi-tərcüman"da XIII əsrin Azərbaycan dili dia-lekt və şivələrilə birlikdə öz əksini kifayət qədər tapmış olur, yeri gəldikcə, bu dilin sövti, şəkli və sintaktik qanunlarından da danışılır; bu danışıqları biz də lazım gəldikdə xatırlayacaq, mümkün qədər, bunları *eynilə* saxlayıb, öz mülahizələrimizi əlavə edəcəyik.

Kitabdakı ayrı-ayrı məsələləri izləyək.

Əlifba

Hələ Mahmud Kaşğarlının "Divan"ında türk xalqlarının ərəb qrafikası əsasında mövcud olan əlifbasından söhbət açmışdıq. "Kitabi-tərcüman"da da mətləbə məhz əlifbadan başlanılır; kitabın müəllifi özünəməxsus bir dəst-xətlə samit və sait səslərdən danışır, bunları təsvir və təhlil edir.

Samit səslər. Kitabda ərəb dilindən alınaraq həmin əsasda düzülmüş türk əlifbasında, ümumiyyətlə 23 hərf olduğu göstərilir. Həmin hərflər bunlardır:

ر, ز, س, ش, ص, ط, غ, ف, ق, ك, ل, م, ن, و, ه, ى

ا, ب, ت, ج, خ, د, ذ

Lakin buraya ərəb əlifbasında olmayan beş hərfin (پ چ ژ ڤ ڭ) əlavə edildiyi göstərilir. Bununla əlaqədar, müəllif bu əlavə beş hərf üzərində xüsusi dayanır və onlara izahat verir:

1) ﭙ (p) - qalın tələffüzlü olub, elə bil, dodaqlar arasından üfürülüb çıxır:

2) ﭽ (ç) - ş-ya yaxın tələffüz olunur;

3) ﮊ (j) - öz törənişinə görə c ilə ş arasında yerləşir;

4) ﭤ (v) -v-dan fərqli tələffüz olunur;

5) ﮓ (g) - q səsinin bədəvi ərəblərdəki qarışıq tələffüzünə bənzəyir (04).

Beləliklə, İbn Mühənnanın tədqiqinə görə, türk dilinin (daha dürüstü, türk dillərinin) tərkibindəki samit səslər bunlardan ibarətdir: ﺏ (b), ﭖ (p), ﻁ (t), ﺕ (t), ﺝ (c), ﭺ (ç), ﺥ (x), ﺩ (d), ﺫ (dh), ﺯ (z), ﮋ (j), ﺭ (r), ﺹ (s), ﺱ (s), ﻍ (ğ), ﻑ (f), ﭢ (v), ﻕ (q), ﻙ (k), ﮒ (g), ﻝ (l), ﻡ (m), ﻥ (n), ﻭ (v), ﻩ (h), ﻯ (y), ﯾ (ɲ),

Burada təxminən eyni olan səslərin ikili işarəsi diqqəti cəlb edir: d =د ذ, t =ت ط, s =س ص. D, t, s səslərinin iki işarə ilə ifadəsi hansı əsasla və ya əlavə mənbə ilə bağlı olur-olsun, burada bir mühüm cəhət nəzərə alınmaya bilməz. "Orxon-Yenisey" kitabələrində də öz xüsusiyyət və keyfiyyətlərindən asılı olaraq bu səslər iki və hətta üç işarəli idi: d =𐰋 𐰍, s =𐰉 𐰽, t =𐰓 𐰾 𐰇. Bizə belə gəlir ki, sonralar ərəb əlifbası qrafikası əsasında yaradılan türk əlifbasındakı həmin səslərin iki işarə ilə ifadəsinin əsl mənbəyi məhz qədim türk - "Orxon-Yenisey" əlifbası olmuşdur. Bu münasibətlə P.M.Melioranskinin söylədiyi bir fikri də təqdir edirik: "ذ səsinə mətnin 7, 10 səhifəsinin اذكو sözündə təsadüf edilir, amma o, mətnin 7,9 səhifəsinə əsasən ادكو olmalı idi. Lakin, məs.: Rabquzidə

və bir para başqa qədim - "cığatay" əsərlərindəki ذ yerinə qədim uyqur kitabələrində bir sıra sözlərdə ﺵ (və ya ﺱ) və Orxon yazılarında ⟫ və x işlənir. Belə ki, o, bəlkə bizim müəllifə də məlum imiş" (218, s.XXXII). Türk dillərinin daxili səs sistemi, öz xüsusiyyəti ilə əlaqədar ərəb əlifbasından beş səs atılıb, ona beş yeni səs əlavə edildiyi kimi, səslərin tələffüzündəki keyfiyyətlər nəzərə alınaraq, bir səs üçün iki işarənin yaradılması da təbii idi.

Sait səslər. Kitabda ا و ی saitləri üzərində daha geniş dayanılır və hərtərəfli xarakterizə edilir. Müəllif xüsusi nəzərə çarpdırır ki, *yadda saxla,* bu səslər müxtəlif şəkildə işlənir. Məs.:

Əlif (ا) üç qrupa bölünür: 1) əsas əlif, məs., قاو (ara həkimi, türkəçarəçi) və ya, قار (qar); 2) ancaq vavdan sonra yazılan və sözün axırında gələn əlif; 3) fəthəni təmin etmək üçün yazılan əlif, məs.: یارار (yarar, yarayar), کۆرار (görər), بگلر (bəglər), کلمسلر (gəlməslər). Habelə *a, ə* kimi "qırıqlıq" və "fasilə" məqsədilə işlədilir və türk dilində onun əvəzinə bəzən əlif də yazılır, məs.: مندە (munda), آندە (anda), الما (alma), نا (nə).

Vav (و) üç növdə olur: 1) əsas, dolğun tələffüzlü vav, məs., اوز (Oz. - qabil adam, ustad), ۇر (vur), بوز (buz) sözlərində olduğu kimi; 2) yüngül (ötəri) tələffüzlü vav, məs., اۇرغۇ (urğu) الغو (alğu) sözlərində olduğu kimi; 3) ancaq qabaqda gələn dammanı göstərmək üçün qoyulan vav, məs., اۇرغۇ (urğu), اۇش (uş-bu), اۇق (ok) sözlərində olduğu kimi; bununla yanaşı, o, bəzən bu səslərin "qalın" (yəni o kimi) tələffüzünü göstərir, məs.: بوی (boy-ot adı), توی (toy).

Ya (ی) da üç növdə olur: 1) o, aşkar və aydın söylənilir, məs., ایشْ (iş), کیشی (kiş-heyvan), بیز (biz-alət), بیر (bir) sözlərində olduğu kimi; 2) o, bəzən kəsrə (yəni "e") tonu ilə söylənilir. Məs., ایشْ (eş-yoldaş), کیشی (kiş - ox qabı), بیر (ber-ver); 3) ه, qabaqda olan kəsrəni göstərir, məs, بیز (biz), سیز (siz),.. (05, 06).

Dilimizdəki digər saitlər də bir sıra sözlərin tərkibində özünü bu şəkillərdə göstərir:

Y saiti - و və ـۇ və ya sözün əvvəlində او ilə ifadə olunur: اوچ (073) - üç, اُسْتُن (068) - üstün, بُتُوْن (080) - bütün, بُلُوْك (082) - bölük, اَسْرُك (o68) - əsrük...

Ö saiti و və ـۆ və ya sözün əvvəlində او ilə ifadə olunur: اورت (073) - ört, اُوْرتلِه (073) - örtüg, اوت // اُوْد (073) - öt // öd, کیُوز (069) - göz, اُلدُر (071) - öldür,..

I saiti - ی və sözün əvvəlində ا ilə ifadə olunur: ارى (067) - arı, اطلى (069) - atlı, بالغچى (80) - balığçı, بغدادلى (081) - bağdadlı, اسر (068) - ısır, اسمارلا (068) - ısmarla...

Beləliklə, İbn Mühənnanın tədqiqinə görə türk dilinin (daha doğrusu, türk dillərinin) tərkibindəki sait səslər bunlardan ibarətdir: a, o, u, ü, ö, e, ə, ı, i.

Bugün də dilimizdəki saitlər həmin səslərdir.

*Bəzi eyni sözlərin imlasında nəzərə çarpan müxtəliflikl*ər

"Kitabi-tərcüman"ın maraqlı imla xüsusiyyətləri var. Bəzən eyni sözlərin yazılışında ikili, üçlü hallar müşahidə olunur. Bu hallar əsasən sözlərin tələffüz rəngarəngliyi, habelə şivə və canlı danışıq

xüsusiyyətlərinin ifadəsi kimi izah edilə bilər. Kitabın əməli əhəmiyyətini - danışıq lüğəti olduğunu nəzərə alsaq, bu çox təbii görünür və bizə imkan verir ki, XII-XIII əsrlərin bəzi canlı dil xüsusiyyətlərini üzə çıxara bilək, "bərpa" edək. Məs., müasir *könül* sözü كۈنگۈل // كۆنۈل (0110) şəklində iki cür yazılıb. Bunu iki cür də oxumaq lazımdır: *konul, gönül*. O vaxtlar hər iki tələffüz məqbul imiş.

Və ya: müasir *donuz* sözü تۇڭۇز // دۇڭغۇز (092) şəklində iki cür yazılıb. Bunu ya sözün müasir canlı tələffüzünü nəzərə alıb sağır nunla iki cür: *donuz // tonuz*, ya da yazıldığı kimi iki cür: *donğuz // tonğuz* oxumaq lazımdır. O vaxtlar hər iki (və ya dörd) tələffüz məqbul imiş. Yaxud: müasir *min* sözü مىڭ // بىڭ (084, 0113) şəklində iki cür yazılıb. Bunu iki cür də oxumaq lazımdır: *min // bin*. O vaxtlar hər iki tələffüz məqbul imiş.

Bu cür iki və daha artıq variantda yazılan sözlər dövrün dil, danışıq və tələffüz məziyyətlərini aşkar edən xüsusiyyətlərdir. Bunları qruplara ayırıb bir qədər də ətraflı nəzərdən keçirək.

1) Bir sıra müasir "x" və "q" səsli sözlərin yazılışı diqqəti cəlb edir.

Bu gün "x" samiti ilə verilən sözlər "q" ilə yazılır: aqar, aqar su آقارسو (070), baq بَقَ, baqdur - بَقْدُر, baqış - بقىش (081), tıq (tıxmaq) - تىقِ, toqmaq - تُقماق (086), çaqmaq - چَقماق, çıqış - چِقىش, çoq - چوق (089), qaan (xaan, xaqan) - قاآن, qatun - قاتُن (0102), qırq - قِرق, qirq (qırxmaq) - قِرق (0105), qorqunc - قُرقُنچ (0105), yaqa - يَقا, yıquq - يِقُوق (0117),.. oq اوق, اُوقگِزى (074), oqçı - اُوقچى (074), aqsa - آقصَ, oqutur - اُقتُر, oqu - اُقُو (070), toqlı - تو قلى (087),..

"Q" səsli sözlər bəzən ğ ilə yazılır: ayağ - ایاغ, ayağçı - آیاغچی, ayağlu, dörd ayağlu - آیاغلو, دُورد آیاغلو (076), ocağ - اُوجاغ, otağçı // odağçı - اُوتاغچی // اُودَاغچی (073), balığ - بالیغ, balığçı - بالیغچی (080), bulağ - بُلاغ (082), sınığ - سینغ (097), qaymağ - قَیماغ (0108), yumruğla, - یُمرُغلا yumşağla - یُمشَغلَ, yamağ - یَمَغ (0118),..

Bununla belə, eyni söz bəzən iki şəkildə də yazılır: aruğ - آرُغ, aruğla - آرُغلَ // aruq - آرُق, arıqlan - آرقلَنْ (067), ayağ - ایاغ // ayaq - ایاق (076); daq - دَاق // dağ - داغ (90), sıq - سق (96) // sığ - سیغ (095), sınuq - سینُق // sınığ - سینغ (097), tonlıq - طُونلُق // tonlığ - طُونلیغ (0101), quyrıq - قُیرُق // quyruğ - قُویرُغ (0108), yamaq - یَمَق // yamağ - یَمَغ, yumşaq - یُمشَاق // yumşağla - یُمشَغلَ (0118), yoq - یوق // yoğ, yoğ etti - یوغ، یُوغ ایتی (0119)...

2) Bir sıra dodaq və damaq ahəngli sözlərin yazılışı diqqəti cəlb edir:

Dodaqlanan saitlər damaq ahənginə keçir: Bu keyfiyyət özünü, xüsusilə sözlərə qoşulan şəkilçilərdə göstərir: quzı - قُوزی qonşı - قُونشی (0107), oduncı - اُودُنجی, unçı - اُونجی (075), tüksiz - تُوكسیز (078), davulçı - داوُلجی (090), vurıl - وُرِل (0014),..

Damaq saitləri dodaq saitlərinə keçir: armut - آرمُت (067), inçü - اِنجُو (072), içkü - اِچكو (076), biləzük - بیلَزك (084),

dəmür - دَمُر, dəlü - دَلُو (092), aruq - آرُق, ilərü - ايلَرُ, gerü - گيرو (018). Bu keyfiyyət özünü sözlərə qoşulan şəkilçilərdə də geniş şəkildə göstərir: gəlürlər - گَلُرلر, gəlsünlər - گَلسُنلر (012), gəlsün - گَلسُن, barsun - بارسُن (032), aldum - آلدُم (019), içür - ايچُر (076), sındur - سِندُر (097), gətür - گَتُر (0109), yedür - يِيدُر (0120).

Bununla belə, eyni söz bəzən iki şəkildə də, həm damaq, həm də dodaq samitləri ilə verilir: doğri - دُغرِی // doğru - دُغرُو (091), qurı - قُرِی (0105) // quru - قُرُ (0104), yuqarı - يُقارِی (0117) // yuqaru - يُوقَرُو (0119), qoyın - قُويِن // qoyun - قُيُون (0108), qapı - قَپِی qapu - قَپُو // qapuq - قَپُق (0103), yapı - يَاپِی // yapuğ - يَاپُغ (0114)...

Bütün bunlarla yanaşı, yəqin ki, ərəb əlifbasının nöqsanlılığı üzündən bir sıra müxtəlif sözlər eyni yazılır, bunları ancaq mətnə görə müəyyənləşdirmək mümkün olur. Məs., *gül, kül, göl* sözləri كُول // كُول (0110, 0112), yaxud, *gör, gor* (qəbir) sözləri كُور (0111), yaxud da *göz, köz* sözləri كُوز şəklində bir cür yazılır. Habelə bir sıra eyni sözlərin imlasında qeyri-sabitlik müşahidə olunur: bütün - بُوتُن // بُتُون (080, 082), *bul, bol* - بول // ئل // بُول (0830), dil - دِل // ديل (0920), gəl - كل // گَل (0110), gün - كُن // كُن (0110), vur - وُر // وُرْ (0114), vuruş - وُرُوش // وُرُشْ (093), biçməs - بيچماس // (0114), döşək - دُوشَك // دُوشاك (083, 084), sürt - سُورْت // سُرْت (097), yat - ياط // يَطْ

(0115, 0117), dilsiz - دلسز // دیلسیز (093), sözləş - سوزلاشْ // سُوْزْلَشْ (097), tatlı // tatlu - طاتلی // طَاْتْلو (0100, 0101), qat - قات // قاط (0103)...

Səslərin fonetik dəyişikliyə uğraması

"Kitabi-tərcüman" müəllifinin özü canlı danışıqda, nitqdə sözlərin, sözlərdəki səslərin dəyişməsi, bir-birilə yaxın səslərin əvəzlənməsi və s.-nin qanunauyğunluğu barədə söhbət açır, dediyini misal və nümunələrlə əsaslandırmağa çalışır. Müəllif yazır ki, danışıqda yaxın səslərin əvəzlənməsi, bir səsin bəzən başqa səsə keçməsi türk dillərində təbii haldır, bunu dilin öz daxili qanunauyğunluqları törədir: "indi biz əvəzetmələr barədə bir şey deyək ki," - deyə müəllif sözünə davam edir - "nəzərdən keçirilən dilin xüsusiyyətlərini dərk edə bilək. Yeri gəldikcə, görəcəksən ki, türküstanlılar (bəzən) məlum (bu və ya digər) sözü deyirlər, sonra özləri də, səslərin törəmə yaxınlığı səbəbindən, həmin sözdə bir səsi başqası ilə əvəz edirlər; bəzən də bizim ölkənin camaatı onların (yəni türküstanlıların) sözünün bir səsini dəyişir; nəzərə almaq lazımdır ki, bütün bunlar (tələffüzlər) dürüstdür" (09).

Bu sözlər XIII əsr dilçi-aliminin Azərbaycanın bu gün də aydın şəkildə sezilən fonetik keyfiyyətlərinə dair söylədiyi çox doğru elmi fikirdir.

Bunları ayrıca izləyək.

1) *t ~ d* - əvəzlənməsi. Törəmə yaxınlığına görə *d, t* səslərinin bir-birini əvəz etməsi dilimizdə daha qabarıq nəzərə çarpır. Bunu biz ta qədimlərdən başlayaraq bütün dövrlərdə də müşahidə edirik.

D ~ t ilə əvəzlənir: *təniz (087) kəstik (011), sattı, saptı (026), ot (od), ut (ud) - 072, bulut (082), turna (085), turna (085), tükmə, tamğa, tamğala (086), tonuz, todaq, ton, tirək, tiləк (087), souttı, taş, taşlıq (0100), tuz, tuzlu (0101)...*

T ~ d ilə əvəzlənir: *daptı (026), dəpə (084), dap (090), dut, ditrə (091), dök, dər (tər) - 093, dəp (091)...*

Bununla belə, eyni söz həm *d*, həm də *t* ilə verilir: *dil // til (011), açdı // açtı, baqdı // baqtı, qopdı // qoptı (010), dar // tar (090, 084), datlu // tatlu // dadsiz (090, 0100), dit // tit (093), dırnaq // tırnaq (091, 081), dart // tart (099, 0100), dol // tol (0101), qurd // qurt (0104), öd // öt (073), ud // ut (08), dan // tan (090, 0101), dirig // tirik (010), odağçı // otağçı (073), dur // tur, daraq // taraq (091), dəvə // təvə (093, 087)...*

2) b ~ p ~ b əvəzlənməsi: *münip, münip gəldi, münip bardı (020),.. balçıq (080), çabuq (089), qabaq (0103), kirbi (0109), suba (supa, eşşək balası) (-84), qobuzçı (0103)...*

3) v ~ b əvəzlənməsi: *ber (07), berdi, ağu berdi (070), bar, barlu (079), bardım // vardum (019, 020), yalbar (0116)...*

4) z ~ s ~ z əvəzlənməsi: *gəlməz // gəlməs, baramaz // baramas (011, 038), gəlməssiz (012), bilməs, gələ bilməs (083), gələ bilməslər (012), biçməs (083)...*

5) y ~ g əvəzlənməsi: *bəg (081), çig (çiy) - 089, dəgşür, dəgiştürdi (091), dəgənək (092), gög (göy, səma) gög (rəng), gög yol (0111)...*

6) k ~ g ~ k əvəzlənməsi: *gömür (0110), gög (kök) - (0112), göç (0111), gişi (0109), giçi // kiçig (0112)... gül(mək) // kül(mək), konul // gönül, gücsiz // kücsiz, güclə // güclə // küclü (0110)...*

7) b ~ m ~ b əvəzlənməsi: *muna (08), munda, mundan (0113),.. mən // bən (082), bin // bin // min // min (082, 084, 0113)...*

8) *ç ~ ş* əvəzlənməsi: aş (aç) - 068, qaş (qaç), qaştı (0103), iş (iç), iş ton (alt paltarı, donu) - 078...

9) o ~ a əvəzlənməsi: *ana (ona) - 08, anlar (014), anda (orda), andan (ordan, oradan) - 019, av, av iti (072), avçı (073), buzavf (081), tauşan (doşan, douşan) - 0101...*

10) e ~ ə əvəzlənməsi: *əv (072), əvdəki yay, əvdəgi qız (073), əvlən (075), səv (097), səvin, səvgü (098)...*

11) v (ۋ) → vf (ڤ) əvəzlənməsi: *av // avf, sevinc // sevfinc (010)...*

12) t → s əvəzlənməsi: *issi (isti), issi su, issi sucı (hamamçı), issi kün (077, 078)... Və h.b.*

Səsartımı. Kitabədə, bir qayda olaraq saitlə başlanan bir sıra sözlərin əvvəlinə y səsi artırılır: *yüzüm, yüz(mək), yigit, öküt // yöküt (0117), yignə, yignəçi, yılxıçı, yürək, yüzüci, yüzük (0119), yiti, yılıq (0120)...*

Səsdüşümü. Samit səslərin düşməsi ilə saitlər uzanır. Məs.: *ma // maa (mana, mənə) - 08, soğ // souğ, so gün // souğ gün, soğ su // souğ su, sot // sout (098), sottı // souttı (0100)...* Canlı danışıq və müraciətlərdə bəzi iki və ya daha çox sözün ixtisar şəkli ortaya çıxa bilir. Məs.: *nəşə* (nə üçün, nədən ötrü), *nəmə* (nədir, nə olan şeydir?) - 0114...

2). "Kitabi-tərcüman"ın sözlüyü

"Kitabi-tərcüman"da qarşıya qoyulan məqsəddən asılı olaraq, o vaxtın danışıq səviyyəsinə uyğun və daha işlək olan söz və ifadələr əhatə edilib. Bu söz və ifadələr əsasən bu gün də dilimizdə - xalq arasında, canlı danışıq və şivələrimizdə işlənməkdədir.

Kitabənin sözlüyünü bugünkü dilimiz, onun qrammatik quruluşu və tarixi baxımından nəzərdən keçirək.

Artıq məlumdur ki, M.Kaşğarlının "Divan"ında sözlər oradakı səslərin sayına görə qrammatik kateqoriyalar üzrə qruplaşdırılır və düzülürdü; "Kitabi-tərcüman" təxminən 200 il sonra yazılmış eyni səciyyəli elmi əsərdir; "sözləri - aradakı səslərin sayına görə" qrammatik kateqoriyalar üzrə qruplaşdırmaq və düzmək ənənəsini burada da görürük.

a) isimlər

"Kitabi-tərcüman"da isimlər quruluşuna görə müasir dilimizdə olduğu kimi üç qrupa bölünür: sadə, düzəltmə və mürəkkəb.

Sadə isimlər.

Sadə isimləri, sözlərdəki səslərin sayına görə aşağıdakı şəkildə təsnif etmək olar.

1) İki səsdən ibarət sadə isimlər: *ok // oq // ox (06, 073), iş (06), ad, ər (066), at (068), ev, ot (072), un, ün (075), ay, ət, ip (076), su (097), öd // öt (073)...*

2) Üç səsdən ibarət sadə içimlər: *qar (05), bəg, toy, biz (alət), buz (06), tük (013), yay (014), dat (dad) - 030, ata (065), ard (066), arı (067), ağa (069), ağu (070), qan (071), süt, ana, and (072), ayu (079), baş, bağ (ip), bal (080), boy (083), ton (don), toz (087), döş, diz, diş (093), sac (094), söz (097), qab // qap (0102), qat (0103), qış (0105), qul (0106), qoz, quş, qol (0107), qın (0108), kök, göl, yaz, yaş (0115), yağ (0116)...*

3) Dörd səsdən ibarət sadə isimlər: *alma (06), kişi (011), adaq // adağ, ayaq // ayağ, arpa, arxa (066), ağrı, oqru // oğrı, ağız // ağuz (069), oğul, ağça, əkin (əyin-baş) - 071, alın, inçü (072), ocağ, odun (073), uğur // oğur (074), elti, ələk (078), inək, ayna, oyun, ayva, barı (079), börk (081), borc (082), boya (083), təkə (086), dəvə (093), quzı, ququ // quğu (quş), 0107, kürk (0111), yazı (çöl, düzənlik) - 0115, yağı (düşmən) - 0116...*

4) Beş səsdən ibarət sadə isimlər: *sinir (05), tavar // davar (07), buğra, buğda (08), sığır (09), qılıc (011), altun (013), dəmir (014), alqış, qarqış (031), ortaq, ördək (066), armut, astar (068), oğlağ (069), oğlan (071), bazar, bağır, balığ (080), beşik (081), bulağ (082), boyun (083), təknə, tülkü (086), çadır, çağır* (çaxır), *çamur (088), saray, sərçə // serçə, sirkə, sağrı (095), saqız, saqal (096), soğan (098), qayış, qopuz, qatır (0103), qarış (0105), qulaq (0106), qulun, qamış, qımız (0106), qayığ, qılığ, qoyun, köpək (0108), kəpək, kiriş, kömür, gümüş, könül (0110), güzgü (0111), yanaq, yengə (0118), yalan (0116), yüzüm, yigit (0117)...*

5) Altı səsdən ibarət sadə isimlər: *arslan // aslan (067, 068), barmaq, batman (080), batmaq (081), pambıq (082), bayram (084),*

qarmaq (0102), qaplan (0103), qursaq, qartal (0104), qaftan, qalqan (0106), quyruq // quyruğ, qaymağ (0108), kərpic (0109), qaraul (0104), yorğan (0117)...

6) Yeddi səsdən ibarət sadə isimlər: *saraban (sarafan, üst paltarı) - 095, yumurta, qarınça (0102), qazqanc (qazanc) - 0105, kəpənək (yapıncı, qaftan) - (0108)...*

7) Səkkiz səsdən ibarət sadə isimlər: *dəgirman (091), sarımsaq (095);*

Düzəltmə isimlər.

"Kitabi-tərcüman"da düzəltmə isimlər, bir qayda olaraq, ad və fellərdən sözdüzəldici şəkilçilərin əlavəsi ilə düzəlir. Məs.:

1) *-çı, -çi (-çu, -çü): dəmir+çi // dəmür+çi (014, 092), aş+çı (068), otaq+çı (kirayəçi), av+çı, odun+çı, örkən+çi (073), oq+çı (074), ulaq+çı, un+çı (075), ayağ+çı, el+çi (078), ayna+çı (0790, balığ+çı (080), börk+çi, başmaq+çı (081), boya+çı (083), çadır+çı (088), davul+çı (090), dəgirman+çı (091), dəvə+çi (093), sığır+çı (095), qalay+çı, qobuz+çı, qapu+çı (0103), qılıc+çı (0106), kiriş+çi (0109), gəmi+çi, kəndir+çi (110),..*

2) -lı (lıq // lığ), -li (lik), -lu (-lü). Bu şəkilçilər əsasən isimdən sahiblik mənası daşıyan isim düzəldir: *qılıc+lı (014), saç+lı (094), at+lı // at+lu (069), ton+lu (013), söz+lü (098), kök+lü (115)...* Həmçinin məkan, yer bilidrən isimlərdə bu şəkilçilərlə düzəlir: *bağdad+lı, mosul+lı, abad+lı (013),..* Bəzən bu şəkilçilər lıq, lığ, lük şəklində də işlənərək eyni mənalı sözlər düzəldir: *at+lı // at+lu // at+lığ (069), ton+lu // ton+lıq // ton-lığ (013).. Ad+lığ (013), at+lıq (069), qulaq+lıq (069), buz+luq (083)...* sözlərindəki *-lığ, -lıq, -luq* şəkilçiləri də *-lı, -lu* mənasında çıxış edir.

3) *-laq // lağ: ot+lağ (073), qış+lağ (0105), qamış+laq (066), yay+laq (0116)...*

4) -lıq, -luq, -lik, -lük: yaxşı+lıq (0116), ğonuq+luq (0106), sevinc+lik (096), ala+luq, alabula+lıq (071)...

5) -ıcı, -ici, -ucu, -ücü, -yıcı, -yici, -yucu, -yücü: al+ıcı, yon+ıcı (69), oyna+yıcı (076), sıq+ıcı, sümür+üci (096)...

6) -ik (ig), -ük,: ört+ük (073), bil+ig (084), öksür+ük (075), böl+ük (082), süz+ük (097)...

7) -iş, -üş, -ş: öp+üş (071), en+iş (079), sög+üş (097), oyna+ş (076)...

8) -inc, -c: sev+inc (098), inan+c (079), qazqan+ç (0105)...

9) -aq (-ək), q // ğ: biç // bıç+aq(ək) - 083, yama+q // yama+ğ (0118), yastı+q (0115)...

10) -əş: gün+əş (0110).

11) -aç: qul // qol+aç (qulaç, qolaç) - 0107.

12) -üm: öl+üm (071)...

13) -cək: əm+cək (072)...

14) -gü (-gi): iç+gü (076), sev+gü (098)...

15) -maq: çaq+maq (daşı) - 089, taq+maq (086)...

16) -ənəg: dəg+ənək (092)...

17) -qun (qın): qaç+qun, qaç+qun+çı (0102)...

18) -ğu (-ğı): qır+ğu (quş) - 0104...

19) -uq; -ıq: qon+uq (qonaq), qon+uq+luq (0107)...

20) -şı: qon+şı (0107)...

21) -d, -t: yoğur+d (0107), quru+t (0107)...

22) -in:ək+in ((071), gəl+in (0110)...

23) -ümçək: ör+ümçək (074)...

24) -çi: örkən+çi (067)...

25) -kəc, -kəg: ər+gəc, ər+kəg (068)...

26) -kən: öldür+kən (075)...

27) -üd:ög+üd (074)...

28) -pic: yel+pic (0120)...

29) -k: döşə+k (093)...

30) -ıncaq: sal+ıncaq (096)...

31) -cuğ: saray+cuğ (095)...

32) -mur: yağ+mur (0117)...

33) -ğa: qar+ğa (0104)...
34) -daş // taş: yol+daş (0119), qarın+taş (0105)...
35) - mac: bula+mac (082)...
Mürəkkəb isimlər.

"Kitabi-tərcüman"da mürəkkəb isimlərə az rast gəlirik. "lüğət"də bir-iki baş satıcı, baş barmaq (080) kimi mürəkkəb isimlər var. İllərə verilən adları isə mürəkkəb xüsusi isimlər hesab etmək olar: *Sıçğan yılı, Sığır yılı, Pars yılı və ya Qablan yılı, Tavışğan yılı, Balığ yılı, Yılan yılı, At yılı, Qoyın yılı, Biçin yılı, Toquq yılı, İt yılı, Donğuz yılı (041).*

c) sifətlər

"Kitab"da müəllifin sifət haqqında bu yaddaşı var: "Sifət aid olduğu isimlərin əvvəlində gəlir; məs.: بیلکا ار bilgə ər, زید بای - bay Zeyd, کوجلوتنکری - güclü Tanrı; bəzən də ad (yəni isim) ərəb dilində olduğu kimi, sifətdən əvvəl gəlir" (016). Müəllif bu soŋuncuya misal vermir. "Qüvvətləndirmə və ya üstünlük bildirən söz hissəciklərinə dair" bölmədə bir sıra digər sifətlər xatırlanır və belə bir qayda verilir: "Bunların (bu hadisənin) əlaməti olaraq ر və ق-dən istifadə edilir, amma bəzi sözlərdə ق öz yerini ك ilə dəyişir" (024). Gətirilən misallar bunlardır: yaxşı-yaxşırağ, yaman-yamanraq.

Sadə sifətlər

İki səsdən ibarət sadə sifətlər: *ac (065), ağ // aq (069, 070)...*

Üç səsdən ibarət sadə sifətlər: *açu // acı // açı (065), arı (təmiz) - 067, ala (071), tar (dar) - 072, iti (076), boz (082), boş (083), düz (092), gen (0110), gög (0111), yaş (0114)...*

Dörd səsdən ibarət sadə sifətlər: *axta (axta at) - 065, aruq // aruğ, uzun (067), ucuz (076), ayıq (078), bərk (081), dişi (091), dəlü, dolu (092), saru // sarığ ("sarı quş", "sarığ örük") - 94, quru // qurı ("quru yüzüm", "quru ət") - 0105, qara ("qara saç", "qara saçlı", "qara göz", "qara quş", "qara örük", "qara əv") - 0104...*

Beş səsdən ibarət sadə sifətlər: *axsağ (066), üstün, aydın (077), bütün (080), doğrul // doğrı (091), qıyığ (0108), gözəl (0115), yaşıl (0114), yaxşı (0116), yorğa (0116), yoğun (0117), yavaş (0118)...*

Altı səsdən ibarət sadə sifətlər: *yumşaq (0118)...*

Düzəltmə sifətlər. Düzəltmə sifətlər aşağıdakı sözdüzəldici şəkilçilər vasitəsilə düzəldilir:

1) *-lı, -li, -lu, -lü: altun+lı (071), uğur+lı (074), en+lü (079), saç+lı (094), dil+lü (092), güc+lü (0111)...* Bəzən bu şəkilçilər özünü *-lığ, -lig,..* şəklində də göstərir: *bilig+lig (bilikli) - 013, saqal+lığ (saqqalı) - 096.*

2) -sız, -siz, -suz, -süz: tük+süz // tük+siz, bilik+siz, altun+sız (013), uğur+sız // oğur+sız (074), ərdəm+siz (077), dil+siz (092), saqal+sız (096), güc+siz (0111)...

3) -kin: kəs+kin (0108).

4) -gən, -əgən: əm+gən ("süt əmgən") - 072, gül+əgən (0112).

5) -uq (üq, iq, ıq: yıq+uq (yıxıq) - 0117, qır+ıq (0105)

6) -an: yırt+an (0116).

7) -ğın: yor+ğın (0116).

Mürəkkəb sifətlər. "Kitabi-tərcüman"da mürəkkəb sifətlərə seyrək hallarda rast gəlinir. Məs.: *alabula (071), acgöz (069), dördayaqlı (92),..*

Sifətin "artırma" dərəcəsi. Bir sıra *ağ, sarı, qara, qızıl (qırmızı), göy, yaşıl* kimi rənglərin adını bildirən sadə sifətlərin birinci hecası ilə birləşdirici samitlərin əlavəsi yolu ilə intensiv forma ortaya çıxır: *apağ (065), sapsarı (095), qapqara, qıpqızıl (0103), gömgög (0112), yamyaşıl (0113).* Hələ vaxtilə Kaşğarlı Mahmud da sifətlərdəki bu keyfiyyətin izahını vermiş və bunu sifətin artırma dərəcəsi adlandırmışdı. Burada da bu istilahı saxlayırıq.

c) saylar

Saylar barədə kitabın əslinin 81, 82-ci səhifələrində bəhs olunur. Bunları quruluşca aşağıdakı növlərə ayırmaq olar.

Sadə miqdar sayları. Müasir dilimizdəki kimi, birdən ona qədər və bir sıra onluqlar sadə miqdar saylarıdır: *bir, ikki, üç, dörd, beş, altı, yedi // yeti, səkkiz // səkiz, doquz // doqquz, on, yigirmi, ottuz, qırq, əlli, altmış, yetmiş, yüz, bin // min // min.* Lakin "səkizon", "doqquzon" sözlərində aşkar hiss olunur ki, bunlar iki sözün birləşməsidir: *səkiz // səkkiz+on - səkkizon, doquz // doqquz+on - doqquzon.* Bu sözlərin törəmə məntiqinə əsasən güman etmək olar ki, çox qədimlərdə, ilk yaranışda igirmi // yigirmi, altmış, yetmiş kimi onluqlar da beləcə iki "sözün" birləşməsi nəticəsində törəmişdir: *iki+rmi // yikirmi, alt(ı)-mış, yet(i)-miş.* İndi isə bunları ayırmaq çətindir.

Tərkibi miqdar sayları. Bu növ saylar tərkibindəki sözlərin sayı ilə müəyyənləşir: *on bir, on beş, on doqquz, yigirmi bir, yigirmi iki,.. iki yüz, üç yüz, dörd yüz, beş yüz, altı yüz,.. iki min, üç min...*

Göründüyü kimi, istər sadə, istərsə də tərkibi saylar müasir dilimizin saylarından o qədər də fərqlənmir.

Sıra sayları. Sıra sayları da cüzi fərqlə müasir dilimizdəki saylarla uyğun gəlir. Onlar *-inci (-uncu, -üncü), -ıncı, -inc (-unc, -ünc, -ınc)* şəkilçiləri ilə əmələ gəlir: birinci, ikinci, üçüncü, dörtinc, beşinc,..

Qeyri-müəyyən saylar. Əsərdə qeyri-müəyyən saylara az rast gəlmək olur: *az (67), çoq (089), min-min (82).*

ç) əvəzliklər

"Kitabi-tərcüman"da əvəzliklər barədə deyilir: "Əvəzliklərə misallar budur: *mən, biz; sən, siz; ol, onlar; bu, ol, bular.* İdarəedən sözlərin (yəni türk dilində yiyəlik halının) idarəolunandan əvvəl gəlməsinə isə misallar belədir: *sənin qulın, bəgnin atı, mənüm atam, mənüm anam,..* lakin (bəzən) belə hallarda idarəolunan (isim) əvvəl də gəlir: *qul sənin, at bəgnin, gümüş mənüm, ton sizin" (015, 016).*

Bunlardan əlavə, müəyyən münasibətlərlə xatırlanan şəxs əvəzlikləri və onların nitqdə, danışıqda dəyişməsi, hallanması - *(mən // bən (021, 082) mana // maa (08), mənin // mənüm (021, 024), məndə (06),.. sən (096), sənа // sana (08), sənin // sənin*

(021, 024), səndə (019),.. ol (015), anın (024), ana (08),.. biz (084), bizin (021),.. siz (023) sizin (021), sizlər - 023)... Müasir canlı dilimizə uyğundur. Eyni sözləri bu *("bu gecə") - 082, ol, kim (075)* və b.k. az-az işlənən işarə və sual əvəzlikləri haqqında da demək olar.

d) fellər

Felin quruluşca növləri. "Kitabi-tərcüman"da isimlər kimi fellərin də quruluşca üç növü özünü göstərir: *sadə, düzəltmə və mürəkkəb.*

Sadə fellər. Sadə felləri də sözlərdəki səslərin sayına görə aşağıdakı şəkildə təsnif edilir.

1) İki səsdən ibarət sadə fellər: en (0110, al, aç (025), as (0340, öp, at, ax // aq (065), öl (071), əm (072), uç (073), ur (vur), ök (074), ol (075), iç (076)...

2) üç səsdən ibarət sadə fellər: *yar, kör (06), qon, qaz (011), gəl (012), qıl, qat, bar, keç, gül (017), bul, sat, sap, dap // tap, qap (026), köç (028), ber (032), dut, sür, vur, sıp (033), uyı, dur, yat, toy (doy) - (035), baq (036), bil (0380, ört (066), ara, əri (067), oqu // oku (070), ödə (073), ölç (075), bas, bit, bax (080), bul (082), biç (083), tök (087), çıq, çək, çal, cum (089), dur, doğ (091), dəl, don (092), dol, dər (093), sal, sağ (094), say, səp, sığ // sıq, sök, sil (096), sön, sin (097), qal, qop (0103), qıs (0105), quc (0107), qoy, küs, kəs (0109), kir (0112), min (0113), yet (0120)...*

3) dörd səsdən ibarət sadə fellər: *dart (031), oxşa, axsa (066), eşit, otur (068), utan (073), uzat, uzan (074), unut, oyan (075), oyna (076), ayıt, əyir (077), isit, isin (078), inan (079), bürü, bula (081), sanc (095), qatı (0103), qorq (0105)...*

4) beş səsdən ibarət sadə fellər: *dağıt, dağıl, ditrə (034), savat (036), axtar, axsur (066), barış, bəklə (081), bənzə (082), buyur (084), süpür (095), saqla, sümür (096), sığın (0100), qarış (0102), qayna (0108), götür, gizlə (0109), kişnə (0112), yanıl (0116), yügür (0117)...*

5) altı səsdən ibarət sadə fellər: *göstər (0111)...*

Düzəltmə fellər. Bir qayda olaraq, düzəltmə fellər ad və fellərdən aşağıdakı sözdüzəldici şəkilçilər vasitəsi ilə düzəlir:

1) *-la, -lə: söz+lə - sözlədi (027), iş+lə, qab+la, yük+lə (033), arşın+la, aruğ+la (067), ağır+la (069), baş+la (080), bağl+la (081), daraq+la (091), qarın+la (0104), yastıq+la; yaz+la (0115), yağ+la, yağı+la, yavuq+la, yuça+la (0116), yumruğ+la (0118), yügən+lə (0119)...*

2) -lan, -lən: at+lan - atlandı (025), arıq+lan (067), ər+lən (078), bağ+lan (081), saqal+lan (0100)...

3) -a, -ə: boş+a (083), dil+ə (092), sın+a (097)...

4) -ar: ağ+ar (069), suv+ar (097)...

5) -ləş: söz+ləş (036)...

6) -sa: su+sa (098)...

Bir sıra şəkilçilər felin məna növlərini yaradır.

1) -ıl, -il, -ul, -ül, -l: sat+ıl (032), vur+ıl, aç+ıl, sındır+ıl (033), axtar+ıl (066), as+ıl (068), əg+il (0710, biç+il (080), ayrı+l (078), diri+l (091), sök+ül (096), kəs+il (0109), yaz+ıl (0111), yıx+ıl (0116), // yıq+ıl (0117)...

2) -dır // -tır, -dur // -tur, -dür // -tür... sın+dır (033), eşit+tür (068), öl+dür (071), baq+tur (081), dön+dür (092), sön+dür (097), qarış+tır (0102), ye+dür (0120)...

3) -t, -ut... dirə+ṭ (034), yala+t, uyı+t (035), oxşa+t (066), arı+t (067), bənzə+t (082), qorq+ut (0105), quru+t (0107)...

4) -ış, -iş, -uş,.. bağ+ış // bax+ış (081, 080), vur+uş // ur+uş (036), (0114), çıq+ış, çal+ış (089), dut+uş (091), yet+iş (0116)...

5) -ün, -n: ög+ün (071), bürü+n (0810, sev+in (098), gör+ün (0111) və hb.

Fellə əlaqədar verilən qaydalar, izahlar, yaddaşlar xüsusi maraq doğurur. Kitabda məsdər, felin zamanları, şəkilləri, mənaca növləri və s. barədə söylənilən fikir və mülahizələr tam elmi mahiyyət daşıyır və bu gün də öz əhəmiyyətni saxlayır. Bunlar müasir elmi qrammatikamızın başlanğıcı, çıxış nöqtəsi olmaq etibarilə çox ma-

raqlı və faydalıdır. Bu başlanğıcın elmi-qrammatika fikir tariximiz üçün böyük əhəmiyyətini nəzərə alaraq, mümkün qədər, həmin fikirləri yeri gəldikcə eynilə verməyi məqsədə müvafiq sayırıq.

Məsdər. "Ümumi qayda belədir ki, fel kökünə ا və ق bitişdirməklə məsdər əmələ gətirilir. Əgər fel kökünün ilk səsi ك dırsa, onda axırıncı səsi də ق əvəzinə ك olacaqdır. Birinciyə aid misallar: قلماق - *qılmaq,* قاطماق - *qatmaq,* بارماق - *barmaq,* قرقماق - *qorqmaq; bu da əvvəli* ك ilə başlanan fellərə misal: كتورمك - *götürmək,* كچمك - *gecmək,* كولمك - *gülmək,* كورمك - *görməg,* كلمك - *gəlməg (017).*

Bir az sonra müəllif yenidən məsdər üzərinə qayıdır: "Yadda saxla ki,.. türk dilində bir sıra məsdərlər feldən yox, isimdən düzəldilir. Bu növ fellərə məsdərin əlamətindən qabaq bitişib nəzərə çarpan sükunlu ل xidmət edir" (031). Bu qaydaya *sağ-sağalmaq (sağa yön almaq), sol-solalmaq (sola yön almaq), qonuq-qonuqlamaq (qonaqlamaq) kimi sözlər misal gətirilir; qurıt-qurıtmaq, dart-dartmaq, yügənlə-yügənləməg* və b.k. sözlər isə digər növ məsdərlər kimi izah olunur.

Fellərin kəmiyyəti. "Fellərin əmr şəkli 3-cü şəxsinin keçmiş və gələcək zamanlar üzrə cəm halı ل, ا və ر-in (yəni لار) köməyilə alınır: كلدى - *gəldi* كلديز - *gəldiz,* كلدلر - *gəlürlər, amma* كللر - *gələlər və* كلايلر - *gələylər* (ə. əlavə ed. كلا جكلر - *gələcəklər*) də deyirlər; كلسونلر - *gəlsünlər,* كلمسونلر - *gəlməsünlər,* كلمديز - *gəlmədiz* (ə. كلمدينز - *gəlmədiniz),* كلمدى لر -

gəlmədilər, گلمه‌یلر - *gələ* bilməsələr. İkinci şəxs üçün isə sükunla işlənir, məs.: گلدڭ - *gəldin,* گلدڭز - *gəldiniz,..* Başqa vəziyyətdə fellərə "isimlərdə olduğu kimi" "siz" mənasında سڭ və ز qoşulur, məs.: گلورسڭز - *gəlürsiz,* گلمزسڭز - *gəlməssiz" (012).*

Felin zamanları

Keçmiş zaman. "Yadda saxla ümumi qayda belədir: felin keçmiş zamanının əlaməti mübahisəsiz olaraq bundan ibarətdir ki, söz kökünün səslərinə - onlar isə türk dilində azı iki olur, beşdən artıq olmur - kəsrəli د və ی əlavə edilir. Əgər istəsən, nitqin gözəlliyi üçün ی-yə zəif bir damma çaları verə bilərsən, amma bu vacib deyil. Keçmiş zamanın misalları: گلدی - *gəldi,* آلدی - *aldı,* باردی - *bardı,* آطلاندی - *atlandı,* آچتی - *açtı; bu fellərin kökləri:* گل - *gəl,* ال - *al,* بار - *bar,* اطلان - *atlan,* آچ - *aç" (025).* *"Açtı"* misalı ilə əlaqədar müəllif belə bir izah verir: "Bəzən felin keçmiş zamanının axırında, mənim göstərdiyim qaydanın əksinə olaraq keçmiş zamanın əlaməti kimi kəsrəli تـ və ی-yə də rast gəlirik; bu تـ törəmə yerinin yaxınlığı ilə əlaqədar olan دـ-nin əvəzindədir; məs.: ساپتی - *saptı,* باطتی - *battı,* ساطتی - *sattı,* دایتی - *daptı,* قاپتی - *qaptı.* Lakin د ilə ی daha çox işlədilir" (026).

Uzaq keçmiş zaman. Müəllifin fikrincə, "əgər uzaq keçmiş zamanı yaratmaq lazım gəlirsə, keçmiş zamanın د ilə ی əlamətləri kəsrəli ʔ və ش ilə əvəz edilir, məs.: آلمش - *almış,* دوغمش - *doğmış* (gəlib çıxmış), بارمش - *barmış,* اطلانمش - *atlanmış,*

پکلمشن - *gəlmiş*. Əgər sən keçmiş zamanı özün haqqında deyirsənsə, onda hökmən "mən" əlavə etmək lazımdır, məs.: المشن من - *almışmən*, دغمشن - *doğmışmən*. Keçmiş zamanın 2-ci şəxsi isə belə olacaqdır: المشن سن - *almışsan*" (026).

İndiki zaman. "İndiki zamanı əmələ gətirməyin əsas qaydası budur ki, fel kökünün üzərinə qabaqca gələn fəthəli ا bitişdirilir" *(027)*. Bu qaydaya ayrıca misal verilmir, lakin kitabda indiki zamana aid misallar çoxdur: پکلرلر - *gəltürlər*, پکلرسیز - *gəlürsiz (012)*, ایچور - *içür (076)*, دکشرر - *dəgşür (091)*...

Yeri gəlmişkən qeyd edək ki, nəinki oğuz qrupu, eləcə də digər türk dillərinin heç birində indiki zaman *-ır, -ir* şəkilçisi ilə düzəlmir. Bu, ancaq Azərbaycan dili üçün səciyyəvidir.

Gələcək zaman. Müəllif izahat verir ki, gələcək zamanı əmələ gətirmək üçün felin əmr formasının üzərinə غ, ا və ی bəzən də غ yerinə üç nöqtəli ك səsini əlavə etmək lazımdır: قوندی - *qondı*, قونغای - *qonğay*, کوچتی - *köçti* کوچغای - *köçğay*, پکلدی - *gəldi*, پکلکای - *kəlkəy (028)*. Gələcək zamanla əlaqədar verilən bu əsas qayda, izahat və misallar Azərbaycan dilinə uyğun gəlmir. Lakin gələcək zamanın yaxın gələcək şəklinin izahı və buna dair verilən qayda məhz Azərbaycan dilinə aiddir: "Bəzən də onlar gələcək zamanın əmr formasının sonuna bitişdirilən səsləri təkcə ر-lə əvəz edirlər, məs., قونر - *qonar*, قونرمن - *qonarmən*, قونرسن - *qonarsan;* bununla belə yaxın gələcək zaman üçün ر səsini işlətmək daha doğrudur" (029). Müəllifin izahından belə anlaşılır ki,

hələ o vaxt felin gələcək zamanını əmələ gətirən *ğay, gəy* əlaməti o qədər də fəal deyilmiş, arxaikmiş, ر (yəni ar, ər) əlaməti daha işləkmiş ki, müasir dilimizdə bundan müzare zaman şəkilçiləri kimi bəhs edirik. Yuxarıdakı fikri müəllifin bu əlavəsi də təsdiq edir: "Bununla yanaşı, onların nitqində indi bu ر çox tez-tez özünü göstərir və ondan istifadə geniş yayılmışdır" (029).

Felin şəkilçiləri

Əmr şəkli. Əmr şəklinə aid fikirlər kitabda öz genişliyi və əhatəliliyi ilə nəzəri cəlb edir. müəllif yazır: "Bunun əlaməti odur ki, onu bütün bitişdirmələrdən xilas edir, lakin kök ki, iki və ya daha artıq səsdən ibarət olur (bunun özü) müxtəlif üsullu birləşdirmələrlə onu gah keçmiş, gah gələcək, gah məsdər, gah əmr, gah da inkaredici qrammatik şəkillərə salır. Bəzən də onu qüvvətli və ifadəli etmək üçün sonuna kəsrəli غِ və ل əlavə edilir, amma bu axırıncı əsas qaydaya aid deyil; غِ (həmçinin) لك-nın tələffüzcə ona yaxınlığı ilə əlaqədar (bu iki səs) dəyişilir. غِ və ل ancaq əmr formasının ikinci şəxs təkinə birləşdirilir, məs.: كَلْ - *gəl,* بار - *bar,* آل - *al,* بير - *ber,* bəzən isə tez-tez əmr şəklində işlənən xatırladığımız səslər bunlara əlavə olunur, məs,: كَلْغِل - *gəlğıl,* بارغِل - *barğıl,* آل غِل - *alğıl,* بيركيل - *bergil.* "Qadağanedici" şəklə gəlincə, onun əlaməti fel kökünə bitişdirilən م və ا-dir, məs.: كَلْمَكِل - *gəlməgil* - بارغل - *barğıl,* بارمَغِل - *barmağıl,* آلـغِل - *alğın* - آلمغل - *almağıl,* بيركِل - *berkil,* بيرمكِل - *berməgil.* Əgər əmr formasının ikinci şəxsinə dammalı س və ن əlavə etsən, onda

üçüncü şəxs alınır, məs.: پَل - *gəl,* پَلسُن - *gəlsün,* بار - *bar,* بارسُن - *barsun,* آل - *al* آلسُن - *alsun,* بیر - *ber,* بیرسُن - *bersün* (032).

Danışıqda, nitqdə əmr şəklinə aid daha incə cəhətlər araşdırılır. Müəllif yazır ki, سِن və ن əmr şəklinin "cavab" cümlələrində istifadə olunur, məs.: "Əmrin qoyğıl yatsın" və ya "Qoyğıl gəlsün". İnkarda isə belə demək lazımdır: "barmasun", "gəlməsün". Əgər əmr şəklində isimdən fel düzəltmək lazım gəlirsə, onda onun sonuna ل və ا əlavə edilir. Məs.: iş - *işlə* və ya *işləğıl, qab-qabla və ya qablağıl, yük-yüklə və ya yükləgil (032, 033).*

Əmr şəklinin inkar forması. İnkar formasının əlaməti fəthəli ب-dir. Arabir, elə bil, onun "içindən" bir ا-də çıxır; o, fel kökündən sonra qoyulur. Məs.: گَل - *gəl,* گَلما *-gəlmə,* بار - *bar,* بازما - *barma;* bəzən də inkaredici əlaməti fel kökü və ön şəkilçi arasında yerləşir, məs.: گلمَگِل - *gəlməgil,* بازمَغِل - *barmağıl,* اُطورمَغِل - *oturmağıl,* تُرنامَگِل - *turmagil.* İnkar formasının üçüncü şəxsi bu şəkillərdədir: گلمسُن - *gəlməsün,* بارماسُن - *barmasun* (037).

Felin məna növləri

Məchul növ. "Yadda saxla ki, əgər fel kökünə sükunlu ل əlavə edilibsə, bu, felin məchul növünün əlamətidir, artıq bundan sonra keçmiş zamanın əlaməti olan د əlavə edilir, məs.: آلدی - *aldı,* آلِندی - *alıldı,* وُردی - *urdı,* وُرِلدی - *urıldı,* آچتی - *açtı* - آچِلدی - *açıldı,* سِندُردی - *sındurdı* سِندُرِلدی - *sındurıldı.* Bəzən bu cür sükunlu ل felin məchul qayıdış növünün əlaməti olaraq fəaliyyət göstə-

rir,.. məs.: آرِتّی - *arıttı* - آریلدی - *arıldı*, آستی - *astı*, آسیلدی - *asıldı*, داغیتّی - *dağıttı* - داغیلدی - *dağıldı*" *(033-034).*

Qayıdış növ. "Qayıdış növünə gəlincə, onun əlaməti məchul növü əmələ gətirən ل-in yerində qoyulan sükunlu və fətholi قْ-dir, məs.: سیندی - *sındı*, سینقدی - *sınıqdı;* bəzən də qayıdış növünün əlaməti, həmçinin ل və ya ق əvəzinə sükunlu və fətholi ن səsi olur, məs.: یودی - *yudı* - یوندی - *yuundı*, دیترَدی - *ditrədi* - دیترَندی - *ditrəndi*" *(034).*

İcbar növ. "Yadda saxla ki, özlüyündə orta növdən olan, məs.: *"gəlmək", "olmaq", "baxmaq"* kimi felləri keçici eləmək istəsən, onda keçici felin mənasını söz kökünə birləşib, keçmiş zamanın əlamətlərindən əvvəl gələn dammalı د və ı ifadə edəcəkdir, məs.: گلدوردی - *gəldürdi*, قالدوردی - *qaldurdı*, بقدوردی - *baqdurdı*"; "əgər keçmiş zamanda د-dan əvvəl bir "zəif" səs dursa, onda د (yəni icbar növünün əlaməti) ت-yə çevrilir, məs.: یلادی - *yaladı* - یلاتّی - *yalattı*, اویدی - *uyıdı* - اویتّی - *uyıttı*, بتدی - *bitidi* - بتیتّی - *bititti (yazdırdı)*, بیلدی - *yıldı (ilıq oldu)* - بیلیتّی - *yılıttı*" *(034-035) və h.b.*

Qarşılıq növ. "Qarşılıq növünü əmələ gəlməsinin təbii üsulu budur ki, keçmiş zamanın əlamətindən əvvəl sözün kökünə sükunlu شْ əlavə olunur, məs.: بقیشدی - *baqışdı*, سوزلاشدی - *sözləşdi*, وورشتی - *vuruşdu*, یارلاشدی - *yarlaşdı (barışdı)*, آلشتی - *alışdı*, دوتوشتیلر - *dutuşdular*, وورشتیلر - *vuruşdular*" *(036)*".

Müəllif qarşılıq növlə bağlı daha maraqlı xüsusiyyətləri açmağa, izah etməyə səy göstərir: "Bununla belə, ا və ر "vuruştılar" felində əsas hərflərdir, ش qarşılığın əlaməti kimi xidmət edir, keçmiş zamanın əlaməti olan ت د-nın əvəzidir, sonuncu ل və ر isə cəm halının əlamətidir" (036) və h.b.

g) zərflər

Zərf anlayışı "vaxt bildirən" və "yer bildirən" sözlər başlığı altında verilir. Bu da müasir dilimizdəki məkan və zaman zərfləri mənaalrını ifadə edir.

"Vaxt bildirən" sözlərə aid bu misallar verilir: son, sonra, sonuncı, sonıncılar və s. (018).

"Yer bildirən" sözlərə isə bu misallar verilir: yuqaru, aşağa, orta, sağ, sol, ilərü, gerü və s. (018).

Digər misal və nümunələr içərisində *axşam (066), ısrağı gün (068), bukün // bugün (082), dün sonı (098)* və b.k. sözlər də zərflərdir.

Çoxmənalı sözlər

"Kitab"da eyni sözün bir neçə məna daşıdığı müşahidə edilir; müasir istilahla omonim adlanan bu sözlərdən aşağıdakıları misal gətirmək olar:

Ac (ac adam) - *ac* (acmaq) - 065;
Ağ (ağ rəng) - *ağ* (qalxmaq, yüksəlmək) - 069;
Ayağ (ayaq) - *ayağ* (piyalə, qədəh) - 076;
Biz (əvəzlik) - *biz* (alət) - 084;
Qat (yan, tərəf) - *qat* (qatmaq) - 0102;
Qaz (quş) - *qaz* (qazmaq) - 0102;
Qırq (qırx sayı) - *qırq* (qırqmaq) - 0105
Yaz (yaz, bahar fəsli) - *yaz* (yazmaq) - *yaz* (səhf) - 0115;
Yay (yay fəsli) - *yay* (alət) - *yay* (yaymaq) - 0116;
Yağ (yağ, kərə və b. yağlar) - *yağ* (yağmaq) - 0116, 0117;

Yaş (göz yaşı) - *yaş* (təzə, yaş) - 0115;
Gül (gül, çiçək) - *gül* (gülmək) - 0110;
Sağ (sağlam, təmiz, "sağ su") - *sağ* (sağ tərəf) - *sağ* (sağmaq) - 094;
Çağır (çaxır, içki) - *çağır* (çağırmaq) - 088;
Çiçək (gül, çiçək) - *çiçək* (çiçək xəstəliyi) - 089...

Arxaik sözlər

P.M.Melioranski "Kitab"ın sözlüyünü tərtib edərkən sözləri əsas iki yerə ayırmışdır. Birinci (1) bölmədə daha qədim sözlər toplanıb, transkripsiyasız, əslindəki kimi təqdim edilmişdir; alim bu bölmədəki sözlərin mənasını çox çətinliklə tapdığını söyləyir, bəzən ehtimala, gümana müraciət edir. O yazır: "Bizim müəllifdə rast gəlinən bütün türk sözlərini axtarıb tapmaq və izah etməyə çalışmaq səylərinə baxmayaraq, onların bir qismi izahsız qaldı və ya güclə izah edildi. Mən bu sözləri oxucu üçün ayrıca bir lüğətdə verməyi daha məqsədəuyğun saydım" (044). P.M.Melioranski bu bölmədəki sözlərin mənasını, onların ərəbcə qarışılığı əsasında izah edir, müəyyənləşdirməyə çalışır. Həmin sözlərdən bəzi nümunələr verək: *ərəmik* (kişisifət) - 047, *aqçakəsən yer* (pul kəsən yer) - 049, *Aq Ayqır* (bürc adı) - 049, *orta* (dayə), *orta* (orta yaş) - 050, *ayırtmaq* (ayırmaq, ayırd etmək), *ayına gün* (o biri gün), *bitirək* (iflic xəstəliyi) - 052, *tarancuq* (plaş) - 053, *tən* (bərabər), *çalışçı* (qərarsız, oynaq, çevik) - 054, *cavağa* (starşina) - 055, *sınıqımış* (sındırılmış, məğlub edilmiş) - 056, *sunlatmaq* (içirtmək) - 057 və h.b.

Bu sözlərin bir qismi *(ərəmik, orta, tən aqçakəsən yer, Aq ayqır (bürcü), ayırtmaq // ayırd etmək...)* bizə bugün də anlaşıqlıdır, başa düşülür; artıq xatırlandığı kimi, *çalışçı* sözün *çalış // çaliş* şəklində qılınc çalmaq, hücum çəkmək mənalarında Nizamidə də işlədilmişdir.

Müasir dilimiz baxımından "Kitab"ın ümumi sözlüyündə - II bölməsində müşahidə edilən arxaizmləri iki qismə ayırmaq olar.

a) tamam unudulmuş sözlər

Bu qisim sözlərə qədim abidələrimizdə tez-tez rast gəlirik; bunlar müasir ədəbi dil baxımından arxaikdir, geniş oxucu kütləsi üçün işlək deyildir: *qam* (bilici, həkim) - 0103, *alp, alplıq* (igid, igidlik) - 071, *ağ, ağın, ağınmaq* (yüksək, yüksəl, yüksəlmək) - 070, *qat* (yan, tərəf), *qatımda, qatındakı* (0102), *qırpaq* (aşna, məşuqə) *qısraq* (madyan) - 0105, *qutla, qutluğ* (xoşbəxt elə, xoşbəxtlik) - 0104, *qıl* (et, elə) - 0106, *qıftu // qıptu // qıptı* (buçaq qabı) - 0106, *biti* (yazı), *bitit* (yazdır) - 080, *bitikçi* (yazıçı) - 083, *bun* (nöqsan, kəsir, kədər) - 083, *bilgə* (bilikli, ziyalı) - 084, *duş // tuş* (yuxu) - 085, 095, *əsən, əsənlə* (sağ, sağollaş, görüş) - 068, *edkü* (yaxşı) - 066, *əyü* (yaxşı) - 079, *eş* (dost, yoldaş) - 077, *oz // uz* (ustad, qabil adam) - 06, 074, *ordu* (mərkəz) - 067, *otaçı* (həkim) - 073, *oş // uş* (bu) - 074, *görklük* (gözəl, görkəmli), *görksiz* (görkəmsiz) - 0109, *görük* (gözəl), *görüklük* (gözəllik), *görüksiz* (görkəmsiz, eybəcər), *görüci* (casus) 0111, *güyəkü* (kürəkən) - 0112, *kələməçi* (tərcüməçi) - 0110, *tanuq* (şahid) - 077, *kiş* (ox qabı) - 07, *çav // çavf* (səs) - 088, *çərik* (qoşun), *çomlək* (qazan) - 089, *ögüş // yögüş* (çox) - 0118, *çın // çin* (həqiqət) - 89, *siliklik* (təmizlik) - 07, *ısır* (dişlə) - 068...

b) şəkilcə arxaik olan sözlər

Bu qisim sözlərdə müasir dil baxımından müəyyən fonetik fərqlənmələr özünü göstərir: *anda* (orda, orada) - 073, *andan* (oradan) - 072, *qanda* (harda, harada), *qandan* (hardan, haradan), *qanca* (haraya) - 0106, *öylə* (öynə) - 076, *əyərlə* (yəhərlə) - 077, *bilə* (ilə, birgə) - 082, *qaan* (xaqan), *qatun* (xatun, qadın) - 0102, *qağır* (çağır) - 0105, *kiçi* (kiçik) - 0112...

Alınma sözlər

Dillərin qarşılıqlı əlaqəsi, bir dildən başqa bir dilə söz keçməsi çox uzun və tarixi prosesdir. İbn Mühənnanın bu məsələyə münasibəti də maraqlıdır: "Yadda saxla ki, farslar ərəb dilindən çox söz götürür və onlardan öz dilində istifadə edirlər; eləcə də türklər fars

dilindən (sözlər) götürürlər"; "Monqol dilinə çoxlu türk sözləri keçir və eyni vəziyyət çoxlu rum (yəni yunan) sözləri işlədən erməni və gürcülərdə də vardır. Bütün bunlar və bununla bağlı (hallar) yaxın qonşuluq, uzunsürən qarşılıqlı münasibətlər və az zəngin dilin çox zəngin dildən (hamı üçün ümumi olan) söz götürmə meylilə, bitkinlik və mükəmməlləşmək meylilə izah edilir" (043).

Bu nəzəri fikrə uyğun olaraq da "Kitabda" canlı danışıqda özünə yer etmiş, o vaxt artıq "hamı üçün ümumi olan" ərəb və fars sözlərinə rast gəlirik:

a) ərəbcə sözlər: *aciz (0101), işarət (068), xamur (090), razı (093), sabun (099), səbr (0100), ğəm, qüssə (0102), möhür, mızraq (0113)...*

b) farsca sözlər: *axır (töylə) - 066, çuvalduz (089), xam (090), xəstə (090), dost (093), zindan, ziyan (094), sərxoş (095), gül, gülgün (0110), kilid, kilim (0110), gor, gorustan (0111)...*

İbn Mühənnanın verdiyi misal və nümunələr içərisində müşahidə olunan ərəb və fars sözləri Azərbaycan dilinə keçmiş, canlı danışıqda və ədəbi dildə işlənən alınma sözlərin müəyyən bir qismidir. Müəllif özü də yazır ki, hər mənada "burada məqsədəuyğun olaraq (ağılla) seçilib toplanmış və müəyyənləşdirilmiş elə sözlər verilib (şərh edilib) ki, onlar səscə-sədaca da başa düşülür" (043).

3). bəzi sintaktik xüsusiyyətlər

Kitabda sintaktik xüsusiyyətlər ətraflı şərh olunur, "izafət"dən isə bir qədər geniş danışılır. Biz kitabda verilən misal və nümunələr əsasında söz birləşmələri və cümlələr haqqında mülahizələr yürüdəcəyik; əlbəttə, yeri gəldikcə, buraya müəllifin az-çox nəzəri fikirləri də əlavə olunacaqdır.

"İzafət" - söz birləşmələri

Birinci növ təyini söz birləşmələri

Bu növ söz birləşmələri şəkilçisiz olub, yanaşma əlaqəsi əsasında yaradılır; təyinlənən sözlər keyfiyyət, əlamət, növ, işarə və s.

bildirir: *uluğ ata, uluğ ana (071), uluğ gün (072), orta barmaq, əv-dəki yay, əvdəki qız (073), ögey ana (074), baş barmaq, bişmiş ət (081), dəri ton (091), düz yer (092), dün gecə (093), sağ su (094), bu gecə (082), qızıl saç, qızıl darı (0105), kiçi(k) gəmi (0109), gün doğmuş yer (0110), yeni gün (0117)...*

İkinci növ təyini söz birləşmələri

Bu növ söz birləşmələri də yanaşma əlaqəsi ilə düzəldilir, lakin ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul edir: *Zeyd atası (069), oğlan anası (070), ölüm anı (071), üzüm ağacı (074), üzəngü qayışı, oq tili, oq gəzi (074), ət yağı (076), ər yapuğı, ayran yağı (077), buğda aşı (081), bel bağı (084), dağ başı (090), dün sonı (093), sac ayağı (094), su gözi (097), qılıc sabı, qılıc qabı (0106), qoz yağı (0107), gög yayı (0111), yer qurdı (0120), küncüd yağı (0111)...*

"İzafət haqqında" adlı bölmədə, xüsusilə əvəzliklərlə düzəldilən ikinci növ təyini söz birləşmələrindən - izafətdən geniş bəhs olunur, bu da əvəzliklərin söz birləşmələrindəki iştirakı, habelə dəyişmə və birləşmə qaydalarını müəyyən edir. Müəllif yazır: "*s və i (ı)* "gizli" (yəni idarəedən ismin fikirdə tutulub, yerində əvəzlik duran) izafəti göstərir, məs.: *atası, anası; s-siz* təkcə i (ı) də bu növ izafətin əlaməti olur, məs.: *qulı, bəki, yüzi"; "ölü" kaflı n*-dən (yəni sonluğundan) da istifadə olunur, məs.: *Bu ton flanın dır* və ya *Bu at Zeydin tur.* İkinci şəxsin təki isə belə ifadə edilir: atan, anan; bu cür ifadələrin birinci şəxs cəm halının misalları: *atamız, anamız və ya qulumız, tonumız;* izafətdə birinci şəxs tək halının əlaməti sükunlu *ʔ*-dir, məs.: *qulum, tonum, atam, anam" (015).*

Müəllif davam edir: "Budur, sənə rast gələ biləcək bütün bunlar - isim, fel və hissəciklərdən düzələn bütün dürüst məlum izafət (formaları)nın sxemi; bunlar hamısı altı növdən çox deyil" (015).

Həmin "sxem" belədir:

	"(tək halda)	(cəm halda)
Bıçaq	- bıçaqum	bıçaqumız

	bıçaqın	bıçaqınız
	bıçaqı	bıçaqları
Bar	- bardum	barduq
	bardın	bardınız
	bardı	bardılar
Mən	- məndən	bizdən
	səndən	sizdən
	andan	anlardan" (015) və h.b."

c) cümlələr

"Kitabi-tərcüman"da ayrıca cümlə bəhsi yoxdur; lakin köməkçi söz "hissəcikləri" barədə danışılarkən bu söz "hissəcikləri" cümlə daxilində verilir və izah edilir. Həmin cümlələr müasir dilimizin sadə cümlələrinə uyğun gəlir.

Sadə müxtəsər cümlələr. Bu növ cümlələr özünü əsasən "yarımçıq" müxtəsər cümlələr şəklində göstərir; cümlələrin mübtədası buraxılır, ancaq təsəvvür olunur; bu isə dilin öz daxili yığcamlılıq keyfiyyətilə əlaqədardır ki, özünü hələ XIII əsrdə qabarıq şəkildə nümayiş etdirirdi.

Bu növ cümlələr həm təsdiq, həm də inkarda işlədilir:

"Al" (025) və ya "Algil" // "Alğıl" (033, 032), "Aldı" (033), "Alsun" (032), "Almış", "Almışmən", Almışsən (026), Almağıl (032),.. "Aç" (025), "Açtı", "Açıldı" (033), "Açamadım" (038),.. "Atlan", "Atlandı (025), "Atlanmış" (026),.. "Astı"; "Asıldı" (034),.. "Bar" (025) və ya "Barğıl" (033), "Bardı (025), "Barsun" (032), "Barmış" (026), "Baramadım", "Barmas" (038), "Barmayın" (037),.. "Ber (032) və ya "Bergil", "Berməgil" (032), "Bersün" (032),.. "Vur", "Vurdı", "Vuruldı" (033), "Vurdılar", "Vuruştı", "Vuruştılar" (036),.. "Qabla" və ya "Qablağıl (033), "Qazdı" (027), "Qondı", "Qonar", "Qonarmən", "Qoparsən" (028, 029), "Qaptı" (026), "Daptı" (026), "Dağıttı", "Dağıldı", "Ditrədi", "Ditrəndi"

(034), "Yüklə", "Yükləgil" (033), "Köçti" (028), "Kəlgil" // Kəlğıl", "Gəlməgil" (032), "Gəlməyin", "Gəlmədüm" (037), "Gələmədim" (038), "Sattı", "Saçtı" (026), "Sözlədi" (027), "Sözləşdi", "Sözləştilər" (036), "Sürgil" (033), "Sındurdı", "Sındurıldı" (033)...

Sadə geniş cümlələr. Bu növ cümlələri iki yerə ayırmaq olar:

1) İkinci dərəcəli üzvlər də iştirak edən sadə geniş cümlələr: "Flan İraqqatəki barmış" (018), "Bəgimiz Xorasanqa bardı", "Flanın qatında at bardır" (025), "Mən sizgə gəldim" (019); "Bu at Zeydindir", "Bu saray Əmrünündür" (020), "Bəgimiz bu gün atlanmasun" (021)...

2) Mübtədası buraxılmış sadə geniş cümlələr: "Munı alğıl" (017), "And iç" (072), "Borc aldı" (071), "Dəm aldı" (092); "Satun aldı" (095); "Səfərə vardı" (097); "Zeydni qılıc ilə vurdum" (017); "İraqdan Xorasanqa bardum" (019), "Flanı qılıc bilə vurdum" (020)...

Sual cümlələri. "Sual hissəcikləri" bölməsində *nə, kim, qanca və qanda* əvəzliklərindən, eləcə də *-mı (-mi, -mu, -mü)* sual ədatlarından bəhs olunur və misallar göstərilir. Misallar bunlardır: "Nə yedin?", "Nə yemişsən?", "Kim gəldi?", "Kimdir ol", "Bu kimindir?", "Kim ərdir ol qatındakı?", "Kim gəlürsə, gəlsün?" (022), "Od yandırdınmu?", "Zeyd su dilərmü?", "Su içirmüsən?", "Atlanırmısız?", "Sən gəldinmi?", "Ol bardımı?", "Nə qılursan?", "Nə tilərsən?" (023), "Sənin atın barmı?", "Flanın altunı barmı?" (024), "Sən nəşə gəlmədin?" (037).

4). Həsənoğlunun dili

Dövlətşah Səmərqəndi "Təzkirətüş-şüəra"da, İzzəddin Həsənoğlunun türkcə və farsca gözəl şeirlər yazdığını, türkcə şeirlərində "Həsənoğlu", farsca şeirlərində isə "Puri-Həsən" təxəllüsünü işlətdiyini və "Divan"ının Azərbaycan və Rumda böyük şöhrət qazandığını (2, s. 223), xəbər verir.

"Azərbaycan ədəbiyyatı tarixi"nin bu məlumatı verdiyi vaxt Həsənoğlunun ancaq iki şeiri məlum idi: biri ana dilində, digəri isə fars dilində.

Ana dilində olan ilk məlum şeir budur:

"Apardı könlümü bir xoş qəmərüz, canfəza dilbər.
Nə dilbər, dilbəri-şahid, nə şahid, şahidi-sərvər.
Mən ölsəm, sən büti-şəngül, sürahi eyləmə qül-qül.
Nə qül-qül, qül-qüli-badə, nə badə, badeyi-əhmər.
Başımdan getmədi hərgiz sənin lə içdiyim badə,
Nə badə, badeyi-məsti, nə məsti, məstiyi-sağər.
Şəha, şirin sözün qılır Misirdə bir zaman kasid,
Nə kasid, kasidi-qiymət, nə qiymət, qiyməti-şəkər.
Tutuşmayınca dər atəş bəlirməz xisləti-ənbər,
Nə ənbər, ənbəri-suziş, nə suziş, suzişi-məcmər.
Əzəldə, canım içində yazıldı surəti-məni,
Nə məni, məniyi-surət, nə surət, surəti-dəftər.
Həsənoğlu sənə gərçi duaçıdır, vəli sadiq.
Nə sadiq, sadiqi-bəndə, nə bəndə, bəndeyi-çakər".

Şairin ana dilində ikinci şeiri bu yaxınlarda aşkar edilib (45, № 40). Hamburq universitetinin dosenti Barbaar Flemminq Misir-türk əlyazmasında Həsənoğluya aid ola bilən bir şeirə də rast gəlmişdir. B.Flemminqin fikrincə, bu şeir Həsənoğlunun da, həmin dövrdə Həsənoğlu imzası ilə yazan digər bir şairin də ola bilər.

Yeni tapılmış həmin şeir budur:

"Necəsən, gəl ey yüzi ağım bənim
Sən əritdin odlara yağım bənim.
And içərəm, səndən artıq sevməyim,
Sənin ilə xoş keçər çağım bənim.

Hüsn içində sana mənənd olmaya,
Əsli yuca, könlü alçağım bənim.
Al əlimi, irəyim maqsuduma,
Qoyma yürəkdə yana dağım bənim.

Sən rəqibə sirrini faş eylədin,
Anunilə oldu şıltağım bənim.
Qışladım qapında itlərinilə,
Oldu kuyun üsdə yaylağım bənim.

Bən öliçək, yoluna kömün bəni,
Baqa dursun yara, tobrağım bənim.
Toprağımda bitə həsrətlə ağac,
Qıla zarı cümlə, yaprağım bənim.

Bu həsənoğlu sənin bəndəndurur
Anı rədd etmə, yüzi ağım bənim".

Bu yeni şeir istər İzzəddin Həsənoğluya, istərsə də digər Həsənoğluya aid olsun, fakt budur ki, XIII əsrin sonlarına aid ana dilində "Həsənoğlu" imzası ilə artıq ikinci bir klassik nümunə aşkar edilmişdir. Birinci şeir öz üslubu, tonu etibarilə daha ağır və qəlizdir. Bizcə, bu qəlizlik, "fərq" birinci şeirdəki xeyli ərəb və fars sözləri *(xoş, qəmər, canfəza, dilbər, şahid, sürahi, badə, məsti, zaman, kasid, atəş, ənbər, əzəl, dua, sadiq, bəndə* və s.) xüsusilə, çoxlu farssayağı birləşmələr - izafət tərkibləri *(dilbəri-şahid, şahidi-sərvər, büti-şəngül, qülqüli-badə, badeyi-əhmər, badeyi-məsti, məsti-yi-sağər, kasidi-qiymət, qiyməti-şəkkər, xisləti-ənbər, ənbəri-suxiş, suzişi-məcmər, surəti-məni, məniyi-surət, surəti-dəftər, sadiqi-bəndə, bəndeyi-çakər)* və ifadələrlə *(canfəza dilbər, şəha, dər atəş)* əlaqədardır. Bununla belə, şeirdə çox incə, ustalıqla ədəbi zövqlə işlənmiş canlı söz və ifadə şəkilləri də *("Apardı könlümü bir xoş qəmərüz", "Başımdan getmədi hərgiz sənin lə içdiyim badə", "Şirin sözün qılır", "Əzəldə canım içində yazıldı" "Həsənoğlu sənə duaçıdır"... nə dilbər, nə şahid, nə qül-qül, nə badə, nə məsti; mən ölsəm, eyləmə qül-qül)* vardır ki, fikrin bədii sual və suala verilən cavabla təqdimi -

"Mən ölsəm, sən büti-şüngül, sürahi eyləmə qül-qül!
Nə qül-qül? Qüli-qüli-badə! Nə badə? Badeyi-əhmər!"

və h.b. tam orijinal və canlı üslub yaradır. Bu qəzəl Həsənoğlunun təkcə "Divan"ındakı əruz ölçülü və şeirimizin ərəb və fars təsirilə inkişaf edib gələn qoluna nümunə sayıla bilər.

İkinci şeirdə nisbətən fərqli bir üslub, ton müşahidə olunur; bu şeir canlı xalq ruhu və milli ölçülərlə inkişaf edib gələn şeirimizə daha yaxın nümunədir. Hələ XI-XII əsrlərdə heca ölçülü şeirlərlə, əruz ölçülü şeirlər yanaşı inkişaf edib gəlir, biri xalq arasında, digəri isə rəsmi dairələrdə üstünlük təşkil edirdi. "Dədə Qorqud"un heca və sərbəst ölçülü şeirləri milli ölçüdə inkişaf edib gələn poeziya idi ki, o hələ XIII əsrin əvvəllərində "Qisseyi-Yusif" poemasını yaratmışdır.

Həsənoğlunun qəzəlində farssayağı birləşmələr çoxsa da, yeni şeirdə bu birləşmələrdən birinə də rast gəlmirik. Ərəb və fars sözləri isə *(xoş, hüsn, manənd, maqsud, rəqib, sirri, faş, kuy, yar, həsrət, zar, cümlə, həsən, bəndə)* vardır. Burada XII-XIII əsrlərin xeyli maraqlı canlı dil xüsusiyyətləri öz əksini tapmışdır. Məs.:

1) m ~ b əvəzlənməsi: *bən, bəni, bənim;*
2) o ~ a əvəzlənməsi: *anı, anunilə və ya anunla;*
3) p ~ b müvazi işlənməsi: *tobrağım, toprağımda;*
4) səslərin yer dəyişməsi: *tobrağım, yaprağım;*
5) saitlə başlanan bəzi sözlərin əvvəlinə "y" səsinin əlavəsi: *yüz* ("yüzi ağım"), *yuca* ("əsli yuca"), *yürək;*
6) dövrə məxsus səciyyəvi ifadə tərzləri: *baqa durur, bəndəndurur* (sənin bəndəndurur);
7) arxaizmlərdən istifadə: *qıl*(maq), *ir*(mək) və s. öz dövrünə məxsus canlı dil xüsusiyyətləridir.

Nəzərə alaq ki, hər iki şeir bizə müasir əlifbamız və əsasən müasir ədəbi imlamızla təqdim olunub. Buna görə bir sıra sözlərin əslində necə olduğunu və ya ola biləcəyini "bərpa etmək" lazım gəlir. Qədim dövrlərin, habelə XII-XIII əsrlərin özünəməxsus, müəyyən şəklə düşmüş elə ümumi dil xüsusiyyətləri var ki, hər vəziyyətdə onu bərpa etmək mümkündür. Məs.: Həsənoğlunun birinci şeirindəki "könlümü", "üz", "səninlə", "qılır", "sənə", "içdiyim" sözlərinin əslində "koŋlımı" // "köŋlümi", "yüz", "sənüŋlə", "qılur", "saŋa" "içdigim" // "içdügim" yazıldığına şəkk etmək olmaz. Eyni fikri ikinci yeni şerdəki bir sıra sözlər haqqında da demək

olar. Yenə də şübhə etmirik ki, yeni şeirdəki *sana, könlü, sirrini, eylədin, qapında, itlərinlə, gömün* sözlərinin *n* səsləri sağır nundur. Yaxud, "Qoyma yürəkdə yana..." ifadəsi "Qoma yürəkdə yana...", yaxud da "oldu", "oğlu" sözləri damaq ahəngilə "oldı", "oğlı" şəkillərində olmalıdır. Şeirdəki ədəbi zövqlə deyilmiş fikirlər əsl sənətkar qələminin məhsuludur; odur ki, təbii və real görünür: "Gəl ey yüzi ağım", "Əritdin odlara yağım", "And içərəm", "Qoyma yürəkdə yana dağım", "Baqa dursun yara" və h.b.

Həsənoğlunun bu ikicə şeirî də müəllifinin ustad sənətkar olduğunu sübut etməkdədir. Lakin bu şeirlərlə şairin dil və üslub xüsusiyyətlərini müəyyənləşdirmək o qədər də asan deyil. Bununla belə, yazılı poeziya dilimizin XIII əsrin sonlarındakı vəziyyətini təsəvvür etmək üçün bu iki şeir də az söz demir. Son beytlərdəki Həsənoğlu imzası, şairin bu cür təxəllüs seçməsi də əbəs deyildir. Belə ad və təxəllüslərə o dövrlərdə çox az-az təsadüf edilirdi. Halbuki belə adlar və əsil-nəcabətlər bir neçə əsr əvvəl "Dədə Qorqud"da çox işlənmişdi. Əli "Qisseyi-Yusif" poemasında məsələni problem şəklinə qaldırmışdı və s. Görünür, qədim xəlqi ənənələr ad, təxəllüs seçməkdə də bərpa edilirdi...

Beləliklə, biz XII-XIII əsrlər ədəbi dilimizin mühüm əlamətlərni izlədik. "Qisseyi-Yusif", "Əhməd Hərami dastanı" və Həsənoğlunun iki şeirinin dili XII-XIII əsrlər yazılı ədəbi dilimizin ümumi mənzərəsini canlandıra bilir. İctimai-siyasi şəraitlə əlaqədar Azərbaycan ədəbi dilinin rəsmi imkanları daralsa da, canlı xalq dili öz daxili aləmində yaşayırdı və inkişafını davam etdirməkdə idi, onun zənginliyi bu və ya başqa şəkildə üzə çıxır və çıxarılırdı.

Beləliklə, Əlinin "Qisseyi-Yusif" poeması, müəllifi hələlik məlum olmayan "Əhməd Hərami dastanı" və Həsənoğlunun iki şeiri Azərbaycan şeirində heca ölçüsü və əruz "üslubunun" formalaşıb poetik ənənəyə çevrildiyini təsdiq edir. Buna görə, "Nəsimiyə qədərki dövrdə hələ əruz poetik üslubu tam formalaşmamış, poetik ənənə təşəkkül tapmamışdı - deyən müəlliflər yanılırlar" (8a, s.167)".

Beləliklə, XII-XIII əsrlər, dövrün mürəkkəb şəraiti və ziddiyyətlərinə baxmayaraq, növbəti dövrlər üçün güclü zəmin hazırlamışdı. Azərbaycan yazılı ədəbi dili xeyli şaxələnmiş: canlı dil elmi-qrammatik təhlil obyekti olmuş, onun şeir, poema dili, üslubu sahələri yaranmış və gələcək inkişafının əsas xətti müəyyən edilmişdir.

"Orxon-Yenisey", "Dədə Qorqud", "Divanü-lüğat-it-türk" kimi dünya şöhrətli kitabələri yaratmış bir dilin XII-XIII əsrləri daha zəngin və çoxcəhətli olmalı idi; türk dillərinin, habelə Azərbaycan dilinin inkişaf yolu həmin əsrlərdə əvvəlki səviyyəsini xeyli ötə bilərdi... Növbəti əsrdə milli dil sərvətimizin özünəqədərki nailiyyətlərini hərtərəfli mənimsəyib "ənəlhəq" zirvəsinə yüksələn Nəsimi ədəbi dilimizi də klassik səviyyəyə qaldırdı, ana dilində klassik poeziya yaratdı, Azərbaycan - oğuz ədəbi dilinin inkişafı tarixində yeni dövr - öz əsasını uzaq keçmişlərdən ala-ala gəlib zirvəyə yüksələn klassik dövr başlandı. Azərbaycan dili öz inkişafının əsl milli yoluna düşdü; biri digərini tamamlayan, bununla yanaşı tam orijinal dili və üslubu ilə seçilən zirvələr, ədəbi şəxsiyyətlər biri-birini əvəz etdi...

Bu, artıq tam yeni mərhələ - Azərbaycan dilinin inkişafı tarixində Nəsimidən başlanıb əsası qoyulan klassik dövr idi.

BƏZİ GÖSTƏRİCİLƏR

Tədqiqat bu ilk və əsas mənbələr üzərində aparılmışdır.

1. "Orxon-Yenisey" kitabələrilə əlaqədar tədqiqatda S.Y.Malovun toplayıb çap etdirdiyi üç kitab əsas götürülmüş və mənbə göstəriciləri aşağıdakı şəkillərdə verilmişdir.

a) misalların sonunda "Gültəkin" və "Tonyukuk" kitabələri "Kt". və "Tk". şəklində ixtisarla verilmiş; bunlara əlavə edilən rəqəmlər həmin kitabələrin çap olunduğu kitabın (С.Е.Малов. Памятники древнетюркской письменности. М.. - L., 1951) səhifələridir;

b) misalların sonunda "Yenisey" kitabələri "Yn." şəklində ixtisarla verilmiş; buna əlavə edilən rəqəmlər həmin kitabələrin çap olunduğu kitabın (С.Е.Малов. Енисеиская письменность тюрков. М.-Л., 1952) səhifələridir;

c) misalların sonunda "Orxon" kitabələri "Or." şəklində ixtisarla verilmiş; buna əlavə edilən rəqəmlər həmin kitabələrin çap olunduğu kitabın (С.Е.Малов. Памятники древнетюркской письменности Монголии и Киргизии. М.-Л., 1959) səhifələridir.

İstifadə olunmuş fakt materialını - misal gətirilən söz, ifadə, cümlə və mətnləri kitabələrin oxunulduğu məlum "transkripsiyalarla" yox, müasir əlifbamızla verməyi məqsədə daha müvafiq saymışıq.

2. "Kitabi-Dədə Qorqud"la əlaqədar tədqiqatda "Drezden" əlyazma nüsxəsi (Muharrem Ergin. Dede Korkut kitabı, I, giriş-metin-faksimile, Ankara, 1958) mətnin əslindəki nömrələr verilmiş-

dir. "Divanü lüğat-it-türk"lə əlaqədar tədqiqatda həmin divanın türkcəyə tərcüməsi (Divanı luğat-it-türk, terçümesi, Ankara, I (1939), II (1940), III (1941) əsas götürülmüş; misalların sonundakı rəqəmlər müvafiq nüsxə, cildlər və onun səhifələridir.

3. XII-XIII əsrlərlə əlaqədar tədqiqatda şair Əlinin Respublika Əlyazmaları fondunda saxlanılan B-3422 nömrəli əlyazması, İbn Mühənnanın "كتاب ترجمان فارسی و ترکی و مغولی" əsərinin P.M.Melioranski tərəfindən tərcüməsi və şərhindən ibarət olan "Араб филолог о турецком языке" (SPb., 1900) kitabı və "Dastani Ahmet Harami" (İstanbul, 1946) əsas götürülmüşdür; misal və mətnlərin sonundakı rəqəmlər həmin əlyazma və kitabların vərəq və səhifələridir.

4. Başqa məxəzlər - tədqiqat əsərləri, kitablar, məcmuələr, qəzetlər və s.-lə əlaqədar mənbələr kitabın sonunda sıra №-si ilə verilir, bu nömrələrə səhifələr əlavə edilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. **Azərbaycan tarixi,** 1 c., B., 1958.

2. **Azərbaycan ədəbiyyatı tarixi,** 1 c., B., 1960.

2a. **Azərbaycan E.A. Əlyazmaları İnstitutu. M.F.Axundovun arxivi,** 2. Q-17 / 607, inv. №101, Çəmənzəminlinin arxivi 26, Q-13 (1269).

3. **Azərbaycan məhəbbət dastanları,** B., 1979.

4. **Azərbaycan SSR EA Məruzələr,** XXX c., B., 1974.

5. **Azərbaycan SSR inzibati-ərazi bölgüsü,** B., 1968.

6. **Azərbaycanın, tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı,** B., 1974.

7. **Azərli M.İ.** - IX əsrin ərəbdilli mənbəyi qədim Azərbaycan haqqında. - Azərbaycan SSR EA Məruzələri, - XXXX c., №8, 1974.

8. **Araslı H.** - Nizamidə xalq sözləri, xalq ifadə və zərb-məsəlləri, - "SSRİ EA Azərbaycan filialının xəbərləri", 1942, №3.

8a. **Aslanov V.** - Nəsiminin dili haqqında bəzi qeydlər - "İmadəddin Nəsimi", məqalələr məcmuəsi. B. 1943.

9. **Atalar sözü,** B. 1949

10. **Axunzadə M.F.** - Təmsilat, T., 1859.

10a. **Axundov M.F.** - Əsərləri, I c., B., 1958.

10b. **Axundov M.F.** - Əsərləri, II c., B., 1951

10c. **Axundov M.F.** - Əsərləri, III c., B., 1955.

11. **Babayev İ.,** - Azərbaycan şifahi xalq ədəbiyyatı, "Maarif" nəşr., B., 1970.

12. **Bayatılar**, B., 1956.
13. **Bakıxanov A.** - Gülistani-İrəm, B., 1951.
14. **Belinski V.Q.** - Rus ədəbiyyatı klassikləri haqqında, B., 1954.
15. **"Vəhid" məc.,** Tehran, 1968, №3.
16. **Vəlixanlı N.M.** - IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında, B., 1974.
16a. **Vaqif M.P.** - Seçilmiş əsərləri, B.1952.
17. **Vurğun S.** - Əsərləri, III c., B., 1961.
18. **Vurğun S.** - Əsərləri, V c., B., 1972.
18a. **Qəmbərli M.H.** - Ərəb ədəbi-bədii qaynaqlarında türk, B., 1998.
19. **Dəmirçizadə Ə.M.** - Azərbaycan ədəbi dilinin inkişaf yolları, B., 1958.
20. **Dəmirçizadə Ə.M.** - Azərbaycan ədəbi dilinin tarixi, "Maarif" nəşr., B., 1979.
21. **Dəmirçizadə Ə.M.** - "Kitabi-Dədə Qorqud" dastanlarının dili, B., 1959.
22. **Dəmirçizadə Ə.M.** - Milli dillərin əmələ gəlməsi haqqında, -"Təbliğatçı", 1952, №6.
22a. **Əbülfəz Hüseyni.** Nizaminin ana dilində şeirləri. Azərbaycan müəllimi, 7 oktyabr, 1981.
22b. **"Ədəbiyyat və incəsənət",** 7 iyun 1985.
22c. **Əbilqazi Bahadır xan** - Şəcərəyi Tərakimə, 2002.
23. **Əlibəyzadə E.M.** - "Kitabi-Dədə Qorqud"un tarixinə dair, "Ədəbiyyat və incəsənət", 13 noyabr 1971.
24. **Əlibəyzadə E.M.** - "Dədə Qorqud"dakı toponimlər nə deyir, - "Elm və həyat", 1976, №6.
25. **Əlibəyzadə E.M.** - Dünya elmi fikri "Dədə Qorqud"un tarixi haqqında - "Elm və həyat", 1980, №7.
26. **Əlibəyzadə E.M.** - Nizaminin ana dilində yazan müasiri, - "Ulduz", 1980, №11.

27. **Əlibəyzadə E.M.** - Nizami və tariximizin açılmamış səhifələri, - "Azərbaycan müəllimi", 5-7 avqust, 1981.

28. **Əlibəyzadə E.M.** - Nizamini yetirən xəlqi-milli zəmin, - "Kitablar aləmində", 1981, №3.

29. **Əlibəyzadə E.M.** - Tomiris ana, "Elm və həyat", 1982, №9.

30. **Əlibəyzadə E.M.** - Ədəbi əsərdə tarixi təhrifə qarşı, - "Ulduz", 1982, №1.

31. **Əlibəyzadə E.M.** - Ədəbi şəxsiyyət və dil, B., 1982.

32. **Əlibəyzadə E.M.** - "Dədə Qorqud kitabı"nda yad "qatlar", -"Kitablar aləmində", 1983, №4.

33. **Əlibəyzadə E.M.** - "Qisseyi-Yusif" və Nizami ənənələrinin davamı, - "Azərbaycan müəllimi", 14 oktyabr, 1983.

34. **Əlibəyzadə E.M.** - Orxon-Yenisey yazısının mənşəyi, - "Elm və həyat", 1984, №1.

35. **Əlibəyzadə E.M.** - "Dədə Qorqud" qədim Azərbaycan kitabalərindəndir, - "Kitablar aləmində", 1984, №2.

36. **Əlibəyzadə E.M.** - Azərbaycan bədii söz sənətinin qaynaqları, - "Azərbaycan müəllimi", 17 avqust, 1984.

37. **Əlibəyzadə E.M.** - Nizami və tarixilik, - "Kitablar aləmində", 1985, №1.

38. **Əli - "Qisseyi-Yusif"** - Azərbaycan Elmlər Akademiyası Şərq əlyazmalar sektoru, əlyazma, inv. №3422.

39. **Əliyarov S.S.** - "İskəndərnamə" tarixi baxımdan, - "Azərbaycan", 1983, №8.

40. **Əmin Abid** - Əşirət dövründəki ədəbiyyatımıza aid vəsiqələr, - "Azərbaycanı öyrənmə yolu" 1980, №3.

41. **Əfəndiyev P.** - Azərbaycan şifahi xalq ədəbiyyatı, "Maarif" nəşr., B., 1981.

41a. **Zakir Qasımbəy** - Seçilmiş əsərləri, B.1957.

42. **Zeynalov F.R.** - Türk dillərinin müqayisəli qrammatikası (oçerklər), ADU nəşri, B., 1959.

43. **Zeynalov F.R.** - Altayşünasların ali məclisi, - "Ədəbiyyat və incəsənət", 25 oktyabr, 1959.

44. **Zeynalov F.R.** - Mahmud Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri, - "ADU-nin əsərləri" (Dil və ədəb. seriyası), 1971, №5.

45. **Zeynalov F.R.** - Həsənoğlunun azərbaycanca yeni şeri, - "Ədəbiyyat və incəsənət", 1972, №40.

46. **Zeynalov F.R.** - Türk dillərinin müqayisəli qrammatikası (adlar), 1 h. ADU nəşri, B., 1974.

47. **Zeynalov F.R.** - Türk dillərinin müqayisəli qrammatikası (fellər), II, h., ADU nəşri, B., 1975.

48. **Zeynalov F.R.** - "Kitabi-Dədə Qorqud" və dünya şərqşünaslığı, - "Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirdiyinin elmi əsərləri" (Dil və ədəbiyyat seriyası), 1976, №4.

49. **Zeynalov F.R.** - Oğuz-Səlcuq abidələri və Azərbaycan dili. - "Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili nazirliyinin elmi əsərləri" (Dil və ədəbiyyat seriyası), 1979, №2.

50. **Zeynalov F.R.** - Qədim türk yazılı abidələri, ADU nəşri, B., 1980.

51. **Zeynalov F.R.** - Türkologiyanın əsasları, B., 1981.

51a. **Ziya Göyalp** - Türkçülüyün əsasları, B, 1991.

52. **Zərinzadə H.** - Fars dilində Azərbaycan sözləri, B., 1962.

52a. **"Ziyayi Qafqaziyyə"**, 1883, №10, 1984, №2.

53. **İbn əl-Əsir.** - Əl-Kamil fi-t-tarix, B., 1959.

53a. **"İrşad"**, 1906, №108.

54. **Yanpolski Z.** - Azərbaycan sahəsindəki türklərin qədimliyi haqqında qədim sənədlər, - Azərbaycan SSR EA Tarix İnstitutu (tezislər), B., 1955.

54a. **"Kəşkül, T.** 1884, №1, 1887, №44, 1890, №115.

55. **Kitabi-Dədə Qorqud,** B., 1962.

55a. **Köçərli Fridun bəy** - Azərbaycan ədəbiyyatı tarixi, materialları, I c., I h. B. 1925.

55b. **Köçərli Fribun bəy** - Seçilmiş əsərləri, B., 1963.

56. **Mahmudov M.** - Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər), B., 1983.

56a. **Məmmədquluzadə C.** - Seçilmiş əsərləri, II c., B., 1954.

57. **Məmmədəliyev A.M.** - Quranda ümumtürk mənşəli sözlər. AFM, B., 1983.

58. **Məmmədov A.M.** - Azərbaycan dilinin erkən tarixinə dair materiallar, AFM, B., 1983.

58a. **Məmmədov M.** - Hoppopnamənin nəşri tarixindən - "Sabir" (məqalələr məcmuəsi), B., 1962.

59. **Məmmədov N.N.** - Marksizm-leninizm klassikləri milli dillərin əmələ gəlməsi haqqında, - "Ədəbiyyat və dil İnstitutunun əsərləri", IV c., B., 1954.

59a. **Məhəmməd Füzuli** - Əsərlər, B., 1944,...

60. **Məmmədhüseyn Şəhriyar** - Aman ayrılıq, B., 1981.

60a. **Mir Cəlal Paşayev** - Füzuli sənətkarlığı, B., 1958.

61. **Mirzəzadə H.** - Azərbaycan dilinin tarixi morfologiyası, B., 1962.

61a. **"Molla Nəsrəddin"**, 1906, 1907,...

61b. **Müasirləri Sabir haqqında,** B., 1962.

62. **Mümtaz Salman** - "Bayat" kəlməsi haqqında qeydlər, Rəf, arx-38, Q-32/570.

63. **Mümtaz Salman** - Azərbaycan bayatılarından yetişən ozan, alim, şair və saz aşıqları, RƏF, arx... 38, Q-8/183.

63a. **Nəsimi** - Divan (əlyazma) RƏF, inv. №5225.

64. **Nəsimi** - Seçilmiş əsərləri, B., 1973.

64a. **Nəsimi divanı, Əxtər mətbəəsi,** 1298 (1880).

65. **Nəsimi** - Məqalələr məcmuəsi, B., 1973.

65a. **Ögəl B.** - Böyük Hun İmperatorluğu tarixi, II, Ankara, 1931.

66. **Səid Nəfisi** - Azərbaycan qəhrəmanı Babək Xürrəmdin, B., 1970.

67. **Seyidov M.** - Dədə Qorqud boylarının mənşəyinə dair, - "Azərbaycan", 1968, №6.

68. **Seyidov M.** - Azərbaycan mifik təfəkkürünün əsasları, "Maarif" nəşr, B., 1983.

69. **Səid Əhməd Kəsrəvi** - Azəri ya zəbane-bastane-Azərbayqan, Tehran, 1304.

70. **Səfərli Ə., Yusif X.** - Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, "Maarif" nəşr, B., 1982.

71. **Sultanlı Əli** - Dədə Qorqud haqqında qeydlər, "Məqalələr", B., 1971.

71a. **Tariyel V.N.** - Əcdad, Sute, VA.ABŞ, 1997

72. **Təhmasib M.H.** - "Dədə Qorqud" boyları haqqında, - "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqatlar", B., 1961.

73. **Təhmasib M.H.** - Azərbaycan xalq dastandarı, B., 1972.

73a. **"Tərəqqi"**, 1909, №47.

74. **Rusca-Azərbaycanca lüğət** (bircildlik), B., 1941.

75. **Rusca-Azərbaycanca lüğət** (ikicildlik), B., I c., 1956, II c., 1959.

76. **Xətai** - Dəhnamə, B., 1959.

77. **Hacıyev T.İ.** - Azərbaycan ədəbi dili tarixi, ADU nəşr., B., 1976.

78. **Hacıyev T.İ., Vəliyev K.N.** - Azərbaycan dili tarixi, "Maarif" nəşr, B., 1983.

79. **Hacıyev T.İ.** - "Açılan düyünlər, yoxsa,.. - "Ədəb. və incəsənət", 30 dekabr, 1983.

80. **Hüseyni Ə.** - Gəmiqaya rəsmləri, - "Qobustan", 1973, №1.

80a. **Cabbarlı C.** - Əsərləri, II c. B., 1957.

81. **Cahangirov M.P.** - Azərbaycan milli ədəbi dilinin təşəkkülü, "Elm" nəşr., B., 1978.

82. **Cəmaləddin Fəqih** - Aturpatakan və nehzete ədəbi, Tehran, 1946.

83. **Cəmşidov Ş.** - "Kitabi-Dədə Qorqud"u vərəqlərkən, B., 1969.

84. **Cəmşidov Ş.** - Kitabi-Dədə Qorqud", "Elm" nəşr., B., 1977.

85. **Cəmşidov Ş.** - "Kitabi-Dədə Qorqud" qəhrəmanlarının mərkəzi yaşayış yerləri haqqında, - "Azərbaycan SSR EA RƏF Əsərləri", 1 c., 1961.

86. **Cəmşidov Ş.** - "Dədə Qorqud boylarında təsvir edilən coğrafi dairənin iki əsas mərkəzi, - "Azərbaycan SSR EA xəbərləri" (Ədəbiyyat, dil və incəsənət seriyası), №3, 1968.

87. **Cəfərov C.İ.** - "Gəncə" sözünün etimologiyası, - "Nizami və müasirlik", B., 1982.

87a. **"Şərqi-rus"**, 1904, №260, 1908, №38.

88. **Şükürov Ə.C., Məhərrəmov A.M.** - Qədim türk yazılı abidələrinin dili, B., 1976.

88a. **"Həyat"**, 1906, №9, 19, 120.

II

89. **Айдаров Р.**- Язык Орхонских памятников древнетюркской письменности VIII века, Алма-Ата, 1971.

90. **Алиев И.** - История Мидии, Б., 1960.

91. **Алиев К.** - Племена древней Кавказской Албании, Л., 1961.

92. **Алиев К.** - Топонимика об этногенезе на территории Азербайджана, Б., 1969.

93. **Алексеев В.П.** - Происхождение народов Кавказа, М., 1974.

94. **Алияров С.С.** - Об этногенезе азербайджанского народа, - К проблеме этногенеза азербайджанского народа", Б., 1984.

95. **Алтайские этимологии**, Л., 1984.

95a. **Акты Кавказской Археографической Комиссии**, Т. 1885, том X.

96. **Аманжолов А.С.** - К генезису тюркский рун, - ВЯ., М., 1978, №2.

97. **Аманжолов А.С.** - Еще раз об иртышской рунической надписи, - "Вестник АН Казахской ССР", 1967, 9 (269).

98. **Аманжолов А.С.** - Руноподобная надпись из сакского захоронения близ Алма-Аты, - "Вестник АН Казахской ССР", 1971, №12.

99. **Аммиан Марцелли** - История. Перев. с латын. Ю.А.Кулаковского, вып. III, Киев, 1908, кн. XXXI.

100. **Араб филолог о турецком языке, арабский текст издал и снабдил переводом и введением П.М.Мелиоранский,** СПб,, 1900.

101. **Араслы Г.** - Мотивы азербайджанского народного эпоса в "Деде Коркут" и творчестве Низами, М., 1960.

102. **Аристов Н.А.** - Заметки об этническом составе тюркских племен и народностей и сведения об их численности, "Живая старина", 1896, вып. III-IV.

103. **Армянская география VII в.,** СПб., 1877.

104. **Арриан Флавий** - Поход Александра, - М-Л., 1962.

105. **Артамонов М.И.** - Вопросы истории скифов и советской науке, ВДИ, 1947, №3.

106. **Артамонов М.И.** - Очерки древнеишей истории хазар, Л., 1936.

107. **Артамонов М.И.** - К вопросу о происхождении скифов, ВДИ, 1950, №2.

107а. **Артамонов М.И.** - История хазар, "Наука", М. 1976.

108. **Артамонов М.И.** - История хазар, Л., 1962.

109. **Артамонов М.И.** - Сокровища саков, М., 1973.

110. **Ашурбейли С.Б.** - Государство Ширваншахов (VI-XVI вв.), Б., 1983.

111. **Ашурбейли С.Б.** - Топонимика Апшерона в связи с вопросом этногенеза азербайджанцев, - "Изв. АН Азерб. ССР", сер. Истор. философ. и права 1967, №2.

112. **Ахмед ибн А"сам ал-Куфи** - Книга завоеваний. Б., 1981.

112а. **Балли Ш.** - Французская стилистика, М.1961.

113. **Барашков И.** - "... Точку ставить рано", - "Техника молодежи" 1976, №5.

114. **Бартольд В.В.** - История турецко-монгольских народов, Ташкен 1928.

115. **Бартольд В.В.** - Книга моего деде Коркута, М-Л., 1962.

116. **Бартольд В.В.** - Сочинения, т.П., вып. 1. М., 1963.

117. **Бартольд В.В,** - Сочинения, т. Ш., М., 1963.

117а. **Бартольд В.В.** - Турецкий эпос и Кавказ, М-Л., 1962.

118. **Бартольд В.В.** - Сочинения, т.V., М., 1968.

119. **Баскаков Н.А.** - Тюркские языки, М., 1960.

120. **Баскаков Н.А.** - Алтайская семья языков и ее изучение, М., 1981.

121. **Баскаков Н.А.** - Введение и изучение тюркских языков, М., 1969.

122. **Баскаков Н.А.** - Русские фамилии тюркского происхождения, М., 1979.

123. **Батманов И.Н.** - Источники формирования тюркских языков Южной Сибири и Средней Азии. Фрунзе, 1966.

124. **Бах Адольф** - История немецкого языка, М., 1956.

124а. **Белитски М.** - Забытый мир Шумеров, М. 1983.

125. **Бернштам А.Н.** - Очерк истории Гуннов, Л., 1956.

126. **Бертельс Е.А.** - Роман об Александре и его главные версии на Восток, М-Л., 1948.

127. **Борковский В.И.,** - Историческая грамматика русского языка, М., 1963.

128. **Борухович В.Г.** - Научное и литературное значение труды Геродота, В кн.: Геродот, История, Л., 1972.

128а. **Бобровков А.К.** - Лексика среднеазиатского тефсира XII-XIII вв., М.1963.

129. **Брагинский В.И.** - Сокровища скифских царей, М., 1967.

130. **Бруннер К.** - История английского языка, т. 1-2, М., 1955, 1956.

131. **Буганаев В.Я.** - Культ богини Умай у хакасов, В кн.: Этнография народов СССР, Новосибирск, 1984.

132. **Буниятов З.** - Обзор источников по истории Азербайджана, Б., 1964.

133. **Буниятов З.** - Азербайджан в VII-IX вв. Б., 1965.

134. **Буслаев Ф.И.** - Историческая грамматика русского языка, М., 1959.

135. **Васильев Д.Д.** - Корпус тюркских рунических памятников бассейна Енисея, Л. 1983.

136. **Велиев-Бахарлы** - Азербайджан, Б., 1921.

137. **Виноградов В.В.** - Очерки по истории русского литературного языка XVII-XIX вв., М. 1935.

137а. **Западная Азия в древнее времени** - История человечества, т. III, СПб. 1903.

138. **Виноградов В.В.**- Стиль Пушкина, М., 1941.

139. **Виноградов В.В.** - О языке художественной литературы, М., 1959.

139а. **Виноградов В.В.** - Избранные, "Наука", М., 1978.

140. **Виноградов В.В.** - Стилистика, М., 1963.

141. **Виноградов В.В.** - Избранные труды. История русского литературного языка, изд. "Наука", М., 1978.

142. **Вопросы истории Кавказской Албании,** Б., 1968.

143. **Вопросы формировании и развития национальных языков,** - "Труды Инст. языкознания", Т.Х., М., 1966.

144. **Восточный Туркестан и Средняя Азия,** М., 1984.

144а. **Булли Л.** - Ур Халдеев, М., 1961.

145. **Гафуров Б.Г., Цибукидис Д.И.** - Александр Македонский и Восток, изд. "Наука", М., 1980.

146. **Гаджиева Н.З.** - Тюркоязычные ареалы Кавказа, М., 1979.

147. **Гиляревский Р.С., Гривнин В.С.** - Определитель языков мира по письменностям, М., 1960.

148. **Генко А.Н.** - Арабский язык и кавказоведения, "ТИВ" АН СССР, вып. XXXVI, М-Л., 1941.

149. **Геродот** - История, изд. "Наука", Л., 1972.

150. **Геродот** - История, т. 1, П., М., 1888.

151. **Граков Б.Н.** - Скифы, М., 1971.

152. **Грозный Б.** - Древнейшие судьбы Предней Азии, ВДИ, 1940, №3-4.

153. **Гусейнов Р.А.** - Сирийскик источники XII-XIII вв. об Азербайджане, Б., 1969.

154. **Гусейнов Р.А.** - Тюркские этнические группы XI-XII вв., в Закавказье, - "ТС".

155. **Гусейнов Р.А.** - О тюрках IV-VII вв в зоне Закавказско Албании, ВИКА, Б., 1962.

156. **Гумилев Л.Н.** - Древние тюрки, М., 1967.

157. **Гумилев Л.Н.** - Открытые Хазарии, М., 1966.

158. **Дискуссионные проблемы отесественной скифологии.** - "Народы Азии и Африки", 1980, №5-6.

158а. **Демир Ф.** - Вавилон и Библия, СПб. 1911.

159. **Джафарзаде И.М.** - Историко-археологический очерк старой Гянжи, Б., 1949.

160. **Дорожник Александра,** 95 (см.: Древные авторы о Средней Азии, Ташкент, 1940).

161. **Дренетюркский словарь,** Л., 1969.

162. **Древные авторы о средной Азии,** Ташкент, 1940.

163. **Древный Восток и мировая культура,** М., 1981.

164. **Дьяконов И.М.** - История Мидии, М-Л., 1966.

165. **Дьяконов И.М.** - Языки древней Передней Азии, М., 1967.

166. **Дыренкова Н.** - Умай в культе турецких племен, - "КПВ", Б., 1928.

167. **Еремеев Д.Е.** - Этногенез турок, М., 1971.

168. **Еремеев Д.Е.** - Роль качевников и этнической истории, - В кн.: Расы и народы, 1982, Т.12.

169. **Ефимов А.И.** - История русского литературного языка, М., 1956.

170. **Ефимов А.И.** - Стилистика художественной речи, М., 1961.

171. **Жирмунский Б.А.** - История немецкого языка, М., 1956.

172а. **Зороастийская Мифология,** Санкт-Пётербург - Москва, 1998.

172. **Жирмунский В.М,** - Огузский героический эпос и "Книга Коркута" - "Книга моего деда Коркута", М-Л., 1962.

173. **Ибн ал-Асир** - Из тарих-ал-Камил, - материалы по истории Азербайджана", Б., 1940.

174. **Известия о хазарах, буртасах, болгарах, мадьярах, славянах и русах Абу Али-Ахмеда бен-Омара Ибн Даста,** пер. Д.А.Хвалсана, СПб., 1869.

175. **Из соч. Якуби** - "История", текст и перевод, Б., 1927.

176. **Извлечение из географического словаря Якута Хамави,** - "Аз.ССР ЕА Тарих Институтунун архиви", инв. 505.

177. **Ильин Б.А.** - История английского языка, М., 1958.

178. **Иностранцев К.** - Коркут в истории и легенде, ЗВО, т. XX, СПб. 1912.

179. **Иностранцев К.** - Хунны и гунны, Л., 1926.

180. **История агван Моисея Каганкатваци,** писателя X в. пер. К Патканьяна, СПб., 1861.

181. **История Армении фавстаса Бузанда.** Памятники древнеармянской литературы, т.1. пер. М.А.Геоворгяна, Е., 1958.

182. **История халифов вардапета Геванда,** писателя VIII в., пер. К.Патканьяна, СПб., 1862.

183. **История человечества,** СПб., т.П.

184. **Источники грузинских летописей** (перевод с грузинского Е.С.Такайшвили), - СМОМПК, вып. XXVIII Т.1900.

185. **Кавказ и Средняя Азия в древности и средневековые,** М., 1981.

186. **Кикнадзе А.** - О чем молчат языки гор, - "Техника молодежи", 1975, №6.

187. **Кикнадзе А.** - Письмо доставленное через 3479 лет, - "Техника молодежи", 1976, №5.

188. **Климов Г.А.** - Вопросы дешифровки агванского (Кавказско-албанского) письма, ТДП, М., 1970.

189. **Кляшторный С.Г.** - Древнетюркские рунические памятники как источников по истории Средней Азии, Изд., "Наука", М., 1964.

190. **Коллингвуд Р.Дж.** - Идея истории... "Наука", М., 1980.

191. **Кондратев В.Г.** - Грамматический строй языка памятников древнетюркской письменности VIII-XI вв., Л., 1981.

191а. **Кочарлинский Ф.** - Литература Азербайджанских татар, Тифлис, 1903.

191б. **Комедии Мирзы ФетАли Ахундова,** Тифлис, 1853.

192. **Кононов А.Н.** - Грамматика языка тюркских рунических памятников VII-IX вв., Л., 1980.

193. **Кононов А.Н.** - История изучения тюркских языков в России, Л., 1982.

194. **Кононов А.Н.** - Основные этапы формирования турецкого письменного-литературного языка, - ВЯ., №4, 1977.

194а. **Кононов А.Н.** - Писменного лит. языка. ВЯ, М. 1977, №4.

195. **Костюхин Е.А.** - Александр Македонский в литературной и фольклорной традиции, М., 1972.

196. **Кормушин И.С.** - К основным понятиям тюркской рунической полеографии, СТ., 1975, №2.

197. **Корш Ф.Е.** - Древнейший народный стих турецких племен, - ЗВОРАО, т. XIX, вып. II-III, СПб., 1909.

198. **Котвич В.** - Исследования по алтайским языкам. М., 1967.

198а. **Косидовский З.** - Библийские сказания, изд. Пол. литература. М. 1975.

199. **Кузнецов П.С.** - Историческая грамматика русского языка (морфология), М., 1955.

199а. **Крамер С.Н.** - История начинается в Шумере, "Наука", 1965.

200. **Латам Р.Г.** - О раннем водворении в некоторых частях Европы тюркских племен, - ВРГО, СПб., 1854, ч. X., отд. V.

200а. **Лаертский Д.** - О жизни ученых и изречениях знаменитых философов, М. 1979.

201. **Латышев В.В.** - Известия древных писателей о Скифии и Кавказа, БДИ, 1947, №2.

202. **Ленкоранлы З.И.,** - О двух вопросах истории Азербайджана, - Азярб. ССР ЕА Хябярляри", 1973, №7.

203. **Лившиц В.А.** - О происхождении древнетюркской рунической письменности, - ОТ., 1978, №4.

204. **Ломоури Н.Ю., Абуладзе И.А. и Джангидзе В.Т.** - По поводу одной статьи В.Л.Гугасяна, "Изв. АН Грузинской ССР", сер. языка и лит., 1982, №3.

205. **Лермонтов М.Ю.** - Полное собр. соч. т. IV, Л. 1940.

206. **Лянстер А.Ф., Чурсин Г.Ф,** - География Загафказия, М., 1929.

207. **Малов С.Е.** - Памятники древнетюркской письменности. М.-Л., 1951.

208. **Малов С.Е.** - Енирсейская письменности тюрков, М-Л., 1952.

209. **Малов С.Е.** - Древние и новые тюркские языки - ИАН СССР отд. лит. и языка, 1952, т. XI, в.2.

210. **Малов С.Е.** - Ибн-Муханна о турецком языке, - "Записки коллегии востоковед при азиатском музее АН СССР, т. Ш, вып. 2.

211. **Малов С.Е.** - Памятники древнетюркской письменности Монголии и Киргизии, М-Л., 1959.

212. **Мамедов Т.М.** - К вопросы об этническом составе Азербайджана IV-VII вв., - "Дак. АзССР", т, XXXI, 1975.

213. **Маммедов Т.М.** - Албания и Атропатена по древне Армянский источникам, Б., 1977.

214. **Марр Н.Я.** - Избранные работы, т. IV., М., 1937.

215. **Марр Ю.Н.** - Статьи и сообшения, т.П, Академия Наук, М., 1939.

216. **Мелиоранский П.М.** - Об орхонских и енисейских надгробных памятниках с надписями, "ЖМНП, т. ССС XVII, Спб., 1898.

217. **Мелиоранский П.М.** - Памятник в честь Кюлтегина, - "ЗБОРАО, т. ХП, СПб., 1899.

218. **Мелиоранский П.М.** - Араб филолог о турецком языке, СПб., 1900.

219. **Мелиоранский П.М.** - Турецкая наречия и литература, Энциклопедический словарь, изд. Ф.А.Бракгауз, И.А. Ефрон, 67, т. XXXIV, СПб., 1902.

220. **Мельникова Е.А.** - Скандинавские рунические надписи, М., 1977.

221. **Миллер В.** - Экскурс о скифах. - "Уз ШМУ", вып. 8, М., 1887.

222. **Миллер Б.В.** - К вопросу об языке населения Азербайджана до отручения этой области, - "УЗИЭНКНВ, т. 1., 1930.

223. **Миллер Б.В.** - Талышский язык. Изд. АН СССР, М., 1953.

224. **Минорский В.Ф.** - История Ширвана и Дербента X-XI веков, М., 1963.

225. **Мищенко Ф.** - Не в меру строгий суд над Геродотом, Геродот., История, М., 1888.

226. **Моисей Хоренский** - История Армении, М., 1893.

227. **Моллазаде С.М.** - Топонимия северных районов Азербайджана, Б., 1979.

228. **Насилов В.М.** - Язык орхоно-енисейских памятников, М., 1969.

229. **Паул Г.** - Принципы историй языка, М., 1960.

230. **Петрушевский И.Н.** - Ислам в Иране в VII-XV вв., К., 1966.

231. **Пиотровския Б.Б.** - Скифы и Закавказье. ТОВГЭ, т. III; 1940.

232. **Пигулевская Н.В.** - Сирийские источники по истории народов СССР, М., 1941.

232а. **Пигилевская Н.В., Якубовский А.Ю.** - История Ирана с дрефнецших времен до конца XVIII века, изд. Ленинградского университета. 1938.

233. **Плетнева С.А.** - Хазары, изд. "Наука", М., 1976.

234. **Расмтедт Г.И.** - Введение в алтайское языкознание, М., 1957.

235. **Рашид-ад-Дин** - Сборник летописей, т.1, кн.1, М-Л., 1952.

235а. **Редер Д.Г.** - Мифы и ледепды древнего Двуречья, "Наука", 1965.

236. **Руденко С.И.** - Горно-алтайские находки и скифы, М-Л., 1952.

237. **Русские писатели о языке,** Л., 1954.

238. **Сапов В.** - Загадка древных курганов, - "Правда", 1977, №9 (21344).

239. **Севортян Э.В.** - Этимологический словарь тюркских языков, изд. "Наука", М., 1974, 1980,..

239а. **Симокатта Ф.** - История, М., 1970.

240. **Сицилийский Диодор.** - Библиотека, II., 43 (ВДИ, 1947, №4).

241. **Смирнов А.П.** - Скифы, М., 1966.

242. **Смолин В.** - О пёредвижениях геродотовых скифов в Передней Азии, - "УЗКУ", т., 1926.

243. **СМОМПК, вып.** IV, Nbakbc, 1884.

244. **СМОМПК, вып.** XXVIII, 1900.

245. **СМОМПК, вып.** XXIX, Тифлис, 1908.

246. **СМОМПК, вып.** XXVIII, Тифлис, 1908.

247. **Соболевский А.И.** - Русско-скифские этюды, - "ИОРЯС", т. XXVI, 1921.

247а. **Советская тюркология,** B., 1976, №2.

248. **Стеблева И.В.** - Поезия тюрков VI-VIII веков, М., 1965.

249. **Стеблева И.В.** - Развитие тюркских поэтических форм в XI веке, М., 1971.

250. **Страбон - География,** изд. "Наука", 1964.

251. **Сулейменов Олжас** - Иссыкское письмо, - "Комсомольская правда", 31 октября, 1970 г.

252. **Сулейманов Олжас** - Серебрянные письмена золотого воина, - "Техника молодежи", 1971, №7.

253. **Сулейманов Олжас** - Аз и Я, Алма-Ата, 1975.

254. **Сысоев В.М.** - Краткий очерк истории Азербайджана (северного) Б., 1925.

255. **Тагирджанов А.Т.** - Некоторые соображение об этническом происхождении Низами - "Материалы научной конференции", изд "Елм", Б., 1980.

256. **Тагирзаде А.** - Этимология топонима "Мачахы" в свете скифской проблемы, АФМ, Б., 1983.

257. **Тарихи-Дербенднаме,** с 9-ю приложениями, Т., 1898.

258. **Тревер К.В.** - Очерки по истории культуре Кавказской Албании, М-Л., 1959.

259. **Туманский А.Г.** - По поводу "Китаби-Коркуд", - ЗВО, т.IX, СПб. 1890.

260. **Тураев Б.А.** - История древнего Востока, т. 1, Л., 1966.

261. **Фридрих И.** - История письма, М., 1979.

262. **Черных П.Я.** - Историческая грамматика русского языка (краткий очерк), М., 1954.

263. **Шараф-хан Бидлиси** - Шарафнаме, т. 1, М., 1967.

264. **Шелов Д.Б.** - Северное причерноеморье 2000 лет назад. Изд. "Наука", М., 1975.

265. **Ширалиев М.А.** - О диалектной основе азербайджанского национального литературного языка, - "ВЯ" 1958, №1.

266. **Шопен И.** - Новые заметки из древней истории Кавказа и его обитателей, СПб., 1866.

267. **Шостакович Д.** - Отличная композиторская школа, - "Дружба народов", 1957, №11.

268. **Шостакович Д., Виноградов В.** - Музыка Азербайджана, - "Советская культура" 1956, №54.

269. **Шербак А.М.** - Огузнаме, Мухаббатнаме, М., 1959.

269а. **Элизе Реклю.** - Человек и земля, т. I, СПб. 1905.

270. Ямполский З.И. - Об одноименности древнейшего населения Атропатены и Албании, - "Азярб. ССР ЕА Tarix və Fəlsəfə İnstitutunun Əsərləri", B., 1954.

271. **Ямполский З.И.** - Древнейшие сведении о тюрках в зоне Азербайджана, "Уч. зап. АГУ, сер. языка и лит., 1966, №2.

272. **Ямполский З.И.** - Древняя Албания III -1 вв., Б., 1962

272а. **Якубовский А.Ю.** - Китаби Коркут и его значение... - "Книга моего Деда Коркута", М-Л., 1962.

273. **Якут ал Хамави** - Миджам ал булдан (сведений об Азербайджане) Б., "Элм", 1983.

III

274. **Azer Sanan** - İran türkleri, İstanbul, 1942.

275. **Ahmet Cavat** - Alfabenin menşei en eski türk yazısıdır. İstanbul, 1933.

276. **Ahmet Kabaklı** - Türk edebiyyatı, cilt 1, İstanbul, 1967.

277. **Ali Öztürk** - Ötüken türk kitabeleri, İstanbul, 1973.

278. **Andrreasyan H.D.** - Turk tarihine ait Ermeni kaynakları, SÜEFTD, 1949, s.1, №1, 1950, s.1, №2.

279. **Battal Abtullah** - İbnü-Mühenna lüğati, İstanbul, 1934.

280. **Besim Atalay** - Divanü luğat-it-türk, tercümesi, Ankara, I (1939), II (1940), III (1941).

- Divanü lüğat-it-türk dizini, Ankara, 1943.

281. **Dastani-Ahmet Harami,** İstanbul, 1946.

282. **Dede Korkut kitabı,** I, Ankara, 1958.

283. **Boratav Naili** - Dede Korkut hekayelerindeki tarihi olaylar ve kitabın talif tarihi, "Turkiye mecmuesi, 1958, s. VIII.

284. **Edgar Sturtvant** - Eti dili sözlüğü, İstanbul, 1946.

285. **Dedem Korkut kitabı.** Hazırlayanı Orhun Şaik, İstanbul, 1973.

286. **Dilacar A.** - Türk diline genel bir bakış, Ankara, 1964.

287. **Dilacar A.** - Ana dili ilkeleri ve Türkiye dışındakı başlıca uyğulamalar, Ankara, 1978.

288. **Kirzioğlu F.** - Dede Korkut Oğuznameleri, İstanbul, I kitab, 1952.

289. **Körpülü F.** - Kay kabilesi hakkında yeni notlar, Bel., 1944, s. VII, №31.

290. **Körpülü F.** - Oğuz etnolojisine dair tarihi notlar, TM., s. 1, 1925.

291. **Körpülü F.** - Türk edebiyyatında ilk mutasavvuflar,.. Ankara, 1966.

292. **Muharrem Erkin** - Dede Korkut kitabı, I, giriş - metin-faksimile, Ankara, 1958.

293. **Muharrem Erkin** - dede Korkut kitabı, Ankara, 1963.

294. **Muharrem Erkin** - Dede Korkut kitabı, Metnli sözlük, Ankara, 1964.

295. **Muharrem Erkin** - Orhum Abideleri, İstanbul, 1975.

296. **"Yağmur"**, Erzurum, 1977, say 2.

297. **Oğuz dastanı, Reşideddin Oğuznamesi,** İstanbul, 1972.

298. **Orhun Şaik** - Dedem Korkut kitabı, İstanbul, 1973.

299. **Orkun H.N.** - Oquzlara dair Ülkü, c. I-II, Ankara, 1949.

300. **Reşid Rahmat Arat** - Kudadğu bilig, I, metin, Ankara, 1979.

301. **Sayyad Hamza** - Yusif və Zeliha, İstanbul, 1946.

302. **Togan Z.V.** - Umumi Türk tarihine giriş, c. I, İstanbul, 1949.

303. **Türk maşhurları ansiklopedisi,** İstanbul, 1944.

304. **Faruk Sumer** - Dede Korkut kitabına dair bezi mulahizeler, İstanbul, 1952.

305. **Faruk Sumer** - Oquzlar. Ankara Universitesi, Yaymları, 1972.

305a. **Türk dastanları,** II bas, İstanbul, 1976.

306. **Hüseyn Natik Orkun** - eski türk yazıtları, c.3, İstanbul, 1940.

307. **Hüseyin Natik Orkun** - Eski türk yazıtları, c. 4, İstanbul, 1941.

308. **Çagatay Ş.** - Türk lehceleri örnekleri VIII yüzıldan XVIII yüzyıla kadar yazı dili, Ankara, 1950.

309. **Caferoğlu A.** - Türk dili tarihi, İstanbul, 1958.

310. **Caferoğlu A.** - Kaşgarlı Mahmut, İstanbul, 1970.

311. **Şakir Ülkütaşir** - Böyük türk dilcisi Kaşğarlı Mahmut, Ankara, 1972.

312. **"Hurriyet"**, 1 nisan, 1993, sayı 15.

313. **Al hamadani** - Kitab al boldan, Brill, 1885.

314. **Talat Tekin** - Grammer of Orkon Turkic, İndiana University Publication, 1968.

315. **Tomsen V.** - Dechhiffrement des enseription de l'Orkhon et de G'len essei Notice peliminaire, Kobenhavn, 1893-1894.

316. **The Book of Dede Korkut.** University of Texas press, Austin - London, 1972.

317. **The Bok of Dede Korkut.** Pengvin Books, London, 1974.

KİTABIN İÇİNDƏKİLƏR

(I CİLD)

Müəllifdən.....7
Ümumi giriş sözü: Tarix, ədəbi şəxsiyyət və dil.....9
1. Azərbaycan dilinin türk dilləri ailəsində yeri.....10
2. Dil faktı çox böyük qüvvədir.....13
3 Dil və onun tədqiqinin iki əsas istiqaməti.....17
4. Folklor və ədəbi dil.....19
5. Azərbaycan bədii söz sənətinin estetik qaynaqları.....33
6. Ədəbi şəxsiyyətin dili və üslubunun tədqiqi.....47
7. Ədəbi şəxsiyyət, zaman və dil.....51
8. Ədəbi şəxsiyyət, sözə qənaət və yığcamlıq.....63
9. Ədəbi şəxsiyyət və dildə bədii gerçəklik, inandırıcılıq.....69
10. Ədəbi şəxsiyyət, ənənə və dil.....77
11. Ədəbi şəxsiyyət və dildə düzlük-dürüstlük.....85
12. Ədəbi şəxsiyyət və dildə sadəlik, realizm.....88
13 Ədəbi şəxsiyyət və dilin ictimai mövqeyinin müdafiəsi.....96
14. Ədəbi şəxsiyyət və dildə fərdi keyfiyyət – özünəməxsusluq.....104
15. Ədəbi şəxsiyyət və üslublar, janrlar.....116
16. Ədəbi şəxsiyyət və dildə xəlqilik, milli keyfiyyət.....122

AZƏRBAYCAN XALQI VƏ ONUN DİLİNİN SOY KÖKÜ, MƏNŞƏYİ

Məsələnin qoyuluşu.....136

I. BAŞLANĞIC

Qədim mifik təsəvvürlərdə insanın doğuluşu.....140
1). Bəşər övladının doğuluşunda ilk başlanğıc 140
2). Qədim Şumer və Azərbaycan dili bağlılığı 152

II. MİLADDAN ÖNCƏKİ MİNİLLİKDƏ AZƏRBAYCAN XALQI VƏ DİLİ

1). M.ö. Son minillikdə Azərbaycan-türk
dil mədəniyyəti.....159
2). Milli şeir dilimizin hələlik əldə edilən
ilkin nümunələri.....169
3). "İssıq" mədəniyyəti və dili.....180

III. MİLADİ TARİXİN I-VI ƏSRLƏRİ, XALQ VƏ ONUN DİLİ

1). Hunlar, xəzərlər, basillər, bulqarlar, savirlər və b. 190
2). Tuqyu-türk hökmranlığı: aşinalar-tuqyular.....196
3). VII-IX əsrlər: ərəb istilası və onun bəzi nəticələri.....200
4). "Azərbaycan" adı və "Azərbaycan dili" istilahı.....209
a) "Azərbaycan" adı.....209
b) "Azərbaycan dili".....212
5). Azərbaycan ərazisindəki digər qədim dillər.....218
a) "Arran dili".....218

b) "Azəri dili".....220
c) "Udin dili".....225

IV. ORXON-YENİSEY KİTABƏLƏRİ VƏ AZƏRBAYCAN DİLİ

Qədim türk əlifbası.....230
1. Əlifbanın qrafikası.....231
1). Sait səsləri ifadə edən hərflər.....234
2). Samit səsləri ifadə edən hərflər.....235
a) bir işarəli samitlər.....235
b) bir işarəli qoşa samitlər (diflonqlar).....236
c) iki işarəli samitlər.....237
ç) üç və dörd işarəli samitlər.....239
3). Türk dillərinin daxili ahəngi və bunun əlifbada əksi.....243

2. Əlifbanın mənşəyi məsələsi.....249
1). Mixi, yaxud oxşəkilli yazı mədəniyyəti mərhələsi.....256
2). Əlifba-yazıya doğru inkişaf mərhələsi.....260
a) Saxsı lövhə üzərində yazı.....261
b) Keyik rəsmi üzərində yazı.....261
3). "İssıq" yazı mədəniyyəti mərhələsi.....263
4). "Orxon-Yenisey" yazı mədəniyyəti mərhələsi.....266

3. Kitabələrin dil və üslub xüsusiyyətləri.....270
1) Bəzi ümumi müqayisələr.....270
2) "Paralellər" - təkrirlər haqqında.....274
3) Bədii dil xüsusiyyətləri.....276

4. Kitabələrin dilinin fonetik xüsusiyyətləri.....279
1) "t" - "d" əvəzlənməsi.....280

2) “s” - “ş” əvəzlənməsi.....281
3) “p” - “b” əvəzlənməsi.....282
4) “b” - “v” əvəzlənməsi.....282
5) “b” - “m” əvəzlənməsi.....282

5. Kitabələrin lüğət tərkibi.....283
1) Müasir dilimizin sözlərilə səsləşən,
onların eyni olan sözlər.....283
İsimlər.....283
Sifətlər.....285
Saylar.....286
Əvəzliklər.....288
Feillər.....290
Zərflər.....293
2) İstifadədən qalmış, arxaiqləşmiş sözlər.....293
a) tamam arxaiqləşmiş sözlər.....293
b) müəyyən dəyişikliyə məruz qalmış sözlər.....294
c) indi müştərək işlənən sözlər.....294

6. Kitabələrin dilinin sintaktik quruluşu.....294
1) Söz birləşmələri.....295
2) Cümlənin növləri.....296
a) Sadə cümlələr.....297
b) mürəkkəb cümlələr.....299

V. “DƏDƏ QORQUD KİTABI”,
TARİXİ, DİLİ VƏ ÜSLUBU

1. “Dədə Qorqud kitabı” VI-VII əsrlərin abidəsidir.....303
1) “Dədə Qorqud”un yazıya alınma -
“Kitab” bağlanma tarixi.....303
2) “Dədə Qorqud Kitabı”nın dili hansı əsrlərin dilidir?.....311

2. Drezden əlyazma nüsxəsinin imlası.....315
1) Əlifba.....316
2) Sözlərin yazılışı və "Orxon-Yenisey"
kitabələrinin imlası ilə müqayisələr.....332
a) əsl-nəcabətin – ad və familiyaların imlası.....332
b) arxaik sözlərin imlası.....334
c) sağır nun (ŋ)lu sözlərin imlası.....335
ç) dodaq saitli sözlərin damaq saitilə imlası.....337
d) damaq saitli sözlərin dodaq saitilə imlası.....339
e) sözlərin fonetik dəyişikliklərlə imlası.....341
3). Səslərin davamlı tələffüzü və imlası.....344

3. "Dədə Qorqud"un bədii dili və üslubu.....350
1). "Dədə Qorqud"un sözü və sazı-qopuzu.....351
a) sözlə sazın qüdrəti.....351
b) sözlə sazın vəhdəti.....353
2). "Dədə Qorqud" dilinin poetik ahəngi.....359
a) mənsur şeir dili.....360
b) səslərin poeziyası.....363
c) paronim (qoşa) sözlər.....366
3). Bədii təsvir və ifadə vasitələri.....367
a) təcəssümlər.....368
b) epitetlər.....371
c) təşbehlər.....375
ç) mübaliğələr.....376
4). Cümlə quruluşu və intonasiya.....378
a) simmetriya və nizamlı təkrarlar.....379
b) bədii suallar.....383
c) nida-intonasiya cümlələr.....384
5). Frazoloji ifadə və vahidlər.....386
a) folklor-nağıl süjetlərindən gələn ifadə və vahidlər.....386

b) qədim türk kəlamlarından gələn ifadə və vahidlər.....387
c) atalar sözləri, zərb-məsəllər.....391
6). Obrazlı ifadələr.....393
a) xalq danışıq-həyat tərzli ifadələr.....394
b) andlar.....396
c) alqışlar, dua və qarğışlar.....397
ç) ağılar, dildemələr.....398
d) oxşamalar.....399
e) sevinc, razılıq və s. bildirən ifadələr.....399

4. "Dədə Qorqud Kitabı"na artırmalar və ya "yad qatlar".....400
1). Şəxs adları.....400
2). Dini söz və istilahlar.....401
3). İslam dini təsəvvürləri.....402

VI. "DİVANÜ-LUĞAT-İT-TÜRK" ƏSƏRİ VƏ AZƏRBAYCAN DİLİ

1. "Divan"ın yaranma şəraiti.....409
2. "Divan"ın yazıldığı dil və əlifba.....413
3. "Divan"ın sözlüyü.....419
1). Müasir dilimizlə səsləşən sözlər.....420
a) isimlər.....420
b) sifətlər.....423
c) saylar.....425
ç) əvəzliklər.....426
d) feillər.....427
e) zərflər.....434
ə) çoxmənalı sözlər.....434
i) təqlidi sözlər.....437

2). Arxaik sözlər.....438
3). Alınma sözlər haqqında.....440

4. Bəzi sintaktik xüsusiyyətlər.....441
5. Atalar sözləri və məsəllər.....447
6. Bəzi bədii dil xüsusiyyətləri.....452

VII. AZƏRBAYCAN DİLİ YENİ İCTİMAİ-SİYASİ ŞƏRAİTDƏ

1. Dövrün "ədəbi dili" məsələsi.....461
1). Xaqani və Nizaminin ana dili.....464
2). Xaqani və Nizaminin ədəbi-yazı dili.....467

AZƏRBAYCANIN VIII ƏSR ANA DİLLİ KİTABƏLƏRİ

1. Əlinin "Qısseyi Yusif" poeması və onun dili.....472
1). Şair Əli Nizaminin ana dilində yazan müasiridir.....472
2). Əsərin dil və üslubunun bəzi ümumi cizgiləri.....478
3). Dil və nitq-danışıq mədəniyyəti məsələsi.....488
4). Abidənin dilinin tarixiliyi məsələsi.....496
a) unudulub dildən çıxmış sözlər.....498
b) şəkilcə arxaik olan sözlər.....515
c) arxaik şəkilçilər.....519
ç) arxaiq ifadələr.....524
5). Söz yaradıcılığı.....526
6). Canlı dil-danışıq xüsusiyyətləri və imla.....531
a) səs dəyişmələri.....531
b) alınma sözlər və onların dilə-danışığa uyuşması.....540

2. "Əhməd Həramі dastanı" və onun dili.....551
1). "Dastan"ın dil və üslub məziyyətlərinə dair.....552

a) şair, söz və məna aləmi.....552
b) hadisədən hadisəyə keçidlər və bağlama üsulları.....554
2). Bədii təsvir dili.....557
a) surətləri təsvir və təqdimi.....557
b) oğrazlı dil.....559
c) cinas sözlər və qafiyələr.....562
ç) atalar sözü və məsəllər.....565
3). "Dastan"ın canlı dil xüsusiyyətləri.....566
4). "Dastan"ın dilinin lüğət tərkibi.....569
a) müasir dilimizin sözləri.....570
b) qədim sözlər-arxoizmlər.....574
c) alınma sözlər.....586

3. Azərbaycan dilinin tədqiqi.....587
1). "Kitabi-tərcüman"... və onun dil materialı.....587
a) "Kitabi-tərcüman"ın müəllifi, yazıldığı yer və tarix.....587
b) "Kitabi-tərcüman"da Azərbaycan dili qanunauyğunluqlarının tədqiqi 589
Əlifba.....590
Bəzi eyni sözlərin imlasında nəzərə çarpan müxtəliflikl ər.....593
Səslərin fonetik dəyişiklikyə uğraması.....597
2). "Kitabi-tərcüman"ın sözlüyü.....599
a) isimlər.....599
b) sifətlər.....603
c) saylar.....604
ç) əvəzliklər.....605
d) feillər.....606
g) zərflər.....614
Çoxmənalı sözlər.....614
Arxaik sözlər.....615

Alınma sözlər.....616
3). Bəzi sintaktik xüsusiyyətlər.....617
a) "İzafət" - söz birləşmələri.....617
b) cümlələr.....619

4. Həsənoğlunun dili.....620
Bəzi göstəricilər.....626
Müxtəsər kitabiyyat.....628

ELMƏDDİN ƏLİBƏYZADƏ

AZƏRBAYCAN DİLİNİN TARİXİ

(İKİ CİLDDƏ)

I CİLD

Azərbaycan Tərcümə Mərkəzi
Bakı – 2007

———— * ————

BƏDİİ VƏ TEXNİKİ TƏRTİBATÇI REDAKTORU:

Nəriman VEYSƏLOĞLU
(Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi)

———— * ————

KOMPYUTER DİZAYNERİ:

Sahib QƏNİYEV

———— * ————

KORREKTORU:

Leyla BİNNƏTOVA

———— * ————

Yığılmağa verilmişdir: 25.02.2007
Çapa imzalanmışdır: 18.07.2007
Formatı 60x84 1/16.
Mətbəə çap kağızı №1.
Ədəbi qarnitur. Ofset çap üsulu.
Fiziki ç/v 41,5.
Tirajı 500. Sifarişli.
Qiyməti müqavilə ilə

QANUN NƏŞRİYYATI

Bakı, AZ 1001,
Natəvan döngəsi 1.
Tel: 493-84-30; 431-16-62; 437-52-84; 498-76-04
Faks: 493-84-30; 498-76-04
E-mail: ms@azdata.net
Web: qanun.az